# DİN TƏLİMLƏRİ

## (UŞAQLAR VƏ YENEYETMƏLƏR ÜÇÜN DƏRSLİK)

**MÜƏLLİF:**
**İSMAYIL ƏHMƏDOV**

بسم الله الرحمن الرحیم


نام کتاب:........................................آداب اسلامی
مؤلف:........................................اسماعیل احمداف
ناشر:........................................ شهریار
تاریخ چاپ:........................................1385
نوبت چاپ:........................................اول
تیراژ:........................................2000

**Kitabın adı:........................................Din təlimləri**
**(uşaqlar və yeneyetmələr üçün dərslik)**
**Müəllif:........................................İsmayıl Əhmədov**
**Nəşr edən:........................................Şəhriyar**
**Çap tarixi:........................................2006**
**Çap növbəsi:........................................Birinci**
**Tiraj:........................................2000**

**964-5934-86-9**

## BİRİNCİ DƏRS

## *İSLAM İCTİMAİ DİNDİR*

İslamı digər din və məktəblərdən fərqləndirən xüsusiyyətlərdən biri də onun ictimai din olmasıdır. Burada təkcə ayrı-ayrı fərdlərin deyil, ictimaiyyətin islah olunmasına və onun düz yolu seçib saflaşmasına diqqət yetirilir.

Dediklərimizə aydınlıq gətirmək üçün qeyd etməliyik ki, insanların qarşılarına qoyduqları ən başlıca məqsəd onların səadət və xoşbəxtliyə nail olmalarıdır.

Hər bir insan hamıdan üstün olmasını və ixtiyarında olan şeylərin ən yaxşısına yiyələnməsini istəyir. Onlar daim ən yüksək məqamlara nail olmağa və çatışmazlıqları aradan qaldıraraq xoşbəxt həyat tərzi sürməyə can atırlar.

Bu bir həqiqətdir ki, hər bir insan dünənindən daha yaxşı yaşamağa can atır və mümkün qədər çox var-dövlət sahibi olmaq istəyir.

Kamal və səadətə nail olmaq istəyi ilə yanaşı, insanlar bu yolda müxtəlif maneə və çətinliklərlə qarşılaşmağı və tənəzzülə uğramağı sevmirlər. Bu səbəbdən də çətinliklərlə üzləşərkən özlərində bir növ narahatçılıq və ümidsizlik hiss edirlər. Bu xüsusiyyəti islam alimləri «kamillik axtaran fitrət» adlandırırlar.

Belə nəzərə çarpır ki, belə bir fitri xüsusiyyət insanda hansısa şəkk və tərəddüd olunası şəxs tərəfindən vücuda gəlməmişdir. Bütün din və ideoloji məktəblər yekdilliklə belə bir xüsusiyyətin insan fitrətində mövcud olduğunu etiraf etmiş, lakin bir-birindən fərqli olaraq insanın səadət və kamala çatması üçün bəşəriyyətə müxtəlif üsullar təqdim etmişlər. Yaranmış ixtilaf da yalnız insanın kamala çatması üçün ona təqdim olunan yolların hansının haqq və həqiqət olmasından ibarətdir.

İstər ilahi, istərsə də qeyri-ilahi məktəblərin prinsiplərini nəzərdən keçirdikdə belə qənaətə gəlmək olur ki, onların hər biri insanın kamala çatması üçün yalnız öz ideya və amallarının həqiqət olduğunu hesab edir. Bu səbəbdən də deyə bilərik ki, dinlər arasında mövcud olan ən başlıca fərq insanın xoşbəxt həyat və səadətə necə çatmasındadır. O, buna nail olmaq üçün görəsən hansı yolları keçməli və hansı əxlaqi xüsusiyyətlərə malik olmalıdır?

Qeyd etdik ki, insan xoşbəxt həyata meyl etməklə yanaşı bu yüksəlişin heç vaxt sona çatmamasını da arzu edir. Buradan belə bir nəticəyə gəlmək olur ki, insanın arzu etdiyi səadət və xoşbəxt həyat, sonsuz xoşbəxtlikdir. Əgər bunu qəbul edəriksə, sözün əsl mənasında islam dininin bəşəriyyətə təqdim etdiyi səadəti qəbul etmiş olarıq. Bu isə Allaha yaxınlıq və Onun razılığını qazanmaq deməkdir. Çünki, varlıqlar arasında yeganə sonsuz və mütləq qüvvə Allahın müqəddəs vücudu və zatıdır. İnsan kamala yalnız o zaman nail ola bilər ki, Allahın razılığını qazanmaqla Ona yaxınlaşmış olsun. Bunun isə yeganə yolu ibadət və ilahi göstərişlərə layiqincə əməl etməkdir.

İslam nöqteyi-nəzərindən Allahdan başqa hər bir şey fani və məhduddur. İnsanın daimi istək və ehtiyaclarını təmin edən yeganə və mütləq varlıq Allahın müqəddəs vücududur. Bu səbəbdən də xoşbəxtliyi var-dövlətdə görənlər böyük səhvə yol vermiş olurlar. Çünki, pul və var-dövlət nə qədər çox olarsa, yenə də

fani və tükənəsidir. Var-dövlət çox olduqda belə, insan bir çox hallarda qarşılaşdığı çətinlikləri pulla aradan qaldırıb hər şeyi onunla əldə edə bilmir və xəyalında yaradıb-yaşatdığı xoşbəxtliyə çatmır. Aləmləri yaradan, bütün xeyir və gözəlliklərin səbəbkarı olan Allah isə fani deyil, əbədidir. İnsan yalnız Allaha arxalanmaqla öz ehtiyaclarını ödəyə və əbədiyyətə qovuşa bilər.

Fatir surəsinin 15-ci ayəsində bu haqda deyilir:

***«Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə [heç nəyə, o cümlədən sizin ibadətinizə] möhtac deyildir və hər cür şükrə, tərifə layiqdir! [Onun bütün işləri bəyəniləndir]».***

İmam Hüseyn (ə) Ərəfə duasında bu mətləbə işarə edərək buyurur:

«İlahi! Səni itirən şəxs nəyi axtarır və Səni tapan şəxs nəyi itirmiş olur?»

İmam Hüseyn (ə) bu ifadələri bəyan etməklə Allahın ən kamil varlıq olmasına işarə etmişdir.

Allahdan qeyrisinə üz tutan şəxs sanki puçluğa və faniliyə doğru hərəkət edir və hər şeydən məhrum olur. Lakin Allaha üz tutan şəxs bütün ehtiyac və nöqsanlarını aradan qaldırmış olur.

Bəs islam dini insanın kamala çatması üçün hansı yolu nəzərdə tutmuşdur?

Bu suala cavab tapmaq üçün Qurana müraciət edirik. Kəhf surəsinin 110-cu ayəsində deyilir:

***«...Kim Rəbbi ilə qarşılaşacağına [qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağına] ümid bəsləyirsə, [yaxud qiyamətdən qorxursa], yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın».***

Göründüyü kimi bu ayədə Allah-taala insanın dünya və axirət səadətinə qovuşması və Onun razılığını qazanması üçün qarşıya iki əsas şərt qoyur:

1. Əməli-saleh iş görmək;

2. Allahın birliyinə iman gətirib ibadəti saf niyyətlə yerinə yetirmək.

Deyə bilərik ki, islam nöqteyi-nəzərindən insanın kamala çatmasının ən başlıca şərti Allahın razılığını qazanmaq məqsədi ilə ilahi göstərişlərə əməl etmək və Onun qoyduğu yasaq və qadağalara tabe olmaqdır.

İnsan, Allahın razılığına və Onun tükənməz maddi və mənəvi nemətlərinə yalnız ibadət yolu ilə nail ola bilər.

İlahi göstərişlərə [istər ibadi olsun, istər qeyri-ibadi] diqqət yetirdikdə bu həqiqətin şahidi oluruq ki, onların əksəriyyətinin insan cəmiyyəti ilə sıx bağlılığı vardır və şəriət hökmlərinin çox az bir qismi ayrı-ayrı fərdlərə aid olur.

Başqa sözlə desək islam, insanın Allaha yaxınlaşmasını yalnız saf niyyətlə həyata keçirilən ibadətdə görür. Amma bu heç də o demək deyildir ki, o, cəmiyyətdən uzaq düşərək ömrünü-gününü ibadətdə keçirməlidir. İnsan daim özünü cəmiyyətin bir üzvü bilməli, yaranmış çətinliklərin aradan qaldırılmasında onlarla qarşılıqlı həmkarlıq və dostluq əlaqələri qurmalıdır.

İlahi göstərişlərin bir çoxu ictimai olmaqla yanaşı, kütləvi halda da həyata keçirilir. Hətta «etikaf» kimi müstəhəbbi əməl də məscidlərdə müəyyən şərait və qanunlar çərçivəsində cəm halda həyata keçirilir. Buradan ən başlıca məqsəd nəfsin saflaşması və insanın yüksək əxlaqi dəyərlərə yiyələnməsidir. Etikafın əsas şərtlərindən biri onun ümumi şəkildə məscidlərdə təşkil olunması və oradan yalnız

zəruri hallarda çıxılmasıdır. Etikaf günlərində insan həqiqi səadətə çatmaq üçün öz mənəviyyatını saflaşdırır və qarşıdan gələn imtahanlar üçün batini güc toplayır.

Diqqət yetirilsə mə᾽lum olar ki, belə bir əxlaqi və mə᾽nəvi əməlin həyata keçirilməsi yalnız ictimai əlaqələrin bərqərar olunmasından asılıdır.

Qeyd etmək lazımdır ki, insanın xudpəsəndlik və pisliklərdən çəkinmə qabiliyyəti cəmiyyət üzvləri ilə ünsiyyətdə olarkən özünü daha da büruzə verir.

Belə bir nəticəyə gəlirik ki, insan öz səadət və xoşbəxtliyinə təklik və guşənişinlikdə deyil, cəmiyyətdə və cəmiyyət üzvləri ilə ünsiyyətdə olmaqla nail ola bilər.

İslamın ictimai məsələlərə yetirdiyi diqqəti nəzərə alaraq, bir neçə ictimai hökm və tövsiyələrə işarə edirik:

## *CAMAAT NAMAZI*

İlk növbədə belə nəzərə çarpır ki, namaz hər bir şəxsin axirət dünyasına və onun əbədi nemətlərinə nail olması üçün üzərinə düşən ən başlıca ibadi vəzifədir. Lakin bilmək lazımdır ki, islamda namazın cəm halda qılınmasına o qədər böyük diqqət yetirilmişdir ki, zəruri hallar istisna olunmaqla, qalan hallarda namazın cəm halda qılınmasının vacib olduğu təsəvvür edilir. Qurani-Kərimdə bu haqda deyilir:

***«Namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin».*** [1]

İslamın əvvəllərində baş verən bütün müharibələrdə düşmənlərin tam nəzarətdə saxlanılması və onların heç bir hərəkətini gözdən qaçırmamaq zərurətinə baxmayaraq, Peyğəmbər (s) namazların cəm halda qılınmasına xüsusi diqqət yetirərdi. Aşura günü imam Hüseyn (ə)-ın çox ağır şəraitdə hər tərəfli mühasirəyə alındığı səhnə tarixin hamıya bəlli olan səhifələrindəndir. Lakin belə bir ağır şəraitdə imam Hüseyn (ə) günorta namazını cəm halda qıldı. İmam Hüseyn (ə) və onun arxasında namaz qılanları qorumaq məqsədi ilə Səid ibni Abdullah adlı səhabə çox böyük bir fədakarlıq göstərdi və öz bədənini onlara qarşı yönələn oxların qarşısında sipər edərək şəhadət şərbətini içdi.

Peyğəmbərdən (s) nəql olunmuş bir hədisdə deyilir:

«Üzürlü hallar istisna olmaqla, qalan hallarda camaatla qılınmayan namazlar [Allah dərgahında qəbul olunmaz]».[2]

Bu hədisə istinad etməklə, fiqh alimləri öz risalələrində camaat namazına dair ayrıca fəsl ayırmış və üzürlü olmadan camaat namazlarının tərk olunmasını düzgün hesab etməmişlər.

Namazlar fərdi [ayrılıqda] qılındıqda belə, insana öz mömin qardaşlarını nəzərdə tutması tövsiyə olunur.

Belə ki, gündəlik namazlarda dəfələrlə oxunan «həmd» surəsində —**«Yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik»** və həmçinin salamlarda — **«Salam olsun bizə və əməli saleh şəxslərə»** — cəm şəkilçisindən istifadə olunmuşdur.

---

[1] Bəqərə-43.

[2] Vəsailuş-şiə, 8-ci cild, 293-cü səh.

## *CÜMƏ NAMAZI*

İslam dinində cümə gününün günorta namazının yerinə təyin olunan cümə namazına xüsusi diqqət yetirilmişdir.

Cümə namazı xüsusi şəraitdə cəm halda qılınır.

İmam cümə namaza başlamazdan əvvəl oxuduğu birinci xütbədə cəmiyyəti maraqlandıran günün mühüm məsələlərinə toxunmalı, ictimai problemləri araşdırmalı və eyni zamanda onları üzərlərinə düşən vəzifələrlə tanış etməlidir.

## *XEYİRLİ İŞLƏRƏ DƏVƏT, PİS İŞLƏRDƏN ÇƏKİNDİRMƏK*

Allah-taalanın Qurani-Kərimdə müsəlman ümmətinə vacib etdiyi məsələlərdən biri də xeyirli işlərə dəvət və pis işlərdən çəkindirməkdir. Ali İmran surəsinin 110-cu ayəsində bu haqda deyilir:

***«[Ey müsəlmanlar!] Siz insanlar üçün zahirə çıxarılmış ən yaxşı ümmətsiniz. [Onlara] yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız...»***

Bu məzmunda kifayət qədər hədis və rəvayət nəql olunmuşdur. Lakin yalnız bir şeyi qeyd etmək istəyirik ki, bu zəruri hökmün həyata keçirilməsindən ən başlıca məqsəd, hər bir fərdin yaşadığı cəmiyyətin əxlaqi dəyərlərə hansı səviyyədə riayət olunmasına nəzarət etməsi və ya başqa sözlə desək, xalq üzərində ictimai nəzarətin bərqərar olunmasıdır. Ümumilikdə götürsək, zəruri hesab olunan bu iki şey, ayrı-ayrı fərdlərin və cəmiyyətin islah olunması üçün kütləvi tədbir xarakteri daşıyır.

## *XÜMS VƏ ZƏKAT*

İslamın cəmiyyət üçün [maddi vəziyyəti imkan verdiyi təqdirdə] vacib etdiyi şeylərdən biri də xüms və zəkat adlanan vergilərin ödənilməsidir.

Belə ki, hər bir müsəlman imkan daxilində malının bir qismini yardım məqsədi ilə ehtiyacı olanlara ayırmalı və onu lazımı şəxslərə çatdırmaq üçün dini hakimin [rəhbərin] ixtiyarına qoymalıdır.

Zəkatın ödənilməsi o qədər böyük əhəmiyyət kəsb edir ki, bu hökm Qurani-Kərimin bir çox ayələrində namazla birlikdə qeyd olunmuşdur:

***«...Namaz qılın, zəkat verin və rüku edənlərlə rüku edin!»***[1]

***«O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək [onlara bir yer versək] namaz qılar, zəkat verər...»***[2]

Bəqərə surəsinin 83-cü, Nisa surəsinin 77-ci, Maidə surəsinin 55-ci və bir çox başqa ayələr də həmin məzmuna dəlalət edir.

İslam dininin ictimai yönə malik olan məsələləri təkcə yuxarıda adlarını çəkdiyimiz hökmlərlə bitmir və qeyd olunanlar onların yalnız bir qismi idi. Cihad, yetim və kimsəsizlərə əl tutmaq, məsləhət və məşvərət, ümumi işlərdə qarşılıqlı

---

[1] Bəqərə-43.

[2] Həcc-41.

həmkarlıq, müsəlmanların çətinlikləri ilə maraqlanmaq və bu kimi digər vəzifələri onlara misal çəkmək olar.

Bir sözlə, islam dini həmrəylik, öz ardıcıllarını səadət və xoşbəxtliyə çatdıran, insanı yaşadığı cəmiyyətlə sıx ünsiyyət saxlamağa sövq edən bir dindir.

Hər bir müsəlmanın üzərinə düşən fərdi və şər`i vəzifələri yaşadığı cəmiyyətdə ictimai əlaqələr yaratmaqla icra etməsini zəruri və labüd hesab edəriksə, bunu da qəbul etməliyik ki, cəmiyyət üzvləri ilk növbədə bir-birlərinə qarşı tə`yin olunan hüquq və vəzifələrlə tanış olmalı və onlara riayət etməlidirlər.

Bununla yanaşı xalq arasında bir sıra əxlaq normaları və ictimai qayda-qanunlar da vardır ki, insani dəyərlərin qorunması, ümumi asayiş və tarazlığın tənzim olunması onlara necə riayət etməkdən asılıdır. Təbiidir ki, bu normalara düzgün yanaşmayan şəxslər cəmiyyətdən uzaqlaşdırılacaq və kimsənin etimadını qazanmayacaqdır.

Gələcək dərslərdə məhz həmin ictimai qayda-qanunlar haqqında qısa və ümumi şəkildə söhbət açacağıq.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Kamillik və səadət axtaran fitrətin mənası nədir?
2. İslam nöqteyi-nəzərindən insanın həqiqi səadətə çatması üçün əsas şərt nədən ibarətdir?
3. Yalnız ictimai əlaqələrin bərqərar olunması ilə insanın həqiqi səadətə çatması mümkündürmü?
4. Peyğəmbər (s) camaat namazı barədə nə buyurmuşdur?
5. Allah-taala Qurani-Kərimdə xeyirli işlərə dəvət, pis işlərdən çəkindirmək barədə nə buyurmuşdur?
6. İslam dini xüms və zəkatın ödənilməsini nə üçün əhəmiyyətli hesab edir?

## İKİNCİ DƏRS

### *İSLAM QARDAŞLIĞI*

Mədinəyə daxil olduqdan sonra Peyğəmbərin (s) gördüyü ilk tədbirlərdən biri müsəlmanlar arasında —bir nəfər ənsarla bir nəfər mühacir—qardaşlıq əhd peymanını bağlamaq, qarətlər, qırğınlar və ardı-arası kəsilməyən müharibələrə adət etmiş pərakəndə ərəb qəbilələri arasında vəhdət və birliyi bərqərar etmək oldu.

İrqindən, milliyyətindən və rəngindən aslı olmayaraq, islam dinində bütün müsəlmanlar bir-birləri ilə qardaş və bərabər hüquqa malikdirlər. Birinin digərindən üstün olmasına əsas meyar cismi sağlamlıq, maddi rifah, elmi səviyyə deyil, təqva və iman hesab olunur.

Hucurat surəsinin 13-cü ayəsində insanların bərabərliyi və onların yalnız təqva ilə bir-birlərindən üstün olmaları haqda deyilir:

***«Ey iman gətirənlər! Biz sizi bir kişi və bir qadından [Adəm və Həvvadan] yaratdıq. Sonra bir-birinizi tanıyasınız [kimliyinizi biləsiniz] deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınız, pis əməllərdən ən çox çəkinəninizdir. Həqiqətən, Allah [hər şeyi] biləndir, [hər şeydən] xəbərdardır».***

İslam dini zaman, məkan və şəraitdən asılı olmayaraq, müxtəlif millətlər arasında hakim olan qeyri-insani dəyər və meyarları kənara qoyaraq, müsəlmanlar arasında vəhdət və qardaşlığın bünövrəsini qoydu.

Allah-taala Qurani-Kərimdə bir daha möminlərə xatırladır ki, onlar cahiliyyət dövründə ədavət, kin-küdurət bataqlığında qərq olduqları bir halda, qardaşlıq və bərabərlik nemətini onlara bəxş edərək nicat vermişdir.

***«Hamınız bir yerdə Allahın ipindən [dinindən] möhkəm yapışın, bir-birinizdən ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O, sizin qəlblərinizi [islam ilə] birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan ibarət olan bir uçurumun kənarında ikən, O, sizi oradan xilas etdi. Allah öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, bəlkə haqq yola yönəlmiş olasınız.»***[1]

Peyğəmbər (s) və onun davamçıları olan Məsum imamlar (ə) bu məsələyə xüsusi diqqət yetirmiş və öz kəlamlarında bu ictimai xüsusiyyətin mənəvi əhəmiyyətinə tə᾽kidlə yanaşmışlar.

Peyğəmbərdən (s) nəql olunmuş rəvayətdə deyilir:

Hər kim Allaha xatir mömin bir şəxslə qardaşlıq edrəsə, Allah-taala onun üçün cənnətdə elə bir məqam təyin edər ki, əməllərinin heç biri ilə ona nail ola bilməz.[2]

Başqa bir rəvayətdə deyilir:

Qiyamət günü üzləri bədrlənmiş ay tək parlaq olan bəzi şəxslər üçün ərşin kənarında taxtlar ucaldılar. İnsanların bir çoxu qorxaraq nalə etdikləri bir halda

---

[1] Ali İmran-103.

[2] Əl-həqaiq, səh-318.

onlar nə qorxar, nə də nigarançılıq çəkərlər. Onlar Allaha yaxın olduqları üçün heç nədən qorxmazlar.

Səhabələrdən biri Peyğəmbərdən (s) soruşdu: Ya Rəsuləllah! Onlar kimlərdirlər?

Buyurdu: «Onlar bir-birlərini Allha xatir sevən [əməli saleh] kəslərdir».[1]

***«Allah-taala buyurur: Mənim istək və məhəbbətim o kəslərə nəsib olar ki, Mənə xatir bir-birləri ilə görüşüb hal-əhval tutsunlar. Mənim istək və məhəbbətim o kəslərə nəsib olar ki, Mənə xatir bir-birlərinə kömək və yardım etsinlər. Mənim istək və məhəbbətim o kəslərə nəsib olar ki, Mənə xatir bir-birlərinə məhəbbət göstərərək sevmiş olsunlar. Mənim istək və məhəbbətim o kəslərə nəsib olar ki, Mənə xatir öz mallarından bir-birlərinə ehsan və sədəqə vermiş olsunlar.[2]***

İmam Sadiq (ə) buyurur:

Bir gün Peyğəmbər (s) səhabələrə müraciət edərək onlardan soruşdu:

İmanın ən başlıca şərti nədən ibarətdir?

Onlar dedilər: «Allah və Onun Peyğəmbəri hər şeyi daha yaxşı bilir. Sonra onlardan bəziləri namazın, bəziləri də zəkat, oruc, həcc, ümrə və ya cihad olmasını dedilər.

Peyğəmbər (s) onları dinlədikdən sonra buyurdu: Dediklərinizin hər birinin ayrı-ayrılıqda savab və fəziləti vardır. Lakin onlardan heç biri imanın ən başlıca şərti deyildir. İmanın ən başlıca şərti Allaha xatir sevmək və Ona xatir düşmənçilik etməkdir. Həmçinin Allahın dostları ilə dostluq, düşmənləri ilə də düşmənçilik etməkdir.[3]

Göründüyü kimi burada da Allaha xatir dostluq və düşmənçiliyin dinin əsas şərtlərindən biri olduğu göstərilir. Belə ki, hər iki meyar (yəni, istər dostluq, istərsə də düşmənçilik) başqa məqsəd üçün deyil, yalnız Allaha xatir olmalı və insanın mənəvi saflığını daha da gücləndirməlidir.

Allah-taala Qurani-Kərimdə mömimləri bir-birləri ilə qardaş adlandırır:

***«Həqiqətən möminlər bir-birləri ilə qardaşdırlar».***

Bu səbəbdən də hər bir mömin Allahın ona vacib etdiyi əmrə tabe olmalı və öz mömin qardaşına ehtiramla yanaşmalıdır. Möminlərin bir-birlərini sevib qardaş olmaları onların Allaha olan e᾿tiqadı, Onun əmrlərinə tabe olmaları, eyni qibləyə üz tutmaları və eyni kitaba iman gətirmələrindən irəli gəlir.

Bu səbəbdən də maddi və dünyəvi maraqlara əsaslanan dostluq əlaqələri, zahiri istək və məhəbbət islam nöqteyi-nəzərindən batil və süst hesab olunur.

Maddi maraq məqsədilə başqalarına ehtiramla yanaşan şəxslər bu səmimiyyəti ya var-dövlət əldə etmək üçün, ya həmin şəxsdən asılı olduğundan və ya müəyyən bir təhlükədən yayınmaqdan ötrü edir. O, istəyinə nail olduqda və ya ehtiram etdiyi şəxs tutduğu yüksək mövqedən məhrum olduqda təbii ki, bu növ dostluq əlaqələrinə də son qoyulur. Lakin islam dininin tövsiyə etdiyi dostluq və qardaşlıq prinsipləri müqəddəs ilahi dəyərlərdən qaynaqlandığı üçün daha möhkəm və

[1] Ehyaul-ulum—ədəb-ərkan və ünsiyyət fəsli.

[2] Musnəd-Əhməd ibni Hənbəl, 4-cü cild səh.386.

[3] Biharul-ənvar, 69-cu cild, səh-242.

sarsılmaz olur. Möminlər bir-birlərinə qarşı qayğı və məhəbbət göstərdikləri üçün maddi və sinfi ixtilaflar onlar üçün heç bir əhəmiyyət kəsb etmir. Tarixə nəzər saldıqda həzrət Peyğəmbər (s)-ın öz qulluqçuları ilə bir süfrə arxasında oturmasının və onların yedikləri yeməklərdən yeməsinin şahidi oluruq.

Cahiliyyət dövründə ərəblər dəvələrinin, övladlarının, bəziləri hətta qəbirlərinin çoxluğu ilə fəxr edir və ərəbin əcəmdən, ağ dərilinin qara dərilidən üstün olduğunu hesab edirdilər. Həzrət Peyğəmbər (s) isə qara dərili səhabə olan Bilal Həbəşini ən yüksək iftixarlardan birinə layiq görərək onu müəzzin (azan verən) təyin edir və milliyətcə fars olan Salmana «Səlmane Muhəmmədi» ləqəbini verərək onu öz ailə üzvündən biri hesab edir. Həmçinin məşhur varlı qəbilə başçısının qızı Zulfanı Cuvəybər adlı olduqca yoxsul bir zənciyə ərə verir. Bu kimi hallarda həzrət Peyğəmbər (s) buyurardı:

«Mömin möminin şərikidir».

Beləliklə, həzrət Peyğəmbər (s), səhabələrə cahiliyyət dövründə adət olan ən᾿ənələrin batil və etibarsız olduğunu bir daha sübuta yetirir.

Qeyd olunanlardan belə nəticəyə gəlmək olur ki, başqalarının razılığını qazanmaq məqsədilə və ya maddi maraq və mənfəətlər üzərində qurulan dostluq əlaqələri islam nöqteyi-nəzərindən heç bir əhəmiyyət kəsb etmir və bir növ şirk hesab olunur. Çünki, insanda başqa birisinə qarşı olan məhəbbət hissi yalnız o zaman yaranır ki, həmin şəxs batini, və ya zahiri cəhətdən hansı bir gözəl xüsusiyyət və ya xislətə malik olsun. Bütün gözəlliklərin mənşəyi isə Allahın müqəddəs zatındadır. Əgər bir şəxsi Allaha xatir deyil, yalnız zahiri gözəlliyinə görə seviriksə, sözün əsl mənasında şirkə yol vermiş oluruq.

Bununla da, islam nöqteyi-nəzərindən təkcə Allaha görə qurulan dostluq və qardaşlığın etibarlı hesab edilməsinin səbəbi aydınlaşır. İslam bizləri mömin və əməli-saleh şəcslərlə dostluğa sövq etməkdə iki əsas məqsəd nəzərdə tutur:

1. Hər hansı bir şəxslə dostluq əlaqələrinin qurulması onun öz dostları ilə də dostluq əlaqələrinin yaranmasına səbəb olur. Demək, Allahı sevmək, Ona yaxın olan iman gətirmiş əməli-saleh insanları və övliyaları sevməyimizə də səbəb olmalıdır;

2. Allaha yaxın olan insanları sevmək bizi daim Allahı xatırlamağa,onların gözəl xüsusiyyətlərindən bəhrələnməyə və nəticədə Allaha yaxınlaşmağa köməklik edir.

Dostluq və məhəbbətin yalnız Allaha xatir olduğunu bildikdən sonra, belə bir nəticəyə gəlmək olar ki, mömin şəxs Allaha yaxın olan övliya və əməli-saleh insanları sevdiyi kimi, Allahın düşmənlərinə və kafirlərə qarşı da əks mövqe tutmalı və onları öz düşməni hesab etməlidir. Təbii ki, heç bir şəxs başqalarının onun sevdiyi şəxsə hörmətsizliklə yanaşmalarını və ona qarşı etinasız olmalarını istəməz. Bu səbəbdən də Allaha yaxın olan və Onun eşqi ilə yaşayan şəxslər Allaha iman və etiqadı olmayanlara qarşı nifrət edər və daim onlardan uzaq olmaq istər. Bir sözlə deyə bilərik ki, möminlər Allahın dostları ilə dost, düşmənləri ilə düşmən olmalıdırlar. Fəth surəsinin 29-cu ayəsində bu haqda deyilir:

***«Məhəmməd əleyhissəlam Allahın peyğəmbəridir. Onunla birlikdə olanlar [möminlər] kafirlərə qarşı sərt, bir-birinə [öz aralarında] isə mərhəmətlidirlər...»***

Möminlər Allahı sevdikləri kimi Ona yaxın olan əməli-saleh insanları və övliyaları da sevər, onlara hörmətlə yanaşarlar. Allahla düşmənçilik edən şəxslərə qarşı çıxar və onlara düşmən kəsilərlər.

Aşura ziyarətində imam Hüseyn (ə)-a xitab olunaraq deyilir:

«Mən qiyamət gününədək səninlə sülh edən şəxslərlə sülh edəcək, döyüşən şəxslərlə döyüşəcəyəm».

Allah və Onun eşqi ilə yaşayan insanlara olan məhəbbət və onlarla düşmənçilik edən şəxslərə qarşı düşmənçilik hissi insanın bütün ilahi göstərişlərə tabe olmasını tələb edir. Allah-taala bizlərə həyat və saysız-hesabsız nemətlər bəxş etməklə Öz bəndələrinə olan yüksək sevgi və məhəbbətini göstərmişdir. Biz də Allaha olan istək və məhəbbətimizi göstərmək üçün Onun bütün göstərişlərinə tabe olmalıyıq.

Qurani-Kərimdə bu haqda deyilir:

***«Əgər [Mənə] şükr etsəniz, sizə olan nemətlərimi artıracağam».***[1]

Nemətlər artmaqla insan Allah dərgahında ən yüksək məqamlara nail olur. İctimai həyatda ata-anaya, qohum-əqrəbaya, qonşulara və yoxsullara qarşı diqqətli olmağımızla yanaşı, bizdən mömin qardaşlarımıza sevgi və qayğı göstərmək də tələb olunur. Bir müsəlman kimi üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməli və mömin qardaşlarımızın hüquqlarına riayət etməliyik. Kafirlər və Allah düşmənləri ilə sıx dostluq əlaqələri bərqərar etmək isə bizləri tədriclə Allahdan uzaqlaşdırır və günbəgün günaha doğru sövq edir. Bu səbəbdən də ictimai əlaqələrin bərqərar olunmasında kimlərlə əlaqədə olub-olmamağımıza xüsusi diqqət yetirməliyik.

Qurani-Kərimdə bu haqda deyilir:

***«Ey iman gətirənlər! Möminləri qoyub kafirləri dost tutmayın! Məgər Allaha öz əleyhinizə açıq bir dəlilmi vermək istəyirsiniz?»***[2]

***«Ey iman gətirənlər! Nə Mənim düşmənimi, nə də özünüzün düşmənini dost tutun!...»***[3]

---

[1] İbrahim-7.
[2] Nisa-144.
[3] Mumtəhinə-1.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Hücurat surəsində insanların bir-birlərindən üstün olmasını göstərən ən başlıca meyarı nədir?

2. Peyğəmbər (s) möminlərin qardaşlıq münasibəti və səmimi əlaqələri haqda nə buyurur?

3. Peyğəmbər (s) hansı şeyi imanın əsas şərtlərindən biri hesab edir?

4. İslam nə üçün bizlərə mömin və övliyalarla səmimi olmağı tövsiyə edir?

5. Qurani-Kərimdə Peyğəmbərin (s) səhabələri haqda nə deyilir?

6. Allahla dostluq və Onun düşmənləri ilə düşmənçilik etmək – dedikdə nə nəzərdə tutulur?

## ÜÇÜNCÜ DƏRS

### *VALİDEYNİN HÜQUQU*

Artıq keçən dərsdən mə`lum oldu ki, İslam dini ictimai bir dindir. Onun davamçıları Allaha xatir bir-birlərini sevir və səmimi dostluq əlaqələri qururlar. Burada insanların səadət və xoşbəxtliyi yaranmış əlaqlərin kamilləşməsi ilə, başqa sözlə desək, bu rabitələrin ilahiləşməsi ilə təmin olunur. Buna görə də bir müsəlman kimi üzərimizə düşən dini vəzifələrin bir qismi cəmiyyətlə bağlı olduğu halda formalaşır. Bu vəzifələri dərk edib onlara layiqincə əməl etmək həm Allahın razılığına, həm də bizim dünya və axirət xoşbəxtliyimizə səbəb olur. Əgər bu vəzifələrin nədən ibarət olduğunu bilmək istəsək, ilk növbədə başqalarının bizim üzərimizdə hansı hüquqlara malik olduqlarını bilməliyik.

Bu dərsdən etibarən valideyn-övlad, möminlər və saleh insanlar, qohum-əqrəba, ər-arvad, dost-tanış və qonşuların qarşılıqlı olaraq bir-birinin üzərində olan hüquqları haqda söhbət açacağıq.

### *ATA-ANAYA YAXŞILIQ*

Müqəddəs islam dinində bu məsələyə xüsusi diqqət yetirilir. Belə ki, Allaha ibadətdən sonra ata-anaya yaxşılıq hər bir insanın üzərinə düşən ən ümdə vəzifələrdən biri sayılır. İsra surəsinin 23-25-ci ayələrində bu haqda deyilir:

***«Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi [onlara yaxşı baxıb, gözəl davranmağı] buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında [yaşayıb] qocalığın ən düşgün çağına yetərsə, onlara: «Uf!»— belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!***

***Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına alıb: «Pərvərdigara! Onlar məni körpəliyimdən [nəvazişlə] tərbiyə edib bəslədikləri kimi, Səndə onlara rəhm et!» -de.***

***Rəbbiniz ürəklərinizdə olanları [qəlblərinizin sirlərini] ən yaxşı biləndir. Əgər əməli saleh olsanız [ata-ananıza bilmədən etdiyiniz pislikdən peşman olub tövbə etsəniz və bundan sonra onlarla yaxşı davransanız, bilin ki] Rəbbiniz, həqiqətən, tövbəkarları bağışlayandır!»***

Göründüyü kimi Allah-taala insanları ibadətə əmr etdikdən sonra dərhal onlara ata-anaya yaxşılıq etməyi tövsiyə edir. İmam Sadiq (ə) ayənin izahında buyurur:

«Yaxşılıq və xeyirxahlıq bundan ibarətdir ki, onlarla [valideynlərlə] xoş rəftar etmiş olasan.

Onlara o qədər diqqət yetirməlisən ki, ehtiyac duyduqları şeyləri onlar istəməzdən əvvəl dərk edib onların ixtiyarına qoymalısan».

Hədislərdən birində deyilir:

«Peyğəmbərdən (s) ata-ananın övladın üzərində hansı hüquqa malik olduğu haqda soruşduqda:

Onlar sənin həm cənnətin, həm də cəhənnəmindirlər».[1]

---

[1] Ət-tərğib vət-tərhib, 3-cü cild səh-316.

Yəni, insanın cənnət və cəhənnəmə getməsi valideynlərinə göstərdikləri qayğıdan asılıdır.

Peyğəmbərdən (s) bu məzmunda nəql olunmuş başqa bir rəvayətdə deyilir:

**«Cənnət anaların ayaqları altındadır».** (Yəni, cənnətə analara layiqincə qayğı göstərməklə nail olun).

Başqa sözlə desək, övladlar öz üzərinə düşən borclarını yerinə yetirməli və layiqincə anaların haqlarını ödəməlidirlər.

Başqa bir rəvayətdə cənnətin valideynlərin ayaqları altında olduğu göstərilir. Yəni, insan cənnətə nail olmaq üçün ata-ananın qarşısında öz övladlıq borcunu layiqincə yerinə yetirməlidir.

İmam Səccad (ə)-dan «Hüquq risaləsi» adı ilə nəql olunmuş məşhur bir rəvayətdə deyilir:

«Üzərinə düşən ən başlıca vəzifə ananın, sonra atanın, sonra da övladlarının haqqını ödəməkdir».[1]

Hədisin davamında imam Səccad (ə) ananın haqqının ödənilməsinin əhəmiyyəti barədə buyurur:

«Ananın sənin üzərində olan haqqı hər şeydən böyükdür. O, kimsənin nəvaziş etməsi mümkün olmayan bir yerdə səni nəvaziş etmiş və kimsənin yemək verməsi mümkün olmayan bir yerdə öz canı və qanı ilə qidalandırmışdır. Bil ki, o, səni gözü, qulağı, əl-ayağı, dərisi və bir sözlə bütün varlığı ilə qorumuş, dünyaya gəldiyin vaxtadək ağrı və çətinliklərə dözüb, səbr və təmkinlə keşiyində durmuşdur. Özü ac olsa da səni doyurmuş, susuz olsa da sənə su vermiş, yarı çılpaq olsa da səni geyindirmiş, qızmar günəşin altında dursa da öz bədənini sənin üçün kölgə etmiş, gecələri yatmayıb sənin şirin yuxuya dalmağın üçün əzab-əziyyətlərə dözmüşdür. Unutma ki, ana bətni sənin ilk evin, qucağı ilk beşiyin, sinəsi qidan, bədəni isə sipərin olmuşdur. Ağrı və çətinlikləri uzaqlaşdırmaq üçün sənə görə istiyə-soyuğa dözməli olmuşdur. Elə isə onun qədrini bil və layiqincə haqqını ödə. Və yadında saxla ki, onun haqqını yalnız Allahın köməyi ilə ödəyə bilərsən».[2]

Sonra imam Səccad (ə) övladın atanın qarşısında öz borcunu necə ödəməsi haqda buyurur:

«Bil ki, atan sənin kök və gövdən, sənsə onun budağısan; O olmasaydı sən də olmazdın; Səndə olan bütün gözəl xüsusiyyətlərin kökü və mənşəyi atandır. Elə isə bütün bu nemətlərin qarşısında onun layiqincə qədrini bil və Allaha şükr və səna et».[3]

## *XOŞA GƏLMƏZ RƏFTARLARDAN ÇƏKİNMƏK*

Allah-taala Maidə surəsinin 23-cü ayəsində insanlara ata-ana ilə gözəl rəftar etməyin vacib olmasını xatırlatdıqdan sonra onlarla kobud rəftar etməyi qəti qadağan edərək buyurur:

***«...Uf!-belə demə, üstlərinə qışqırıb acı söz söyləmə...»***

---

[1] Biharul-ənvar, 74-cü cild, səh-3.
[2] Biharul-ənvar, 74-cü cild, fəsil-1.
[3] Biharul-ənvar, 74-cü cild, səh-6.

Diqqət yetirmək lazımdır ki, insanın hər hansı bir səhv və ya kobudluqla rastlaşarkən e`tiraz əlaməti olaraq dilə gətirdiyi ən sadə və münasib söz «uf!» kəlməsidir. Demək Allah-taala bizlərə valideynlərə qarşı hətta belə bir kiçik kobudluğa yol verməməyimizi də qəti qadağan etmişdir.

İmam Sadiq (ə) bu haqda buyurur:

«Ən sadə kobudluq «uf!» deməkdir. Əgər bundan da sadə ifadə olsaydı, Allah-taala onu da qadağan edərdi»[1].

Əgər valideyinlərə «uf!» deməklə narazılıq bildirmək kobudluq sayılırsa, onda onları döymək, söymək və təhqir etməyin nə dərəcədə qəbahət və haram olması mə`lum məsələdir.

Məsum imamlardan (ə) nəql olunmuş bir çox hədis və rəvayətlərdə valideynə qarşı kobudluq edənlərin ağır əzablarla cəzalandırılacaqları göstərilir.

Peyğəmbərdən (s) nəql olunmuş hədisdə ata-anaya qarşı pis rəftar etmək Allaha şərik qoşmaq, döyüş meydanını tərk etmək kimi böyük günahlardan biri sayılır.

«Qiyamət günü Allah dərgahında böyük günahlardan biri də Allaha şərik qoşmaq, günahsız mömin bir şəxsi öldürmək, fərarilik və valideynə qarşı pis rəftar etməkdir».[2]

Başqa bir hədisdə deyilir:

«Allah tərəfindən (valideynlərlə pis rəftar edənlərə) belə bir xitab olunar: İstədiyin hər bir işi gör və bil ki, səni bağışlamayacağam».[3]

Yəni, valideynin üzünə qayıdanlar nə qədər xeyirxah işlər görsələr də belə, Allahın nəzərindən uzaq olarlar. Lakin unutmaq olmaz ki, bütün günahları tövbə etməklə aradan aparmaq mümkündür və bu günah nə qədər böyük olsa da insan peşman olaraq Allah-taaladan bağışlanmasını diləyə bilər.

Valideynlərə qarşı edilən kobud rəftarlar haqda iki mühüm mətləbə işarə etmək lazımdır:

1. Rəvayətlərdə göstərilən valideynlərə qarşı kobud rəftarların nümunələri;

İmam Səccad (ə)-dan nəql olunmuş rəvayətdə deyilir:

«Ata-anaya acıqla baxmaq və onlara qəzəblənmək valideynə qarşı kobudluq hesab olunur».[4].

Peyğəmbərdən (s) nəql olunmuş rəvayətdə deyilir:

«Valideyni kədərləndirən şəxs onlara qarşı kobud rəftar etmiş olur».[5]

İsra surəsinin 24-cü ayəsindən və bu məzmunda nəql olunmuş bir çox rəvayət və hədislərdən bu nəticəyə gəlmək olur ki, valideynə qarşı olunan hər hansı bir hörmətsizlik və kobud rəftar islam nöqteyi-nəzərindən haram və böyük günahlardan hesab olunur. Valideyn övladına qarşı haqsızlığa yol versə belə, övlad onlara qarşı kobudluğa yol verməməlidir.

İmam Sadiq (ə)-dan nəql olunmuş rəvayətdə deyilir:

---

[1] Biharul-ənvar, 74-cü cild, səh-6.

[2] Ət-tərğib vət-tərhib, 3-cü cild, səh-327.

[3] Kənzul-ummal.

[4] Biharul-ənvar, 74-cü cild səh-61

[5] Kənzul-ummal.

«Allah-taala valideynə - övladına qarşı haqsızlığa yol versə belə - acıqla baxan şəxslərin namazlarını qəbul etməz».[1].

2. Kobud rəftar etməkdən çəkinmək və gözəl davranmağın vacibliyi təkcə mömin və müsəlman valideynlərə deyil, eləcə də qeyri-müsəlman və müşrik valideynlərə də aid olunur. Yəni, valideyn qeyri-müsəlman və müşrik olsa da belə, onlarla gözəl rəftar edilməli və heç bir kobudluğa yol verilməməlidir. Loğman surəsinin 14-15-ci ayələrində bu haqda buyurulur:

***«Biz insana ata-anasına yaxşılıq etməyi [valideyninə yaxşı baxmağı, onlarla gözəl davranmağı] tövsiyə etdik. Anası onu [bətnində] çox zəif bir halda daşımışdı. Uşağın süddən kəsilməsi isə iki il ərzində olur. [Biz insana buyurduq]: Mənə və ata-anana şükr et. Axır dönüş Mənədir!***

***Əgər ata-anan bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, [bu işdə] onlara itaət etmə. [Qalan] dünya işlərində onlarla gözəl keçin [onlara itaət et]...»***

Ayənin məzmunundan belə bir qənaətə gəlmək olur ki, valideyn qeyri-müsəlman, müşrik olsa və övladını Allaha şərik qoşmağa və ya Onu inkar etməyə vadar etsə də belə, onlarla gözəl davranılmalı və kobudluğa yol verilməməlidir.

Şübhəsiz ki, belə bir rəftar onlarda islama qarşı rəğbət hissinin yaranmasına, hətta onu qəbul etmələrinə də səbəb ola bilər.

Tarixdə baş vermiş hadisələrdən birində deyilir: İmam Sadiq (ə)-ın vasitəsi ilə islamı qəbul etmiş Zəkəriyya ibni İbrahim deyir: İmam Sadiq (ə) məni islam dini ilə tanış etdikdən sonra bu ilahi dini rəğbətlə qarşılayıb [qəbul edib] ondan soruşdum: Atam, anam və qohum-əqrəbalarımın hamısı məsihidirlər və anamın gözləri görmür. Mən onlarla birlikdə yaşayır, bir qabda yemək yeyirəm. Bunun bir nöqsanı vardırmı? İmam Sadiq (ə) soruşdu:

Onlar donuz əti yeyirlərmi?

Dedim, nəinki yemir, hətta ona əl də vurmurlar. İmam Sadiq (ə) buyurdu:

Elə isə bunun heç bir nöqsanı yoxdur. Ananın qayğısına qal, onunla gözəl rəftar et və dünyasını dəyişdikdə onun dəfnini öz üzərinə götür.

Zəkəriyya deyir: Kufəyə imam Sadiq (ə)-ın yanına qayıdanadək onun tövsiyələrini yerinə yetirirdim. Anama yemək verir, paltarlarını yuyur və daim ona qulluq edirdim. Bir gün anam mənə dedi: Oğlum! Nə qədər ki, bizim dinimizdə idin mənə nə belə qayğı göstərir, nə də belə qulluq edirdin. Dedim: Bizə bu xeyirxah işi Peyğəmbərin (s) övladlarından biri tövsiyə etmişdir.

Anam dedi: O peyğəmbərdirmi? Dedim: Xeyir, lakin peyğəmbər övladıdır. Dedi: Yox, o peyğəmbərdir. Çünki, bu peyğəmbər tövsiyələrindəndir. Dedim: Yox, ana o peyğəmbər deyildir. Çünki, bizim peyğəmbərdən (Həzrət Məhəmmədən (s)) sonra yer üzünə heç bir peyğəmbər gəlməyəcəkdir və o peyğəmbər övladıdır. Anam dedi: Oğlum! Sənin qəbul etdiyin din, dinlərin ən yaxşısıdır; Məni bu dinlə tanış et.

İslam dini haqda ona bəzi məlumatlar verdim və o da dediklərimi qəbul edib müsəlman oldu. Ona namaz qılmağı öyrətdim; Günorta və axşam namazlarını

[1] Biharul-ənvar, 74-cü cild, səh-61.

qıldı və həmin gün vəziyyəti ağırlaşdı və dünyasını dəyişdi. Onu müsəlmanlarla birlikdə islam qayda-qanunları ilə dəfn etdik.

## *MEHRİBANÇILIQ*

İsra surəsinin 24-cü ayəsində valideynlərlə gözəl rəftar etmək və onlarla gülərüz və mehribanlıqla davranmaq tövsiyə olunur. İmam Sadiq (ə) ayənin izahında buyurur:

«Onlara gülər üzlə nəzər sal, səsini onların səsindən ucaltma, onlara əl qaldırma və yol gedərkən onlardan irəli keçmə».

O həzrət həmin ayənin **«Pərvərdigara! Onlar məni körpəliyimdən [nəvazişlə] tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et»** hissəsinə çatdıqda buyurdu:

Səni döydükləri zaman (mehribanlıqla) söylə: Allah sizi bağışlasın![1]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Allah-taala Qurani-Kərimdə ata-anaya yaxşılıq haqda nə buyurur?
2. İmam Səccad (ə) «Hüquq risaləsi» hədisində ananın haqqı barədə nə buyurur?
3. Peyğəmbər (s) valideynlərin üzünə ağ olmaq barədə nə buyurur?
4. Nəql olunmuş rəvayətdə əsasən valideynə qarşı olunan kobudluqların bir neçəsini misal çəkin.
5. İmam Sadiq (ə) İsra surəsinin 24-cü ayəsinin izahında nə buyurur?

[1] Biharul-ənvar, 74-cü cild, səh-39, Üsuli-kafi, 2-ci cild, səh-158

## DÖRDÜNCÜ DƏRS

### *QOHUM-ƏQRƏBA İLƏ GÖZƏL ÜNSİYYƏT*

Hər bir müsəlmanın üzərinə düşən digər ictimai vəzifələrdən biri də ona yaxın olan qohum-əqraba ilə sıx ünsiyyətdə olması və onlarla gözəl rəftar etməsidir. O, vaxtaşırı öz müsəlman qardaşının görüşünə getməli və onların vəziyyəti ilə yaxından maraqlanmalıdır. Qarşılaşdıqları çətinliklərdə onlara yardım etməli, qəm-qüssələrində şərik olmaldır ki, onlar özlərini tək hiss etməyib təsəlli tapa bilsinlər. Eyni zamanda onların həm sevinc, həm də kədərlərinə şərik olmalıdır ki, aralarındakı dostluq və qardaşlıq əlaqələri daha da güclənsin. Səhvə yol verdikləri zaman bir müsəlman kimi onlara tövsiyə etməli, günahdan çəkinməkdə köməklik göstərməlidir.

Çətinliklərlə qarşılaşdığımız və hər hansı bir səhvə yol verdiyimiz zaman yaxın qohum-əqrəbalarımızın bizə köməklik göstərməsini və problemlərimizin həllində yardımçı olmalarını istədiyimiz kimi, təbii ki, belə bir rəftarı onlar da bizdən gözləyirlər.

Demək, yaxın qohum-əqraba ilə sıx ünsiyyətdə olmaq ilk növbədə buna riayət edən şəxslər üçün faydalıdır.

Əli (ə) bu haqda buyurur:

«Ey camaat! Bu bir həqiqətdir ki, var-dövlət sahibi olsanız da qohum-əqrəbanızdan və onların himayəsindən ehtiyacsız deyilsiniz. Hər bir şəxsin qohum-əqrəbası və ailə üzvüləri ona ən böyük arxa və yardımçıdırlar. Qarşılaşdığı çətinliklərdə hamıdan çox onlar maraqlanar, çətinliklərin aradan qaldırılmasında çalışarlar.[1]

«Agah olun ki, maddi vəziyyətiniz imkan verdiyi təqdirdə qohum-əqrəbalarınız çətinliklərlə üzləşərkən onlardan üz döndərib tək qoymamalısınız. Var-dövlətiniz onlardan gizlətməklə artmayacaqdır və əgər onların yolunda sərf edərsinizsə yenə də azalmayacaqdır. Bilin ki, əgər qohum-əqrəba ilə əlaqəni kəsərsinzsə onları edəcəyiniz yardımdan, özünüzü isə hər şeydən məhrum etmiş olursunuz. Onlarla gözəl davranıb mehribançılıqla rəftar etdikdə isə, qohumluq əlaqələrini daha da möhkəmlətmiş olursunuz».

Bildiyimiz kimi ailə üzvülərinin hər biri müxtəlif xüsusiyyətlərə malikdir. Onlardan bəziləri yüksək zehni və cismi istedadlara malikdir, bəziləri də bunlardan müəyyən məʾnada və ya tamamilə məhrumdurlar. Bəziləri dövlətlidir, bəziləri də yoxsul, bəziləri xüsusi ictimai mövqeyə malikdir, bəziləri isə cəmiyyətdə elə də yüksək vəzifə və məqam qazana bilmir. Bəziləri şüurlu və istedadlıdır, bəziləri də savadsız olduğundan heç bir məlumata malik deyildir.

İctimaiyyətdə yaranmış sinfi ixtilafları aradan qaldırımaq, cəmiyyət üzvülərinin malik olduqları bacarıq və istedadlardan lazımınca bəhrələnmək və nəhayət onları təkamül və inkişafa doğru yönəltmək üçün yalnız cəmiyyət üzvləri arasında sıx dostluq, qardaşlıq və qarşılıqlı həmkarlıq əlaqələri qurulmalıdır. Varlılar yoxsul

---

[1] Nəhcül-bəlağə, 23-cü xütbə.

təbəqəyə, güclülər gücsüzlərə əl tutmaqla və qarşılaşdıqları çətinlikləri birlikdə aradan qaldırmaqla özlərinin xarici və batini [mənəvi] düşmənlərinə qalib gələ bilərlər. Əks təqdirdə, bə᾿zilərinə yoxsulluq, bə᾿zilərinə zəiflik və digərlərinə də daxili və xarici düşmənlər zərbə vurub sarsıdacaqdır.

Bu səbəbdən də islam ümməti öz birliyini qoruyub saxlamalı və günbəgün daha da inkişaf edib öz mövqeini gücləndirməyə çalışmalıdır. Nəql olunmuş bir çox rəvayətlərdə «qohum-əqrəba ilə gözəl ünsiyyətdə olmaq» hətta dinin bir hissəsi kimi qiymətləndirilmiş, ömrün uzanmasına və insanın cənnətlə mükafatlandırılmasına səbəb olduğu göstərilmişdir.

Misal olaraq Peyğəmbərdən (s) və Məsum imamlardan (ə) nəql olunmuş bir neçə hədisə işarə edirik:

«Məni görüb-eşidənlərə, burada olmayanlara, hələ ata belində və ana bətnində olan ümmətimin gələcək nəslinə tövsiyə edirəm ki, qohum-əqrəba ilə aralarındakı fasilə bir illik məsafə olsa belə, sıx ünsiyyətdə olsunlar. Çünki bu, dinin bir hissəsidir».[1]

İmam Əli ibni Hüseyn (ə) Peyğəmbərdən (s) nəql etdiyi hədisdə deyir:

«Allah hər kimin ömrünü uzadıb ruzisini bol edərsə sevinər və daim şad olar. Onlar da qohum-əqrəba ilə gözəl rəftar edər və onlarla sıx ünsiyyətdə olarlar. Həqiqətən «Sileyi-rəhim» [qohum-əqrəba ilə sıx ünsiyyətdə olmaq] dil açaraq Allah-taalaya deyər: İlahi! Öz qohum-əqrəbası ilə gözəl əlaqədə olanlara qarşı rəhimli və mərhəmətli ol. Onlarla əlaqəsini kəsənlərlə əlaqəni kəs və rəhmət dərgahından uzaq et».[2]

Başqa bir rəvayətdə İmam Riza (ə) Peyğəmbərdən (s) nəql edərək deyir:

«Hər kim mənə bir şeyə zəmanət verərsə, mən onun üçün dörd şeyə zamin olaram: Qohum-əqrəba ilə gözəl rəftar edənləri Allahın sevməsinə, ruzisinin artmasına, ömrünün uzanmasına və Allahın vədə verdiyi cənnətə daxil etməsinə».[3]

İmam Məhəmməd Baqir (ə)-dan nəql olunmuş hədisdə deyilir:

«Qohum-əqrəba ilə gözəl əlaqədə olmaq insanın əməllərini saflaşdırır. Var-dövlətini çoxaldır, çətinliklərini həll edir və əcəlini təxirə salır».[4]

Məlum oldu ki, qohum-əqrəba ilə gözəl rəftar etmək, onlarla sıx münasibət saxlamaq, qəm-qüssələrin şərik olmaq, qarşılaşdıqları çətinliklərdə onlara köməklik etmək hər bir müsəlmanın üzərinə düşən ən başlıca vəzifələrdən biridir.

Bu məsələ böyük əhəmiyyət kəsb etdiyi üçün həzrət Peyğəmbər (s) və Məsum imamlardan bu barədə onlarla hədis və rəvayət nəql olunmuş və bunun həyata keçirilməsinə təkid edilmişdir. Bəzən kimlərsə yolun uzaqlığını, işin çoxluğunu və bu kimi digər bəhanələri əllərində əsas tutaraq qohumluq əlaqələrinin bərqərar olunmasını qeyri-mümkün hesab edir və beləliklə özlərini üzürlü sanmağa çalışırlar. Bəzən də qohum-əqrəbanın soyuq münasibətlərini dəlil gətirərək üzərlərinə düşən bu dini vəzifədən boyun qaçırmaq istəyirlər. Lakin, bütün bunlar

---

[1] Biharul-ənvar, 74-cü cild.
[2] Biharul-ənvar, 74-cü cild-«Qohum-əqrəba ilə gözəl əlaqə» fəsli.
[3] Biharul-ənvar, 74-cü cild.
[4] Biharul-ənvar, 74-cü cild.

əvvəlcədən həzrət Peyğəmbər (s) və İmamlar (ə)-ın diqqətindən yayınmamış, bu barədə öz davamçılarına zaman və məkanı nəzərə alaraq dəyərli tövsiyələr etmişlər. Həzrət Peyğəmbərin (s) tövsiyələrinin birində buyurulur:

«Bir il yol getməli olsan da belə, öz qohum-əqrəbana baş çək».

Yəni, əgər qohum-əqrəbaya baş çəkmək bir il vaxt aparsa da belə bunu yerinə yetirmək lazımdır. İmam Sadiq (ə)-dan nəql olunmuş başqa bir rəvayətdə deyilir:

Bir şəxs Peyğəmbərin (s) yanına gəlib deyir: Ya Rəsuləllah! Qohum -əqrəbam mənə yaxşı münasibət bəsləmədikləri üçün mən də onlardan uzaq olmağa çalışıram. Peyğəmbər (s) buyurdu:

Belə etsəniz Allah sizin hamınızı özündən uzaq edər.

Həmən şəxs soruşdu: Bəs nə etməliyəm? Peyğəmbər (s) buyurdu:

Səni özündən uzaq edənləri bağışlamağı (güzəştə getməyi) bacar, səninlə əlaqəni kəsənlərlə əlaqə yarat və sıx ünsiyyətdə ol. Sənə qarşı haqsızlıq və zülm edənləri əfv et və bil ki, hər şeyə qadir olan Allah onlarla münasibətdə sənə arxa olacaqdır.[1]

Həzrət imam Əli (ə) bu barədə buyurur:

«Qohum-əqrəbanız sizinlə əlaqəni kəssə də belə, onlarla sıx münasibətdə olun».

İmam Sadiq (ə)-dan nəql olunmuş hədisdə deyilir:

«Qohum-əqrəba ilə yaxın ünsiyyətdə olmaq və onlara xeyirxahlıq etmək günahları azaldır və Qiyamət gününün sorğu-suallarını asanlaşdırır».[2]

Həzrət Peyğəmbər (s) bu haqda buyurur:

«Salam verməklə olsa da belə, qohum-əqrəba ilə əlaqə saxlayın».[3]

Başqa bir hədisdə deyilir:

«Bir içimlik su qədər də olsa da belə, (yəni müddəti olduqca az olsa belə) qohum-əqrəbanızla yaxşı ünsiyyətdə olun. Qohumluq əlaqələrin güclənməsinə səbəb olan ən başlıca amil onlarla gözəl rəftar etmək, pislik və kobudluqdan çəkinməkdir».[4]

## *QOHUMLUQ ƏLAQƏLƏRİNİN KƏSİLMƏSİ*

Artıq məlum oldu ki, qohum-əqrəba ilə gözəl münasibətdə olmaq, onların dərd-qəminə şərik çıxmaq, qarşılaşdıqları çətinliklərdə onlara köməklik etmək hər bir müsəlmanın üzərinə düşən ən başlıca vəzifələrdəndir.

Həzrət Peyğəmbər (s) və Məsum imamlardan (ə) bu məzmunda bir çox hədis və rəvayətlər nəql olunmuş və onun əhəmiyyət isə xüsusi diqqət yetirilmişdir.

İndi isə baxaq görək qohumluq əlaqələrini kəsmək nə kimi nəticələr verir. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, bu məsələ Qurani-Kərimdə də öz əksini tapmış və qohumluq əlaqələrini kəsənlərə bağışlanmayacaqları haqda ciddi xəbərdarlıq edilmişdir. Məhəmməd surəsinin 22-ci ayəsində deyilir:

---

[1] «Ehyaul-ulum»-qohum əqrəba ilə əlaqə və ünsiyyət fəsli.
[2] Biharul-ənvar, 74-cü cild.
[3] Biharul-ənvar, 74-cü cild.
[4] Biharul-ənvar, 74-cü cild.

***«Əgər [Məhəmməd aleyhissəlamdan] üz döndərsəniz, sizdən yer üzündə fitnə-fəsad törətmək və [cahiliyyət dövründə olduğu kimi] qohumluq tellərini qırmaq gözlənilməzmi?!»***

Başqa bir ayədə qohumluq münasibətlərini kəsənlər fitnə-fəsad törədənlər və ziyana uğrayanlar adlandırılır:

***«O kəslər ki, Allahla [Ona iman gətirmək və itaət etmək barəsində] əhd bağladıqdan sonra onu pozur, Allahın birləşdirilməsini buyurduğu şeyləri parçalayır [mö'minlərlə dostluğu, qohum-əqrəba ilə əlaqələri kəsir] və yer üzündə fitnə-fəsad törədirlər. Məhz beləldəri [dünyada və axirətdə] ziyana uğrayanlardır!»***[1]

Bu məzmunda həzrət Peyğəmbərdən (s) nəql olunmuş hədisdə deyilir:

«Qohumluq əlaqələrini kəsənlərə Allahın rəhməti şamil olmayacaqdır».

İmam Baqir (ə)-dan nəql olunmuş rəvayətdə deyilir:

«Peyğəmbərin (s) kitabında deyilirdi: Qohumluq əlaqləri kəsildiyi zaman var-dövlət fitnə-fəsad törədən şəxslərin əlinə düşər».[2]

İmam Baqir (ə) həzrət Əli (ə)-dan bu məzmunda nəql etdiyi başqa bir rəvayətdə deyir:

«Qohumluq əlaqlərinin kəsilməsi nəticəsində insanın var-dövlətinin soyğunçu və qarətçilərin əlinə düşməsinin bir neçə səbəbi ola bilər. Bunlardan biri də cəmiyyət üzvülərinin bir-birlərinə qarşı soyuq münasibət bəsləmələri və məsuliyyətsizlikdir. Təbii ki, belə bir şəraitdə cəmiyyətdə mövcud olan bəzi mənfi ünsürlər onlara nüfuz edərək asanlıqla var-dövlətlərini mənimsəyə və ya qarət edə bilərlər».

İmam Sadiq (ə) Həzrət Əli (ə)-dan nəql etdiyi rəvayətdə deyilir:

«Bu üç xislətə malik olan şəxslər əməllərinin nəticəsini görməyincə dünyalarını dəyişməzlər. Zülmkarlar, qohumluq əlaqələrini kəsənlər, Allahla [dinlə] mübarizə məqsədi ilə and içən və yalan danışan şəxslər».[3]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. «Sileyi-rəhm» deyildikdə nə nəzərdə tutulur?
2. Nəql olunmuş rəvayətlərdə «sileyi-rəhm» haqda nə deyilir?
3. İmam Riza (ə) «siley-rəhm» haqda nə buyurmuşdur?
4. Həzrət Peyğəmbər (s) qohumluq əlaqələrinin kəsilməsi haqda nə buyurmuşdur?
5. İmam Baqir (ə) Həzrət Əli (ə)-dan nəql etdiyi rəvayətdə camaatı nə kimi xislətlərdən çəkinməyə tövsiyə edir?

---

[1] Bəqərə-27.
[2] Biharul-ənvar, 73-cü cild.
[3] Biharul-ənvar, 74-cü cild.

## BEŞİNCİ DƏRS

### *QONŞULARIN HÜQUQU*

Müqəddəs islam dinində tövsiyə olunan şeylərdən biri də qonşuların hüquqlarının qorunmasıdır. İmam Sadiq (ə)-dan bu məzmunda nəql olunmuş rəvayətdə deyilir:

«Qonşularınızla gözəl rəftar edin. Çünki, bunu sizlərə Allah-taala əmr etmişdir».[1]

Rəvayətdə istinad olunan ilahi əmr Nisa surəsinin 36-cı ayəsinin məzmununu təşkil edir. Orada deyilir:

***«Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ata-anaya, qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qonum-qonşuya, yaxın yoldaş və dostlara, [pulu qurtarıb yolda qalan] müsafirlərə, sahib olduğunuz qul və kənizlərə yaxşılıq edin! Həqiqətən, Allah özünü bəyənənləri və lovğalıq edənləri sevməz!»***

Həzrət Peyğəmbər (s) səhabələrə qonşuların hüquqlarına riayət etməyi tövsiyə edər və bunun nə ilə nəticələnəcəyi haqda buyurardı:

«Cəbrail qonşular barədə mənə o qədər tövsiyə edərdi ki, qonşunun qonşudan irs aparmalı olduğunu güman edərdim».[2]

Həzrət imam Əli (ə)-dan nəql olunmuş başqa bir rəvayətdə deyilir:

«Qonşularınızın hüququna riayət etdikdə Allahı nəzərə alın (yəni hər zaman Allahı xatırlayın və Onun buyuruqlarına tabe olun). Çünki, bunu sizlərə Peyğəmbəriniz tövsiyə etmişdir. Peyğəmbər (s) bu məsələyə o qədər diqqət yetirərdi ki, belə güman edərdik qonşularımız bizdən irs aparırlar».[3]

Burada həzrət Peyğəmbərin (s) qonşuların hüququna riayət etməyə dair etdiyi tövsiyələrin bir neçəsini gətirdik.

«Mömin olmaq istəyirsinizsə qonşularınızla gözəl davranın».[4]

«İnsan anasına hörmət etdiyi kimi qonşusuna da hörmət etməlidir».[5]

Həzrət Peyğəmbərdən (s) soruşurlar:

«Ey Allahın peyğəmbəri! Zəkatdan başqa insanın var-dövlətinə düşəcək digər ödənişlər də varmı?» Həzrət (s) buyurdu:

«Bəli, qohum-əqrəbaya və qonşulara yaxşılıq etmək, qonşusu ac oludğu bir halda tox qarına yatan şəxs mənə iman gətirməmişdir».[6]

Bir şəxs Həzrət Peyğəmbərin (s) yanına gəlib deyir:

«Bir ev almaq istəyirəm, harada alsam daha yaxşı olar? Cəhinə, Məzinə, Səqif, yoxsa Qureyş qəbiləsinin yanındamı alım?» Həzrət Peyğəmbər (s) buyurdu:

---

[1] Biharul-ənvar, 69-cu cild, 38-ci fəsil, 11-ci hədis.
[2] Kənzul-ummal, 24913-cü xütbə.
[3] Biharul-ənvar, 74-cü cild, «Qonşuların hüququ» fəsli.
[4] Biharul-ənvar, 74-cü cild.
[5] Biharul-ənvar, 14-cü cild.
[6] Biharul-ənvar, 74-cü cild, «Qonşunun hüququ» fəsli.

«Əvvəl qonşunu sonra evi və əvvəl yoldaş seç sonra gedəcəyin yeri».[1]

Peyğəmbər (s) bununla ev almaq və ya tikmək istəyən şəxslərə gələcəkdə kimlərlə qonşu olacaqlarına diqqət yetirmələrinə tövsiyə etmişdir. Əgər onlar yaxşı olarlarsa həmən yerdə ev alıb sakin ol. Yola çıxmaq istəyərkən də hər şeydən əvvəl özünə yaxşı yol yoldaşı seç və yalnız sonra yola çıx.

6. Peyğəmbər (s), qonşuların bir-birlərinin üzərində olan hüquqlarını belə izah edir:

«Qonşularınızın sizin üzərinizdə nə kimi hüquqlara malik olduqlarını bilirsinizmi?»

Dedilər: «Xeyr».

Həzrət (s) buyurdu:

«Əgər onlar sizdən kömək istəyirlərsə yardım etməli, borc istədikdə [imkan daxilində] verməli, bir şeyə ehtiyac duyduqda ehtiyaclarını təmin etməli, uğur qazandığı zaman onu təbrik edib sevincinə şərik olması, xəstələnərsə görüşünə getməli, əzizlərindən birini itirdiyi zaman baş sağlığı verməli, dünyasını dəyişdiyi zaman dəfn mərasimində iştirak etməli, ev tikdiyin zaman icazəsi olmadan onun evinə külək və günəşin düşməsinin qabağını kəsməməli və meyvə aldığın zaman ona da verməlisən. Əgər bunu etməzsinizsə heç olmasa uşaqlarınız əlində meyvə küçəyə çıxmasın. Çünki, yoxsul qonşunuzun uşağının meyvəyə tamahı düşə bilər. Ləziz yeməklər bişirdiyin zaman onlara da bir pay verin və yeməyin iyi ilə onları buna həsrət qoymayın».[2]

7. İmam Səccad (ə) «Hüquq risaləsi»ndə qonşunun hüquqları haqda buyurur:

«Qonşun səfərdə olduğu zaman (və ya evdə olmadığı müddət ərzində) onu əvəz etməli, gəldiyi zaman gülər üzlə qarşılamalı və ona öz səmimiyyətinizi bildirməlisiniz. Hər hansı bir çətinliklə qarşılaşdığı və ya haqqı tapdalandığı zaman əlinizdən gələn köməyi ona etməlisiniz. Bir şeyi israr etdiyi zaman boyun qaçırmayın. Pislik gördüyünüz zaman güzəştə getməyi bacarın və onların bu hərəkətlərinə göz yumun. Nəsihətinizi qəbul edəcəyini bildiyiniz zaman onlara nəsihət edin. Çətinliklərlə qarşılaşdıqları zaman onları tək qoymayın, buraxdıqları səhvləri düzəltməyə çalışın. Günah etdikləri zaman onları bağışlamağı və eyblərini örtməyi bacarın. Və nəhayət onlarla gözəl davranıb, səmimiyyətlə rəftar edin».[3]

Bu məzmunda digər mə᾽sum imamlardan da bir çox nəsihətamiz hədis və rəvayətlər nəql olunmuşdur. İmam Həsən (ə) buyurur:

«Kiçik yaşlarımda görərdim ki, anam həzrət Zəhra (ə) cümə günləri axşam namazından sonra qonşu və tanıdığı bütün şəxslərin adını çəkər və onlar üçün dua edərdi. Bir gün qulaq asdım ki, görüm özü üçün də dua edirmi? Lakin nə qədər diqqət yetirdimsə, öz istək və hacətlərini dilinə də gətirmədi. Səhər açıldıqda anamdan soruşdum: Ana, dünən axşam etdiyin dualara qulaq asırdım, başqalarına xeyir-dua edir, amma özün üçün əsla dua etmədin. Anam buyurdu:

«Oğlum, əvvəl qonşu sonra evin içi».

---

[1] Mizanul hikmə 64-cü fəsil.

[2] Biharul-ənvar 82-ci cild, Əzadarlıq və Matəm fəsli.

[3] Biharul-ənvar, 74-cü cild, 1-ci fəsil.

Əhli-beyt (ə) tərəfindən nəql olunmuş rəvayətlərdə qonşularla gözəl rəftar etməklə yanaşı, hüquqlarının qorunması və onlarla səmimi ünsiyyətdə olmaq barəsində də kifayət qədər rəvayət nəql olunmuşdur.

Həzrət Əli (ə) bu haqda buyurur:

«Hər kim qonşularına yaxşılıq edərsə başqalarından daha çox qayğı görər».[1]

Başqa bir yerdə buyurur:

«Hər kim qonşuları ilə gözəl rəftar etsə, qonşularının sayı bir o qədər çox olar».[2]

Göründüyü kimi Həzrət Əli (ə) özünün birinci hədisində bunu nəzərdə tutmuşdur ki, əgər insan qonşuları ilə gözəl rəftar etmiş olarsa təbii ki, onlar da qarşılaşdığı çətinliklərdə öz köməklərini ondan əsirgəməyəcəklər.

İkinci hədisdə isə buna işarə edir ki, əgər insan öz qonşuları ilə səmimi ünsiyyət bərqərar edib onlara qarşı gözəl əxlaq nümayiş etdirərsə, onlar da öz növbələrində onunla mehribanlıqla rəftar etmiş olarlar. Bu isə insanı tənhalıq və qəriblik hissi keçirməyə qoymaz, hamı onun bu gözəl xüsusiyyətini görüb onunla qonşuluq etmək istəyər.

İmam Sadiq (ə) qonşuların insana qarşı olan təsiri və xeyir-bərəkətləri haqda buyurur:

«Yaxşı qonşuluq etmək ruzinin artmasına səbəb olur».[3]

Başqa bir rəvayətdə buyurur:

«Qonşularla gözəl rəftar etmək ömrü uzadır və yerlərin abadlaşmasına səbəb olur».[4]

## *QONŞUNUN ƏZAB-ƏZİYYƏTİ*

Nəql olunmuş rəvayətlərdə qonşuların hüquqlarına riayət olunmasına böyük əhəmiyyət verildiyi kimi, onlara qarşı hörmətsizlik və kobudluq edilməməsinə də böyük diqqət yetirilmişdir. Həzrət Peyğəmbər (s) buyurur:

«Allaha və axirət gününə iman gətirmiş şəxs öz qonşusuna əziyyət etməməlidir».[5]

Ənsardan biri həzrət Peyğəmbərin (s) yanına gəlib deyir:

«Ya Rəsuləllah! Filan qəbilənin yanında bir ev aldım. Qonşu olacağım şəxsdən mənə xeyir dəyəcəyinə ümid etmirəm, həmçinin zərərinin yetişməyəcəyindən də arxayınam». Həzrət Peyğəmbər (s) üzünü imam Əli (ə), Salman, Əbuzər və Miqdada tutub buyurur:

«Məscidə gedib uca səslə deyin: Qonşusu əzab-əziyyətindən əmin olmayan şəxs iman gətirməmişdir».[6]

Başqa bir rəvayətdə deyilir: Bir şəxs həzrət Peyğəmbərin (s) yanına gəlib öz qonşusundan şikayətlənir. Həzrət Peyğəmbər (s) ona səbr etməyi tövsiyə edərək buyurur:

---

[1] Ğurərul-hikəm.
[2] Ğurərul-hikəm.
[3] Biharul-ənvar, 74-cü cild.
[4] Üsuli-kafi, 2-ci cild.
[5] Biharul-ənvar, 43-cü cild, 3-cü fəsil.
[6] Vəsailuş-şiə, 8-ci cild, səh.487.

«Səbr et! Bəlkə o öz rəftarını dəyişsin».

Şikayət üçün ikinci dəfə həzrət Peyğəmbərin (s) yanına gəldikdə yenə də ona səbr etməyi tövsiyə edir. Üçüncü dəfə şikayətə gəldikdə isə həzrət Peyğəmbər (s) buyurur:

«Cümə günü ev əşyalarını bayıra çıxarıb camaatın gəlib-getdiyi yolun üstünə qoy. Onlar səndən bunun səbəbini soruşduqda de ki, qonşum mənə əziyyət etdiyi üçün belə edirəm».

Həmin şəxs həzrət Peyğəmbərin (s) dediyi kimi də edir. Qonşusu el arasında rüsvay olacağını görüb yalvar-yaxar edərək evinə qayıtmasını xahiş edir və söz verir ki, bundan sonra bir daha onun narahatçılığına səbəb olacaq heç bir iş görməyəcəkdir.

Nəql olunmuş rəvayətlərdə həmçinin qonşuların çətinlikləri ilə maraqlanmağa və bu işdə səhlənkarlığa yol verməməyə təkid olunur. Həzrət Peyğəmbər (s) buyurur:

«Qonşusu ac olduğu bir halda tox qarına yatan şəxs müsəlman deyildir».[1]

Başqa bir rəvayətdə həzrət Əli (ə) həzrət Peyğəmbərdən (s) nəql edərək buyurur:

«Qonşusu ac olduğu bir halda tox qarına yatan şəxs Allaha və axirət gününə iman gətirməmişdir».

Səhabələr heyrətə gələrək soruşdular: «Elə isə vay bizim halımıza!» Həzrət Peyğəmbər (s) buyurdu:

«Yediyiniz xurma və yeməklərinizin artığı, pul, əxlaq və artıq paltarlarınızla Allahın qəzəbini yatırın».

Yəni yediyiniz yemək, geydiyiniz paltar, pul və s. şeyləri sədəqə verməklə Allahın razılığını qazanmağa çalışın.[2]

Bunu da qeyd etmək lazımdır ki, rəvayətlərdə qonşu deyildikdə dörd tərəfdən ətrafdakı qırx ev nəzərdə tutulur.

Həzrət Əli (ə) buyurur:

«Məscidin sahəsi qırx addım, qonşuluq isə hər dörd tərəfdən qırx ev hesab olunur».[3]

İslamın böyük alim və görkəmli şəxsiyyətləri həzrət Peyğəmbər (s) və məsum imamların sünnəsinə tabe olaraq qonşunun hüququna riayət edilməsinə böyük diqqət yetirmişlər.

Misal olaraq onlardan bir neçəsinə işarə edirik:

Görkəmli fiqh alimlərindən olan mərhum şeyx Seyyid Cavad Amili öz xatirələrində yazır: «Günlərin bir günündə axşam yeməyini yediyim zaman illər boyu elmindən bəhrələndiyim mərhum ustad Bəhrul-ülumun xidmətçilərindən biri qapını döyüb məni səslədi. Qapını açdıqda dedi: «Ustad sizi çağırır, şam süfrəsi kənarında əyləşib amma siz gəlməyincə yeməyə əlini yeməyə uzatmayacaq.» Tələm-tələsik evdən çıxıb ustadın evinə gəldim. Evə daxil olduqda əsəbi halda üzünü mənə tutub dedi: Heç Allahdan çəkinmirsən?! Ustadın bu sözlərindən

---

[1] Kənzul ummal, 24929-cu hədis.

[2] Biharul-ənvar, 77-ci cild, 7-ci fəsil.

[3] Biharul-ənvar, 74-cü cild, 9-cu fəsil.

heyrətə gələrək təəccüblə soruşdum: Deyə bilərsinizmi təqsirim nədir? Dedi: «Yeddi gündür qonşun ailəsi üçün yemək tədarükü görə bilmir və neçə müddətdir ki, qonşuluqdakı dükandan ucuz xurmalar nisyə götürür. Bu gün də xurma almaq üçün dükana gedib, dükançı borcunun çoxaldığını bəhanə gətirib ona nisyə heç bir şey verməyib. O da xəcalət çəkərək kor-peşiman evinə qayıdıb və bu gün ailəsi ac qalıbdır.»

Dedim: Ustad! And olsun Allaha, bütün bunlardan xəbərsizəm, yoxsa əlimdən gələn köməyi əsirgəməzdim.

Dedi: «Məni də narahat edən budur ki, nə üçün bu müddət ərzində qonşundan xəbər tutmayıb, ac qaldıqları günlərdə onlara heç bir köməklik etməmisən. Əgər xəbərin olan halda kömək etməsəydin müsəlman yox, yəhudi hesab olunardın». Sonra yeməklə dolu sinini mənə verib dedi: «Xidmətçi ilə birlikdə həmən şəxsin evinə gedin və bu yeməkləri ona verib deyin ki, bu gün şam yeməyini birlikdə yeyəcəyik.» Sonra ayağa qalxıb bir qədər pul verib dedi: «Bu pulu da süfrənin altına qoyarsan....»

Mərhum Seyyid Bəhrul-üluma bu haqda kimsənin məlumat vermədiyi bir halda, bütün bunlardan necə xəbərdar olması söhbətimizdən xaricdir. Lakin, dediklərimizdən bu nəticəyə gəlmək olur ki, bu kimi böyük şəxsiyyətlər yaşadıqları cəmiyyətin sosial vəziyyəti ilə yaxından maraqlanmış və qonşuların hüquqlarının riayət olunmasına xüsusi diqqət yetirmişlər.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Həzrət Peyğəmbərin (s) qonşular haqda etdiyi tövsiyələrdən birini deyin.
2. Həzrət Əli (ə) qonşularla gözəl rəftar etmək haqda nə buyurmuşdur?
3. Qonşulara əziyyət etmək haqda nəql olunmuş rəvayəti nəql edin.
4. Seyyid Bəhrul-ülum qonşusundan xəbərsiz olan şəxs barədə nə buyurmuşdur?

## ALTINCI DƏRS

## *ƏXLAQİ DAVRANIŞLAR*

Cəmiyyət arasında düzgün əlaqə və rabitə bərqərar etmək üçün bir sıra meyarlara riayət etməliyik ki, ilk növbədə özümüzü gözəl şəxsiyyət və bir ideal insan kimi tanıtdıra bilək. Çünki, bir tərəfdən gözəl əxlaq və davranış tərzi görməklə camaatda bizə qarşı rəğbət hissi yaranacaq, digər tərəfdən də özümüz insani [mənəvi] dəyərlərə nail olacağıq. Və eyni zamanda başqalarının bizim üzərimizdə nə kimi hüquqlara malik olduqlarını bilməli və onların hüquqlarının tapdalanmasına yol verməməliyik.

Bu meyarlar ümumiyyətlə iki hissəyə bölünür: Onlardan biri başqalarının qarşısında nümayiş etdirməli olduğumuz xüsusiyyət və rəftar normaları, digəri isə tərk etməyimiz zəruri olan bəzi xoşagəlməz xislət və xüsusiyyətlərdir. Başqa sözlə desək, birinci dəstəyə aid olan meyarlar islam dininin bizlərə tövsiyə etdiyi gözəl əxlaqi xüsusiyyətlər, ikinci hissəyə aid olanlar isə ictimai həyatımızda tərk etməyimiz zəruri olan bir sıra mənfi xüsusiyyətlərdir. Demək, ictimai həyatın normal hal tapması üçün biz ilk növbədə mənfi xüsusiyyətlərdən çəkinməli və gözəl əxlaqa malik olmalıyıq. Gözəl əxlaqa malik olmaq və xoşagəlməz xüsusiyyətlərdən çəkinməyə də «əxlaqi davranış» deyilir. Bu dərsimizdə onların hər biri haqda ayrı-ayrılıqda söhbət açacağıq.

## *GÖZƏL XÜSUSİYYƏT*

İctimai həyat və əlaqələrin bərqərar olunmasında hamı başqalarının hörmət və ehtiramını qazanmaq istəyir. İnsanlarda cəmiyyət arasında hörmət və nüfuz sahibi olmaq marağı, onlarda qürbət və təklikdən qorxu hissindən yaranmışdır. Çünki, bir qədər əvvəl qeyd etdik ki, insanın bir çox maddi-mənəvi və ruhi ehtiyacları ictimai əlaqələri bərqərar etməklə təmin olunur. Bu kimi ehtiyacların tək başına təmin olunması sadəcə olaraq qeyri-mümkündür. Bu səbəbdən də insan, ehtiyaclarının aradan qaldırılmasında başqalarından asılı olduğunu hiss edir. Təklik və qürbət hissi onu kədərləndirir və çıxış yolu axtarmağa vadar edir. Beləliklə də maddi-mənəvi ehtiyaclarının aradan qaldırılamasını yaşadığı cəmiyyətdə ictimai əlaqələrin bərqərar olunmasında görür. Normal əlaqələrin bərqərar olunması üçün də ondan cəmiyyətin fəal bir üzvünə çevrilməsi, ictimaiyyətdə müəyyən bir [müsbət] mövqeyə malik olması tələb olunur. Bununla da insan başqalarından bir çox müsbət xüsusiyyətlər öyrənərək özünün insani xüsusiyyətlərini büruzə verir, müəyyən üstünlüklər əldə edir və eyni zamanda maddi ehtiyaclarının təmin olunmasına nail olur. İnsanların qəlblərinə yol tapmağın və onların razılığının qazanılmasının ən başlıca amili «gözəl əxlaq və xüsusiyyətə» malik olmaqdır. «Gözəl əxlaq» təkcə insanların razılığını əldə etməyin başlıca amili deyil, bir çox digər insani dəyərlərin də əsasını təşkil edir. Yəni, insan «gözəl əxlaqa» malik olmayınca, onda digər insani dəyərlər özünü büruzə vermir. Məsələn, «gözəl əxlaqa» malik olmayan bir şəxsdə şücaət, səxavətlilik və bu kimi digər xüsusiyyətlər müşahidə olunsa da, onlar öz həqiqi dəyərlərini tapmır. Gülərüz və mehribançılıqla verilməyən hədiyyəni kimsə qəbul

etmir. Demək, bütün müsbət keyfiyyətlər yalnız o zaman özünün həqiqi dəyərini tapa bilər ki, bu xüsusiyyətlərə malik olan hər bir şəxs «gözəl əxlaqa» yiyələnmiş olsun.

Əxlaqın tərifində deyilir:

«Əxlaq - elə bir daxili hissiyyata deyilir ki, digər müsbət xüsusiyyətlərlə yanaşı, insanı başqaları ilə gözəl ünsiyyətdə olmağa da sövq etmiş olsun».

İmam Sadiq (ə)-dan nəql olunmuş rəvayətlə bu tərif arasında sıx bağlılıq vardır. Belə ki, imam Sadiq (ə)-dan «gözəl əxlaq nədir?» - deyə soruşduqda buyurur:

«Gözəl əxlaq odur ki, başqaları ilə şirin dillə danışıb mehribanlıqla rəftar etmiş olasan və müsəlman qardaşınla görüşdükdə onu gülər üzlə qarşılayasan»[1]

Gözəl əxlaqa yiyələnməyin və başqaları ilə gözəl ünsiyyətdə olmağın fəziləti haqda həzrət Peyğəmbər (s) və Məsum imamlardan kifayət qədər hədis və rəvayət nəql olunmuşdur. Misal olaraq burada onlardan bir neçəsini gətiririk:

«Sizin ən yaxşınız, ən gözəl əxlaqa yiyələnənlərinizdir. Gözəl əxlaq sahibləri o kəslərdir ki, bir-birləri ilə qarşılaşarkən təvazökarlıq edər və başqaları ilə daim gözəl ünsiyyətdə olaraq evinin qapsını onların üzünə açıq qoyarlar».[2]

«Gözəl əxlaqa yiyələnənlərin savabı gecələri ibadətlə keçirən və gündüzləri oruc tutan şəxsin savabı qədər olar».[3]

«Qiyamət günü insanların əməl tərəzilərinə qoyulacaq ilk şey onların gözəl əxlaqı olacaqdır».[4]

«Qiyamət günü əməl tərəzisində gözəl əxlaqdan ağır şey olmayacaqdır».[5]

«Qiyamət günü mənə ən yaxın olanınız və ən sevimliniz gözəl əxlaqa yiyələniniz olacaqdır».[6]

Həzrət imam Əli (ə) buyurur:

«Sizin üçün gözəl əxlaqdan yaxşı heç bir şey yoxdur».[7]

İmam Həsən (ə) buyurur:

«Ən gözəl yaxşılıq, gözəl əxlaqdır».[8]

İmam Baqir (ə) buyurur:

«Sizin ən yaxşılarınız ən xoş rəftar olanlarınızdır; Belə şəxslər mülayimliklə bir-birlərinə xidmət edər, digərləri ilə ünsiyyət yaradar və digərləri də onlarla ülfət taparlar; bu insanların qapısı hamının üzünə açıq olar.»[9]

Bütün bunlar məsum imamlardan (ə) əxlaq barəsində nəql olunmuş rəvayətlərin yalnız bir neçəsidir. Qələm surəsinin 4-cü ayəsində Allah-taala Öz Peyğəmbərini (s) belə bir gözəl ifadələrlə vəsf edir:

***«Doğrudan da sən böyük bir əxlaq sahibisən!»***

---

[1] Biharul ənvar, 71-ci cild, 92-ci fəsil.
[2] Üsuli-kafi, 2-ci cild.
[3] Üsuli-kafi, 2-ci cild.
[4] Biharul ənvar, 71-ci cild, 92-ci fəsil.
[5] Biharul ənvar, 71-ci cild, 92-ci fəsil.
[6] Həmin mənbə.
[7] Həmin mənbə.
[8] Həmin mənbə.
[9] Həmin mənbə.

Başqa bir ayədə Allahın mərhəməti sayəsində Peyğəmbərin (s) gözəl əxlaqa yiyələnməsi, insanların ona iman gətirməsinin əsas səbəbi kimi göstərilir:

***«Ya Məhəmməd! Allahın mərhəməti səbəbinə sən onlarla yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə onlar sənin ətrafından dağılıb gedərdilər...»***[1]

Həzrət Peyğəmbərə (s) hamıdan yaxın olan və onu hamıdan daha yaxşı tanıyan Əmirəl-mö᾽minin Əli (ə) o həzrətin şəxsiyyəti haqda buyurur:

«O, hamıdan mehriban, bağışlayan, hövsələli, düzdanışan və əhdə vəfa edən idi. Hamı ilə gözəl rəftar edər və xoş ünsiyyətdə olardı. Onu ilk dəfə görənlər vəcdə gələr, əxlaq və rəftarına heyran olardı. Ünsiyyətdə olan şəxslər dərhal onu tanıyır və onu sevməyə başlayardılar. Ondan əvvəl və sonra onun kimi ikinci bir şəxs görmədim».[2]

Əli (ə) Peyğəmbərin (s) digər xüsusiyyətləri haqda deyərdi:

«Həzrət Peyğəmbər (s) bir yəhudiyə pul borclu idi. Günlərin bir günündə həmən şəxs həzrət Peyğəmbərin (s) yanına gəlib borcunun qaytarılmasını istədi. Həzrət Peyğəmbər (s) buyurdu:

«Hələlik sənin pulunu qaytara bilməyəcəyəm, bir qədər səbr et!»

Yəhudi dedi: Pulumu qaytarmayınca buradan heç bir yerə gedən deyiləm. Peyğəmbər (s) buyurdu:

«Elə isə mən də sənin yanında oturacağam».

Onlar səhərdən axşamadək bir yerdə oturdular və həzrət Peyğəmbər (s) namazlarını da elə oradaca qıldı. Səhabələr bu əhvalatdan narahat olub həmən şəxsə hədə-qorxu gələrək xəbərdarlıq etməyə başladılar. Peyğəmbər (s) üzünü onlara tutub buyurdu:

«Bu necə rəftardır onunla edirsiniz?»

Dedilər: Ya Rəsuləllah! (Bu nə işdir,) elə bil burada sizi həbs etmişdir. Buyurdu:

«Allah-taala məni başqalarına zülm etmək üçün peyğəmbərliyə göndərməmişdir».

Həmin günün səhəri zöhr namazı vaxtı həmən yəhudi məscidə gəldi və islamı qəbul edib müsəlman oldu.

Sonra üzünü Peyğəmbərə (s) tərəf tutub dedi: And olsun Allaha! Əgər Tövratda sənin barəndə deyilənləri oxumasaydım belə etməzdim. Orada sənin barəndə deyilir:

***«Allahın peyğəmbəri Məhəmməd ibni Abdullahın doğulduğu yer Məkkə, hicrət edəcəyi yer isə Mədinədir. O nə tünd xasiyyətli və nə də əsəbidir. Başqaları ilə səmimiyyət və mehribanlıqla rəftar edər. Kimsəni nə söyər, nə də təhqir edər».***

Mən də Allahın birliyinə və sənin peyğəmbərliyinə iman gətirib öz var-dövlətimi Allah yolunda sədəqə verirəm. Bunlar mənim var-dövlətimdir. İstədiyin kimi hökm verə bilərsən.

---

[1] Ali İmran surəsi, ayə 159.

[2] Biharul ənvar, 16-cı cild, 9-cu fəsil, 35-ci hədis.

Rəvayəti nəql etməkdə əsas məqsəd, həm həzrət Peyğəmbərin (s) xüsusiyyətlərindən biri, həm də Əhzab surəsinin 21-ci ayəsi ilə tanışlıqdır. Orada deyilir:

***«Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər [Allahdan, qiyamət günündən qorxanlar] və Allahı çox zikr edənlər üçün gözəl nümunədir!»***

Bilməliyik ki, islam zühur etdikdən sonra həzrət Peyğəmbərin (s) vasitəsilə islamı qəbul edən şəxslərin əksəriyyəti məhz onunla ünsiyyətdə olduqdan və onun gözəl insani xüsusiyyətlərinin şahidi olduqdan sonra bu ilahi dini qəbul etmişlər.

## *ƏXLAQ VƏ GÖZƏL DAVRANIŞIN NƏTİCƏLƏRİ*

Cəmiyyətdə gözəl əxlaq nümayiş etdirmək və insanlarla gözəl davranmaq bir çox müsbət nəticələr verir. Onlardan bəziləri o qədər aşkardır ki, əsla izaha heç bir ehtiyacı yoxdur.

Buna baxmayaraq həzrət Peyğəmbər (s) və məsum imamlardan (ə) nəql olunmuş rəvayətlərdən istifadə edərək onlardan bir neçəsi haqda söhbət açacağıq.

Peyğəmbər (s) buyurur:

«Gözəl əxlaq ruzinin artmasına səbəb olur».[1]

İmam Əli (ə) buyurur:

«Gözəl əxlaq ruzini artırır və dostları bir-birləri ilə munis edir».

Yəni, daim bir-birləri ilə səmimi ünsiyyətdə olmalarına səbəb olur.[2]

«Xoşxasiyyət şəxslərlə ünsiyyətdə olmaq istəyənlər və onları sevənlərin sayı çox olar».[3]

«Həqiqətən gözəl əxlaq və davranış ömrü uzun, şəhərləri isə abad edir».

«Günəş dərini qurutduğu kimi, gözəl rəftar da səhv və günahları qurudub aradan aparır. Sirkə balı xarab etdiyi kimi, kobud rəftar da əməlləri məhv edir».[4]

Göründüyü kimi İmamlar (ə) bir tərəfdən bizləri gözəl davranışa sövq edir, digər tərəfdən isə xoşagəlməz rəftar və davranışlardan çəkindirərək bunun nə ilə nəticələnəcəyini çatdırırlar.

Peyğəmbər (s) buyurur:

«Xoşa gəlməz davranış, bağışlanmaz bir günahdır».[5]

İmam Əli (ə) buyurur:

«Kobud rəftar ən pis xüsusiyyətdir».[6]

«Pis davranış həyatın acısı və sağlamlıq üçün bir təhlükədir).[7]

«Kobud rəftar səmimiyyət və mehribançılığı aradan aparır, insanı daim qorxu içində saxlayır».[8]

«Kobud rəftar yaxınları qorxudur, özgələrin nifrətinə səbəb olur».[1]

---

[1] Biharul ənvar, 71-ci cild.
[2] Ğurərul-hikəm.
[3] Ğurərul-hikəm.
[4] Biharul ənvar, 71-ci cild.
[5] «Mizanul-hikmət», 1115-ci fəsil.
[6] Ğurərul-hikəm.
[7] Ğurərul-hikəm.
[8] Ğurərul-hikəm.

Peyğəmbər (s) buyurur:
«Bu iki xisləti möminlərdə görmək olmaz: Paxıllıq və kobud rəftar».[2]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. İslam alimləri əxlaqı necə tərif etmişlər?
2. Allah-taala Qurani-kərimdə Peyğəmbərin (s) gözəl əxlaqını necə vəsf edir?
3. Peyğəmbərin (s) əxlaqi davranışlardan birini nəql edin.
4. Gözəl davranışın qoyduğu təsirlərdən biri haqda danışın.

5 Peyğəmbər (s) kobud rəftar haqda nə buyurmuşdur?

---

[1] Ğurərul-hikəm.

[2] «Mizanul-hikmət», 1115-ci fəsil.

# YEDDİNCİ DƏRS

## *TƏVAZÖKARLIQ*

Gözəl əxlaqa malik olduqdan sonra yaşadığı cəmiyyətdə hər bir şəxsə zəruri olan xüsusiyyətlərdən biri də təvazökarlıqdır. Allah-taala əməli-saleh insanların məziyyətlərini sadalayarkən təvazökarlığı ən mühüm xüsusiyyətlərdən biri kimi göstərir.

Furqan surəsinin 63-cü ayəsində buyurulur:

***«Rəhmanın [əsil] bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə təvazökarlıqla gəzər, cahillər onlara söz atdıqları [xoşlarına gəlməyən bir söz dedikləri] zaman onlarla gözəl, yumuşaq danışarlar».***

Göründüyü kimi, ayədə göstərilən təvazökarlıq hər bir əməli-saleh insanın yol getdiyi zaman özündən büruzə verdiyi ən başlıca xüsusiyyətdir. Çünki, insan yol gedərkən özündən asılı olmayaraq batini xüsusiyyətlərini nümayiş etdirir. Belə ki, hər bir təvazökar və ya təkəbbürlü insanı onun rəftarından, yol getməyindən və ya oturub-durmasından tanımaq olar.

Bu səbəbdən də Əli (ə) təvazökarlığı pəhrizkar və əməli-saleh insanların səciyyəvi xüsusiyyəti kimi qiymətləndirib buyurur:

«Pəhrizkarlar təvazökarlıqla yol gedərlər».

Başqa bir ayədə Allah-taala möminlərə dindən çıxdıqları və ya uzaq düşdükləri təqdirdə onları başqa bir qövm ilə əvəz edəcəyi haqda xəbərdarlıq edib buyurur:

***«Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, [bil ki] Allah [onun yerinə] elə bir tayf gətirər ki, Allah onları, onlar da Allahı sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar...»***[1]

Peyğəmbər (s) təvazökarlığı insanın vüqar və baş ucalığı hesab etmişdir:

«Həqiqətən təvazökarlıq insana baş ucalığı və yüksək məqam nəsib edir. Elə isə təvazökar olun ki, Allah-taala sizləri başı uca və vüqarlı etsin».[2]

Başqa bir yerdə buyurulur:

«Hər kəs Allaha xatir təvazökarlıq etsə, Allah-taala onu vüqarlı edər; həmən şəxs özünü nə qədər zəif hesab edərsə, camaatın nəzərində bir o qədər ucalar və hamının rəğbətini qazanmış olar».[3]

İmam Sadiq (ə) buyurur:

«Loğman oğluna tövsiyə edərək buyurdu: Təvazökarlıqdan böyük insana vüqar və başı ucalıq gətriən bir şey yoxdur. Təvazökar insan, Allah qarşısında ən yüksək məqama nail olar».[4]

«Allahın mələklərindən ikisi daim insanlara nəzarət edərlər. Allaha görə təvazökarlıq edənlərin məqamını yüksəldər, təkəbbür və lovğalıq edənləri isə xar və rüsvay edərlər».[5]

---

[1] Maidə surəsi 54.
[2] Biharul ənvar, 18-ci cild, 4-cü fəsil, 2-ci hədis.
[3] Kənzul-ummal, 3-cü cild, səh.113, 5137-cü hədis.
[4] Mişkatul-ənvar, 226-cı səhifə.
[5] Biharul ənvar, 59-cu cild, 23-cü fəsil, 50-ci hədis.

Peyğəmbər (s) və Məsum imamlardan (ə) təvazökarlığa dair bir çox hədis və rəvayətlər nəql olunmuşdur və biz burada onlardan bir neçəsini gətirməklə kifayətlənirik.

İmam Əli (ə) buyurur:

«Şərəfli insanın zinəti təvazökarlıqdır».[1]

«Təvazökarlıq şərəf və ucalığın zəkatıdır».[2]

İmam Əli (ə) övladı imam Həsən Müctəbaya etdiyi tövsiyələrin birində buyurur:

«Sənə təvazökar olmağı tövsiyə edirəm. Çünki, təvazökarlıq ibadətlərin ən böyüyüdür».[3]

İmam Həsən Əsgəri (ə) buyurur:

«Təvazökarlıq elə bir nemətdir ki, kimsə ona həsəd aparmayır».[4]

Diqqət yetirmək lazımdır ki, təvazökarlıq dedikdə hər bir şəxsə layiqincə ehtiram etmək və özümüzü onlardan üstün tutmamaq nəzərdə tutulur. Bunu da nəzərdən qaçırmamalıyıq ki, təvazökarlıq yalnız Allaha xatir edilməli və bu işdə də ən başlıca məqsəd Allahın razılığını qazanmaq olmalıdır. Zalım, lovğa, kafir və müşrik şəxslərə gəldikdə isə, onların qarşısında əsla təvazökarlıq edilməməlidir.

Təvazökarlıq ayrı-ayrı şəxslərin daşıdığı ictimai mövqe, vəzifə və məqamına görə deyil, onların iman və təqvasına görə olmalıdır.

Peyğəmbər (s) və imam Sadiq (ə)-dan nəql olunmuş rəvayətdə deyilir:

«Varlıların var-dövlətinə xatir onların qarşısında təvazökarlıq edən şəxs dininin üçdə ikisini itirmiş olur».[5]

Əli (ə) buyurur:

«Dövlətlilərin Allaha xatir [Onun razlığını əldə etmək üçün] yoxsulların qarşısında təvazökarlıq etmələri necə də gözəl xüsusiyyətdir. Ondan da yaxşı rəftar, yoxsulların Allaha arxalandıqları üçün, varlıların var-dövlətinə etinasız yanaşmalarıdır».[6]

İslam dini iman və təqvadan savayı başqa bir yüksək meyar təyin etmədiyi üçün, insanların var-dövlətlərinin və cəmiyyətdə tutduqları yüksək mövqelərinin qarşısında deyil, onların ali-mənəvi şəxsiyyətlərinin və təqvalarının qarşısında təvazökarlıq etmələrini tövsiyə edir. Bunu da nəzərə almalıyıq ki, hər şeydə olduğu kimi, təvazökarlıq etməkdə də həddi aşıb ifrat və təfritə varmamalıyıq. Çünki, təvazökarlıq həddindən artıq edildikdə insanın şəxsiyyətinə xələl gətirir və lazım olduğundan az edildikdə isə insanda lovğalıq və təkəbbür hisslərinin yaranmasına səbəb olur. Bu səbəbdən də təkəbbürdən qurtarmaqla yanaşı, həddindən artıq təvazökarlıq etməkdən də çəkinmək lazımdır. Qeyd etdiyimiz kimi, təkəbbürlü şəxslərin qarşısında təvazökarlıq etmək olmaz. Çünki, bu iş həmin şəxsin onların qarşısında kiçilməsinə, həm də onların daha da lovğa və təkəbbürlü olmalarına səbəb olur.

---

[1] Biharul ənvar, 75-ci cild, 51-ci fəsil, 11-ci hədis.
[2] Biharul ənvar, 75-ci cild, 51-ci fəsil, 11-ci hədis.
[3] Biharul ənvar, 75-ci cild, 51-ci fəsil, 11-ci hədis.
[4] Biharul ənvar, 78-ci cild, 29-cu fəsil, 1-ci hədis.
[5] Biharul ənvar, 73-cü cild, 122-ci fəsil, 58-ci hədis.
[6] Biharul ənvar, 72-ci cild, 94-cü fəsil, 57-ci hədis.

## *TƏVAZÖKARLIĞIN ƏLAMƏT VƏ LAZIMI HƏDDİ*

Təvazökarlığın əlamətlərini və hansı həddə olmasını bilmək üçün hər şeydən əvvəl Məsum imamlardan (ə) bu barədə nəql olunmuş rəvayətlərə diqqət yetirməliyik. İmam Riza (ə)-dan təvazökarlığın hansı həddə olmasını soruşduqda buyurur:

«İnsanları sevdiyin qədər onlara qarşı təvazökar ol ki, onlar da sənə qarşı bir o qədər hörmət etsinlər».[1]

İmam Sadiq (ə) buyurur:

«Təvazökarlıq ona deyilir ki, iştirak etdiyin məclis sənin səviyyəndən aşağı olsa belə, orada olmağına razı olasan; qarşılaşdığın hər bir şəxs ilə görüşüb hal-əhval tutasan; haqlı olsan belə, mübahisə etməkdən çəkinəsən; unutma ki, bütün xeyir və yaxşılıqlar təvazökarlıqdan irəli gəlir».[2]

Başqa bir rəvayətdə buyurur:

«İnsan pəhrizkar olduğuna görə başqalarının onu sevmələrinə can atmamalıdır».[3]

## *TƏVAZÖKARLIĞIN NƏTİCƏLƏRİ*

Təvazökarlığın müsbət nəticələrindən biri imam Musa Kazım (ə)-dan nəql olunmuş rəvayətdə belə izah olunur:

«Belə bir ilahi hikmət təvazökar insanın qəlbində özünə yer tapır, amma təkəbbürlü insanlar isə belə bir gözəl insani xüsusiyyətdən məhrumdurlar. Çünki, Allah-taala təvazökarlığı əql, təkəbbürü isə cəhl və nadanlıq üçün bir vasitə qərar vermişdir».[4]

Buna oxşar başqa bir rəvayətdə deyilir:

«Günlərin bir günü İsa (ə) üzünü Həvarilərinə tutub buyurdu:

Bir istəyim var, əgər onu yerinə yetirəcəyinizə söz verirsinizsə, deyim.

Hamı bir nəfər kimi dedi: Hər nəyi əmr etsən tabe olacağıq. İsa (ə) ayağa qalxıb bir-bir onların ayaqlarını yudu. Həvarilər utandıqlarından xəcalət hissi keçirdilər. Lakin tabe olacaqlarına söz verdikləri üçün İsa (ə)-a bir söz demədilər. O da bir-bir onların ayaqlarını yuyub ayağa qalxdı. Həvarilər dedilər:

Sən bizim müəllimimiz və tərbiyəçimizsən, yaxşı olardı ki, biz sənin ayaqlarını yuyaq.

İsa (ə) buyurdu:

Bu işi görməklə insanlara xidmət etməyin ən xeyirxah iş olduğunu demək istəyirdim. Bu işlə həm özüm təvazökarlıq etmiş oldum, həm də sizlərə təvazökarlıq dərsini öyrətdim.

Məndən sonra insanların hidayət olunmalarını öz öhdənizə götürdükdə təvazökarlığı hər şeydən üstün tutun və bilin ki, toxum qayalıqlarda yox, yumşaq torpaqda bitdiyi kimi, təvazökarlıq da [sağlam qəlblərdə] özünə yer tapır.»

---

[1] Biharul ənvar, 71-ci cild, 63-cü fəsil, 11-ci hədis.
[2] Biharul ənvar, 75-ci cild 51-ci fəsil, 20-ci hədis.
[3] Biharul ənvar, 2-ci cild, 17-ci fəsil, 20-ci hədis.
[4] Biharul ənvar, 14-cü cild, 21-ci fəsil, 17-ci hədis.

Həzrət Əli (ə)-dan nəql olunmuş rəvayətlərdə təvazökarlığın verdiyi müsbət nəticələr belə bəyan olunur:

«Təvazökarlığın səmərəsi dostluq və məhəbbət, təkəbbürün səmərəsi isə kin-küdurət və düşmənçilikdir.»[1]

«Təvazökarlıq, salamatçılığı sənin üçün ərməğan gətirər».[2]

«Təvazökarlıq sizlərə vüqar və ucalıq libasını geyindirər».[3]

Peyğəmbərdən (s) nəql olunmuş başqa bir rəvayətdə deyilir:

«Allah-taala təvazökar olmağı əmr etmişdir ki, biriniz digərinizin haqqını tapdayıb öyünməyəsiniz».[4]

Bütün bunları nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, sülh və səmimiyyət, dostluq və qardaşlıq, sağlam həyat və gözəl əxlaqla başa vurulan həyat təvazökarlığın verdiyi müsbət nəticələrdəndir.

Dərsimizi Peyğəmbər (s) və Məsum imamların təvazökar həyat tərzlərinə dəlalət edən iki rəvayəti ilə başa vururuq:

1. «Bir gün Peyğəmbər (s) öz səhabələri ilə səfər zamanı bir yerdə düşərgə qurmalı olurlar. Belə qərara gəlirlər ki, bir qoyun kəsib ətini kabab etsinlər. Səhabələrdən biri qoyunun kəsilməsini, başqa birisi soyulmasını, digəri isə bişirilməsini öz öhdəsinə götürür. Beləliklə, yemək hazırlamaq üçün hərə öz üzərinə bir məsuliyyət götürdü. Peyğəmbər (s) hər kəsin bir işi üzərinə götürdüyünü görüb buyurur: Elə isə odun yığmaqda mənim boynuma. Səhabələrdən biri dedi: Ya Rəsuləllah! Sizin zəhmət çəkməyiniz lazım deyil. Biz özümüz nə lazımsa edəcəyik. Peyğəmbər (s) buyurdu: Bilirəm ki, siz bu işləri görəcəksiniz. Lakin, Allah-taala özünü başqalarından fərqləndirən şəxsləri sevmir. Bunu deyib səhraya tərəf getdi və kifayət qədər quru odun yığdı.»

İmam Həsən Əsgəri (ə)-dan nəql olunan digər rəvayətdə deyilir:

«Bir gün Əli (ə)-ın evinə iki nəfər qonaq gəlir. Onlardan biri ata, digəri isə onun övladı idi. O həzrət onları gülər üzlə qarşılayıb evə dəvət etdi və özü də onların qarşısında oturdu.

Sonra buyurdu ki, yemək gətirsinlər. Yemək yeyib qurtardıqdan sonra həzrətin xidmətçisi Qənbər əl yumaq üçün ləyən və su gətirdi. Əli (ə) dolçanı Qənbərin əlindən alıb özü qonaqların əlinə su tökməyə başladı. Yaşca böyük olan şəxs xəcalət çəkdiyindən nə edəcəyini bilməyib yerindən qalxaraq dedi: Ya Əmirəl-möminin! Allah sənin mənim əlimə su tökdüyünü görürmü?

Əli (ə) buyurdu:

Otur əllərini yu. Allah həm səni, həm də özünü səndən üstün tutmayan və axirətdə dünya əhlinin ona on dəfə çox xidmət etmək məqsədilə sənə xidmət edən bəndəsini də görür. Sonra qonağı yerində oturdub buyurdu:

Səni and verirəm Allaha! Qənbər əlinə su tökərkən özünü nə qədər rahat hiss edirsənsə, indi də özünü bir o qədər rahat hiss et və əllərini yu.

O həzrət sözlərini bitirib suyu qonağın əllərinə tökdü. Yaşca böyük olan qonaq əllərini yuyub qurtardıqdan sonra həzrət Əli (ə) dolçanı oğlu Məhəmməd

[1] Ğürərul-hikəm, 3-cü cild, 327-ci səh.
[2] Biharul ənvar, 75-ci cild, 51-ci fəsil, 11-ci hədis.
[3] Biharul ənvar, 77-ci cild, 14-cü fəsil, 1-ci hədis.
[4] Kənzül-ümmal, 3-cü cild, 110-cu səhifə, 5722-ci hədis.

Hənəfiyyəyə verib buyurdu: Əgər bu oğlan tək mənə qonaq gəlsəydi, mən özüm onun əllərinə su tökərdim. Amma Allah-taala ata ilə oğul arasında eyni səviyyədə ehtiram qoyulmasını istəmir. Ata, atanın əlinə su tökdüyü kimi, oğul da oğulun əlinə su tökməlidir. Məhəmməd Hənəfiyyə dolçanı alıb qonağın əlinə su tökdü.

İmam Həsən Əsgəri rəvayəti nəql etdikdən sonra buyurur:

Hər kim Əlidən belə örnək götürərsə, onun həqiqi tərəfdarlarından olar».[1]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Təvazökarlığı izah edin.
2. Allah-taala Furqan surəsinin 63-cü ayəsində əməli-saleh insanların ilk növbədə hansı xüsusiyyətini qeyd edir?
3. İmam Riza (ə) təvazökarlığın lazımi həddi barədə nə buyurur?
4. Təvazökarlıq nə kimi müsbət nəticələr verir?

[1] Biharul ənvar, 41-ci cild, 105-ci fəsil, 5-ci hədis.

## SƏKKİZİNCİ DƏRS

### *ƏHDƏ VƏFALI OLMAQ*

İctimai əlaqələrin bərqərar olunmasında hər bir müsəlmana zəruri olan digər əxlaqi xüsusiyyətlərdən biri də əhdə vəfalı olmaqdır.

Qurani-Kərimin bir çox ayələrində və Məsum imamlardan nəql olunmuş rəvayətlərdə bu məsələyə böyük əhəmiyyət verilmişdir. Bağlanılan bütün əhd-peymanlara əməl etməyi Quran vacib hesab edir:

***«...Əhdə vəfa edin. Çünki [insan] əhd barəsində [qiyamət günü] cavabdehdir. [İnsan verdiyi əhdi yerinə yetirib-yetirmədiyi haqda sorğu-suallara tutulacaqdır]».***[1]

***«Ey iman gətirənlər! Əhdlərə sadiq olun...»***[2]

Əhd-peymana əməl olunmasının zəruri olduğunu qeyd etməklə yanaşı, onun pozulmamasına da ciddi xəbərdarlıq edilir:

***«Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz?...»***

***«Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar.»***[3]

Bağlanılan əhd-peymana istər fərdi olsun, istərsə də ümumi, istər müsəlmanlarla olsun, istərsə də müşrik və kafirlərlə, vəfalı olmaq hər bir müsəlmana vacibdir. Allah-taala Qurani-Kərimdə Peyğəmbərə (s) xitab edərək buyurur:

***«...Onlarla əhdinizə axıra qədər [müddəti bitənədək] vəfa edin...»***[4]

İmam Sadiq (ə) buyurur:

«Üç halda kimsənin üzrü qəbul olunmayır:

1. Əmanətin öz sahibinə qaytarılmasında (mal sahibinin əməli-saleh bir şəxs olub-olmamasından asılı olmayaraq);
2. Kimliyindən asılı olmayaraq əhdə vəfa etmədikdə;
3. Ata-anaya yaxşılıq etmədikdə (istər onlar əməli-saleh olsun, istərsə də yox).[5]

Mə᾿lum məsələdir ki, cəmiyyətdə nizam-intizam yaradılması və onun sağlam bir tərzdə inkişaf etdirilməsi üçün ilk növbədə bağlanmış əhd-peymanlara riayət edilməlidir. Çünki, əgər ayrı-ayrı fərdlər arasında bağlanılan əhd-peymanlara riayət olunmazsa hərc-mərclik baş alıb gedəcək və ictimai işlər öz təbii məcrasından çıxacaqdır. Belə bir şəraitdə yalnız güclülər davam gətirəcək və öz mənafelərini müəyyən mə᾿nada qoruyub saxlaya biləcəklər. Bu səbəbdən də imam Sadiq (ə) bu üç şeyə (əmanətin qaytarılması, əhdə vəfalı olmaq və valideynə yaxşılıq etmək) riayət etməyənlərin üzürlü hesab edilməyəcəyini buyurmuşdur.

Əli (ə) Malik Əştəri Misrə vali göndərdiyi zaman bu haqda ona xüsusi göstərişlər verib buyurur:

---

[1] İsra-34.
[2] Maidə-1.
[3] Səf 2-3.
[4] Tövbə-4.
[5] Biharul ənvar, 74-cü cild, 2-ci fəsil, 46-cı hədis.

«Əgər düşmənlərinlə onlara sığınacaq verəcəyinə dair əhd-peyman bağlayarsansa, əmanətə xəyanət etmədiyin kimi bu əhd-peymana da vəfalı ol. Çünki, fikir ayrılığına baxmayaraq, din və məzhəbindən asılı olmayaraq hamının yekdilliklə qəbul etdiyi şeylərdən biri də əhdə vəfalı olmaqdır. Hətta müşriklər də əhd-peymana vəfalı olmamağın aqibətini gördükləri üçün müsəlmanlarla bağladıqları əhd-peymanlara və sülh sazişlərinə riayət etmişlər. Bu səbəbdən də üzərinə götürdüyün məsuliyyəti üzürlü hesab etmə və düşmənlərini aldadıb bağladığın əhd-peymana qarşı çıxma. Nadanlıq üzündən Allaha qarşı yalnız inadkar və cahil insanlar çıxarlar.

Allah isə rəhmət qapılarını Öz bəndələrinin üzünə açmış və Öz rəhmət dərgahında onlara sığınacaq vermişdir. Onun pənahına sığınanlar nə aldadılar, nə də onların haqqı tapdanılar.»[1]

## *ƏHDƏ VƏFA ETMƏYİN ƏHƏMİYYƏTİ*

Əhdə vəfalı olmağın zəruriliyi və nə qədər əhəmiyyətli olduğu artıq bizə bəlli oldu. İndi isə baxaq görək islam nöqteyi-nəzərindən digər mənəvi dəyərlərlə yanaşı əhdə vəfalı olmağın nə kimi əhəmiyyəti vardır?

Burada bir neçə məsələyə diqqət yetirmək lazımdır:

1. Qurani-Kərimdə əhdə vəfalı olmaq, vədə verdikləri şeylərə əməl etdikdən sonra möminlərin ən başlıca xüsusiyyətlərindən biri kimi göstərilir.

***«O möminlər ki, əmanətlərini və əhdlərini qoruyub saxlayarlar [onlara tapşırılmış əmanətə xəyanət etməz, verdikləri sözü yerinə yetirərlər]».[2]***

Məaric surəsinin 33-cü ayəsi də həmən mətləbə işarə edir.

Peyğəmbər (s) bu haqda buyurur:

«Allaha və Qiyamət gününə iman gətirmiş hər bir şəxs verdiyi vədəyə əməl etməlidir».[3]

Əli (ə) buyurur:

«Möminlərin nişanələrindən biri də onların əhdə vəfalı olmalarıdır.»[4]

«Dinin sütunlarından biri də əmanətə və əhdə vəfa etməkdir».

Qurani-Kərimin başqa bir ayəsində əhdə vəfa etmək əməli-saleh insanların xüsusiyyətlərindən biri kimi göstərilir:

***«Yaxşı insanlar əhd-peyman bağladıqda ona vəfalı olarlar.»[5]***

Başqa bir ayədə Allah-taala həzrət İsmayıl (ə)-ı vəsf edərkən buyurur:

***«[Ya Məhəmməd!] Quranda İsmaili də yada sal! O öz vədinə sadiq və [Bizim tərəfimizdən öz ümmətinə] göndərilmiş bir peyğəmbər idi».[6]***

Həzrət İsmayıl (ə)-ın peyğəmbərliyindən də əvvəl onun əhd-peymana sadiq olduğu göstərilir. Belə ki, nəql olunmuş rəvayətlərdən birində deyilir:

«Həzrət İsmayıl (ə) günlərin bir günü onunla görüşmək istəyən bir şəxslə görüş yeri təyin edir. O Həzrət vədinə əməl edərək hər gün həmən yerə gedir və həmən

---

[1] Nəhcul Bəlağə, Malik Əştərin Əhdnaməsi.
[2] Muminun-8.
[3] Biharul-ənvar, 77-ci cild, 7-ci fəsil, 1-ci hədis.
[4] Biharul-ənvar,17-ci cild, 14-cü fəsil, 11-ci hədis.
[5] Bəqərə-177.
[6] Məryəm-54.

şəxsi gözləyir. Lakin bir il ardıcıl getməsinə baxmayaraq, həmən şəxsi görə bilmir. Onu görənlər harada olduğunu və nə üçün vədəsinə xilaf çıxdığını soruşurlar. Həmən şəxs nəhayət həzrət İsmayıl (ə)-ın yanına gəlib görüşü unutduğu üçün bu müddət ərzində gəlmədiyini bildirir. Həzrət İsmayıl (ə) təmkinlə onu dinləyib buyurur: And olsun Allaha! Əgər bu gündə gəlməsəydin, Qiyamət gününədək buraya gələcəkdim.

Bu əhvalatdan sonra Həzrət İsmayıl (ə)-a «Sadiqul vəd» ləqəbi verildi».

4. İmam Sadiq (ə)-dan nəql olunmuş rəvayətlərdən birində «əhdə vəfalı olmaq» hər bir müsəlmanın üzərinə düşən vəzifələrdən biri kimi göstərilir:

«Mömin möminin qardaşıdır. Göz təki ona yol göstərər və heç vaxt haqqını mənimsəyib xəyanət etməz. Vədə verdiyi zaman aldatmadan əhdinə sadiq qalar».[1]

Əli (ə) buyurur:

Əhdə vəfalı olmaq sədaqətlə yanaşı olmalıdır. Və mən əhdə vəfadan möhkəm bir şey təsəvvür etmirəm. İnsan Allahın hüzuruna qayıdacağını bildiyi halda başqalarına qarşı necə hiylə işlədə bilər?!

Elə bir dövranda yaşayırıq ki, hiyləgərlik zirəklik hesab olunur və nadan insanlar bu şəxsləri zirək və bacarıqlı adlandırırlar. Görəsən onlar bundan nə kimi mənfəət əldə edirlər? Allah onları öldürsün! Şübhəsiz ki, [həqiqi] zirək və bacarıqlı insanlar hiyləgərliyin yolunu bilmirlər. Lakin ilahi yasaq və qadağalar onları bu işdən çəkindirir. Bunu bacarsalar da heç vaxt həyata keçirmirlər. Lakin, dinlə heç bir əlaqəsi olmayan şəxslər öz gündəlik həyatlarında dəfələrlə bu çirkin işə əl atarlar.[2]

Göründüyü kimi xütbədə «əhdə vəfalı olmaq» sədaqətlə eyni məna daşıyır, hiylə və məkr ilə tamamilə ziddiyyət təşkil etdiyi göstərilir. İman sahibləri verdikləri vədəyə və bağladıqları əhd-peymana daim sadiq qalarlar. İmanı zəif olanlar, dinə inam və etiqadı olmayan şəxslər isə heç nədən çəkinmədən öz əhd-peymanlarına sadiq qalmaz və çox asanlıqla hər şeyi alt-üst etməyə hazır olarlar. Bu bir həqiqətdir ki, Allaha iman gətirmiş əməli-saleh şəxslər müxtəlif bəhanələrə əl atıb verdikləri vədəyə əsla xilaf çıxmazlar.

Bu səbəbdən də müşriklərin bağladıqları əhd-peymanlara riayət etməmələrinə baxmayaraq, həzrət Peyğəmbər (s) onların ardı-arası kəsilməyən təziqlərinə dözür və onlarla bağladığı əhd-peymanları pozmurdu.

Nəhayət Tövbə surəsinin ilk ayəsi nazil oldu və müşriklərə çox ciddi xəbərdarlıq edildi:

***«[Bu] Allahdan və Onun Peyğəmbərindən saziş bağladığınız müşriklərə [onlarla olan əhdlərin pozulması, əlaqələrin kəsilməsi haqqında] xəbərdarlıqdır!»***[3]

Tövbə surəsinin bu və sonrakı ayələri nazil olduqdan sonra bir neçə qəbilələr istisna olmaqla, müsəlmanlarla müşriklər arasında bağlanılan əhd-peymanlara bir dəfəlik son qoyuldu.

---

[1] Biharul-ənvar, 74-cü cild, 16-cı fəsil, 7-ci hədis.
[2] Biharul-ənvar, 75-ci cild, 47-ci fəsil, 21-ci hədis.
[3] Tövbə-1.

5. İstər həzrət Peyğəmbər (s), istərsə də onun davamçıları olan Məsum imamlar (ə) müsəlmanların bağladıqları əhd-peymanlara və öz vədələrinə sadiq qalmalarına təkid etmiş və onların pozulmasına yol verməmələrini tövsiyə etmişlər.

Peyğəmbər (s) bunu hətta münafiqlərin xüsusiyyətlərindən biri kimi qiymətləndirib buyurur:

«Bu üç şey münafiqlərin xüsusiyyətlərindəndir:

1. Bir şey danışdıqları zaman yalan söyləyər;

2. Bağladıqları əhd-peymanı pozar;

3. Verilən əmanətlərə xəyanət edər.[1]

Əli (ə) Malik Əştərə verdiyi göstərişlərin birində buyurur:

«Camaata vədə verdiyin zaman öz əhdinə sadiq qal. Çünki əhdə vəfa etməmək Allahla insanlar arasında düşmənçiliyə [insanların Allahdan uzaq düşmələrinə] səbəb olur. Allah-taala buyurur:

**«Etməyəcəyiniz bir şeyi demək Allahın qəzəbinə səbəb olur»**.[2]

İmam Sadiq (ə) buyurur:

«Möminin öz din qardaşına verdiyi vədə, kəffarəsi olmayan nəzr kimidir. (Yəni, verilmədikdə kəffarə ilə əvəz etmək olmur). Əhdini pozmuş şəxs Allahın qəzəbinə gələrək Onunla müxalifət etmiş olur. Allah-taala Öz kitabında buyurur:

«Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz. Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar».[3]

Əli (ə) buyurur:

«Öhdəsindən gələ bilməyəcəyin hər hansı bir şey haqda əhd-peyman bağlama».

«Yerinə yetirəcəyiniz şeyin öhdəsindən gələcəyinə əmin olmayınca vədə verməyin».[4]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Allah-taala Qurani-Kərimdə əhd-peymanın pozulması haqda nə buyurur?

2. Əli (ə) Malik Əştərə göndərdiyi əhdnamədə əhdə vəfalı olmaq haqda nə buyurur?

3. Əhdə vəfalı olmaq islam dinində nə kimi əhəmiyyət daşıyır?

4. Nə üçün Allah-taala həzrət İsmayılı (ə) «Sadiqul vəd» adlandırır?

5. Əli (ə) əhd-peymanın bağlanılması üçün hansı şərtləri zəruri hesab edir?

---

[1] Biharul-ənvar, 72-ci cild, 106-cı fəsil, 6-cı hədis.
[2] Biharul-ənvar, 75-ci cild, 47-ci fəsil, 21-ci hədis.
[3] Üsuli-kafi, 2-ci cild, 362-ci səh, 1-ci hədis.
[4] Biharul-ənvar, 2-ci cild, 558-ci fəsil.

## DOQQUZUNCU DƏRS

### *SƏBİRLİ VƏ TƏMKİNLİ OLMAQ (1)*

Hər bir insan gündəlik həyatında özü kimi bir çox cəmiyyət üzvləri ilə qarşı-qarşıya gəlir və onlarla daimi ünsiyyətdə olur. Cəmiyyət üzvlərinin hər birinin özlərinə xas rəftar, davranış və təfəkkür tərzi vardır. Bəzən elə şəxslərlə rastlaşırıq ki, onlar bir sıra əxlaqi xüsusiyyətlərə malik olmadıqları üçün adi davranış qaydalarında və başqaları ilə ünsiyyətdə kobudluğa yol verirlər. Bu da tərəf-müqabilin inciməsinə və narahatçılığına səbəb olur. Bəs bu kimi xoşa gəlməz rəftar və davranışların müqabilində nə kimi əks əməl göstərmək lazımdır?

Təbiidir ki, bu vəziyyətdə hər şeydən əvvəl insanın zehninə belə bir çıxış yolu gəlir. Ya onlarla tamamilə əlaqəni kəsməli, ya da yalnız gözəl əxlaqa malik olan şəxslərlə ünsiyyətdə olmalı. Belə təsəvvür olunur ki, insan yalnız bu yolla öz asayiş və rifahını tə᾽min edə bilər. Qeyd etmək lazımdır ki, bu işi həyata keçirmək qeyri-mümkündür. Çünki, hər bir cəhətdən gözəl xüsusiyyətlərə malik olan və bütün gözəl əxlaqi səciyyələrə yiyələnən belə bir ideal şəxsi tapmaq demək olar ki, qeyri-mümkündür. İnsanlar mövcud olan varlıq aləmində bir-birlərindən fərqli ruhiyyə, zövq, istedad və s. keyfiyyətlərə malik olurlar. Belə bir fərqlilik daim hər yerdə mövcud olmuş və olmaqdadır. Bu səbəbdən də bütün xüsusiyyətlərlə bir-birinə oxşar iki nəfər şəxsi tapmaq adətən çox çətin olur. Bütün bunlarla yanaşı, ictimai ehtiyac və tələbatlar dediklərimizə bir başqa cür təsir göstərir. Bundan da əlavə, heç də bizə məlum deyil ki, əgər biz yaşadığımız ictimai mühitdə bütün cəmiyyət üzvləri ilə hər tərəfli əlaqələri kəsəriksə, onlar da bütün sahələrdə bizimlə öz əlaqələrini kəsəcəklərmi? Bütün bunları nəzərə alaraq qətiyyətlə deyə bilərik ki, belə bir çıxış yolu qeyri-mümkündür.

Başqa bir çıxış yolunu bütün xoşagəlməz rəftar və davranışların müqabilində müxtəlif tədbirlərə əl atmaqda, hətta lazım gələrsə həmən şəxsləri görəcəkləri işlərdən peşiman olana qədər cəzalandırmaqda görmək olar. Belə təsəvvür olunur ki, onlar cəzalandırıldıqları təqdirdə bir daha kobud rəftara yol verməyəcəklər.

Belə bir çıxış yolu yalnız o zaman müsbət nəticə verə bilər ki, insan cəza tədbirinə yalnız bir dəfə əl atmış olsun və həmən şəxs (cəzalandırılan) intiqam almağa və əvəzini çıxmaq fikrinə düşməsin. Lakin bu işin qeyri-mümkünlüyü də göz qabağındadır. Tarixə nəzər saldıqda dəfələrlə bu həqiqətin şahidi oluruq ki, cəmiyyətdə narazılıq və qarşıdurmalar yaranarkən müxtəlif cəza tədbirlərinə əl atılmış, bir çox hallarda isə yüzlərlə günahsız insanların qanları tökülmüş və bu iş hətta amansız müharibələrlə nəticələnmişdir. Yaranmış kin-küdurət müvəqqəti olaraq yatırılmış, lakin ilk fürsətdə yenidən şölələnərək daha da böyümüşdür.

Bütün bu qarşıdurmaların köklərini və yaranma səbəblərini araşdırdıqda görürük ki, onların bir çoxu olduqca əhəmiyyətsiz səbəblər üzündən meydana gəlmiş, insanların inadkarlıqları üzündən get-gedə böyümüş və bir çox hallarda qarşıdurma hətta müharibələrlə belə nəticələnmişdir.

Nəzərdən qaçırmamalıyıq ki, başqalarına qarşı belə bir tədbirlərə əl atdıqda onlar da bizdən hər hansı bir xoşagəlməz rəftar gördükdə ciddi tədbirlər görmək

haqda fikirləşəcəklər. Yəni, biz başqaları ilə necə davranarıqsa, onlar da bizimlə həmən tərzdə davranmalı olacaqlar. Təbii ki, yaranmış belə bir şəraitdə sülh, əmin-amanlıq əldə etmək mümkün olmayacaqdır və belə bir cəmiyyətdə yaşamaq hamı üçün olduqca ağır və təhlükəli olacaqdır.

## *ÇIXIŞ YOLU NƏDƏDİR?*

İslam dininin belə bir şəraitdə bizlərə tövsiyə etdiyi şey, daha dəqiq desək, göstərdiyi yol «səbirli və təmkinli» olmaqdır.

Burada üç mühüm məsələyə xüsusi diqqət yetirmək lazımdır:

1. Qəzəbin mahiyyəti və qəzəb qüvvəsindən bəhrələnmək (istifadə etmək) tərzi;

2. İslam dinində səbirli və təmkinli olmağın dəyər və əhəmiyyəti;

3. İslam dininin səbr və təmkinliyə olan baxışı. Həzrət Peyğəmbər (s) və İmamların (ə) başqalarının kobud rəftarlarının qarşısında səbr və təmkinli olmaları.

**Qəzəb:**

Nəql olunmuş bir çox rəvayətlərdə qəzəbin həddin artıq mənfi xüsusiyyət olduğu göstərilmiş və müsəlmanlara bu xoşagəlməz xüsusiyyətdən uzaq olmaları tövsiyə olunmuşdur. Bəzi rəvayətlərdə qəzəbin hətta bütün pisliklərin əsas səbəbkarı (açarı) olduğu göstərilir. İmam Sadiq (ə) buyurur:

«Qəzəb bütün pisliklərin açarıdır».[1]

Əli (ə) buyurur:

«Qəzəb elə bir şeydir ki, əgər onu öz başına buraxsan hər şeyi dağıdar və viran edər».[2]

«Qəzəb öz sahibini həlak edər və eyblərini üzə çıxarar».[3]

«Qəzəb gizli kinləri aşkar edər».[4]

Digər rəvayətlərdə qəzəb şöləli alova bənzədilir.

Peyğəmbər (s) buyurur:

«Qəzəb, Şeytanın alov şöləsindəndir».[5]

Əli (ə) buyurur:

«Qəzəb şölələnən bir alovdur. Onu udan şəxs söndürər, udmadıqda isə özünü onun içərisinə atar».[6]

«Qəzəbdən uzaq olmağa çalışın, çünki qəzəb İblisin böyük qoşunlarından biridir».[7]

Bəzi rəvayətlərdə isə qəzəb dəli-divanəliyə bənzədilir.

Əli (ə) buyurur:

---

[1] Biharul-ənvar, 73-cü cild, 132-ci fəsil, 4-cü hədis.
[2] Mustədrək, 12-ci cild, 53-cü fəsil, 13376-cı rəvayət.
[3] Ğurərul-hikəm, 2-ci cild, 31-ci səh.
[4] Ğurərul-hikəm, 2-ci cild, 155-ci səh.
[5] Biharul-ənvar, 73-cü cild, 132-ci fəsil, 15-ci hədis.
[6] Mustədrək, 12-ci cild, 53-cü fəsil, 13376-cı rəvayət.
[7] Biharul-ənvar, 33-cü cild, 29-cu fəsil, 707-ci hədis.

«Qəzəbdən uzaq olmağa çalışın, çünki, qəzəbin əvvəli dəlilik, sonu isə peşimançılıqdır».[1]

«Qəzəb bir növ dəlilikdir. Çünki, qəzəblənən şəxs tutduğu işdən peşiman olur. Yox əgər peşiman olmazsa, dəliliyinin daha da güclənidiyi bəlli olur».[2]

«Qəzəb əql və düşüncəni korlayır və insanı düz yoldan uzaqlaşıdırır».[3]

İmam Sadiq (ə) buyurur:

«Qəzəbinə yiyələnməyən şəxs, əqlinə də yiyələnməmişdir».[4]

Bəs insan öz qəzəbini cilovladıqda necə? Belə bir xüsusiyyətə yiyələnməsi yenə də mənfi haldırmı?

Bu məzmunda nəql olunmuş bir çox rəvayətlərdə insanın belə bir xüsusiyyətə malik olması müsbət hal kimi göstərilir.

Əli (ə) buyurur:

«Ən böyük var-dövlət insanın öz qəzəbini boğmasıdır». (Qəzəbləndiyi zaman özünü idarə edə bilməsidir.)

«İnsanların ən güclüsü o kəsdir ki, qəzəblənməsin (və ya qəzəbləndiyi zaman özünü ələ ala bilsin)».

«Qəzəbini boğa bilən şəxs Şeytana qalib gəlmiş olur. Şeytan isə qəzəbini boğa bilməyən kəsləri öz ixtiyarına alar».[5]

«Qəzəb sizin düşməninizdir. Elə isə özünüzü onun ixtiyarına buraxmayın (onun qarşısında təslim olmayın)».

«Qəzəb və şəhvəti ağlına qalib gələn şəxslər dörd ayaqlı heyvanlara bənzərlər».

Nəql olunmuş rəvayətlərdə qəzəbinə qalib gələn şəxslər ən iradəli və qüdrətli insanlar kimi qiymətləndirilirlər.

Peyğəmbərdən (s) bu məzmunda nəql olunmuş rəvayətdə deyilir:

«Güc və qüdrət güləşməkdə və sınanmaqda deyildir. Ən qüdrətli insan o kəsdir ki, qəzəbləndiyi zaman özünü ələ ala bilsin».[6]

«Həqiqi pəhləvan (Həzrət (s) bu kəlməni üç dəfə təkrar edir) o kəsdir ki, qəzəbləndiyi zaman rəngi qızarır, bədəni əsir gəlir, lakin öz qəzəbini boğa bilir».

Əli (ə) buyurur:

«İnsanların ən güclüsü o kəsdir ki, qəzəbləndiyi zaman özünü ələ ala bilsin».

İmam Baqir (ə) buyurur:

«Qəzəbini yatırdan şəxsdən qüdrətli kəs yoxdur».[7]

Peyğəmbərin (s) dövrünə dəlalət edən rəvayətlərdən birində deyilir:

«Köçəri ərəblərdən biri Mədinəyə gəlib həzrət Peyğəmbərdən (s) ona nəsihət etməsini xahiş edir. Peyğəmbər (s) ona yalnız bunu deyir:

«Qəzəblənmə!»

Həmən şəxs ona edilən bu kiçik tövsiyə ilə qənaətlənib öz qəbiləsinin yanına qayıdır. O, öz el-obasına yetişdikdə görür ki, onun qəbiləsindən olan bir şəxs

---

[1] Mustədrək, 12-ci cild, 53-cü fəsil, 13376-cı rəvayət.
[2] Biharul-ənvar, 73-cü cild, 132-ci fəsil, 20-ci hədis.
[3] Mustədrək, 12-ci cild, 53-cü fəsil, 13376-cı rəvayət.
[4] Biharul-ənvar, 73-cü cild, 132-ci fəsil, 33-cü hədis.
[5] Ğurərul-hikəm, 4-cü cild, 274-cü səh.
[6] Biharul-ənvar, 77-ci cild, 7-ci fəsil, 1-ci hədis.
[7] Biharul-ənvar, 78-ci cild, 22-ci fəsil, 1-ci hədis.

digər qəbilənin malını qarət etmiş, bunun üçün də iki qəbilə arasında qarşıdurma yaranmış və hər iki tərəfdən xəsarət alanlar olmuşdur. Dərhal qılıncını siyirib intiqam almaq istəyir. Lakin birdən Peyğəmbərin (s) «qəzəblənmə!» deyərək ona tövsiyə etdiyi söz yadına düşür. Bir qədər fikrə gedir və öz-özünə düşünür, nə üçün haqsız qan töküb, ölümlə üz-üzə gəlməlidi? O həmən qəbilənin yanına gəlib deyir: Gəlin artıq qan tökməyək, nə qədər xəsarət almısınızsa mənim var-dövlətimdən götürün. Qəbilə başçıları onun bu sözlərini eşidib bayaqkı düşmənçiliyi kənara qoyub cavab verirlər: Mərdlikdə biz də səndən geri qalan deyilik. Elə isə biz də öz haqqımızdan keçirik. Beləliklə, Peyğəmbərin (s) etdiyi hikmət dolu kiçik tövsiyə haqsız qanların tökülməsinin, el-obaların viran qalıb yandırılmasının qarşısını alır.

Bu rəvayətdə iki mühüm məsələyə toxunulur:

1. Qəzəb bir mənfi xüsusiyyət kimi məzəmmət olunmalıdır;
2. Qəzəblənərkən insan özünü ələ ala bilməyi bacarmalıdır.

Lakin nəql olunmuş növbəti rəvayətlərdə olduqca əhəmiyyət kəsb edən üçüncü məsələ ilə də qarşılaşırıq. O da Allah yolunda qəzəblənmək və haqq-ədalət uğrunda mübarizə aparmaqdır.

Əli (ə) buyurur:

«Allah yolunda qəzəb qılıncını itiləyən şəxs küfr əhlinin (haqdan uzaq düşmüş) pəhləvanlarını qətlə yetirməyə daha çox qadir olar».[1]

«Fasiqlərlə düşmənçilik edən şəxs Allaha xatir qəzəblənərsə, Allah da ona xatir qəzəblənər və Qiyamət günü ona sevinc və şadlıq nəsib edər».[2]

Əbuzər Rəbəzəyə sürgün olunarkən Əli (ə) onunla bu sözlərlə vidalaşdı:

«Ey Əbuzər! Sən Allaha xatir qəzəbləndin. Elə isə Ona ümid bəslə. Bu insanlar dünyalarına görə səninlə, sən isə dininə görə onlarla mübarizə etdin. Elə isə Ona xatir sən də qorxduqları şeyi onların özlərinə həvalə et. Qorxduğun şeydən də uzaq olmağa çalış. Onlar uzaq düşdükləri şeyə necə də möhtacdırlar. Sən isə onların səndən əsirgədikləri şeyə əsla möhtac deyilsən. Tezliklə [Qiyamət günü] kimin haqlı, kimin isə haqsız olduğunu biləcəklər. Bil ki, əgər yer və göylər insanın üzünə bağlanarsa və insan təqvanı hər şeydən üstün tutarsa Allah-taala həmən şəxsi tezliklə səadət və xoşbəxtliyə çatdırar. Haqq daim səninlə, batil isə səndən uzaq olar. Əgər onların dünyasına meyl etsəydin səni sevər və əgər dünyada [onlardan] bir şey borc istəsəydin sənin ixtiyarında qoyardılar».[3]

Həzrət Musa (ə) Allaha etdiyi münacatların birində soruşur:

«Qiyamət günü Sənin kölgəndən başqa heç bir kölgə olmadığı bir halda, Sənin sakinlərin kimlərdirlər ki, onlara Öz ərşində sığınacaq verirsən?»

Allah-taaladan belə bir xitab gəlir:

***«O kəslər ki, haram etdiyim şeylərin halal olunduğunu görüb yaralanmış pələng kimi qəzəblənərlər».[4]***

Nəql olunmuş rəvayətlərdən belə bir nəticəyə gəlmək olur ki, Allah-taala qəzəb hissini insanların fitrətində ona görə qərar vermişdir ki, onlar düşmən müqabilində

[1] Biharul-ənvar, 71-ci cild, 89-cu fəsil, 6-cı hədis.
[2] Biharul-ənvar, 68-ci cild, 27-ci fəsil, 17-ci hədis.
[3] Biharul-ənvar, 22-ci cild, 12-ci fəsil, 30-cu hədis.
[4] Biharul-ənvar, 13-cü cild, 11-ci fəsil, 42-ci hədis.

din və əqidələrinin qorunmasında layiqincə müqavimət göstərə bilsinlər. Deməк, bu daxili qüvvədən yalnız o zaman istifadə etməliyik ki, haqq olan dinimizə, namus və əqidəmizə düşmənlər tərəfindən təcavüz və ya hörmətsizlik edilmiş olsun. Varlığını ilahi nemət hesab edən hər bir saf əqidəli müsəlman Allah düşmənlərini öz düşməni sanmalı, ilahi qanunlara qarşı olan hər hansı bir hörmətsizliyi öz şərəf və namusuna qarşı hörmətsizlik hesab etməli və haqq-ədalətin müdafiəsində əlindən gələni əsirgəməməlidir. O, düşmənə qarşı olduqca qətiyyətli və barışmaz mövqe tutmalıdır.

Qurani-Kərimin bir çox ayələrində də Peyğəmbərin (s) kafir və münafiqlərə qarşı mübarizə aparmasına əmr olunduğunun şahidi oluruq:

***«[Ya Peyğəmbər!] Kafirlərə və münafiqlərə qarşı vuruş! [Kafirləri qılıncla, münafiqləri isə dəlil-sübutla, sözlə məhv et!] Onlarla sərt davran!...»***[1]

Başqa bir yerdə deyilir:

***«...Onunla [Peyğəmbərlə (s)] birlikdə olanlar [möminlər] kafirlərə qarşı sərt, bir-birinə [öz aralarında] isə mərhəmətlidirlər...»***[2]

Lakin mömin və iman sahiblərinə gəldikdə qəzəb və digər mənfi xüsusiyyətlər kənara qoyulmalı, onlarla səmimiyyət və mehribançılıqla rəftar olunmalıdır. Dərsin əvvəlində nəql olunmuş rəvayətlər də məhz bu mətləbə dəlalət edir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Səbirli və təmkinli olmaq dedikdə nə nəzərdə tutulur?
2. Nəql olunmuş rəvayətlərdə nə üçün qəzəb mənfi xüsusiyyət kimi qələmə verilir?
3. Əli (ə) qəzəbi udmaq haqda nə buyurur?
4. Əli (ə) Əbuzəri Rəbəzəyə yola salarkən qəzəb haqda ona nə deyir?

---

[1] Tövbə-73.
[2] Fəth-29.

## ONUNCU DƏRS

### *SƏBİRLİ VƏ TƏMKİNLİ OLMAQ (2)*

Artıq məlum oldu ki, yalnız düşmənlərin müqabilində qəzəblənməli və mömin qardaşlarla qarşı-qarşıya gəldikdə buna yol verməməli, onlarla olduqca mehribançılıqla davranılmalıdır. Bəs islam dini iman əhlinə kobud rəftarların müqabilində nə kimi əks-əməl göstərməyi tövsiyə edir?

Bir qədər əvvəl qeyd etdiyimiz kimi, bu kimi hallarda da islam dini mümkün qədər çox güzəştə getməyi, səbr və təmkinli olmağı tövsiyə edir. İslam, yaranmış ixtilaf və qarşıdurmaların aradan qaldırılmasını güzəşt etməkdə, səbirli və təmkinli olmaqda görür.

Qurani-Kərimdə güzəştə getmək, səbirli və təmkinli olmaq möminlərə xas olan xüsusiyyət kimi göstərilir:

***«O müttəqilər ki, bolluqda da, qıtlıqda da [mallarını yoxsullara] xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər».[1]***

Başqa bir ayədə Allah-taala pisliyə pisliklə deyil, yaxşılıqla cavab verməyi tövsiyə edir:

***«Yaxşılıqla pislik eyni ola bilməz! [Ey mömin kimsə!] Sən pisliyi yaxşılıqla dəf et! [Qəzəbə səbrlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlamaqla cavab ver!] Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən!***

***Bu [xislət] yalnız [dünyada məşəqqətlərə] səbr edənlərə verilir və yalnız böyük qismət [savab, fəzilət] sahiblərinə əta olunur!»[2]***

Göründüyü kimi Allah-taala, düşmənçiliyin səmimi dostluğa çevrilməsini, pisliklərin qarşısında səbirli və təmkinli olmağı, pisliklərə yaxşılıqla cavab verməyi tövsiyə edir. Çünki, intiqam almaq düşmənçiliyin aradan qaldırılması deyil, insanı qıcıqlandıran daxili hisslərin yatırılmasıdır.

Nəql olunmuş rəvayətlərdən birində deyilir: Günlərin bir günü bir şəxs Əli (ə)-ın qarşısında o həzrətin xidmətçisi olan Qənbəri təhqir edir. Qənbər həmən şəxsi susdurmaq istədikdə Əli (ə) Qənbəri səsləyib deyir: «Əl saxla, onunla işin olmasın. Əgər belə etsən, Allahı özündən razı salmış, Şeytanı qəzəbləndirmiş və düşmənini cəzalandırmış olarsan. And olsun insanları yaradan və dənləri göyərdən Allaha! Möminlər Allahı səbirli və təmkinli olmaqla razı saldıqları kimi başqa heç bir şey ilə razı sala bilməzlər. Şeytanı sükut etməklə qəzəbləndirdikləri kimi başqa heç bir şeylə qəzəbləndirə bilməzlər. Nadan insanları etinasızlıqla cəzalandırdıqları kimi başqa heç bir şeylə cəzalandıra bilməzlər».

İndi isə Məsum imamlardan bu məzmunda nəql olunmuş hədis və rəvayətləri nəzərdən keçirək. Bu rəvayətlər həmin məsələnin mahiyyətini açıqladığı üçün onların məzmununa xüsusi diqqət yetirmək lazımdır.

---

[1] Ali İmran-134.

[2] Fussilət 34-35.

## *SƏBİRLİ VƏ TƏMKİNLİ OLMAQ HAQDA NƏQL OLUNMUŞ RƏVAYƏTLƏR*

Əli (ə) buyurur:

«Səbirli və təmkinli olmaq bütün pisliklərin üzərinə pərdə çəkir».[1]

«Səbirli və təmkinli olmaq parlaq bir nurdur. Əql isə onun cövhəridir».

«Səbirli və təmkinli olmaqdan böyük şərəf yoxdur».[2]

«Səbirli və təmkinli olmağı öyrənin. Çünki, səbr möminin ən yaxın dostu və köməkçisidir».[3]

«Səbirli və təmkinli olmağı sənə tövsiyə edirəm. Çünki səbr, elmin səmərəsidir».[4]

Başqa bir rəvayətdə buyurur:

«Səbirli və təmkinli olan şəxs daim şad və sevinc içində olar».[5]

«Sülh və asayiş elm və agahlığın səmərəsidir».[6]

«Təmkinli şəxsin ilk mükafatı səbr etdiyi üçün camaatın onu cahil və nadan şəxslərin yanında müdafiə etmələridir».[7]

«Sənin qarşında səbirli və təmkinli olan şəxs sənə qalib gəlmiş olur».[8]

İmam Cavad (ə) bu haqda buyurur:

«Səbir, alimin geyimidir (paltarıdır). Elə isə onu üzərinizdən çıxarmayın».[9]

## *QƏZƏBİN YATIRILMASI HAQDA NƏQL OLUNMUŞ RƏVAYƏTLƏR*

Peyğəmbər (s) buyurur:

«Allah-taala qəzəbini yatıra bilən şəxslərin qəlblərini imanla doldurar».[10]

Əli (ə) buyurur:

«Qəzəbini boğa bilən şəxsin Allah-taala eyb və nöqsanlarını örtər».[11]

İmam Baqir (ə) buyurur:

«Qəzəbini uda bilən şəxs, əgər bunu edərsə Allah-taala Qiyamət günü onun qəlbini iman və fərəhlə doldurar (yəni, ona mənəvi rahatlıq nəsib edər).»[12]

İmam Sadiq (ə) həzrət Peyğəmbərdən (s) nəql edərək buyurur:

«Qəzəbini uda bilən şəxs əgər bunu edərsə, Allah-taala ona səbirli və təmkinli olduğu üçün şəhid savabını verər».[13]

---

[1] Nurul həqiqə və nurul hədiqə, 213-cü səh.
[2] Biharul-ənvar, 71-ci cild, 93-cü fəsil, 32-ci hədis.
[3] Biharul-ənvar, 78-ci cild, 16-cı fəsil, 140-cı hədis.
[4] Biharul-ənvar, 71-ci cild, 93-cü fəsil, 35-ci hədis.
[5] Biharul-ənvar, 77-ci cild, 8-ci fəsil, 1-ci hədis.
[6] Ğurərul-hikəm, 1-ci cild, səh.227.
[7] Biharul-ənvar, 71-ci cild, 93-cü fəsil, 68-ci hədis.
[8] Ğurərul-hikəm, 5-ci cild, 451-ci səh.
[9] Biharul-ənvar, 78-ci cild, 27-ci fəsil, 2-ci hədis, 362-ci səh.
[10] Biharul-ənvar, 69-cu cild, 38-ci fəsil, 44-cü hədis.
[11] Biharul-ənvar, 73-cü cild, 132-ci fəsil, 11-ci hədis.
[12] Biharul-ənvar, 7-ci cild, 15-ci fəsil, 62-ci hədis.
[13] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 10-cu hədis.

Nəql etdiyi başqa bir hədisdə buyurur:
«İnsanların ən ehtiyatlısı qəzəbini daha çox udan şəxslərdir».[1]

## SƏBİRLİ VƏ TƏMKİNLİ OLMAĞIN HƏDDİ-HÜDUDU

Həzrət Əli (ə) buyurur:
«Qəzəbi udmaq səbr və təmkinli olmağın səmərəsidir».
İmam Həsən Müctəba (ə)-dan səbr haqda soruşduqda buyurur:
«Qəzəbi udmaq, insanın özünü ələ alması deməkdir».[2]
Başqa bir hədisdə buyurur:
«Qəzəbləndiyi zaman özünü ələ alan və qəzəbini uda bilən şəxslərin vurğunuyam».[3]
Rəvayətlərdən birində deyilir:
Bir şəxs imam Sadiq (ə)-ın yanına gəlib deyir: «Bundan belə qəzəblənməmək və kiminləsə sərt davranmamaq qərarına gəlmişəm. Lakin dostlarım bunu mənə məsləhət görmürlər və deyirlər ki, əgər belə etsən, hamının nəzərindən düşüb xar və rüsvay olacaqsan». İmam Sadiq (ə) həmin şəxsin cavabında buyurur:
«Xar və rüsvay olan yalnız zalımlardır».[4]
Nəql olunmuş rəvayətlərdən belə bir qənaətə gəlmək olur ki, insanların haqqa hidayət olmalarını və onlara əxlaqi dəyərləri təlim etməyi öz öhdələrinə götürmüş Peyğəmbər (s) və Məsum imamlar (ə) müsəlmanlar arasında səmimi münasibətlərin bərqərar olunması, anlaşılmamazlıqların, kin-küdurətin, ədavət və düşmənçiliklərin aradan qaldırılmasında çıxış yolunu güzəşt etməkdə, səbirli və təmkinli olmaqda görmüşlər. Onlar öz davamçılarına daim pisliklərin müqabilində yaxşılıq etməyə, qarşılaşdıqları çətinliklərdə və onlara qarşı edilən hörmətsizliklərin qarşısında səbirli və təmkinli olmağa tövsiyə etmişlər. Lakin, necə olursa-olsun, daim yaranmış şəraiti nəzərə almalı və hər şeydən əvvəl çıxış yolunu hər hansı bir cəza tədbirinə əl atmaqda deyil, şəri qanunlar çərçivəsində lazımı tədbirlər görmək lazımdır.

## TƏMKİNLİ DAVRANIŞ

Burada Peyğəmbər (s) və Məsum imamların (ə) onlara qarşı edilən hörmətsizlik və kobud rəftar müqabilində necə əksü-ləməl göstərmələri və yüksək əxlaq nümunələri nümayiş etdirmələri haqda söhbət açacağıq. Nəql olunmuş rəvayətlər və tarixi sənədlərdə onların, hətta qatı düşmənlərinə qarşı necə mülayim rəftar etmələrinin və bununla onların qəlblərinə yol tapmalarının şahidi oluruq. Bir sözlə, o həzrətlərin başa vurduqları şərəfli həyat onların davamçıları üçün ən yaxşı örnək, əxlaq və həyat dərsidir.
Söhbətimizi Peyğəmbərin (s) sünnəsi ilə başlayırıq.
Os və Xəzrəç, Mədinənin iki böyük və nüfuza malik olan qəbilələrindən idi. Cahiliyyət dövründə onların arasında daimi qarşıdurmalar və illər boyu davam edən müharibələr baş verərdi. Baş vermiş döyüşlərdə hər iki tərəf ağır itkilər verir

[1] Biharul-ənvar, 71-ci cild, 93-cü fəsil, 55-ci hədis.
[2] Biharul-ənvar, 78-ci cild, 19-cu fəsil, 2-ci hədis.
[3] Biharul-ənvar, 71-ci cild, 93-cü fəsil, 13-cü hədis.
[4] Məhəccətul-bəyza, 5-ci cild, 313-cü səh.

və böyük çətinliklərlə qarşılaşırdılar. Lakin Peyğəmbər (s) Mədinəyə hicrət etdikdən sonra müqəddəs islam dininin və Peyğəmbərin (s) şərəf, əzəmət və ucalığı sayəsində bu iki qəbilə arasında sülh və əmin-amanlıq bərqərar oldu.

Bir gün hər iki qəbilənin adamları birlikdə məclis qurduqları zaman Şas ibni Qeys adlı bir yəhudi onların məclisinə gəlib nəzər salır. İki qəbilə arasında yaranmış səmimi dostluq əlaqələri onu olduqca narahat edir. Belə qərara gəlir ki, yəhudi cavanlarından birini onların məclisinə göndərib sülh və asayişi pozub, qarşıdurma yaratsın. Cavan yəhudi, Qeysin dediyi kimi də edir. O, məclisə daxil olub bir kənarda əyləşir. Qəbilə üzvlərinin biri ilə etdiyi söhbətdə onun yadına əvvəllər baş vermiş qanlı «Buğas gününü» salır. Hər iki qəbilə yenidən köhnə ədavətlərini xatırlayaraq qarşı-qarşıya durub silaha əl atırlar. Bu xəbər tez bir zamanda bütün şəhərə yayılır. Peyğəmbər (s) bundan xəbər tutub tez özünü onların məclisinə çatdırır. Məclisə daxil olub onlara müraciət edərək buyurur:

«Ey müsəlmanlar! Allahı yada salın, Allahı! Mən sizin aranızda ola-ola yenidən cahiliyyət adət-ənənələrinə qayıdırsınız?! Allah-taala sizləri islam dini ilə haqqa hidayət etdiyi və cahiliyyətin zülmətindən nicat verdiyi bir halda yenidən küfrə üz tutursunuz?!»

Peyğəmbərin (s) belə bir təsirli çıxışından sonra hər iki qəbilə qılınclarını yerə atıb öz peşimançılıqlarını və o həzrətə (s) bundan belə də tabe olacaqlarını bildirdilər.

Beləliklə yəhudi cavanın mənfur niyyəti baş tutmadı və yenidən hər iki qəbilə arasında sülh və qardaşlıq bərqərar oldu.

İkinci rəvayətdə deyilir:

Bir gün Peyğəmbər (s) öz səhabələri ilə birlikdə Mədinə məscidində olarkən bir çöl ərəbi məscidə daxil olub Peyğəmbərdən (s) pul istəyir. Peyğəmbər (s) onu əliboş qaytarmayıb bir qədər pul verir. Lakin həmin şəxs ona verilən məbləğdən razı qalmayıb Peyğəmbəri (s) acılayır. Səhabələr bundan hiddətə gəlib onu cəzalandırmaq istəyir. Peyğəmbər (s) təmkinlə onları sakitləşdirib çöl ərəbini evinə aparır. Həmin şəxs evə daxil olduqda Peyğəmbərin (s) olduqca sadə bir şəraitdə yaşadığını görüb təəccüblənir. Çünki o, yanlış olaraq belə təsəvvür edirdi ki, Peyğəmbər (s) da şahlar kimi eyş-işrət içində yaşayır, onun da xəzinələri və ətrafında ə᾿yan-əşrafı vardır. Bunun üçün də peşimançılığını etiraf edərək Peyğəmbərdən (s) üzr istəyir. O həzrət onun üzrxahlığını qəbul edib buyurur:

Sən dünən səhabələrin yanında məni təhqir etdin, indi isə mənə öz minnətdarlığını bildirirsən. Qorxuram onlarla qarşılaşdıqda sənə zərər yetirmiş olsunlar. Bunun üçün də yaxşı olardı ki, bu sözlərini onların yanında da təkrar edəsən.

Həmin şəxs bununla razı olub Peyğəmbərlə (s) birlikdə məscidə gəlir. Peyğəmbər (s) üzünü səhabələrə tutub buyurur:

Bu şəxs məndən razı qaldığını bildirir, elədirmi?

Çöl ərəbi səhvini e᾿tiraf edib Peyğəmbərin (s) dediklərini təsdiq edir və səhabələrin qarşısında o həzrətə bir daha öz minnətdarlığını bildirir. Sonra Peyğəmbər (s) yenidən üzünü səhabələrə tutub buyurdu:

Bu şəxs ilə mənim aramda baş vermiş əhvalat, dəvəsi hürküb qaçmış bir çöl ərəbinin hekayəsinə bənzəyir. Camaat ona kömək məqsədilə səs-küy salaraq

dəvənin dalınca düşürlər, amma onlar dəvəni tuta bilməyib, əksinə onu daha da uzaqlaşdırırlar. Dəvənin sahibi onlardan kömək etməmələrini xahiş edir. Özü bir qədər ot götürüb dəvəyə tərəf gedir. Beləliklə dəvənin cilovunu ələ keçirir və dəvəsini minib yolunu davam edir.

Əgər mən də dünən sizin qarşınızı almasaydım onu ölümcül hala salardınız. Lakin mülayim rəftarla onun qəlbini ələ ala bildim.

Üçüncü əhvalat imam Həsən (ə) haqqında nəql olunmuşdur.

Bir gün imam Həsən (ə) atla yol gedərkən Şam əhlindən olan bir nəfər şəxs onu görüb lənət oxumağa və təhqiramiz sözlər deməyə başladı. Qurtardıqda, imam Həsən (ə) gülər üzlə ona tərəf gəlib salam verib buyurdu:

Güman edirəm bu yerlərdə qəribsən və məni kiminləsə səhv salırsan. Əgər bir şeyə ehtiyacın varsa, onu ödəməyə hazıram; bu yerlərə bələd deyilsənsə, sənə bələdçilik edə bilərəm; kömək istəyirsənsə, sənə köməklik edim; acsansa sənə yemək verim; paltarın yoxdursa, sənə paltar verim; qalmağa yerin yoxdursa, sənə yer verək; bizlərə tərəf gəlmisənsə, qonağımız ol. Hər halda səni bir qonaq kimi qəbul etmək üçün kifayət qədər yerimiz və imkanımız var. Həmən şəxs imam Həsən (ə)-ın bu sözlərini eşidib peşiman olur və xəcalətindən ağlamağa başlayır. Sonra üzrxahlıq istəyərək deyir: Şəhadət verirəm ki, sən Allahın yer üzərindəki xəlifəsisən. Allah-taala kimləri bu məqama təyin etdiyini çox yaxşı bilir. Bu günə qədər səni və atan özümə ən qatı düşmən hesab edirdim. Lakin bundan belə hamıdan çox sevdiyim və hörmət etdiyim şəxs olacaqsınız.

Beləliklə, imam Həsən (ə) Bəni-üməyyə sülaləsindən olan qatı bir Əhli-beyt (ə) düşmənini gözəl əxlaq nümayiş etdirməklə ən yaxın şəxslərdən birinə çevirir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Səbirli və təmkinli olmağın verdiyi nəticələri izah edin.
2. Əli (ə) təmkinli olmağı nə üçün tövsiyə edir?
3. «Qəzəbi udmaqla» təmkinli olmaq arasında olan əlaqəni izah edin.
4. Peyğəmbər (s) və Məsum imamların onlara qarşı edilən kobudluqların qarşısında göstərdikləri əksül-əməlləri izah edin.

## ON BİRİNCİ DƏRS

### *ƏFV VƏ GÜZƏŞT*

İctimai əlaqələrin bərqərar olunmasında zəruri hesab olunan əxlaq normalarından biri də əfv etmək və güzəştə getməkdir. Doqquzuncu dərsdə qeyd etdik ki, ictimai əlaqələrdə bir çox hallarda kimlərsə bir-birinə qarşı hörmətsizlik edir və ya biri digərinin hüququnu tapdalayır. Məlum olduğu kimi, ayrı-ayrı fərdlərin hüquqlarının tapdalanması əksər hallarda sakitliyə riayət etməmək, başqalarının növbəsinə girmək, qanunsuz olaraq kiminsə məziyyətindən istifadə etmək və onlarla bu kimi hallarda baş verir. Əgər hər gün rastlaşdığımız belə hallarda cəmiyyət üzvləri bir-birlərinə güzəşt etməzsə və biri digərinin səhvinə göz yummazsa, cəmiyyətdə özbaşınalıq baş alıb gedər və hərc-mərclik ictimai problemə çevrilər.

Belə bir şəraitdə müqəddəs islam dininin öz davamçılarına tövsiyə etdiyi şey də səbirli və təmkinli olmaq və bu işdə mümkün qədər güzəştə getməkdir. Allah-taala Qurani-Kərimdə Əraf surəsinin 199-cu ayəsində buyurur:

***«Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!»***

Unutmaq olmaz ki, əfv və güzəşt dedikdə, insan yalnız bəzi hallarda deyil, bütün şəraitlərdə daimi olaraq bu xüsusiyyətə malik olmalı və bu, onun üçün bir növ vərdiş və adət halına çevrilməlidir.

Nəql olunmuş rəvayətlərdə yuxarıda qeyd olunan ayənin təfsiri haqda deyilir:

«Peyğəmbər (s) həzrət Cəbraildən ayənin anlamı haqda soruşur. Cəbrail (ə) cavab verir: *Bilmirəm, gərək ayənin mənasını Allah-taaladan soruşum.* Bir qədər sonra Peyğəmbərin (s) yanına nazil olub deyir: *Ey Məhəmməd! Allah-taala sənə zülm edən (haqqını tapdalayan) şəxsi bağışlamağı, səndən nəyisə əsirgəyən şəxsə güzəşt etməyi və səninlə əlaqəsini kəsmiş şəxslərlə səmimi münasibətdə olmağını əmr edir».*[1]

Başqa bir ayədə əfv və güzəşt etmək mömin və əməli-saleh şəxslərin xüsusiyyətlərindən biri kimi göstərilir:

***«O müttəqilər ki, bolluqda da, qıtlıqda da [mallarını yoxsullara] xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər...»***[2]

Digər iki ayədə Allahın güzəşt etməyə əmr etdiyi və bunun müqabilində Allah tərəfindən bağışlanmalarına müjdə verildiyi göstərilir:

***«...Məgər [bu yaxşılıq müqabilində] Allahın sizi [günahlarınızı] bağışlamağını istəmirsiniz? Allah, [bəndələrini] bağışlayan və rəhm edəndir!»***[3]

***«...Amma [tövbə edəcəkləri təqdirdə] onları əfv etsəniz, [təqsirlərindən] keçsəniz və baqışlasanız, [bilin ki] Allah günahları çox bağışlayan və rəhm edəndir!»***[4]

---

[1] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 4-cü hədis.
[2] Ali İmran-134.
[3] Nur-22.
[4] Təğabun-14.

Peyğəmbər (s) və Məsum imamlardan (ə) nəql olunmuş rəvayətlərdə də bu məsələyə xüsusi diqqət yetirilmiş və müsəlmanlara bu gözəl xüsusiyyətə yiyələnmələri tövsiyə edilmişdir.

Peyğəmbər (s) buyurur:

«Allah çox bağışlayan, rəhm və əfv edənləri sevəndir».[1]

«Hər kim müsəlman bir şəxsin səhvini bağışlayarsa, Allah-taala da onun günahlarını bağışlayar».[2]

«Əfv etməyi və güzəştə getməyi bacarın. Çünki əfv və güzəşt insanların yalnız əzəmət və ucalığını artırır. Allahın sizi ucaltmasını istəyirsinizsə, siz də başqalarını əfv edib günahlarını bağışlayın».[3]

«Çox əfv edən şəxsin ömrü uzun olar».[4].

Əli (ə) buyurur:

«Əfv və güzəşt etmək, xüsusiyyətlərin ən yaxşısıdır».

«Bu iki şeyin savabını hesablamaq olmaz: Əfv etmək və ədalətli olmaq».

«İnsanların ən pisi səhvləri bağışlamayan və pisliklərə göz yummayanlardır».[5]

«Ən böyük eyb intiqam almağa tələsmək və az güzəşt etməkdir».

İmam Baqir (ə) buyurur:

«Əfv və güzəşt üçün edilən peşimançılıq cəzalandırılma üçün edilən peşimançılıqdan daha yaxşıdır».

İmam Sadiq (ə) buyurur:

«Biz Əhli-beytin səxavət və mərdliyi bizlərə zülm edən şəxsləri əfv etməyimizdədir».

Başqa bir rəvayətdə buyurur:

«Bu üç şey dünya və axirətin ən gözəl xüsusiyyətlərindəndir: Sənə zülm edən (haqqını tapdalayan) şəxsi əfv etmək, əlaqəni kəsən şəxslərlə ünsiyyətdə olmaq və sənə qarşı hörmətsizlik edən şəxslərə qarşı səbr və təmkinli olmaq».[6]

## *ƏFV VƏ GÜZƏŞT ETMƏYİN FƏRQİ*

Yuxarıda qeyd olunan rəvayətlərdə «əfv» və «güzəşt» kəlmələrinin hansı məna daşıdıqları ilə yaxından tanış olduq. Lakin dərsin əvvəlində gətirilən ayələrdə «səfh» kəlməsinin də «əfv» və «güzəşt» kimi tərcümə olunduğunu müşahidə etdik. Hər iki kəlmə eyni mənada işlənsə də «səfh» kəlməsi pisliklərə göz yummaq mənasını da daşıyır. Belə ki, bir şəxs səhv iş gördükdə təqsirindən keçilərək əfv olunur. «Səfh» isə ümumiyyətlə insanın səhvlərinə göz yummağa deyilir. Belə bir halda, həmin şəxs əfv olunsun deyə, onun elə rəftar olunur ki, sanki o, əsla səhvə yol verməmişdir.

Bu səbəbdən də deyə bilərik ki, «əfv» insanın səhv və təqsirlərinin üstünü örtmək, «səfh» isə səhvlərə göz yummaq mənasını daşıyır. Qurani-Kərimdə «əfv» haqqında deyilir:

---

[1] Kənzul-ummal, 3-cü cild, 373-cü səh. 7005-ci xütbə.
[2] Kənzul-ummal, 3-cü cild, 376-cı səh. 7019-cu xütbə.
[3] Biharul-ənvar, 71-ci cild, 93-cü fəsil, 5-ci hədis.
[4] Biharul-ənvar, 75-ci cild, 81-ci fəsil, 74-cü hədis
[5] Biharul-ənvar, 71-ci cild, 93-cü fəsil, 6-cı hədis.
[6] Biharul-ənvar, 71-ci cild, 94-cü fəsil, 3-cü hədis.

***«Hər hansı bir pisliyin cəzası onun özü kimi bir pislikdir. Bununla belə hər kəs [pislik edəni] bağışlasa və [onunla] barışsa onun mükafatı Allaha aiddir. Həqiqətən, Allah zalımları sevməz!»[1]***

***«...Kin-küdurət olmasın deyə, rastlaşdıqda «Salam» -de...»[2]***

***«...Sən müşriklərdən sakitcə üz döndər [və onları alicənablıqla bağışla]...»[3]***

Göründüyü kimi birinci ayədə bütün xoşagəlməz işlər üçün [müəyyən cəza] təyin olunsa da əfv və güzəşt etməyə sövq edilir. Buradan belə nəticəyə gəlmək olur ki, əfv, yalnız şəxsin təqsiri sübuta yetirildikdə, lakin bütün bunlara göz yumulduqda edilir. Sonrakı iki ayədə isə «səhf» kəlməsindən istifadə olunmaqla Allah-taala, Peyğəmbərin (s) müşriklərin xoşagəlməz rəftarlarının müqabilində onlara əksül-əməl göstərməyə və güzəşt etməyə əmr edir. İmam Riza (ə) «Sən müşriklərdən yaxşıca üz döndər [və onları alicənablıqla bağışla]» ayəsini təfsir edərkən deyir:

«Səfh, şəxsin danlanmadan güzəşt olunmasına deyilir».[4]

## *HANSI ŞƏRAİTDƏ ƏFV VƏ GÜZƏŞT OLUNMALIDIR*

Diqqət yetirmək lazımdır ki, insan yalnız o zaman əfv və güzəşt etməlidir ki, intiqam almağa qadir olmuş olsun. Əks təqdirdə, günahları əfv etmək nəinki müsbət nəticə verməyəcək, əksinə qəlbində həmin şəxsə qarşı kin-küdurət və düşmənçilik yaranacaqdır. Bu da yalanın, qeybətin, töhmət və həsədin artmasına gətirib çıxaracaqdır. Bu səbəbdən də zəiflik üzündən kiminsə səhvinə göz yummağı əfv və güzəşt adlandırmaq olmaz. Müqəddəs islam dini öz davamçılarını əfv və güzəşt etməyə dəvət etməklə yanaşı, özlərinin və başqalarının haqlarının tapdalanmasına yol verməməyə də əmr edir. Belə bir şəraitdə nə kimsənin haqqı tapdalanır, nə də zəiflik üzündən kimsə öz haqqından keçib günahkarı əfv və güzəşt etməli olur. Demək, əfv və güzəşt etmək yalnız o zaman öz həqiqi dəyərini tapa bilər ki, insan intiqam almağa qadir olmuş olsun, lakin alicənablıq üzündən buna yol verməsin.

Nəql olunmuş bir çox rəvayətlərdə bu mətləbə xüsusi diqqət yetirilir. Misal olaraq burada onlardan bir neçəsini gətiririk. Peyğəmbər (s) buyurur:

«Allah-taala qüdrəti çataraq əfv və güzəşt edən şəxsin səhvə yol verdiyi zaman günahlarını bağışlayar».

«Əfv və güzəşt etməkdə insanların ən yaxşısı cəzalandırmaq üçün qüdrəti çatan, lakin əfv və güzəştə gedənlərdir».

Əli (ə) buyurur:

«Düşmənin üzərində qalib gəldiyiniz zaman əfv və güzəşt etməyi qüdrətinizin şükrü hesab edin».[5]

«Əfv etmək qüdrətin zəkatıdır».

İmam Həsən (ə) bu haqda buyurur:

---

[1] Şura-40.
[2] Zuxruf-89.
[3] Hicr-85.
[4] Biharul-ənvar, 71-ci cild, 93-cü fəsil, 56-cı hədis.
[5] Biharul-ənvar, 71-ci cild, 93-cü fəsil, 76-cü hədis.

«İnsanların ən güzəştlisi o kəsdir ki, qüdrəti çatdığı zaman əfv etməyi bacarsın».[1]

İmam Sadiq (ə) buyurur:

«Qüdrəti çataraq əfv və güzəşt etmək peyğəmbər və müttəqilərin xüsusiyyətlərindəndir».[2]

Peyğəmbərin (s) zamanında müsəlmanların ən böyük qələbəsi Məkkənin fəthi olmuşdur. Böyük qüdrətə malik olan islam ordusu Məkkəyə daxil olarkən müşriklər artıq əvvəlki qüdrət və nüfuzunu itirib müsəlmanlardan asılı vəziyyətə düşmüşdülər. Orduya rəhbərlik edən Səd ibni Ubadə şəhərə daxil olarkən belə bir şüar verir:

«Bu gün müharibə və mübarizə günüdür. Bu gün qadınların əsir alınacaqları gündür».

Bu xəbəri eşidən həzrət Peyğəmbər (s) bərk narahat olur. O, Əli (ə)-a bayrağı Səd ibni Ubadədən alıb orduya rəhbərlik etməyi və — «Xeyr! Bu gün mərhəmət və bağışlanma günüdür!» — şüarını verməyi əmr edir.

Haqqında söhbət açacağımız məsələlərdən biri də hansı şəraitlərdə və kimlərin əfv və güzəşt olunmasıdır.

Güzəşt etməyə gəldikdə, biz yalnız şəxsi məsələlərdə haqqımızı tapdalayan və bizə qarşı hörmətsizlik edən şəxsləri əfv edib bağışlaya bilərik. İlahi və ictimai hüquqlara qarşı hörmətsizlik edildikdə isə, kiməsə güzəşt edib bağışlamağa heç bir ixtiyara malik deyilik.

Güzəşt və əfv nümunəsi olan həzrət Peyğəmbərin (s) həyatına nəzər saldıqda bir daha bu həqiqətin şahidi oluruq ki, o həzrət ictimai ədalətin bərqərar olunmasında — ictimai pozğunluğa yol verildikdə — kimsəyə güzəşt etməmiş və müqəssirləri əfv edərək cəzasız qoymamışdır. Həyat yoldaşı Ümmi Sələmənin kənizinin oğurluq etməsini buna misal çəkmək olar. Xəsarət çəkən şəxslər Peyğəmbərin (s) yanına şikayətə gəldikdə Ümmi Sələmənin xahişini nəzərə almadan onların hər birini təmkinlə dinləyib kənizin cəzalandırılmasına dair müvafiq tədbir görür.

Başqa bir misala nəzər salaq:

Əli (ə) ətraf məntəqələrə göndərdiyi valilərdən birinin beytul-malı mənimsədiyini eşidib ona belə bir xəbərdarlıq məktubu yazır: «Allahdan qorx və camaatın malını özlərinə qaytar! Əgər bunu etməsən və Allah mənə səni görməyimə imkan verərsə, müşrikləri cəhənnəmə vasil etdiyim bu qılıncla səni öz cəzana çatdıracağam. And olsun Allaha! Əgər Həsən və Hüseyn sənin gördüyün bu işi görsəydilər, onları cəzalandırmaqda əsla peşiman olmazdım».

Demək, şəxsi məsələlərdə əfv və güzəştə yol verilsə də, ilahi və ictimai hüquqların bərpa olunmasında bu iş qeyri-mümkündür. Əgər buna yol verilərsə, yalnız Allahın izni Peyğəmbər (s) və onların naibləri tərəfindən ola bilər.

Bir şeyi də nəzərdən qaçırmaq olmaz ki, əfv və güzəşt yalnız öyüd-nəsihətdən ibrət alan və bunun qədrini bilən şəxslərə edilməlidir. Çünki, onlar xəbərdarlıq olunarkən buraxdıqları səhvə bir dəfəlik son qoyur və düzgün nəticə çıxarırlar.

[1] Biharul-ənvar, 74-cü cild, 28-ci fəsil, 41-ci hədis.

[2] Biharul-ənvar, 71-ci cild, 93-cü fəsil, 62-ci hədis.

Nadan və inadkar insanlar isə əksinə, əvvəlkindən daha çox başqalarının haqqını tapdalayır və onlara edilən öyüd-nəsihətlərdən heç bir nəticə çıxarmırlar.

Əli (ə) bu barədə buyurmuşdur:

«Əfv və güzəşt alicənab insanı nə qədər islah edirsə, nadan insanı bir o qədər fasid edir».[1]

İmam Zeynəlabidin (ə) buyurmuşdur:

«Sənə pislik edən şəxsin haqqı onu bağışlamağından ibarətdir Əfv etməyin zərərli olduğunu bildikdə isə onun üzərində hakim ol. Allah-taala buyurur: **«Haqqı tapdalanan şəxslər intiqam aldıqda günahkar sayılmazlar».**

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Əfv və səfh arasında olan fərqi izah edin.
2. Əli (ə) valilərdən birinin beytul-malı mənimsədiyi üçün ona göndərdiyi məktubda nə yazır?
3. Nə üçün yalnız əməli-saleh insanlar əfv və güzəşt olunmalıdırlar?
4. İmam Sadiq (ə)-dan nəql olunmuş rəvayətdə dünya və axirətdə bəyənilən neçə xüsusiyyətə işarə olunur?

[1] Biharul-ənvar, 77-ci cild, 15-ci fəsil, 40-cı hədis.

## ON İKİNCİ DƏRS

### *İNSAF*

İctimai əlaqələrin bərqərar olunmasında insaf və ədalət islam əxalaqının əsasını təşkil edir. Burada «insaf» dedikdə, insanların özlərinə rəva bildikləri və sevdikləri hər bir şeyi başqalarına da rəva görüb onlar üçün istəmələri nəzərdə tutulur.

Xalq arasında insaf və ədalətin bərqərar olunmasına bu qədər böyük diqqət yetirilməsi cəmiyyətin sağlam qanunlar əsasında idarə olunmasından irəli gəlir. Belə ki, hər bir cəmiyyət üzvünün hüququnun qorunmasında kiçicik ədalətsizliyə belə yol verilməməlidir. Təsdiq olunmuş qanunlar məcmuəsinin həyata keçirilməsində cəmiyyət üzvləri arasında fərq qoyulmamalıdır. Başqa sözlə desək, qanunvericilər bir şeyi özlərinin xeyirinə gördükdə qəbul edib, zərərlərinə olduqda isə orada istədikləri kimi dəyişikliklər aparmamalıdırlar. Bu bir həqiqətdir ki, insanların əksəriyyəti haqq-ədalət deyildikdə, olduqca canfəşanlıq göstərir, onun əməli olaraq həyata keçirilməsinə gəldikdə isə, ədalət onların zərərinə olarsa, ya əməl etmir, yaxud da öhdəsindən gələ bilməyib öz üzərlərindən atmağa çalışırlar.

Əli (ə) bu barədə buyurur:

«Haqqın tərifi hər şeydən daha genişdir, əmələ gəldikdə isə hər şeydən daha məhdud və kiçik olur».

Yəni, haqq-ədalətdən söz düşdükdə hamı bu haqda çox danışır, əmələ gəldikdə isə bir çox hallarda biri digərinin haqqını tapdalayır və ictimai ədalətin bərqərar olunmasında üzərinə düşən məsuliyyəti lazımınca yerinə yetirmir.

Bu səbəbdən də Qurani-Kərimin bir çox ayələrində ictimai ədalətin bərqərar olunmasına xüsusi diqqət yetirilmiş və bu mətləbə dəfələrlə təkid olunmuşdur.

Bir neçə ayədə haqq-ədalətin ən çətin icra olunan mövqelərinə, yəni mənafelərin çarpazlaşdığı məqamlara, insanın özünün və ya qohum-əqrəbasının zərəri ilə nəticələnəcək hallara toxunulur. Yəni, insan özünün və ona yaxın olan qohum-əqrəbasının şəxsi mənafeyindən keçib haqq-ədaləti hər şeydən üstün tutaraq onu həyata keçirir:

***«...Söz söylədiyiniz zaman [lehinə və əleyhinə danışdığınız adam] qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdi [dini vəzifələrinizi, andlarınızı] yerinə yetirin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə düşünüb öyüd-nəsihət qəbul edəsiniz!»***[1]

Başqa bir ayədə buyurur:

***«Ey iman gətirənlər! [Şahidliyiniz] sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun! [Əleyhinə şahidlik edəcəyiniz şəxs] istər dövlətli, istərsə kasıb olsun, hər halda Allah onların hər ikisinə sizdən daha yaxındır! Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin! Əgər dilinizi əyib-büzsəniz və ya [doğru şəhadət***

---

[1] Ənam-152.

***vermәkdәn, yaxud ümumәn şahidlikdәn] boyun qaçırsanız, [bilin ki,] Allah etdiyiniz işlәrdәn xәbәrdardır!»***[1]

Göründüyü kimi ayәdә әdalәtә tәkid olunmaqla yanaşı, iki mühüm mәsәlәyә dә işarә olunur:

1. Ayrı-ayrı şәxslәrin özlәrinin vә ya qohum-әqrәbasının zәrәrinә olsa belә, әdalәtli olmalı;

2. İnsanların yoxsul vә ya varlı olmalarını nәzәrә alıb onların istәklәrinә uyğun hökm çıxarmamaq.

Mәsәlәn yoxsulların maddi vәziyyәtlәrinin aşağı sәviyyәdә olduğunu görüb, haqq onlarla olmasa belә, rәhm edib onların tәrәfi saxlanılmamalı vә ya dövlәtlilәrin var-dövlәtә olan әlaqәlәrini görüb onların xeyrinә hökm çıxarılmamalıdır.

Qurani-Kәrimin başqa bir ayәsindә bu mәtlәbә işarә olunaraq buyurulur:

***«Ey iman gәtirәnlәr! Allah qarşısında [borcunuzu yerinә yetirmәkdә] sabitqәdәm vә әdalәtli şahidlәr olun. Hәr hansı bir şәxsә qarşı olan kininiz sizi әdalәtsizliyә sövq etmәsin. Әdalәtli olun. Bu, tәqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklәrinizdәn xәbәrdardır!»***[2]

Göründüyü kimi bu ayәdә dә Allah-taala haqq-әdalәtә әmr etdikdәn sonra bir daha düşmәnçilik, kin-küdurәt üzündәn insafı әldәn vermәmәyi xatırladır. Belә ki, bir çox hallarda insanlar başqalarından bir pislik gördükdә intiqam almaqda hәddi aşır vә belә olduqda tәbii ki, әdalәtә riayәt etmәyә qadir olmurlar.

Әldә olunan rәvayәtlәrdә dә bu mәtlәbә xüsusi diqqәt yetirildiyinin şahidi oluruq.

Peyğәmbәr (s) buyurur:

«İnsanların әn әdalәtlisi o kәsdir ki, özünә istәdiyi şeyi başqaları üçün dә istәsin vә özünә rәva bilmәdiyi şeyi başqaları üçün dә rәva bilmәsin».[3]

Başqa bir rәvayәtdә buyurur:

«Yoxsullara әl tutan vә camaata kömәklik edәn şәxs, hәqiqi mömindir».[4]

Hәzrәt Әli (ә) insafı insanın vüqar vә izzәti hesab edir:

«Allah-taala camaatla insafla rәftar edәn şәxsin izzәt vә әzәmәtini daha da artırar».[5]

Dәrsin әvvәlindә qeyd olunan rәvayәtlәrdә әdalәt vә insafın tәrifi ilә tanış olduq. Növbәti rәvayәtlәrdә isә әdalәtli olmağın hәdd-hüdudu vә mahiyyәtinә işarә olunacaqdır. Hәzrәt imam Әli (ә) imam Hәsәn Müctәba (ә)-a etdiyi vәsiyyәtindә buyurur:

«Ey övladım! Nәfsini özünlә başqaları arasında tәrәzi qәrar ver. Özünә istәdiyin şeylәri onlar üçün dә istә. Özün üçün istәmәdiyin şeylәri başqaları üçün dә istәmә. Kimsәnin sәnә zülm etmәsini istәmәdiyin kimi, sәn dә onlara zülm etmә. Başqalarının sәnә yaxşılıq etmәlәrini istәdiyin kimi, sәn dә başqalarına yaxşılıq et. Özünә mәslәhәt görmәdiyin şeylәri başqalarına da mәslәhәt görmә.

---

[1] Nisa-135.
[2] Maidә-8.
[3] Biharul-әnvar, 75-ci cild, 35-ci fәsil, 1-ci hәdis.
[4] Biharul-әnvar, 75-ci cild, 35-ci fәsil, 5-ci hәdis.
[5] Biharul-әnvar, 75-ci cild, 35-ci fәsil, 25-ci hәdis.

Özünün onlara qarşı etdiyin rəftarı bəyəndiyin kimi, onların da sənə qarşı etdiklərini bəyən və qəbul et. Bilmədiyin şey haqda bir şey söyləmə, yalnız sənə məlum olan şeylər haqda danış. Başqalarının sənə sevmədiyin şeyləri demələrini sevmədiyin kimi, sən də başqalarının sevmədiklərini onlara demə!»[1]

Nəql olunmuş rəvayətlərin bir çoxunda «insafun-nasi minən-nəfsi» ifadəsindən istifadə olunur. Bu dərsdə Peyğəmbər (s) və Əli (ə)-dan nəql olunmuş rəvayətlərdə də bu ifadədən istifadə olunduğunun şahidi oluruq. Mənası isə budur ki, insan özü ilə başqaları arasında hökm çıxardığı zaman özünü başqalarının yerinə qoymalı, özünü haqlı hesab etdiyi kimi başqalarını da haqlı hesab etməli və ya əksinə müqəssir olduğu zaman başqaları haqda cəza tədbiri nəzərdə tutduğu kimi, özünü də cəzalandırmağa hazır olsun. Bunlarla yanaşı, haqsız olduğu zaman da özünə bəraət qazandırmağa çalışmamalıdır. Buradan belə məlum olur ki, həzrət Əli (ə) oğlu imam Həsən (ə)-a etdiyi vəsiyyətnamədə sözün əsl mənasında «insafun-nasi minən-nəfsi» cümləsini təfsir etmişdir.

Həmçinin Malik Əştərə verdiyi göstərişdə buyurur:

«Özünlə Allah, camaat, yaxınlar və qohum-əqrəba arasında insafa riayət et! Belə etmədiyin təqdirdə zülmkar hesab olunarsan. Allah bəndələrinə zülm edən kəslər Allahın düşmənləridirlər. Onlar tövbə edib zülmkarlıqdan əl çəkməyincə Allahla müharibə etmiş olarlar».

Həzrət Əli (ə)-ın qısa və nəsihətamiz cümlələrində insaf və ədalətin ictimaiyyətdə qoyduğu müsbət təsir belə izah edilir:

1. İnsaf dostluğun, səfa-səmimiyyət və mehr-məhəbbətin davam gətirməsinə səbəb olur.
2. İnsaf qəlblərin bir-birinə yaxınlaşmasına səbəb olur.
3. İnsaf ixtilafları aradan qaldırır və birliyə gətirib çıxarır.
4. İnsaf rahatlıq və asayiş gətirir.
5. İnsafa riayət etməklə insanlar arasındakı əlaqə və bağlılıq uzun müddət davam gətirir.
6. İnsaflı şəxslərin dost və yardımçıları çox olar.

## *ƏXLAQİ İNCƏLİK*

Yuxarıda qeyd olunanlardan belə bir nəticəyə gəlmək olur ki, insaf insanın özünü bütün ictimai hüquqlarda başqaları ilə bərabər tutmasına deyilir. Əgər bütün müsəlmanlar layiqincə ictimai ədalətə riayət edərlərsə, Əli (ə)-ın buyurduğu kimi cəmiyyətdə onun səmərəsini, yəni əmin-amanlığın, asayiş və bərabərliyin bərqərar olunduğunun şahidi olarlar. Lakin ədalət və insafa riayət etmək ən çətin məsələlərdən biridir. Bunun əsas səbəbi insanda «özünüsevmək» hissinin yaranmasıdır. İnsan zatən özünü sevən və hər şeyi özü üçün istəyən bir varlıqdır. Bu səbəbdən də belə bir nəfsani xüsusiyyət və ruhiyyəni tərk etmək onun üçün hər şeydən ağırdır.

İmam Sadiq (ə) bu haqda buyurur:

[1] Biharul-ənvar, 75-ci cild, 35-ci fəsil, 21-ci hədis.

«İstəyirsinizmi sizin üçün Allahın təyin etdiyi ən ağır və vacib məsuliyyətin nədən ibarət olduğunu açıqlayım? Sonra İmam (ə) üzünü səhabələrə tutub buyurur: Camaatla insafla rəftar etmək və onların hüquqlarını qorumaq».[1]

Nəql olunmuş başqa bir rəvayətdə deyilir:

İmam Baqir (ə)-ın səhabələri onları maraqlandıran bir neçə sualı məktuba yazaraq Əbdül Əla adlı bir şəxs ilə Mədinəyə göndərirlər. Bu suallarla yanaşı onun imam Sadiq (ə)-dan şifahi olaraq müsəlmanın öz müsəlman qardaşının üzərində nə kimi hüquqa malik olması haqda soruşmağını da xahiş edirlər. Əbdül Əla deyir: Məktubu imam Sadiq (ə)-a verib ondan müsəlmanların bir-birlərinin üzərində hansı hüquqa malik olmaları haqda soruşdum.

İmam Sadiq (ə) sonuncu (şifahi) sualımdan başqa bütün suallarıma təmkinlə cavab verdi.

Sonra buyurdu:

Allahın insanların üzərinə qoyduğu ən ağır vəzifə bu üç şeydən ibarətdir:

1. Ədalət və insafa riayət etmək. Belə ki, hər bir müsəlman öz müsəlman qardaşı ilə elə rəftar etməlidir ki, başqalarının da onunla eyni tərzdə rəftar etmələrini istəsin.

2. Müsəlman qardaşının şəraitini nəzərə almalı və öz malını onlardan əsirgəməməlidir.

3. Hər zaman Allahı xatırlamalı. Lakin bu heç də o demək deyildir ki, daim «sübhanəllah» və «əlhəmdulillah» deyərək zikr etməlidir. Xeyr! O, haramla qarşılaşdığı zaman Allahın onun gördüyü bütün işlərdən agah olduğunu yəqin edərək ondan uzaq olmağa çalışmalıdır».

Göründüyü kimi haqq-ədalətə, insafa riayət etmək insanın üzərinə düşən ən ağır vəzifələrdən biri kimi göstərilir. Bunun üçün ilk növbədə insan öz nəfsi ilə mübarizə aparmalı və lazım gələrsə başqalarını özündən üstün tutmağı bacarmalıdır.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. İnsanlar varlı və ya yoxsul olduqları üçün nəyə görə haqq-ədalətin əksinə hökm çıxarmamalıdır?

2. Əli (ə) imam Həsən (ə)-a etdiyi vəsiyyətdə insafa riayət etməkdə nəyi əsas meyar hesab edir?

3. İnsafın verdiyi nəticələrin bir neçəsini izah edin.

4. Başqalarını özü ilə bərabər tutmaq nə üçün mühüm əxlaqi xüsusiyyələrdən hesab olunur?

5. İmam Sadiq (ə) ən ağır ilahi vəzifə nəyi hesab edir?

---

[1] Biharul-ənvar, 69-cu cild, 38-ci fəsil, 89-cu hədis.

## ON ÜÇÜNCÜ DƏRS

### *ZARAFT VƏ GÜLƏRÜZLÜLÜK*

İctimai münasibətlərin müsbət hal tapmasında zəruri hesab olunan əxlaqi xüsusiyyətlərdən biri də gülərüzlülükdür. Peyğəmbər (s) və Məsum imamlar (ə) yaşadıqları cəmiyyətdə qarşılaşdıqları şəxslərlə gözəl və səmimi münasibətdə olmuş və bunu öz davamçılarına da tövsiyə etmişlər:

«İnsanlara var-dövlətinizlə sevinc gətirə bilməzsiniz. Elə isə onlarla gülərüz və mehribanlıqla rəftar edin».[1]

Yəni, var-dövlətiniz nə qədər çox olsa da, insanların [mənəvi] çətinliklərini həll edə bilməzsiniz. Elə isə öz səmimi rəftarlarınızla onların sevincinə səbəb olun. Əli (ə) mehriban və təbəssümlü olmağı möminlərin xüsusiyyətlərindən biri hesab edərək buyurur:

Mö`minlərin sevinc və şadlığı onların çöhrəsində aşkar olar, qəm-qüssələri isə qəlblərində gizlənər.[2]

Bu səbəbdən də hər hansı bir çətinliklə qarşılaşan mömin şəxslər öz mömin qardaşları ilə ünsiyyətdə olarkən özünü kədərli göstərməklə onların qəm-qüssəsinə səbəb olmamalıdır. Belə ki, gündəlik həyatımızda hamı bir sıra çətinliklərlə qarşılaşır və təbii ki, bu onların narahatçılıqlarına səbəb olur. Əgər hər birimiz gündəlik həyatda qarşılaşdığımız çətinliklər ucbatından öz müsəlman bacı və qardaşlarımızla soyuq münasibətdə olarıqsa, həyat bizim üçün olduqca acı və mənasız olacaqdır. Bu səbəbdən də cəmiyyətdə sevinc, şadlıq və yüksək əhval-ruhiyyə hiss olunsun deyə, Əli (ə)-ın tövsiyə etdiyi kimi, üzlərdə sevinc və təbəssüm olmalı, kədər və qəm-qüssə isə qəlblərdə gizli qalmalıdır.

### *GÜLƏRÜZLÜYÜN MÜSBƏT NƏTİCƏLƏRİ*

Bu məzmunda Peyğəmbər (s) və Məsum imamlardan (ə) kifayət qədər hədis və rəvayət nəql olunmuşdur. Burada onlardan bir neçəsini gətiririk.

Peyğəmbər (s) buyurur:

«Təbəssümlü və gülərüzlü olmaq kin-küdurəti aradan aparır».[3]

Əli (ə) buyurur:

«Təbəssümlü olmaq dostluğun (möhkəm) ipidir».[4]

O həzrət yenə də buyurur:

Təbəssümlü olmaq bir (növ) qohumluqdur.

İnsanların dostluq əlaqələrinin daha da səmimiləşməsinə və düşmənlərin qəlblərindən kin-küdurətin götürülməsinə səbəb olacaq ən gözəl şey onların bir-birləri ilə qarşılaşarkən gülərüzlə davranmaları, el-obasından uzaq düşdükdə [ailə üzvlərinə] yardım etmələridir.[5]

---

[1] Biharul-ənvar, 74-cü cild, 38-ci fəsil, 36-cı hədis.
[2] Biharul-ənvar, 67-ci cild, 14-cü fəsil, 37-ci hədis.
[3] Biharul-ənvar, 74-cü cild, 10-cu fəsil, 41-ci hədis.
[4] Biharul-ənvar, 75-ci cild, 59-cu fəsil, 12-ci hədis.
[5] Biharul-ənvar, 7-ci cild, 8-ci fəsil, 83-cü hədis.

Başqa bir hədisdə deyilir:

«Gülərüzlülük alicənablığına dəlalət edir».

İmam Baqir (ə) gülərüzlülüyü insanlar arasında dostluğun, səmimiyyətin artmasının və insanın Allaha yaxınlaşmasına səbəb olacaq ən başlıca amillərdən biri hesab edir.

O həzrət bu haqda buyurur:

«Gülərüzlük insanların bir-birləri ilə dostluq və səmimiyyətinə və Allaha yaxınlaşmalarına, qaraqabaqlıq isə onların bir-birləri ilə düşmənçiliyinə və Allahdan uzaq düşmələrinə səbəb olur».[1]

Əli (ə) buyurur:

«Din [müsəlman] qardaşlarınızla qarşılaşdığınız zaman əl-ələ görüşüb bir-birinizdən ayrılana qədər təbəssümlü olun. Belə edərsinizsə, boynunuzdakı günahlar bağışlanar».[2]

Yuxarıda qeyd olunan rəvayətlərdə səmimi rəftar və gülərüzlülüyün cəmiyyətdə qoyduğu müsbət təsirlərə işarə olunur. Nəql olunmuş növbəti rəvayətlərdə isə müsəlmanların bir-birləri ilə daha da səmimi əlaqədə olmalarına sövq edən bu gözəl əxlaqi xüsusiyyətin axirət nəticələrinə toxunulur.

İmam Sadiq (ə) buyurur:

«Bu üç şeydən birinə riayət edən şəxsə Allah-taala cənnəti vacib edər:

1. Yoxsulluqda başqalarına əl tutmaq;
2. Camaatla gülərüzlə rəftar etmək;
3. İnsaflı olmaq [və ədalətə riayət etmək]».[3]

## *ZARAFAT*

Gülərüzlükdən söz düşərkən cəmiyyətdə geniş yayılmış zarafat, duzlu və könül oxşayan atmacalardan da danışmaq lazımdır.

İslam dini necə? Gülərüzlüklə yanaşı zarafata da yol verirmi?

Bu suallara da cavab tapmaq üçün Peyğəmbər (s) və Məsum imamlardan (ə) nəql olunmuş hikmətli və nəsihətamiz rəvayətlərə müraciət edirik.

Bu məzmunda nəql olunmuş rəvayətləri araşdırdıqda bəzən zarafatın möminlərin müsbət xüsusiyyətlərindən biri kimi, bəzən də bunun kin-küdurətə, düşmənçiliyə səbəb olacaq mənfi xüsusiyyət olduğu göstərilir.

Biz bu rəvayətlərin hər biri haqda ayrı-ayrılıqda söhbət açacaq və söhbətimizi bu xüsusiyyətin Peyğəmbər (s) və Əhli-beytin (ə) sünnəsində müşahidə olunub-olunmadığı ilə başa vuracağıq.

## *ZARAFATIN MÜSBƏT XÜSUSİYYƏT OLDUĞU HAQDA NƏQL OLUNMUŞ RƏVAYƏTLƏR*

Peyğəmbər (s) buyurur:

«Mömin zarafatcıl və xoştəbiətli, münafiq isə qəmgin və qəzəbli olur». (Biharul-ənvar, 11-ci cild, 1-ci fəsil, 1-ci hədis).

---

[1] Biharul-ənvar, 7-ci cild, 8-ci fəsil, 83-cü hədis.
[2] Biharul-ənvar, 75-ci cild, 59-cu fəsil, 19-cu hədis.
[3] Biharul-ənvar, 74-cü cild, 10-cu fəsil, 28-ci hədis.

«Zaraft edirəm, lakin həqiqətdən başqa bir şey söyləmirəm».[1]
İmam Baqir (ə) buyurur:
«Allahın sevdiyi şəxslərdən biri də nalayiq sözlər demədən zarafat edən şəxsdir».[2]
İmam Baqir (ə) üç şeyi möminlərin əyləncəsi hesab edir. Onlardan biri də dostlarla zarafatdır.
İmam Sadiq (ə) buyurur:
Elə bir mömin yoxdur ki, onda «dubə» olmasın. Dubə nədir, soruşulduqda imam Baqir (ə) — zarafat, deyərək cavab verir».[3]
İmam Sadiq (ə)-ın səhabələrindən Yunis Şeybani adlı biri deyir:
İmam Sadiq (ə) məndən soruşdu: Bir-birinizlə zarafat edirsinizmi? Dedim: Çox az. Buyurdu: Belə olmayın. Çünki, gözəl xüsusiyyətlərdən biri də zarafat etməkdir. Zarafat etməklə öz din qardaşlarınızı sevindirmiş olursunuz. Peyğəmbər (s) birini sevindirmək istərkən onunla zarafat edərdi».[4]

## *ZARAFATIN MƏNFİ TƏSİR QOYDUĞU HAQDA NƏQL OLUNMUŞ RƏVAYƏTLƏR*

Həzrət Peyğəmbər (s) Əli (ə)-a tövsiyə edərək buyurur:
«Ey Əli! Zarafat etmə ki, bununla öz dəyərini itirmiş olarsan. Yalan danışma ki, bununla iman nurun aradan getmiş olar».[5]
Həzrət Əli (ə) buyurur:
«Yalan və zarafatı, həmçinin haqlı olsa belə, mübahisəni tərk etməyincə insan xalis imana nail ola bilmir».
«Zarafat öz arxasınca kin-küdurət gətirir.[6]
«Hər şeyin bir kökü vardır. Ədavət və düşmənçiliyin də kökü zarafatdır».
«Heybət və vüqara xələl gətirən şey zarafatdır».
«İnsan zarafat etməklə kiçilir».[7]
İmam Sadiq (ə) buyurur:
«Zarafat etməyin ki, camaat da cürət edib sizə qarşı hörmətsizlik etməsin».
İmam Sadiq (ə) buyurur:
«Zarafat etməkdən çəkinin. Çünki, zarafat kişilərin mənlik və şəxsiyyətinə xələl gətirir».
İmam Sadiq (ə) öz səhabələrindən birinə nəsihət verərək buyurmuşdur:
«Hər şeydən əvvəl sənə təqvalı olmağı və zarafat etməkdən çəkinməyi tövsiyə edirəm. Çünki, zarafat şəxsiyyətinə xələl gətirir».

---
[1] Biharul-ənvar, 16-cı cild, 10-cu fəsil, 2-ci hədis.
[2] Biharul-ənvar, 71-ci cild, 80-cı fəsil, 18-ci hədis.
[3] Biharul-ənvar, 76-cı cild, 106-cı fəsil, 13-cü hədis.
[4] Biharul-ənvar, 16-cı cild, 10-cu fəsil, 2-ci hədis.
[5] Biharul-ənvar, 77-ci cild, 3-cü fəsil, 10-cu hədis.
[6] Biharul-ənvar, 77-ci cild, 8-ci fəsil, 1-ci hədis.
[7] Biharul-ənvar, 77-ci cild, 237 səh.

Nəql olunmuş rəvayətlərdən belə bir nəticəyə gəlmək olur ki, zarafat islam nöqteyi-nəzərindən nisbi (yəni, zaman və məkan baxımından heç də sabit olmayan) bir rəftar tərzidir.

Bir sözlə, islam möminlərə bütün ömürlərini zarafat və deyib-gülməklə keçirmələrini, habelə başqalarının könlünü almaq xatirinə görülən bütün işləri qətiyyətlə pisləyir və eyni zamanda yaşadığı cəmiyyətdə ünsiyyətdə olduğu şəxslərlə səmimi rəftar etmələrini və onlarla gülər üzlə davranmağı tövsiyə edir.

Yəni, zarafat edərkən ifrata varmamalı və xoşagəlməz sözlər deməklə başqalarının qəlblərini qırmamalıdır. Bütün bunlarla yanaşı, haqdan uzaq düşərək yalan və iftiraya da yol verməməlidir.

Buradan artıq, eyni məzmunda nəql olunmuş rəvayətlərin iki hissəyə bölündüyü məlum olur. Onlardan birində ifrata varıldıqda zarafatın verdiyi mənfi nəticələr, digərində isə həddi aşmadan səmimiyyətin artması üçün edilən münasib zarafatlar nəzərdə tutulur. Peyğəmbər (s) bu haqda buyurur:

«Çox zarafat etmək insanın şəxsiyyətinə xələl gətirir».

Əli (ə) buyurur:

«Çox zarafat etmək, insanın şəxsiyyət və dəyərini aşağı salır».

«Çox zarafat etmək insanın şəxsiyyətinə xələl gətirməklə yanaşı düşmənçiliyə də səbəb olur».

«Çox zarafat edən şəxsin vüqar və əzəməti azalar».

Demək, insanların təqva və şəxsiyyətinə xələl gətirməyəcəyi təqdirdə, dostluq və səmimiyyətin artması üçün zarafat etməyin heç bir irad və nöqsanı yoxdur.

Peyğəmbər (s) və Məsum imamların (ə) həyat və sünnəsi bizlərə onların hansı şəraitdə, necə və kimlərlə zarafat etdikləri haqda kifayət qədər məlumatlar əldə etməyə imkan verir. Dərsin əvvəlində Peyğəmbərdən (s) nəql olunmuş bir hədis qeyd etmişdik. Orada deyilirdi:

«Mən zarafat edirəm, lakin həqiqətdən başqa bir şey söyləmirəm».

Peyğəmbərin (s) zarafat etməsi haqda nəql olunmuş rəvayətlərin bir neçəsinə diqqət yetirin:

«Bir gün bir ağbirçək qadın Peyğəmbərin (s) yanına gəlir. Peyğəmbər (s) onu görçək buyurur: Qoca qadınlar cənnətə getməyəcəklər. Qadın bunu eşitcək ağlamağa başlayır. Peyğəmbər (s) gülümsəyərək buyurur: Sən cənnətə daxil olarkən qoca olmayacaqsan. (Peyğəmbər (s) bunu demək istəmişdir ki, cənnət əhli cavan yaşlarında olacaqlar.) Sonra o həzrət bu ayəni oxudu:

**«Şübhəsiz ki, Biz cənnət qadınlarını başaq cür [yeni bir yaradılışla] yaradacağıq!**

**Onları bakirə qızlar [kimi] yaradacağıq».[1]**

Başqa bir rəvayətdə deyilir:

«Ümmü Əymən adlı bir qadın Peyğəmbərin (s) yanına gəlib deyir: Ərimin sizinlə işi vardır. Peyğəmbər (s) soruşur: Sənin ərin gözündə ağ olan həmin şəxsdirmi? (Ümmi Əymən belə güman edir ki, Peyğəmbər (s) göz xəstəliyi olan mirvari suyunu deyir.) Bunun üçün də deyir: Xeyr! And olsun Allaha onun

[1] Vaqiə 35-36.

gözündə ağlıq yoxdur. Peyğəmbər (s) bir daha buyurur: Amma onun gözündə ağlıq vardır.

Ümmi Əymən deyir: Xeyr! And olsun Allaha!

Peyğəmbər (s) təbəssüm edərək buyurur:

Elə bir insan yoxdur ki, gözünün ağı olmasın.»

Digər bir rəvayətdə deyilir:

«Bir çöl ərəbi vaxtaşırı Peyğəmbərin (s) yanına gələr və onun üçün hədiyyələr gətirərdi. Lakin Peyğəmbərdən (s) gətirdiyi hədiyyələrin pulunu istəyərdi. Həmin şəxs hər dəfə hədiyyələrin pulunu istəyəndə Peyğəmbəri (s) gülmək tutardı. Bunun üçün də qəmgin olduğu vaxt buyurardı:

Kaş, həmin çöl ərəbi bir də gələydi.»

Başqa bir əhvalatda deyilir:

«Bir şəxs Peyğəmbərdən (s) onu dəvəyə mindirməsini xahiş edir. Peyğəmbər (s) buyurur:

Mən səni dəvənin balasına mindirəcəyəm. Həmin şəxs təəccüblə deyir: Dəvə balasının ki, mənə gücü çatmaz. Peyğəmbər (s) buyurur:

Hər bir dəvə başqa bir dəvənin balası deyilmi?»

Bu hədislər və Məsum imamların etdikləri zarafatlar haqda nəql olunmuş rəvayətlərin məzmununa nəzər saldıqda bu həqiqətin şahidi oluruq ki, onların etdikləri zarafatlar olduqca qısa və məhdud olmuş və orada yalan, qeybət və iftiraya yol verilməmişdir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Məsum imamların (ə) cəmiyyətdə gülərüzlüyün verdiyi müsbət nəticələrin nədən ibarət olduğunu hesab etdiklərini izah edin.
2. Zarafat hansı şəraitdə müsbət hal kimi dəyərləndirilir?
3. Əli (ə) zarafat haqda nə buyurur?
4. Gülərüzlüyün axirət nəticələri haqda nəql olunmuş hədisi izah edin.

# ON DÖRDÜNCÜ DƏRS

## *ÇƏTİNLİKLƏRİN HƏLLİ*

İkinci dərsdə qeyd etdik ki, möminlər bir-birləri ilə qardaş və həmrəy olmalıdırlar. Bu isə o deməkdir ki, onlar bir ailə üzvləri kimi bir-birlərinin qayğılarına qalmalı, sevinc və kədərlərini birgə bölüşdürməlidirlər. Belə ki, hər bir insan özünü başqalarının sevinc və kədərində şərik hesab edirsə, başqalarından da özünə qarşı həmin rəftarı gözləyir. Demək, insanlar bir-birlərinə qarşı qarşılıqlı kömək və həmkarlıq vəzifəsi daşıdıqları üçün bir-birlərinin qarşılaşdıqları çətinliklərdə həmrəy olmalı və əllərindən gələni əsirgəməməlidirlər.

Peyğəmbər (s) özünün məşhur hədislərindən birində buyurur:

«Möminlər mehr və məhəbbət baxımından bir bədən üzvü kimidirlər. Bədən üzvlərindən biri ağrıdığı zaman digər bədən üzvləri də onunla həmdərd olurlar».

Möminlərin birlik və həmrəyliyinə dair bundan gözəl ifadə tapmaq mümkün deyil. Əgər hər bir mömin insan həqiqətən başqalarını öz bədən və ya ailə üzvü hesab edərsə, nəinki qarşılaşdıqları çətinliklərdə onlara köməklik edəcək, hətta əvvəlcədən öz köməkliklərini onlara göstərəcək və bütün xoşagəlməz hadisələrin qarşısını almağa cəhd edəcəkdir. Çünki, hər bir vicdanlı insan özü çətinliklərlə qarşılaşdığı zaman başqalarının köməyinə ehtiyac duyduğu kimi, özü də onların çətinliklərinin aradan qaldırılmasında yaxından köməklik edir və heç vaxt razı olmur ki, yalnız başqaları onun çətinliklərində köməklik göstərsin, özü isə onlarla əlaqəsini kəsib heç bir iş görməsin.

Maddi və mənəvi yardım möminlər arasında qarşılıqlı şəkildə həyata keçirilir. Bu səbəbdən də əxlaq, təlim-tərbiyə mövzusunda bu məsələyə xüsusi diqqət yetirilir. Maidə surəsinin 2-ci ayəsində deyilir:

***«...Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun...»***

Diqqət yetirmək lazımdır ki, ictimai əlaqələr, qarşılıqlı yardımlar həmrəylik və həmkarlıq ruhiyyəsindən nəşət tapır.

Həmrəylik və həmkarlıq ruhiyyəsi olmadan insan başqalarına qarşı qəlbən mehr və məhəbbət hissi keçirməyəcəkdir. Nəticədə insanların aqibəti onun üçün əhəmiyyətsiz olacaqdır.

Peyğəmbər (s) buyurur:

«Müsəlmanların xeyir və şərində iştirak etməyən və yardım diləyən müsəlmanın dadına çatmayan şəxs müsəlman deyildir».[1]

İmam Sadiq (ə) buyurur:

Çətinlikdə olan müsəlman qardaşını gülər üzlə qarşılamayan şəxs Allaha, həzrət Məhəmmədə (s) və Əli (ə)-a iman gətirməmişdir. İmkanı çatdığı təqdirdə özü onun ehtiyacını ödəməli, çatmadıqda isə başqalarını bu işə sövq etməlidir. Buna əməl etməyən şəxs ilə bizim [Əhli-beytin] aramızda heç bir vilayət [əhd-peyman] yoxdur. Nəql olunmuş rəvayətlərdə var-dövlətini müsəlmanların rifahı naminə onların ixtiyarına qoymayan şəxslərin acınacaqlı aqibətləri, Allahın

---

[1] Biharul-ənvar, 74-cü cild, 20-ci fəsil, 120-ci hədis.

qəzəbinə düçar olacaqları və nəticədə var-dövlətlərinin Allah düşmənlərinin yolunda sərf edəcəkləri nəql olunur.

İmam Baqir (ə) buyurur:

«Müsəlman qardaşının qarşılaşdığı çətinliyin aradan qaldırılmasında və ehtiyaclarının ödənilməsində köməklik göstərməyən şəxs nəticədə günah edər və itaətsizlikdən çəkinməyən kəslərə yardım etməyə vadar olar. Bunun üçün onlar heç bir savaba nail olmazlar».[1]

İmam Sadiq (ə) buyurur:

«Allah-taala imkanı çatdığı təqdirdə bizim ehtyacı olan davamçılarımıza kömək etməyən şəxsi düşmənlərimizin ehtiyaclarını aradan qaldırmağa vadar edər və həmin şəxs qiyamət günü ağır əzaba düçar olar».[2]

İmam Musa Kazim (ə) bu haqda buyurur:

«İmkanı çatdığı təqdirdə yanına gələn müsəlman qardaşının ehtiyacını ödəməyən şəxs özü ilə Allah arasında olan əlaqəni kəsmişdir».

İmam Sadiq (ə)-dan nəql olunmuş başqa bir rəvayətdə ehtiyacı olan şəxslərə yardım etməyənlərin Allaha və Onun peyğəmbərinə xəyanət etdikləri göstərilir.

Allah-taala mömin qardaşından ehtiyac duyduğu şeyi əsirgəyən və ya başqalarının vasitəsilə onun çətinliklərini aradan qaldırmayan şəxsləri qiyamət günü üzü qara və əlləri boyunlarından asılı bir halda məhşərə daxil edər. Onlar məhşərə daxil olarkən deyərlər: Bunlar Allaha və Onun Peyğəmbərinə xəyanət edən kəslərdir. Sonra onların cəhənnəmə aparılmalarına əmr olunar».[3]

Nəql olunmuş rəvayətlərdə hər şeydən əvvəl diqqəti cəlb edən məsələ, Allaha və Onun Peyğəmbərinə iman gətirmiş hər bir mö᾽min insana, yardıma ehtiyacı olan müsəlman qardaşına kömək edə bilməyəcəyi təqdirdə belə, məsuliyyətin üzərindən götürülməməsidir. Belə ki, başqalarının vasitəsilə olsa da, müsəlman qardaşının çətinliklərini aradan qaldırmağa çalışmalı və bunu üzərinə düşən dini vəzifə və məsuliyyət hesab etməlidir.

Məşhur islam alimlərindən biri olan Vaqidi deyir: «İki nəfər şəxslə dostluq edərdim. Onlardan biri seyyid idi. Biz üç dost həddindən artıq səmimi idik. Bir il maddi vəziyyətim olduqca aşağı səviyyəyə düşdü və bütün ili yoxsulluqla başa vurmalı oldum. Bayram qabağı həyat yoldaşım mənə dedi: Biz çətinliyə dözə bilərik. Uşaqlar isə qonşu uşaqlarının bayrama necə təm-təraqla hazırlaşdıqlarını və təzə paltarlar geydiklərini görüb öz köhnə paltarlarından xəcalət çəkər və qəlbləri sınar. Əgər mümkünsə bir qədər pul tap ki, uşaqlar üçün təzə paltarlar alaq.

Seyyid dostuma məktub yazıb ondan bir qədər pul göndərməsini istədim. O da tez bir zamanda mənə min dirhəm pul göndərdi. Pul kisəsinin ağzını açmağa macal tapmamış, o biri dostumdan məktub aldım. Məktubda məndən kömək istəyirdi. Pul kisəsini açmadan ona göndərdim. Beləliklə, həyat yoldaşımın yanına əliboş qayıdacağımdan xəcalət çəkib məscidə tərəf getdim. Yolda təsadüfən seyyid dostuma rast gəldim. Həmin pul kisəsi də onun əlində idi. Göndərdiyi pulu

---

[1] Biharul-ənvar, 75-ci cild, 59-cu fəsil, 8-ci hədis.
[2] Biharul-ənvar, 75-ci cild, 59-cu fəsil, 21-ci hədis.
[3] Biharul-ənvar, 7-ci cild, 8-cu fəsil, 83-cü hədis.

nə etdiyimi soruşduqda əhvalatı olduğu kimi ona danışdım. Dostum pul kisəsini göstərib dedi: Sən onu mənim özümə qaytarmısan. Sözün doğrusu əlimdə olan pulu sənə göndərdikdən sonra özüm olduqca ağır vəziyyətə düşdüm. Bunun üçün də dostumuza məktub yazıb ondan kömək etməsini istədim. Lakin onun da vəziyyəti ağır olduğu üçün mənə heç bir köməklik edə bilmədi. Bunun üçün də sənə məktub yazıb köməklik etməyini istəmişdir. Beləliklə, pul kisəm mənim özümə qayıtmışdır. İndi ki, belədir, bu pulu üç hissəyə bölməliyik ki, hər üçümüz ondan istifadə edə bilək.

Əhvalatı nəql etməkdən ən başlıca məqsəd təqva sahiblərinin Allaha xatir bir-birlərinə yardım etmələrini və din qardaşlarını özlərindən üstün tutmalarını göstərməkdir.

Əli (ə) buyurur:

«Bu üç şeyə riayət etməyən şəxsi həqiqi dost hesab etmək olmaz:

1. Çətinliklərlə qarşılaşarkən yardım etmək;

2. Elindən, obasından uzaq düşdükdə ailəsinin qayğısına qalıb namusunu qorumaq;

3. Vəfat etdikdə vəsiyyətlərini yerinə yetirib dəfn olunmasında iştirak etmək və ailə üzvlərinə yardım etmək.[1]

Qurani-Kərimdə möminlər arasındakı əlaqə haqda deyilir:

***«...Özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar...»***[2]

İmam Sadiq (ə) müsəlmanları bir-birlərinə əl tutmağa sövq etmək məqsədilə buyurardı:

«Biri məndən nə isə bir şey istədiyi zaman mümkün qədər tez onun ehtiyacını ödəməyə çalışıram. Çünki, qorxuram o öz ehtiyacını başqa bir yolla təmin edə və mənim ona köməklik etməyimə fürsət olmaya».[3]

Nəql olunmuş bir çox rəvayətlərdə müsəlmanların çətinliklərinin aradan qaldırılmasına və bu işin olduqca böyük savabı olduğuna da dəfələrlə işarə olunmuşdur.

Dərsin sonunda biz onlardan bir neçəsinə işarə edirik. Əli (ə) buyurur:

«Müsəlman qardaşına köməklik edən şəxsin ruzisi bol olar».[4]

İmam Sadiq (ə) buyurur:

«[Müsəlman] qardaşlarınıza kömək etməklə Allaha yaxınlaşın».[5]

Allah-taala qiyamət günü, mömin qardaşının hacətini (istək və ehtiyacını) ödəyən şəxsin min istəyini yerinə yetirər. İstədiyi ilk şey özünün və qohum-əqrəbasının cənnətə daxil olması olar. Bu şərtlə ki, onlar Əhli-beyt düşmənlərindən olmasınlar.[6]

«Elə bir müsəlman yoxdur ki, öz müsəlman qardaşının ehtiyacını ödədikdən sonra Allah-taala tərəfindən belə bir nida gəlməsin:

---

[1] Biharul-ənvar, 74-cü cild, 10-cu fəsil, 28-ci hədis.
[2] Həşr-9.
[3] Biharul-ənvar, 74-cü cild, 20-ci fəsil, 9-cu hədis.
[4] Biharul-ənvar, 74-cü cild, 28-ci fəsil, 22-ci hədis.
[5] Biharul-ənvar, 74-cü cild, 28-ci fəsil, 5-ci hədis.
[6] Biharul-ənvar, 74-cü cild, 20-ci fəsil, 90-cı hədis.

Sənin mükafatlandırılmağın Mənim öhdəmdədir və Mən sənin üçün cənnətdən başqa heç nəyə razı deyiləm.[1]

Peyğəmbərdən (s) nəql olunmuş rəvayətdə buyurulur:

And olsun Allaha! Mömin bir şəxsin ehtiyacını ödəmək bir ay oruc tutub ibadət etməkdən daha yaxşıdır.[2]

İmam Sadiq (ə)-ın səhabələrindən Muşməil Əsədi adlı bir nəfər deyir: Bir il Həcc ziyarətinə getmişdim. Qayıtdıqda imam Sadiq (ə)-ın yanına getdim. Məni görcək soruşdu: Muşməil! Harada idin?» Dedim: Həcc ziyarətinə getmişdim. Buyurdu: «Bilirsənmi, hacılara nə qədər savab verilir?» Dedim: Siz bunu mənə deməyincə bilmərəm. Buyurdu: Allah-taala Həcc ziyarətinə gələn və orada bir həftə ərzində Kəbəni təvaf edib Səfa və Mərva dağları arasında səʾyləri yerinə yetirən hər bir şəxsin əməl dəftərinə altı min savab yazılmasını əmr edir. Həmin şəxsin altı min günahı bağışlanır, altı min dəfə məqamı ucalır, altı min istəyi qəbul olunur və altı min istəyi axirət üçün saxlanılır. Dedim: Doğrudan da bu çox böyük bir mükafatdır.

Buyurdu: Səni bundan da böyük savabdan agah etməyimi istəyirsən?

Dedim: Bəli.

Buyurdu: Mömin bir şəxsin ehtiyacını ödəyib onun hər hansı bir istəyini yerinə yetirmək «bir Həcc ziyarətindən» (bunu on dəfə təkrar etdi) daha yaxşıdır.[3]

Bu o deməkdir ki, bu iş on həcc ziyarətindən daha üstündür.

Növbəti dərslərimizdə yenidən bu barədə söhbət açacağıq.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Nə üçün Peyğəmbər (s) müsəlmanların xeyir və şərində uzaq düşən şəxsi [həqiqi] müsəlman hesab etmir?
2. Qurani-Kərimdə möminlərin əlaqələri haqda nə deyilir?
3. Möminlərin çətinliklərinin aradan qaldırılması haqda nəql olunmuş rəvayətlərdən bir neçəsini izah edin.
4. İmam Sadiq (ə) möminlərin ehtiyaclarının ödənilməsi haqda nə buyurur?

---

[1] Biharul-ənvar, 74-cü cild, 20-ci fəsil, 8-ci hədis.
[2] Biharul-ənvar, 74-cü cild, 20-ci fəsil, 6-cı hədis.
[3] Biharul-ənvar, 74-cü cild, 20-ci fəsil, 4-cü hədis.

## ON BEŞİNCİ DƏRS

### *MÖMİNLƏR ARASINDA SÜLH VƏ ƏMİN-AMANLIĞIN BƏRQƏRAR OLUNMASI*

Ötən dərsdə yüksək əxlaqi xüsüsiyyətlərdən biri olan möminlərə yardım və onların maddi vəziyyətlərinin yaxşılaşdırılması haqda söhbət açdıq. Qeyd etdik ki, mömin bir şəxsin öz mömin qardaşına miqdarından asılı olmayaraq, maddi yardım etməsi onun rifahının yaxşılaşması ilə yanaşı, qəlbinə də sevinc gətirməsinə səbəb olur.

Bu xüsusiyyətə hər bir müsəlman malik olmalı və bunu üzərinə düşən ən ümdə dini və insani vəzifələrdən biri hesab etməlidir. Bu dərsdə digər əxlaqi xüsusiyyətlərdən biri, yəni möminlər arasında sülh və əmin-amanlığın bərqərar olunması haqda söhbət açacaq və bu məzmunda nəql olunmuş bir neçə hədis və rəvayət gətirəcəyik.

Peyğəmbərdən (s) soruşurlar:

Allah yanında ən sevimli iş nədən ibarətdir?

Buyurdu: Müsəlmanları sevindirməyə çalışmaq.

Soruşdular: Müsəlmanları necə sevindirməli?

Buyurdu: Ac olduğu zaman doydurmaq, kədərli olduğu zaman qəm-qüssəsini dağıtmaq və borclu olduğu zaman borcunu ödəmək.[1]

Əli (ə) səhabələrindən biri olan Kumeylə tövsiyə edərək buyurur:

Ey Kumeyl! Ailə üzvlərini gündüzlər fəzilət (savab) qazanmağa və gecələr yuxuda olan camaatın ehtiyaclarını ödəməyə vadar et. And olsun hər şeyi eşidən Allaha! Yad bir dəvə sürüdən ayrıldığı kimi, Allah-taala qəlblərə sevinc gətirən şəxslərin qəlblərindən qəm-qüssə ilə qarşılaşdıqları zaman dərdi uzaqlaşdırar.[2]

İmam Baqir (ə) buyurur: Müsəlman qardaşınızın üzünə gülüb onun dərd-qəmini dağıtmaq ən xeyirxah işlərdəndir. Və Allah yanında ən xeyirxah (sevimli) iş mömin bir şəxsi sevindirməkdir.[3]

İmam Sadiq (ə) buyurur:

Sizlərdən heç biriniz belə güman etməsin ki, mömin bir şəxsi sevindirməklə yalnız onu sevindirmiş olursunuz. And olsun Allaha, həmən şəxs həm biz Əhli-beyti, həm də Peyğəmbəri (s) sevindirmiş olur.[4]

Peyğəmbər (s) buyurur:

Mömin bir şəxsi sevindirən bir şəxs məni sevindirmişdir və məni sevindirən şəxs Allahı sevindirmişdir.

İmam Sadiq (ə) buyurur:

Allah-taala Davud (ə)-a belə bir vəhy nazil etdi:

Bəndələrimdən xeyirxah iş görənin hər birini cənnətə daxil edəcəyəm.

Davud (ə) soruşdu:

---

[1] Biharul-ənvar 74-cü cild, 20-ci fəsil, 2-ci hədis.
[2] Biharul-ənvar 74-cü cild, 20-ci fəsil, 82-ci səh.
[3] Biharul-ənvar 74-cü cild, 20-ci fəsil, 15-ci səh.
[4] Biharul-ənvar 74-cü cild, 20-ci fəsil, 19-ci səh.

İlahi! Həmən xeyirxah iş nədən ibarətdir?

Buyurdu:

Bir xurma ilə olsa belə, mömin bəndələrimin qəlblərinə sevinc bəxş edib onları razı salmaq.

Davud (ə) sonra dedi:

İlahi! Səni tanıyan bəndələrin Sənin üzərində olan haqları da bundan ibarətdir ki, bəslədikləri ümidi onlardan kəsməyəsən.

Peyğəmbər (s) buyurur:

Könül açan sözlərlə müsəlman qardaşının qəlbinə sevinc gətirən və qəm-qüssəsini dağıdan şəxs bu müddət ərzində Allahın rəhmət kölgəsində olar.[1]

Nəql olunmuş rəvayətlərdən möminlərin qəlblərinə sevinc gətirməyin nə qədər fəzilətli və Allah yanında sevimli bir iş olduğu artıq bizə məlum oldu.

Bu gözəl xüsusiyyətə hər bir müsəlman adət etməli və hansı şəraitdə olursa-olsun ona əməl etməyə cəhd göstərməlidir.

Maddi vəziyyəti imkan verməyən şəxslər bunu bəhanə gətirərək öz mömin qardaşlarına sevinc bəxş etməkdən boyun qaçırmamalıdırlar. Belə ki, bir qədər əvvəl nəql olunmuş rəvayətlərdə bu mətləbə işarə olundu ki, maddi vəziyyəti imkan verməyən şəxslər öz mömin qardaşlarını hətta ürəyə yatan bir xoş söz demək və ya bir xurma verməklə sevindirə bilər.

Axırda belə bir nəticəyə gəldik ki, öz müsəlman qardaşının çətinliklərinin aradan qaldırılmasında əlindən gələn köməkliyi edən, onların qəlblərinə sevinc və şadlıq gətirən şəxslər Allahın, Peyğəmbərin (s) və onun Əhli-beytinin məhəbbət və razılığını qazanmış olur.

## *MÖMİNLƏR ARASINDA SÜLH VƏ ƏMİN-AMANLIĞIN BƏRQƏRAR OLUNMASI*

İctimai çatışmazlıqların aradan qaldırılmasında hər bir müsəlmanın üzərinə düşən ən başlıca vəzifələrdən biri də onun möminlər arasında sülh və əmin-amanlıq, asayiş və səmimiyyətin bərqərar olunmasında əlindən gələn köməkliyi göstərməsidir. Bu məzmunda nəql olunmuş rəvayət və Quran ayələri haqda söhbət açmazdan əvvəl qeyd etmək lazımdır ki, möminlərin bir-birləri ilə əlaqələrini kəsmələri və yaranmış cüzi ixtilaflar nəticəsində bir-birlərinə düşmən kəsilərək soyuq münasibət bəsləmələri heç də müsəlmana xas olan xüsusiyyətlərdən deyildir.

Peyğəmbər (s) bu barədə buyurur:

İki nəfər müsəlman şəxs üç gündən artıq bir-birindən küsülü qalsalar dindən xaric olmuş olarlar. Onlardan biri digəri ilə barışmayınca aralarında dini münasibətlər bərqərar olunmayacaq. Axirətdə isə həmin şəxs cənnətə daha tez daxil olar.[2]

İmam Sadiq (ə) buyurur:

---

[1] Biharul-ənvar 74-cü cild, 20-ci fəsil, 34-ci səh.

[2] Biharul-ənvar 75-ci cild, 60-cı fəsil, 5-ci hədis.

Bir-birindən küsən iki nəfər müsəlman şəxs (xüsusilə müqəssir olanı) qəzəb və nifrətdən savayı bir şey əldə etməz.[1]

Nəql olunmuş rəvayətlərdə müsəlmanlar arasında kin-küdurət və düşmənçiliklərin şeytani vəsvəsələrdən meydana gəldiyi göstərilir. Bu rəvayətlərdə müsəlmanlara Şeytanın vəsvəsələrinə uymamaq tövsiyə olunur və bunun verdiyi ağır nəticələr haqda ciddi xəbərdarlıqlar edilir.

Maidə surəsinin 91-ci ayəsində deyilir:

***«Şübhəsiz ki, Şeytan aranıza ədavət və kin salmaq, sizi Allahı yada salmaqdan və namaz qılmaqdan ayırmaq istər...»***

İmam Baqir (ə) buyurur:

Dinindən çıxmayınca Şeytan müsəlmanlar arasında düşmənçilik yaratmağa çalışar. İstəyinə nail olduqda arxası üstə uzanıb dərindən nəfəs alıb deyər: Qalib gəldim.

İmam Baqir (ə) sonra əlavə edərək buyurur:

Allahın rəhmət və mərhəməti şamil olsun o kəslərə ki, bizim dostlar arasında səmimiyyətin artmasına səbəb olur. Ey möminlər! Bir-birinizlə mehribanlıqla rəftar edin və aranızdakı səmimiyyətin güclənməsinə çalışın.[2]

İmam Sadiq (ə) buyurur:

İki nəfər müsəlman bir-biri ilə küslü olduğu zaman İblis sevinc hissi keçirər. Barışdıqda isə dizləri titrəyib yerə yıxılaraq fəryad edər: Vay halıma, artıq həlak oldum![3]

Yuxarıda qeyd olunan rəvayətlərdən belə bir qənaətə gəlmək olur ki, müsəlmanlar arasında kin-küdurətin yaranmasına səbəb olan ən başlıca amil onların bir-birləri ilə əlaqələrini kəsmələri və qəlblərində şeytani vəsvəslərin güclənməsidir. Onlar dostluq və səmimiyyətin güclənməsinə nə qədər çalışırlarsa, şeytani vəsvəsələrin və kin-küdurətin aradan qaldırılması üçün də bir o qədər cəhd göstərməlidirlər.

Qurani-Kərimdə buyurulur:

***«Həqiqətən, möminlər [dində] qardaşdırlar. Buna görə də [aralarında bir mübahisə düşsə] iki qardaşınızın arasını düzəldin...»***[4]

***«...Buna görə də əgər [həqiqi] möminsinizsə, Allahdan qorxun, aranızdakı münasibətləri düzəldin...»***[5]

***«Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Xeyir ancaq sədəqə verməyə, yaxud yaxşılıq etməyə və ya insanlar arasında sülh yaratmağa əmr edən şəxsin söhbətindədir. Allahın razılığını qazanmaq üçün belə işlər görən şəxsə [axirətdə] böyük mükafat verəcəyik!»***[6]

Peyğəmbər (s) buyurur:

---

[1] Biharul-ənvar 75-ci cild, 60-cı fəsil, 1-ci hədis.
[2] Biharul-ənvar, 75-ci cild, 60-cı fəsil, 6-cı hədis.
[3] Biharul-ənvar, 75-ci cild, 60-cı fəsil, 7-ci hədis.
[4] Hucurat-10.
[5] Ənfal-1.
[6] Nisa-114.

Allahın və Onun peyğəmbərinin sevdiyi sədəqənin nədən ibarət olduğundan sizi agah etməyimi istəyirsinizmi? Bu möminlər arasında soyuq münasibətlərin aradan qaldırılması və yenidən səmimiyyətin bərpa olunmasına cəhd göstərməkdir.[1]

Şeybə həmin hədisi imam Sadiq (ə)-dan nəql edir:

Allah-taalanın sevdiyi sədəqə möminlər arasında soyuq münasibətlər yarandığı zaman yenidən onların dostluq və səmimiyyətlərin artması üçün çalışmaqdan ibarətdir.[2]

Əli (ə) vəfat etməzdən əvvəl oğlanları Həsən və Hüseyn (ə)-a bu vəsiyyəti edir:

Sizləri, övladlarınızı, bütün qohum-əqrəbalarımı və mənim vəsiyyətnaməmi oxuyan bütün şəxsləri işlərində nizam-intizama hidayət etməyə, pəhrizkar olmağa və bir-birinizə səmimi münasibət bəsləməyə tövsiyə edirəm. Babanız Peyğəmbər (s) buyurardı:

[Dost və qohum-əqrəbanın bir-birləri ilə] gözəl münasibətdə olmaları bir illik qılınan namaz və tutulan orucdan daha yaxşıdır.[3]

Qeyd olunan ayə və rəvayətlərdən müsəlmanlar arasında kin-küdurətin aradan qaldırılmasının, dostluq və səmimiyyətin yenidən bərpa olunmasının əhəmiyyəti açıq-aşkar bəlli olsa da, bu xeyirxah işin nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyi haqda iki mühüm mətləbə işarə etmək lazımdır:

1. Məsum imamlar bu məsələyə o qədər böyük əhəmiyyət vermişlər ki, hətta müsəlmanlar arasında yaranmış ixtilafların aradan qaldırılması üçün müəyyən büdcə də ayırmışlar. Belə ki, imam Sadiq (ə) Məfzəm adlı səhabəsinə belə bir göstəriş verir:«Müsəlmanlar arasında ixtilaf və qarşıdurmanın yarandığını gördüyün zaman onların xəsarətini mənim pulumdan ödə.[4]

Bu məzmunda nəql olunmuş rəvayətlərdən birində deyilir:

İmam Sadiq (ə)-ın tərəfdarlarından olan Əbu Hənifə Həcc ziyarətinə gələn zəvvarların karvanlarına baxar və onlara xidmət edərdi. O deyir: Bir gün kürəkənimlə mənim aramda irs barədə mübahisə meydana gəldi. Elə bu zaman Məfzəl bizə tərəf gəlib işin nə yerdə olduğu haqda maraqlanmağa başladı. O bizimlə bir qədər söhbət etdikdən sonra hər ikimizi evinə dəvət etdi. Evinə getdikdə dörd yüz dirhəm gətirib aramızdakı narazılığı həll etdi və razı qaldığımızı soruşduqda biz də tam razı qaldığımızı iqrar etdik. Məfzəl üzünü bizə tutub dedi: Sizə verdiyim pullar mənim öz pullarım deyildir. Onları mənə imam Sadiq (ə) həvalə edib ki, möminlər arasında narazılıq yarandığı zaman bu pullardan məsələni həll etmək üçün istifadə edim.

2. Bildiyimiz kimi yalan ən böyük günahlardan biri hesab olunmuş və Qurani-Kərimin bir çox ayə və nəql olunmuş onlarla hədis və rəvayətlərdə müsəlmanlara bu çirkin işdən çəkinmələrinə əmr edilmişdir.

Lakin bəzi hallarda yalan danışmaqla müsəlmanlar arasında yaranmış ixtilaf və qarşıdurmaları həll etmək və bu kimi hallarda yalan danışmaq zəruri hala çevrilir. İmam Sadiq (ə) bu barədə buyurur:

---

[1] Kənzul-ummal, 3-cü cild, 59-cu səh.
[2] Biharul-ənvar, 76-cı cild, 101-ci fəsil, 6-cı hədis.
[3] Biharul-ənvar, 42-ci cild, 127-ci fəsil, 51-ci hədis.
[4] Biharul-ənvar, 76-cı cild, 101-ci fəsil, 8-ci hədis.

İki nəfər müsəlman şəxsin arasını düzəldən şəxs heç də yalançı deyildir. (Yəni onların arasını düzəldərkən yalan danışmış olarsa, onu yalançı hesab etmək olmaz).[1]

İmam Sadiq (ə) bu sözləri öz səhabələrindən birinə tövsiyə etmiş və onu digər iki nəfər şəxsin arasını düzəltməyə göndərmişdir. Həmin şəxs imam Sadiq (ə) özündən də bəzi şeyləri əlavə etdikdə, bunun yalan olub-olmadığını soruşur. İmam Sadiq (ə) cavabında buyurur: Xeyr! Sənin niyyətin onların arasını düzəltmək olduğu üçün söyləyəcəyiniz şeylər heç də yalan deyildir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Peyğəmbər (s) Allah-taalanın ən sevdiyi işin nədən ibarət olduğu haqda nə buyurur?
2. Möminlərin qəlblərinə sevinc bəxş etmək yalnız onların maddi çətinliklərini aradan qaldırmaqla mümkündürmü?
3. Nəql olunmuş rəvayətlərə nəzər salmaqla, deyin görək nə üçün möminlərin arasında yaranmış ixtilafı həll etmək Şeytanın qəm-qüssəsinə səbəb olur?
4. Nə üçün imam Sadiq (ə) möminlərin çətinliklərini aradan qaldırılmasında xüsusi büdcə ayırmışdır?
5. Möminlər arasında sülh və əmin-amanlığın bərpa olunması üçün nəyə görə yalan danışmağa icazə verilir?

[1] Biharul-ənvar, 76-cı cild, 101-ci fəsil, 12-ci hədis.

## ON ALTINCI DƏRS

### *YETİM VƏ KİMSƏSİZLƏRƏ QAYĞI GÖSTƏRMƏK*

Möminlərə sevinc bəxş etməklə yanaşı, islam dininin tövsiyə etdiyi xeyirxah işlərdən biri də yetim və kimsəsizlərin qayğısına qalmaq və onları himayəyə götürməkdir. Ata-anasını itirmiş kimsəsiz uşaqların qayğısına qalan müqəddəs islam dini bu məsələyə xüsusi diqqət yetirmiş və müsəlmanlara valideyn himayəsindən məhrum qalan uşaqlara qarşı qayğıkeş olmalarını və onları nəvaziş göstərmələrini tövsiyə etmişdir. Allah-taala Qurani-Kərimdə Peyğəmbərə (s) xitab edərək buyurur:

***«Məgər o səni yetim ikən tapıb sığınacaq vermədimi?!»[1]***

Sonra Peyğəmbərə (s) tövsiyə edərək buyurur:

***«Elə isə yetimə zülm etmə!»[2]***

Bildiyimiz kimi, Peyğəmbər (s) dünyaya gəldiyi ilk gündən e᾽tibarən ata qayğısından məhrum qalmış və kiçik yaşlarından anasını itirərək yetimlik acısını dadmışdır. O həzrət (s) yetim uşaqlara mehriban olmaqla yanaşı, onlara qayğı göstərər və müsəlmanlara kimsəsiz uşaqları öz himayələrinə almalarını və imkan daxilində onların məişətlərini təmin etmələrini tövsiyə edərdi. Bu haqda buyurardı:

Allahın ən sevdiyi ev, o evdir ki, orada yetim bir uşaq hörmət və nəvazişlə yaşamış olsun.

Yetim uşaqlara qarşı olduqca mehriban ol və bil ki, hər nə əksən, onu da biçərsən.[3]

Cənnətdə [olduqca gözəl] bir saray vardır. Ora fərəh və şadlıq adı ilə şöhrət tapmışdır. Oraya daxil olan şəxslər yalnız möminlərin yetim uşaqlarına sevinc bəxş edən şəxslər olacaqdır.

Üç nəfər yetim uşağı öz himayəsinə alan şəxs sanki gündüzlər oruc tutub, gecələri ibadətlə keçirmiş və səhərdən axşamadək Allah yolunda cihad etmişdir. (Sonra iki orta barmaqlarına işarə edib buyurdu): Bunlar iki bacı olduqları kimi, qiyamət günü mən də onunla cənnətdə qardaş olacağam.

Diqqət yetirmək lazımdır ki, yetim uşaqların himayə və təminatı islam dinində böyük əhəmiyyət kəsb etdiyi üçün vergi olaraq zəkatın bir hissəsi məhz yetim və kimsəsizlərə aid edilmişdir. Allah-taala Qurani-Kərimdə xeyirxah işlərdən biri yetim və yaxın qohum-əqrəbaya maddi yardımın göstərilməsini bildirir. Bir şərtlə ki, bu yardım yalnız Allahın razılığı xatirinə olmalı və başqa heç bir məqsəd nəzərdə tutulmamalıdır:

Xeyirxahlıq ona deyərlər ki, insan Allaha xatir öz var-dövlətindən yetim uşaqlar və ehtiyacı olan yaxın qohum-əqrəbalarına sərf etmiş olsun.[4]

---

[1] Zuha-6.
[2] Zuha-9.
[3] Biharul-ənvar, 77-ci cild, 18-ci fəsil, 23-cü hədis.
[4] Biharul-ənvar, 24-cü cild, 26-cı fəsil, 17-ci hədis.

Qurani-Kərim üç gün ardıcıl olaraq ailəsinin iftar yeməyini yoxsul bir kimsəyə verən Əli (ə)-ın belə bir xeyirxah və insanpərvər əməlini bu gözəl ifadələrlə vəsf edir:

***«Onlar öz iştahaları çəkdiyi, özləri yemək istədikləri halda [və ya Allah rizasını qazanmaq uğrunda] yeməyi yoxsula, yetimə və əsirə yedirdərlər.***

***[Və sonra da yedirtdikləri kimsələrə belə deyərlər]: Biz sizi ancaq Allah rizasından ötrü yedirtdik. Biz sizdən [bu ehsan müqabilində] nə bir mükafat, nə də bir təşəkkür istəyirik».***[1]

Bu səbəbdən də yetim və kimsəsiz uşaqların məişətlərinin təmin olunması hər bir müsəlmanını üzərinə düşən ictimai vəzifələrdən biri hesab olunur. Lakin onların maddi təminatlarını aradan qaldırmaqla üzərinə düşən məsuliyyətin öhdəsindən gəldiyini hesab etməməlidir.

Belə ki, maddi ehtiyaclarının ödənilməsi ilə yanaşı, ata-ana nəvazişinə, mehr-məhəbbətə də ehtiyacları vardır. Bu səbəbdən də onlarla gülərüz və mehribanlıqla davranmalı və valideyn nəvazişindən məhrum olduqlarını hiss etməmələrinə çalışmalıdır. Bir qədər əvvəl qeyd olunan ayədə biz ***«Elə isə yetimə zülm etmə»*** —əmr olunduğunun şahidi oluruq.

Demək, yetim və kimsəsiz uşaqların maddi təminatı əsas şərt deyildir. Bununla yanaşı onlara nəvaziş göstərib könüllərini də almaq lazımdır.

Qurani-Kərimin başqa bir ayəsində buyurulur:

***«Xeyr! [Belə deməyin]. Doğrusu siz özünüz yetimə hörmət etmirsiniz] yetimin haqqını vermirsiniz].***

***Bir-birinizi yoxsulu yedirtməyə rəğbətləndirmirsiniz».***[2]

Göründüyü kimi, birinci ayədə yetim və kimsəsizlərin nəvaziş olunmasına xüsusi əhəmiyyət verilir. Belə ki, bəzən valideyn nəvazişindən məhrum olan şəxslər onlardan kifayət qədər irs apardığı üçün heç bir maddi yardıma ehtiyac duymurlar. Onların ehtiyac duyduqları yeganə şey varsa da, başqalarının onlara qarşı münasib rəftarı və gözəl davranışıdır. İkinci ayədə isə söhbət yoxsullardan getdiyi zaman onlara göstərilən mehr və məhəbbətin kifayət etmədiyinə işarə olunur. Çünki, onlara maddi yardımın göstərilməsi hər şeydən mühüm və önəmlidir.

Maun surəsinin 1-3-cü ayələrində bu məsələyə işarə olunaraq deyilir:

***«[Ya Peyğəmbər!] Dini [haqq hesab gününü] yalan hesab edəni [Əbu Cəhli] gördünmü?***

***O elə adamdır ki, yetimi itələyib qovar [haqqını verməz];***

***Və [xalqı] yoxsulu yedirtməyə rəğbətləndirməz [nə özü fəqiri yedirdər, nə də özgəsini qoyar]».***

Göründüyü kimi, burada da yetim və kimsəsizlərin qovulmalarına, yoxsul və fəqirlərin isə maddi yardımdan məhrum olmalarına toxunulur. Diqqət yetirmək lazımdır ki, yetim və kimsəsizlərin, o cümlədən yoxsul və fəqirlərin maddi və mənəvi yardımdan məhrum olmaları dini nöqteyi-nəzərdən küfr və dinin özünün təkzib olunması hesab olunur.

---

[1] Dəhr 8-9.

[2] Fəcr 17-18.

Nəql olunmuş rəvayətlərdə də müsəlmanlara yetim və yoxsullara maddi və mənəvi dayaq olmağa xüsusi diqqət yetirilmişdir.

Peyğəmbər (s) bu haqda buyurur:

Allah-taala mehribançılıqla yetim bir uşağın başını sığallayan şəxsin əməl dəftərinə əlinin altındakı tükün sayı qədər savab yazar.

Peyğəmbərin (s) səhabələrindən biri deyir: Bir gün Peyğəmbərin (s) yanında oturmuşduq. Bir oğlan uşağı Peyğəmbərin (s) yanına gəlib dedi: Atam vəfat etmiş, anam, mən və bacım yoxsulluq içində yaşayırıq. Allahın sənə bəxş etdiyi şeylərdən bizə də ehsan et ki, sənə Öz tükənməz nemətlərindən razı qaldığın qədər əta etsin. Peyğəmbər (s) üzünü oğlana tutub buyurdu: Necə də gözəl sözlər dedin. Sonra Bilalı çağırıb buyurdu: Evdə olanlardan bu oğlan üçün gətir. Bilal evdən cəmi iyirmi bir dənə xurma gətirir və onları Peyğəmbərə (s) verir. Peyğəmbər (s) onları oğlana verib buyurdu: Yeddisi sənin, yeddisi ananın, yeddisi də bacının olsun.

Orada olanlardan Muaz ibni Cəbəl adlı bir şəxs ayağa qalxıb oğlanın başına sığal çəkib dedi: Allah-taala səni atanın yerinə layiqli bir şəxs etsin. (Oğlanın atası mühacirlərdən idi).

Peyğəmbər (s) üzünü Muaza tutub soruşdu: Bunu etməkdə məqsədin nə idi? Dedi: Heç, sadəcə olaraq ona mehribanlıq göstərmək istədim. Peyğəmbər (s) buyurdu: Sizlərdən hər hansı biriniz mehribanlıqla yetim və kimsəsiz uşaqları nəvaziş edib başına sığal çəkərsə, Allah-taala əlinizin altındakı tükün sayı qədər məqamınızı ucaldar və bütün pislikləri sizlərən uzaq edər.

Peyğəmbərdən (s) nəql olunmuş başqa bir rəvayətdə deyilir: Yetim bir uşaq ağladığı zaman Allah-taalanın ərşi lərzəyə gələr və Ondan belə bir xitab olunar:

Kiçik yaşında ata-anasını aldığım bəndəmi kim ağlatmışdır? And olsun izzəti-cəlalıma, uşağı sakit edən şəxsə cənnəti vacib edəcəyəm.[1]

Başqa bir rəvayətdə deyilir: Bir şəxs özünün daş qəlbliliyindən və rəhmsizliyindən Peyğəmbərə (s) şikayətlənir. Peyğəmbər (s) onu axıradək təmkinlə dinlədikdən sonra buyurdu: Qəlbinin yumşalmasını və hacətinin rəva olmasını istəyirsənsə yetim və kimsəsizlərə mehribanlıq et! Onların başlarına sığal çəkib nəvaziş et. Öz yeməyindən onlara da yedizdir. Belə etsən həm qəlbin yumşalar, həm də istəyinə çatarsan.

İndi isə Məsum imamlardan birinin həyatına nəzər salaq:

Həzrət Əli ibni Əbi Talib (ə) özünün xilafəti dövründə günlərin bir günü küçədə zəhmətlə su daşıyan bir qadınla rastlaşır. Əli (ə) kömək məqsədilə qadına yaxınlaşıb su dolçasını alıb onun evinə gətirir. Yolda qadının güzəranı ilə maraqlanır və ailəsinin hansı vəziyyətdə olduğu haqda soruşur. Qadın Əli (ə)-ı tanımadığı üçün deyir: Əli ibni Əbi Talib ərimi sərhəd məntəqlərini qorumaq üçün göndərdi və orada qətlə yetirildi. Əli uşaqlarımı yetim qoydu. Bunun üçün də uşaqlarımın və özümün təminatımı ödəyim deyə, başqalarına xidmətçilik etməli oluram.

Həzrət Əli (ə) bir söz deməyib suyu qadının evinə gətirib öz evinə qayıtdı. Lakin iztirab və nigarançılıq hissi onu rahat buraxmadı. Beləliklə gecəni

[1] Biharul-ənvar, 75-ci cild, 31-ci fəsil, 12-ci hədis.

səhərədək oyaq qaldı. Həmin günün səhəri bir bağlama yemək hazırlayıb qadının evinə gətirdi. Həzrət Əli (ə) yolda səhabələrdən bir neçəsi ilə rastlaşır və onlar bağlamanı onun əvəzinə həmən evə aparmalarını istəyirlər. Lakin, Əli (ə) onlara cavab verərək buyurur: Qiyamət günü mənim günahlarımı kim öz üzərinə götürəcək? Əli (ə) nəhayət həmin dul qadının evinə çatır və qapını döyür. Qadın içəridən səslənərək — kimdir? — deyə soruşur. Əli (ə) cavab verir: Dünən sənin su dolçanı evinə gətirən şəxsəm. Qapını aç, uşaqların üçün bir qədər yemək gətirmişəm. Qadın qapını açıb dedi: Allah səndən razı olsun və mənimlə Əli ibni Əbi Talibin arasında özü qəzavət etsin. Əli (ə) içəri daxil olub buyurdu: Savab bir iş görmək istəyirəm. Bu iki işdən birini seç, ya mən uşaqlarını saxlayım, sən isə buğda üyüdüb çörək bişir, ya da uşaqları sən saxla, mən buğdanı üyüdüb çörəyi bişirim. Qadın dedi: Yəqin ki, çörəyi mən səndən yaxşı bişirərəm. Elə isə uşaqlardan muğayat ol. Qadın buğdanı üyüdüb xəmir yoğurduğu zaman Əli (ə) gətirdiyi ətdən bir qədər kabab bişirib uşaqları yedizdirməyə başladı. O hər bir tikəni uşaqların ağzına qoyduğu zaman deyirdi: Oğul! Əli sizi çətinliyə saldığı üçün onu bağışlayın. Xəmir hazır olduğu zaman qadın səsləndi: Ey Allah bəndəsi təndiri qala ki, çörək bişirim. Əli (ə) təndiri qalayıb üzünü şölənən oda yaxınlaşdırıb buyurdu: Əli, dad alovun dadını! Bu, dul qadınların və yetim uşaqların haqqını ödəməyən şəxsin cəzasıdır.

Elə bu zaman yaxın bir qonşu, qadının həyətinə daxil olub Əli (ə)-ı görcək tanıdı və üzünü qadına tutub dedi: Vay sənin halına! Heç bilirsən kimi özünə xidmətçi tutmusan?! O, möminlərin əmiri Əli ibni Əbi Talib (ə)-dır.

Qadın, Əli (ə)-ı tanıdıqdan sonra tələm-tələsik ona tərəf gəlib dedi: Xəcalətliyəm, ey Əmirəl-möminin! İmam cavabında buyurdu: Xəcalətliyə qalsa haqqınızı ödəmədiyim üçün sizin yanınızda xəcalətli olan mənəm.

Bura qədər dediklərimiz yetim və kimsəsizlərin hüquqlarının qorunmasına dair möminlərin üzərinə düşən məsuliyyət və vəzifələrə dəlalət edirdi. Cəmiyyətdə yoxsulluğun aradan qaldırılması üçün müqəddəs islam dini var-dövlət sahiblərinə müəyyən vəzifələr təyin etmişdir. «Zəkat» adlanan dini verginin vaxtlı-vaxtında ödənilməsi bu məsələnin həllinə böyük köməklik göstərir. Hətta Qurani-Kərimin iki ayəsində bu xislət mömin və pəhrizkarların xüsusiyyətlərindən biri kimi göstərilir. «Zariyat» surəsinin 19-cu ayəsində deyilir:

***«Mallarında da dilənçinin və [abrına qısılıb dilənməyən] yoxsul haqqı [payı] var idi [şəriətə müvafiq olaraq var-dövlətlərinin müəyyən hissəsini ehtiyacı olanlara paylayırdılar]».***

«Məaric» surəsinin 24-25-ci ayələrində Allah-taala həqiqi namaz qılanların xüsusiyyətlərini vəsf edərkən buyurur:

***«O kəslər ki, onların mallarında müəyyən bir haqq [pay] vardır.***

***Dilənən və [hər şeydən] məhrum olan [lakin abrına qısılıb dilənməyən] kimsə üçün».***

Hər iki ayədən belə bir qənaətə gəlmək olur ki, yoxsul və imkansızlara maddi yardımın göstərilməsi hər bir müsəlmanın üzərinə düşən ictimai vəzifədir. Ayələrdə istifadə olunan «haqq» kəlməsi yoxsul və maddi imkanı olmayan şəxslərə dəlalət edir. Yəni, var-dövlət sahibi olan hər bir müsəlman malının bir hissəsinin ona aid olmadığını və sözün əsl mənasında bunu yoxsullara ödəməli

olduğunu Allah tərəfindən ona verilmiş bir əmanət hesab etməlidir. O, malının müəyyən bir hissəsini yoxsullara verdikdə əmanəti öz sahibinə çatdırmış olur və bütün bunlarla yanaşı o, kimsəyə minnət qoymamalıdır.

Qurani-Kərimin bir çox ayələrində yoxsullara maddi yardım etdikdən sonra onlara minnət qoyulmamasını təkid edilərək iman sahiblərinə bununla öz əməllərini batil etməmələrinə ciddi xəbərdarlıq olunur. «Bəqərə» surəsinin 264-cü ayəsini buna misal çəkmək olar:

***«Ey iman gətirənlər! Sədəqələrinizi malını riyakarlıqla [özünü xalqa göstərmək üçün] sərf edən, Allaha və axirət gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın...»***

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Allah-taala Peyğəmbərə (s) yetim və kimsəsizlər haqda nəyi əmr edir?
2. Yetim və kimsəsizləri öz himayəsinə götürən şəxsləri hansı savaba nail olacaqlarını ixtisarla bəyan edin.
3. Yetim və kimsəsizlərin ehtiyacı necə təmin olunmalıdır?
4. Allah-taala yetim və kimsəsizlərə sevinc bəxş edən şəxslərə nəyi vədə vermişdir?
5. Yetim və yoxsulların ehtiyacları arasında olan fərq nədən ibarətdir?
6. Yoxsullara maddi yardım etdikdən sonra nə üçün onlara minnət qoyulmamalıdır?

## ON YEDDİNCİ DƏRS

### *XƏSTƏLƏRLƏ GÖRÜŞ*

Xəstələrin görüşünə gedib onların qəlblərinə sevinc bəxş etmək islam dininin müsəlmanlara tövsiyə etdiyi digər əxlaqi xüsusiyyətlərdən biri hesab olunur.

Bu dərsimizdə xəstələrin görüşünə getməyin zəruriliyi və onların qəlblərinə sevinc bəxş etmək haqda söhbət açacağıq.

Haqqında söhbət açacağımız şey ilk növbədə islam dininin bu məsələyə olan baxışı, müsəlmanların bu xeyirxah işə necə sövq olunmaları və bütün bunlarla yanaşı görüşə gedərkən hansı şərtlərə riayət olunmasıdır.

### *XƏSTƏLƏRLƏ GÖRÜŞ*

İslam nöqteyi-nəzərindən xəstələrlə görüşə getmək hər bir müsəlmanın üzərinə düşən və olduqca əhəmiyyət kəsb edən məsələlərdən biridir.

Əvvəlki dərsimizdə qeyd etdik ki, başqalarının haqqı hesab etdiyimiz hər hansı bir məslədə onun [yəni haqqın] öz sahibinə çatdırılması hər bir müsəlmanın bir növ üzərinə düşən vəzifəsidir. Başqa sözlə desək, hər bir şəxs üzərinə düşən vəzifənin öhdəsindən gəlməklə əmanəti öz sahibinə çatdırmış və əhdə vəfa etmiş olur. Bunu da qeyd etdik ki, bu kimi məsələlərdə yardım etmiş şəxs, kimsənin boynuna minnət qoymamalı və onlardan təşəkkür etmələrini gözləməməlidir. Bu məzmunda nəql olunmuş bir neçə rəvayətə diqqət yetirin. Peyğəmbər (s) buyurur:

Hər bir müsəlmanın başqa bir müsəlmanın üzərində olan haqqı bundan ibarətdir ki, görüşdüyü zaman onlarla salamlaşsın, xəstə olduğu zaman görüşünə getsin və dünyasını dəyişdikdə dəfn mərasimində iştirak etsin.

Əli (ə) Peyğəmbərdən (s) nəql edərək buyurur:

Hər bir müsəlmanın müsəlman qardaşının üzərində otuz haqqı vardır. O, üzərinə düşən vəzifəni yerinə yetirməyincə və ya müsəlman qardaşı onu bağışlamayınca (haqqını halal etməyincə) böyük məsuliyyət daşıyır. (Müsəlmanın üzərinə düşən otuz vəzifədən biri də) müsəlman qardaşı xəstələndiyi zaman onun görüşünə getməsidir.[1]

İmam Sadiq (ə)-ın səhabələrindən olan Məəlla ibni Xənisə deyir: İmam Baqir (ə)-dan müsəlmanın öz müsəlman qardaşının üzərində nə kimi haqqı olduğu haqda soruşdum. Buyurdu: Hər bir müsəlmanın öz müsəlman qardaşının üzərində yeddi haqqı vardır. Onların hər birini yerinə yetirmək onun üçün vacib və zəruridir. O, öz müsəlman qardaşının hər hansı bir haqqını tapdadıqda (yəni üzərinə düşən vəzifənin öhdəsindən gəlmədikdə) Allahın bəndəliyindən xaric olur və Allah-taala onun bəndəliyindən heç bir bəhrə əldə etmir (yəni sanki o, Allaha bəndəlik etməmişdir). Sonra mən imam Sadiq (ə)-dan o yeddi haqqın nədən ibarət olduğunu soruşdum.

Buyurdu: Ey Məəlla! Mən sənin üçün çox nigaranam. Qorxuram onları sənə deyim və sən də onları bilə-bilə əməl etməyib başqalarının haqqını tapdalamış olasan.

---

[1] Biharul-ənvar, 74-cü cild, 15-ci fəsil, 36-cı hədis.

Məəlla deyir: Heyrətə gəldiyimdən nə edəcəyimi bilməyib dedim: (La hövla vəla quvvətə illa billah) — Allahdan böyük qüdrət sahibi yoxdur.

Sonra imam Sadiq (ə) üzünü mənə tutub buyurdu: Onlardan ən sadəsi bundan ibarətdir ki, özün üçün istədiyin hər bir şeyi öz müsəlman qardaşın üçün də istəyəsən və özünə rəva bilmədiyin şeyləri onlara da rəva bilməysən... Sonuncu yeddinci haqqı isə and içdiyi zaman [inanıb] andını, evinə çağırdığın zaman isə dəvətini qəbul edəsən. Xəstə olduğu zaman görüşünə, vəfat etdiyi zaman isə dəfn mərasiminə gedəsən. Həmçinin bir şeyə ehtiyacı olduğunu bildikdə onun üçün əlindən gələni edəsən və öz ehtiyacını sənə deməsinə vadar etməyəsən...[1]

İmam Sadiq (ə)-ın səhabələrindən olan Muaviyə ibni Vəhəb deyir: İmam Sadiq (ə)-dan bizimlə dostlar, qohum-əqrəba və gediş-gəliş etdiyimiz qonşular arasında mövcud olan əlaqələrin necə olmasını soruşdum. Buyurdu: Əmanətlərini onların özlərinə qaytarın və onların yolunda şəhid olmağa hazır olun. İstər onların xeyirinə olsun, istərsə də zərərlərinə, xəstələrinin görüşünə gedin və vəfat etdikləri zaman dəfn mərasimlərində iştirak edin.

Yuxarıda qeyd olunan rəvayətlərdən belə məlum olur ki, möminlər öz xəstə müsəlman qardaşının görüşünə getməklə sözün əsl mənasında üzərlərinə düşən ilahi vəzifənin öhdəsindən layiqincə gəlmiş olurlar. Onlar belə bir xeyirxah işləri ilə həm müsəlman qardaşlarının qəlbinə sevinc bəxş etmiş olur, həm də özlərində rahatlıq hiss edirlər. Çünki onlar üzərlərinə düşən vəzifəni yerinə yetirməklə Allahın razılığını qazanmış olurlar. Allahın razılığını qazanan şəxslər isə böyük savab və mükafata [əbədi cənnətə] nail olarlar. Bu haqda isə bir qədər sonra söhbət açacağıq.

## *MÜSƏLMANLARIN XƏSTƏLƏRİN GÖRÜŞÜNƏ GETMƏLƏRİNƏ SÖVQ OLUNMALARI*

Bunun hər bir müsəlmanın üzərinə düşən ilahi və dini vəzifə olduğunu bəyan etdikdən sonra, nəql olunmuş hədis və rəvayətlərdə müxtəlif üsullarlar bu xeyirxah işə sövq olunduqlarına toxunulur. Peyğəmbər (s) bu haqda buyurur:

Müsəlman bir şəxs öz xəstə müsəlman qardaşının görüşünə getdiyi zaman Allah-taala tərəfindən ona belə bir xitab olunar: Cənnətin uca məqamlarından birinə nail oldun. [Bu xeyirxah işinlə] həm özünü, həm də müsəlman qardaşını pak və rahat etdin (yəni günahlarını yudun].

Başqa bir rəvayətdə deyilir:

Səhər çağı xəstə müsəlman qardaşının görüşünə gedən möminləri yetmiş min mələk müşayiət edər. O, xəstənin yanında bir qədər oturarsa Allahın rəhməti onun üçün nazil olar və mələklər axşamadək Allahdan onun bağışlanmasını diləyərlər. Əgər axşam çağı xəstənin görüşünə gedərsə mələklər səhərədək Allahdan onun bağışlanmasını diləyərlər.[2]

Qiyamət günü Allah-taala Öz bəndələrindən birini danlayıb deyər:

Ey bəndəm! Nə üçün xəstələndiyim zaman məni yoluxmağa gəlmədin?

---

[1] Biharul-ənvar, 74-cü cild, 15-ci fəsil, 40-cı hədis.

[2] Üsuli-kafi, 3-cü cild, 120-ci səh, 6-cı hədis.

O, deyər: İlahi! Sən aləmlərin Rəbbi, pak və münəzzəhsən. Eyb və nöqsandan uzaq olduğun bir halda ağrı və xəstəliyə tutularsanmı? Allah-taala buyurur:

Filan mömin qardaşın xəstələndiyi zaman onun görüşünə getmədin. And olsun izzəti cəlalıma, əgər onun görüşünə getsəydin Məni orada görərdin. Bəndəmin xətiri əziz olduğu üçün Mən sənin istək və hacətini yerinə yetirərdim. Mən bağışlayan və rəhm edən Allaham.[1]

İmam Məhəmməd Baqir (ə) buyurur: Həzrət Musa (ə) öz münacatlarının birində Allah-taaladan soruşdu:

İlahi! Xəstə bir şəxsin görüşünə gedən bəndələrini necə mükafatlandırırsan?

Allah-taala belə buyurdu:

Bir mələk ayıraram ki, qəbirdən məhşərə qədər ona baş çəkib halını soruşar.[2]

İmam Sadiq (ə) buyurur: Hər kəs Allaha xatir (Onun razılığını əldə etmək üçün) xəstələrin görüşünə gedərsə, Allah-taala xəstənin onun üçün etdiyi bütün duaları qəbul edər.[3]

Nəql olunmuş rəvayətlərdən belə bir qənaətə gəlmək olur ki, vaxtaşırı xəstələrin görüşünə gedib onların qəlblərinə sevinc bəxş etmək Allahın razılığına, mələklərin Allahdan həmin şəxsin bağışlanmasını diləməklərinə, bu xeyirxah insanların əbədi cənnətə daxil olmalarına və nəhayət xəstələrin mənəvi rahatlıqlarına səbəb olur.

## *GÖRÜŞ ZAMANI RİAYƏT OLUNMASI LAZIM OLAN ŞƏRTLƏR*

Bütün ictimai münasibətlərdə olduğu kimi xəstələrin görüşünə getdikdə müəyyən şərtlərə riayət etmək lazımdır:

**1. Hədiyyə;**

Xəstələrin görüşünə gedilən zaman tövsiyə olunan şərtlərdən biri də hədiyyələrin aparılmasıdır.

Peyğəmbər (s) bu haqda buyurur:

Hər bir şəxs özünün sevdiyi yeməklərdən xəstələrə də verərsə, Allah-taala cənnətin [tükənməz] meyvələrini onun ixtiyarına qoyar.[4]

İmam Sadiq (ə)-ın səhabələrindən biri deyir: Dostlarımızdan biri xəstələnmişdi. Onu yoluxmağa gedərkən yolda imam Sadiq (ə) ilə qarşılaşdıq. Bizi gördükdə hara getdiyimizi soruşdu. Dedik: Xəstə dostumuzu görməyə gedirik.

Buyurdu: Onun üçün alma, heyva, üzüm və ya ətir almısınızmı? Dedik: Xeyr.

Buyurdu: Məgər bilmirsinizmi ki, xəstənin qəlbi onun yanına gətirilən hədiyyələrlə təskinlik tapır?

**2. Xəstənin yanında mümkün qədər az oturulmalı və onun rahatlığı pozulmamalıdır;**

Xəstələr ağrı və narahatçılıq keçirdikləri üçün istirahət və təkliyə çox ehtiyac duyurlar. Yanlarında çox oturub vaxtlarını almaq isə təbii ki, onların narahatçılıqlarına səbəb olur. Bu səbəbdən də Peyğəmbər (s) bu məsələyə tövsiyə edərək buyurur:

---

[1] Biharul-ənvar, 7-ci cild, 15-ci fəsil, 75-ci hədis.
[2] Biharul-ənvar, 81-ci cild, 4-cü fəsil, 11-ci hədis.
[3] Biharul-ənvar, 81-ci cild, 4-cü fəsil, 10-cu hədis.
[4] Biharul-ənvar, 81-ci cild, 4-cü fəsil, 32-ci hədis.

Ən gözəl görüş, qısa və az müddətli olan görüşlərdir.

Başqa bir yerdə buyurur:

Xəstənin yanında dəvə yerə çökən qədər (yəni çox az müddətdə) oturun.

Əli (ə) buyurur:

Xəstə yanına gedən şəxslərin ən çox savaba nail olanı o kəslərdir ki, onun yanında çox az oturmuş olsun. Xəstə özü çox oturmağını istədikdə xahişini qəbul edib bir qədər də onunla həmsöhbət və həmdərd olmaq lazımdır.[1]

**3. Xəstələrin halını soruşub onlar üçün dua etmək;**

Peyğəmbər (s) bu haqda buyurur:

Xəstlərin görüşünə getdiyiniz zaman əlinizi onların üzərinə qoyub səhhətini və gecəni sübhədək necə yatdıqlarını xəbər alın. İstər gəldikdə, istərsə də ayrılıb getdikdə əl-ələ verib onlarla salamlaşın.[2]

Xəstələrinizi vaxtaşırı yoluxub onlar üçün dua edib, deyin: İlahi! Onu dərd və bəladan uzaq et və Özün ona şəfa, sağlamlıq bəxş et».[3]

4. Xəstələrə ürək-dirək verib onların ruhiyyələrinin qaldırılması;

Peyğəmbər (s) bu haqda buyurur:

Xəstələrin görüşünə getdiyiniz zaman onlara ürək-dirək verib sağalmağına ümidvar idin. Bu heç nəyi dəyişməsə də onlarda ruhi arxayınçılığa səbəb olur.[4]

5. Ev sahibindən təm-təraqlı süfrə açmasını gözləməməli, əksinə onları imkan daxilində bu işdən çəkindirməyə çalışmaq lazımıdır.

Nəql olunmuş rəvayətlərdən birində deyilir:

Peyğəmbər (s) möminləri xəstələrin yanında yeyib-içməyi qadağan edər və bunu onları savabdan məhrum etdiyini bildirərdi.[5]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Xəstələrin görüşünə getmək nə üçün onların qəlblərinə sevinc bəxş etmək hesab olunur?
2. Müsəlmanların üzərinə düşən bu ağır və ilahi vəzifə nə kimi müsbət nəticələr verir?
3. «Allahın görüşünə getmək» deyildikdə nə nəzərdə tutulur?
4. Görüş zamanı riayət olunması lazım olan şərtləri ixtisarla izah edin.

---

[1] Biharul-ənvar, 81-ci cild, 4-cü fəsil, 1-ci hədis.
[2] Biharul-ənvar, 81-ci cild, 4-cü fəsil, 37-ci hədis.
[3] Biharul-ənvar, 81-ci cild, 4-cü fəsil, 32-ci hədis.
[4] Biharul-ənvar, 81-ci cild, 4-cü fəsil, 33-cü hədis.
[5] Biharul-ənvar, 81-ci cild, 4-cü fəsil, 32-ci hədis.

## ON SƏKKİZİNCİ DƏRS

### *MÜSƏLMANLARIN SEVİNC VƏ KƏDƏRİNDƏ ŞƏRİK OLMAQ*

Möminlər öz sevinclərini bir-birləri ilə bölüşdürdükləri kimi, qarşılaşdıqları çətinliklərin aradan qaldırılmasında, dərd-qəmlərində də bir-birləri ilə həmrəy və şərik olmalıdırlar.

Ümumiyyətlə həqiqi dostluq və qardaşlıq yalnız o zaman özünü büruzə verir ki, müsəlman bir şəxs öz müsəlman qardaşının sevincində sevinc və fərəh, dərd-qəmində isə kədər hissi keçirmiş olsun. Əvvəlki dərsimizdə işarə etdiyimiz kimi belə bir gözəl xüsusiyyət möminlərin qəlblərinə sevinc və şadlıq gətirir.

Həyatımızda sevinc və kədərə səbəb olan bir çox hadisələr baş verir. Bu kimi hallarda adətən başqalarının bizimlə həmrəy və şərik olmasını istəyirik. Çünki onların sevinc və kədərimizdə şərik olmaları bizə mənəvi rahatlıq verir. Bu səbəbdən də başqalarının bizim sevinc və kədərimizdə şərik olmalarını istədiyimiz kimi, biz də onlara qarşı həmin münasibətdə olmalıyıq. Yəni, sevinclərində şad, qəm-qüssələrində isə kədərli olmalıyıq. Ümumiyyətlə bir tərəfli münasibətin müsbət nəticə verməsi qeyri-mümkündür. Çünki biz başqalarından bu kimi münasibət gözlədiyimiz kimi, onlar da bizdən qayğı və mərhəmət umur, qarşılıqlı münasibətlər onlara da belə təsir bağışlayır.

Nəql olunmuş rəvayətlərdə müsəlmanların qarşılıqlı münasibətləri, onların bir-birlərinin qayğılarına qalmaları «uxuvvət»—yəni qardaşlıq adlandırılır. Həyatın bütün sahələrində ədalət və bərabərlik əsas meyar götürüldüyü kimi, müsəlmanlar bir-birlərinin sevinc və kədərlərində də bu meyarı əsas tutmalı və aralarındakı qardaşlıq əlaqələrini daha da gücləndirməlidirlər.

Burada iki mühüm mətləbə işarə etmək yerinə düşərdi:

1. Dəvəti qəbul etmək;

Hər bir müsəlmanın üzərinə düşən vəzifələrdən biri də müsəlman qardaşının dəvətini qəbul etməsidir. Nəql olunmuş rəvayətlərdə müsəlmanların bir-birlərinin dəvətini qəbul etmələri «haqq» adlandırılır. İmam Cəfər Sadiq (ə) bu haqda buyurur:

«Müsəlman bir şəxsin üzərinə düşən vəzifələrdən biri də müsəlman qardaşı dəvət etdiyi zaman onun dəvətini qəbul etməsidir».[1]

Başqa bir rəvayətdə isə dəvətin qəbul olunmaması müsəlman qardaşına qarşı cəfa və hörmətsizlik kimi göstərilir. İmam Cəfər Sadiq (ə) atasından Peyğəmbərin (s) buyuruqlarından birini nəql edərək deyir:

«Bu üç şey [müsəlmana qarşı] cəfa və hörmətsizlik hesab olunur: Dəvəti qəbul etməmək və ya qəbul edib süfrədən bir şey yeməmək.....»[2]

Başqa bir rəvayətdə buyurur:

---

[1] Biharul-ənvar, 75-ci cild, 89-cu fəsil, 5-ci hədis.

[2] Biharul-ənvar, 81-ci cild, 4-cü fəsil, 32-ci hədis.

«Hər bir mömin şəxsin üzərinə düşən vacib vəzifələrdən biri də müsəlman qardaşının dəvətini qəbul etməsidir».[1]

Göründüyü kimi, nəql olunmuş rəvayətlərdə dəvətin qəbul olunmasının zəruriliyindən söhbət açılır. Çünki, olunan dəvətlər müxtəlif məqsədlər daşıya bilər. O cümlədən borc istəmək, əmanət vermək və ya hər hansı bir əşyanı müvəqqəti istifadə üçün təhvil alınmasını buna misal göstərmək olar. Lakin bir çox hallarda qonaqlıq təşkil olunan ziyafətlər və bu qonaqlıqlarda iştirak etmək nəzərdə tutulur. Təbii ki, bir şəxs qonaqlıq təşkil etdiyi zaman özünü zəhmətə salır və nəzərdə tutduğu şəxslərin sayına müvafiq olaraq müəyyən qədər xərc çəkməli olur. Bir sözlə o, dəvət etdiyi şəxslərin məclisdə iştirak edəcəyini nəzərə alıb lazımı tədarük görür. Dəvət olunan şəxslərin məclisdə iştirak etmələri bir tərəfdən ev sahibinin sevincinə, digər tərəfdən isə ona göstərilən hörmət və qayğıya dəlalət edir. Bunun üçün də həm mömin bir şəxsin sevinci, həm də qarşılıqlı hörmət və ehtiramın artması üçün üzürlü səbəblər istisna olmaqla ev sahibinin dəvəti qəbul olunmalıdır. Dəvətin qəbul olunmasının böyük əhəmiyyət kəsb etdiyi Peyğəmbərdən (s) nəql olunmuş rəvayətdə özünü bir daha büruzə verir:

«Ümmətimin burada olan və olmayanlarına tövsiyə edirəm ki, müsəlman qardaşlarının dəvətini qəbul etsinlər. Aranızdakı məsafə beş mil olsa belə (bir mil=900 metrə), dəvəti qəbul edib məclisdə iştirak edin. Çünki bu, dinin yarısıdır».[2]

Başqa bir rəvayətdə buyurur:

«Dəvəti qəbul etməyən şəxs sanki Allahın və Peyğəmbərin (s) itaətindən çıxmışdır. Yalnız dövlətlilər iştirak etdikləri məclislərə edilən dəvətlərin qəbul olunması məkruh və bəyənilməzdir».[3]

Hədisdə möminlərin dəvətinin qəbul olunmaması Allaha və Peyğəmbərə (s) itaətsizlik kimi qələmə verilir. Bunun isə məna və məfhumu bundan ibarətdir ki, möminlərin dəvətlərinin qəbul olunması eyni zamanda Allahın əmrinə itaət etmək deməkdir.

Peyğəmbərin (s) müsəlmanlara tövsiyə etdiyi şeylərdən biri də yalnız varlıların iştirak etdiyi məclislərdə iştirak etməməkdir. Belə ki, bəşəriyyətin son ilahi mənbəyi olan islam dini, maddi dəyərlər və insanların tutduqları dünyəvi mövqe baxımından bir-birlərinə fəxr etmələrini qətiyyətlə rədd və batil hesab edir. Üstünlük meyarı varsa, o da insanların təqva və mənəviyyatıdır. Nə var-dövlət, nə də ad-san islam dinində insanlar üçün üstünlük meyarı hesab olunmur.

Bütün bunları nəzərə alaraq, Peyğəmbər (s) məclislərə yoxsul təbəqənin də dəvət olunmasını təkid edir və səhabələrə var-dövlət, ad-san xatirinə təşkil olunan məclislərdə iştirak etməmələrini tapşırır.

Bir anlıq tarixə nəzər saldıqda, Peyğəmbərin (s) sadiq davamçıları olan Əhli-beytin (ə) bu məsələyə xüsusi diqqət yetirdiklərinin şahidi oluruq. Belə ki, Əli (ə) Bəsrə valisinin (Osman ibni Huneyf) belə bir qonaqlığa dəvət olunduğunu və

[1] Biharul-ənvar, 75-ci cild, 89-cu fəsil, 6-cı hədis.
[2] Biharul-ənvar, 75-ci cild, 89-cu fəsil, 6-cı hədis.
[3] Biharul-ənvar, 75-ci cild, 89-cu fəsil, 11-ci hədis.

onun bu dəvəti qəbul etdiyini eşitdikdə bərk narahat olur və göndərdiyi məktubda ona ciddi xəbərdarlıq edərək buyurur:

«Ey Huneyfin oğlu! Eşitdim Bəsrənin cavanları səni ziyafətə dəvət etmiş və orada rəngarəng yeməklər tədarük görmüşlər. Güman etməzdim ki, fəqirləri qapısından qovan və yalnız oraya dövlətlilər üçün ziyafət təşkil edən şəxslərin dəvətini qəbul edəsən».[1]

Bu haqda [qonaqlıq] növbəti dərsimizdə söhbət açacağıq. Haqqında danışdığımız məsələ dəvətin qəbul olunmasıdır. Peyğəmbərdən (s) nəql olunmuş hədisə və Əli (ə)-ın məktubuna işarə etməkdən məqsəd dəvətin qəbul olunmasının zəruriliyini göstərmək idi.

2. Başsağlığı vermək və dəfn mərasimində iştirak etmək:

Möminlərin üzərinə düşən vəzifələrdən biri də [müsəlman qardaşlarının] dəfn mərasimində iştirak etməkdən ibarətdir. Məsum imamlardan (ə) nəql olunmuş rəvayətlərdə dəfn mərasimlərində iştirak etmək və dünyadan köçmüş şəxsin qohum-əqrəbasına başsağlığı vermək haqda dəyərli tövsiyə və məsləhətlər verilmişdir. Bu rəvayətlərin böyük bir hissəsi müsəlmanları dünyasını dəyişmiş şəxsin qüsl və kəfən edilib dəfn olunmasında yaxından iştirak etməyə sövq edir və onlara bunların müqabilində böyük axirət mükafatına nail olacaqları müjdəsi verir. Belə ki, islam fiqhində bu kimi məsələlər «vacibi-kifayi» adlanır. Burada Əhli-beyt (ə) tərəfindən nəql olunmuş bir neçə rəvayəti gətiririk və xahiş edirik ki, onların məzmununa bir qədər dərindən diqqət yetirəsiniz.

İmam Baqir (ə) buyurur:

«Müsəlman bir şəxsin dəfn mərasimində iştirak edən şəxslər qiyamət günü dörd şəfaətə nail olarlar. O, dünyadan köçmüş şəxs üçün hər nə dua edərsə, Mələk [ona] belə cavab verər: Dediklərin sənə də aid olsun».[2]

İmam Cəfər Sadiq (ə) buyurur:

«Kim müsəlman bir şəxsi qəbr evinə qədər müşayiət edərsə, Allah-taala yetmiş min mələyi onun ardınca göndərər və [qiyamət günü] qəbrdən çıxdıqda Allah-taaladan onun bağışlanmasını diləyərlər».[3]

«Mömin bir şəxsin dəfn mərasimində iştirak edən şəxsin iyirmi beş böyük günahı bağışlanar».[4]

İmam Sadiq (ə) özünün sadiq səhabələrindən olan Xəysəməyə tövsiyə edərək buyurur:

«Ey Xəysəmə! Dostlarımıza salam çatdır və onları O böyük Allahın haram etdiyi şeylərdən çəkinmələrini və dünyasını dəyişən müsəlman qardaşlarının dəfn mərasimlərində iştirak etmələrini tövsiyə et».[5]

İmam Baqir (ə) buyurur:

«Mömin bir şəxs öz mömin qardaşına qüsl verib çevirdiyi zaman bu duanı edərsə, «İlahi! Bu mömin bəndənin ruhunu bədənindən çıxarıb ruhu ilə bədəni

---

[1] Biharul-ənvar, 33-cü cild, 29-cu fəsil, 676-cı hədis.
[2] Biharul-ənvar, 80-cı cild, 7-ci fəsil, 2-ci hədis.
[3] Biharul-ənvar, 81-ci cild, 7-ci fəsil, 1-ci hədis.
[4] Biharul-ənvar, 81-ci cild, 7-ci fəsil, 6-cı hədis.
[5] Biharul-ənvar, 81-ci cild, 7-ci fəsil, 8-ci hədis.

arasında fasilə qərar verdin. Elə isə ona rəhm et və bağışla!» Allah-taala da onun bir illik böyük günahlarını bağışlayar».[1]

İmam Sadiq (ə) buyurur:

«Allah-taala bir mömin qüsl verib əmanətini qoruyan şəxsin günahlarını bağışlayar. İmam Sadiq (ə)-dan əmanət dedikdə nəyi nəzərdə tutduğunu soruşduqda, buyurdu: «Onda gördüklərini başqalarına söyləməmək».[2]

İmam Həsən Müctəba (ə) Peyğəmbərdən (s) nəql edərək buyurur:

«Münafiq və ata-ananın üzünə ağ olan şəxslər istisna olmaqla, Allah-taala mömin bir şəxsə meyit namazı qılan şəxslərə cənnəti vacib edər».[3]

İmam Sadiq (ə) atasından və o da Peyğəmbərdən (s) nəql edərək buyurur:

«[Müsəlmana] meyit namazı qılan şəxslərə yetmiş min mələk namaz qılar və Allah-taala onun günahlarını bağışlayıb əfv edər. Əgər dəfn olunmasını gözlərsə, atdığı hər atdıma görə Ühüd dağı boyda savaba nail olar».[4]

Müsəlmanların dəfn mərasimində iştirak etmək və bunun savab və fəzilətləri haqda nəql olunmuş rəvayətlərin bir qismi ilə tanış oldunuz. Bunu da bilməliyik ki, savab, görülən işin əhəmiyyəti müqabilində verilir. Bunun üçün də hər bir müsəlman gördüyü hər bir xeyirxah işin əhəmiyyətini dərk edib, onu Allaha xatir və məhz Onun razılığını əldə etmək üçün həyata keçirməlidir.

Müsəlmanların üzərinə düşən digər ilahi vəzifələrdən biri də dünyasını dəyişmiş mömin qardaşlarını xoş xatirələrlə yad etmək, Allah-taaladan onun bağışlanmasını diləmək, vaxtaşırı qəbrini ziyarət etmək və yaxın qohum-əqrəbasına baş sağlığı verməkdən ibarətdir.

Məsum imamlardan (ə) və Peyğəmbərdən (s) bu məzmunda nəql olunmuş bir neçə rəvayətə diqqət yetirin. Peyğəmbər (s) buyurur:

«Matəm sahiblərinə toxtaqlıq verən şəxslər onun özü qədər savab qazanar».[5]

«Yaxınlarını itirmiş mömin qardaşına toxtaqlıq verən şəxslərə Allah-taala qiyamət günü böyük mükafat verər».[6]

Əli (ə) buyurur:

«Allah-taala övladını itirmiş anaya toxtaqlıq verən şəxslərə pənah veriləcək yer olmayan zaman [qiyamət günü] Öz ərşinin kölgəsində sığınacaq verər».[7]

Başqa bir rəvayətdə buyurur:

«Dünyadan köçmüş [müsəlman bacı və qardaşlarınızın] qəbrlərini ziyarət edin. Çünki onlar sizin gəlişinizdən sevinəcəklər. Hər kimin hacət və diləyi olsa, ata-anasının qəbrlərini ziyarət etdikdən sonra Allah-taaladan dualarının qəbul olunmasını istəsin».[8]

Rəvayətlərdən birində deyilir:

---

[1] Biharul-ənvar, 81-ci cild, 8-ci fəsil, 5-ci hədis.
[2] Biharul-ənvar, 81-ci cild, 8-ci fəsil, 6-cı hədis.
[3] Biharul-ənvar, 9-cu cild, 2-ci fəsil, 5-ci hədis.
[4] Biharul-ənvar, 76-cı cild, 67-ci fəsil, 1-ci hədis.
[5] Biharul-ənvar, 82-ci cild, 16-cı fəsil, 49-cu hədis.
[6] Biharul-ənvar, 82-ci cild, 16-cı fəsil, 46-cı hədis.
[7] Biharul-ənvar, 82-ci cild, 16-cı fəsil, 57-ci hədis.
[8] Biharul-ənvar, 10-cu cild, 7-ci fəsil, 1-ci hədis.

«İmam Sadiq (ə)-ın səhabələrindən biri o həzrətdən soruşur: Valideyinlərimizin və qohum-əqrəbalarımızın qəbrlərini ziyarət etməyimizin onlara bir xeyiri varmı?

İmam Sadiq (ə) həmin şəxsin cavabında buyurdu: «Bəli! Verilən hədiyyələr sizi sevindirdiyi kimi, sizin də onların qəbrlərini ziyarət etməyiniz onlara sevinc bəxş edir».[1]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Möminlərin dəvətinin rədd olunması nə üçün onlara qarşı hörmətsizlik hesab olunur?
2. Peyğəmbər (s) kimlərin dəvətinin qəbul olunmamasını tövsiyə edir?
3. Dünyasını dəyişmiş möminlərlə əlaqədar üzərimizə nə kimi vəzifələr düşür?
4. Matəm sahiblərinə qarşı üzərimizə nə kimi vəzifələr düşür?
5. Dünyalarını dəyişən möminləri sevindirmək olarmı?

[1] Biharul-ənvar, 82-ci cild, 14-cü fəsil, 8-ci hədis.

## ON DOQQUZUNCU DƏRS

### *GÖRÜŞ VƏ QONAQLIQ*

Möminlərin vaxtaşırı bir-birlərinin görüşünə gedib hal-əhval tutmaları islam dininin tövsiyə etdiyi digər ünsiyyət növlərindən biridir. Müsəlmanlar bir-birlərinə yaxın olduqları halda vaxtaşırı görüşüb hal-əhval tutmalı və gündəlik işlərində bir-birləri ilə həmkarlıq etməyə çalışmalıdırlar. Çünki, fasilə düşdükdə dostluq əlaqələri getdikcə soyuyur, qəlblər bir-birindən uzaq düşür və nəhayət ayrılıq onların arasında adi hala çevrilir. Dostlar bir-birlərindən uzaq məsafədə yaşadıqda isə məktub, telofon və sair vasitələrlə əlaqə saxlayaraq aralarındakı dostluq və səmimiyyətin daha da güclənməsinə çalışmalıdırlar. Müqəddəs islam dini dostluq və səmimiyyətə böyük əhəmiyyət verdiyi üçün bu məsələyə xüsusi diqqət yetirməyə təkid etmiş, hətta müsəlmanların bir-birlərinin görüşünə getmələrini Allahın görüşünə getmək kimi qiymətləndirmişdir.

Peyğəmbər (s) bu haqda buyurur:

«Zəruri bir işi olmamasına baxmayaraq, mömin qardaşının evinə gedərək onları ziyarət edən şəxs Allah zəvvarlarından (ziyarət edənlərdən) sayılar. Allah isə öz zəvvarlarını daim əziz tutur».[1]

Başqa bir hədisdə buyurur:

«Mömin qardaşlarının evinə onları görmək üçün gedən şəxslərə Allah-taala belə xitab edər: Sən Mənim qonağım və Mənim ziyarətçimsən. Bunun üçün də səni Mən qarşılamalıyam. Mömin qardaşına sevgi və məhəbbət göstərdiyin üçün bil ki, cənnəti sənə vacib etdim».[2]

İmam Sadiq (ə) buyurur:

«Allaha xatir mömin qardaşlarının görüşünə gedən şəxslərə Allah tərəfindən belə bir xitab olunar: Mənim görüşümə gəldiyin üçün mükafatını da Mən verəcəyəm və Mən cənnətdən başqa sənin üçün heç nəyə razı deyiləm».[3]

İmam Baqir (ə)-ın Peyğəmbərdən (s) nəql etdiyi başqa bir hədisdə deyilir:

«Allah-taala mələklərdən birini insan surətində yerə göndərir. O, qapının astanasında dayanmış bir şəxsdən soruşur: Bura gəlməkdən məqsədin nədir? Deyir: Məqsədim müsəlman qardaşımı görməkdir. Mələk dir daha soruşur: Yalnız onun görüşünə gəlmək? Şəxs deyir: Bəli, onu görməkdən savayı heç bir məqsədim yoxdur. Mələk deyir: Mən Allah tərəfindən göndərilmişəm. Allah-taala salam göndərir və cənnəti sənə vacib etdiyini bildirir. O, deyir: Yalnız görüş məqsədilə müsəlman qardaşının evinə gedən şəxs təkcə onu deyil, Məni də ziyarət etmiş kimidir və onun mükafatı Mənim öhdəmdədir».[4]

Nəql olunmuş rəvayətlərdə möminlərin bir-birləri ilə görüşü böyük əhəmiyyət kəsb etdiyi üçün «Liqaəllah — yəni Allahla görüş adlandırılmışdır. Bununla yanaşı diqqəti cəlb edən başqa bir məsələyə toxunulmuşdur O da möminlərin

---

[1] Biharul-ənvar, 15-ci cild, 81-ci fəsil, 77-ci hədis.
[2] Biharul-ənvar, 75-ci cild, 81-ci fəsil, 77-ci hədis.
[3] Biharul-ənvar, 74-cü cild, 21-ci fəsil, 4-cü hədis.
[4] Biharul-ənvar, 59-cu cild, 23-cü fəsil, 39-cu hədis.

yalnız Allaha xatir bir-birlərinin görüşünə gedib mənəvi dəyərləri qoruyub saxlamalarıdır. Belə ki, ehtiyac üzündən müsəlman qardaşının görüşünə gedən hər hansı bir şəxs bunu Allaha xatir etdiyi və Onun razılığını qazanmaq istədiyini iddia etməməlidir.

Ümumiyyətlə bu kimi görüşlərdə heç bir mənəvi və əxlaqi dəyər görmək olmaz.

Nəql olunmuş rəvayətlərdə möminlərin bir-birləri ilə görüşlərinin bir çox müsbət təsir qoyduğu və mənəvi dəyərlərin güclənməsinə səbəb olduğu göstərilir.

İmam Sadiq (ə) bunu qəlblərin bir-birinə daha da yaxınlaşdıran vasitə hesab edərək buyurur:

«Qəlblərinizdə bir-birinizə sevgi və məhəbbət artsın deyə, vaxtaşırı bir-birinizin görüşünə gedin və məclislərinizdə bizim (Əhli-beytin) hədislərimizi nəql edin. Belə etsəniz aranızdakı dostluq və səmimiyyət daha da artacaqdır. Hədislərimizi unutduqda isə haqdan uzaq düşüb fəlakətə sürüklənəcəksiniz.

Mənəm sizin hidayətçiniz, hədislərimizi oxuyub onlara əməl edin».[1]

İmam Baqir (ə) buyurur:

«Bir-birinizin görüşünə getməyə tələsin. Çünki bu, biz Əhli-beytin adət-ən᾽ənəsinin davamına səbəb olur. Allah rəhmət etsin o kəslərə ki, daim bizim adət-ən᾽ənələrimizi yaşatmağa çalışırlar».[2]

Nəql olunmuş rəvayətlərdə diqqəti cəlb edən məsələrdən biri də Əhli-beytin öz davamçılarına onların nəql etdikləri hədisləri bir-birləri ilə görüşdükləri zaman xatırlamalarını tövsiyə etmələridir. Belə ki, bu hədisləri yaşatmaq onların arasındakı dostluq və səmimiyyəti daha da artırır, günahdan uzaqlaşıb hidayət olunmalarına böyük təsir göstərir.

Peyğəmbər (s) buyurur:

«Möminlərin [vaxtaşırı] bir-birləri ilə görüşmələri aralarındakı dostluq və səmimiyyətin daha da güclənməsinə səbəb olur».[3]

Əli (ə) bu gözəl adət-ən᾽ənəni hər bir insan üçün böyük qənimət hesab edərək buyurur:

«Dostlar az olsa belə, onlarla görüşmək böyük qənimətdir».[4]

## *ZİYAFƏT (QONAQLIQ)*

Yaxın dost və tanışlar görüşümüzə gəldikləri zaman imkan daxilində süfrə açıb onlara qonaqlıq vermək istəyirik. Vaxtaşırı bu kimi məclislərin təşkil olunması müsəlmanlar arasında dostluq və səmimiyyətin artmasına səbəb olur. Onlar hal-əhval tutub bir-birlərinin vəziyyətləri ilə maraqlanırlar. Bütün bunları nəzərə alaraq, Peyğəmbər (s) və Məsum imamlar (ə) müsəlmanları bu xeyirxah işə də᾽vət edərək bu işlərin davam etdirilməsini tövsiyə etmişlər.

Peyğəmbər (s) bu haqda buyurur:

---

[1] Biharul-ənvar, 74-cü cild, 15-ci fəsil, 56-cı hədis.
[2] Biharul-ənvar, 2-ci cild, 19-cu fəsil, 6-cı hədis.
[3] Biharul-ənvar, 74-cü cild, 21-ci fəsil, 36-cı hədis.
[4] Biharul-ənvar, 74-cü cild, 21-ci fəsil, 16-cı hədis.

«Qonaq gəlməyən evlərə mələklər də daxil olmaz».[1]

«Qonaqlıq verməyən şəxslərin [malında, dövlətində] xeyir-bərəkət olmaz».[2]

Peyğəmbər (s) qonaqdan (qonaq qəbul etməkdən) razı qalmayan və onları sevməyən şəxslərin Allahdan narazı qaldıqlarını hesab edir. Bu haqda buyurur:

«Qonaq gəldikdə özünüzü çox zəhmətə salmayın ki, onlara qarşı qəlblərinizdə kin-küdurət yaratmış olarsınız. Qonaqdan narazı qalan şəxslər Allahdan narazı qalmış olarlar və kim Allahdan narazı qalsa, Allah da ondan narazı qalar».[3]

Başqa bir hədisdə buyurur:

«Qonaq öz ruzisini özü ilə gətirir və gedərkən ev sahibinin günahlarını özü ilə aparır».[4]

Əli (ə) buyurur:

«Allah-taala bir şəxsi var-dövlət sahibi edərsə, qohum-əqrəbaya əl tutub onlara ziyafət verməlidir».[5]

## *QONAQLIQDA RİAYƏT OLUNMASI LAZIM OLAN ŞƏRTLƏR*

İslam nöqteyi-nəzərindən qonaqlıqda riayət olunması lazım olan müəyyən şərtlər vardır.

Onlardan daha çox əhəmiyyət kəsb edən şərtlərdən bir neçəsini qeyd edirik:

1. Hər bir müsəlman təqvanı ən başlıca meyar götürərək ziyafət və qonaqlıq verdikdə də bu məsələyə xüsusi diqqət yetirməlidir. Belə ki, o fasiq və günahkar şəxsləri öz məclisinə gətirməməli və eyni zamanda onların da dəvətini qəbul etməməlidir. Qonaqlığa çağırdığı şəxslər mömin, pəhrizkar və əməli-saleh şəxslər olmalıdır. Peyğəmbər (s) bu haqda buyurur:

«Pəhrizkarlardan başqa bir kimsənin yeməyini yeməməli və onlardan savayı bir kimsə də sənin yeməyini yeməməlidir. Fasiq insanların verdiyi yeməkləri yeməyin». (Biharul-ənvar, 11-ci cild, 4-cü fəsil, 2-ci hədis.)

«Allaha xatir sevdiyiniz şəxslərə yeyib-içdiyiniz şeylərdən qonaqlıq verin».[6]

Digər meyarlardan biri də əvvəlki dərslərimizdə qeyd etdiyimiz kimi, varlıların yoxsullardan üstün tutulmamasıdır.

2. Qonaqlığa dəvət etdikdə də adi halda olduğu kimi məclisdə iştirak edənlərin yoxsul və ya varlı olmalarına diqqət yetirilməməlidir. Əgər ev sahibi mömin və təqvalı olarsa, onun varlı və ya yoxsul olmasına baxmayaraq dəvətini qəbul edib, təşkil etdiyi ziyafət məclisində iştirak etmək lazımdır. Nəql olunmuş rəvayətlərin birində deyilir: «Bir gün imam Həsən Müctəba (ə) bir məhəllədən keçərkən bir neçə yoxsul dilənçinin yolun kənarında yemək yediyini görür. Onlar imam Həsən (ə)-ı öz kasıb süfrələrinə dəvət edirlər. İmam (ə) onların dəvətini qəbul edib buyurur: «Bəli, Allah-taala lovğaları, özünü başqalarından üstün tutanları sevmir. O həzrət (ə) atından enib onlarla birlikdə yemək yeyir, sonra atını minib yoluna davam edir.

[1] Biharul-ənvar, 75-ci cild, 93-cü fəsil, 14-cü hədis.
[2] Əlməhccətul-bəyza, 3-cü cild, 32-ci səh.
[3] Əlməhccətul-bəyza, 3-cü cild, 31-ci səh.
[4] Biharul-ənvar, 75-ci cild, 93-cü fəsil, 14-ci hədis.
[5] Biharul-ənvar, 74-cü cild, 30-cu fəsil, 35-ci hədis.
[6] Biharul-ənvar, 75-ci cild, 93-cü fəsil, 15-ci hədis.

Yolun uzaqlığı da dəvətin qəbul olunması üçün bəhanə olmamalıdır. Əvvəlki dərsimizdə qeyd etdik ki, Peyğəmbər (s) yolun və fasilənin uzaq olmasına baxmayaraq müsəlmanların dəvətinin qəbul olunmasına təkid etmişdir.

3. Qonaq məclisə daxil olarkən məclisin yuxarı başında və ən yaxşı yerdə oturmaq fikrində olmamalıdır. Təvazökarlıqla ev sahibinin göstərdiyi yerdə əyləşib başqalarının əziyyətə salmamalıdır.

4. Ev sahibi qonağa iş buyurmamalıdır. Qonaq hər hansı bir iş görmək istədikdə İmam Sadiq (ə) ona mane olar və həmin işi özü görüb buyurardı: «Peyğəmbər (s) qonağa iş buyurmağı qadağan etmişdir».[1]

5. Ev sahibi özünü və ailə üzvlərini qonağa görə məşəqqətə salmamalıdır. Rəvayətlərdən birində deyilir: Bir şəxs Əli (ə)-ı evinə dəvət edir. O həzrət buyurur: «Dəvətini o zaman qəbul edərəm ki, bu üç şərtə riayət etmiş olasan». Onların nədən ibarət olduğunu soruşduqda Əli (ə) buyurur: «Mənə görə nə eşikdən bir şey alacaqsan, nə bir şey ehtiyatda saxlayacaqsan və nə də ailəni məşəqqətə salacaqsan».[2]

Həmin şəxs razılığını bildirdikdə Əli (ə) onun dəvətini qəbul edir.

Ümumiyyətlə böyük xərc tələb edən ziyafət və qonaqlıqlar həqiqi dostluq və qardaşlıq prinsipləri ilə ziddiyyət təşkil edir. Çünki, bu kimi qonaqlıqları təşkil etmək hər zaman hamıya müyəssər olmur. Bu isə onların utanıb xəcalət çəkməsinə səbəb olur. Nəticədə dostlar arasında soyuqluq yaranır və gediş-gəliş azalır. Bu kimi qonaqlıqların qoyduğu mənfi təsirlərdən biri də varlı təbəqə arasında rəqabətin yaranmasıdır. Belə ki, onlardan hər biri təşkil etdikləri məclislərin mümkün qədər təmtəraqlı və başqalarından daha rəngarəng olmasına can atır. Beləliklə, səmimiyyət və mehribançılıq vasitəsi olan qonaqlıq rəqabət və qarşıdurma amilinə çevrilir.

6. Ev sahibi hamıdan tez yeməyə başlamalı və hamıdan gec süfrədən çəkilməlidir. İmam Sadiq (ə) bu haqda buyurur:

«Peyğəmbər (s) süfrə başında məclis əhli özünü rahat hiss etsin deyə hamıdan tez yeməyə başlar və əlini hamıdan gec süfrədən çəkərdi ki, doymayanlar süfrədən uzaq düşməsinlər».[3]

7. Ev sahibi qonağı qapıyacan ötürməli və ondan tez-tez gediş-gəliş etməsini xahiş etməlidir. Qonaq da öz növbəsində ev sahibindən icazə aldıqdan sonra getməli və oranı gülərüzlə tərk etməlidir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Nəql olunmuş rəvayətlərdə möminlərin bir-birləri ilə görşü necə vəsf edilir?
2. İstək və ehtiyac üzündən möminlərin görüşünə getməyin dəyəri vardırmı?
3. Möminlərlə görüşün [mənəvi] dəyərlərindən bir neçəsi haqda danışın.
4. Məsum imamlar (ə) tərəfindən nəql olunmuş rəvayətlərdə qonaqlıq haqda nə deyilir?

---

[1] Biharul-ənvar, 75-ci cild, 41-ci fəsil, 49-cu hədis.
[2] Biharul-ənvar, 75-ci cild, 91-ci fəsil, 4-cü hədis.
[3] Biharul-ənvar, 75-ci cild, 91-ci fəsil, 22-ci hədis.

5. Qonaqlıq və ziyafət zamanı riayət olunması lazım olan şeyləri ixtisarla izah edin.

## İYİRMİNCİ DƏRS

### *SALAM*

İnsanlar qədim zamanlardan bəri hansı millət və mədəniyyətə mənsub olmalarından asılı olmayaraq, bir-birləri ilə görüşərkən sevinc, istək və rəğbətlərini bildirmək üçün özlərinə məxsus ünsiyyət formaları seçmiş, öz hiss və duyğularını müxtəlif hərəkətlərlə çatdırmaq istəmişlər.

İslam mədəniyyətində bu xoş məram və rəğbət hissi «salam» sözü ilə ifadə olunmuş və tərəf müqabillərin əl-ələ və ya çiyin-çiyinə görüşmələri ilə bildirilmişdir. İmam Sadiq (ə) bu haqda buyurur: «Salam bizim ümmətin salamlaşma tərzi və Allahın bizim üçün pənah və sığınacağıdır».[1]

Qurani-Kərimin bir çox ayələrində müsəlmanlara «salam» vermək islami və ilahi bir alqış kimi xatırladılır:

***«...Evlərə daxil olduğunuz zaman özünüzü [bir-birinizi, qohum-əqrəbanızı, dostlarınızı və dindaşlarınızı] Allah dərgahından bərəkət və xoşluq diləyən bir salamla salamlayın. Allah öz ayələrini sizə belə izah edir ki, bəlkə düşünüb daşınasınız».[2]***

***«Rəhmanın [əsil] bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə, təvazökarlıqla gəzər, cahillər onlara söz atdıqları [xoşlarına gəlməyən bir söz dedikləri] zaman onlarla gözəl, yumşaq danışarlar».[3]***

Yəni, cahillər onlara [müsəlmanlara] xoşa gəlməz sözlər dedikdə onlarla gözəl və mülayim danışarlar.

İbrahim (ə)-ın əhvalatında (dastanında) deyilir: İbrahim (ə) bütlərə boyun əymədikdə əmisi onun daşqalaq olunacağı ilə hədələyir.

***«İbrahim (ə) belə cavab verir: Sənə salam olsun! [Allah özü sənə rəhm etsin. Məndən sənə heç bir pislik gəlməz]. Mən Rəbbimdən sənin bağışlanmağını diləyəcəyəm. O, mənə qarşı çox mehriban, lütfkardır [duamı qəbul edər!]».[4]***

Elə həmin əhvalatda deyilir:

Mələklər İbrahim (ə)-ın yanına nazil olub salam verdikdə onlarla salamlaşaraq belə cavab verir:

***«Həqiqətən, elçilərimiz [mələklər] İbrahimin yanına müjdə [İshaqın anadan olacağı xəbəri] ilə gəlib: Salam! — dedilər. İbrahim də: Salam!—deyə cavab verdi...»[5]***

Quranın bir çox ayələrində əməli-saleh şəxs və ya təqvalı qövmlər haqda söhbət açıldıqda Allah-taala onlara salam göndərir:

***«[Onu belə yad edirlər]: İlyasinə [İlyasa] salam olsun!»[6]***

---

[1] Biharul-ənvar, 76-cı cild, 97-ci fəsil, 46-cı hədis.
[2] Nur-61.
[3] Furqan-63.
[4] Məryəm-47.
[5] Hud-69.
[6] Saffat-130.

Quranın bir çox ayələrində Allah tərəfindən Cənnət əhlinə salam verildiyi bildirilir. Rəd surəsinin 23-24-cü ayələrini buna misal çəkmək olar:

***«...Mələklər də hər bir qapıdan [cənnət qapılarından] daxil olub onlara:***

***[Dünyada Allah yolunda bütün çətinliklərə] səbr etdiyinizə görə sizə salam olsun!...»***

Həmçinin Nəhl surəsinin 32-ci ayəsində deyilir:

***«O kəslər ki, mələklər onların canlarını pak olduqları halda alıb: Sizə salam olsun! Etdiyiniz [gözəl] əməllərə görə Cənnətə daxil olun! — deyərlər».***

Bəzi ayələrdə isə cənnət əhlinin bir-birlərinə salam verdikləri göstərilir:

***«Mö᾽minlərin Cənnətdəki duası: Pərvərdigara! Sən pak və müqəddəssən! – demək, salamlaşmağı: Salam! - sözü, duasının sonu isə: Həmd olsun aləmlərin Rəbbi Allaha!-söyləməkdir.»***[1]

Bunlarla yanaşı Qurani-Kərimin bir çox ayələrində «salam!» ifadəsinin islamın şüarı olması bildirilir.

Peyğəmbər (s) və Məsum imamlardan (ə) nəql olunmuş bir çox rəvayətlərdə bu məsələyə dəfələrlə toxunulmuş və müsəlmanlar bu gözəl adət-ən᾽ənəyə sövq olunmuşlar.

Misal olaraq onlardan bir neçəsinə işarə edirik.

Peyğəmbər (s) buyurur:

«Cənnətdə elə evlər vardır ki, içəridən çölü, çöldən isə içərisini görmək olur. Bu evlərə ümmətimdən yalnız o kəslər sakin olar ki, camaatla yumşaq davranıb uca səslə onlara salam versin və yoxsullara yemək verib gecələri namaz [gecə namazı] qılıb ibadətlə keçirmiş olsunlar». (Biharul-ənvar, 8-ci cild, 23-cü fəsil, 5-ci hədis).

Peyğəmbər (s) Əbdülmütəllib övladlarına müraciət edərək buyurdu:

«Ey Əbdülmütəllib övladları! [Bir-birinizlə] uca səslə, açıq-aydın salamlaşın, qohum-əqrəbalarınızdan hal-əhval tutun, camaat şirin yuxuda olduqları zaman gecələri ibadətlə keçirin, yoxsullara yemək verin, camaata gözəl sözlər deyin ki, Cənnətə daxil olasınız».[2]

Peyğəmbər (s) buyurur:

«Qarşılaşdığınız hər bir şəxs və ev sakinləri ilə salamlaşın ki, Allah-taala yaxşı işlərinizi və xeyir-bərəkətinizi artırsın».

Yenə də o həzrət buyurur:

Sizi dünya və axirət sakinlərinin ən gözəl əxlaqı ilə agah edimmi?

Səhabələr dedilər: Bəli, ey Allahın Peyğəmbəri!

Peyğəmbər (s) buyurdu:

Bu açıq-aşkar uca səslə salam verməkdir.[3]

Peyğəmbər (s) buyurur:

Salam Allah-taalanın adlarından biridir. Elə isə onu uca səslə deyin.[4]

---

[1] Yunus-10.
[2] Biharul-ənvar, 69-cu cild, 38-ci fəsil, 14-cü hədis.
[3] Biharul-ənvar, 76-cı cild, 97-ci fəsil, 50-ci hədis.
[4] Biharul-ənvar, 84-cü cild, 17-ci fəsil, 30-cu hədis.

İmam Sadiq (ə) buyurur: «Allahın salam və rəhməti sənə şamil olsun — deyən şəxslərin əməl dəftərlərinə iyirmi beş savab yazılar».[1]

Başqa bir rəvayətdə buyurur: «Günahların bağışlanmasına səbəb olan şeylərdən biri də [camaata] gözəl sözlər deyib [gözəl davranıb] onları [uca səslə] salamlamaqdır».[2]

«Təvazökarlığın əlamətlərindən biri də budur ki, görüşdüyün şəxslərlə salamlaşasınız».[3]

Peyğəmbər (s) buyurur:

«İnsanların ən paxılı o kəsdir ki, salam verməkdən çəkinsin».[4]

## SALAM VERMƏYİN QAYDALARI

Salamın əhəmiyyəti ilə tanış olduqdan sonra onun necə verilməsi və qaydaları haqda da ümumi məlumat əldə etmək yerinə düşərdi.

1. Salamlaşmaq xeyirli iş olduğu üçün Allah-taala Qurani-Kərimdə bu haqda buyurur:

***«...Yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın...»***[5]

Elə isə möminlər salam verməkdə bir-birlərini qabaqlamağa çalışmalıdırlar. Peyğəmbərin (s) həyatına nəzər saldıqda bu həqiqətin şahidi oluruq ki, o həzrət qarşılaşdığı bütün şəxslərdən əvvəl salam verər və onları qabaqlamağa qoymazdı.

Əli (ə) bu haqda buyurur:

«Salamın yetmiş savabı vardır, altımış doqquzu salam verənin, biri isə salamı alanın payına düşür».[6]

İmam Sadiq (ə) buyurur:

«[Sözünü] salamla başlayan şəxs Allaha və Onun Peyğəmbərinə (s) daha yaxındır».[7]

2. Salam və onun cavabı uca səslə verilməlidir ki, həmin şəxs salamın cavabını eşidə bilsin.

İmam Sadiq (ə) bu haqda buyurur:

«Salamı uca səslə verin ki, (qarşı tərəf onu eşitməmək ucbatından cavab verməsin) və sonra deməyəsiniz ki, salam verdim, amma salamımı almadı. Çünki salamı asta verdiyiniz üçün onlar da onu eşitməyə bilərlər. Başqalarının salamını aldıqda da uca səslə dillənin ki, (onlar da) deməsinlər ki, salam verdim, amma cavab vermədi».[8]

3. Salam hər sözə başlamazdan əvvəl deyilməlidir.

Peyğəmbər (s) bu haqda buyurur:

«Salam vermədən əvvəl sözə başlayan şəxslərə cavab verməyin».[9]

---

[1] Biharul-ənvar, 76-cı cild, 97-ci fəsil, 46-cı hədis.
[2] Biharul-ənvar, 76-cı cild, 97-ci fəsil, 46-cı hədis.
[3] Biharul-ənvar, 75-ci cild, 51-ci fəsil, 9-cu hədis.
[4] Biharul-ənvar, 100-ci cild, 5-ci fəsil, 26-cı hədis.
[5] Maidə-48.
[6] Biharul-ənvar, 76-cı cild, 97-ci fəsil, 50-ci hədis.
[7] Biharul-ənvar, 76-cı cild, 97-ci fəsil, 46-cı hədis.
[8] Üsuli Kafi, 2-ci cild, 645-ci səhifə, 7-ci hədis.
[9] Biharul-ənvar, 76-cı cild, 97-ci fəsil, 6-cı hədis.

Başqa bir hədisdə buyurur:
«Salam verməyənədək bir kəsi süfrənə dəvət etmə».[1]
İmam Hüseyn (ə) buyurur:
«Salam vermədən bir kəsə iş görməyə icazə verməyin».[2]
İmam Sadiq (ə) buyurur:
«Sözə başlamazdan əvvəl salam verilməlidir».[3]
3. Hər bir şəraitdə salam vermək gözəl xüsusiyyətdir.
Peyğəmbər (s) yol gedərkən hətta küçədəki azyaşlı uşaqlara də salam verərdi. Peyğəmbər (s) özü bu haqda buyurur:
«Beş şeyi ömrümün sonunadək tərk etməyəcəyəm. Onlardan biri uşaqlara salam verməkdir. Onlara salam verirəm ki, bu məndən sonrakılar üçün də adət halını alsın».
İslam dinində kimlərin əvvəl salam verməlarinə də müəyyən şərtlər qoyulmuşdur.
Peyğəmbər (s) bunu belə izah edir:
«Atlı piyadaya, atlı qatıra minənə, kiçik böyüyə, az kütlə özündən sayca çox olan kütləyə, ayaq üstə olan oturana salam verməlidir».
Buradan belə bir nəticəyə gəlmək olur ki, ictimai mövqeyi və ya mövcud şəraiti başqalarından üstün olan şəxslər daha tez salam verməlidirlər. Peyğəmbərdən (s) nəql olunmuş hədisdə onların hər biri haqda ayrı-ayrılıqda danışılmışdır.
5. Salamın cavabı daha gözəl tərzdə və ya heç olmasa həmin qaydada alınmalıdır.
Nisa surəsinin 86-cı ayəsində bu haqda deyilir:
***«Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya [eynilə sahibinə] qaytarın! Şübhəsiz, Allah hər şeyi hesaba alandır».***
Rəvayətlərdən birində deyilir: Səhabələrindən biri Peyğəmbərin (s) yanına gəlib o həzrətə «əssəlamu ələyk» ifadəsi ilə salam verir. Peyğəmbər (s) cavabında buyurur: «Ələykəs-səlam və rəhmətullah». Başqa birisi «əssəlamu əlyəkə və rəhmətullah»—deyərək salam verir. Peyğəmbər (s) cavabında buyurur: «Əssəlamu ələykə və rəhmətullahi və bərəkatuh». Üçüncü bir şəxs gəlib «əssəlamu əlyəkə və rəhmətullahi və bərəkatuh»—deyərək salamlaşır. Peyğəmbər (s) həmin qaydada «əssəlamu əlyəkə və rəhmətullahi və bərəkatuh»—buyuraraq salamın cavabını verir. Orada olan və Peyğəmbərin (s) verdiyi bütün cavabları eşidən səhabələrdən biri o həzrətə deyir: Ya Rəsulləllah! Birinci və ikinci şəxsin verdiyi salamın cavabına bir söz artırdınız, üçüncü şəxsin salamını isə olduğu kimi qaytardınız. Peyğəmbər (s) buyurudu: «Çünki o, artırmaq üçün bir şey qoymadı. Mən də ona həmin qaydada cavab verdim».
Qeyd etmək lazımdır ki, «salam» müsəlmanların bir-birlərinə xitab etdikləri islami adət-ən᾿ənlərdən biridir və nəql olunmuş rəvayətlərdən belə nəticəyə

[1] Biharul-ənvar, 76-cı cild, 97-ci fəsil, 6-cı hədis.
[2] Biharul-ənvar, 78-ci cild, 20-ci fəsil, 2-ci hədis.
[3] Biharul-ənvar, 93-cü cild, 17-ci fəsil, 17-ci hədis.

gəlmək olur ki, müsəlmanlar kafir və fasiqlərə [soyuq münasibət bəsləyərək] salam verməməlidirlər.

## *ƏL-ƏLƏ VƏ YA ÇİYİN-ÇİYİNƏ GÖRÜŞMƏK*

«Salam»dan sonra islam adət-ən῾ənəsində böyük əhəmiyyət kəsb edən məsələlərdən biri də müsəlmanların bir-birləri ilə qarşılaşdıqları zaman əl-ələ və ya çiyin-çiyinə görüşmələridir.

Əli (ə) bu haqda buyurur:

Müsəlman qardaşlarınızla üz-üzə gəldiyiniz zaman gülər üz göstərib əl-ələ görüşün ki, ayrıldığınız zaman günahlarınız bağışlansın.[1]

İmam Məhəmməd Baqir (ə) Peyğəmbərdən (s) nəql edərək buyurur:

Bir-birinizlə görüşdüyünüz zaman əl-ələ verib salamlaşın. Ayrıldığınız zaman isə Allah-taaladan bağışlanmağınızı diləyin.[2]

Peyğəmbər (s) buyurur:

Bir-birinizlə əl-ələ görüşüb salamlaşın, çünki bu gözəl rəftarınız kin-küdurəti aradan aparır.[3].

İmam Sadiq (ə) buyurur:

«Möminlər bir-birləri ilə çiyin-çiyinə görüşərkən Allahın rəhmət və mərhəmətində qərq olurlar».[4]

Başqa bir hədisdə deyilir:

«Gündəlik gördüyünüz şəxslərlə əl-ələ, səfərə gedən şəxslərlə isə qucaqlaşaraq görüşün».[5]

Peyğəmbər (s) adətən salam verib görüşdüyü şəxslərin əlini ayrılana qədər buraxmazdı. Əslində o həzrət bu hərəkəti ilə tərəf müqabilinə öz rəğbət və səmimiyyətini göstərirdi.

İmam Baqir (ə)-dan nəql olunmuş hədisdə deyilir:

«Möminlər bir-birləri ilə əl-ələ görüşdükləri zaman Allah-taala əlini onların əllərinin arasına salar».[6]

Yəni, mömin qardaşlarına sevgi v məhəbbət göstərən şəxslər Allahın lütf və mərhəmətindən bəhrələnər və sanki əlini Allahın əlinin içinə qoymuş olarlar.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Salama dəlalət edən ayələrdən hansı nəticəyə gəlmək olur?

[1] Biharul-ənvar, 76-cı cild, 100-cü fəsil, 3-cü hədis.
[2] Biharul-ənvar, 76-cı cild, 97-ci fəsil, 13-cü hədis.
[3] Biharul-ənvar, 77-ci cild, 7-ci fəsil, 1-ci hədis.
[4] Biharul-ənvar, 76-cı cild, 100-cü fəsil, 33-cü hədis.
[5] Biharul-ənvar, 78-ci cild, 23-cü fəsil, 108-ci hədis.
[6] Biharul-ənvar, 76-cı cild, 100-cü fəsil, 12-ci hədis.

2. İslam nöqteyi-nəzərindən kimlər daha tez salam verməlidir?
3. Salamın cavabı necə verilməlidir.

## İYİRMİ BİRİNCİ DƏRS

### *HÜQUQ VƏ QANUNLARA RİAYƏT ETMƏK*

Allah-taala yaradılış aləmində insan və digər məxluqlar üçün müəyyən qanun və hüquqlar təyin etmişdir ki, onlara riayət etmək vacib və zəruridir. Qayda-qanunlara riayət etmək hər şeydən əvvəl ictimai həyatda başqalarının əmin-amanlıqlarının təmin olunmasına səbəb olur. Asayiş və sabitlik baxımından insanların canı, malı, tutduqları mövqe və digər məsələlər yalnız o zaman təmin oluna bilər ki, hər bir şəxs yaşadığı cəmiyyətdə üzərinə düşən vəzifəni layiqincə yerinə yetirsin və başqalarının hüququna riayət etmiş olsun. Yalnız belə olduqda ictimai asayiş və əmin-amanlığa nail olmaq olar. Sabitlik hökm sürən cəmiyyətdə insanlar ictimai münasibətləri daha asanlıqla tənzim edir və qarşılarına qoyduqları hədəf və məqsədlərə daha tez nail olurlar. Əksinə, cəmiyyətdə hərc-mərclik hökm sürərsə, insanlar bir-birlərinə qarşı etinasız olarlarsa və bir-birlərinin hüququnu tapdalayıb qanunsuz şəkildə digərlərinin var-dövlətlərini mənimsəyərlərsə, gələcəyə olan ümid çırağı zəifləyər və cəmiyyət fəlakətə doğru sürüklənər. Belə bir acınacaqlı şəraitdə nəinki ideal və mədəni cəmiyyət qurmaq olmaz, hətta insanların ibtidai hüquqlarının tə'minatı üçün heç bir şərait yaranmaz. Bu səbəbdən də Allah-taala bəşəriyyət üçün müəyyən hüquq və qanunlar təyin etmiş və bu qanunlara hörmətlə yanaşıb bir-birlərinin hüquqlarına təcavüz etməmələrini əmr etmişdir. Əlbəttə, Allah-taala Özü ümumbəşəri hüququn qorunması və qanun pozğuntuluğuna yol verilməməsi üçün müxtəlif yollar müəyyənləşdirmişdir. Hər şeydən əvvəl Allah-taala tə'lim və təşviq yolu ilə insanları digərlərinin hüququna riayət etməyə də'vət edir. Sonrakı mərhələdə isə onları qanun pozğuntuluqlarına yol verdikləri təqdirdə müvafiq cəza tədbirləri ilə qorxudur.

Söbətimizin mövzusu əxlaq və ədəb qaydalarından bəhs etdiyi üçün bu barədə geniş şəkildə söhbət etməyəcək və nəzərdə tutulan hüquq və qanunlar haqda ümumi tanışlıq verəcəyik. Çünki, qanun pozğuntuluğuna yol verən şəxslərin cəzalandırılması olduqca geniş bir məsələdir və bu haqda ayrı-ayrılıqda söhbət açmaq lazımdır.

1. Şəxsi toxunulmazlıq:

Şəxsi toxunulmazlıq deyildikdə hər bir şəxsin gündəlik həyatı üçün nəzərdə tutduğu və onun ixtiyarında olan şəxsi mülkiyyət nəzərdə tutulur. Hər bir şəxsin evini, həyət-bacasını və ev əşyalarını buna misal çəkmək olar. Belə ki, onların sahibi kənar şəxslərin istədikləri vaxt onun evinə, həyətinə daxil olmalarına və oradan istədikləri kimi istifadə etmələrinə icazə vermir.

Nur surəsinin 27 və 28-ci ayələrində bu haqda deyilir:

***«Ey iman gətirənlər! Başqalarının evlərinə [sizin olmayan evlərə] sahiblərindən icazə almadan və onlara salam vermədən girməyin. Bu, [ədəb-ərkan baxımından] sizin üçün daha yaxşıdır. Bəlkə, [Allahın bu əmrinin hikmətini] düşünüb anlayasınız [və həmişə yadda saxlayıb ona əməl edəsiniz].***

***Əgər orada heç kəsi tapmasanız, sizə icazə verilməyənədək içəri girməyin. Sizə: Geri dönün! — deyilsə, geri dönün. Bu, Allah yanında sizin üçün daha yaxşıdır. Allah nə etdiklərinizi bilir!»***

İmam Sadiq (ə) başqalarının evinə girərkən üç dəfə icazə almağı tövsiyə edir: [Ev sahiblərindən] üç dəfə icazə alın. Birinci dəfə icazə [ev sahibi gəlişinzi bilməkdən] ötürü, ikinci dəfə hazırlıq [ev sakinləri özlərini və evi sahmana salmaqdan] ötürü, üçüncü dəfə isə ev sahibinin icazəsini almaq üçün. Ev sahibi icazə vermədiyi təqdirdə isə bir söz deməyib geriyə qayıdın.[1]

Evlərə qapılarından deyil, divar, pəncərə və bacadan daxil olmaq şəxsi toxunulmazlığın pozulmasının başqa bir növüdür.

Belə ki, islamın zühur etdiyi ilk illərdə cahil ərəblər ev sahiblərinə öz səmimiyyətlərini bildirmək üçün onların xəbəri olmadan pəncərə və ya bacadan daxil olardılar. Bəqərə surəsinin 189-cu ayəsi nazil olmaqla Allah-taala möminlərə bu işi yasaq etdi. Orada buyurulur:

***«...Evlərinizə [cahiliyyət dövründə olduğu kimi] arxa tərəfdən girməniz yaxşı iş deyildir. Yaxşı iş insanın pis əməllərdən çəkinməsidir. Evlərə qapılarından daxil olun və Allahdan qorxun ki, bəlkə nicat tapasınız!»***

2. Məhdudiyyətin başqa bir növü ev sahiblərinə, hətta ata-ana kimi məhrəm şəxslərə şamil olunur:

Nur surəsinin 58-59-cu ayələrində bu haqda deyilir:

***«Ey iman gətirənlər! Sahib olduğunuz kölə və kənizlər, həddi-buluğa çatmayanlar [yanınıza daxil olmaq istədikdə] bu üç vaxtda sizdən icazə alsınlar: Sübh namazından əvvəl, günorta [yatıb, istirahət etmək üçün] paltarınızı çıxartdığınız zaman və gecə namazından sonra. [Bu vaxtlar insan paltarını çıxarda bilər, zövcəsi ilə bir yerdə uzanıb ixtilat edə bilər və s.] Bu üç vaxt sizin üçün xəlvət vaxtdır [paltarsız ola bilərsiniz]. Qalan vaxtlarda bir-birinizin yanına [icazəsiz] girib çıxmaqda sizə də, onlara da heç bir günah yoxdur. Allah Öz ayələrini sizə belə izah edir. Allah [hər şeyi biləndir və hikmət sahibidir!***

***Sizdən olan uşaqlar da həddi-büluğa çatanda [yanınza daxil olmaq istədikləri zaman] özlərindən əvvəlkilər kimi izn istəsinlər. Allah [hər şeyi] biləndir və hikmət sahibidir».***

## *EYB VƏ NÖQSANLAR*

Həzrət Peyğəmbər (s), qızı həzrət Fatimə (ə) və on iki Məsum imamlar istisna olmaqla, hər bir insan bəzi eyb və nöqsanlara malikdir. Heç bir şəxs başqalarının onların eyb və nöqsanlarını aşkar etmələrini istəməzlər. Allah-taala da öz eyblərini başqalarından gizli saxlayan şəxslərin eyb və nöqsanlarını daim gizli saxlayır. Allahın müqəddəs adlarından biri də **«Səttarul-uyub»**—yəni «eybləri örtən»dir. Allah-taala insanlara başqalarının eyb və nöqsanları ilə maraqlanıb onları aşkara çıxarmağı qətiyyətlə qadağan edir. Nəzərə çarpan nöqsanlar istər cismi, istər əxlaqi, istər şəxsi xüsusiyyət və ya var-dövlətdə olsun, insanların şəxsiyyət və mənəviyyatına xələl gəlməsin deyə, aşkar olunmamalıdır.

Bu məsələ şəri nöqteyi-nəzərdən də təbii ki, qətiyyətlə yasaq olunmalıdır.

---

[1] Biharul-ənvar, 76-cı cild, 98-ci fəsil, 2-ci hədis.

Peyğəmbər (s) bu haqda buyurur:

Müsəlman qardaşının günahlarından xəbərdar olub onu aşkara çıxarmayan şəxslərin [günahlarını] Allah-taala [qiyamət günü] aşkara çıxarmayacaqdır.

Başqa bir rəvayətdə deyilir:

Peyğəmbərin (s) səhabələrindən biri o həzrətə deyir: İstəyirəm ki, Allah-taala mənim eyblərimi daim gizli saxlasın.

Peyğəmbər (s) ona tövsiyə edərək buyurur:

Müsəlmanların eyb və nöqsanlarını ifşa etmə ki, Allah-taala da sənin eyblərini aşkara çıxarmasın.[1]

Möminlərin şəxsiyyətinə xələl gətirəcək və onun başqalarının gözündən düşməsinə səbəb olacaq sözlər danışan şəxsləri Allah-taala Öz bəndəliyindən xaric edib, Şeytanın bəndəliyinə daxil edər. Şeytan da onları qovaraq özündən uzaqlaşdırmaq istəyər.[2]

İmam Baqir (ə) buyurur:

İnsan küfr və imansızlığa o zaman daha çox yaxın olur ki, bir gün kimi isə bədnam və rüsvay etmək üçün din adı ilə onunla dostluq etsin, onun eyb və çatışmazlıqlarını öyrənsin.[3]

Əli (ə) Malik Əştəri Misirə vali göndərdiyi zaman verdiyi göstərişlərdən biri də məhz bu idi:

Başqalarının eyb və nöqsanlarını axtaran şəxsləri özündən uzaq saxlamalı və onlar sənin nifrət etdiyin kəslər olmalıdırlar. Çünki camaatın elə çatışmazlıqları vardır ki, vali hamıdan daha çox onları gizli saxlamalıdır. Elə isə səndən gizli saxlanan eyb və nöqsanları aşkara çıxarmağa cəhd etmə. Çünki sənin vəzifən sənə aşkar olan çatışmazlıqları aradan qaldırmaqdır. Allah-taala səndən gizli qalan eyb və nöqsanlar barədə Özü hökm verəcəkdir. Elə isə bacardığın qədər camaatın sirr və eyblərini gizli saxla ki, Allah-taala da sənin camaatdan gizli saxlamaq istədiyin şeyləri ifşa etməsin».[4]

## *ƏMANƏT*

Hüquq məsələlərindən biri də əmanətdir. Əmanət müxtəlif şəkillərdə ola bilər: Hər hansı bir əşya və ya pul, gizli saxlanılmalı sirr və məʾlumat və ya qorunub saxlanılmasında məsuliyyət tələb olunan hər hansı bir şey. Əmanət tapşırılan adam da etibarlı, etimadlı və düz danışan olmalıdır. Əmanət qəbul olunduqdan sonra tam məsuliyyətlə qorunmalı və sahibi istədikdə olduğu kimi geri qaytarılmalıdır. Əmanətə xəyanət böyük günah və başqalarının hüququna təcavüz hesab olunur.

Qurani-Kərimdə möminlərin ən başlıca xüsusiyyətlərindən biri də onların «əmanətdar» olması göstərilir.

Muminun surəsinin 8-ci ayəsində deyilir:

---

[1] Kənzul ummal, 16-cı cild, 129-cu səh. 44154-cü hədis.
[2] Biharul-ənvar, 75-ci cild, 57-ci fəsil, 40-cı hədis.
[3] Biharul-ənvar, 75-ci cild, 65-ci fəsil, 13-cü hədis.
[4] Biharul-ənvar, 33-cü cild, 30-cu fəsil, 744-cü hədis.

***«O möminlər ki, əmanətlərini və əhdlərini qoruyub saxlayarlar [onlara tapşırılmış əmanətə xəyanət etməz, verdikləri sözü yerinə yetirərər]».***

Başqa bir ayədə Allah-taala əmanətin öz sahibinə qaytarılmasını əmr edir:

***«Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir...»***[1]

Peyğəmbər (s) buyurur:

Əmanətə xəyanət edən şəxslərin dini yoxdur.[2]

Əmanətə xəyanət edən kəslər bizdən deyildir.[3]

Münafiqlik və iki üzlülüyün üç əlaməti vardır: Bir şey deyərkən yalan söyləmək, vədə verdikdə vədəyə əməl etməmək və əmanətə xəyanət etmək.[4]

İmam Sadiq (ə) buyurur:

İnsanları tanımaq üçün [namaz qılarkən] rüku və səcdələrinin uzun olmasına baxmayın. Çünki, bəzən bu onlar üçün adət halına çevrilir və adətlərini pozduqda özlərində narahatçılıq hiss edirlər. Onları tanımaq istəyirsinizsə düz danışmalarına və əmanətə vəfadar olmalarına diqqət yetirin.[5]

Əmanət islam dinində o qədər böyük əhəmiyyət kəsb edir ki, Məsum imamlardan (ə) nəql olunmuş rəvayətlərdə əmanətin qorunub saxlanılmasında əməli-saleh və fasiq şəxslər arasında heç bir fərq qoyulmamışdır. Hansı şəraitdə olursa olsun, əmanət lazımınca qorunmalı və vaxtı çatdıqda öz sahibinə qaytarılmalıdır.

İmam Sadiq (ə) bu haqda buyurur:

Əmanəti öz sahibinə qaytarın, istər onlar əməli-saleh olsunlar, istərsə də fasiq. Əgər Əli (ə)-ın qatili mənə bir şey əmanət versəydi [istədikdə] onun özünə qaytarardım.[6]

Əmanəti öz sahibinə qaytarın, hətta əgər o, Hüseyn ibni Əli (ə)-ın qatili olmuş olsa belə.[7]

Əli (ə) buyurur:

Bir şəxs sənə xəyanət etsə belə, onun sənə verdiyi əmanətə xəyanət etmə və əgər o sənin sirrini açsa belə, sən onun sirrini açıb ifşa etmə».[8]

Əmanətə sadiq və vəfalı olmaq barədə də kifayət qədər hədis və rəvayət nəql olunmuşdur.

Peyğəmbərdən (s) nəql olunmuş hədisdə deyilir:

Əmanətə sadiq və vəfalı olmaq ehtiyacsızlığa, xəyanət isə fəqir və yoxsulluğa səbəb olur.[9]

Buna oxşar başqa bir rəvayət Əli (ə)-dan nəql olunmuşdur. Orada deyilir:

---

[1] Nisa-58.
[2] Kənzul ummal, 3-cü cild, 677-ci səhifə, 8436-cü hədis.
[3] Biharul-ənvar, 75-ci cild, 58-ci fəsil, 14-cü hədis.
[4] Biharul-ənvar, 72-ci cild, 106-cı fəsil, 6-cı hədis.
[5] Biharul-ənvar, 71-ci cild, 60-cı fəsil, 10-cu hədis.
[6] Biharul-ənvar, 75-ci cild, 50-ci fəsil, 11-ci hədis.
[7] Biharul-ənvar, 75-ci cild, 50-ci fəsil, 11-ci hədis.
[8] Biharul-ənvar, 77-ci cild, 8-ci fəsil, 1-ci hədis.
[9] Biharul-ənvar, 75-ci cild, 58-ci fəsil, 4-cü hədis.

Əmanətə sadiq və vəfalı olmaq ruzinin artmasına, [əmanətə] xəyanət etmək isə fəqir və yoxsulluğa səbəb olur».[1]

Başqa bir hədisdə buyurur:

Əmanətə sadiq və vəfalı olmaq gücləndikdə sədaqət və düzlülük də artır».[2]

Söhbətimizin əvvəlində qeyd etdik ki, əmanət baha və ucuzluğundan asılı olmayaraq, hər hansı bir şey və ya gizli saxlanılması zəruri olan sirr, əhd-peyman və s. ola bilər. Bu kimi əmanətlərin lazımınca qorunub saxlanılması xəyanət hesab olunur və xəyanətkarlar Allahın qəzəb və narazlığına düçar olarlar.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Şəxsi toxunulmazlıq deyildikdə nə nəzərdə tutulur?
2. Şəxsi yerlərə icazəsiz olaraq girmək yalnız yad və naməhrəm şəxslərə qadağandırmı?
3. Qur᾽an ayəsinə əsasən, ayrı-ayrı şəxslərin xüsusi vaxtları nə zamandır?
4. İnsanların eyb və nöqsanlarının ifşa olunması nə üçün onları şəxsi toxunulmazlığına təcavüz hesab olunur?
5. Əmanət hansı şeylərə şamil olunur?

---

[1] Biharul-ənvar, 78-ci cild, 16-cı fəsil, 138-ci hədis.

[2] Ğurərul hikəm, 3-cü cild, 134-cü səh.

## İYİRMİ İKİNCİ DƏRS

### *DOST VƏ YOLDAŞ*

Hər bir insan yaşadığı cəmiyyətdə təbii olaraq, kimlərləsə dostluq edir, gediş-gəliş əlaqələri yaradır və səmimi münasibətlər bərqərar edir. O, əlaqə yaratdığı şəxslərlə fikir mübadiləsi edir, qarşılaşdığı çətinliklərdə onlarla məsləhətləşir, özünün və onların ehtiyaclarının aradan qaldırılmasında müxtəlif tədbirlərə əl atır. Nəhayət onlara lazımı köməklik göstərir.

İslam dininin dostluq əlaqələrinin bərqərar olunmasına və dostlar arasında səmimiyyətin güclənməsinə böyük əhəmiyyət vediyi haqda əvvəlki dərslərimizdə söhbət açdıq. Qurani-Kərimin bir çox ayələrində və Əhli-beyt (ə)-dan nəql olunmuş hədis və rəvayətlərdə dəfələrlə bu mətləbə toxunulmuş və bu haqda dəyərli məsləhətlər verilmişdir.

Əli (ə) bu haqda buyurur:

Dostu, sirdaşı olmayan kəslər heç nə əldə etməmişlər.[1]

«Dostlar müxtəlif bədənlərdə vahid ruhdurlar».[2]

Lakin islam, dostluğa ləyaqəti olmayan şəxslərlə dostluq etməyi məsləhət görmür. Yaxın dost insana yaxın qohumlardan daha yaxın olduqda təbii ki, ona başqalarından daha çox təsir göstərəcəkdir.

Peyğəmbər (s) buyurur:

İnsan, dostunun dinində olur. Elə isə kiminlə dostluq etdiyinizə diqqət yetirin. Yəni, insan dostluq etdiyi şəxsin təsiri altına düşür. Bəzən onun müsbət xüsusiyyətlərindən bəhrələnir, bəzən də mənfi xüsusiyyətlərindən zərər çəkir.[3]

İnsanları dostluq etdiyi şəxslərlə tanıyın. Çünki hər bir şəxs xoşuna gəldiyi kəslərlə dostluq edər.[4]

Əli (ə) buyurur:

Hər bir adam öz səviyyəsində olan şəxslərə doğru meyl edir».[5]

Əli (ə) buyurur:

Yaxşı insanlarla yalnız özləri kimi əməli-saleh şəxslər, fasiq və nadanlarla da günahdan çəkinməyən kəslər dostluq edər.[6]

Nəql olunmuş rəvayətlərin məzmunundan belə bir nəticəyə gəlmək olur ki, hər bir insan özünə dost və yoldaş seçdiyi zaman hər şeydən əvvəl onun kimliyinə və xüsusiyyətlərinə diqqət yetirməlidir.

Bu dərsimizdə Quran ayələrindən və Məsum imamlardan (ə) nəql olunmuş rəvayətlərdən istifadə edərək dostluğa seçilən şəxslərin ən başlıca xüsusiyyətləri haqda söhbət açacağıq.

Növbəti dərsimizdə isə kimlərin dostluğa layiq olmadıqları haqda danışacağıq.

---

[1] Ğurərul hikəm, 5-ci cild, 363-cü səh.
[2] Ğurərul hikəm, 2-ci cild, 123-cü səh.
[3] Biharul-ənvar, 72-ci cild, 14-cü fəsil, 12-ci hədis.
[4] Mustədrək, 8-ci cild, 10-cu fəsil, 327-ci səh. 9568-ci rəvayət.
[5] Ğurərul hikəm, 4-cü cild, 532-ci hissə.
[6] Ğurərul hikəm, 6-cı cild, 376-cı səh.

Allah-taala Qurani-Kərimdə iki yerdə daim Onu yad edən kəslərlə dostluq etməyi tövsiyə edir:

***«[Ya Rəsulum!] Rəbbinin camalını diləyərək səhər-axşam Ona dua edənləri yanından qovma...»***[1]

***«Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbrli apar [nəfsini qoru]...»***[2]

2. Peyğəmbər (s) alicənab şəxslərlə dostluq etməyi tövsiyə edərək buyurur:

İnsanların ən xoşbəxti o kəsdir ki, alicənab şəxslərlə əlaqə saxlamış olsun.[3]

3. Başqa bir hədisdə Peyğəmbər (s) təqvalı və pəhrizkar insanlarla yoldaşlıq etməyi tövsiyə edir:

«O kəslərlə dostluq edin ki, onları görməklə Allahı yada salasınız və onların söylədikləri şeylər və gördükləri hər bir iş sizlərə axirəti xatırlatsın».[4]

4. İmam Həsən Əskəri (ə) imam Səccad (ə)-dan nəql etdiyi hədisdə insanların tanınması üçün lazım olan meyarları ətraflı izah edir. İnsanların xüsusiyyətlərini tanımaq üçün bu meyarlar olduqca lazım və faydalıdır.

İmam Zeynəlabidin (ə) buyurur:

İnsanların zahiri davranışlarında təvazökarlıq, zahidlərə xas olan davranış gördükdə onlara məftun olmayın. Çünki, insanların bir çoxu aciz, qorxaq və zəif iradəli olduqları üçün haram mal yeyər və mümkün qədər çox dünya malı əldə etmək istəyər. Bunun üçün də camaatı aldatmaq məqsədilə dinlərindən tələ kimi istifadə edər və bir çoxlarını öz zahiri rəftarları ilə özlərinə cəlb edərlər. Qarşılaşdıqları bütün haram işləri bacardıqları qədər yerinə yetirər və haram bataqlığında qərq olarlar. İnsanların haramdan göz yummaları da sizləri aldatmasın. Çünki, insanların nəfsani istək və tələbləri bir-birlərindən fərqli olur. İnsanların bir çoxu bəzən haram yeməkdən çəkinsələr də lakin nəfsləri onları digər günahlara vadar edər və bu yolla harama düçar olarlar. Onların bütün bunlardan da çəkindiklərini görüb hansı əqidəyə yiyələndiklərini bilməyincə, yenə də onlara aldanmayın. Çünki, insanların bir çoxu haram işlərdən çəkinsələr də, sağlam əqidə və təfəkkür tərzinə yiyələnməzlər. Bu səbəbdən də islah olmaq əvəzinə bir çox hallarda nadanlıq üzündən haqq yoldan uzaq düşərlər. Onların sağlam əqidəyə yiyələndiklərini görüb yenə də aldanmayın. Baxın görün onlar öz nəfslərinə qalib gələ bilmişlər, ya nəfsləri onları özünə əsir etmişdir? Baxın görün onların təqva və pəhrizkarlıqları batil əqidəyə hansı münasibət bəsləyir. Çünki, insanların bir çoxu həm dünya, həm də axirətlərini itirmişlər. Onlar batil hakimiyyətin sərvət və halal nemətlərdən üstün olduğunu güman edərək, dünyanı dünyaya xatir tərk etmişlər və bu ayəyə əsasən — «Onlara “təqvalı olun” deyildikdə təkəbbür onları günaha sürükləyir. Cəhənnəm onların məskəni olacaqdır. Ora necə də pis yerdir». Onlar gecənin zülmətində heç nəyi görmədən zəlalətə doğru gedərlər və ilk batil istəkləri onları uçuruma sürükləyər. Allah-taala da onları tövbə edib təqvalı olmadıqları təqdirdə, haqdan uzaq düşüb tüğyan

[1] Ənam-52.
[2] Kəhf-28.
[3] Biharul-ənvar, 1-ci cild, 4-cü fəsil, 13-cü hədis.
[4] Mustədrək, 5-ci cild, 42-ci fəsil, 6173-cü hədis.

etməkdə köməklik edər. Belə olduğu təqdirdə onlar Allahın haramını halal, halalını da haram edər.

Onlar istədiklərinə nail olduqda (yüksək məqama çatdıqda) dinlərini nə qədər itirsələr də heyflənməzlər. Onlar Allahın qəzəbinə gələn, Onun lənət etdiyi və [axirətdə] böyük əzaba düçar edəcəyi kəslərdir.

Lakin kamil insan o kəsdir ki, bütün istək və arzuları Allahın əmrinə tabe olmuş olsun. Bütün istedad və bacarığını Allahın razılığını əldə etmək üçün sərf edər. O haqq yolunda bütün çətinliklərə sinə gərməyi hər şeydən üstün tutar və bilir ki, haqq yolunda çətinliklərə dözüb sinə gərmək onu əbədi nemətə [axirət dünyasına] hidayət edəcəkdir.

Bir çox nəfsani istəklər isə onu sonu bilinməyən əzaba sürükləyəcəkdir. Belələri insanların ən təqvalı və ən xeyirlisidir. Onların tutduqları yolu gedin və onların vasitəsilə Allaha təvəssül edin. Çünki, Allah onların dualarını geri qaytarıb arzularını nakam qoymur».[1]

Göründüyü kimi imam Səccad (ə) zahiri davranışı, günah və haram şeylərdən çəkinməyi həqiqi təqva sahibinin və kamil insanın tanınması üçün əsas meyar hesab etmir. Yeganə meyar varsa, o da insanın nəfsani istəklərinə qalib gəlib, günah və Allahın haram etdiyi şeyləri özünə haram etməsi, Onun razılığını əldə etmək üçün haqq yolunda bütün çətinliklərə sinə gərməsidir. Bu işdə nümunəvi və yollarını davam etdirməli şəxslər varsa, o da məhz bu xüsusiyyətlərə malik olan kəslərdir.

5. Peyğəmbər (s) başqa bir hədisdə yoxsullar və hikmət sahibləri ilə yoldaşlıq etməyi tövsiyə edir:

[Bilmədiklərinizi] alimlərdən soruşun və hikmət sahibləri ilə ünsiyyətdə olub yoxsullarla həmsöhbət olun.[2]

Başqa bir hədisdə Əli (ə) buyurur:

Hikmət sahibləri ilə yol yoldaşı, alimlərlə həmsöhbət olun. Dünyadan uzaq olun ki, cənnəti özünüzə məskən edəsiniz.[3]

Ən çox xeyir və dəyərli məsləhətlər hikmət və düşüncə sahibləri ilə ünsiyyətdə olmaqla əldə olunur.

6. İmam Həsən Müctəba (ə) xütbələrinin birində öz səhabəsi Cünadə ibni Əbi Üməyyəyə baş ucalığı gətirəcək və onların vasitəsilə çatışmazlıqlarını aradan qaldıra biləcək şəxslərlə ünsiyyətdə olmağı tövsiyə edir:

Ünsiyyətdə olmaq istərkən o kəsləri özünə dost və yoldaş seç ki, onlarla dostluq etmək sənə vüqar və başıucalıq gətirsin. Onlara xidmət etdikdə şəxsiyyətini qiymətləndirsin, bir söz dedikdə söylədiklərini təsdiq edib, onlara xeyir əlini uzatdıqda yardım etsinlər. Hər hansı bir çatışmamazlığını gödükdə göz yumsun, gözəl rəftar və ya xüsusiyyət gördükdə isə qiymətləndirməyi bacarsın. Bir şey istədikdə səxavətli və əli açıq olsun, ehtiyac duyduğun, lakin ondan istəmədiyin şeyləri ixtiyarına qoysun və nəhayət [səndən] xoşagəlməz rəftar gördükdə inciməsin.

---

[1] Biharul-ənvar, 2-ci cild, 14-cü fəsil, 10-cu hədis.
[2] Biharul-ənvar, 1-ci cild, 3-cü fəsil, 5-ci hədis.
[3] Ğurərul hikəm, 4-cü cild, 205-ci səh.

7. Həqiqi dostluq odur ki, dostlar bir-birlərinin eyb və nöqsanlarını gizlədib, qarşılıqlı olaraq müsbət xüsusiyyətlərindən bəhrələnə bilsinlər. Sadiq dostlar daim bir-birlərinin çətinliklərini aradan qaldırmağa çalışar və yalnız tərif, hörmət və ehtiram məqsədilə dostluq etməzlər.

İmam Baqir (ə) bu haqda buyurur:

O kəslərlə dostluq et ki, səni ağladar, lakin xeyirini istər. Güldürüb aldatmaq istəyən şəxslərdən isə daim uzaq olmağa çalış. Bilin ki, tezliklə hamı Allaha tərəf qayıdacaq və orada hər şeydən agah olacaqsınız».[1]

İmam Cəfər Sadiq (ə) buyurur:

Dostların arasında hamıdan çox sevdiyim o kəslərdir ki, eyb və nöqsanlarımı mənə hədiyyə etmiş olsun.[2]

İmam Sadiq (ə)-dan nəql olunmuş hədisdə diqqəti cəlb edən məsələlərdən biri də bundan ibarətdir ki, verilən hədiyyələr insana sevinc bəxş etdiyi kimi, sadiq dostların bir-birlərinin eyb və nöqsanlarını xatırlamaları da onlara sevinc bəxş etsin.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. İmam Səccad (ə) təqva sahiblərinin tanınması üçün hansı meyarları əsas hesab edir?
2. İmam Səccad (ə) yaxşı insanların tanınması üçün hansı meyarları lazımlı hesab edir?
3. Nəql olunmuş rəvayətləri nəzərə alaraq kimlərlə dostluq və yoldaşlıq etməyə tövsiyə olunur?

---

[1] Biharul-ənvar, 75-ci cild, 48-ci fəsil, 31-ci hədis.
[2] Biharul-ənvar, 74-cü cild, 19-cu fəsil, 4-cü hədis.

## İYİRMİ ÜÇÜNCÜ DƏRS

### *DOST VƏ YOLDAŞ*

Ötən dərsdə qeyd etdik ki, insan özünə dost seçdiyi zaman onların əxlaq və davranışlarına, şəxsiyyət və kimliyinə diqqət yetirməlidir. Demək o kəslərlə dostluq etməliyik ki, ilk növbədə mənəvi inkişafımıza və yaşadığımız cəmiyyətdə baş ucalığımıza səbəb olsunlar. Bu dərsdə Əhli-beytin (ə) bizlərə kimlərlə dostluq etməmək barədə buyurduğu tövsiyələr haqda söhbət açacağıq.

Hər şeydən əvvəl bilmək lazımdır ki, insan Allah-taala tərəfindən heç də mütləq şəkildə azad və muxtar bir varlıq kimi öz ixtiyarına buraxılmamışdır. Bu səbəbdən də o, istədiyi şəxslərlə ünsiyyət yaradıb öz əlaqələrini istədiyi kimi bərqərar edə bilməz.

İmam Zeynəlabidin (ə) bu haqda buyurur: Heç də elə deyildir ki, insan istədiyi şəxslərlə ünsiyyətdə olub onlarla dostluq əlaqələri bərqərar edə bilsin. Çünki, Allah-taala buyurur:

***«[Ya Rəsulum!] Ayələrimizi istehza edənləri gördüyün zaman onlar söhbəti dəyəşənə qədər onlardan üz çevir. Əgər Şeytan [bu qadağan əmrini] sənə unutdursa, xatırlayandan sonra o zalim tayfa ilə bərabər oturma.»***[1]

Və heç də belə deyildir ki, insan istədiyi hər bir şeyi dilinə gətirib iqrar etsin. Çünki, Allah-taala buyurur:

***«[Ey insan!] Bilmədiyin bir şeyin ardınca getmə [bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü də demə]...»***[2]

Peyğəmbər (s) bu haqda buyurur:

Allahın rəhməti şamil olsun o kəslərə ki, özü və başqaları bəhrələnsin deyə, danışdığı hər bir söz xeyirli olsun və ya [özünə və başqalarına zərər yetirməsin deyə] sükutu hər şeydən üstün tutsun.

Və heç də belə deyildir ki, insan istədiyi hər bir şeyə qulaq assın. Çünki, Allah-taala buyurur:

***«...Çünki, qulaq, göz və ürək—bunların hamısı [sahibinin etdiyi əməl, dediyi söz barəsində] sorğu-sual olunacaqdır».***[3]

Bunu da nəzərdən qaçırmamalıyıq ki, haram işlərdən çəkinməyən və günah etməyə adət edən şəxslərlə ünsiyyətdə olmaq tez bir zamanda bizə də öz mənfi təsirini göstərəcək və onlar kimi bizim də qəlbimizi qaraldıb ilahi əzaba düçar edəcək.

Tarixdə deyilir: İmam Riza (ə)-ın yaxın səhabələrindən olan Süleyman Cəfəri nəql edərək deyir: Bir gün imam Riza (ə) atama dedi: Nə üçün Əbdürrəhman ibni Yəqub ilə gediş-gəliş edirsən? Atam dedi: O, mənim dayımdır. İmam Riza (ə) buyurdu: O, Allah vəsf olunmadığı bir halda Allahın vəsf və məhdud olduğu haqda xoşagəlməz fikirlər irəli sürür. Atam dedi: Onun dediklərindən mənə nə, mən ki, bu əqidədə deyiləm. İmam Riza (ə) atamın cavabında buyurdu:

---

[1] Ənam-68.
[2] İsra-36.
[3] İsra-36.

Qorxmursanmı ki, onun üçün nazil olan bəla sizə də şamil olsun? Atası Fironun tərəfdarlarından olan Musa (ə)-ın səhabələrindən birinin əhvalatını eşitmisənmi? Fironun qoşunu Musa (ə) və ona iman gətirmiş şəxsləri təqib edərkən o, atasına nəsihət etmək və onu da özlərinə qoşmaq üçün Fironun dəstəsinə tərəf gəldi. Atası onu gördükdə onunla müxalifət edib özündən uzaqlaşdırdı. Beləliklə onlar dəryaya yaxınlaşdılar. Elə bu zaman ilahi əzab nazil oldu və onların hər ikisi [Fironun qoşunu ilə birlikdə] dənizdə boğuldular. Musa (ə) bundan xəbər tutduqda Cəbrail (ə)-dan onun aqibətini soruşdu. Cəbrail (ə) buyurdu: Qərq oldu, Allah rəhmət etsin. Onun əqidəsi atasından tam fərqli idi, lakin ilahi əzab nazil olduqda günahkarların kənarında olan kəslər nicat tapmazlar.[1]

İndi isə dostluğa layiq olmayan şəxslər haqda nazil olmuş Quran ayələrinə və Məsum imamlardan nəql olunmuş rəvayətlərə nəzər salaq:

1. Birinci dəstəyə Quran ayələrinə və dinə istehza ilə yanaşan şəxslər aiddir. Dərsin əvvəlində imam Səccad (ə)-dan nəql olunan rəvayətdə Ənam surəsinin 68-ci ayəsini buna misal çəkmək olar. Göründüyü kimi burada Allah-taala möminləri Quran ayələrini istehza edən şəxslərlə dostluq münasibətlərində olmağı qətiyyətlə qadağan edir. Maidə surəsinin 57-ci ayəsində də kafir və dini məsxərə edən şəxslərlə dostluğun qətiyyətlə qadağan olunduğu göstərilir:

***«Ey iman gətirənlər! Sizdən əvvəl kitab verilmiş olanlardan dininizi oyun-oyuncaq hesab edənləri və kafirləri özünüzə dost tutmayın...»***

2. İkinci dəstəyə aid olanlar Peyğəmbər (s) və Məsum imamlara (ə) töhmət və tənə vuran kəslərdir.

Həzrət Məhəmmədə (s) peyğəmbərlik verildiyi ilk illərdə Hicaz bütpərəstlərindən olan Üqbə ibni Əbi Muit adlı bir şəxs var idi. O, müşrik və bütpərəst olmasına baxmayaraq, olduqca qonaqpərvər idi. Bir gün Peyğəmbər (s) onun evinin kənarından keçdiyi zaman nahara dəvət edir. Peyğəmbər (s) ayaq saxlayıb buyurdu: Səninlə yalnız o zaman bir süfrə arxasında əyləşərəm ki, islamı qəbul edib müsəlman olasan. Üqbə, Peyğəmbərin (s) süfrə arxasında oturmaq üçün onun qarşısına belə bir şərt qoyduğunu görüb kəlmeyi şəhadətini deyib müsəlman oldu. Üqbənin Ubəyy adlı başqa bir dostu da var idi. Üqbənin müsəlmanlığı qəbul etməsi xəbərini eşidib olduqca narahat oldu və əsəbi halda onun yanına gəlib bir xeyli danlayaraq dedi: Sən öz dinindən çıxırsanmı? Üqbə cavabında dedi: Elə bir şəxs mənə qonaq oldu ki, müsəlman olmasaydım süfrəmin kənarında oturmağa razı olmazdı. Ubəyy dedi: İndi ki, belədir, mən öz dotluğumu səninlə kəsirəm. Əgər dostluğumuzun davam etməsini istəyirsənsə, öz dininə qayıdıb Peyğəmbərə töhmət vurmalısan. Ubəyy çox israr etdikdən sonra Üqbə onun dediyi kimi edir, islam dinindən xaric olur və «Bədr» döyüşündə müsəlman fədailəri tərəfindən qətlə yetirilir. Ubəyy isə bir il sonra «Ühüd» döyüşündə qətlə yetirilir. Beləliklə hər ikisi müşrik olduqları halda dünyalarını dəyişirlər.

Furqan surəsinin 27-29-cu ayələrində Üqbənin aqibəti belə bəyan edilir:

***«O gün zalim [küfrə düşməklə özünə zülm edən, peşmançılıqdan] əllərini çeynəyib deyəcəkdir: Kaş ki mən Peyğəmbər vasitəsilə [özümə] doğru bir yol tutaydım;***

---

[1] Biharul-ənvar, 74-cü cild, 14-cü fəsil, 39-cu hədis.

***Vay halıma! Kaş filankəsi özümə dost etməyəydim;***

***And olsun ki, Quran mənə gəldikdən sonra məni ondan [Qurana iman gətirməkdən] o sapdırdı. Şeytan insanı [yoldan çıxartdıqdan, bəlaya saldıqdan sonra] yalnız buraxar [zəlil, rüsvay edər]».***

Ayələrin məzmununa nəzər saldıqda fasiq insanların dostluqda qoyduqları mənfi təsir açıq-aşkar bəlli olur.

Göründüyü kimi burada bir daha Peyğəmbərə (s) müsbət münasibət bəsləməyən şəxslərlə dostluq əlaqələrinə son qoyulmasına əmr olunur.

İmam Cəfər Sadiq (ə) bu haqda buyurur:

Nasibilərlə ünsiyyətdə olduğun və ya onların məclislərində iştirak etdiyin zaman özünü elə apar ki, sanki səni qaynar daşın üzərində oturtmuşlar (yəni mümkün qədər onların məclislərini tez tərk etməyə çalış). Çünki Allah-taala onları lənətləmiş və nifrin etmişdir. Məsum imamlar (ə) haqda xoşagəlməz sözlər söylədikdə tez onların məclislərini tərk edin. Çünki, Allah-taala elə həmin an onlara bəla nazil edər.[1]

«İlahi övliyaları təhqir edib onlara xoşagəlməz sözlər deyən şəxslərlə eyni məclisdə iştirak etmək günah və Allaha itaətsizlik sayılır». (Həmin mənbə 50-ci səh.)

Allaha və axirət gününə iman gətirən şəxs Məsum imamlara və möminlərə eyb və nöqsan tutulan, onların ünvanına xoşagəlməz sözlər deyilən məclislərdə iştirak etməməldir».[2]

3. Üçüncü dəstəyə aid olan şəxslər dinin əsaslarına şəkk ilə yanaşanlar və bid᾽ətçilərdir.

Peyğəmbər (s) bu haqda buyurur:

Məndən sonra dinə şəkk ilə yanaşanlara və bid᾽ətçilərə qarşı öz nifrət hissinizi aşkar edin. Tənqid və təhqir etməklə onların cavabını verin ki, dində fitnə-fəsad törətməyə və insanları dindən uzaqlaşdırmağa cəsarət etməsinlər.

Allah-taala sizin üçün böyük mükafatlar və axirət dünyasında yüksək məqamlar nəzərdə tutmuşdur.[3]

İmam Cəfər Sadiq (ə) buyurur:

Bid᾽ətçilərlə ünsiyyətdə olub məclislərində iştirak etməyin ki, camaat sizi onlardan biri hesab edər.

Peyğəmbər (s) buyurur:

Hər bir şəxs özünə layiq şəxslərlə dostluq və yoldaşlıq edər.[4]

4. Dördüncü dəstəyə aid olanlar fasiq və günahkarlar, Allahın hökm və əmrindən çıxan şəxslərdir.

Əli (ə) buyurur:

Müsəlman bir şəxsə fasiq və dinsiz adamlarla dostluq və qardaşlıq münasibətləri bərqərar etmək yaraşmaz. Çünki, onun gördüyü bütün işlər öz nəzərində gözəl və tərifə layiqdir. Bunun üçün də dostluq etdiyi əməli-saleh müsəlmanın özü kimi olmasını istər. Nə dünya, nə də axirətdə onun müsəlmana

---

[1] Biharul-ənvar, 74-cü cild, 14-cü fəsil, 50-ci hədis.
[2] Biharul-ənvar, 74-cü cild, 14-cü fəsil, 48-ci hədis.
[3] Biharul-ənvar, 74-cü cild, 14-cü fəsil, 41-ci hədis.
[4] Biharul-ənvar, 74-cü cild, 14-cü fəsil, 40-cı hədis.

bir xeyiri dəyməyəcəkdir. Əksinə, vaxtaşırı müsəlmanın yanına gediş-gəliş etməsi ona rüsvayçılıqdan savayı bir şey nəsib etməyəcəkdir.[1]

İmam Cəfər Sadiq (ə) bu haqda buyurur:

Müsəlmanlara [tərk etməyə qadir olduqları təqdirdə] haram məclislərdə iştirak etmək yaraşmaz.[2]

Əli (ə) buyurur:

Əməli-saleh insanların fasiqlərlə ünsiyyətdə olmaları camaatda əməli-saleh şəxslər haqda yanlış təsəvvür yaranmasına səbəb olur. Əməli-saleh şəxslərin bir-birləri ilə ünsiyyətdə olmaları isə fasiqləri əməli-saleh və xeyirxah insanlara yaxınlaşdırır. Əməli-saleh insanların günahkarlarla ünsiyyətdə olmaları onları günahkarlara daha da yaxınlaşdırır. Hansı dinə mənsub olduğunu bilmədiyiniz bir şəxs sizinlə [qısa bir zamanda] ünsiyyətdə olduğu zaman onun yoldaşlıq etdiyi şəxslərin kimliyinə diqqət yetirin. Əgər ilahi dində olarlarsa bilin ki, o da dindar və iman sahibidir. Yox əgər ilahi dinlərdən uzaq olarlarsa bilin ki, o da dindən heç bir bəhrə əldə edə bilməyib.

Peyğəmbər (s) buyurur:

Allaha və axirət gününə iman gətirən şəxs kafirlərlə dostluq, fasiqlərlə isə ünsiyyətdə olmamalıdır. Kafir və fasiqlərlə dostluq və ünsiyyətdə olan şəxslər özləri kafir və fasiq olacaqlar.[3].

Başqa bir hədisdə buyurur:

Fasiqlərlə ünsiyyətdə olmaq pislik ardınca pislik gətirir.[4]

Yəni onlarla ünsiyyətdə olduqda insanın özü də fasiq olacaqdır.

5. Beşinci hissəyə aid olan şəxslər din, əxlaq, davranış və düşüncələrində nöqsan və çatışmazlıq olan kəslərdir. Onlar [dində] fitnə-fəsad törətməsələr də [fasiq olmasalar da] yalan, paxıllıq, vəfasızlıq, həyasızlıq kimi mənfi və xoşagəlməz xüsusiyyətlərə malik olarlar.

Əli (ə) bu haqda buyurur:

Müsəlman bu üç [xüsusiyyətə malik olan] şəxslərlə - yalançı, nadan və əxlaqsız adamlarla səmimi [qardaşlıq] münasibətdə olmamalıdır.[5]

Həmçinin imam Baqir (ə) buyurur:

Atam Əli ibni Hüseyn bir gün məni yanına çağırıb dedi: Oğlum, beş şəxslə ünsiyyətdə olmamağı sənə tövsiyə edirəm. Onlarla nə həmsöhbət ol və nə də yoldaşlıq et. Atamdan onların kim olduğunu soruşduqda buyurdu: Yalançılarla həmsöhbət olma. Onların söylədikləri hər bir söz ilğıma bənzər. Yaxını sənə uzaq, uzağı isə yaxın göstərər. Fasiqlərlə də ünsiyyətdə olmaqdan çəkin. Onlar səni bir tikə yeməyə və ya ondan da dəyərsiz bir şeyə satmağa hazır olarlar. Paxıllardan uzaq olmağa çalış. Çünki bir şeyə ehtiyac duyduğun zaman öz mallarını səndən əsirgəyərlər. Nadan və cahillərlə də ünsiyyətdə olma. Çünki onlar sənə xeyir vermək istəyərlər, lakin ziyan yetirərlər. Qohumluq əlaqələrini kəsən şəxslərdən də uzaq olmağa çalış. Çünki Allah-taala onları Öz kitabında [Qurani-Kərimdə] lənətləmişdir.[6]

---

[1] Üsuli Kafi, 2-ci cild, 640-cı səh, 2-ci hədis.
[2] Biharul-ənvar, 74-cü cild, 14-cü fəsil, 38-ci hədis.
[3] Biharul-ənvar, 74-cü cild, 14-cü fəsil, 31-ci hədis
[4] Biharul-ənvar, 33-cü cild, 29-cu fəsil, 707-ci hədis.
[5] Biharul-ənvar, 74-cü cild, 14-cü fəsil, 43-cü hədis.
[6] Biharul-ənvar, 74-cü cild, 14-cü fəsil, 29-cu hədis.

Sonra imam Baqir (ə) misal olaraq Məhəmməd surəsinin 22-23-cü, Rəd surəsinin 25-ci və Bəqərə surəsinin 21-ci ayələrini tilavət etdi.[1]

Dörd şey hədərə gedər, onlardan birincisi vəfasızlarla dostluqdur.[2]

İmam Baqir (ə) buyurur:

Bu dörd şəxsdən - nadan, paxıl, qorxaq və yalançı adamlardan daim uzaq olmağa çalışın. Nadanlar sənə xeyir vermək istəyər, amma zərər yetirərlər, paxıllar daim səndən almaq istəyər, verməyə gəldikdə isə xəsislik edərlər, qorxaqlar (xətərlə üzləşdikdə) səni və öz doğma ata-anasını qoyub qaçmağa belə hazır olarlar. O ki, qaldı yalançılara, onlar düz danışsalar da, dediklərinə inanma».[3]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Nə üçün hamı ilə dostluq etmək olmaz?
2. Sağlam əqidəyə malik olmayan şəxslərlə ünsiyyətdə olmağın nə kimi nöqsanı vardır?
3. Üqbə ibni Əbi Muitin əhvalatından hansı nəticələri əldə etmək olar?

---

[1] 4-cü dərsə müraciət edin.

[2] Biharul-ənvar, 2-ci cild, 13-cü fəsil, 10-cu hədis.

[3] Biharul-ənvar, 74-cü cild, 14-cü fəsil, 8-ci hədis.

## İYİRMİ DÖRDÜNCÜ DƏRS

## *QEYBƏT (1)*

Altıncı dərsdə qeyd etdik ki, islam cəmiyyətində sağlam ünsiyyət və münasibətlər bir sıra əxlaqi meyarlar əsasında formalaşmışdır. Onlardan bir qismi müsəlmanların [gündəlik] ictimai həyatlarında riayət etməli olduqları ədəb qaydalarıdır. Təvazökarlıq, insaf, gülərüzlük, əhdə vəfa və s. xüsusiyyətləri buna misal göstərmək olar. Ötən dərslərimizdə biz onların hər biri haqda ətraflı söhbət açdıq.

Digər dəstəyə isə o xüsusiyyətlər daxildir ki, müsəlmanların bu xoşagəlməz xüsusiyyətlərə malik olmaları ictimai əlaqələrin pozulmasına səbəb olur. Bu səbəbdən də bu xüsusiyyətlərin tərk olunması islam ictimai ədəb qaydalarının əsas şərtlərindən biri hesab olunur. Hər bir müsəlman şəri vəzifə olaraq bu xüsusiyyətlərdən uzaq olmağa çalışmalıdır. Onlar buna nail olduqda qurduqları ictimai əlaqələr möhkəm və sağlam olacaqdır. Bu dərsdən etibarən kitabın sonunadək bu xüsusiyyətlər haqda söhbət açacağıq.

Bu xoşagəlməz xüsusiyyətlərdən ən başlıcası «qeybətdir». Bu haqda bir neçə məsələ barəsində danışmaq lazımdır.

## *QEYBƏTİN TƏRİFİ*

Qeybətin leksik mənası «iştirakı olmadan kiminsə [və ya kimlərinsə] ünvanına [ya onlar haqda] xoşagəlməz sözlər deməkdir». Şəri termin olaraq isə «qeybət» - müsəlmanın öz müsəlman bacı-qardaşının iştirakı olmadan onun eyb və nöqsanları haqda danışmasından ibarətdir. Belə ki, əgər həmin şəxs onun haqda deyilən sözləri eşitsə, inciyib narahat olar. Eyb və nöqsan deyildikdə istər əxlaqi, istər cismi, istərsə də məişət çatışmazlıqları və s. nəzərdə tutulur.

Peyğəmbər (s) bu haqda buyurur:

«Qeybət, müsəlman bacı-qardaşınızın eşitmək və ya başqalarının bilməsini istəmədiyi hər hansı bir şey haqda danışmağa deyilir».

Peyğəmbərdən (s) soruşurlar: Əgər onun haqda deyilənlər doğru olsa yenə də qeybət hesab olunur?

Həzrət (s) buyurdu:

Əgər həmin eyb və nöqsan onda olarsa və onu başqalarına deyəriksə qeybət, əks təqdirdə isə ona töhmət vurmuş olarıq.

Başqa bir rəvayətdə deyilir:

Peyğəmbərin (s) səhabələri bir şəxs barədə söhbət edir və bir-birlərinə deyirdilər: Filankəs nə qədər də aciz və bacarıqsızdır. Peyğəmbər (s) onların söhbətini eşidib buyurur: Onun qeybətini etdiniz! Dedilər: Biz yalnız onda olanları dedik. Buyurdu: Əgər onda olmayanları desəydiniz, ona töhmət vurmuş olardınız.

İmam Sadiq (ə) buyurur:

Qeybət ona deyilir ki, Allah-taala mömin bacı-qardaşınızın gizli saxladığı eyb və nöqsanları başqalarına bildirəsiniz».[1]

Nəql olunmuş rəvayətlərdə qeybətə verilən təriflərdən bir neçə məsələnin meydana çıxdığı məlum olur:

1. Bu söhbət həmin şəxsin gizli eyb və nöqsanlarını aşkara çıxarmaq məqsədi daşısın. Belə ki, aşkar eyb və nöqsanlar heç də qeybət hesab olunmur (hərçənd günahın başqa bir növü ola bilər).

İmam Musa Kazim (ə) buyurur:

Əgər bir şəxs orada olmayan başqa birisinin camaatın bildiyi eyb və nöqsanları haqda danışarsa, qeybət etməmişdir. Lakin camaatın bilmədiyi hər hansı bir çatışmazlıq haqda bir söz deyərsə onun qeybətini etmişdir. Onda olmayan hər hansı bir şey haqda bir söz dedikdə isə ona töhmət vurmuş olur.[2]

2. Kiminsə eyb və nöqsanları haqda bir söz demək [əgər həqiqətən həmin eyb və nöqsanlar onda olarsa] qeybət, əks təqdirdə isə töhmət hesab olunur.

3. Haqqında danışılan şəxsin xeyrinə olması istisna olmaqla, qeybət kiminsə narahatçılığına səbəb olmaq məqsədilə olsun. Belə bir halda deyilən sözlər qeybət hesab olunmur.

Xəstənin eyb və nöqsanlarının həkimə deyilməsini buna misal çəkmək olar.

4. Qeybəti olunan şəxs mömin və müsəlman olsun. Kafir və müşriklərin qeybətini etməyin isə heç bir nöqsanı yoxdur.

5. Qeybəti olunan şəxsin kimliyi məlum olsun və dinləyicilər onu tanımış olsunlar. Haqqında danışılan şəxsin kimliyi bəlli olmadıqda isə, deyilən sözlər qeybət hesab olunmur.

6. Haqqında danışılan şəxs açıq-aşkar günah edib fitnə-fəsad törətməmiş olsun. Çünki, açıq-aşkar günaha mürtəkib olan şəxslər heç nədən çəkinməz və başqalarının onun eyb və nöqsanlarından xəbərdar olmalarından əsla narahat olmazlar.

## *QEYBƏTİN HARMLIĞI*

Qeybətin haram və böyük günahlardan biri olduğu haqda bir çox Quran ayələrini və Əhli-beyt (ə)-dan nəql olunmuş hədis və rəvayətlərə istinad etmək olar.

Bunu da qeyd etməliyik ki, Allahın, Peyğəmbərin (s) və Məsum imamların narazılıqlarına səbəb olan bütün günah və xoşagəlməz xüsusiyyətlər ayə və rəvayətlərdə xüsusi ifadələrlə bəyan edilmişdir. Allah-taala Qurani-Kərimdə buyurur:

***«...Bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar [qeybət də belədir]...»***[3]

Göründüyü kimi ayədə müsəlmanın qeybəti onun qətlə yetirilməsinə və qeybət edən şəxsin onun ətini yeməsinə bənzədilir. Bu da günahın böyüklüyünə dəlalət edir. Günahsız bir şəxsin qətlə yetirilməsi haram olduğu kimi, onun qeybətini

---

[1] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 7-ci hədis.
[2] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 6-cı hədis.
[3] Hucurat-12.

etmək də bir o qədər haram və böyük günahlardandır. Qan tökülməklə bir şəxs qətlə yetirildiyi və onu bir daha həyata qaytarmaq qeyri-mümkün olduğu kimi, qeybəti olunan şəxsin də haqqında xoşagəlməz sözlər deməklə onun şəxsiyyətinə xələl gəlir və mənəviyyatının qorunması qeyri-mümkün olur. Müsəlmanların qanı, canı və malı toxunulmaz olduğu kimi, onların şəxsiyyət və mənəviyyatı da qorunmalı və onlara qarşı hörmətsizliklərə yol verilməməlidir.

Peyğəmbər (s) buyurur:

Müsəlmanın canı (qanı), malı və şəxsiyyəti müsəlmana haramdır.[1]

Can və malına təcavüz olunmaqla müsəlmanın haqqı tapdalandığı kimi, qeybət etməklə də sözün əsl mənasında müsəlmanın şəxsiyyətinə xələl gəlmiş olur. Demək hər bir müsəlmanın üzərinə düşən vəzifələrdən biri də öz müsəlman qardaşına qarşı hörmətsizliklərə yol verməmək və onu namus və şəxsiyyətinə xələl gətirəcək hər bir şeydən müdafiə etməkdir. Üzərinə düşən vəzifəni layiqincə yerinə yetirən hər bir şəxs Allahın razılığını əldə etmiş olur. Üzərinə düşən vəzifəni yerinə yetirməyə qadir olan, lakin bundan boyun qaçıran şəxslər isə Allahın qəzəb və narazılığına düçar olarlar.

Peyğəmbər (s) bu haqda buyurur:

Kim müsəlman qardaşının xar və rüsvay olduğunu görüb onu müdafiə etməyə qadir olduğu bir halda sükut edərsə, qiyamət günü Allah-taala onu bütün məxluqatın qarşısında xar və rüsvay edər.[2]

Mömin qardaşını hüzuru olmadan müdafiə edən şəxslərin abır və həyasını qiyamət günü Allah-taala Özü qoruyar.[3]

Mömin qardaşını hüzuru olmadan müdafiə edən şəxsləri Allah-taala cəhənnəm odundan qurtarar.[4]

Qeyd etməliyik ki, qeybətin nə qədər böyük günah olduğunu nəzərə alıb Qurani-Kərimdə heç bir günah belə bir tük ürpədici ifadələrlə bəyan edilməmişdir. O ki qaldı qeybət edən şəxslərə, onlar məhşərə həmin surətdə daxil olacaqlar. Yəni məhşərdə onlara ölmüş qardaşının ətini yeməyə əmr olunar və onlar məhşər əhlinin qarşısında böyük rüsvayçılıqla qarşılaşarlar.

Peyğəmbər (s) buyurur:

Dünyada qardaşının ətini yeyən şəxsləri (qeybət edənləri) qiyamət günü onun (qeybəti olunan) yanına aparıb belə əmr edərlər: Diri olduğu halda ətini yediyin kimi, indi də onun ölmüş cəsədinin ətini ye! O da məcbur olub fəryad çəkərək ölmüş qardaşının ətini yeyər.

Merac gecəsi səmaya qalxdığım zaman üz-gözlərini dırnaqları ilə cıran bir dəstə insanla qarşılaşdım. Cəbrail (ə)-dan onların kim olduğunu soruşdum. Dedi: Onlar camaatın qeybətini edən və abır-həyalarına xələl gətirən kəslərdir.[5]

Qeybətin böyük günah olması haqda nəql olunmuş rəvayətlərin arasında Peyğəmbərdən (s) nəql olunmuş elə rəvayətlərə rast gəlmək olur ki, orada qeybətin zinadan da böyük günah olduğuna işarə olunur.

---

[1] Kənzul-ummal, 1-ci cild, 150-ci fəsil, 747-ci hədis.
[2] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 1-ci hədis.
[3] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 1-ci hədis.
[4] Məhccətul-bəyza, 5-ci cild, 261-ci hədis.
[5] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 1-ci hədis.

Peyğəmbər (s) buyurur:

Qeybət etməkdən çəkinin! Çünki, qeybət zinadan daha da pisdir. Çünki, zinakar tövbə etməklə günahlarını bağışlatdıra bilər. Lakin qeybət edən şəxs qeybətin etdiyi şəxsi özündən razı salmayınca (halallıq almayınca) bağışlanmır.[1]

Başqa bir hədisdə Peyğəmbər (s) qeybətin sələmçilikdən daha böyük günah olduğunu bildirir. Riba (sələm) yolu ilə bir dirhəm əldə etmək, otuz altı dəfə zina etməkdən daha pisdir. Ən pis sələm isə müsəlmanların abır-həyası ilə (müamilə etməkdir). Yəni onların qeybətini etməkdir.[2]

Qeybətin mənfi nəticələrindən biri də «pozğunluğun yayılması və aşkara çıxmasıdır». Bu isə islam dinində böyük günahlardan biri hesab olunur. Nur surəsinin 19-cu ayəsində bu haqda deyilir:

***«Möminlər arasında [onları nüfuzdan, hörmətdən salmaq məqsədilə] pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir...»***

İmam Sadiq (ə) ayənin izahında buyurur: Gözü görüb, qulağı eşidən mömin bir bəndənin eyb və nöqsanlarını aşkara çıxaran şəxslər Allahın buyurduğu — Onlar o kəslərdirlər ki, möminlər arasında pozğunluq və nalayiq işlərin yayılmasını istərlər — kəslərdir.[3]

«Gözləri görüb qulaqları eşidən» dedikdə, imam Sadiq (ə) mömin bir şəxsin kimsənin bilmədiyi eyb və nöqsanları nəzərdə tutur. Kiminsə bu eyb və nöqsanlardan agah olub onu başqalarına çatdırması da təbii ki, qeybət hesab olunur və onlar ayənin aşkar nümunəsinə çevrilirlər.

Başqa bir rəvayətdə qeybətin böyük günah olduğu «Cəhənnəm itlərinin yeməyi» ifadəsi ilə bəyan olunur.

Əli (ə) buyurur:

Qeybət etməkdən çəkinin! Çünki o, cəhənnəm itlərinin yeməyidir.[4]

İmam Hüseyn (ə) başqa birisinin qeybətini edən şəxsə tövsiyə edərək buyurur:

Qeybət etmə! Çünki, qeybət cəhənnəm itlərinin yeməyidir.[5]

İmam Zeynəlabidin (ə) öz səhabələrinə tövsiyə edərək buyurur:

Sizləri qeybət etməkdən uzaq olmağa tövsiyə edirəm. Çünki o, cəhənnəm itlərinin yeməyidir. Bilin ki, kim camaatın eyb və çatışmazlıqlarını başqalarına bildirməkdə ifrata vararsa, onun ifrata varması öz eyblərini başqalarında axtarmağa səbəb olar.[6]

Başqa sözlə desək, hər bir şəxs özündə olan eyb və nöqsanları başqalarında da axtarmaq istəyər.

Əli (ə) bu haqda buyurur:

Eyb və çatışmazlıqları olan şəxslər başqalarının da eyblərinin aşkara çıxmasını istəyər və bununla da öz eyblərinə bəhanə gətirmiş olarlar.[7]

---

[1] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 1-ci hədis.
[2] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 1-ci hədis.
[3] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 2-ci hədis.
[4] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 13-cü hədis.
[5] Biharul-ənvar, 78-ci cild, 20-ci fəsil, 2-ci hədis.
[6] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 8-ci hədis.
[7] Ğurərul hikəm, 4-cü cild, 38-ci hədis.

Nəql olunmuş digər rəvayətlərdə qeybətin din, iman və xeyir-bərəkəti (savabını) aradan aparması haqda danışılmışdır.

İmam Sadiq (ə) buyurur:

Qeybət hər bir müsəlmana haramdır. Atəş odunu yandırdığı kimi, qeybət də insanın gördüyü xeyirli işləri (savabını) məhv edib aradan aparır».[1]

Peyğəmbərdən (s) nəql olunmuş başqa bir rəvayətdə deyilir:

Qeybət öz təsirini müsəlmanın dininə cuzam xəstəliyinin qoyduğu təsirdən daha tez qoyur».[2]

Qiyamət günü bə`zi şəxsləri Allah-taalanın hüzuruna gətirib əməl dəftərini əlinə verərlər. O, əməl dəftərini açdıqda orada heç bir xeyirli iş görməyib təəccüblə Allah-taaladan soruşar: İlahi! Bu mənim əməl dəftərim deyildir. Çünki, burada mənim ibadətlərim yazılmamışdır. Ona deyilər: Sənin Allahın nə bir şeyi unudur, nə də səhvə yol verir. Əməllərini camaatın qeybətini etməklə məhv edib aradan aparmısan. Sonra məhşərə bir başqasını gətirər və əməl dəftərini onun özünə verərlər. O, öz əməl dəftərində xeyli ibadət etdiyini görüb təəccüblə deyər: İlahi! Bu mənim əməl dəftərim deyildir. Çünki, dünyada mən bu qədər ibadət etməmişəm. Ona deyərlər: Filan kəs sənin qeybətini etdiyi üçün gördüyü xeyirli işlər sənin əməl dəftərinə yazılmışdır.[3]

Ariflərdən birinə - filankəs sənin qeybətini etdi — dedikdə, gülümsəyib həmin şəxsin evinə bir qutu şirni aparmalarını və ona belə bir xəbər çatdırmalarını istəyir: Eşitdim öz xeyirli işlərinin bir qismini mənim əməl dəftərimə göndərmisən. Bunun üçün sənə öz təşəkkürümü bildirib bu şirni qutusunu sənə hədiyyə göndərirəm.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Qeybəti tərif edin.
2. Qeybət hesab olunan hallardan ikisi haqda danışın.
3. Qurani-Kərim qeybət edən şəxsi nə üçün ölü ətini yeyənlərə bənzədir?
4. Peyğəmbər (s) müsəlmanların şəxsiyyət və abır-həyalarının qorunmasını nə üçün vacib hesab edir?

---

[1] Kəşful Rəbiyyə, 9-cu səh.

[2] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 1-ci hədis.

[3] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 53-ci hədis.

## İYİRMİ BEŞİNCİ DƏRS

### *QEYBƏT (2)*

Qeybətin böyük günah və haram olması, dünya və axirətdə qoyduğu mənfi təsirlərlə tanış olduqdan sonra onu doğuran səbəb və amillər haqqında danışmaq yerinə düşərdi. Ümumiyyətlə insan nə üçün başqalarının eyb və nöqsanlarını aşkara çıxarmaq istəyir?

Əxlaq alimləri qeybətə səbəb olan səkkiz mühüm amilə işarə etmişlər:

**1. Vicdan rahatlığı;**

İnsanların bir çoxunun qeybət etməkdən ən başlıca məqsədləri öz eyb və nöqsanlarını kiçik hesab etmək və ya onların üstünü örtməkdir. Bu dəstəyə aid olanlar öz eyb və nöqsanlarından agah olduqda, onları aradan qaldırmaq əvəzinə başqalarının eyblərini aşkara çıxarıb böyüdər. Yəni bu, təkcə mənim eybim deyildir, başqalarının nöqsanları məndən də çoxdur. Mənim eyb və nöqsanlarım olduqca az və cüzidir. Beləliklə onlar özlərinə bəraət qazanıb rahatlıq hiss edərlər. Təbii ki, belə bir səbəb üzündən başqalarının qeybətini edən şəxslər günahlarının üzərinə bir günah da artırmış olurlar. Çünki, hər bir şəxs öz əməllərinə görə məsuliyyət daşıyır və başqalarının ondan daha çox günah etdiklərini bəhanə gətirib tövbə edib səhvlərini düzəltməkdən boyun qaçıra bilməz. Bu səbəbdən də etdiyi əvvəlki günah olduğu kimi qalır və başqalarının qeybətini etməklə günahlarının üzərinə bir günah da gəlir.

**2. Fəxr;**

İnsanlardan bəziləri camaatın eyb və nöqsanlarını başqalarının yanında aşkar etməklə onları təhqir edir, özlərini isə yüksək əxlaq və fəzilət sahibi göstərmək istəyirlər. Məsələn, deyirlər: Filan şəxs heç nəyi düşünüb daşınmaz. Beləliklə o, özünün ağıl və dərrakə sahibi olduğunu və belə bir mənfi xüsusiyyətə malik olmadığını sübuta yetirmək istəyər. Hərçənd dinləyicinin zehnində o, fəzilət və dərrakə sahibi kimi deyil, xudpəsənd və özünü öyən təkəbbürlü şəxs kimi canlanır.

**3. Məsxərə və istehza;**

Qeybət olunan məclislərin bir çoxunda başqalarının eyb və nöqsanlarını aşkara çıxarmaqdan ən başlıca məqsəd onları məsxərə və istehza etməkdir. Bu haqda 27-ci dərsdə ətraflı söhbət açacağıq.

**4. Həsəd;**

Qeybətə səbəb olan amillərdən biri də həsəddir. İnsan özünü başqalarından zəif və bacarıqsız gördükdə onda həsəd hissi baş qaldırır. O, başqalarında eyb və nöqsan axtarmaqla onların mövqeyini kiçiltməyə və özü haqda müsbət fikir yaratmağa və başqalarının nəzərində ucalmağa çalışır.

**5. Başqaları ilə həmrə᾿ylik;**

Yaxın dost və tanışların iştirak etdikləri məclislərdə adətən kimlərinsə yaxşı və ya pis xüsusiyyətlərindən söhbət açılır. Məclis iştirakçıları bir-birləri ilə həmsöhbət olmaq üçün müxtəlif mövzular ətrafında söhbət açır, bəzən də onlarla səmimi ünsiyyət yaratmaq və ya keflərini açmaq üçün kimlərinsə qeybətini

edirlər. Onlar belə güman edərlər ki, əgər məclis iştirakçıları ilə qaynayıb-qarışmasalar onlardan inciyəcək və özlərindən uzaqlaşdırmaq istəyəcəklər. Bir haldakı ünsiyyət və həmrə'ylik haram işlərə yol verilmədən bərqərar olunmalıdır. Bir sözlə, başqalarının razılığını əldə etmək üçün Allahın qəzəb və narazılığına yol verilməməlidir. Qurani-Kərim günahkarla ünsiyyətdə olmaq nəticəsində Cəhənnəm əhlinin böyük əzaba düçar olduqlarını onların öz dilləri ilə belə bəyan edir:

***«Onlar cənnətdədirlər: Bir-birindən soruşacaqlar***

***Günahkar barəsində [və sonra həmin günahkarlara müraciət edib belə deyəcəklər]:***

***Sizi Cəhənnəmə salan nədir?***

***Onlar deyəcəklər: Biz namaz qılanlardan deyilik;***

***Yoxsulu da yedirtməzdik;***

***Batilə dalanlarla birlikdə biz də dalardıq.»***[1]

**6. Təhlükənin qarşısını almaq;**

Bəziləri, başqalarının onun haqda nə isə xoşagəlməz bir söz deyəcəyini ehtimal verib onların söylədiklərini etibarsız etmək və ya təhlükənin qarşısını almaq üçün onların eyb və nöqsanlarını aşkar etmək istəyirlər. Belə ki, şəxs onun haqda bir söz demək istərkən söylədikləri dinləyici üçün heç bir əhəmiyyət kəsb etməmiş olsun.

**7. Təəccüb;**

Günah və xoşagəlməz şeylər haqda söz düşdükdə, bəzi şəxslər qeybət bəhanəsi ilə sanki eşitdiklərindən təəccüblənib deyərlər: Ondan bu işi gözləmək olmazdı. Çünki, əgər qeybət bəhanələri olmasaydı, həmin şəxsin adını çəkmədən öz nigarançılıqlarını bildirərdilər. Digər tərəfdən də günaha düçar olmaq təəccüb və heyrətə səbəb olursa, qeybət də böyük günahlardan hesab olunur və təbii ki, onun bu hərəkəti də başqalarını heyrətləndirəcəkdir.

**8. Rəhm.**

Bəziləri başqalarının eyb və nöqsanlarından və ya günaha mürtəkib olduqlarından söz düşdükdə, ürək yanğısı ilə deyərlər: Günaha düçar olduğu üçün onun halına ürəyim yanır. Qeybət edən şəxs hər şeydən əvvəl diqqət yetirməlidir ki, onun halı daha çox acınacaqlıdır. Çünki, əvvəla onun özü heç də eyb və nöqsansız deyildir və bunu deməklə özü qeybət etmiş olur. Digər tərəfdən isə mömin bir şəxsi təhqir etməklə başqa bir günaha düçar olmuş olur.

## *QEYBƏTİN İSTİSNA HALLARI*

Qeybət böyük günahlardan hesab olunsa da, istisna olaraq bəzi hallarda bu işə icazə verilir:

1. Şikayət;

Haqqı tapdanılan şəxs şikayət üçün qazinin yanına getdikdə ona qarşı olunan zülm və ədalətsizlikləri olduğu kimi deməli və təcavüzkarı ona tanıtdırmalıdır. Əks təqdirdə, heç bir lazımı tədbir görmək mümkün olmayacaq. Belə bir halda

[1] Müddəsir 40-45.

şikayətçinin yeganə çıxış yolu təbii ki, həmin şəxsin qeybətini etməkdir. Nisa surəsinin 148-ci ayəsində bu haqda deyilir:

***«Allah pis sözün açıq, ucadan deyilməsini sevməz. Yalnız zülm olunmuş şəxslər müstəsnadır. Allah hər şeyi eşidən və biləndir!»***[1]

Bu halda haqq-ədalətin bərqərar olunması və təcavüzkarların öz layiqli cəzalarına çatmaları üçün Allah-taala qeybətə icazə verir. Çünki, bu kimi hallarda qeybət yasaq olunarsa zülm və ədalətsizliyə məruz qalan şəxslər nə öz haqqını tələb edə bilər, nə də təcavüzkarlar öz layiqli cəzalarına çatardılar.

2. Məsləhət və məşvərət;

İnsan bir çox hallarda başqalarından məsləhət almağa və ya ictimai, ailə, məişət və s. bu kimi mühüm məsələlərdə ona yol göstərmələrinə ehtiyac duyur. Məsələn, ailə qurmaq istədikdə nəzərdə tutduğu şəxsi tanıyanlardan onun haqda məlumat əldə etmək istəyir və ya bir şəxsə hər hansı bir vəzifə təyin etdikdə dost-tanışlarından onun kimliyini öyrənmək istəyirlər. Bu kimi hallarda qeybətin olunmaması ağır və xoşagəlməz nəticələr verə bilər. Yəni, bu kimi hallarda nəzərdə tutulan şəxsin kimliyi və çatışmamazlığı barədə lazımı məlumatlar vermək heç də qeybət hesab olunmur. Çünki ümumi kütlənin mənafeyi fərdi mənafedən daha önəmlidir və bu iki şey bir-biri ilə çarpazlaşdıqda ümumi mənafe ön plana çəkilir.

3. Xəbərdarlıq;

Hər hansı bir şəxs və ya dəstənin cəmiyyətdə törətdiyi fitnə-fəsadları müşahidə etdikdə, cəmiyyətin sağlam təbəqəsinin onlara meyl etmələrinin qarşısını almaq üçün onların aşkara çıxarılması məqsədilə deyilən sözlər qeybət xarakteri daşısa da, zəruri hallardan hesab olunur. Bu iş islam cəmiyyətinin rifahı naminə olduğu üçün qeybət (günah) hesab olunmur.

Peyğəmbər (s) bu haqda buyurur:

Fasiq insanların nalayiq işlərini aşkara çıxarmırsınız ki, camaat onları tanımasın? Onların gördüyü nalayiq işləri ifşa edin ki, camaat onlardan uzaq olsunlar.[2]

4. Fitnə-fəsadın qarşısını almaq;

Cəmiyyətin əxlaq və sağlam əhval-ruhiyyəsinin qorunub saxlanılması üçün mövcud olan və öz fəaliyyəti ilə cəmiyyətdə fitnə-fəsada, sabitsizliyə səbəb olan bütün xoşagəlməz tərzi-təfəkkürə, qruplaşmalara qarşı son dərəcə ayıq olmalı və onların qərəzli fəaliyyətləri haqda camaata və ya məsul şəxslərə məlumat vermək lazımdır. Bu qeybət xarakteri daşısa da, cəmiyyətin rifahı naminə olduğu üçün günah hesab olunmur.

5. Aşkar etmək və mö᾽tədillik;

Qeybətin istisna olunduğu hallardan biri də hədis rəvayət edən şəxslər və məhkəmədə şəhadət verən şahidlərə aiddir. Belə ki, hədislərin mötəbərliyinin qorunub saxlanılması və şahidlər (qəzavət-mühakimə) məsələlərində verdikləri ifadələrin doğruluğunun qəbul olunması üçün onların kimliyi bəlli olmalıdır. Bunun üçün isə yeganə yol onların əxlaqi xüsusiyyətlərinin araşdırılması, eyb və

---

[1] Nisa-148.

[2] Biharul-ənvar, 75-ci cild, 66-cı fəsil, 1-ci hədis.

nöqsanlarının üzə çıxarılmasıdır. Bu kimi hallarda da onların mənfi xüsusiyyətləri haqda danışmaq qeybət hesab olunmur.

6. Məşhur ləqəb;

Cəmiyyətdə bə`zi şəxslərlə rastlaşırıq ki, öz həqiqi adları ilə deyil, malik olduqları xüsusiyyətlərə görə müxtəlif ləqəblərlə çağırılır və zaman keçdikcə bir çoxları onları qondarma ləqəbləri ilə tanımağa başlayır. İlk dəfə belə xoşagəlməz ləqəbləri başqalarına verən şəxslər günah etsələr də, sonralar adi hal aldığı üçün bu iş başqalarına qeybət hesab olunmur.

7. Bid`ətçilər;

Bidətçilərin tanınıb ifşa olunması.

Camaatı dindən uzaq salmaq istəyənləri hamıya tanıtdırmaq nəinki qeybət deyil, hətta hər bir müsəlmanın üzərinə düşən dini vəzifədir. Hər bir müsəlman hər şeydən əvvəl onların fəaliyyətlərinin qarşısını almalı və öz müsəlman bacı və qardaşlarının haqq yoldan uzaq düşmələrinə yol verməməlidir.

Peyğəmbərdən (s) nəql olunmuş hədisdə deyilir:

Bidətçilərdən uzaq olmağa çalışın, qarşılaşdığınız zaman onları xoşagəlməz sözlərlə təhqir edin.

8. Pozğun şəxslər.

Nəql olunmuş rəvayətlərdə qeybət olunmasına icazə verilən şəxslər açıq aşkar günah edən və heç nədən çəkinmədən pozğunçuluğa yol verən kəslərdir.

Peyğəmbər (s) onlar haqda buyurur:

Bu üç şəxsin qeybəti haram deyildir: Özbaşınalar, açıq-aşkar günah edən şəxslər və zalım rəhbərlər.

Etdiyi günahı heç nədən çəkinmədən aşkar edən şəxslərin qeybəti haram deyildir.[1]

## *QEYBƏTƏ QULAQ ASMAQ*

Qeybət etmək böyük günahlardan sayıldığı və qeybət edən şəxs Allahın qəzəbinə gəldiyi kimi, qeybətə qulaq asmaq da haram və böyük günahlardan hesab olunur.

Peyğəmbər (s) bu haqda buyurur:

Qeybətə qulaq asan şəxs qeybət edənlər kimidir.

İmam Sadiq (ə) buyurur:

Qeybət küfr kimi (böyük) ağır günah, qeybətə qulaq asmaq və deyilənlərdən razı qalmaq isə şirk ilə bərabərdir.[2]

Bu məzmunda nəql olunmuş digər rəvayətlərdə möminlərin qeybəti olunarkən imkan daxilində onları müdafiə etməyə tövsiyə olunur.

Peyğəmbər (s) bu haqda buyurur:

İştirak etdiyi məclislərdə qeybəti olunan mömin qardaşlarını müdafiə edən şəxsləri Allah-taala min xoşagəlməz hadisədən qoruyar.[3]

---

[1] Biharul-ənvar, 75-ci cild, 57-ci fəsil, 33-cü hədis.
[2] Mustədrək, 9-cu cild, 136-cı fəsil, 10462-ci hədis.
[3] Biharul-ənvar, 76-cı cild, 67-ci fəsil, 30-cu hədis.

Onları müdafiə etməyə qadir olmadıqda isə hökmən həmin məclisləri tərk etmək lazımdır.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Qeybətə səbəb olan amillərdən ikisini izah edin.
2. Şikayət zamanı nə üçün qeybətə izazə verilir?
3. Bid῾ətçilərin qeybət olunması nə üçün istisna olunur?

# İYİRMİ ALTINCI DƏRS

## *TÖHMƏT VƏ BƏDGÜMANLIQ*

**Töhmət:**

İctimai münasibətlərdə ən pis xüsusiyyətlərdən biri də başqalarına töhmət vurub böhtan atmaqdır.

Bir qədər əvvəl qeybətin tərifində qeyd etdik ki, qeybət — başqalarının eyb və nöqsanlarını camaata aşkar etməkdən ibarətdir. Töhmət isə insanlarda olmayan eyb, nöqsan, günah və xoşagəlməz xüsusiyyətləri onlara aid etməkdən ibarətdir. Qeybətlə töhmət arasındakı fərqi nəzərə alıb belə bir nəticəyə gələ bilərik ki, töhmət qeybətdən də böyük günahdır.

Quran ayələrinə və bu məzmunda nəql olunmuş hədis və rəvayətlərə nəzər salaraq bu həqiqəti daha yaxından dərk etmək olar.

Nisa surəsinin 112-ci ayəsində deyilir:

***«Hər kəs bir xəta və ya günah edib onu günahsız bir adamın boynuna atarsa, şübhəsiz ki, öz boynuna böhtan və açıq-aşkar günah götürmüş olar [günah üstündən günah qazanar]».***

Peyğəmbər (s) bu haqda buyurur:

Allah-taala mömin bir qadın və ya kişiyə töhmət vuran şəxsləri qiyamət günü cəhənnəm odunun kənarında saxlayar ki, dediklərinə cavab versinlər».[1]

İmam Sadiq (ə) buyurur:

Mömin öz mömin qardaşına töhmət vurduğu zaman, buz suda əriyib aradan getdiyi kimi, qəlbindəki iman nuru eləcə məhv olub aradan gedər».[2]

Töhmət üç halda vurulur:

1. Hər hansı bir eyb və çatışmazlıq sübut olunmadan nəzərdə tutulan şəxsə ehtimal verərək aid edilmiş olsun.

2. Günah və çatışmamazlığın bir şəxsdə olmadığına yəqinlik hasil olunsa belə, inadkarlıq və ya düşmənçilik üzündən aid edilmiş olsun.

3. Şəxs özünə bəraət qazanmaq məqsədilə öz günah və çatışmazlıqlarını başqasına aid etmiş olsun. Müqayisə etməklə töhmətin hər birinin xüsusiyyətləri bəlli olur. Hərçənd onların hər bir nümunəsi böyük günahlardan hesab olunur.

Başqalarının şəxsiyyətinə xələl gəlməsin deyə və hamının şəxsiyyətinin toxunulmazlığına əmin olmaq üçün hər bir müsəlman töhmətin böyük günah olduğunu dərk etməli və bu mənfi xüsusiyyətdən uzaq olmağa çalışmalıdır. Cəmiyyət üzvləri bir-birlərinin hüquqlarını tapdaladıqları zaman töhmət, qeybət, intiqam almaq hissi adət halını alır və belə bir şəraitdə mənəvi saflıq haqda düşünməyə belə macal tapmayacaqdır.

Töhmətdən uzaq olmaqla yanaşı, hər bir cəmiyyət üzvünün üzərinə düşən vəzifələrdən biri də töhmətə şərait yaratmamalarıdır. Yəni hər bir şəxs öz rəftar və davranışlarına diqqət yetirməli və onlara töhmət vurmalarına şərait yaratmamalıdır.

---

[1] Biharul-ənvar, 75-ci cild, 62-ci fəsil, 5-ci hədis.

[2] Biharul-ənvar, 75-ci cild, 62-ci fəsil, 19-ci hədis.

Peyğəmbər (s) bu haqda buyurur:

Töhmətə hamıdan artıq o şəxslər layiqdir ki, başqalarına töhmət vuranlarla ünsiyyətdə olsun.[1]

Əli (ə) buyurur:

Töhmətə şərait yaradan şəxslər özlərindən başqa kimsəni müqəssir hesab etməməlidirlər.

İmam Cəfər Sadiq (ə) buyurur:

Atam [Məhəmməd Baqir (ə)] məni yanına çağırıb buyurdu: Pis insanlarla ünsiyyətdə olanlar mə᾿nəvi cəhətdən sağlam qalmazlar. Xoşagəlməz yerə gedənlər və nə dediklərinin fərqinə varmayanlar isə daim peşimançılıq çəkərlər.[2]

## *BƏDGÜMANLIQ*

İctimai münasibətlərdə xoşa gəlməyən xüsusiyyətlərdən biri də başqaları haqda bədgüman olmaqdır. İnsanların bəziləri bir çoxlarına qarşı bədbin və onların haqqında mənfi təsəvvürə malik olurlar. Adi hal olduğu üçün başqalarının gördüyü hər bir işə və dedikləri hər bir sözə nöqsan tutur, həqiqətlə müvafiq olmadıqda zənn və gümana qapılırlar.

Hucurat surəsinin 12-ci ayəsində deyilir:

***«Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi [heç bir əsası olmayan zənn] günahdır. [Bir-birinizin eybini, sirrini] arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın!...»***

Göründüyü kimi Allah-taala bəzi zənn və gümanların günah olduğunu bildirir. Bu da ondan irəli gəlir ki, bəzən həqiqət bizim güman etdiyimiz kimi olur. Belə olduqda təbii ki, zənn və gümanlarımız günah və batil olmayacaqdır. Lakin zənn və gümanlarımızın bir qismi həqiqətlə müvafiq olmadığı üçün günah və yolverilməzdir.

Əgər başqaları haqda pis fikirləşmək istəməsək, gərək onların şəxsi işlərinə qarışıb adət və xüsusiyyətləri ilə yaxından maraqlanmayaq. Başqalarının şəxsi həyatına dəxalət etmək isə qeyri-əxlaqi iş olmaqla yanaşı, haram və günah da sayılır. Haqqında söhbət açdığımız ayədə də bu məsələyə toxunulur.

Digər tərəfdən isə başqalarının şəxsi məsələləri ilə maraqlanmaq qeybət xarakteri daşıyır. Çünki, insanların xüsusiyyətləri ilə tanışlıq hər şeydən əvvəl onlarla söhbət və ünsiyyətdə olmaqla əldə olunur. Bu səbəbdən də sui-zənn və bədgümanlıq böyük günah olmaqla yanaşı, digər günahların yaranmasına da səbəb olur. Möminlər belə bir böyük günaha mürtəkib olmasınlar deyə, Allah-taala bir-birlərinə qarşı zənn və gümana qapılmalarını qadağan edir. Nəql olunmuş rəvayətlərdə sui-zənn və bədgümanlıqdan yaxa qurtarmaq üçün möminlərin bir-birlərinə qarşı müsbət fikirdə olmalarına və biri digərinin səhvinə göz yumub güzəştə getmələrinə tövsiyə olunmuşdur.

Əli (ə) bu haqda buyurur:

---

[1] Biharul-ənvar, 75-ci cild, 46-cı fəsil, 3-cü hədis.

[2] Biharul-ənvar, 75-ci cild, 46-cı fəsil, 1-ci hədis.

Mömin qardaşınızın bütün işlərini əlinizdə əsaslı dəlil olmayınca, qiymətləndirməyə bacarın. Onlardan__eşitdiklərinizi müsbət mənalandıra bilirsinizsə, zənn və gümana qapılmayın.[1]

## *BƏDGÜMANLIĞIN VERDİYİ NƏTİCƏLƏR*

Məsum imamlardan nəql olunmuş hədis və rəvayətlərdə sui zənn və bədgümanlığın verdiyi nəticələr belə izah olunur:

1. Əli (ə) buyurur:

Başqaları haqda pis təsəvvürə malik olan şəxslər daim qorxu və hürkü içində yaşayar.[2]

Yəni, bədbin insan hamıda eyb və nöqsan axtardığı üçün kimsəyə etimad etməyib daim qorxu və hürkü içində yaşayar. Qəlbi sarsıntı onu rahat buraxmayıb hamıdan ehtiyat etməyə vadar edər. Bu da onların hamıdan uzaq düşüb tək həyat sürmələrinə gətirib çıxarar.

2. Başqa bir hədisdə buyurur:

Bədbinlik insanın əməllərini korlayır və onları pisliklərə vadar edir.[3]

Camaatın etimadını qazanmaq düzgünlük və doğruluğun ən başlıca amillərindəndir. Belə ki, hər bir şəxs başqalarının onun düzgünlüyündən razı qalıb etimad etmələrini istəyir. İnsanlar bir-birlərinə qarşı bədbin olduqda isə qarşılıqlı etimad öz məʾnasını itirəcək və artıq kimsə düzgünlük naminə zəhmətə qatlaşmayacaqdır. Nəticədə Əli (ə) buyurduğu kimi, həyat öz axarından çıxacaq və ictimai asayiş pozulacaqdır.

3. Əli (ə) başqa bir hədisdə bədbinliyi təfriqə və ixtilafların yaranmasına səbəb olan ən başlıca amil hesab edir:

Bədbinliyə düçar olan şəxslər öz dostları arasında mehribançılıq və səmimiyyəti aradan aparmış olur.[4]

4. Sui-zənnin isə ibadəti aradan aparmasını vurğulayır:

«Sui-zəndən uzaq olmağa çalışın! Çünki, sui zənn ibadəti aradan aparmaqla yanaşı, günahları da böyüdür.[5]

Sui-zənn (bədbinlik) möminlər üçün xoşagəlməz xüsusiyyət olduğu kimi, hüsni-zənn də (nikbinlik, başqaları haqda xoş təəssüratda olmaq) möminlər üçün gözəl xüsusiyyət hesab olunur. Məsum imamlardan nəql olunmuş rəvayətlərdə möminlərin bu gözəl xüsusiyyətə sövq olunduqlarının şahidi oluruq.

Əli (ə) buyurur:

Hüsni-zənn ən gözəl xüsusiyyət və insanın əldə etdiyi gözəl bəhrədir.[6]

Hüsni-zənn dinin qorunmasına və qəlbi rahatlığa səbəb olur.[7]

Hüsni-zənn nigarançlığı azaldır və günah sarsıntısına son qoyur.

---

[1] Biharul-ənvar, 74-cü cild, 13-cü fəsil, 7-ci hədis.
[2] Ğurərul hikəm, 5-ci cild, 442-ci səh.
[3] Ğurərul hikəm, 4-cü cild, 132-ci səh.
[4] Ğurərul hikəm, 5-ci cild, 406-cı səh.
[5] Ğurərul hikəm, 2-ci cild, 308-ci səh.
[6] Ğurərul hikəm, 3-cü cild, 386-cı səh.
[7] Ğurərul hikəm, 3-cü cild, 384-cü səh.

Hüsni-zənn edənlər camaatın məhəbbətini qazanmış olarlar.[1]

İmam Sadiq (ə) buyurur:

Hüsni-zənn insanın gözəl əxlaq və saf imanından irəli gəlir.[2]

Peyğəmbər (s) buyurur:

Mömin qardaşlarınız haqda daim yaxşı fikirdə olun. Beləliklə siz mə᾽nəvi saflığa və gözəl təbiətə nail olarsınız.[3]

Bədbinlik nikbinliklə əvəz olduqda qəlblərdən kin-küdurət gedir və insanda hamıya qarşı sevgi, məhəbbət və qardaşlıq hissi yaranır.

Bu səbəbdən də möminlərin bir-birlərinə qarşı müsbət fikirdə olmaları [aralarında dostluq və səmimiyyətin bərqərar olunması üçün] ən başlıca meyar hesab olunur. Lakin bunu da bilməliyik ki, hər şeydə oluduğu kimi, hüsni-zənnin də müəyyən həddi-hüdudu vardır. Bu həddi keçdikdə heç də müsbət xüsusiyyət hesab olunmur.

Bunun üçün də hər şeydən əvvəl nə zaman bədbin və nə zaman nikbin olmağımızı bilməliyik.

Məsum imamlardan nəql olunmuş rəvayətlərdə bunun üçün ən başlıca şərt cəmiyyətdə haqq-ədalətin bərqərar olunması, zülm, fitnə-fəsadın aradan götürülməsi və insanlar arasında sülh və əmin-amanlığın bərpa olunması hesab olunur. Belə ki, əgər cəmiyyətdə haqq-ədalət zülm və ədalətsizliyə, sülh və əmin amanlıq ixtilaf və qarşıdurmalara qalib gələrsə hüsni-zənn öz yerini tapacaqdır. Əksinə, zülm və pozğunluq baş alıb gedərsə, əməli-saleh insanları tanımaq bir o qədər də asan olmayacaqdır. Belə bir şəraitdə ictimai münasibətlər də müsbət bir xüsusiyyət kimi öz yerini tapa bilməyəcəkdir.

Əli (ə) bu məsələyə işarə edərək buyurur:

Düzgünlük insanlar və zəmanəyə hakim olduğu zaman günahı olmadığı bir şəxs başqa birisinə qarşı bədbin olarsa, sanki ona zülm etmiş olur. Zülm və ədalətsizlik baş alıb getdikdə isə biri başqasına qarşı yaxşı fikirdə olarsa, özünü aldanmış hesab etsin».[4]

İmam Kazim (ə) buyurur:

Zülm və ədalətsizlik haqq-ədalətə qalib gəldiyi zaman yaxşı insan olduğunu bilmədən biri digəri barədə yaxşı fikirdə olmamalıdır [hüsni-zənn etməməlidir].[5]

İmam Hadi (ə) buyurur:

Haqq-ədalət öz yerini tapdığı zaman kimliyini tanımadan kimsə digərinə qarşı bədbin olmamalıdır. Zaman dəyişib, zülm və ədalətsizlik haqq-ədalətə hakim olduqda isə şəxsin əməli-saleh bir insan olduğunu bilmədikdə kimsəyə hüsni-zənn olunmamalıdır.[6]

Etimad və hüsni-zənnə lazım olan şərtlərdən biri də tərəf müqabilinin xəyanətə yol verməməsidir. Belə ki, həmin şəxs xəyanət etdikdə öz etibarını itirmiş olur və belə bir şəraitdə etimad və hüsni-zənn olunmamalıdır.

---

[1] Ğurərul hikəm, 5-ci cild, 379-cu səh.
[2] Biharul-ənvar, 75-ci cild, 62-ci fəsil, 12-ci hədis.
[3] Biharul-ənvar, 75-ci cild, 62-ci fəsil, 12-ci hədis.
[4] Biharul-ənvar, 75-ci cild, 62-ci fəsil, 18-ci hədis.
[5] Biharul-ənvar, 10-cu cild, 16-cı fəsil, 11-ci hədis.
[6] Biharul-ənvar, 75-ci cild, 62-ci fəsil, 17-ci hədis.

İmam Sadiq (ə) bu haqda buyurur:

Sizə xəyanət edən şəxslərə etimad etməməli, əmin olduğunuz (güvəndiyiniz) şəxslərə də töhmət vurmamalısınız.[1]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Quran ayələrindən və nəql olunmuş rəvayətlərdən istifadə edərək «töhmət»in tərifini deyin.
2. Töhmətin növlərini sayın.
3. Başqaları haqda müsbət fikirdə olmaq deyildikdə nə nəzərdə tutulur?
4. Sui- zənnin verdiyi mənfi nəticələri bəyan edin.
5. Hər bir şəraitdə hamı haqqında hüsni-zənn edə bilərikmi?

[1] Biharul-ənvar, 75-ci cild, 62-ci fəsil, 1-ci hədis.

# İYİRMİ YEDDİNCİ DƏRS

## *MƏSXƏRƏ VƏ XƏBƏRÇİLİK*

İctimai münasibətlərə xələl gətirən mənfi və olduqca xoşagəlməz xüsusiyyətlərdən biri də xəbərçilikdir. Bu ruhi xəstəliyin qoyduğu mənfi təsirlərdən biri də insanların bir-birlərinə qarşı etimadsızlığı, kin-küdurət, ədavət və sairə xoşagəlməz hallardır. Xəbərçilik ixtilafların yaranmasına səbəb olan ən başlıca amillərdən biri olduğu üçün Quranda və nəql olunmuş rəvayətlərdə bu mətləbə dəfələrlə işarə olunmuş və o, böyük günahlardan biri kimi göstərilmişdir.

Xəbərçiliyin tərifində deyilir: Hər hansı bir şəxs barədə danışılan zaman dinləyicinin deyilənləri olduğu kimi həmin şəxsin özünə çatdırmasına xəbərçilik deyilir. Məsələn, «filan şəxs sənin barəndə belə fikirdədir» — demiş olsun. Bunu da qeyd edək ki, həmin şəxs barədə yalnız mənfi təəssürat yarada bilən sözlər xəbərçiliyə çevrilə bilər. Mə᾽lumdur ki, hər hansı bir şəxsi tərifədikdə kin-küdurətə səbəb olacaq heç bir yaranmır. Görkəmli islam alimlərindən olan Şəhid Sani xəbərçilik haqda deyir: Xəbərçilik o sirlərin açılmasına deyilir ki, deyən və ya nəzərdə tutulan şəxsi sarsıtmış olsun. Bu tərifə əsasən sirrin açılması istər ifadə, istər yazı, istərsə də işarələrlə olsun, xəbərçilik xüsusiyyəti daşıyır. Möminlər, qohum-əqrəba və dostlar arasında ixtilaf və ədavətin salınması qətiyyətlə pislənir və bu iş böyük günahlardan sayılır:

***«...Fitnə, qətldən daha şiddətlidir...»*[1]**

***«...Fitnə salmaq vuruşmaqdan daha betərdir...»*[2]**

Fitnə-fəsada və düşmənçiliyə səbəb olan xəbərçilik haqda deyilir:

***«[Dalda] qeybət edib [üzdə] tənə vuran hər kəsin vay halına!»*[3]**

***«Və həm də itaət etmə [yalan yerə] hər and içənə, alçağa.***

***Yalandan çox-çox and içənlərə, eyb axtaran və sözgəzdirənlərə itaət etmə.»*[4]**

Peyğəmbər (s) səhabələrə xitab edərək buyurur:

Sizin içərinizdə olan ən pis şəxsləri özünüzə tanıtdırımmı?

Dedilər: Bəli, ya Rəsuləllah!

Buyurdu:

O kəsdir ki, daim əməli-saleh insanların eyb və çatışmazlıqlarını axtarar və dostlar arasında təfriqə yaratmaq istəyər.[5]

Başqa bir hədisdə deyilir:

Allahın daha çox nifrət etdiyi şəxs o kəsdir ki, əməli-saleh insanların eyb və çatışmazlıqlarını axtarar və xəbərçilik etməklə dostlar arasında təfriqə yaratmaq istəyər.[6]

Əli (ə) buyurur:

---

[1] Bəqərə-191.
[2] Bəqərə-217.
[3] Huməzə-1.
[4] Qələm 10-11.
[5] Biharul-ənvar, 75-ci cild, 67-ci fəsil, 17-ci hədis.
[6] Kənzul ummal, 3-cü cild, 15-ci fəsil, 5215-ci hədis.

Xəbərçilikdən uzaq olun. Çünki xəbərçilik düşmənçiliyə, insanın Allahdan və camaatdan uzaq düşməsinə səbəb olur.[1]

Peyğəmbər (s) xəbərçiliyin müsəlmana yaraşmayan bir xüsusiyyət olması haqda buyurur:

Xəbərçilik və düşmənçilik [Cəhənnəm] odundadır. Bu iki şey müsəlmanın qəlbində özünə yer tapmaz.[2]

Xəbərçilik və düşmənçilik Cəhənnəm odundadır - dedikdə, Peyğəmbər (s) Cəhənnəm əhlini nəzərdə tutur və belə bir xüsusiyyətə malik olan şəxsləri müsəlmançılıqdan xaric edir.

Başqa bir hədisdə buyurur:

Xəbərçilər Cənnətə daxil olmazlar.[3]

## *XƏBƏRÇİLƏRLƏ RƏFTAR VƏ DAVRANIŞ*

Xəbərçilər müsəlmanlar arasında təfriqə salıb öz çirkin niyyətlərinə nail olmasınlar deyə, Şəhid Sani Quran və nəql olunmuş rəvayətlərə istinad edərək, onların dediklərini dinləyən şəxslərin üzərinə altı vəzifənin düşdüyünü qeyd edir:

1. Hər şeydən əvvəl sözlərinə e῾tina etməyib onları qəbul etməməli. Hucurat surəsinin 6-cı ayəsində onlar haqda deyilir:

***«...Əgər bir fasiq sizə pis bir xəbər gətirsə, dərhal onun doğruluğunu yoxlayın...»***

2. Xəbərçilik etməkdən çəkindirib onlara nəsihət etməli. Loğman surəsinin 17-ci ayəsində bu mətləbə işarə olunaraq buyurulur:

***«...Yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə...»***

3. Onlarla, dedikləri sözlərə görə şəxsi qərəzlə deyil, Allaha xatir düşmənçilik etməli; Çünki, Allahın dostları ilə dostluq, düşmənləri ilə düşmənçilik etmək lazımdır.

4. Dediklərini eşidərkən dərhal müsəlman qardaşına qarşı pis fikrə düşməməlidir. Hucurat surəsinin 12-ci ayəsində bu haqda deyilir:

***«...Çox zənn və gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi [heç bir əsası olmayan zənn] günahdır...»***

5. Xəbərçinin söylədiklərindən maraqlanıb başqalarının şəxsi həyatına dəxalət etməməlidir. Həmin ayədə deyilir:

***«...[Bir-birinizin eyb və sirrini] arayıb axtarmayın...»***

6. Həmin şəxs özü də xəbərçilik etməsin deyə, eşitdiklərinə razı olub başqalarına danışmamalıdır.

Bu barədə nəql olunmuş rəvayətlərdən birində deyilir:

Uzun illər ayrılıqdan sonra böyük alimlərdən birinin dostu onun görüşünə gəlir. Dostu söhbət əsnasında başqa birisinin alim barədə dediklərini ona nəql edir. Alim eşitdiklərindən çox narahat olub deyir: Neçə ildən sonra mənim görüşümə üç böyük günahlamı gəldin?! Əvvəla ona görə ki, məni o şəxsə qarşı bədbin edib aramızda düşmənçilik yaratdın. İkincisi ona görə ki, bir qədər əvvəl çox rahat

---

[1] Ğurərul hikəm, 2-ci cild, 296-cı səh.
[2] Kənzul ummal, 16-cı cild, 23-cü fəsil, 43768-ci hədis.
[3] Biharul-ənvar, 68-ci cild, 15-ci fəsil, 21-ci hədis.

idim, indi isə eşitdiklərimdən kədərlənib nigarançılıq çəkməyə başladım və nəhayət üçüncü ona görə ki, başqasının haqqını tapdadığın üçün mənim nəzərimdə öz etimadını itirmiş oldun.

Bu səbəbdən də xəbərçilərlə qarşı-qarşıya gəldikdə hər şeydən əvvəl onların dedikləri təkzib olunmalı və onlara qarşı olduqca etinasız yanaşmaq lazımdır.

Unutmamalıyıq ki, əgər xəbərçi başqalarının dediklərini bizə çatdırırsa, sözsüz ki, bizim də dediklərimizi başqalarına çatdırmaqda heç nədən çəkinməyəcəkdir. Bunun üçün də onlara etimad etməməli və dedikləri təkzib olunmalıdır ki, əvvəla onlar gördükləri işdən peşiman olub bir daha təkrar etməsinlər. Digər tərəfdən də xəbərçilərin çirkin niyyətləri müsəlmanlar arasında dostluq və qardaşlığın aradan getməsinə səbəb olmasın.

İmam Musa Kazim (ə)-ın səhabələrindən olan Məhəmməd ibni Fəzl deyir: İmam Musa Kazim (ə)-dan soruşdum: Etimad etdiyim şəxslərdən yaxın dostlarım barədə xoşagəlməz şeylər eşidirəm. Lakin o, deyilənləri təkzib edir. İmam (ə) cavabında buyurdu: Ey Məhəmməd! Özü inkar etdiyi zaman əlli nəfər şəhadət versə belə, müsəlman qardaşın [mənfi xüsusiyyətləri] barədə deyilənlərə göz yum. Əlli nəfərin dediklərini təkzib, müsəlman qardaşının dediklərini isə təsdiq et. Şəxsiyyətinə xələl gəlməsin deyə, eşitdiklərini kimsəyə söyləmə. Yoxsa bu ayənin aşkar nümunəsnə çevrilərsən:

***«Möminlər arasında [onları nüfuzdan, hörmətdən salmaq məqsədilə] pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir...»***[1]

Tarixə nəzər saldıqda Məsum imamların xəbərçilərlə kəskin şəkildə davrandıqlarının şahidi oluruq.

Belə ki, bir şəxs Əli (ə)-ın hüzurunda başqa birisi barədə xoşagəlməz sözlər dedikdə, o həzrət dərhal onun sözünü kəsərək buyurdu:

Bil ki, sənin dediklərini yaxşıca araşdıracağıq. Düz demiş olsan (xəbərçilik etdiyin üçün) düşmən olduğun üçün, yalan olduqda isə (başqaları barədə xoşagəlməz sözlər dediyin üçün) cəzalandıracağıq. Əgər bağışlanmağını istəsən, səni bağışlayarıq. Həmin şəxs gördüyü işdən peşiman olub üzr istəyir.[2]

## MƏSXƏRƏ

Məsxərə və ya istehza — kimlərinsə əxlaqi və cismi xüsusiyyətlərinə gülmək və ya güldürmək məqsədilə qeyri-adi tərzdə bəyan və ya təqlid olunmasına deyilir.

Möminlərin şəxsiyyət və mənəviyyatına xələl gəlməsinə və onların təhqir olunmasına səbəb olduğu üçün islam dinində kiminsə məsxərə və ya istehza olunması qətiyyətlə pislənilir. Qurani-Kərimdə möminlərə etinasız yanaşanlar və onları xar və rüsvay etmək istəyən şəxslər haqda deyilir:

***«...Şərəf-şan da, qüvvət və qələbə də yalnız Allaha, Onun Peyğəmbərinə və möminlərə məxsusdur...»***[3]

Başqa bir ayədə deyilir:

---

[1] Nur-19.
[2] Biharul-ənvar, 75-ci cild, 67-ci fəsil, 19-cu hədis.
[3] Munafiqun-8.

***«İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşılarıdır».[1]***

Peyğəmbər (s) buyurur:

Allah-taala buyurur: And olsun Öz izzəti-cəlalıma! Elə bir məxluq yaratmadım ki, onu mömin bəndələrimdən çox sevmiş olum.[2]

Cabir ibni Abdullah deyir: Bir gün Peyğəmbər (s) Kəbəyə nəzər salıb buyurdu:

Mərhaba sənə ey Kəbə! Allah yanında nə qədər hörmətin var. And içirəm ki, Allah yanında möminlərin hörməti səndən çoxdur. Çünki, Allah-taala səni bir, möminləri isə üç şeyə görə hörmət sahibi etmişdir. Onların malı, canı və haqlarında kimsəyə bədbin olmaq halal edilməmişdir.[3]

İmam Baqir (ə) buyurur:

Möminlərin hörməti Kəbədən daha çoxdur.[4]

Allah-taala möminlər üçün olduqca böyük hörmət və ehtiram müəyyən etmişdir. İmam Sadiq (ə) bu haqda buyurur: Allah-taala buyurur:

Mömin bəndəmi xar və rüsvay edən kəslər Mənimlə müharibəyə hazır olsunlar. Mömin bəndələrimi əziz tutan kəslər isə özlərini qəzəbimdən amanda qalacaqlarına əmin olsunlar.[5]

Məsxərə və istehza möminlərin mənəviyyatına böyük zərbə vurduğu üçün Quran və nəql olunmuş hədis və rəvayətlərdə bu xoşagəlməz xüsusiyyətin tərk olunmasına qətiyyətlə təkid olunur.

Hucurat surəsinin 11-ci ayəsində deyilir:

***«Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, lağa qoyulanlar lağa qoyanlardan [Allah yanında] daha yaxşı olsunlar. Qadınlar da bir-birinə rişxənd etməsinlər. Bəlkə, rişxənd olunanlar rişxənd edənlərdən daha yaxşıdırlar...»***

Başqa bir ayədə möminlərin məsxərə olunması münafiqlərə xas olan xüsusiyyətlərdən biri kimi göstərilir:

***«Onlar möminlərlə qarşılaşdıqları zaman: Biz də [sizin kimi] iman gətirdik, — deyirlər. Halbuki öz şeytanları ilə [onları aldadan dostları ilə] təkbətək qalanda: Biz də sizinləyik, biz ancaq [möminlərə] istehza edirik, — deyirlər».[6]***

Tövbə surəsinin 79-cu ayəsində isə möminləri istehza edən kəslərə kəskin cavab verilərək axirət günü böyük əzaba düçar olacaqlarına xəbərdarlıq edilir:

***«Könüllü surətdə [bollu] sədəqə verən möminlərə tənə edənləri və güc-bəla ilə əllərinə düşəni təsəddüq edən kəsləri məsxərəyə qoyanları Allah Özü məsxərəyə qoyacaqdır. Onlar şiddətli bir əzaba düçar olacaqlar!»***

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Xəbərçiliyin qadağan olunmasına əsas səbəb nədir?
2. Xəbərçilərin müqabilində üzərimizə hansı vəzifələr düşür?

---

[1] Bəyyinə-7.
[2] Biharul-ənvar, 71-ci cild, 63-ci fəsil, 75-ci hədis.
[3] Biharul-ənvar, 67-ci cild, 1-ci fəsil, 39-cu hədis.
[4] Biharul-ənvar, 7-ci cild, 16-cı fəsil, 16-cı hədis.
[5] Biharul-ənvar, 75-ci cild, 56-cı fəsil, 12-ci hədis.
[6] Bəqərə-14.

3. İmam Musa Kazim (ə) möminlərin şəxsiyyətlərinin qorunması haqda nə buyurur?

4. Məsxərə və istehza nə kimi mənfi nəticələr verir?

## İYİRMİ SƏKKİZİNCİ DƏRS

### *HƏSƏD*

Mənfi xüsusiyyətlərdən və böyük günahlardan biri də «həsəd»dir. İctimai münasibətlərdə insanlar arasında kin-küdurət və ədavətin yaranmasına səbəb olan amillərdən biri də məhz həsəddir. Qurani-Kərimdə Adəm (ə)-ın yaradılışından söhbət açılarkən yer üzərində baş verən ilk günahın həsəd üzündən baş verdiyinə işarə olunur. Məhz bu xislət İblisin cənnətdən qovulmasına və tarixdə ilk dəfə yer üzərində qan tökülməsinə səbəb olur. O gündən etibarən bu Şeytani xislət qəlblərdə özünə yer etmiş və minlərlə haqsız insanın qanının tökülməsinə, kin-küdurətin yaranmasına səbəb olmuşdur.

### *HƏSƏDİN TƏRİFİ VƏ NÖVLƏRİ*

Həsəd – hər hansı bir şəxsin başqa birisinin malik olduğu ilahi nemətlərdən (istər maddi olsun, istərsə də mənəvi) məhrum olmasını arzu etməsinə deyilir. Belə şəxslər bəzən bu yolda əzab-əziyyətə qatlaşmağa belə hazır olarlar.

### *HƏSƏDİN NÖVLƏRİ*

1. Özündə olmasını arzu etməsə belə, başqasının hər hansı bir nemətdən məhrum olmasını istəyər;
2. Başqa birisinin malik olduğu hər hansı bir şeydən məhrum olmasını arzu etməklə yanaşı, özünün də həmin şeyə malik olmasını istəyər;
3. Həmin şeyin özündə olmasını istəməsə də, ona oxşarına malik olmasını arzu edər. Əldə etmədikdə isə başqalarının həmin şeydən məhrum olmasını istəyər;
4. Başqalarının malik olduqları şeylərin oxşarını özündə də olmasını arzu edər və eyni zamanda onların da malik olduğu şeylərdən məhrum olmalarını istəməz.

Yuxarıda qeyd olunan dörd xüsusiyyətdən üçü mənfi, sonuncu xüsusiyyət isə müsbətdir və buna «qibtə» deyilir. Qibtə nəinki mənfi xüsusiyyət deyil, əksinə insanın əxlaq və mənəviyyatının təkamülünə də səbəb olur. Bəʾzən insan başqalarına qibtə etməklə onların malik olduqları şeyləri əldə etmək üçün zəhmətə qatlaşmalı olur və bununla yanaşı başqalarının da zərər çəkmələrini arzu etmir.

İmam Sadiq (ə) bu haqda buyurur:

Möminlər qibtə edər, lakin həsəd aparmazlar, münafiqlər isə həsəd aparar, lakin qibtə etməzlər.[1]

### *QURANIN HƏSƏDƏ OLAN BAXIŞI*

Allah-taala Peyğəmbərə (s) xitab edərək həsədin Şeytani vəsvəsələrlə eyni olduğunu bildirir:

---

[1] Biharul-ənvar, 73-cü cild, 131-ci fəsil, 7-ci hədis.

***1. «[Ya Peyğəmbər!] De ki: Pənah aparıram sübhün Rəbbinə!***
***2. Yaratdıqlarının [insanların, cinlərin, vəhşi heyvanların] şərindən;***
***3. Zülmətə bürünməkdə olan gecənin [və ya batan ayın, ziyası sönən ulduzların] şərindən;***
***4. [Ovsun oxuyub] düyünlərə üfürən [yaxud cadu edib iplərə düyün vuran] qadınların şərindən;***
***5. Və bir də paxılın şərindən!»***[1]

Başqa bir ayədə Allah-taala möminlərə, başqalarına verilənləri arzu etmələrini tövsiyə edir. Çünki, hər bir insanın nəsibi vardır:

***«Allahın [maddi, yaxud mənəvi cəhətdən] birinizi digərinizdən üstün tutduğu [birinizə digərinizdən artıq vediyi] şeyi [özünüzə] arzulamayın. Kişilərin öz qazandıqlarından öz payı, qadınların da öz qazandıqlarından öz payı vardır. [Dilədiyiniz şeyi] Allahın lütf və mərhəmətindən istəyin! Şübhəsiz ki, Allah hər şeyi olduğu kimi biləndir».***[2]

Digər iki ayədə Allah-taala Peyğəmbərə (s) başqalarına verdiyi nemətləri istəməsini əmr edir:

***«Mən səni [peyğəmbər] seçdim. Sənə vəhy olunanı dinlə!»***[3]

Başqa bir ayədə kitab əhlinin müsəlmanların küfr etmələri üçün göstərdikləri səʾylərə və islamı qəbul etdikləri üçün onlara həsəd etmələrinə işarə olunur:

***«[Ey möminlər!] Kitab əhlindən bir çoxu həqiqət onlara bəlli olduqdan sonra belə, təbiətlərindəki həsəd [paxıllıq] üzündən sizi, iman gətirmiş olduğunuz halda, yenidən küfrə sövq etmək istərlər...»***[4]

## *NƏQL OLUNMUŞ RƏVAYƏTLƏRDƏ HƏSƏD VƏ HƏSƏD EDƏN ŞƏXSLƏR HAQDA*

Peyğəmbər (s)-dan nəql olunur ki, Allah-taala Musa (ə)-a xitab edərək buyurur:

Ey İmran oğlu! Camaata verdiklərimə göz dikib həsəd aparma və nəfsini [gördüklərinə] tabe etmə. Çünki, həsəd aparan şəxslər verdiyim nemətlərdən narazı qalıb bəndələrim arasında böldüyüm nemətləri əldə etmək istəyər.[5]

Peyğəmbər (s) səhabələrə müraciət edərək buyurur:

«Allahın nemətlərinə təcavüz etməyin»

Səhabələr soruşdu:

«Ya Rəsuləllah, kimlər Allahın nemətlərinə təcavüz edərlər?

Buyurdu:

Başqalarına həsəd aparan kəslər.[6]

Əli (ə) buyurur:

Həsəd sağalmayan bir xəstəlikdir.[7]

---

[1] Fələq surəsi.
[2] Nisa-32.
[3] Taha-13.
[4] Bəqərə-109.
[5] Biharul-ənvar, 73-cü cild, 131-ci fəsil, 6-cı hədis.
[6] Biharul-ənvar, 73-cü cild, 131-ci fəsil, 2-ci hədis.
[7] Mustədrək, 12-ci cild, 55-ci fəsil, 13401-ci hədis.

Həsəd ruhun zindanıdır.[1]

Həsəd xəstəliklərin ən ağırıdır.[2]

Həsəd pisliklərin mənbəyidir.[3]

Həsədin verdiyi səmərə dünya və axirət bədbəxtçiliyidir.[4]

Həsədi tərk edənlər insanların ən sevimlisidir.[5]

Həsəd aparan şəxslərə gəldikdə isə, Əli (ə) buyurur:

Həsəd aparan şəxslər bol-bol həsrət çəkər və neçə bərabərində günaha düçar olarlar.[6]

Həsəd aparan şəxslər heç vaxt faydalanmazlar.[7]

Həsəd aparan şəxslərə insanların malik olduqları nemətləri itirmələrindən başqa heç nə rahatlıq gətirmir.[8]

Həsəd aparan şəxslər başqalarının qəm-qüssəsində sevinər, onların sevincində isə kədərlənərlər. (Mustədrək, 12-ci cild, 55-ci fəsil, 13401-ci hədis).

Həsəd aparan şəxslər hər hansı bir şəxsin nə isə əldən verməsini özünə qənimət hesab edər.[9]

Həsəd aparan şəxslər dostluğunu dildə aşkar edər, düşmənçiliyini isə qəlbində gizli saxlayar. Bunun üçün də onların adı dost, xisləti isə düşməndir.[10]

Dostların ən pisi həsəd aparan şəxslərdir.[11]

İmam Sadiq (ə) həsəd aparan şəxslər barədə buyurur:

Paxıl və xəsislər heç nədən rahatlıq tapmadıqları kimi, həsəd aparan şəxslər də heç nədən ləzzət almazlar.[12]

Həsəd aparan şəxslər İblis kimi ziyanı başqalarına vurmazdan əvvəl özlərinə vurarlar. Belə ki, o, Adəmə həsəd aparmaqla özünün lənətlənməsinə, Adəm (ə)-ın isə peyğəmbərliyə seçilməsinə səbəb oldu.[13]

Küfrün əsasını üç şey təşkil edir: Təkəbbür, həsəd və tamah.[14]

Həsədin əsasını Allahın fəzl və kəramətini inkar etmək təşkil edir. Bu iki şey küfrün qanadlarıdır. Adəm övladının əbədi həsrətə və bir daha nicat tapmamasına səbəb olan şey məhz həsəd oldu.[15]

Bu məzmunda nəql olunmuş digər rəvayətlərdə həsəd, imanı zəiflədən və cismi sağlamlığa xələl gətirən amillərdən biri hesab olunur.

Əli (ə) bu haqda buyurur:

---

[1] Ğurərul hikəm, 1-ci cild, 100-ci səh.
[2] Ğurərul hikəm, 1-ci cild, 91-ci səh.
[3] Ğurərul hikəm, 4-cü cild, 50-ci səh.
[4] Mustədrək, 12-ci cild, 55-ci fəsil, 13401-ci hədis.
[5] Biharul-ənvar, 77-ci cild, 9-cu fəsil, 11-ci hədis.
[6] Mustədrək, 12-ci cild, 55-ci fəsil, 13401-ci hədis.
[7] Biharul-ənvar, 73-cü cild, 131-ci fəsil, 4-cü hədis.
[8] Mustədrək, 12-ci cild, 55-ci fəsil, 13401-ci hədis.
[9] Mustədrək, 12-ci cild, 55-ci fəsil, 13401-ci hədis.
[10] Ğurərul hikəm, 2-ci cild, 139-cu səh.
[11] Ğurərul hikəm, 3-cü cild, 253-cü səh.
[12] Biharul-ənvar, 77-ci cild, 105-ci fəsil, 13-cü hədis.
[13] Biharul-ənvar, 73-cü cild, 131-ci fəsil, 23-cü hədis.
[14] Biharul-ənvar, 72-ci cild, 99-cu fəsil, 1-ci hədis.
[15] Biharul-ənvar, 73-cü cild, 131-ci fəsil, 23-cü hədis.

Başqalarına həsəd aparmayın. Alov odunu yandırdığı kimi, həsəd də imanı məhv edib aradan aparır.[1]

Qar suda əriyib yoxa çıxdığı kimi, həsəd də imanı qəlblərdə əridib məhv edir.

Həzrət Peyğəmbər (s) səhabələrə etdiyi tövsiyələrin birində buyurur:

«Agah olun ki, sizdən əvvəlki ümmətin sorağına gələn xəstəlik (həsəd), sizin də sorağınıza gəlmişdir. O, sizin başınızdan bir tük də əskik etməz, lakin dininizi məhv edib aradan aparar.[2]

İmam Sadiq (ə) buyurur:

Dinə xələl gətirəcək şeylər həsəd, xudbinlik və özünü başqalarından üstün tutmaq hissidir.[3]

Əli (ə) həsədi cismi xəstəlik, onun tərk olunmasını isə sağlamlıq hesab edir. Bu haqda buyurur:

Həsəd aparan şəxslər daim xəstə olarlar.[4]

Həsəd cismi süst və zəif edər.[5]

Həsəd aparan şəxslərin sağlamlıqdan xəbərsiz olmaları çox qəribədir.[6]

Cismi sağlamlıq həsədin azalmasından asılıdır.[7]

## *HƏSƏDƏ SƏBƏB OLAN AMİLLƏR*

Həsədin böyük günahlardan olduğu və onun qoyduğu mənfi təsir haqda ümumi məlumat əldə etdik. Belə bir ağır ruhi xəstəlikdən yaxa qurtarmaq üçün insan hər şeydən əvvəl bunun səbəblərini araşdırmalı və onlarla mübarizə aparmalıdır.

Əxlaq alimləri həsədə səbəb olan yeddi əsas amilə işarə etmişlər:

**1. Xəbislik;**

Bir çoxlarında həsədin yaranması xəbislik və paxıllıq hissindən doğur. Heç bir əlaqə və düşmənçiliyin olmasına baxmayaraq, onlar camaatın narahatçılıqlarına sevinər, uğur və müvəffəqiyyətlərinə isə narahat olarlar. Bu səbəbdən də onlar kimsənin öz hədəf və məqsədinə çatmasını arzu etməzlər.

**2. Düşmənçilik;**

Həsədə səbəb olan amillərdən biri də ədavət və düşmənçilikdir. Belə ki, həsəd aparan şəxs düşməninin çətinliklə qarşılaşdığını gördükdə sevinir, onun uğur və müvəffəqiyyət qazandığını gördükdə isə kədərlənir və daxili sarsıntı keçirməyə başlayır.

**3. Məqam və var-dövlət sevgisi;**

Həsədə səbəb olan amillərdən biri də insanın təqribən dəyişilməz həyat tərzi keçirməsindən irəli gəlir. O, qarşısında rəqib gördükdə dərhal ona qarşı həsəd aparmağa başlayır. Məsələn, ən gözəl «sənətkar» adını almış və ya hamıdan daha çox var-dövlət sahibi olan bir şəxs başqa birisinin ondan daha çox şöhrət

---

[1] Biharul-ənvar, 77-ci cild, 14-cü fəsil, 2-ci hədis.
[2] Biharul-ənvar, 73-cü cild, 131-ci fəsil, 20-ci hədis.
[3] Biharul-ənvar, 73-cü cild, 131-ci fəsil, 5-ci hədis.
[4] Mustədrək, 12-ci cild, 55-ci fəsil, 13401-ci hədis.
[5] Ğurərul hikəm, 1-ci cild, 241-ci səh.
[6] Biharul-ənvar, 73-cü cild, 131-ci fəsil, 28-ci hədis.
[7] Biharul-ənvar, 73-cü cild, 141-ci fəsil, 28-ci hədis.

tapmasını və ya daha çox var-dövlət sahibi olduğunu eşitdikdə onlara qarşı həsəd aparmağa başlayır və tez bir zamanda uğursuzluğa düçar olmalarını arzu edir.

**4. Rəqabət;**

Bu hiss adətən yüksək məqam və dərəcəyə nail olmaq istəyən şəxslərdə özünü büruzə verir. Yalnız bir nəfər birinci yerə (və ya ən yüksək məqama) çatdığı üçün başqaları onun yerini tutmaq istədikləri üçün daim ona həsəd apararlar.

**5. Təkəbbür;**

Bəzi həsəd aparan şəxslər təkəbbürlü olduqları üçün başqalarının müvəffəqiyyət və inkişafını görmək istəməzlər. Çünki təkəbbürlü şəxs öz qarşısında hamının kiçilməsini istədiyi üçün, onları özündən aciz görmək istəyir. Belə ki, başqalarının yüksəlməsi onların qarşılarında kiçilmələrinə bir dəfəlik son qoymuş olur.

**6. Xudpəsəndlik;**

Bəzi xudpəsənd insanlar özlərini başqalarından üstün tutduqları üçün başqalarının müvəffəqiyyətinə həsəd apararlar. Xudpəsəndlik təkəbbürdən bir qədər fərqlidir. Belə ki, təkəbbürlü şəxslər özlərinin başqalarından üstün olmağını istəyərlər. Bu dəstəyə aid olanlar isə nə başqalarının onlardan üstün olmalarını istəyər və nə də özləri buna can atarlar.

**7. Təəccüb.**

Bəzi həsəd aparan şəxslər başqalarına hər hansı bir nemət nəsib olduqda, onların əldə etdikləri şeylərə layiq olmadıqlarını görüb buna təəccüb edər və onların əldə etdiklərindən məhrum olmalarını istəyərlər.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Həsədin tərifini deyin.
2. Həsədin növlərini bəyan edin.
3. Qibtə nədir?
4. Nəql olunmuş hədislərdən istifadə etməklə, həsədin münafiq xüsusiyyəti olmasını izah edin?
5. Həsəd imana nə kimi təsir göstərir?
6. Həsədə səbəb olan amilləri ixtisarla bəyan edin.

## İYİRMİ DOQQUZUNCU DƏRS

### *YALAN*

Yalan böyük günah və olduqca mənfi xüsusiyyət olduğu üçün ictimai münasibətlərdə qətiyyətlə pislənmişdir. Yalan, danışanın etimad və etibarını itirməsi ilə yanaşı, cəmiyyətdə etimadsızlıq, şəkk və tərəddüd toxumunu səpir. İnsanların bir-birlərinə etimad etmədikləri bir cəmiyyətdə yaşamaq isə, məlum olduğu kimi dözülməz və acınacaqlıdır.

Yalan, haqqında kifayət qədər ayə və hədis nəql olunmuş mövzulardandır. Haqqında söhbət açılan ayə və hədislərdə yalanın cəmiyyətdə göstərdiyi mənfi təsir və nəticələr haqqında ətraflı danışılmış və onun bir çox günahların mənşəyi olduğu vurğulanmışdır.

Yalan danışmaq olduqca asandır və belə bir günaha düçar olmaq bir o qədər də zəhmət tələb etmir. Lakin təəssüflər olsun ki, insanların bir çoxu hədəf və məqsədlərinə nail olmaq üçün yalan danışmağa üstünlük verirlər. Bir məsələyə də diqqət yetirməliyik ki, görülən hər bir iş mənfəət əldə etmək üçün müəyyən qədər zəhmət çəkilməsini tələb edir. Bu səbəbdən də ən az zəhmətlə böyük mənfəət əldə olunan işlər daha çox əhəmiyyət kəsb edir və insanların çox az bir hissəsi bunun nə kimi mənfi təsir qoyacağına diqqət yetirir. Onları maraqlandıran yalnız əldə edəcəkləri dünyəvi xeyir və mənfəətlərdir. Bunları nəzərə alaraq deyə bilərik ki, zəhmət tələb olunmayan xoşagəlməz iş və xüsusiyyətlərdən biri də yalan danışmaqdır. Belə ki, yalan danışmaqla bəzən hədəfə daha tez çatmaq olur və bu kimi hallarda bunun nə ilə nəticələnəcəyinə diqqət yetirən çox az olur. Yalan məhz belə bir mənfi xüsusiyyətə malik olduğu üçün Məsum imamların nəzərindən qaçmamış, buyurduqları hədis və rəvayətlərdə yalanın olduqca ağır ictimai xəstəliklərdən olduğuna işarə etmişlər. Hədis və rəvayətlərlə yanaşı, Qurani-Kərimin bir çox ayələrində yalanın böyük günah və yalançıların şiddətli əzaba düçar olacaqları haqda söhbət açılmışdır.

### *YALANIN TƏRİFİ*

Yalan — Həqiqət və inamın əksinə olan şeylərə deyilir. Demək yalanın iki əsas şərti vardır. Onlardan biri deyilənlərin həqiqətə uyğun gəlməməsi, digəri isə insanın elm və məlumatları ilə əldə olunan inam və etiqadla müvafiq olmamasıdır. Bir şəxs özünün həqiqət hesab etdiyi həqiqətə uyğun olmayan bir söz deyərsə yalan hesab olunmamalıdır. Əhəmiyyət doğuran məsələlərdən biri də budur ki, danışılan sözün yalan olması mümkün olduğu kimi, bə᾽zi iş və əməllərin də yalan olması mümkündür. Məsələn, hər hansı bir şəxsin özünü şəxsiyyətli bir insan kimi göstərməsini, amma həqiqətdə heç də elə olmadığını buna misal çəkmək olar. Demək yalan həm sözdə, həm də əməldə ola bilər. Yuxarıda verilən tərif onların hər birinə şamil olur.

## *QURANIN YALANA OLAN BAXIŞI*

Bir qədər əvvəl qeyd etdik ki, Quranın bir çox ayələrində yalan və onun müxtəlif yönləri haqda söhbət açılmış və insanın bu mənfi xüsusiyyəti tərk etməsinə təkid olunmuşdur. Biz onlardan bir neçəsinə işarə edirik:

1. Həcc surəsinin 30-cu ayəsində Allah-taala insanları bütlərə pərəstiş etməkdən çəkinmələrini əmr etməklə yanaşı, yalandan da çəkinmələrini əmr edir:

***«...Bütlərdən qaçının, yalan sözlərdən də [Allaha şərik qoşmaqdan da] çəkinin.»***

2. Nəhl surəsinin 105-ci ayəsində yalan danışmağın imansızlıqla bərabər olduğu göstərilir:

***«Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydururlar. Onlar əsil yalançıdırlar!»***

3. Zumər surəsinin 3-cü ayəsindən belə qənaətə gəlmək olur ki, yalançılar Allahın hidayətindən məhrum və aqibətləri acınacaqlı olan şəxslərdir:

***«...Allah yalançı, nankor olan kimsəni doğru yola müvəffəq etməz».***

Başqa bir ayədə buyurur:

***«...Şübhəsiz ki, Allah [Ona şərik qoşmaqla, böhtan atmaqla] həddi aşanı və yalançını doğru yola müvəffəq etməz».***[1]

4. Allahın hidayətindən məhrum olan kəslər Onun qəzəb və lənətinə düçar olarlar. Ali-İmran surəsinin 61-ci ayəsində Peyğəmbərlə (s) məsihilər arasında yaranmış qarşıdurma haqda söhbət açılarkən Nəcran keşişlərinə xitab edilərək buyurulur:

***«...Sonra [Allaha] yalvarıb yalançılara Allahın lənət etməsini diləyək!»***

Başqa bir ayədə deyilir:

***«...Əgər yalan deyirəmsə, Allah mənə lənət eləsin!...»***[2]

## *YALAN - HƏDİS VƏ RƏVAYƏTLƏRDƏ*

1. Hədislərin bir çoxunda yalan «imanı aradan aparan» və bu kimi digər ifadələrlə bəyan edilir.

Peyğəmbər (s) buyurur:

Çox yalan danışmaq imanı məhv edib aradan aparır.

Başqa bir hədisdə buyurur:

Yalan danışmaqdan çəkinin. Çünki yalan insanı imandan uzaqlaşdırır.[3]

Əli (ə) buyurur:

Yalandan uzaq olun. Çünki yalan insanı imandan uzaqlaşdırır. Daim həqiqəti söyləyən sadiq insanlar hidayət yoluna qədəm qoyarlar, yalançılar isə bədbəxtçilik və rüsvayçılıqla üzləşərlər.[4]

Nəql olunmuş bir çox rəvayətlərdə deyilir ki, yalan, möminlərə xas olmayan bir xüsusiyyətdir. Onlar bu günaha çox nadir hallarda düçar olarlar. Yalançılar isə bunu özlərinə peşə edərlər. Həsən ibni Məhbubdan nəql olunan rəvayətdə deyilir:

---

[1] Mumin-28.
[2] Nur-7.
[3] Kənzul ummal, 3-cü cild, 620-ci fəsil, 8206-cı hədis.
[4] Biharul-ənvar, 77-ci cild, 14-cü fəsil, 2-ci hədis.

İmam Sadiq (ə)-dan soruşdum: Mömin paxıl ola bilərmi? Buyurdu: «Bəli». Soruşdum: Bəs yalançı necə? Buyurdu: Xeyr, mömin xain ola bilməz. Sonra sözlərinə davam edərək buyurdu:

Mömin hansı xasiyyətə malik olsa da, xain və yalançı ola bilməz.[1]

2. Yalanın bütün pisliklərin amili olduğu haqda deyilir:

Yalan insanları pisliklərə, pisliklər isə cəhənnəmə sövq edər.[2]

İmam Həsən Əskəri (ə) buyurur:

Günah və pisliklərin açarı yalan olan evlərdə olar.[3]

3. Digər rəvayətlərdə yalanın ən pis əxlaqi xüsusiyyətlərdən biri olduğu göstərilir. Əli (ə) bu haqda buyurur:

Yalan danışmaqdan çəkinin, çünki ən pis əxlaqi xüsusiyyətlərdən olan yalan, pozğunçuluğun bir növüdür.[4]

Yalan danışmaq ən pis əxlaqi xüsusiyyət və insanlar arasında nifaq salmaqdır.[5]

Yalançılıqdan pis adət yoxdur.[6]

Peyğəmbər (s) buyurur:

Ən böyük cinayət yalan danışmaqdır.[7]

Başqa bir yerdə buyurur:

Ən böyük xəyanət odur ki, mömin qardaşın sənin danışdığın sözləri təsdiq edə, sən isə ona yalan satmış olasan.[8]

Həzrət Əli (ə) buyurur:

Düzlük əmanətdarlıq, yalançılıq isə xəyanətdir.[9]

Başqa bir yerdə buyurur:

Sözlərin ən pisi yalandır.

Həmçinin buyurur:

İmanın nişanələrindən biri də budur ki, ziyanına olsa belə, düz sözü xeyrinə olan yalandan üstün tutasan.

İmam Sadiq (ə) buyurur:

Ağıllı insanlar yalan danışmaz, əgər onların xeyrinə olsa belə.

## *QURANDA DÜZLÜK VƏ SƏDAQƏT*

İslamın yalana olan münasibəti bəlli oldu. Burada düzlük və sədaqət barədə də söhbət açmağı məqsədəuyğun hesab edirik. Tövbə surəsinin 119-cu ayəsində deyilir:

***«Ey iman gətirənlər! Allahdan qorxun və [imanında, sözündə, işində] doğru olanlarla olun!...»***

---

[1] Biharul-ənvar, 75-ci cild, 58-ci fəsil, 11-ci hədis.
[2] Biharul-ənvar, 72-ci cild, 114-cü fəsil, 24-cü hədis.
[3] Biharul-ənvar, 72-ci cild, 114-ci fəsil, 48-ci hədis.
[4] Biharul-ənvar, 78ci cild, 16-cı fəsil, 157-ci hədis.
[5] Ğurərul hikəm, 4-cü cild, 166-cı səh.
[6] Ğurərul hikəm, 6-cı cild, 380-cı səh.
[7] Biharul-ənvar, 21-ci cild, 211-ci səh, 2-ci rəvayət, 29-cu fəsil.
[8] Kənzul ummal, 3-cü cild, 620-ci fəsil, 8210-cu hədis.
[9] Biharul-ənvar, 69-cu cild, 38-ci fəsil, 35-ci hədis.

Başqa bir ayədə isə Allah-taala düz danışan və düz yolda olanlara böyük nemət (Cənnəti) müjdə verir:

***«Allah buyurdu: Bu, [qiyamət günü] elə bir gündür ki, düz danışanlara düzlükləri fayda verər. Onları [ağacları] altında çaylar axan cənnətlər gözləyir. Onlar orada əbədi olaraq qalacaqlar. Bu, [möminlər üçün] böyük uğur və qurtuluşdur!»[1]***

Peyğəmbər (s) bu haqda buyurur:

Qiyamət günü sizlərdən mənə ən yaxın olanınız düz danışanlarınızdır.

Əli (ə) buyurur:

Düz danışmaq böyük şərəf və ucalıqdır.

Başqa bir yerdə buyurur:

Düz danışmaq ədalətlə qardaşdır.

İmam Sadiq (ə) buyurur:

Allah elə bir peyğəmbər göndərməmişdir ki, düz danışan və əmanətdar olmasın.

## *İCAZƏ VERİLƏN YALANLAR*

Yalan böyük günahlardan olmasına baxmayaraq, bəzi zəruri hallarda həqiqətin gizli saxlanılması və yalanın həqiqət kimi qələmə verilməsinə icazə verilir. Dərsimizin sonunda onların hər biri haqda ayrı-ayrılıqda söhbət açmağı məqsədəuyğun hesab edirik:

**1. Zəruri hallar;**

Bəzən can, mal, şəxsiyyət böyük təhlükə ilə qarşılaşdıqda yalan danışmaqdan savayı heç bir çıxış yolu qalmır və bu kimi hallarda yalan danışmağa icazə verilir.

Qurani-Kərim ikrah və çarəsizlik üzündən, habelə təzyiq altında qalan şəxslərin qəlbən Allaha iman gətirib, dildə küfr etmələrindən qəmgin olmamalarını istəyir. Nəhl surəsinin 106-cı ayəsində [bu şəxslərə təskinlik verilərək] deyilir:

***«...[Küfr sözünü deməyə] məcbur edilən [dil ilə deyib ürəyində onu təsdiq etməyən] şəxs istisna olmaqla...»***

Peyğəmbər (s) bu haqda buyurur:

«İztirari hallarda (çıxılmaz vəziyyətdə) Allah-taalanın halal etmədiyi bir şey yoxdur».

Qeyd etdik ki, çarəsizlik dedikdə, insanın istər canı, istər malı, istərsə də şəxsiyyəti ciddi təhlükə ilə qarşılaşmış olsun. Cüzi və bir o qədər əhəmiyyət kəsb edən məsələlərdə isə yalan danışmağa heç bir zərurət yoxdur.

**2. İslah və vasitəçilik;**

Tərəflər arasında (məsələn, ailə və dostlar arasında) ixtilaf və anlaşılmamazlıqların aradan qaldırılmasında — başqa heç bir çıxış yolu olmadıqda — yalan danışmağın heç bir nöqsanı yoxdur. Bu kimi hallarda düz danışıb tərəflər arasında ədavət və düşmənçiliyin daha da güclənməsinə səbəb olmaq isə günah və olduqca nalayiq bir işdir.

Peyğəmbər (s) Əli (ə)-a tövsiyə edərək buyurur:

---

[1] Maidə-119.

Ey Əli! Allah, tərəflər arasında sülh və əmin-amanlıq məqsədilə yalan danışmağı sevər, həqiqəti deyib ixtilafların daha da güclənməsinə isə nifrət edər.

**3. Döyüş zamanı [düşməni] aldatmaq məqsədilə deyilən yalanlar;**

İslamda rəğbətlə qarşılanan hərbi taktikalardan biri də düşmənin aldadılmasıdır. Düşmənin nizam-intizamını pozmaq və ya hərəkət istiqamətini dəyişmək məqsədilə yalan demək, halal və bəzi hallarda zəruri məsələlərdən birinə çevrilir. Peyğəmbər (s) bu haqda Əli (ə)-a buyurur:

Üç halda yalan danışmaq olar. Onlardan biri də döyüş zamanı [düşmənə] kələk gəlməkdir.

**4. Zarafat məqsədilə deyilən yalanlar.**

İnsanların bir çoxu zarafat etdikləri zaman yalan danışır və beləliklə başqalarının könlünü almaq istəyirlər. Bu kimi hallarda onlardan «nə üçün yalan danışırsan!» -deyə, soruşduqda deyərlər: Yalan demirəm, sadəcə olaraq zarafat edirəm. Lakin diqqət yetirmək lazımdır ki, xoşagəlməz bir iş kimi zarafat və ya yalanın ciddi olması arasında heç bir fərq yoxdur. Onların hər ikisi mənfi və olduqca xoşagəlməz xüsusiyyətdir. Peyğəmbər (s) buyurur:

Yalan istər ciddi olsun, istərsə də zarafat, haram və yol verilməzdir.

Başqa bir hədisdə buyurur:

Vay camaatı güldürmək məqsədilə yalan danışanların halına! Vay onların halına!

İmam Baqir (ə) buyurur:

Yalandan, istər böyük olsun, istər balaca və istər ciddi olsun, istərsə də zarafat məqsədilə, uzaq olun.

## *TÖVRİYYƏ*

Tövriyyə — terminalogiyada iki mənalı (həqiqi və qeyri- həqiqi) cümləyə deyilir. Belə ki, hər hansı bir sözü və ya cümləni özünün həqiqi mənasında deməsinə baxmayaraq, dinləyici tam başqa bir məna götürmüş olsun. Tövriyyə özü-özlüyündə yalan deyildir. Lakin ondan əldə olunan təsəvvür yalana bənzəyir. Bu səbəbdən də düzünü demək istəmədiyimiz, eyni zamanda yalan danışmaq istəmədikdə də dediklərimizi «tövriyyə» şəklində bəyan edə bilərik. Məsələn, birisi tanışlarınızdan birini axtardığı zaman onun dəqiq yerini bildirmək istəmədikdə belə deyə bilərsiniz: Onu məsciddə gördüm. Siz həmin şəxsi bir həftə əvvəl məsciddə görmüş olsanız belə, düzünü demiş olursunuz. Həmin şəxs isə onun hal-hazırda məsciddə olduğunu güman edib oraya doğru gedir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Yalanın tərifini deyin.
2. Yalanın hansı mənfi xüsusiyyəti diqqəti daha çox cəlb edir?
3. Quranın yalançılara olan baxışını izah edin.
4. Nəql olunmuş hədis və rəvayətlərdə yalan necə vəsf olunur?
5. Hansı hallarda yalan danışmağa icazə verilir?
6. Zarafat məqsədilə yalan danışmaq olarmı?
7. Tövriyyə nə deməkdir?

## OTUZUNCU DƏRS

### *DƏRSİN SONU*

Dediklərimizdən belə bir nəticəyə gəlmək olur ki, insanların xoşbəxt həyat və səadətə nail olmaları üçün yaşadıqları hər bir cəmiyyətdə bir-birləri ilə gözəl və səmimi münasibətdə olmalıdırlar. Bilidiyimiz kimi Məsum imamlar (ə) istisna olmaqla, hər bir insan nisbi olaraq müəyyən eyb və çatışmazlıqlara malikdir. Onlar bu çatışmazlıqların aradan qaldırılmasında bir-birlərinə ehtiyac duyurlar. Belə ki, kimsə özünün maddi və mənəvi ehtiyaclarını təmin edib ideal hədəfə (kamala) çatmağa qadir deyildir. Maddi ehtiyacları ilə yanaşı, hər bir insanın ruhi və mənəvi ehtiyacları da vardır. Maddi ehtiyacların aradan qaldırılmasında gecəsini gündüzünə qatsa da, mənəvi ehtiyaclarını təkbaşına təmin etməyə əsla qadir deyilidir. Bütün bunlarla yanaşı onun elmi-mə᾽nəvi ehtiyacları da vardır. Bu və digər ehtiyacların aradan qaldırılmasında o yenə də başqalarının elm və təcrübəsinə böyük ehtiyac duyur.

Bir sözlə o, başqalarının elm və təcrübələrindən istifadə etmək və müştərək həyat tərzi keçirməklə kamil insana çevrilə bilər. Bunu da nəzərdən qaçırmamalıyıq ki, hər bir müsəlman şeytani vəsvəsələrdən ilham alan mənfur islam düşmənlərinin çirkin niyyətlərindən agah olmalı və gözlənilən hər bir təhlükənin qarşısında bir nəfər kimi mübarizəyə hazırlaşmalıdırlar.

Peyğəmbər (s) bu haqda buyurur:

Müsəlmanlar düşmən qarşısında bağlı yumruğa bənzəyirlər.

Məlum məsələdir ki, birlik və vəhdətə nail olmadıqda düşmən qarşısında mübarizə aparmaq olduqca çətin və bir çox hallarda isə qeyri-mümkün olur. Bunun üçün də ixtilaf və pərakəndəliyə düçar olmasınlar deyə, Allah-taala müsəlmanları birlik və vəhdətə çağırır:

***Allaha və Onun Peyğəmbərinə itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa qorxub zəifləyər və gücdən düşərsiniz. Səbr edin, çünki Allah səbr edənlərlədir».*** [1]

Başqa bir ayədə təfriqə və ixtilafın Firona xas olan xüsusiyyətlərdən biri olduğu bildirir:

***«Həqiqətən, Firon yer üzündə [Misirdə] baş qaldırıb onun əhalisini zümrələrə bölmüşdür. Firon onların arasında olan bir tayfanı [İsrail oğullarını] gücsüz, aciz görüb....».*** [2]

Hakimiyyətini qoruyub saxlamaq üçün yerli əhalini müxtəlif zümrə və firqələrə bölür və aralarında ixtilaf və çəkişmələr salmaqla onlarda səltənətə qarşı mübarizə hissini məhv edir. Bu səbəbdən də Quran, möminlər arasında ixtilaf və qarşıdurmaların Şeytani vəsvəsə olduğunu bildirir:

***«Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət və kin salmaq istər....».*** [3]

Əli (ə) bu haqda buyurur:

---

[1] Ənfal-46.
[2] Qəsəs-4.
[3] Maidə-91.

Birliyə nail olmayan heç bir millət həmrə'ylik əldə etməmiş və onlarda vətənpərvərlik hissləri güclənməmişdir. Bu qüdrətə malik olan bütün millətləri dərd-bəladan və çətinliklərdən qoruyub saxlamış və onları öz hədəflərinə doğru hidayət etmişdir.

Nəhcül-bəlağənin «Qasiə» adlı 234-cü xütbəsində Əli (ə) səhabələrə keçmiş millətlərin aqibətlərini mütaliə etməyi və onların təfriqə və ixtilaflar nəticəsində zərər çəkmələrindən ibrət almalarını tövsiyə edərək buyurur:

Xeyir və şərinizdə keçmiş ümmətlərin başına gələn müsibətlərdən ibrət alıb onlar kimi olmaqdan çəkinin. Onlar barədə düşünüb daşındıqda bu məsələyə diqqət yetirin ki, əgər onlar düşmənləri qarşısında müqavimət göstərə bilmişlərsə, bunu yalnız və yalnız təfriqə və ixtilafları kənara qoyub birliyə nail olmaqla əldə etmişlər. Onların məğlubiyyətinə səbəb olan şeylərdən (kin-küdurət, həsəd, bir-birlərinə arxa çevirmək və s.) uzaq olun.

Keçmiş möminlərin sərgüzəştlərinə nəzər salın və bəla nazil olarkən onların hansı şəraitdə olmalarına diqqət yetirin. Məgər onlar başqalarından ağır və acınacaqlı şəraitdə yaşamırdılarmı? Fironlar onları əsarətə alır və ağır işgəncələr verirdilər. Daim təhqir və təcavüzlərə məruz qalır və özlərini müdafiə etməyə heç bir hüquqa malik deyildilər. Sonsuz əzab-əziyyətlərə sinə gərib səbr etdikləri üçün Allah-taala onları qorxu və rəzilətdən çıxarıb şərəfli azad həyata qovuşdurdu. Onlar öz ümmətlərinə rəhbər təyin olunaraq, onların hidayət olmalarını öz öhdələrinə götürdülər. Unutmayın ki, əgər vahid amal uğrunda çalışmasaydılar, belə bir şərəf və kəramətə nail olmazdılar. Belə bir şəraitdə onlar bir çox yerlərin malik və padşahları deyildilərmi? Bir anlıq onların aqibətlərinə nəzər salın. Aralarında təfriqə düşdüyü ilk gündən müxtəlif təriqət və zümrələrə bölünüb bir-birlərinə qatı düşmən kəsildilər. Ardı-arası kəsilməyən müharibələrdə bir-birlərinin var-dövlətini talan edib minlərlər günahsız insanın qanını tökdülər. Nəhayət Allah-taala vüqar və şərafət libasını onların vücudlarından çıxartdı. Bəxş etdiyi nemətlərdən məhrum etdi. Sizlərə isə onların ibərtamiz sərgüzəştləri qalmışdır.

Əli (ə)-ın hikmətlə dolu tövsiyələrinə nəzər saldıqda belə bir qənaətə gəlirik ki, çətinlikləri aradan qaldırıb iqtidar və asudə həyata nail olmaq üçün mövcud təfriqə və ixtilafları kənara qoyub nəyin bahasına olursa-olsun vəhdət və həmrə'yliyə nail olmaq lazımdır. Əli (ə) bütün millətlərin fəqir və yoxsulluğa, qorxu və məğlubiyyətə uğramalarını məhz yaranmış ixtilaf və təfriqələrdə görür.

Haqqında söhbət açdığımız mövzulardan belə bir nəticəyə gəlirik ki, islam dinində ictimai münasibətlərin bünövrəsi dostluq, məhəbbət, qardaşlıq, qarşılıqlı münasibətlər, etimad, maddi və mənəvi yardım və qarşılıqlı razılıqlar əsasında qoyulmuşdur. Bütün bunlardan yeganə məqsəd layiqincə itaət edib Allahın razılığını qazanmaqdır. Əgər islam öz sadiq davamçılarını qeybət və məsxərə etməkdən, töhmət vurmaqdan çəkindirirsə, bunu onların şəxsiyyət və mənəviyyatlarına xələl gəlməməsi üçün edir. Əgər onları sui-zənn, həsəd və bu kimi digər xüsusiyyətlərdən çəkindirirsə, bunu aralarında düşmənçilik və ədavət toxumu səpilməsin deyə edir. Əgər möminlərə bir-birləri ilə gülərüz və xoş əxlaqla davranmalarını tövsiyə edirsə, bunu aralarındakı dostluq və səmimiyyətin güclənməsi üçün edir. Əgər onlara vaxtaşırı bir-birlərinin görüşünə getmələrini

tövsiyə edirsə, bunu aralarındakı çətinliklərin aradan qaldırılması, sevinc və kədərlərində bir-birləri ilə şərik olmaları və aralarındakı qardaşlıq və həmrə᾿yliyin artması üçün edir. Yalnız belə bir şəraitdə möminlər Allahın onlara əmr etdiyi vəhdətə nail olub başqaları üçün nümunəyə çevrilə bilərlər. Çünki Allah-taala məhz müsəlman ümmətinin başqalarına nümunə olmasını istəmişdir:

***«[Ey müsəlmanlar!] Beləliklə də sizi orta [ədalətli və seçilmiş] bir ümmət etdik ki, insanların əməllərinə [qiyamətdə] şahid olasınız...»***[1]

Başqa bir ayədə deyilir:

***«[Ey müsəlmanlar!] Siz insanlar üçün zahirə çıxarılmış ən yaxşı ümmətsiniz...»***[2]

Ayə söz və əməldə başqalarına nümunə olan ümmətə dəlalət edir. Elə bir ümmət ki, etdiyi tövsiyə və nəsihətləri məntiqi, rəftar və davranışları isə ədalətli olsun.

İmam Sadiq (ə) öz səhabələrinə tövsiyə edərək buyurardı:

İnsanları danışıqsız hidayət edin.

Yəni, öz əməllərinizlə onlara nümunə olun.

Deyilən hər bir söz yalnız o zaman öz həqiqi dəyərini tapa bilər ki, insanın gözəl əməlləri ilə uyğun olsun. Bəs əgər islamın günbəgün ucalmağını, müsəlmanların vüqarlı və başı uca olmalarını və başqalarının islama meyl etmələrini istəyiriksə, bu müqəddəs dinin ruhunu özümüzdə yaşadıb öz əməllərimizlə başqalarına nümunə olmalıyıq. Əks təqdirdə, qeyri müsəlmanlar bir-birimizlə ixtilafda olduğumuzu və aramızda hökm sürən soyuqluğu görüb islam və Qurana qarşı etinasız olar, müsəlman ümmətindən uzaq düşərlər. Digər tərəfdən də islam və müsəlmanların təfriqə və ixtilafa düçar olmasını istəyən bəzi mənfur ünsürlər islamın zəifləməsi və ümmətin müxtəlif təriqət və zümrələrə bölünməsi üçün əllərindən gələni əsirgəməzlər.

İslam dinindəki münasibətlərin ən başlıca hədəflərini ixtisarla üç hissəyə bölmək olar:

1. İslam ümmətinin şərafət və iqtidarının qorunub saxlanılması və müsəlmanlar arasında birlik və həmrə᾿yliyə nail olmaq;
2. Nümunəvi əxlaq və davranışa yiyələnməklə digər ümmətlərin islama dəvət olunmalarında göstərilən səy və cəhdlər;
3. Möminlərin dünya və axirət səadətinə nail olmaları üçün qarşılıqlı həmkarlıq göstərmələri.

Bütün bunlara müsəlmanların qarşılıqlı hörmət və səmimi münasibətləri nəticəsində nail olmaq olar.

---

[1] Bəqərə-143.
[2] Ali İmran-110.

## OTUZ BİRİNCİ DƏRS

## *İSLAMDA ELM VƏ ALİMİN FƏZİLƏTİ*

İslam dini həyatın bütün sahələrində olduğu kimi, təlim və təhsil sahəsində də bəzi üsul və qanunlar müəyyən etmişdir. Onlardan bəziləri müəllimlərin tədrisinə, bəziləri şagirdlərin əxlaq və davranışlarına, bəziləri də şagirdlərlə müəllimlərin qarşılıqlı münasibətlərinə aiddir.

Növbəti dərslərimizdə bu haqda ətraflı söhbət açacağıq. Lakin hər şeydən əvvəl diqqətinizi islamın elm sahiblərinə verdiyi qiymətə cəlb edirik.

## *QURANIN ELM VƏ ALİMLƏRƏ VERDİYİ QİYMƏT*

1. Peyğəmbərə (s) nazil olan ilk ayələrdə Allah-taala yaradılışın necəliyi haqda xəbər verdikdən sonra, bəşəriyyətə bəxş olunan ilk nemətin məhz elm olmasını buyurur.

***«[Ya Peyğəmbər! Qurani-kərimi bütün məxluqatı] yoxdan yaradan Rəbbinin adı ilə [Bismillah deyərək] oxu!***

***O, insanı laxtalanmış qandan yaratdı.***

***[Ya Peyğəmbər!] Oxu! Sənin Rəbbin ən böyük Kərəm sahibidir!***

***O Rəbbin ki qələmlə [yazmağı] öyrətdi.***

***O Rəbbin ki, insana bilmədiklərini öyrətdi».***[1]

2. Allah-taala elm sahiblərini başqalarından üstün tutur.

***«...Allah da sizdən iman gətirənlərin və [xüsusilə] elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın...»***[2]

3. Hikmət sahiblərinə böyük nemət nəsib olmuşdur.

***«...Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir...»***[3]

Hikmətə nail olmağın yollarından biri də elm və agahlıq əldə etməkdir.

4. Quran nöqteyi-nəzərindən elm sahibləri beş xüsusiyyətə malikdirlər:

a). İman; ***«...Elmdə qüvvətli olanlar isə: Biz onlara iman gətirdik, onların hamısı Rəbbimiz tərəfindəndir...»***[4]

b). Tövhid; ***«Allah Özündən başqa heç bir tanrı olmadığına şahiddir...»***[5]

v). Allah qorxusundan qəm-qüssə; ***«Ondan əvvəl elmə çatmış kəslər yanlarında Quran oxunduğu zaman üzü üstə səcdəyə qapanarlar.»***[6]

q). Təvazökarlıq; Yuxarıdakı ayələrdə bu haqda danışıldı.

---

[1] Ələq 1-5.
[2] Mücadilə-11.
[3] Bəqərə-269.
[4] Ali-İmran-7.
[5] Ali-İmran-18.
[6] İsra 107-109.

d). Qorxu. *«...Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar...»*[1]

## *PEYĞƏMBƏRİN (S) KƏLAMLARINDA ELM VƏ ALİMİN DƏYƏRİ*

1. «Allah-taala xeyir və səadətini istədiyi şəxsləri öz dinində idrak və düşüncə sahibi edər.»[2]

2. «Ümmətimin alimləri Bəni-İsrail peyğəmbərləri ilə bərabərdirlər».[3]

3. «Alimlər peyğəmbərlərin varisləridir».[4]

4. «Göylərdə və yerdə olanların hamısı alimlərin bağışlanmasını istəyər».[5]

5. «Alimlər insanları peyğəmbərlərin gətirdikləri şəriətlə hidayət etdikləri, mücahidlər isə peyğəmbərlərin gətirdiklərinin təlim olunmasının keşiyində durduqları üçün peyğəmbərlik məqamına ən yaxın olan kəslərdir».[6]

6. «Qiyamət günü alimlərin mürəkkəbi şəhidlərin qanı ilə ölçülər».[7]

7. «Həqiqətən yer üzünün alimləri göydəki ulduzlara bənzəyərlər. Onların gecənin qaranlığında dəniz və quruda saçdıqları işıqla insanlar öz yollarına davam edər, söndükdə isə yolu azmaq təhlükəsi ilə qarşılaşarlar».[8]

8. «Allah-taala İbrahim (ə)-a vəhy edərək buyurdu: «Ey İbrahim! Həqiqətən Mən Özüm aliməm, alimləri də sevirəm».[9]

9. «Bir alimin ölümü bir qəbilənin ölümündən daha ağırdır».[10]

10. «Alimlərin məqamı abid və pəhrizkarların məqamından yetmiş dəfə ucadır. Onlar arasındakı məsafə o qədər böyükdür ki, çapar atlar bu iki məqamın arasını yetmiş ilə qət edərlər. Alimlərin onlardan üstün olmaları bundan irəli gəlir ki, abidlər ibadətlə məşğul olduqları bir halda Şeytan bidətçilik məqsədilə onları haqq yoldan azdırmaq istərkən, yayılmaqda olan bidətin qarşısını məhz alimlər alarlar».[11]

11. «Min abidin mövcud olmasına  dözmək, Şeytan üçün bir alimin mövcud olmasına dözməkdən daha asandır».[12]

12. «Allah-taala, dinini öyrənmək üçün səʾy edən şəxslərə güman etmədiyi yerdən ruzi verib ehtiyacsız edər».[13]

13. «Qiyamət günü üç dəstəyə şəfaət edərlər: Peyğəmbərlər, alimlər və şəhidlər».[14]

---

[1] Fatir-28.
[2] Səhih Buxari, Elm fəsli-70.
[3] Biharul-ənvar, 2-ci cild, Elm kitabı.
[4] Sünəni İbni Macə, 1-ci cild, 17-ci bab, 223-cü hədis.
[5] Sünəni ibni Davud, 2-ci cild, səh-285.
[6] Ehyaul-ülum, Ğəzzali, Elm kitabı.
[7] Həmən mənbə.
[8] Kənzül-ümmal, 28769-cü hədis.
[9] Ehyaul-ülum, Ğəzzali, Elm kitabı. Əsqəlanidən nəql olunur.
[10] Ehyaul-ülum, Ğəzzali, Elm kitabı, Təbəranidən nəql olunur.
[11] Əttrəğib-vəttərhib, 1-ci cild, səh-102, 36-cı hədis.
[12] Sünəni Termezi, Elm kitabı, 11-ci bab, 2681-ci hədis.
[13] Ehyul-ülum, Ğəzzali, Elm kitabı, Xətibdən nəql olunur.
[14] Sünəni ibni Macə, 1209-cu hədis.

14. «Ən gözəl sədəqə odur ki, insan elm öyrənib onu müsəlman bacı-qardaşlarına da təlim etsin».[1]

15. «Mələklər, hətta qarışqa və dənizdəki balıqlar da insanlara elm öyrədib haqq yolu göstərənləri alqışlayarlar».[2]

16. «Alimlərin üzlərinə nəzər salmaq ibadətdir».[3]

17. «Alimin dünyadan köçməsi islam dinində elə bir boşluq yaradır ki, gecə və gündüzün bir-birinin yerini dəyişməsi bu boşluğu doldurmur».[4]

## *PEYĞƏMBƏRİN (S) KƏLAMLARINDA ŞAGİRD VƏ TƏLƏBƏLƏRƏ VERİLƏN QİYMƏT*

1. «Elm öyrənmək hər bir müsəlmana vacibdir».[5]2. «Elm Çində olsa belə öyrənin. Çünki elm öyrənmək hər bir müsəlmana vacibdir».[6]

3. «Allah-taala elm dalınca gedib onu əldə edən şəxslərə iki mükafat, elm dalınca gedib onu əldə edə bilməyənlərə isə bir mükafat bəxş edər».[7]

4. «Allahın Cəhənnəm odundan nicat tapmış şəxsləri görmək istəyənlər tələbələrə nəzər salsın. And olsun canım əlində olan Allaha! Elə bir tələbə yoxdur ki, elm əldə etmək üçün alimlərin yanına gediş-gəliş etdikləri zaman atdıqları hər bir addım bir illik ibadətin savabını qazanmamış olsun. Atdığı hər bir addımın müqabilində Cənnətdə onun üçün bir ev tikilər. Üzərinə qədəm basdığı yer belə Allah-taaladan onun bağışlanmasını istər. Gününü başa vurmaqla Allah-taala onun bütün günahlarını bağışlayıb əfv edər. Mələklər şəhadət verərlər ki, onlar Allahın Cəhənnəm odundan nicat verən kəslərdir».[8]

5. «Elmə yiyələnənlər, sanki gündüzləri oruc tutub gecələrini ibadətlə keçirərlər. Elmdən nəisə öyrənmək onun üçün Əbu Qubeys dağı boyda qızıl ehsan etməkdən daha xeyirlidir».[9]

6. «Elm məqsədilə evindən xaric olan şəxs qayıdanadək Allah yolunda olar».[10]

7. «Nadanlar arasında olan tələbə, ölülər arasında olan diriyə bənzəyər».[11]

8. «Elm öyrənərkən dünyasını dəyişən tələbə şəhadətə nail olmuş olar».[12]

9. «İslamın dirçəlişinə səbəb olan, elmə yiyələnən şəxslərlə, Cənnətdə peyğəmbərlər arasında yalnız bir dərəcə fasilə olar».[13]

10. «Mələklər tələbələrin əldə etdiklərini elmə razılıq əlaməti olaraq öz qanadlarını onların ayaqları altına salarlar».[1]

---

[1] Sünəni ibni Macə, 20-ci bab, 243-cü hədis.
[2] Kənzül-ümmal, 28736-cı hədis.
[3] Biharul-ənvar, 1-ci cild, Elm kitabı.
[4] Kənzül-ümmal, 28761-ci hədis.
[5] Sünəni ibni Macə, 1-ci cild, 17-ci bab, 224-cü hədis.
[6] Kənzül-ümmal, 28697-ci hədis, Biharul-ənvar, 1-ci cild, Elm kitabı.
[7] Əttərğib-vəttərhib, 1-ci cild, səh-96.
[8] Fəxri Razinin təfsiri, 2-ci cild, səh-180.
[9] Fəxri Razinin təfsiri, 2-ci cild, səh-180.
[10] Sünəni Termezi, 1647-ci hədis.
[11] Kənzül-ümmal, 28726-cı hədis. Biharul-ənvar, 1-ci cild, Elm kitabı.
[12] Əttərğib-vəttərhib, 1-ci cild, səh-97.
[13] Kənzül-ümmal, 28833-cü hədis.

11. «Elm öyrənmək məqsədilə səfərə çıxan şəxsləri Allah-taala Cənnətin yollarından birinə hidayət edər».[2]

12. Nəql olunmuş rəvayətlərdən birində deyilir: Bir gün Peyğəmbər (s) məscidə daxil olub orada bəzilərinin ibadət, bəzilərinin də öyrənməklə məşğul olduğunu görüb buyurur: «Onlar ibadət edib Allahı çağırır, bunlar isə elm öyrənməklə nadan və cahilləri həqiqətdən agah edirlər. Mən də Allah tərəfindən elm öyrədib həqiqəti agah etmək üçün göndərilmişəm». Peyğəmbər (s) sözlərini bitirib elm öyrənənlərə tərəf gedir».[3]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Quranda işarə olunan elm sahiblərinin xüsusiyyətlərini sadalayıb buna dəlalət edən ayələri əzbərdən oxuyun.
2. Peyğəmbər (s) alimin hansı məqama layiq olduğunu buyurur?
3. Peyğəmbərdən (s) nəql olunmuş hədisdə kimlərin Cəhənnəm odundan nicat tapacaqlarına işarə olunur?
4. Peyğəmbərdən (s) nəql olunmuş hədisdə hansı dəlillər üzündən alimlər abid və zahidlərdən üstün hesab olunurlar?

---

[1] Kənzül-ümmal, 28725-ci hədis.
[2] Həmən mənbə, 28746-cı hədis.
[3] Sünəni ibni Macə, Kənzül-ümmal, 28701 və 28873.

# OTUZ İKİNCİ DƏRS

## İSLAMDA ELM VƏ ALİMİN DƏYƏRİ

### *ƏHLİ-BEYT (Ə)-DAN NƏQL OLUNMUŞ HƏDİSLƏRDƏ ELM VƏ ALİMİN DƏYƏRİ*

1. Əli (ə) buyurur: «Ey camaat! Agah olun ki, dininizi yalnız elmə yiyələnməklə kamil edə bilərsiniz. Elmə yiyələnmək, sizin üçün var-dövlət əldə etməkdən daha vacibdir. Çünki, var-dövlət sizin üçün bölünmüş və hər birinizin qisməti əvvəlcədən müəyyənləşdirilmişdir. Allah onu sizin aranızda ədalətlə bölmüş və siz ona vəfalısınız. Lakin elm öz sahiblərinin yanında qorunub saxlanılır və sizlərə əmr olunmuşdur ki, onu elm sahiblərindən əldə edəsiniz. Elə isə elm əldə etməyə çalışın».[1]

2. Başqa bir hədisdə buyurur: «Elmin, var-dövlətdən yeddi üstünlüyü vardır:

a). Elm peyğəmbərlərin, var-dövlət isə fironların mirasıdır;

b). Elm verməklə azalmaz, var-dövlət isə azalıb qurtarar;

v). Var-dövləti qorumaq lazımdır, elm isə öz sahibinin qoruyucusudur;

q). Elm insanla birlikdə kəfənlənir (yəni insanla birlikdə Allahın məhzərinə çağırılır), var-dövlət isə bu dünyada qalır;

d). Var-dövləti həm kafir, həm də möminlər əldə edərlər, həqiqi elmə isə yalnız möminlər yiyələnərlər;

ğ). Dini məsələlərdə insanlar var-dövlətə deyil, alimlərə ehtiyac duyur;

e). Elm, insana sirat körpüsünü keçməkdə köməklik edər, var-dövlət isə buna mane olar (yəni, var-dövlət sahibi əldə etdiyi sərvət üçün məhşərdə Allah-taalaya hesab verməli olduğuna görə dayanmalı olur).[2]

3. «Bütün yaxşılıq və fəzilətlərin mənşəyi elmdir və elm ən yüksək fəzilətdir».[3]

4. «Elm ən gözəl mirasdır».[4]

«Elm möminlərin itirdiyi şeydir».[5]

5. İmam Zeynəlabidin (ə) buyurur: «Əgər camaat elmə yiyələnməyin nə olduğunu bilsəydilər, bütün cəfa və çətinliklərə razı olub onun ardınca gedərdi. Allah-taala Danyal peyğəmbərə vəhy edərək buyurmuşdur:

«Mənim nəzərimdə insanların ən pisi o kəsdir ki, alimlərə qarşı etinasızlıq edib onların tutduqları yolu getməsinlər. Bəndələrimdən ən sevimlisi isə böyük savaba nail olmaq istəyən alimlərin davamçıları olan pəhrizkarlardır. Onların ünsiyyətdə olduğu şəxslər alim və hikmət sahibləri olarlar».[6]

6. İmam Baqir (ə) buyurur: «Kim insanların hidayət olunmaları üçün elminin yalnız bir fəslini təlim verərsə, ona əməl etmiş şəxslərin savabını qazanar. Onların

---

[1] Üsuli-kafi, Elmin fəziləti.
[2] Biharul-ənvar, 1-ci cild, Elm kitabı.
[3] Ğürərül-hikəm.
[4] Həmən mənbə.
[5] Biharul-ənvar, 1-ci cild, Elm kitabı.
[6] Üsuli-kafi, 1-ci cild, Elmin fəziləti.

haqdan uzaq düşmələri üçün azacıq fəaliyyət göstərən şəxslər isə həmin şəxslər qədər günaha düçar olmuş olarlar».[1]

7. «Sizlərdən elmə yiyələnənlərinizin hər biri elm ardınca gedən tələbələrin savabına nail olar. Elə isə elmi, onun həqiqi sahiblərindən öyrənin, alimlər sizlərə təlim etdikləri kimi, siz də müsəlman bacı və qardaşlarınıza təlim edin».[2]

8. Əbu Nəsir, imam Sadiq (ə)-dan nəql edərək deyir: «Başqasına xeyirxah işləri öyrədən şəxs həmən işə əməl etmiş kəslərin savabını qazanmış olar. Əbu Nəsir deyir: İmam Sadiq (ə)-dan soruşdum: Əgər bir başqasına öyrətsə, yenə də savab qazanmış olur? Buyurdu: «Əgər bütün insanları öyrətsə, yenə də həmin savabı qazanmış olur». Soruşdum: Dünyasını dəyişsədə? Buyurdu: «Bəli, dünyasını dəyişsə də».[3]

## *ALİMİN ABİDDƏN ÜSTÜNLÜYÜ*

Peyğəmbər (s) və Məsum imamlar (ə) tərəfindən nəql olunmuş rəvayətlərin bir qismində elmin ibadətdən və alimlərin abidlərdən üstün olduqları buyurulur.

1. Peyğəmbər (s) buyurur:

«Elm ibadətdən daha üstündür».[4]

2. «Elm məqsədilə el-obasını tərk edən və əldə etdiyi həmin elmlə batili haqq və zəlaləti hidayət ilə əvəz edən şəxsin gördüyü iş abidin qırx illik ibadətinə bərabərdir».[5]

3. «Elm və agahlıq ilə yatmaq, cəhl və nadanlıqla namaz qılmaqdan daha yaxşıdır».[6]

4. «Allah-taala elmə yiyələnməyi namaz, oruc, həcc və Onun yolunda cihad etməkdən daha üstün tutur».[7]

5. «Gecənin qaranlığında ay öz nuru ilə digər ulduzlardan işıqlı olduğu kimi, alim də öz elmi ilə başqalarından çox fərqlənir».[8]

6. «Allahı tanıyan şəxsin bir rükət namazı nadan insanın min rükət namazından daha üstündür».[9]

7. Əli (ə) buyurur: «Bir şəxsin həkimanə bir söz eşidib ona əməl etməsi və ya başqalarına danışması bir illik ibadətdən daha yaxşıdır».[10]

8. İmam Baqir (ə) buyurur: «Bir saat elm ilə məşğul olmaq, gecəni sübhədək ibadətlə keçirməkdən daha yaxşıdır».[11]

9. «Öz elmindən bəhrələnən alim yetmiş min abiddən daha üstündür».[12]

---

[1] Üsuli-kafi, Elmin fəziləti.
[2] Həmən mənbə.
[3] Həmən mənbə.
[4] Kənzül-ümmal, xəbər, 2857.
[5] Kənzül-ümmal, xəbər, 28835.
[6] Həmən mənbə, xəbər, 28711.
[7] Həmən mənbə, xəbər, 28655.
[8] Biharul-ənvar, 1-ci cild, Elm kitabı.
[9] Kənzül-ümmal, xəbər, 28786.
[10] Nəhcül-bəlağə.
[11] Biharul-ənvar, 1-ci cild, Elm kitabı.
[12] Biharul-ənvar, 2-ci cild, Elm kitabı.

## *MƏSUM İMAMLARIN ELMƏ YİYƏLƏNMƏYƏ OLAN MÜNASİBƏTLƏRİ*

Əvvəlki iki dərsimizdə Peyğəmbər (s) və Məsum imamlardan (ə) elmin əhəmiyyət və fəzilətinə dair nəql olunmuş bir çox hədis və rəvayətlərin, həmçinin onların alimlərə necə böyük qiymət verdiklərinin şahidi olduq. Lakin belə bir sual meydana gələ bilər ki, görəsən Əhli-beyt (ə) bütün alim və elmə meyl göstərən şəxslər barəsində eyni fikirdədirmi? Həmçinin onların hamısını böyük bir fəzilət və tərifə layiq bilmişlərmi? Başqa sözlə desək, elmin hər hansı sahəsində olursa olsun, təhsil alan bütün tələbələr və ya şəxslər rəvayətlərdə qeyd olunan fəzilətlərə yiyələnə bilərlərmi?

Cavabında deyirik:

Elmin bütün sahələri olduqca zəruri və vacib məsələlərdəndir. Lakin elmin bütün sahələrinə yiyələnmək hər bir müsəlmanın üzərinə düşən ən ümdə vəzifələrdən olsa da, alimlərin fəziləti haqda nəql olunmuş rəvayətlərdə yalnız din alimləri nəzərdə tutulur.

Bu haqda nəql olunmuş rəvayətlərə diqqət yetirin:

1. «Alimlərin ölümü islam dininə elə bir xəsarət vurur ki, aylar-illər ötüb keçməsinə baxmayaraq, onların yeri həmişə boş görünür».[1]

2. «And olsun Allaha! Bir alimə [elmə] dözmək İblis üçün min abidə [ibadətinə] dözməkdən daha ağırdır. Çünki abidlər yalnız özlərini, alimlər isə başqalarını düşünərlər».[2]

3. Nəql olunmuş rəvayətlərdən birində deyilir: Bir gün Peyğəmbər (s) məscidə daxil olub bir neçə şəxsin bir nəfərin ətrafına toplaşdığını görür.

Peyğəmbər (s) onun kim olduğunu soruşduqda: Əllamədir - deyərək cavab verirlər. Soruşdu: «Hansı elmlərə yiyələnib?» Deyirlər: Cahiliyyət dövründə yazılmış şer və baş vermiş əhvalatları, habelə ərəb qəbilələrinin ulu əcdadları haqda dərin məlumatlara malikdir. Buyurur: «Onun bildikləri nə kimsəyə xeyir verir, nə də ki, onun bilmədikləri kimsəyə zərər vurur. Elm üç şeydən ibarətdir: Əqidə əsasları, əxlaq və şəriət».[3]

4. İmam Cəfər Sadiq (ə) buyurur: «Həqiqətən də alimlər peyğəmbərlərin varisləridirlər. Peyğəmbərlər özlərindən sonra irs olaraq dirhəm və dinar qoymamışlar. Onların miras qoyduqları şeylər hikmətamiz hədis və buyuruqlardır. Bu hədislərdən birini öyrənən şəxs böyük mənfəət əldə etmiş olur. Bunun üçün də kimlərdən təhsil aldığınıza diqqət yetirin. Çünki bütün nəsillərdə biz Əhli-beytin (ə) adil alimləri olur ki, hədislərimizi təhrif edən və tam fərqli olaraq mənalandıran nadan və cahillərlə mübarizə edərlər».[4]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Əli (ə) nə üçün elm əldə etməyi, var-dövlət əldə etməkdən vacib hesab edir?

---

[1] Kənzül-ümmal, xəbər, 28761.
[2] Həmən mənbə, xəbər,28908.
[3] Üsuli-kafi, 1-ci cild, Elmin fəziləti.
[4] Həmən mənbə.

2. Əli (ə) elmlə var-dövlət arasında hansı fərqləri görür?

3. Dərsdə qeyd olunan rəvayətlərdən istifadə edərək, deyin görək nə üçün alimlər abidlərdən daha fəzilətli hesab olunurlar?

4. İslam dini bütün elmləri eyni səviyyədə dəyərləndirirmi?

## OTUZ ÜÇÜNCÜ DƏRS

## *MÜƏLLİMLƏ TƏLƏBƏ ARASINDA QARŞILIQLI MÜNASİBƏTLƏR*

Elm və elmə yiyələnməyin nə qədər əhəmiyyətli olduğunu bildikdən sonra təhsil və tədris zamanı müəllimlə şagird arasındakı qarşılıqlı münasibətlərin hansı səviyyədə olması haqda söhbət açmağı daha məqsədə uyğun hesab edirik. İslamın görkəmli alimlərindən olan Şəhid Sani (Allah ona rəhmət etsin) bu münasibətləri üç hissəyə bölür:

1. Müəllimlə şagirdlər arasındakı müştərək vəzifələr;
2. Müəllimə xas olan vəzifələr;
3. Tələbəyə xas olan vəzifələr.

Şəhid Saninin bu məsələyə olan baxışından istifadə edərək bu və növbəti dərslərimizdə müəllimlə tələbə arasında şərikli vəzifələr haqda söhbət açacağıq.

## *MÜƏLLİMLƏ TƏLƏBƏ ARASINDA QARŞILIQLI VƏZİFƏLƏR*

İstər müəllim, istərsə də tələbə təhsil və tədris zamanı bu altı məsələyə xüsusi diqqət yetirməlidir:

**1. Niyyət saflığı:**

İslam, müsəlmanlara gördükləri bütün işlərin Allah dərgahında qəbul olunması üçün niyyətlərinin saf olmasını və Allaha xatir görmələrini tövsiyə edir. Çünki, görülən işlərin puçluğu və ya özünün həqiqi dəyərini tapması niyyətin saf olub-olmamasından asılıdır. Əgər niyyət saf və görülən işlər Allaha xatir və Onun razılığını qazanmaq üçün olarsa, Nəhl surəsinin 96-cı ayəsində deyildiyi kimi qoyduğu təsir əbədi olaraq qalacaqdır:

***«Sizdə olan [dünya malı] tükənər, Allah dərgahında olan [axirət nemətləri] isə əbədidir...»***

Bu səbəbdən də ilahi [saf] niyyət dedikdə verdiyi nəticə və dəyərinin Allahdan istənilməsi nəzərdə tutulur. Çünki biz özümüz fani bir varlıq olduğumuz kimi gördüyümüz işlərin də verdiyi nəticələr müvəqqəti və fani olacaqdır.

Qurani-kərim, Kəhf surəsinin 103-104-cü ayələrində gördükləri işlərdən pis məqsəd daşıyan şəxsləri insanların ən fasid və ziyana uğrayanı adlandırır:

***«[Ya Məhəmməd!] De ki: Sizə əməlləri baxımından [axirətdə] ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi?***

***O kəslər ki onların dünyadakı zəhməti boşa getmişdir. Halbuki onlar yaxşı işlər gördüklərini [və bunun müqabilində mükafata nail olacaqlarını] zənn edirlər».***

Başqa bir ayədə həyatlarında axirət dünyasının nemətlərini əldə etmək istəyənlər bol-bol nemətlər əldə edəcəklərinə, lakin dünyapərəst şəxslərin axirət dünyasında heç nə əldə edə bilməyəcəklərinə işarə olunur:

***«Biz axirət qazancını [savabını] istəyənin qazancını artırar, dünya mənfəətini istəyənə də ondan verərik. Onun axirətdə heç bir payı yoxdur».*[1]**

***«Hər kəs fani dünyanı istəsə dilədiyimiz şəxsə istədiyimiz neməti orada tezliklə verərik. Sonra isə [axirətdə] ona Cəhənnəmi məskən edərik. O, Cəhənnəmə qınanmış və [Allahın mərhəmətindən] qovulmuş bir vəziyyətdə daxil olar».*[2]**

Peyğəmbər (s), insanın əməl və rəftarında niyyətinin oynadığı rol haqda buyurur:

«Bütün işlərin etibar və dəyəri onun niyyətindən asılıdır. Hər bir şəxs əldə etdiyi şeyə hər hansı bir niyyətlə nail olur. Allah və Peyğəmbərin (s) razılığının əldə etmək məqsədilə görülən hər bir iş Allah və Onun Peyğəmbəri tərəfindən qəbul olunar və nəticədə Allaha və Onun Peyğəmbərinə qovuşar. Dünyaya meyl edən şəxslər isə ya dünya malına nail olar və ya onlara nəsib olan şey yalnız həyat yoldaşları olar. Demək hər bir şəxs nəyi nəzərdə tutmuşsa ona doğru gedib və həmin şeyə nail olar».

Bu səbəbdən də saf niyyətə nail olmaq üçün bütün işlərdə, o cümlədən elmə yiyələndikdə də hər şeydən əvvəl Allahın və Onun Peyğəmbərinin razılığını qazanmağı nəzərdə tutmalıyıq ki, gördüyümüz işlərin verdiyi nəticə uzun müddət öz səmərəsini vermiş olsun.

Peyğəmbər (s) bu haqda buyurur:

«Möminlərin qəsd və niyyətləri əməllərindən daha yaxşıdır [çünki mömin bir insan hər şeydən əvvəl Allahın və Onun Peyğəmbərinin razılığını qazanmaq niyyətində olar].

## *NİYYƏT SAFLIĞINA APARAN YOL*

Niyyət saflığına nail olmaq üçün hər şeydən əvvəl batini paklığa diqqət yetirmək lazımdır. Allahdan qeyrisinə meyl etməməliyik və bu da yalnız Allaha xalis bəndəlik və ibadət etməklə mümkündür. Zumər surəsinin 2-3-cü ayələrində bu haqda buyurulur:

***«...Buna görə sən də dini məhz Allaha aid edərək yalnız Ona ibadət et...!***

***Bil ki, xalis din [sırf ibadət, təmiz itaət] ancaq Allaha məxsusdur...»***

Başqa bir ayədə buyurulur:

***«Kitab əhli yalnız özlərinə açıq-aydın dəlil [Peyğəmbər və Qur᾽an] gəldikdən sonra [dində] ayrılığa düşdülər [onlardan kimisi Peyğəmbərə iman gətirdi, kimisi onu inkar etdi, kimisə də şəkk-şübhə içində qaldı].»*[3]**

Başqa bir ayədə Allaha yaxınlaşmağın və əbədi səadətə nail olmağın ən başlıca şərti ibadətdə tövhid və saf niyyətli olmaqdır. Saf niyyətli ibadətin sayəsində isə əməli-saleh insanların əbədi Cənnətlə mükafatlandırılacaqları göstərilir. Kəhf surəsinin 110-cu ayəsində buyurulur:

***«...Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın».***

---

[1] Şura-19.

[2] İsra-19.

[3] Bəyyinə-4.

Bunun üçün də təhsildə hər şeydən əvvəl ən başlıca məqsəd, Allahın razılığını qazanmaq və dinin inkişafına xidmət etmək olmalıdır. Əks təqdirdə, əldə olunan elmin nəinki heç bir dəyəri olmayacaq, əksinə insanı əbədi Cəhənnəm əzabına da düçar edəcəkdir.

Peyğəmbər (s) bu mətləbə işarə edərək buyurur:

«Allahın razılığına səbəb olan elmlərdən birini dünyəvi hədəf və məqsədlər üçün öyrənən şəxslər qiyamət günü Cənnətin iyini də duymazlar».[1]

Başqa bir hədisdə buyurur:

«Allahdan qeyrisi üçün və Ondan başqasının istək və razılığına xatir elm öyrənən şəxslər Cəhənnəm oduna düçar olarlar».[2]

Həmçinin buyurur:

«Alimlərlə mübahisə aparıb nadan və cahillərin qarşısında öyünmək və ya camaatın nəzərini özünə cəlb etmək məqsədilə elm öyrənən şəxsləri Allah-taala Cəhənnəm oduna daxil edər».[3]

«Alimlərlə mübahisə aparıb nadan və cahillərin qarşısında öyünmək və camaatın nəzərini özünə cəlb etmək məqsədilə elm öyrənməyin. Elm öyrənməklə Allahın dərgahında olan ne᾽mətlərə nail olmağa çalışın. Çünki, Allah dərgahında olanlar sonsuz və əbədidir. Sadə geyinib gecələri ibadətlə keçirin. Belə etsəniz dünya sakinləri sizləri unutsa da, evlərin zinət və hidayət çırağına çevrilib Allah dərgahında əbədi olaraq şöhrət tapacaqsınız».[4]

«Bu dörd şeyə görə elm öyrənən şəxslər Cəhənnəm əzabına düçar olarlar:

1. Alimlərlə mübahisə aparmaq;
2. Nadan və cahillərin qarşısında öyünmək;
3. Camaatın nəzərini özünə cəlb etmək;
4. Yiyələndiyi elmin vasitəsilə hakim və əmirlərdən (dövlət başçılarından) pul və var-dövlət əldə etmək.[5]

«Elm artdıqca dünya malına meyl edən şəxslər Allahdan bir o qədər uzaq düşərlər».[6]

Əli (ə) Peyğəmbərdən (s) nəql edərək buyurur:

«Elm və var-dövlət əldə etmək istəyənlər doymağın nə olduğunu bilməzlər. Allahın bəxş etdiyi ruziyə qane olanlar daim əmin-amanlıq içində olar, tövbə etməyib daim haram yeyənlər isə özlərini həlak edərlər. Elmi, həqiqi elm sahiblərindən öyrənib ona əməl edənlər uğur qazanar, elmi yalnız dünya məqsədi ilə öyrənənlər isə ondan yalnız dünyada bəhrələnərlər».[7]

İmam Sadiq (ə) bu haqda buyurur:

«Bilin ki, dünya malına meyl edən alimlər dinlərində süstlüyə yol vermişlər. Çünki, insan adətən onu əhatə edən şeyə məhəbbət göstərir». Sonra sözlərinə davam edərək buyurur:

---

[1] Kənzül-ümmal, xəbər, 29020.
[2] Sünəni Termezi, 5-ci cild, Elm kitabı, bab-6.
[3] Kənzül-ümmal, xəbər, 29036.
[4] Sünəni Darmi, 1-ci cild.
[5] Həmən mənbə.
[6] Həmən mənbə.
[7] Üsuli-kafi, 1-ci cild, Elmin fəziləti.

«Allah-taala həzrət Davud (ə)-a belə bir vəhy etdi:

«Dünya malına aldanan alimlərə meyl etmə. Belə olduqda səni Məndən uzaq salarlar. Dünyapərəst alimlər əməli-saleh bəndələrimin var-dövlətlərini qarət etmiş oğrulardırlar. Onlara verdiyim cəzaların ən yüngülü Mənimlə etdikləri münacatların (duaların) şirinliyini qəlblərindən çıxarmağım olacaqdır».

Həmçinin imam Sadiq (ə) Peyğəmbərdən (s) nəql edərək buyurur:

«Alimlər dünya malına aludə olmayınca, peyğəmbərlərin əmin olduqları şəxslər hesab olunarlar».[1]

Səhabələr Peyğəmbərdən (s) soruşur: Ya Rəsuləllah! Dünya malına aludə olmaq dedikdə, nəyi nəzərdə tutursunuz? Buyurur:

«Padşah və soltanların getdikləri yolu davam etdirmək. Əgər belə edərlərsə, dininizi qoruyub saxlayasınız deyə, onlardan uzaq olun.

Allahın tükənməz rəhmət və mərhəmətindən bəhrələnmək üçün təhsilin ən başlıca şərtlərindən biri Allahın razılığını əldə etməkdir».

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Qurani-kərim kimlərin daha çox ziyana uğradığını bildirir?
2. Niyyəti necə saflaşdırmaq olar?
3. Peyğəmbər (s) hansı məqsədlər üçün elm öyrənməyi yasaq edir?
4. İmam Sadiq (ə) möminlərə hansı alimlərdən uzaq düşməyi tövsiyə edir?
5. Həzrət Məhəmməd (s) hansı alimləri Peyğəmbərlərin əmin olduqları şəxslər hesab edir?

[1] Həmən mənbə.

## OTUZ DÖRDÜNCÜ DƏRS

## *MÜƏLLİMLƏ ŞAGİRDLƏR ARASINDAKI QARŞILIQLI VƏZİFƏ VƏ MÜNASİBƏTLƏR (1)*

Bir qədər əvvəl müəllimlə şagirdlər arasındakı qarşılıqlı vəzifə və münasibətlərlərdən biri ilə, yəni niyyət saflığı ilə tanış olduq. Bu dərsimizdə isə bununla əlaqəli olan digər məsələlər haqda söhbət açacağıq.

### *ELMƏ ƏMƏL ETMƏK*

Müəllim və şagirdlərin üzərinə düşən ən ümdə vəzifələrdən biri də təhsil aldıqları və ya tədris etdikləri elmə gündəlik həyatlarında əməl etməkdir.

Bilməliyik ki, təhsil və elm öyrənməkdə ən başlıca məqsəd, rəftar və davranışların islah olunması və gözəl əxlaqi xüsusiyyətlərə yiyələnməkdir. Şübhəsiz ki, hər bir insan özünün gündəlik ictimai həyatında bir sıra rəftar və davranış tərzi nümayiş etdirməli olur. Onlar elm və agahlıq üzündən olmadıqda isə, insanların haqq yoldan uzaq düşüb tənəzzülə uğramasına səbəb olur.

Əli (ə) bu haqda buyurur:

«Elminə əməl etməyənlər düz yolda hərəkət etməyən müsafirlərə bənzərlər. Onlar nə qədər çox yol qət etsələr, çatmaq istədikləri son mənzildən bir o qədər uzaq düşərlər. Elmə əməl edənlər isə doğru yolda hərəkət edən müsafirlərə bənzəyər. Elə isə hər bir şüurlu insan getdiyi yolun onu hədəfə yaxınlaşdırıb və ya uzaqlaşdırmasına diqqət yetirsin».[1]

Əli (ə) buyurur:

«Hər bir insan özünün və başqalarının həyatına nəzər salmaqla tutduğu yolun düz olub olmadığını dərk etmiş olur».

Peyğəmbər (s) buyurur:

«Dini məsələlərdə anlayışı olmadan ibadət edən şəxslər, gecələr ev tikib səhər açıldıqda onu xarab edən şəxslərə bənzər».

Məlum məsələdir ki, gecələri ibadətlə keçirən şəxs gündəlik həyatında haramla halalın fərqinə varmadıqda, şəri hökmləri ayaq altına qoyub əldə etdiyi savabdan məhrum olur.

Əli (ə) buyurur:

«Dini məsələlərdə anlayışı olmayan şəxslər gözü bağlı dəyirman atına bənzər. O, yerində dövr etsə də, irəli getdiyini güman edir».[2]

Belə şəxslər nə qədər zəhmətə qatlaşsalar da, heç bir mənəvi irəliləyişə nail olmurlar və nəticədə gördükləri işlər heç bir müsbət nəticə vermir. Çünki, onlar öz səhv hərəkətləri ilə gördükləri bütün xeyirxah işlərin dəyərini aradan aparmış olurlar. Məsələn, aclıq və susuzluğa tab gətirib Ramazan ayını oruc tutan şəxslər şəri məsələlərdən kifayət qədər anlayışı olmadıqları üçün orucu batil edən şeylərdən birinə düçar olmaqla bir aylıq ibadətlərini puça çıxarmış olurlar. Belə

---

[1] Nəhcül-bəlağə, 154-cü xütbə.

[2] Biharul-ənvar, 1-ci cild, Elm kitabı.

olduqda onlara qalan yalnız savab deyil, əzab-əziyyət olur. Bunun üçün də Əli (ə) bu kimi şəxsləri səhərdən axşamadək yerində fırlanan və heç bir irəliləyişə nail olmayan dəyirman atına bənzədir. Demək, əməl yalnız o zaman öz həqiqi dəyərini tapır ki, onu görən şəxs həmin işdən agah olmuş olsun. Əgər elm və agahlıq görülən işlərin mənşəyi olmazsa, onun əldə olunması üçün böyük zəhmət tələb olunacaqdır. Aşağıdakı mətləblərə diqqət yetirin:

1. Həyatda maddi-mənəvi olmasından asılı olmayaraq, fayda və tə'siri olmayan elmlərə yiyələnməməli;

Peyğəmbər (s) və Məsum imamların (ə) dualarından biri də bu olmuşdur:

«İlahi! Heç bir xeyiri olmayan elmdən, təvazökarlığın nə olduğunu bilməyən qəlblərdən, qəbul olunmayan dualardan və azğın nəfsdən Sənə sığınıram».[1]

Əli (ə) buyurur:

«Allah eşqindən kövrəlməyən qəlblərdə, ağlamayan gözlərdə və heç bir mənfəəti olmayan elmlərdə xeyir olmaz».[2]

«Xeyiri olmayan elmlər, şəfa verməyən dərmanlar kimidir».[3]

Deməli, heç bir xeyiri olmayan elmlərə yiyələnmək üçün sərf olunan vaxt və istedad olduqca əbəs və əhəmiyyətsizdir.

2. Əldə olunan elm, əməli olaraq həyata keçirilməlidir._Allah-taala Qurani-kərimdə, deyilən sözlərə əməl etməməyi məzəmmət edərək buyurur:

***«Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz?***

***Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbinə səbəb olar».[4]***

Başqa bir yerdə yəhudi alimlərini onlara nazil olmuş səmavi kitaba (Tövrata) əməl etmədikləri üçün uzunqulağa oxşadaraq buyurur:

***«Tövrata əməl etməyə mükəlləf olduqdan sonra ona əməl etməyənlər [Tövrata iman gətirdikdən, onu oxuyub öyrəndikdən sonra hökmlərini lazımınca yerinə yetirməyənlər] belində çoxlu kitab daşıyan [lakin onların içində nə yazıldığını bilməyən, onlardan faydalanmağı bacarmayan] ulağa bənzərlər...»[5]***

Peyğəmbər (s) və Mə'sum imamlardan (ə) nəql olunmuş hədislərdə dəfələrlə bu mətləbə toxunulmuş və elminə əməl etməyənləri nadan adlandırmaqla bərarbər, onların Cəhənnəm əzabı ilə də cəzalanacaqları buyurulmuşdur.

Əli (s) Peyğəmbərdən (s) nəql edərək buyurur:

«Alimlər iki dəstədən ibarətdir: Onlardan bir qismi bildiklərinə əməl edib uğur qazanar, digər qismi isə əməl etmədikləri üçün özlərini həlak edərlər. Cəhənnəm əhli elminə əməl etməyən alimlərin dözülməz üfunətli iyindən zara gələrlər. Cəhənnəm əhli arasında hamıdan daha çox o kəslər həsrət çəkər ki, başqalarını haqq yola hidayət edib özü isə nəfsinə uyaraq bildiklərinə əməl etməsin.

Çünki, insan öz nəfsani istəklərinə uyduqda həqiqətdən uzaq düşdüyü üçün arzuları çoxalır və axirəti unutmuş olur».[6]

---

[1] Kənzül-ümmal, xəbər, 3609.

[2] Ğürərül-hikəm.

[3] Həmən mənbə.

[4] Səff 2-3.

[5] Cümə-5.

[6] Üsuli-kafi, 1-ci cild, Elmin fəziləti.

Peyğəmbərdən (s) nəql olunmuş başqa bir hədisdə elmlərinə əməl edən şəxslərin yalnız alimlər olduğu göstərilir:

«Alim o kəsdir ki, bildikləri az olsa belə, ona əməl etmiş olsun».[1]

Əli (ə) buyurur:

«Elm əməldən asılıdır».

Başqa bir hədisdə buyurur: «Elminə əməl etməyən kəs həqiqi alim deyildir».

Həzrət İsa Məsih (ə)-dan nəql olunmuş rəvayətdə deyilir:

«Əməl etmədiyiniz elmlərin sizlərə heç bir xeyiri olmayacaqdır. Bildiklərinizdən bir çoxuna əməl etmədikdə, artıracağınız şey yalnız cəhalət və nadanlığınız olacaqdır».[2]

İmam Sadiq (ə) buyurur:

«Alimlər üçün ən böyük əzab, onların öz elmlərindən bəhrələnməməsidir».[3]

Başqa bir hədisdə buyurur:

«Yağış suyu qayalardan axıb töküldüyü kimi, elminə əməl etməyən alimlərin də verdikləri nəsihətlər qəlblərdə özünə yer tapmır».[4]

Əli (ə) xütbələrinin birində buyurur:

«Ey camaat! Hidayət ümidi ilə bildiklərinizə əməl edin. Əməlsiz alimlər cəhalətdən yaxa qurtarmağa ümidi olmayan nadan kəslərdir. Cahil insanların və əməlsiz alimlərin ömrü hədərə getsə də, alimlərin daha çox peşimançılıq çəkəcəklərini görürəm. Özünüzdə şəkk-şübhəyə yol verməyin, belə etsəniz küfr etmiş olarsınız. Süstləşməyəsiniz deyə, nəfsinizə qarşı səhlənkar olmayın. Həqiqəti asan hesab etməyin. Belə etsəniz, nəticədə özünüz zərər çəkənlərdən olacaqsınız. Həqiqət dedikdə alim olmağınız, elm və agahlıq dedikdə isə məğrur olmamağınız nəzərdə tutulur. Sizin aranızda özünüzə qarşı xeyirxahınız Allaha hamıdan daha çox itaət edənləriniz, özünüzə qarşı ən xain olanınız isə, Allaha hamıdan daha çox itaətsizlik göstərənlərinizdir. Allaha itaət edən şəxslər səadət və xoşbəxtliyə nail olar. Ona qarşı itaətsizlik göstərənlər isə ümidsiz olub peşimançılıq çəkər».[5]

Müfəzzəl ibni Əmrdən nəql olunmuş başqa bir rəvayətdə deyilir: İmam Sadiq (ə)-dan soruşdum: Cəhənnəm əzabından nicat tapanları hansı əlamət və nişanlarla tanımaq olar? Buyurdu: «Dedikləri ilə əməlləri müvafiq olarsa, Cəhənnəm odundan nicat tapacağına şəhadət ver, müvafiq olmadıqda isə onun haqda bir söz demək çətindir (Onlar əməllərinin islah olunmasına cəhd edərlər)».[6]

Peyğəmbər (s) və Mə῾sum imamlardan (ə) nəql olunmuş bir çox hədis və rəvayətlərdə elmlə əməlin birgə olmasına xüsusi diqqət yetirilir. Belə ki, elm yalnız əməli olaraq həyata keçirildikdə öz səmərəsini verə bilər, əks təqdirdə onun heç bir dəyəri olmayacaqdır.

Peyğəmbər (s) buyurur:

---

[1] Biharul-ənvar, 76-cı cild, bab-67.
[2] Mizanul-hikmət, bab-2888.
[3] Biharul-ənvar, 2-ci cild, Elm kitabı.
[4] Üsuli-kafi, 1-ci cild, Elmin fəziləti.
[5] Üsuli-kafi, 1-ci cild, Elmin fəziləti.
[6] Həmən mənbə.

«Əməli ucaldıb dəyərləndirən şey varsa, o da elmdir. Yerinə yetirildikdə qalır, yetirilmədikdə isə öz dəyərini itirir».[1]

Bir sözlə, elm ilə əməl bir-birini tamamlamalıdır. Əgər gördüyü işlər onun elmi ilə müvafiq olarsa elm uzun müddət öz tə`sirini göstərəcək, müvafiq olmadıqda isə çox tez bir zamanda öz əhəmiyyətini itirəcəkdir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Əli (ə) bir şeyə elmsiz əməl edən şəxsləri kimlərə bənzədir?
2. Peyğəmbər (s) elmsiz abidləri kimlərə bənzədir?
3. Elmsiz abidlər haqqında Əli (ə)-ın fikri nədir?
4. Qur`ani-Kərim elimsiz alimləri nəyə bənzədir?
5. Əməlsiz alimlərin Cəhənnəm əzabına düçar olacaqlarına dəlalət edən hədislərdən birini əzbərdən deyin.
6. İmam Sadiq (ə) kimlərin Cəhənnəm odundan nicat tapacaqlarını hesab edir?

[1] Biharul-ənvar, 2-ci cild, Elm kitabı.

## OTUZ BEŞİNCİ DƏRS

## MÜƏLLİMLƏ ŞAGİRD ARASINDA QARŞILIQLI VƏZİFƏ VƏ MÜNASİBƏTLƏR (2)

### *ELMƏ YİYƏLƏNDİKDƏ TƏKƏBBÜRLÜ OLMAMAQ*

Müəllim və şagirdlər saf niyyətlə, Allah rizası üçün elmin sirlərinə yiyələndikdə, onu əməli olaraq həyata keçirməklə yanaşı, təkəbbür hissinin onlara nüfuz etməsinə yol verməmələridir. İnsan daim kamala çatmaq arzusunda olan bir varlıq olduğu üçün əldə etdiyi hər bir şeydən, o cümlədən elm və təhsildən xüsusi zövq alır və əldə etdiyindən mümkün qədər daha artığına nail olmaq istəyir. Lakin diqqət yetirmək lazımdır ki, bütün bunlar həqiqi kamala çatmaq üçün sözün əsl mə᾿nasında bir vasitədir. Həqiqi kamala çatmaq isə Allaha yaxınlaşmaq deməkdir. Bunun üçün də elm və təhsil, əxlaqi və mə᾿nəvi dəyərlərə yiyələnmək Allah rizası üçün olmalıdır. Lakin bu hiss bə᾿zən bizi böyük təhlükə ilə üzləşdirir. Yə᾿ni, kamala çatmaq hissi bizi o qədər özünə cəlb elir ki, üzərimizə düşən vəzifəni kənara qoyub, tədriclə qarşımıza qoyduğumuz məqsəddən uzaq düşürük. İslam əxlaq elmində insanı Allahdan uzaqlaşdıran və Onun razılığını qazanmaq əvəzinə özünə cəlb edən şeylərə «Hicab» (maneə) deyilir. Elm və bir çox elmi məşğuliyyətlər insanı özünə cəlb edərək bu müqəddəs hədəfə çatmağa daha çox maneçilik törədir. Bunun isə ən başlıca səbəbləri aşağıdakılardır:

1. Elm insanın qüdrət və bacarığını artırır və ona varlıq aləminə hakim olan həqiqətdən agah olmağa köməklik edərək onu öz ixtiyarına keçirməyə imkan verir;

2. Elm mə᾿nəvi təkamüldə hər bir şeydən tə᾿sirlidir. Bu səbəbdən də elmə yiyələnən şəxslər, hətta ilk addımlarda elmin dərinliklərinə yol tapdıqlarını güman edərək özlərində qürur hissi keçirirlər. Bunun üçün də Peyğəmbər (s) elmi böyük hicab adlandırır:

«Elm böyük bir hicabdır».

Diqqət yetirilməsi zəruri olan digər məsələlərdən biri də bundan ibarətdir ki, bütün elmlərə yiyələnməkdə ən başlıca məqsəd insanın özünü, yaradılış aləmini, bir sözlə Allahı tanımaq olmalıdır. Yalnız bundan sonra insan öz nəfsini paklaşdırıb ilahi hədəfə nail ola bilər. Belə ki, elm və təhsildən məqsədimiz qürur və təkəbbür olarsa və yiyələndiyimiz elmlə Allahın qarşısında təvazö᾿karlıq etməriksə, bu nəinki bizi kamal və səadətə çatdırmayacaq, əksinə bütün insani dəyərlərdən məhrum edəcəkdir. Bunun üçün də elm sahəsində fəaliyyət göstərən şəxslər yiyələndikləri elmdən kamal və səadətə çatmaq üçün bir vasitə kimi istifadə etməlidirlər. Lakin bununla yanaşı, mə᾿nəvi saflığa da diqqət yetirməli, elmlə mə᾿nəviyyat arasında sıx əlaqə yaratmalıdırlar.

## *TƏVƏKKÜL*

Elmin istər tə᾽lim və tədris, istər tədqiqat və araşdırma, istərsə də digər sahələrində fəaliyyət göstərən şəxslər özlərinə e᾽timad etməklə yanaşı, Allaha təvəkkül edib bunu özləri üçün şüar etməlidirlər. Çünki elmə yiyələnmək olduqca ağır və zəhmət tələb edən işlərdəndir və bu iş heç də asanlıqla əldə olunmur. Bunun üçün yüksək cəhd göstərməli və qarşıya çıxan maneələrə əzmlə sinə gərməlidir.

Deməк, bütün işlərdə olduğu kimi, elmə yiyələnməkdə də Allaha təvəkkül etməli və yalnız Ondan kömək dilənməlidir. Çünki, Allahdan böyük qüdrət sahibi yoxdur.

Digər tərəfdən də elm sahəsində fəaliyyət göstərən şəxslər əksər hallarda öz xərclərini kifayət qədər ödəyə bilmirlər. Bunun üçün də bə᾽zən ehtiyac hissi onlarda ümidsizliyə, bə᾽zən də başqalarına ehtiyac içində olduqlarını bildirmələrinə səbəb olur. Bir halda ki, Peyğəmbərin (s) buyurduğu hədisə əsasən, Allah-taala elm aşiqlərinin ruzisini Özü tə᾽min etmişdir:

«Allah-taala elmi təhsil alan şəxslərin ruzisini başqalarından fərqli olaraq Öz öhdəsinə götürmüşdür».[1]

Bunun üçün də təhsil alan şəxslər başqalarından daha çox Allaha təvəkkül etməli və Ondan ruzilərinin artırılmasını diləməlidirlər. Lakin bunu da bilmək lazımdır ki, elmi nailiyyətlər əldə etmək heç də asan deyildir və bu sönməz nuru Allah-taala yalnız Öz sevimli bəndələrinə bəxş edir. O, istədiyini hidayət və elmin sirlərinə yiyələnməyə sövq edir. İmam Sadiq (ə) bu haqda buyurur:

«Elm öyrənməklə əldə olunmur. O, Allahın hidayət etdiyi şəxslərin qəlblərində saçan bir nurdur».[2]

Bunun üçün də elmin sirlərinə yiyələnmək üçün Allah-taaladan bizi hidayət etməyimizi diləməli və yalnız Ona təvəkkül etməliyik. Çünki O, verdiyi və᾽dəyə daim sadiq qalır.

## *TƏQVA VƏ MƏ᾽NƏVİ SAFLIQ*

Bir qədər əvvəl qeyd etdik ki, müəllim və şagirdlərin üzərinə düşən üçüncü müştərək vəzifələrdən biri də qürur hissinin onların qəlblərinə yol tapmaması və Şeytani vəsvəsələrə uymamalarıdır. Bunun üçün də təhsil alan şəxslər hamıdan daha çox mə᾽nəvi saflığa diqqət yetirməli və bu yolda qarşılarına çıxan maneələri dəf etməyi bacarmalıdırlar. Yalnız bu yolla elmin sirlərinə yiyələnib Allaha yaxınlaşmaq olar. Elm və təhsilin digər şərtlərindən biri də təqvadır. Bəqərə surəsinin 3-4-cü ayələrində Allah-taala bəşəriyyətin hidayət olunmasında təqvanın əsas şərt olduğunu bildirir:

---

[1] Kənzül-ümmal, xəbər, 28701.

[2] Bihurl-ənvar, 1-ci cild, Elm kitabı.

***«Bu, [Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə] heç bir şəkk-şübhə olmayan və müttəqilərə [Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə] doğru yol göstərən Kitabdır».***

Bunun üçün də Qur᾽anın səadətə qovuşduran hidayət nurundan yalnız təqva sahibləri bəhrələnə bilərlər.

Həmin surənin 282-ci ayəsində insanlara təqvanı hər şeydən üstün tutmaqla agahlığa nail olacaqlarını və᾽də verir:

*«Təqvalı və pəhrizkar olun ki, Allah-taala da sizə bilmədiklərinizi öyrətsin...»*

Ənfal surəsinin 29-cu ayəsində isə buyurur:

*«Ey iman gətirən şəxslər, əgər təqvalı olsanız, Allah-taala sizlərə «fürqan» [haqla batili ayırd etmək iste᾽dadı] verər.»*

Fürqan bəsirətin elə bir agahlıq həddidir ki, insan bu iste᾽dada yiyələndikdə haqla batili ayırmaqda heç bir çətinliklərlə qarşılaşmır. İmam Sadiq (ə)-dan nəql olunmuş hədisdə deyildiyi kimi elm, Allahın hidayət etdiyi şəxslərin qəlblərində saçdığı bir nurdur. Həqiqi elm Allahdan istənilməli və buna nail olmaq üçün təqvanı hər şeydən üstün tutmaq lazımdır. İnsan öz qəlb və ruhunu o qədər saflaşdırmalıdır ki, bu ilahi nur onun qəlbində saçmağa başlasın.

Bütün bunlarla yanaşı alimlərin rəftar və davranışları da daim diqqət mərkəzində olur. Çünki hamı onlara nümunə gözü ilə baxır və özlərinə bir növ örnək hesab edir. Dahilərdən biri demişdir: «Camaat mə᾽nəvi dəyərlər baxımından alimlərdən bir dərəcə aşağıda yerləşirlər. Əgər alimlər təqvalı və pəhrizkar olarlarsa, camaat öyünməyi özlərinə rəva bilməzlər. Əgər alimlər halala üz tutarlarsa, camaat səhvə yol verməz, alimlər səhvə yol verdikdə isə, camaat harama üz tutar və nəhayət camaat alimlərin harama yol verdiklərini gödükdə küfr edər».

## *GÖZƏL ƏXLAQ*

Alimlər insanların hidayət olunmalarını öz üzərlərinə götürdükləri üçün öz rəftar və davranışları ilə onlara örnək və nümunə olmalıdırlar ki, rəhbərlik etdikləri kütləni özlərinə cəlb etmiş olsunlar. Bunun üçün isə ən başlıca şərt təvazö᾽karlıq, səmimiyyət kimi gözəl xüsusiyyətlərə yiyələnmələridir. İmam Sadiq (ə) bu haqda buyurur:

«Elm öyrənin və onu daha da zinətləndirməyə çalışın. Elm öyrəndiyiniz və ya tədris etdiyiniz şəxslərə qarşı təvazökar olun. Məğrur və təkəbbürlü alimlər kimi olmayın, əks təqdirdə batil əməlləriniz haqq kəlmənizi məhv etmiş olar».[1]

Ali-İmran surəsinin 159-cu ayəsində buyurulur:

***«[Ya Məhəmməd!] Allahın mərhəməti səbəbinə sən onlarla yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə onlar sənin ətrafından dağılıb gedərdilər...»***

[1] Üsuli-kafi, Elmin fəziləti, Üləmanın sifətləri babı.

## *İFFƏT VƏ MƏTİNLİK*

Rəhbərliyi öz üzərinə götürmüş alimlər, tə'minatlarının ödənilməsində özlərini başqalarından ehtiyacsız hiss etməlidirlər. Onlar ünsiyyətdə olduğu şəxslərlə elə rəftar etməlidirlər ki, maddi rifahlarının aşağı səviyyədə olduğunu hiss etməsinlər. Əks təqdirdə camaat onlara təhqir və ürək yanğısı hissi ilə nəzər salacaq və onları özlərindən asılı hesab edəcəklər. Eyni zamanda alimlər də özlərini onlara borclu hesab edərək onların istək və iradəsinə doğru meyl edəcəklər. Allah-taala onların ruzilərinin tə'min olunmasını Öz üzərinə götürdüyü bir halda, asılılıq hissi onları camaatın istək və iradəsinə müvafiq olaraq, hər hansı bir fikir irəli sürüb ona əməl etməyə vadar edəcəkdir. Maddi rifahın tə'min olunması üçün alimlərin camaatın yardımına göz dikmələri olduqca mənfi xüsusiyyətdir. Bundan da acınacaqlısı var-dövlət əldə etmək məqsədilə onların hakim təbəqəyə üz tutmalarıdır. Onlar öz məqsədlərinə çatıb-çatmamalarından asılı olmayaraq, dünya və axirətdə ziyana uğramış olurlar. Nəticədə həm camaat onlardan üz çevirmiş olur, həm də bir alim kimi üzərlərinə düşən ilahi vəzifənin öhdəsindən gələ bilməyib axirət dünyasının əzabına düçar olurlar.

Qeyd etmək lazımdır ki, alimlərin var-dövlət məqsədilə hakim təbəqəyə meyl etməsi onların şəxsiyyətinə xələl gətirsə də, müsəlmanların hüquqlarının qorunması üçün onların belə bir işi qəbul etməsi nəinki haram deyil, əksinə zəruri məsələlərdən biridir.

Tarixə nəzər saldıqda bu həqiqətin şahidi oluruq ki, Əli ibni Yəqtəyn, Məhəmməd ibni İsmayıl ibni Bəzi və Nuh ibni Dərrac və başqaları zalım xilafətə xidmət etmiş və bu yolla bir çox zülm və haqsızlıqların qarşısını ala bilmişlər. Hərçənd, belə olduqda da məqam və var-dövlət istəyi insanı zalım hakimlərə meyl etməyə sövq edə bilər.

## *ŞƏR'İ MƏSƏLƏLƏRƏ RİAYƏT OLUNMASI*

Müəllim və şagirdlər şər'i hökmlərin icrasına xüsusi diqqət yetirməlidirlər. Vaxtlı-vaxtında camaat namazlarında iştirak etməli, gündəlik vacib namazları tə'xirə salmadan qılmalı, müsəlman bacı və qardaşlarla səmimi münasibətdə olmalı, başqalarının hüquqlarına riayət etməli, yoxsul və imkansızlara maddi yardım göstərməli, xəstələrin görüşünə getməli, hamıya qarşı təvazökar olmalı və s.

Bütün bunlarla yanaşı təmizliyə xüsusi diqqət yetirməli və mö'minlərə xas olan xüsusiyyəti daim yaşatmağa çalışmalıdırlar. Təhsil alan şəxslər geyimlərinin təmizliyinə, cəmiyyət arasında rəğbətlə qarşılanan geyim tərzinə də xüsusi diqqət yetirməli və onlara xas olmayan geyimlərdən imkan daxilində çəkinməyə çalışmalıdırlar.

Bir sözlə, elm sahiblərinin geyim və davranışları elə bir tərzdə olmalıdır ki, hamı tərəfindən rəğbətlə qarşılanıb islam adət-ən'ənələrini özündə təcəlli etdirmiş olsun. Yalnız belə bir şəraitdə onlar özlərinə sadiq davamçı qazana bilərlər.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Peyğəmbər (s) elmi nə üçün «böyük hicab» adlandırır?
2. Təhsil alan şəxslər nə üçün başqalarından daha çox Allaha təvəkkül etməlidirlər?
3. Təqva nə üçün elmə yiyələnməyin əsas şərtlərindən biri hesab olunur?
4. Qurʾan insanların Peyğəmbərə (s) tərəf meyl etmələrində hansı amilin səbəb olmasını göstərir?
5. Müəllimlə şagirdlər arasındakı müştərək vəzifələri ixtisarla izah edin.

## OTUZ ALTİNCİ DƏRS

Müəllimlə şagirdin müştərək vəzifələri ilə tanış olduqdan sonra bu və növbəti dərslərimizdə onların üzərinə düşən vəzifələr haqda da ayrı-ayrılıqda söhbət açacağıq.

İslam dünyasının tanınmış müəllim və alimlərindən biri olan Şəhid Sani, müəllimlə şagirdin üzərinə düşən vəzifələri üç hissəyə bölmüşdür:

1. Müəllimin özünə aid olan vəzifələr;
2. Müəllimin şagirdlərə qarşı olan vəzifəsi;
3. Müəllimin sinifdə üzərinə düşən vəzifələr.

### *MÜƏLLİMİN ÖZÜNƏ AİD OLAN VƏZİFƏLƏR*

1. Elm sahəsində addımlayan hər bir şəxs tədris etməzdən əvvəl özünün belə bir məs᾽uliyyətli işə hazır olub-olmadığına xüsusi diqqət yetirməli, təhsilini başa vurduqdan sonra müəllimlərinin qarşısında sınaq imtahanı verməli və yalnız onların icazəsini aldıqdan sonra tədris etməyə başlamalıdır. Əks təqdirdə, üzərinə düşən məs᾽uliyyətin öhdəsindən gələ bilməyərək özünü gülünc vəziyyətə salmış olar. Peyğəmbər (s) onları əyinlərinə böyük paltar geymiş şəxslərə bənzədir:

«Qisməti olmaya-olmaya, zorla özünü doymağa və ya ehtiyacını ödəməyə çalışan şəxslər, əyinlərinə böyük paltar geymiş şəxslərə bənzəyər».[1]

2. Müəllim, yiyələndiyi elmi, ona qiymət verməyi bacaran və eyni zamanda elmə yiyələnməyə iste᾽dad və marağı olan şəxslərə öyrətməlidir. Əks təqdirdə, elm öz e᾽tibarını itirib dəyərsizləşəcəkdir.

Keçmiş dövrün alimləri tədris üçün şagirdlərin evinə getməyi elmə qarşı hörmətsizlik sayardılar. Bu barədə diqqəti cəlb edən məsələlərdən biri də elm aşiqlərinin elm və təhsil yolunda öz doğma yurd-yuvalarını tərk edib uzaq ölkələrə mühacirət etmələridir. Bir çox çətinliklərə sinə gərən elm aşiqləri illər boyu qürbət ellərdə yaşayıb elmin açılmayan sirlərinə yol tapmağa cəhd etmişlər. Bu da bir daha elm və alimlərin tutduğu yüksək mövqeyə dəlalət edir.

3. Müəllimlə şagirdin müştərək vəzifələri haqda söhbət açdıqda qeyd etdik ki, istər müəllim, istərsə də şagird elmə Allaha xatir və saf niyyətlə yiyələnməli və ya tədris etməlidir. Lakin bunu da bilməliyik ki, müəllim öz elminə əməl etməkdə şagirddən daha diqqətli olmalıdır. Bu işdə səhlənkarlığa yol verdikdə, o, öz müəllimlik vəzifəsini layiqincə yerinə yetirməmiş olur. Belə bir şəraitdə şagirdlərdə müəllimə qarşı e᾽tinasızlıq yaranacaq və onun tədris etdiyi elm heç bir nəticə verməyəcəkdir. Şagirdlərdə belə bir fikir yaranır ki, əgər onun dedikləri haqdırsa, nə üçün özü bu məsələyə diqqət yetirmir.

Bəqərə surəsinin 44-cü ayəsində bu haqda deyilir:

***«Siz insanlara yaxşı işlər görmələrini əmr etdiyiniz halda, özünüz unudursunuz?....»***

---

[1] Sünəni ibni Davud, Ədəb kitabı, 4997-ci hədis.

İmam Cə᾿fər Sadiq (ə) - ***«Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar»*** - ayəsinin izahında buyurur:

«Alim o kəsdir ki, öz əməli ilə dediklərini təsdiq etmiş olsun. Allahdan qorxan da məhz o kəslərdir».

Başqa bir yerdə buyurur:

«Əməlsiz alimləri və cahil insanları görməyə taqətim yoxdur. Əməlsiz alimləri öz elmlərinə e᾿tinasız olub insanları elmdən uzaqlaşdırdıqları, cahil və nadanları isə nadanlıqları üzündən insanları din və ibadətdən ayrı saldıqları üçün».[1]

Müəllimlər öz şagirdlərinə bə᾿zi göstərişlər verdikləri zaman ilk növbədə özləri buna əməl etməlidirlər.

Məsələn, müəllim öz şagirdlərinə camaat namazlarında, müsəlmanların dəfn mərasimlərində və təşkil etdikləri məclislərdə iştirak etmək və ya xəstələrə baş çəkməyi tövsiyə edirsə, özü də bütün bunları tə᾿xirə salmadan həyata keçirməlidir. Həmçinin onlara bə᾿zi qadağalar qoyduqları zaman özləri də həmin qadağalara tabe olaraq, ömürlərini eyş-işrət içində keçirməməlidirlər. Lakin bir çox hallarda müəllim üzürlü səbəblərə görə üzərinə düşən [şər᾿i] vəzifəni lazımınca yerinə yetirə bilmir. Belə olduqda o, bunu başqalarına, xüsusilə tədris etdiyi şəxslərin [şagirdlərinin] qarşısında büruzə verməməlidir. Çünki bu kimi hallarda Şeytani vəsvəsələr müsəlmanların bir-birlərinə qarşı şəkk-şübhə ilə yanaşmalarına səbəb olur. Məsələn, Ramazan ayında orucluğun müqəddəsliyinin qorunub saxlanılması üçün bir şəxsin ümumi kütlə qarşısında yeyib-içməyi və bu müqəddəs ayda yasaq olan hər hansı bir işi görməyi haram hesab olunur. Bunun üçün də üzürlü hesab olunsa da, bu kimi hallarda bəhanə gətirərək ümumi kütlə qarşısında özünün oruc tutmadığını büruzə verməməlidir. Çünki belə olduqda zəif və iradəsiz şəxslər Şeytani vəsvəsəyə uyaraq bu ayın müqəddəsliyinə e᾿tinasızlıqla yanaşar və çox asanlıqla öz oruclarını poza bilirlər. Müəllim, tərbiyəçi və başqalarına nümunə olan bu kimi şəxslər bu məsələyə başqalarından daha çox diqqət yetirməli və daha ciddi yanaşmalıdırlar. Bunun üçün də müəllimlər üzürlü olsalar belə, öz şagirdlərinin qarşısında mövqe və şəxsiyyətlərinə xələl gətirən şeylərdən uzaq olmağa çalışmalıdırlar.

Nəql olunmuş rəvayətlərdən birində deyilir: Bir gün Peyğəmbər (s) zövcələrinin biri ilə evə qayıdarkən yolda səhabələrdən biri ilə qarşılaşır. Səhabənin yanlış fikrə düşməsinin qarşısını almaq məqsədilə buyurur:

«Bu mənim [adını çəkərək] zövcəmdir».

4. Müəllim nümunə olaraq öz şagirdlərində və başqalarından daha gözəl əxlaqi xüsusiyyətlərə yiyələnməlidir. Sözsüz ki, müəllimin rəftar və davranışı dediklərindən daha çox tə᾿sir göstərir. Bunun üçün də səmimiyyət, təvazökarlıq, əxlaq və sair bu kimi müsbət xüsusiyyətlər müəllimlərdə elə bir həddə olmalıdır ki, başqaları onların bu gözəl xüsusiyyətlərinə qibtə edərək özlərinə örnək və nümunə hesab etmiş olsunlar. Nəql olunmuş rəvayətlərdən birində deyilir: Bir gün İsa (ə) öz həvarilərinə deyir: «Sizlərdən bir xahişim var və çox istərdim ki, onu yerinə yetirəsiniz». Həvarilər dedilər: Hər nə istəsəniz yerinə yetirməyə hazırıq.

[1] Biharul-ənvar, 1-ci cild, Elm kitabı.

İsa (ə) ayağa qalxıb bir-bir onların ayaqlarını yumağa başlayır. Həvarilər xəcalətli halda İsa (ə)-ı bu işdən çəkindirmək istəyirlər. Lakin söz verdikləri üçün xəcalət çəksələr də buna dözməli olurlar. İsa (ə) onların ayaqlarını yuyub qurtardıqdan sonra deyirlər: Bu işi biz görsəydik daha yaxşı olardı. İsa (ə) üzünü onlara tutub buyurur: «Xidmət etmək üçün alimlər insanların ən yaxşısıdır. Sizin qarşınızda təvazökarlıq etdim ki, siz də məndən sonra camaatla təvazökarlıqla davranasınız. Toxum, qayalıqda yox, torpaqda bitdiyi kimi, evlər də təkəbbürlüklə deyil, təvazökarlıqla abad olur».

5. Müəllimlər zalım və sitəmkarlara tədris etməkdən çəkinməli və buna qətiyyən yol verməməlidirlər. Çünki bə՚zi mənfi ünsürlər yiyələndikləri elmdən sui istifadə edərək öz mövqelərini daha da gücləndirməyə çalışarlar.

Bə՚zən də elmə yiyələnmək istəyən şəxslərin məqsədi heç də cəmiyyətdə fitnə-fəsad törətmək, pozğunluğa yol vermək deyil, sadəcə olaraq mümkün qədər çox var-dövlət əldə etmək olur. Bir çox tanınmış islam alimləri bu fikirdə olmuşlar ki, müəllimlər gərək bu kimi şəxsləri öz elm və təcrübələrindən məhrum etməsinlər. Belə ki, bir çox hallarda qeyri-ilahi niyyətlə elm və təhsil alan şəxslər təhsil zamanı öz səhvlərini başa düşmüş və düzgün nəticə çıxararaq islah olunmuşlar. Qeyd etmək lazımdır ki, alimlərin bir çoxu şagirdlərinin elmə qədəm qoyduqları ilk gündən mə՚nəvi saflığa xususi diqqət yetirmiş və onlara bu işdə dəyərli məsləhətlər vermişlər. Mə՚nəvi cəhətdən saflaşıb əxlaqi dəyərlərə yiyələndikdən sonra elmin qapılarını onların üzünə açardılar. Bütün bunlar şagirdlərin əvvəldən düz yola qədəm qoymalarına, təhsillərini saf ilahi niyyətlə davam etdirmələrinə və nəhayət, elmə böyük əhəmiyyət vermələrinə səbəb olur.

Bunun üçün də müəllimlər tədris etdikləri şəxslərin kimliyinə diqqət yetirməli və bə՚zilərinin elmdən sui istifadə edərək cəmiyyətdə fitnə-fəsad törətmələrinə yol verməməlidirlər.

6. Alimlər öz elm və bacarıqlarını elmi qiymətləndirməyi bacaran şəxslərin ixtiyarına qoymalı və bu işdə heç nəyi onlardan əsirgəməməlidirlər. Allah-taala, Qur՚ani-kərimdə bir neçə yerdə alimlərdən bildiklərini başqalarından gizlətməyəcəklərinə dair əhd-peyman alır.

Ali-İmran surəsinin 187-ci ayəsində buyurulur:

***«Allah kitab əhlindən: Siz onu [kitabda olanları] gizlətməyib, insanlar üçün aydınlaşdırmalısınız!-deyə əhd aldığız zaman......».)***

Başqa bir ayədə buyurulur:

***«Kitabda [Tövratda] insanlara aşkar etdiyimiz dəlillərdən sonra göndərdiyimiz nişanələri və doğru yol göstərən ayələrimizi gizlədən şəxslər Allahın lə՚nətinə düçar olar və bütün lə՚nət edə bilənlər də onlara lə՚nət oxuyar!»***[1]

İmam Məhəmməd Baqir (ə) bu haqda buyurur:

«Elmin zəkatı onun Allah bəndələrinə öyrədilməsidir».[2]

İmam Sadiq (ə) buyurur:

---

[1] Bəqərə-159.

[2] Elmin fəziləti.

«Əli (ə)-ın kitabında deyilirdi: Allah-taala alimlərin nadanları öz elmlərilə bəhrələndirmədən, onlardan [nadanlardan] elmə yiyələnmələri üçün əhd-peyman almır. Çünki, elm cəhalət və nadanlıqdan əvvəl yaranmışdır».

7. Alimlərin üzərinə düşən digər vəzifələrdən biri də həqiqəti gizlətməmələridir. Camaat - «biz bu həqiqəti bilmədik və bizi bundan agah edən şəxs də olmadı» - deməsinlər deyə, müəllim və alimlər həqiqəti olduğu kimi onlara çatdırmalı və üzərlərinə düşən vəzifəsini layiqincə yerinə yetirməlidirlər.

İslam dininin vacib etdiyi «Xeyirli işlərə də՚vət, pisliklərdən çəkindirmək» (Əmr bil mə՚ruf və nəhy ənil munkər) kimi mühüm vəzifələrdən biri də məhz alimlərin üzərinə düşür. Hər bir mö՚min şəxs ixtiyarında olan elmi mə՚lumatlarla bu məsələyə xüsusi diqqət yetirməli və bununla bid՚ətçilərin nüfuzunun qarşısını almalıdırlar.

Peyğəmbər (s) buyurur:

«Ümmətimin arasında bid՚ət baş alıb getdikdə alimlər öz elmlərini aşkara çıxarıb həqiqəti kimsədən gizlətməməlidirlər. Belə etməyənlər Allahın lə՚nətinə gələrlər».[1]

Elm və tədris alimlərin işi olduğu üçün yaranmış bid՚ətlərin qarşısını almaq da məhz onların üzərinə düşür.

Onlar haqq-ədalətin qorunub saxlanılmasında kimsəyə güzəştə getməməli, həqiqətin aşkara çıxarılmasında heç nədən çəkinməməlidirlər.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Müəllim tədrisdən əvvəl nə kimi hazırlıqlar görməlidir?
2. Müəllim bütün elmi məsələləri hər bir şagirdə açıqlamalıdırmı?
3. İmam Sadiq (ə) alimin hansı xüsusiyyətlərə malik olmasını vacib bilir?
4. Keçmiş alimlər tədris etməyə başlamazdan əvvəl əxlaqi məsələlərə [mə՚nəvi saflığa] diqqət yetirmişlər?

[1] Biharul-ənvar, 2-ci cild, Elm kitabı.

## OTUZ YEDDİNCİ DƏRS

## MÜƏLLİMİN VƏZİFƏLƏRİ

1. Müəllimin üzərinə düşən ən başlıca vəzifə öz şagirdlərini tədricən dini və əxlaqi tə᾽limlərlə tanış edib, onların elmi səviyyələrini artırmaqdan ibarətdir. Hər bir maddə öz xüsusiyyətinə uyğun olan qabda yerləşdiyi kimi, ilahi elmlər də sağlam əql və qəlblərdə yerləşər. Bunun üçün də müəllimlər öz şagirdlərinə tədris etməzdən əvvəl, onları həqiqəti qəbul etməyə hazır etməlidirlər ki, elmin həqiqəti qarşısında təslim və təvazökar olsunlar. Yalnız belə bir şəraitdə şagirdlər insani yüksəlişə nail ola bilərlər.

Bunun isə ən başlıca şərti şagirdlərin niyyətlərinin saflaşdırılmasına köməklik göstərmələri və bu yolda onlara lazımi məsləhətlər vermələridir. Onlar çalışmalıdırlar ki, tərbiyə etdikləri şagirdlərin niyyətləri saf və xalis_olsun, onlar ilahi elm və mə᾽rifət dəryasında qərq olsunlar.

Bunun üçün də müəllimlər hər şeydən əvvəl şagirdlərinin mə᾽nəviyyatına xüsusi diqqət yetirməli, fani dünyaya bel bağlamalarına yol verməməlidirlər. Hidayət yoluna qədəm qoymaları üçün onlarda elmə qarşı rəğbət hissi oyatmalı və elmin sirlərinə yol tapmaqda onlara kömək etməlidirlər.

2. Müəllimlər şagirdlərdə rəğbət hissi oyatdıqdan sonra elmə yiyələnməyin fəzilətini və elmin həqiqi dəyərlərini onlara çatdırmalıdırlar. Onlara xatırlatmalıdırlar ki, yaradılış aləminin əzəmət və böyüklüyünü yalnız elm və təqvaya birlikdə nail olduqdan sonra dərk edə bilərlər. Böyük elmi nailiyyətlər əldə etmiş, təqva və pəhrizkarlıqla mə᾽nəvi saflığa nail olmuş bir çox dahi alimlərin həyatı şagirdləri maraqlandırmaqda ən başlıca amil hesab oluna bilər.

3. Müəllim-şagird münasibətləri islam qardaşlıq tərzi-təfəkkürü əsasında formalaşmalıdır. Müəllim öz doğma övladına qarşı necə mehriban olursa, şagirdlərinə qarşı da bir o qədər qayğıkeş olmalıdır. Özü üçün istədiklərini onlara da arzu etməli, özünə rəva bilmədiyi şeyləri onlara da rəva bilməməlidir.

Peyğəmbər (s) bu haqda buyurur:

«Sevdiyiniz şeyləri müsəlman qardaşlarınıza arzu etməyincə, qəlblərinizə iman yol tapmayacaqdır».[1]

Deməк, müəllim öz şagirdlərini sevdiyi şeylərə sövq etməli və özünə rəva bilmədiyi şeylərdən çəkindirməyə çalışmalıdır.

4. Müəllim öz şagirdlərini haram şeylərdən və xoşagəlməz xüsusiyyətlərdən çəkindirməyə çalışmalıdır. Onlara olunan tövsiyələr ilk mərhələdə olduqca mülayim və məntiqi olmalıdır. Çünki sərt davranış onları nəinki günahdan çəkindirməyəcək, əksinə günah və harama meyl etmələrinə səbəb olacaqdır.

Allah-taala Musa (ə)-la Harun (ə)-ı Fir᾽onun yanına göndərərkən onunla mülayim danışmağı əmr edir:

[1] Səhih Buxari, 1-ci cild, İman kitabı.

***«Onunla yumşaq danışın. Bəlkə öyüd-nəsihət qəbul etsin, yaxud [Rəbbindən] qorxsun!»[1]***

Mülayim rəftarla şagirdlərin günaha düçar olmalarının qarşısını almaq mümkün olmadıqda, şübhəsiz ki, ciddi tədbirlərə əl atmalı və lazım gəldikdə cəzalandırmaqdan belə çəkinməməlidir. Bu da bir nəticə vermədikdə, başqalarına mənfi tə᾽sir göstərməsinlər deyə, onları təhsil mühitindən uzaqlaşdırılmalıdırlar.

5. Müəllimlər şagirdlərin qarşısında qürur və təkəbbürlüyə yol vermədən son dərəcə təvazökar olmalıdırlar. Yalnız belə bir şəraitdə müəllimlə şagirdlər arasında səmimi münasibətlər yaranar və şagirdlər müəllimlərin onlara etdikləri tövsiyələrdən faydalana bilərlər.

Eyni zamanda müəllimlər şagirdlərin zəif xüsusiyyətlərindən agah olub onların aradan qaldırılmasında müvafiq tədbirlərə əl ata bilərlər. Şüəra surəsinin 215-ci ayəsində Allah-taala Peyğəmbərə (s) əmr edərək buyurur:

***«Sənə tabe olan mö᾽minləri qanadın altına al! [Onlarla yumşaq davran, nəzakətlə rəftar et, köməklərinə çat!]»***

Deməк, müəllim öz şagirdləri ilə səmimi münasibətdə olub onlarla gözəl davranmalıdır. Şagirdlər müəllimlərin onlara qarşı səmimi münasibət bəslədiyini görüb onun məcburiyyət üzündən deyil, elmə olan meyl və maraq üzündən tədris etdiyinin şahidi olacaqlar.

Müəllim şagirdlərinə qarşı son dərəcə qayğıkeş və mehriban olmalıdır. Onların hər birinin adını yadında saxlamalı, dərsdə iştirak etməyənlərdən hal-əhval tutub çətinliklərinin aradan qaldırılmasında kömək etməlidir. Beləliklə, müəllimlə şagirdlər arasındakı münasibətlər daha da yaxşılaşır və nəticədə müəllim, üzərinə düşən vəzifələrin öhdəsindən gəlməkdə daha müvəffəq olur. Eyni zamanda elm və müəllimə olan hörmət daha da güclənir və şagirdlər müəllimlərinin qədrini daha çox bilməyə başlayırlar.

6. Müəllim izah etdiyi mövzuları şagirdlərin iste᾽dad və bacarıqlarına müvafiq olaraq anlatmağa çalışmalıdır. Müqəddimə və sadə mətləblər haqda ilkin mə᾽lumatlar vermədən, dərk olunması ağır olan mövzular haqda söhbət açmaq şagirdlərin biliklərinin artmasına deyil, əksinə onların elm və təhsildən uzaq düşmələrinə səbəb olur. Müəllim şagirdlərin suallarına cavab verdikdə də bu məsələyə diqqət yetirməlidir. Suallara verilən cavablarda da müqəddiməyə ehtiyac duyduqda belə, dərhal cavab verməməli, onlarda ibtidai mə᾽lumatların əsasını qoymağa çalışmalıdır. Çünki başa düşülməsi ağır olan mətləblər bir çox hallarda sual verən şagirdi daha da ağır şəraitə salır.

Müəllim tədris etdiyi mətləblərin tərtib və ardıcıllığına riayət etməlidir. Bu məsələni onlara etdiyi əxlaqi tövsiyələrində də nəzərə almalıdır. O, hər şeydən əvvəl şagirdləri vacib və zəruri (istər şər᾽i olsun, istərsə də ictimai) məsələlərə sövq etməli, daha sonra bir o qədər də zəruri olmayan məsələlər haqda lazımi mə᾽lumatlar verməlidir.

7. Müəllim şagirdlərin əhval-ruhiyyələrinin artmasına çalışmalı və onların həyatın bütün sahələrində, o cümlədən elm və təhsildə uğur qazancaqlarına

---

[1] Taha-44.

ümidvar etməlidir. Eyni zamanda onların ruhdan düşmələrinə və mə᾽nəvi sarsıntı keçirmələrinə səbəb olacaq heç bir şey deməməlidir. Məsələn, şagird dərs zamanı hər hansı bir mətləbi düzgün bəyan edə bilmədikdə müəllim səbr və təmkinlə onun səhvini düzəltməli, danlaq və yersiz xəbərdarlıqlarla şagird yoldaşlarının qarşısında alçaltmamalıdır.

8. Müəllim şagirdləri elmi mübahisələrə, sual-cavaba, sinifdə daha fəal olan qabaqcıl şagirdlərə qarşı ehtiramla yanaşmağa sövq etməlidir. Həmçinin şagirdlərin mübahisə zamanı yeni fikirlər irəli sürmələrini və məntiqi iradlarını nəzərə alıb onları bu işdə daha da fəal olmağa həvəsləndirməlidir. Şagirdlərin mə᾽lumat dairələrini daha da genişləndirmək üçün onlara əlavə mə᾽lumatlar verməli və bu işdə onların özlərinin də fəaliyyət göstərmələrinə lazımi şərait yaratmalıdır.

9. Müəllim şagirdlər arasında bərabərliyə xüsusi diqqət yetirməlidir. Dərs zamanı sorğu-sual etdikdə onların arasında fərq qoymamalıdır. Onlara iste᾽dad və bacarıqlarını büruzə verməyə və elmi səviyyələrini artırmağa köməklik göstərməlidir. Şagirdlərlə eyni səviyyədə davranmalı, lakin daha fəal və zirək şagirdlərin zəhmətini isə lazımınca qiymətləndirməyi bacarmalıdır. Müəllim fəal şagirdlərə xüsusi diqqət yetirməli və onları başqalarından daha çox sevməlidir və bunu nə üçün belə etdiyini şagirdlərə anlatmağı bacarmalıdır. Əks təqdirdə, fəal şagirdlərin dərsə olan meyli zəifləyəcək, tənbəl şagirdlərin isə ədəbsizliklərinin daha da artmasına səbəb olacaqdır.

10. Müəllim yalnız öz ixtisasına uyğun olan fənləri tədris etməlidir. Əks təqdirdə, həm müəllim öz mövqeyini itirər, həm də şagirdlər yanlış mə᾽lumatlar əldə etmiş olarlar.

Eyni zamanda müəllim yalnız öz ixtisasının əhəmiyyət kəsb etdiyini söyləməklə, digər fənlərə təhqir gözü ilə baxmamalıdır. Əlbəttə, bu məsələ islamın yasaq etdiyi fənlərə şamil olunmur.

11. Müəllim şagirdlərin iste᾽dad və bacarıqları ilə tanış olduqdan sonra onları daha çox uğur qazana bilcəkləri fənlərə istiqamətləndirməli və kimlərdən dərs almalı olduqlarını da tövsiyə etməlidir.

12. Tədris dövrü başa çatdıqdan sonra müəllim yeni şagirdlərin tə᾽lim-tərbiyəsi ilə məşğul olmalı və öz təhsilini başa vurmuş şagirdlərin tədris etmələrinə lazımi şərait yaratmalıdır. Öz fəal şagirdlərini tanıtdırmalı, elm sahiblərində onlara qarşı xoş fikir yaratmalıdır.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Tədris etməzdən əvvəl müəllim şagirdlərin mə᾽nəvi saflığına nə üçün diqqət yetirməlidir?
2. Müəllimlə şagirdlər arasındakı münasibətlər necə olmalıdır?
3. Müəllim dərs zamanı hansı qaydalara riayət etməlidir?
4. Şagirdlərin iste᾽dad və bacarıqlarını çiçəkləndirməkdə müəllimin üzərinə nə kimi vəzifələr düşür?
5. Şagirdlərin təhsil dövrü başa çatdıqdan sonra müəllimlərin üzərinə hansı vəzifələr düşür?

## OTUZ SƏKKİZİNCİ DƏRS

### *MÜƏLLİMİN SİNİFDƏ ÜZƏRİNƏ DÜŞƏN VƏZİFLƏR*

1. Müəllim dərsə gəldiyi zaman tam hazırlıqlı olmalıdır. Paltarlarının və bədəninin təmizliyinə xüsusi diqqət yetirməlidir. Geyindiyi paltarlar sadə və səliqəli olmalıdır. Lakin bu heç də o demək deyildir ki, olduqca bahalı paltarlar geyinib başqalarını özünə cəlb etmiş olsun. Müəllim hər şeydən əvvəl öz şəxsiyyətini qoruyub saxlamağı bacarmalı və şagirdlərinə örnək və nümunə olmalıdır.

2. Yaxşı olar ki, mənzildən çıxan zaman Peyğəmbərin (s) tövsiyə etdiyi bu duanı oxusun:

«İlahi kimsəni [haqq] yoldan azdırmaqdan, yolumu azmaqdan, büdrəyib-büdrətməkdən, kimsənin haqqını tapdayıb və kimsənin mənim haqqımı taptamasından, kimsəni nadanlığa sövq etməkdən və özümün nadanlığa düçar olmağımdan Sənə pənah gətirirəm. İlahi! Sənə yaxın olan bəndələrin əziz olarlar. Sənə sitayiş etmək olduqca böyük və əzəmətlidir və Səndən başqa ibadət olunası varlıq yoxdur».[1]

Sonra bunları demək daha yaxşı olar:

«Allahın adı ilə! Allah mənə kifayət edər. Ona təvəkkül etdim. Ondan böyük və əzəmətli qüdrət sahibi yoxdur. O, böyük və uca olan Allahdır. İlahi! Qəlbimi imanla dolu və haqqı dilimə gətir».[2]

3. Müəllim sinifə girdiyi zaman şagirdlərə salam verib, gülər üzlə onlarla hal-əhval tutmalıdır. O, özünün müəllimlik əxlaq və davranışını dərsin əvvəlindən sonunadək qoruyub saxlamağa çalışmalıdır. Dərs boyu şagirdlərin diqqətini özünə cəlb etməli, şagirdlərin dərsdən yayınmalarına yol verməməlidir. Dərsin gedişatını tam ələ almalı, şagirdləri diqqət mərkəzində saxlamaq üçün sinifdə özünə münasib bir yer seçməlidir.

4. Dərsi Allahın adı ilə başlayıb Ona həmd və səna etməklə başa vurmalıdır ki, bu xüsusiyyət şagirdlərdə də adət halına çevrilsin. Əxlaq alimləri müəllimlərə tövsiyə etmişlər ki, dərsə başlamazdan əvvəl hətta iki rükʾət namaz qılıb Allah-taaladan bu işdə onlara kömək etməsini diləsinlər. Bütün bunlar şagirdlərin dərsə olan əlaqələrini daha da artırır və təhsilə daha böyük əhəmiyyət verib, niyyət saflığı və Allah rizasına nail olmağa böyükköməklik göstərir.

5. Müəllimin tədris üsulu elə olmalıdır ki, şagirdlər onun öz dediklərini qəbul etdiyinə yəqinlik hasil etsinlər. Əks təqdirdə, müəllimin dediklərinə nəinki əməl olunmayacaq, şagirdlərə heç bir müsbət təʾsir də göstərməyəcəkdir. Bunun üçün də müəllim dərsin gedişatına ciddi yanaşmalı, yersiz zarafat və əyləncələrə yol verməməlidir. Lakin ciddilik dedikdə, heç də müəllimin şagirdlərə soyuq münasibət bəsləyib onlara qarşı amansız olması nəzərdə tutulmur. Müəllim daim dərsin gedişatına nəzarət etməli və şagirdlərin dərsdən yayınmalarına yol

[1] Sünəni əbi-Davud, 4-ci cild, 5094-cü hədis.
[2] Həmən mənbə, 5095-ci hədis.

verməməlidir. Onlarda yorğunluq hiss etdikdə əhval-ruhiyyələrinin yüksəldilməsi üçün qısa və mə᾽nalı zarafatla yorğunluqlarının aradan qaldırılmasına çalışmalıdır. Lakin zarafat etdikdə də ifrata varıb dərsin pozulmasına yol verməməlidir. Əks təqdirdə, müəllim sinfi idarə etməyə qadir olmayacaqdır.

6. Müəllimin özünəməxsus tədris üsulu olmalı, şagirdlərə, tədris edəcəyi kitablar haqda əvvəlcədən mə᾽lumat verməlidir.

Nəzərdə tutduğu mövzunu izah etməzdən əvvəl şagirdlərin iste᾽dad və bacarıqlarını, həmçinin onların elmi səviyyələrini nəzərə almalıdır. Birinci dərs günü ilk tanışlıqdan sonra öz tədris üsulu, həmçinin tədris etdiyi fənnin müsbət cəhətləri haqda şagirdlərə ümumi mə᾽lumat verməlidir.

7. Müəllim, haqqında söhbət açdığı mövzunu çox uzatmamalı və dərsin gedişatını yorucu etməməlidir. Dərsi izah edərkən mətləbin təkrarına və uzadılmasına yol verməməli və şagirdlər özlərini iclasda deyil, dərsdə hiss etməlidirlər. Eyni zamanda mətləbi o qədər də ixtisara salmamalıdır ki, şagirdlər dərsi qavramaqda çətinlik çəkmiş olsunlar. Bir sözlə, mətləbi nə həddindən artıq uzatmalı, nə də ixtisara salmalıdır. Lakin, bə᾽zən əxlaqi və tərbiyəvi məsələlərin ətraflı izah olunmasına ehtiyac duyulur. Şagirdlərin dərsi yaxşı qavraması üçün belə mövzular bir neçə dəfə təkrar olunmalı və ya əlavə olaraq xatırlanmalıdır.

8. Müəllim öz dərs üslubunda, dərsin vaxt və keçirilməsində şagirdlərin istək və təkliflərini nəzərə almalıdır. Ən qısa müddət ərzində şagirdlər dərsdən mümkün qədər çox bəhrələnməlidirlər. Müəllim dərs zamanı nə səsini həddindən artıq ucaltmalı, nə də şagirdlərin eşidə bilməyəcəkləri qədər asta danışmalıdır.

9. Müəllim şagirdlərin səs-küyünün qarşısını almalı və dərsin öz axarından çıxmasına, özünün və digər fəal şagirdlərin narahatçılığına yol verməməlidir. Əks təqdirdə, sinfin nizam-intizamı pozulacaq və sinfə nəzarət etmək mümkün olmayacaqdır.

10. Sinfin nizam-intizamını qoruduğu zaman şagirdləri inzibati qayda-qanunlara riayət etməyə, bir-birlərinə qarşı hörmətlə yanaşmağa sövq etməlidir. Həmçinin, onlarda ictimai-əxlaqi məs᾽uliyyət hisslərini gücləndirməyə və ictimai həyata hazır olmağa kömək etməlidir.

11. Müəllim şagirdlərin verdikləri suallara təmkinlə cavab verməli və onları qane etməyə çalışmalıdır. Çünki, suallar bə᾽zən şagirdlər tərəfindən şəxsi qərəzçilik və ya müxtəlif səbəblər üzündən verilir. Bə᾽ziləri müəllimin elmi səviyyəsini yoxlamaq, bə᾽ziləri də dərsin gedişatına mane olmaq məqsədilə qeyri-məntiqi suallara əl atırlar. Lakin bir çox hallarda suallar maraq və ya şübhəni aradan qaldırmaq məqsədilə verilir. Bə᾽zi hallarda şagirdlər öz fikirlərini çatdırmağa qadir olmadıqları üçün verdikləri sualları lazımı qaydada açıqlaya bilmirlər. Bunun üçün də şübhəli ifadələrdən istifadə edirlər. Bu kimi hallarda müəllim tam soyuqqanlıqla şagirdlərin verdikləri bütün suallara məntiqi cavab verib qərəzli sualların qarşısını almalı, eyni zamanda öz müəllimlik şəxsiyyətini qorumağa çalışmalıdır.

12. Müəllim verilən sualların cavabını bilmədikdə, müxtəlif fikirlər irəli sürmədən cəsarətlə - «Bilmirəm» - deməlidir.

Əli (ə) bu haqda buyurur:

«Sizdən bilmədiyiniz şeylər haqda soruşduqda qaçmağa çalışın». Səhabə - «Necə qaçaq?» - soruşduqda, buyurur:

«Deyin ki, Allah hər şeydən agahdır».[1]

İmam Məhəmməd Baqir (ə) buyurur:

«Bildiyiniz şey haqda danışın, bilmədiyiniz şeylər haqda - «Allah hər şeydən agahdır!» - deyin. Həqiqətən bir şəxs Qur᾿an ayələrinin birinin anlamını yanlış bəyan edərsə, yerlə göy arası qədər süquta uğrayar».[2]

Bə᾿ziləri belə güman edirlər ki, «bilmirəm» deməklə, onların elmi məqamına xələl gələcəkdir. Lakin, həqiqət bunun tam əksinədir. Şagirdlər müəllimin bilmədiyini e᾿tiraf etdiyini görüdükdə, tədris etdiyi fənnə daha arxayınlıqla yanaşıb bunu müəllimin təqva və imanından irəli gəldiyini hesab edəcəklər. Bunu da nəzərdən qaçırmamalıyıq ki, bütün insanların elmi səviyyəsi məhdud və naqisdir. Belə ki, bütün elmlərə yiyələnən bir şəxs tapmaq sadəcə olaraq qeyri-mümkündür. Deməк, bizim bə᾿zi sualların cavabını bilmədiyimizi e᾿tiraf etməyimiz tamamilə təbii bir haldır. Verilən suallara heç bir məntiqə əsaslanmayan cavab verdikdə isə, şagirdlərdə istər-istəməz müəllimə qarşı şübhə hissi yaranır. Alimlərdən biri bu haqda deyir: «Bilmirəm» deməyi öyrəndikdə başqalarının həmin mətləbdən agah etmələri sənə nəsib olacaqdır. Nəhayət elə bir həddə çatacaqsan ki, cəsarətlə «Bilmirəm!» deyəcəksən.

13. Müəllim dərsi qurtarmazdan əvvəl, keçdiyi dərsə bir daha qayıtmalı və onu xülasə və yığcam şəkildə yekunlaşdırmalıdır. Əgər hər hansı bir mətləbi unudub və ya ətraflı izah etməyibsə, yenidən həmin mətləbə qayıdıb təkmilləşdirməyə və şagirdləri maraqlandıran suallara cavab verməlidir. İstər şagirdlər, istərsə də müəllim özü səhvə yol verdikdə dərhal bunun aradan qaldırılmasına cəhd etməli və şagirdlərdən təvazökarlıqla səhvə yol verdiyi üçün üzr istəməlidir. Bu, müəllimin nəinki şagirdlərin gözündən düşməsinə, əksinə onların nəzərində daha da ucalmasına səbəb olur.

14. İslam alimləri dərsin sonunda şagirdlərə əxlaqi və tərbiyəvi tövsiyələr etməyə xüsusi diqqət yetirmişlər. Onların fikrincə, elm yalnız mə᾿nəvi saflıqla əldə oluna bilər.

15. Dərs başa çatdıqdan sonra müəllim şagirdlərin fikirlərini irəli sürməyə və onları maraqlandıran bütün suallara cavab verməyə xüsusi vaxt ayırmalıdır. Bunun üçün də dərs otağını tərk etməyə tələsməməlidir. Eyni zamanda dərsdə iştirak etmək istəməyən şagirdlərə də sinifdən xaric olmağa mane olmamalıdır.

16. Daha yaxşı olar ki, müəllim, dərsi Allaha şükr və səna etməklə başa vursun. Peyğəmbər (s) səhabələri maraqlandıran suallara cavab verib qurtardıqdan sonra belə dua edərdi:

«İlahi! Səhv və ya bilərəkdən düçar olduğumuz günahlarımızı bizlərə bağışla. Gizlətdiyimiz və ya aşkara çıxardığımız səhvlərimizi bağışla! İlahi! Hər şeyi

---

[1] Sünəni Darmi, 1-ci cild.

[2] Üsuli-kafi, 1-ci cild, Elmin fəziləti.

tezləşdirən və ya tə`xirə salan Sənsən. Səndən başqa ibadət olunası bir varlıq yoxdur».

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Müəllim dərsə başlamazdan əvvəl nə kimi qaydalara riayət etməlidir?
2. Müəllim nə üçün şagirdlərin mübahisələrinin qarşısını almalıdır?
3. Bilmədiyi mətləblərlə qarşılaşdıqda müəllimin üzərinə nə kimi vəzifələr düşür?
4. Müəllimin dərsi necə başlamalı və necə başa vurmalı olduğunu izah edin.

# OTUZ DOQQUZUNCU DƏRS

## ŞAGİRDLƏRİN ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏR

Ötən dərslərdən müəllimin üzərinə üç əsaslı vəzifə düşdüyü bəlli oldu. İndi isə şagirdlərin üzərinə düşən üç əsaslı vəzifəyə haqda danışmaq istəyirik:

1. Şagirdlərin özünə aid olan vəzifələr;
2. Şagirdlərin müəllimə qarşı olan vəzifələri;
3. Şagirdlərin sinifdə üzərinə düşən vəzifələr.

Bunu da qeyd edək ki, yataqxanalarda müvəqqəti məskunlaşmış şagirdlərin də riayət etmələri zəruri olan bəʾzi vəzifələr vardır. Bu və növbəti dərslərimizdə bütün bu məsələlər haqda ətraflı söhbət açacağıq.

## *ŞAGİRDLƏRİN ÖZÜNƏ AİD OLAN VƏZİFƏLƏR*

1. Şagird və tələbələr təhsilə başlamazdan əvvəl özlərini müxtəlif elmlərə yiyələnməyə hazırlamalıdırlar. Bunun üçün də onlar hər şeydən əvvəl məʾnəvi saflığa xüsusi diqqət yetirməlidirlər. Əkindən əvvəl yerin şumlanması zəruri olduğu kimi, elm və təhsilə başlamazdan əvvəl də insanın məʾnəvi saflığa və əxlaqi dəyərlərə yiyələnməyi ən ümdə məsələlərdən biri hesab olunur. Çünki, islam maarifi yalnız pak qəlblərdə özünə yer tapır. Peyğəmbər (s) bu haqda buyurur:

«İnsanın cismində elə bir üzv vardır ki, əgər sağlam olarsa bütün bədən sağlam olar, korlanarsa bütün bədəni zəiflədib aradan aparar. Bilin ki, həmin bədən üzvü qəlbdir».[1]

Müsəlman əxlaq alimləri hafizə zəifliyinin aradan qaldırılması üçün pəhrizkarlığı və günahdan çəkinməyi tövsiyə etmişlər. Çünki ruhi aludəlik islam elm və maarifinə yiyələnməyə böyük maneəçilik törədir. Bunun üçün də elmə yiyələnmək istəyən şəxslər təhsilə başlamazdan əvvəl məʾnəvi və ruhi saflığa böyük diqqət yetirməli və itaətsizlik üzündən günaha düçar olmalarına yol verməməlidirlər.

2. Şagirdlər elm və təhsil üçün münasib olan cavanlıq illərini məʾnasız məşğuliyyətlərlə keçirməməlidirlər. Çünki insanın əhval-ruhiyyəsi onun cavanlıq dövründə daha da fəal olur. Həmçinin ictimai və şəxsi məsʾuliyyətlər adətən zehni məşğuliyyətlərə səbəb olacaq həddə olmur. Bunun üçün də cavanlıq illərində elm və təhsillə məşğul olmağa daha çox imkan yaranır.

Peyğəmbərdən (s) nəql olunmuş hədisdə deyilir:

«Kiçik yaşlarında öyrənilən elm daş üzərinə yonulan yazıya, qocalıqda öyrənilən elm isə su üzərində yazılan yazıya bənzəyir».[2]

Bunu da qeyd etmək lazımdır ki, insan yaşa dolduqca onun cismi və zehni qabiliyyəti zəifləyib azalmağa doğru gedir. Yasin surəsinin 68-ci ayəsində deyilir:

---

[1] Səhih Buxari, 1-ci cild, İman kitabı.

[2] Cameüs-səğir, 2-ci cild, mim hərfi.

***«Hər kəsə uzun ömür versək, onu xilqətcə dəyişib tərsinə çevirərik [qüvvəsini alar, gözünün nurunu aparar, hafizəsini zəiflədib bildiklərini unutdurar, özünü də uşaq kimi edərik]...»***

İnsan yaşa dolduqca elm və təhsilə lazım olan şərait məhdudlaşır və elmə yiyələnmək olduqca çətinləşir. Kiçik yaşlarında elmə yiyələndikdə isə insanın əhval-ruhiyyəsi yaşa dolduqca da ona elmi fəaliyyətlərini davam etməyə imkan verir. Lakin kiçik yaşlarından elm və təhsildən uzaq düşdükdə, bir çox hallarda yaş həddi ötdükdə elmə yiyələnmək olduqca çətin olur. Hərçənd istənilən yaş həddində elmə yiyələnmək heç də qeyri-mümkün deyildir. Belə ki, tarixə nəzər saldıqda orta yaşlarında elm və təhsilə başlayan və bu yolda ağır zəhmətlərə qatlaşan və nəticədə böyük nailiyyətlər əldə edən şəxslərin şahidi oluruq. İslam dünyasının dahi alimlərindən olan Səkkakini buna misal çəkmək olar.

3. Elm sahəsində fəaliyyət göstərən şəxslər imkan daxilində onları elmi fəaliyyətlərdən uzaqlaşdıran məşğuliyyətlərdən uzaq olmağa çalışmalıdırlar. Çünki, daim yemək, geyim, məskən, gəzinti, qazanc və bu kimi şeylər haqda düşündükdə elm və təhsil üçün düşünüb-daşınmağa onda nə vaxt qalır, nə də maraq. Elm rifah, naz-ne᾽mətlə dolu olan həyatla deyil, yalnız səbr və təmkinlik, müvəqqəti ləzzətlərə göz yummaqla əldə olunur.

4. Elm adamları onları elm və təhsildən uzaqlaşdırıb mə᾽nasız əyləncələrə sürükləyən şəxslərdən uzaq olmağa və elmi fəaliyyətlərə sövq edən və bu işdə onlara köməklik edən şəxslərlə ünsiyyətdə olmağa çalışmalıdırlar.

5. Elm sahəsində fəaliyyət göstərən şəxslər öz hədəflərinə çatmaq üçün mətin və vüqarlı olmalıdırlar. Yalnız belə olduqda insan yüksək elmi məqamlara nail ola bilər. Çünki kiçik elmi dərəcələrə qane olmaq insana elm və təhsildə böyük maneələr yaradır və insan adətən istəyindən azına nail olur. Onun arzuları isə əldə etdiklərindən daha çox olur. Bunun üçün də böyük elmi dərəcələrə nail olmaq istəyən hər bir şəxs bu yolda əzab-əziyyətlərə qatlaşmalı olur, lakin bə᾽zən məqsədinə çata bilmir. Hədəfi kiçik elmi dərəcələr olan şəxslər isə çox az hallarda buna nail ola bilirlər.

6. Elm sahəsində fəaliyyət göstərən şəxslər elmi mətləblərə böyük həvəs və maraqla yanaşmalı, hər hansı bir şəraitdə yeni elmi mətləblərlə qarşılaşdıqda tənbəllik etmədən onun öyrənilməsinə can atmalıdırlar.

7. Elm sahəsində fəaliyyət göstərən şəxslər yiyələndikləri elmə ağıl və məntiqlə yanaşmalı, dərsin öyrənilməsində düzgün üsul seçməli və ibtidai məsələlərlə tanış olmadan çətin mövzulara girişməməlidirlər. Müqəddəimə ilə tanış olmadan yüksək səviyyəli mövzuları mütaliə etmək olduqca səhv və heç bir müsbət nəticə verməyən bir üsuldur. Lakin təəssüflər olsun ki, bə᾽ziləri başqalarının yanında iftixar_hissi keçirsinlər deyə, belə bir yanlış üsula əl atırlar.

## *ŞAGİRDLƏ MÜƏLLİM ARASINDA QARŞILIQLI MÜNASİBƏT*

1. Bu barədə şagirdlərin üzərlərinə düşən ən başlıca vəzifə, özlərinə elm və əxlaqi səviyyəsi yüksək olan müəllim və mütəxəssisləri seçmələridir. Müəllimin şagirdlərin tə᾽lim-tərbiyəsində qoyduğu tə᾽sirə nəzər salsaq, bunun əhəmiyyətini daha yaxından dərk etmiş olacağıq. Tə᾽lim-tərbiyəmizin və mə᾽nəviyyatımızın

saflığını hər hansı bir müəllimin ixtiyarına qoyuruqsa, hər şeydən əvvəl tərbiyə aldığımız müəllimin təqva və davranışına, elmi səviyyəsinin hansı dərəcədə olduğuna diqqət yetirməliyik. Çünki müəllim öz elmi mə᾽lumatlarını mö᾽təbər mənbələrdən əldə etməli və masa arxasında oturmağa xatir yalnız bir neçə kitab mütaliə etməklə kifayətlənməməlidir.

2. Şagird müəllimini öz doğma atası, hətta ondan da üstün hesab etməlidir. Çünki ata adətən övladının cismi tərbiyəsi ilə məşğul olur. Müəllim isə onun ruhi tərbiyəsini öz öhdəsinə götürür. Bunun üçün də müəllimin hüququnu qorumaq hər bir şagird üçün vacib və zəruridir.

İmam Zeynəlabidin (ə) bu haqda buyurur:

«Təhsil aldığınız şəxslərə ehtiramla yanaşın. Onların dediklərini diqqətlə dinləyin, iştirak etdiyiniz məclislərdə onlara tə᾽zim edin. Səsinizi onların səsindən ucaltmayın, ona sual verildikdə qənaətbəxş cavab verməyincə qabaqlamağa can atmayın. Onun yanında kimsə ilə söhbət və kiminsə qeybətini etməyin. Sizin yanınızda onun haqda xoşagəlməz sözlər söylənilərsə, onu müdafiə etməyə çalışın. Çatışmazlıqlarına göz yumub müsbət xüsusiyyətlərini üzə çıxarın. Onlarla düşmənçilik edən şəxslərlə ünsiyyətdə olmayın və onun dostları ilə düşmənçilik etməyin. Əgər bunlara riayət etsəniz, O böyük Allahın mələkləri şəhadət verəcəklər ki, onun haqqını ödəmiş və tədris etdiyi elmi camaata xatir deyil, Allaha xatir öyrənmisiniz».[1]

3. Şagirdlər müəllimlərinin qarşısında təvazökar olmalıdırlar. Bu xüsusiyyət digər alimlərin qarşısında edilən təvazökarlıqdan daha artıq olmalıdır. Çünki o, öz elmi ilə yanaşı müəllimlik məqamına da yiyələnir. Şagird müəlliminin qarşısında təvazökarlıq edərsə, onun haqqını ödəməklə yanaşı elmindən də kifayət qədər bəhrələnmiş olur.

Peyğəmbər (s) bu haqda buyurur:

«Elmə yiyələnin və ona xatir vüqar və təmkinliyi öyrənin. Təhsil aldığınız şəxslərin qarşısında da təvazökar olun».[2]

4. Şagirdlərin üzərinə düşən vəzifələrdən biri də öz rə᾽ylərini müəllimin rə᾽yindən üstün tutub onun səhv və nəyisə bilməməsində ittiham etməməsidir. Şagirdlər imkan daxilində öz rə᾽ylərinin səhv, müəllimin rə᾽yinin isə doğru və düzgün olduğunu hesab etməlidir. Belə bir rəftar həm şagirdin müəllimə olan ehtiramına, həm də həqiqətin aşkara çıxmasına səbəb olur. Hətta müəllimin səhvə yol verdiyi şagirdə mə᾽lum olduqda belə, bunu dərhal şagirdlərin qarşısında aşkara çıxarmamalıdır. Alimlərin bir çoxu müxtəlif elmi məsələlərdə müəllimlərinin nəzərləri ilə müvafiq olmadıqda belə, onlar sağ olduqları son günədək öz fikirlərini bildirməkdən çəkinmişlər.

5. Şagird müəlliminə qarşı hörmətlə yanaşmalı və onu şə᾽ninə layiq olan ad və təxəllüslərlə çağırmalıdır. Yazı və ya çıxışlarında müəlliminin adını çəkdikdə onu hörmət və ehtiramla yad etməlidir.

---

[1] Mən la yəhzərul vəqih, 2-ci cild, 1424-cü hədis.
[2] Kənzül-ümmal, xəbər 28717.

6. Şagirdlər müəllimi sağ ikən qədrini bilməli, etdiyi nəsihətlərə qulaq asıb gündəlik işlərində ona kömək əlini uzatmalıdır. Dünyasını dəyişdikdə isə onun adına xeyirxah işlər görüb, dualarında Allah-taaladan bağışlanmasını diləməlidir.

7. Şagirdlər sinfin ən yaxşı yerində müəllimə yer təklif etməli, onunla ədəblə davranıb söhbət etməlidirlər. Müəllimə müraciət etdikdə ən gözəl ifadələrdən istifadə edib hörmət və ehtiramını saxlamağa çalışmalıdırlar.

8. Diqqət yetirmək lazımdır ki, müəllimin dərsə olan səy və çalışqanlığı şagirdlərin təhsilə olan həvəslərindən irəli gəlir. Bunun üçün də şagirdlər təhsilə böyük həvəs göstərib öz fəaliyyətləri ilə dərsin gedişatına rövnəq verməlidirlər.

9. Müəllim səhvə yol verdikdə şagirdlər sanki bunu hiss etməyib onun başqalarının yanında rüsvay olmasına yol verməməlidirlər. Müəllimin geyimində eyb və nöqsan olduqda (məsələn, düyməsi açıq olduqda), təklikdə müraciət edərək, ədəblə xəbərdarlıq etmək lazımdır.

10. Şagirdlər müəllimin narahatçılığına səbəb olan şeylərə yol verməməlidirlər. Elmi fəaliyyətələrlə, şəxsi və ailə məsələləri ilə məşğul olarkən vaxtını almamalı və yalnız qəbul üçün ayırdığı vaxtlarda müraciət eməlidirlər.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Elm və təhsil üçün hazırlığa necə nail olmaq olar?
2. Elm və təhsillə məşğul olmaq üçün hansı dövr daha münasib hesab olunur?
3. Elm və təhsillə məşğul olduqda nə kimi şeylərdən çəkinmək lazımdır?
4. Müəllim seçdikdə onun hansı xüsusiyyətlərinə diqqət yetirmək lazımdır?
5. Müəllimin şagirdin üzərində olan hüququnu izah edin.
6. Şagird müəllimə qarşı nə kimi əxlaqi xüsusiyyətlərə yiyələnməlidir?

## QIRXINCI DƏRS

## ŞAGİRDLƏRİN ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏR

### *ŞAGİRDLƏRİN DƏRS ZAMANI ÜZƏRLƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏR*

1. Müsəlman əxlaq alimləri Qur᾽anın iki böyük xüsusiyyətini nəzərə alaraq, şagird və tələbələrə bu ilahi kəlamın oxunub hifz olunmasını tövsiyə etmişlər. Əvvəla ona görə ki, Qur᾽an bütün elmlərin mənbə və mənşəyidir. Bunun üçün də Qur᾽anla tanışlıq olmadan əldə olunan bütün elmlər naqisdir. Digər tərəfdən də Qur᾽an ömür və təhsilə bərəkət, qəlblərə saflıq, təravət bəxş edir və tələbələrdə elm və təhsilə rəğbət hissi yaradır.

2. Şagird və tələbələr öz iste᾽dad və bacarıqlarına uyğun elmlərə yiyələnməlidirlər. Əlbəttə insan elm yolunda nə qədər fəal olarsa, elm dairəsi bir o qədər genişlənər və daha çox elmi mə᾽lumatlara nail olar.

3. Şagirdlər düzgün təhsil üsulu seçdikdən sonra elmi məşğələlərə can atmalı və bütün bunlarla yanaşı yiyələndikləri elmin nə dərəcədə əsaslı və mö᾽təbər olduğuna diqqət yetirməlidirlər. Çünki, yanlış üsuldan istifadə etdikdə öyrənilən əsassız mətləblərin islah olunması olduqca çətin və bir çox hallarda isə qeyri-mümkün olur.

4. Şagird və tələbələr vaxtlarından səmərəli istifadə etmək üçün özlərinə müəyyən proqram tərtib etməlidirlər. Əks təqdirdə, üzərinə düşən vəzifənin məs᾽uliyyətini unudacaq, həyatının nəzmi tamamilə pozulacaqdır. Bə᾽zən şagirdlər özləri üçün müəyyən proqram tərtib etmədiklərinə görə gecə-gündüz işləyir, nəticədə işlərinin bir çoxunun yerinə yetirmədiklərindən agah olurlar.

5. Yaxşı olar ki, şagirdlər öz mütaliələrini səhər vaxtına salsınlar. Çünki buna həm havanın saflığı, həm də cismi hazırlıq imkan verir.

6. Dərsə girməzdən əvvəl şagirdlər dərs üçün tam hazırlıqlı vəziyyətdə olmalıdırlar. Əhval-ruhiyyənin yüksək olması üçün bir qədər idman edilməli, bədən və paltarının təmizliyinə diqqət yetirməli, əl-üzünü yumalı və kitab, dəftər, qələm və sair dərs ləvazimatını özü ilə gətirməlidir. Həmçinin dərsə girməzdən əvvəl keçdiyi dərsləri bir qədər mütailə etməyə çalışmalıdırlər.

7. Şagirdlər müəllimin söylədiklərinə diqqətlə qulaq asmalı və başa düşmədiyi mətləbin bir daha açıqlanmasını xahiş etməlidirlər. Belə güman etməməlidirlər ki, eşitdiklərini tamamilə yadda saxlayıb heç vaxt unutmayacaqdır. Bunun üçün də müəllimin mühazirələrini qeyd edib, dəfələrlə təkrar etmək və lazım gəldikdə onu əzbərləmək lazımdır.

8. Şagirdlər üzürlü səbəb olmadan dərsləri buraxmamalı və bütün dərslərdə iştirak etməyə çalışmalıdırlar. Mövzuların bir-birinə olan bağlılığı şagirdləri dərsləri ardıcıl olaraq izləməyə vadar edir. Çünki dərslər arasında verilən fasilələr onlara yetkin nəticə əldə etməkdə böyük çətinliklər yaradır.

9. Şagird və tələbələr sinfə daxil olarkən sinifdə olanlara salam verməlidir. Şagirdlər sinfə daxil olarkən əgər müəllim sinifdə olarsa, salam verib gülər üzlə hal-əhval tutmalıdırlar. Müəllim sinfə şagirdlərdən sonra daxil olduqda isə hörmət əlaməti olaraq ayağa qalxıb salam verməli və yalnız icazə verdikdən sonra oturmalıdırlar.

10. Şagirdlər dərs zamanı tamamilə bir-birlərinin hüquqlarına riayət etməlidirlər. Bunun üçün də onların müəllimi dinləmələrinə və ya yazı lövhəsindən istifadə etməyə mane olan bütün işlərdən çəkinmək lazımdır. Məsələn, boyu uca olan şagirdlər qısa boylu şagirdlərin yazı lövhəsini yaxşı görmələri üçün onlardan arxada oturmalı və onlara maneçilik törətməməlidirlər. Səsi asta şagirdlərə də bu kimi hallarda müəyyən güzəştlər olunmalıdır. Həmçinin müəllimin verdiyi suallara cavab verdikdə də bir-birlərinin növbələrini gözləyib sinifdə qalmaqala yol verməməlidirlər.

11. Şagirdlər qarşılıqlı olaraq bir-birlərinə hörmətlə yanaşmalı, biri digərinin hüququnun taptalanmasına yol verməməlidir. Onlar bir-birlərini təhqir edib xoşagəlməz ləqəblərlə çağırmamalıdırlar. Biri digərinin yerini tutub və ya yerini dar etməməli, əksinə çətinliklərinin aradan qaldırılmasında bir-birlərinə yaxından kömək etməlidirlər. Hafizəsi güclü olan şagirdlər digər yoldaşlarına köməklik edib dərslərin başa salınmasında əllərindən gələni əsirgəməməlidirlər.

## *YATAQXANA ŞƏRAİTİ VƏ ORANIN QAYDA-QANUNLARI*

Dərsin əvvəlində qeyd etdik ki, başqalarından fərqli olaraq, yataqxana şəraitində müvəqqəti sakin olan tələbələrin üzərlərinə bir neçə vəzifə düşür. Onların ən başlıcası aşağıdakılardan ibarətdir:

1. Müxtəlif niyyət və məqsədlərlə tikilən məktəb və yataqxanalar şagird və tələbələrin ixtiyarına qoyulur. Onlardan bə᾽ziləri saf niyyətlə tələbələrin tə᾽lim-tərbiyəsi və dinə layiqincə xidmət göstərmək, bə᾽ziləri də dində bid᾽ətə yol vermək, ixtilaf və qarşıdurmaların yaranması üçün tikilir. Bunun üçün də tələbələr yataqxanalara ad yazdırmazdan əvvəl həmin yerlərin kimlər tərəfindən və hansı məqsədlər üçün tikildiyinə diqqət yetirilməlidirlər.

Qeyd etmək lazımdır ki, yataqxana və məktəb tə᾽sis edən bə᾽zi xeyirxah insanlar, çəkdikləri zəhmətlərin müqabilində tələbələrin yalnız onların və dünyasını dəyişmiş ata-analarının Allah-taaladan bağışlanmalarını diləmələrini istəyirlər. Bunun üçün də yaxşı olar ki, tələbələr savab naminə öz namazlarında onları yad edib Allah-taaladan bağışlanmalarını diləsinlər.

2. Yataqxana mühitində nizam-intizamın qorunması üçün tələbələr hamılıqla məs᾽ul rəhbərlər tərəfindən tə᾽yin olunmuş inzibati qayda-qanunlara riayət etməlidirlər. Əlbəttə hər bir tələbənin inzibati qanunlardan fərqli olan öz zövqünə uyğun yaşayış, istirahət, təhsil üsulu ola bilər və onlar həmin inzibati qanunları ixtiyarlarının məhdudlaşdırılması kimi hesab edə bilərlər. Əgər onların hər biri öz istək və iradəsinə uyğun olaraq həyat tərzi keçirərsə, bu kimi yerlərdə qalmaq təbii ki, qeyri mümkün olacaqdır.

3. Yataqxana mühitində tələbələrin üzərinə düşən ən başlıca vəzifələrdən biri də təmizliyə riayət və bunun tə᾽min olunmasına sə᾽y etməliridir. Cəm halda

yaşanan yerlərdə qanun və qaydaların riayət olunmasında hamı bir nəfər kimi məs᾽uliyyət daşıyır. Bunun üçün də kimsə e᾽tinasızlıq və xudpəsəndlik üzündən üzərinə düşən məs᾽uliyyətlərdən boyun qaçırmamalı və ya onu başqalarının üzərinə atmamalıdır. Tələbələr yataqxanada sağlam mühitin qorunub saxlanılması üçün bir-birləri ilə həmrə᾽y olub təmizliyə hamılıqla riayət etməlidirlər. Eyni zamanda tələbələr şəxsi əşyalarının, otaqlarının, bədən və paltarlarının təmizliyinə xüsusi diqqət yetirməli və başqalarının narahatçılığına səbəb olmamalıdırlar.

4. Tələbələr bir-birlərinin hüquqlarına riayət etməli və biri dəgərinin haqqının taptalanmasına yol verməməlidir. Mütaliə, istirahət və yatmaq vaxtlarında tələbələr bir-birlərini narahat etməməli, yataqxanada sağlam mühitin bərqərar olunmasına xüsusi diqqət yetirməlidirlər. Tələbələrin bir-birlərinə olan münasibətləri elə səmimi olmalıdır ki, təhsil dövrü başa çatdıqdan sonra da, onlarhəmin illəri şirin xatirələrlə yad etsinlər.

5. Tələbələr başqalarına nümunə olmaq istərkən, o şəxslərlə ünsiyyətdə olmalıdırlar ki, onların təhsil və əxlaqına mənfi tə᾽sir göstərməsinlər. Təhsil və ünsiyyət qaydalarında edilən tövsiyələri burada da nəzərə almaq lazımdır.

6. Tələbələr vaxtaşırı bir-birlərinin otaqlarına baş vurub hal-əhval tutmalıdırlar, lakin bu gediş-gəlişlər onların istirahət və mütaliələrinə maneçilik törətməməlidir. Həmçinin qarşılaşdıqları çətinliklərdə bir-birlərinə köməklik göstərməli və bunu özlərinin yoldaşlıq borcu hesab etməlidirlər.

7. Bilmək lazımdır ki, tələbələr, xüsusilə ətraf şəhər və məntəqələrdən gəlmiş şəxslər müxtəlif əxlaq və xüsusiyyətlərə malik olurlar. Bunun üçün də onların bə᾽zilərinin rəftar və davranışları kiminsə ürəyincə olmaya bilər. Bu kimi hallarda tələbələr bir-birlərindən bundan artığını gözləməməlidirlər. Çatışmamazlıqlarını bir-birlərinin üzünə vurmayıb, güzəşt etməyi bacarmalıdırlar. Kiminsə rəftar və davranışı islam əxlaq və qanunları ilə müvafiq olmadıqda isə, düzgün üsullardan istifadə edərək həmin şəsxin islah olunmasına çalışmalıdırlar.

Şagirdlər nəzərə almalıdırlar ki, hər bir insan müəyyən nöqsan və çatışmamazlıqlara malikdirlər. Bunun üçün də yoldaşlarının hər bir çatışmamazlıqlarına görə onlardan üz çevirməməlidirlər. Onların səhvlərinə göz yumub mümkün qədər güzəşt etməyi bacarmalıdırlar.

8. Yataqxana sakinləri yataqxanaya giriş, çıxış, yatmaq, istirahət, mütaliə vaxtlarına və bütün inzibati qanunlara riayət edib hörmətlə yanaşmalıdırlar.

Eyni zamanda gediş-gəliş yolunun tutulması, başqalarının şəxsi əşyalarından istifadə etmək və bu kimi digər narahatçılıqlara səbəb olan şeylərə qətiyyən yol verməməlidirlər.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Qur᾽anın oxunub hifz olunması şagird və tələbələrə nə kimi müsbət tə᾽sir göstərir?
2. Tələbələr təhsil və mütaliə zamanı hansı göstərişlərə riayət etməlidilər?
3. Mütaliə üçün ən münasib vaxt günün hansı hissəsi hesab olunur?
4. Şagird və tələbələr sinfə daxil olarkən hansı göstərişlərə riayət etməlidilər?
5. Təhsil üçün hansı elm ocaqlarına üstünlük verilməlidir?

## QIRX BİRİNCİ DƏRS

### *EVLƏNMƏ*

Evlənmək və ailə qurmaq tarix boyu bütün millətlər arasında müxtəlif adət-ən᾽ənələr çərçivəsində mövcud olmuş və olmaqdadır. Ərlə arvad, uşaqlarla valideyn arasında bərqərar olunan qarşılıqlı münasibətlərdə müəyyən hüquq və qanunlar tə᾽yin edilmiş və bu məsələyə xüsusi əhəmiyyət verilmişdir. Bu və növbəti dərslərimizdə islamın evlənməyə olan münasibəti və evlənmənin islam nöqteyi-nəzərindən dəyər və əhəmiyyəti haqda söhbət açacağıq.

### *İSLAMIN EVLƏNMƏYƏ VERDİYİ DƏYƏR*

Evlənmək və ailə qurmağın islam dinində xüsusi yeri vardır. Belə ki, ailənin qurulması din və mə᾽nəviyyatın təkamülünə səbəb olan ən başlıca amil hesab olunur. Peyğəmbər (s) və onun sadiq davamçıları olan Mə᾽sum imamlar (ə) və əməli-saleh mö᾽minlər daim müsəlmanları ruh və mə᾽nəviyyata müsbət tə᾽sir göstərən bu gözəl adət-ən᾽ənəyə sövq etmişlər. Evlənmək islam nöqteyi-nəzərindən müstəhəb və bə᾽zi hallarda zəruri məsələlərdən hesab olunur.

Misal olaraq burada bir neçə ayəni gətiririk:

***«Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda dostluq, sevgi, mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda [bu yaradılışda] düşünən bir qövm üçün ibrətlər vardır».***

Başqa bir ayədə Allah-taala mö᾽minləri evlənməyə əmr edir:

***«[Ey mö᾽minlər!] Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməli-saleh [yaxud evlənməyə qabil] kölə və cariyələrinizi evləndirin».***[1]

Peyğəmbər (s) buyurur:

«Evlənmək mənim sünnəmdəndir. Kim mənim sünnəmdən üz çevirsə məndən deyildir».[2]

Başqa bir hədisdə buyurur:

«Mənim sünnəmdən üz çevirən şəxs məndən deyildir. Bilin ki, mənim sünnəmdən biri də evlənməkdir. Elə isə məni sevən şəxslər sünnəmə əməl etsinlər.»[3]

Peyğəmbərdən (s) nəql olunmuş hədisdə deyilir:

«Yoxsulluqdan qorxaraq evlənməyən şəxslər bizdən deyildir».[4]

«Yoxsulluqdan qorxaraq evlənməyən şəxslər Allaha qarşı bədgüman olmuşlar».[5]

---

[1] Nur-32.
[2] Biharul-ənvar, 102-ci cild.
[3] Səhih Buxari, 7-ci cild, Əhyayi ülümiddin, Nikah ədəbi kitabı.
[4] Həmən mənbə.
[5] Üsuli-kafi, 5-ci cild.

«Ümmətimin ən yaxşı şəxsləri o kəslərdir ki, evlənib ailə qurmuş olsunlar. Bundan boyun qaçıran şəxslər isə ümmətimin ən pis kəsləridir».[1]

«Sizin ən pisiniz subay olanınızdır. Evli adamın iki rükʾət namazı, subay şəxsin yetmiş rükʾət namazından daha yaxşıdır».[2]

«Dünyasını dəyişənlər içərisində ən pis şəxslər evlənməyənlərinizdir».[3]

«Evli adamın yatması, Allah yanında subay bir şəxsin gecələri ibadətlə keçirməsindən daha yaxşıdır».

«Ailə quran şəxslər dinlərinin yarısını qorumuş olurlar. Elə isə dininizin qalan hissəsinin qorunması üçün pəhrizkar və təqvalı olun».[4]

«Hər bir şəxs cavanlığının oğlan çağında ailə qurduqda Şeytan nalə çəkərək deyər: Vay halıma! O, dinin yarısını məndən qorumuşdur».[5]

«Hər kim ailə qurarsa ibadətlərinin savabının yarısı ona verilmiş olur».

«Allahın hüzuruna pak və təmiz getmək istəyənlər, Onun görüşünə ailə qurduqdan sonra getsin».[6]

## *EVLƏNMƏYİN MÜSBƏT XÜSUSİYYƏTLƏRİ*

Qurʾan və nəql olunmuş rəvayətlərdə evlənməyin dəyər və əhəmiyyəti ilə tanış olduqdan sonra, söhbətimizi ailə qurmağın müsbət xüsusiyyətləri və insan həyatındakı təʾsirləri haqda davam etdiririk. İslam alimləri bunun bir çox müsbət nəticələrindən danışmışlar. Qurʾan ayələrinə istinad edərək, burada onlardan bir neçəsini gətiririk:

1. Evlənməyin ilkin və ən başlıca nəticələrindən biri nəslin artımı və davam etməsidir. Bəşəriyyətin yaşaması üçün Allah-taala bu batini qüvvəni kişi ilə qadının ixtiyarına qoymuşdur ki, onlar öz istək və iradəsi ilə bu təbiət qanununu həyata keçirsinlər.

Fürqan surəsinin 74-cü ayəsində Allah-taala, övladı insanın gözünün nuru adlandırır:

***«...Ey Rəbbimiz bizə zövcələrimizdən və uşaqlarımızdan [sənə itaət etməklə bizi sevindirib] gözümüzün işığı [bəbəyi] olacaq övladlar ehsan buyur...»***

Yaşı ötmüş həzrət Zəkəriyya nəslinin davamı üçün Allah-taaladan (ad və şərəfini qoruya biləcək) varis bəxş etməsini diləyir:

***«[Ya Məhəmməd!] Zəkəriyyanı da yada sal! Bir vaxt o: Pərvərdigara! Məni tək [kimsəsiz, varissiz] buraxma. Sən varislərin ən yaxşısısan!-deyə yalvarıb Rəbbinə dua etmişdi.***

***Biz Zəkəriyyanın duasını qəbul buyurduq, ona Yəhyanı bəxş etdik...»***[7]

Başqa bir ayədə buyurulur:

---

[1] Biharul-ənvar, 103-cü cild.
[2] Kənzül-ümmal, 44448-ci xəbər.
[3] Biharul-ənvar, 103-cü cild.
[4] Həmən mənbə.
[5] Kənzül-ümmal, 44441-ci xəbər.
[6] Biharul-ənvar, 103-cü cild.
[7] Ənbiya 89-90.

***«[Ya Məhəmməd!] Bu, sənin Rəbbinin öz qulu Zəkəriyyaya olan mərhəmətinin xatırlanmasıdır!***

***Zəkəriyya, Rəbbinə gizlincə dua edib yalvardığı zaman***

***Belə demişdi: Pərvərdigara! Artıq sümüyüm sustamış, başım ağappaq ağarmışdır. Pərvərdigara! Sənə dua etməklə heç vaxt naümid olmamışam. [Nə dua etmişəmsə, qəbul olunmuşdur].***

***Mən özümdən sonra gələn qohum-əqrəbamdan [yerimə geçəcək əmioğlanlarımın və digər varəsələrimin məsləkimi ləyaqətlə davam etdirməyəcəyindən] qorxuram. Zövcəm də ki, doğmur. Buna görə də mənə öz dərgahından bir oğul bəxş et».[1]***

Deməkdir, ailə qurmaqda ən başlıca məqsədlərdən biri də əməli-saleh övladlar dünyaya gətirməklə nəslin qorunub saxlanılmasıdır.

## HƏYA VƏ İFFƏTİN QORUNMASI

Təqva və pəhrizkarlığa nail olmaq və Şeytani vəsvəsələrdən qorunmağı, ailə qurmaqlığın ikinci səmərsi hesab etmək olar. Nəql olunmuş rəvayətlərdən belə bir qənaətə gəlmək olur ki, Şeytani vəsvəsələr hər şeydən əvvəl qəzəb və şəhvət hislərinə mənfi təʾsir göstərir.

Əli (ə) bu haqda buyurur:

«İblisin [insanları özünə çəkməkdə] qəzəb və qadından böyük ipi yoxdur».[2]

İmam Sadiq (ə) buyurur:

«İblisin qəzəb və qadından qüdrətli ordusu yoxdur».[3]

Lakin bu iki şeydən daha güclüsü hər bir insanda az və çoxluğundan asılı olmayaraq və büruzə verilməsi hər zaman mümkün olan şəhvət hissidir. Bir halda ki, zəif və bacarıqsız insanlar çox az hallarda öz qəzəblərini büruzə verə bilirlər. Bunun üçün də şəhvət, Şeytanın ən güclü cazibə qüvvəsi heab olunur. O, bu yolla Allah bəndələrini haqq yoldan uzaqlaşdırıb uçuruma doğru sürükləyir. Bütün bunları nəzərə alaraq islam, kişilərin onlara məhrəm olmayan qadınlarla təklikdə olmasını yasaq edir. Çünki belə bir şəraitdə Şeytani vəsvəsələrə münasib fürsət yaranmış olur. Demək, ailə qurduqda Şeytani vəsvəsələrin qarşısına böyük sədd çəkilir. Çünki ailə qurmaqla Şeytanın insanları haqq yoldan uzaqlaşdırmağa heç bir macalı olmur. Bunun üçün də nəql olunmuş rəvayətlərdə ailə qurmuş cavanların dinlərinin yarısını qoruduqları və Şeytanın nalə çəkərək «İmanını məndən qoruya bildi!» dediyinə toxunulur.

3. Ailə qurmağın digər müsbət nəticələrindən biri də insanda məʾnəvi rahatlığın yaranmasıdır. Çünki təklik, insan üçün yorucu və getdikcə dözülməz olur. Bunun üçün də o, özü ilə həmsöhbət və dərdlərini bölüşdürə biləcək həyat yoldaşı tapmağa can atır. Yorucu təklik həyatı eyni zamanda insanın ruhi sarsıntısına səbəb olduğu üçün ibadətlərinin lazımınca yerinə yetirilməsinə mane olur. Bunun üçün də hər bir insan məʾnəviyyatının güclənməsi və ruhunun rahatlıq tapması üçün istirahət və aram həyata ehtiyac duyur. Ailə qurduqda isə

[1] Məryəm 2-5.
[2] Ğürərül-hikəm.
[3] Biharul-ənvar, 78-ci cild.

insan bütün bunlara nail olur. Buna görə də Allah-taala Rum surəsinin 21-ci ayəsində, bəşəriyyətin ailə qurmasını Öz əlamət və nişanlarından olduğunu bildirir və insan üçün həyat yoldaşı yaratmasının səbəbini belə izah edir:

***«Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsindən zövcələr xəlq etməsi, aranızda dostluq, sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir...»***

4. Ailə qurmaqla hər iki tərəf yeni müştərək həyat tərzinə qədəm qoymuş olurlar. Fikir və düşüncələr, zehni məşğuliyyətlər azalır və insan özündə bir növ mə᾽nəvi rahatlıq hiss etməyə başlayır. Çünki subay şəxs özünün həm ev, həm də evdən xaric işlərinin öhdəsindən gəlmək məcburiyyətində qalır. Ailə qurduqda isə bütün bu işlər ərlə-arvadın arasında bölünür və hər birinin həyat tərzində müəyyən rahatlıq yaranır. Diqqət yetirmək lazımdır ki, Allah-taala evlilərin ehtiyaclarını tə᾽min edəcəyinə dair verdiyi və᾽dəni subay şəxslərə verməmişdir. Demək, belə bir şəraitdə onlar mə᾽nəvi saflığa və gündəlik ibadətlərinə daha çox diqqət yetirirlər.

5. Evlənmək yüksək əxlaqi xüsusiyyətlərə yiyələnməkdə və nəfsani istəklərlə mübarizədə ən başlıca yollardan biri hesab olunur. Nəql olunmuş bir çox rəvayətlərdə ailənin maddi ehtiyaclarının tə᾽min olunması, övlad və həyat yoldaşının hüququnu qorumaq, təsadüfü hallarda onların xoşagəlməz rəftar və davranışlarına səbr etmək və s. nəfs ilə mübarizə olduğu xatırladılır və bütün bunların müqabilində təqva sahiblərinin böyük savaba nail olacaqlarına və᾽də verilir.

Peyğəmbər (s) bu haqda buyurur:

«Ailəsinin maddi ehtiyaclarını tə᾽min edən şəxslər sanki Allah yolunda cihad etmiş olurlar».[1]

Bununla yanaşı, müsəlman əxlaq alimləri belə bir fikirdədirlər ki, ailə qurmaqla istər kişi, istərsə də qadın ruhi təkamülə və bunun da nəticəsində əbədi səadətə nail ola bilərlər. Başqa sözlə desək, Allah-taala kişi ilə qadını kamil yaratmamış, kişidə olan müsbət xüsusiyyətləri qadında, qadında olan müsbət xüsusiyyətləri isə kişidə qərar verməmişdir. Onları kamilliyyə aparan və kamil insan olmaqlarına səbəb olacaq şey varsa, o da onların ailə qurmalarıdır.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Qur᾽an, həyat yoldaşını nə üçün ilahi əlamət və nişanələrdən hesab edir?
2. Peyğəmbər (s) ümmətinin subay təbəqəsi haqda nə buyurur?
3. Ailə qurmağın müsbət nəticələrini ixtisarla bəyan edin.
4. Əli (ə) Şeytanın insanları haqq yoldan uzaqlaşdıracaq şeylərin hansına daha çox diqqət yetirir?
5. Peyğəmbər (s) ailəsinin maddi ehtiyaclarını tə᾽min edən şəxsləri kimlərlə müqayisə edir?

[1] Üsuli-kafi, 5-ci cild.

## QIRX İKİNCİ DƏRS

## *KİŞİ İLƏ QADININ HÜQUQLARI*

İstər kişinin, istərsə də qadının üzərinə müəyyən hüquq və vəzifələr düşür. Müştərək həyata qədəm qoymuş hər bir insan bu vəzifələrlə tanış olduqdan sonra ona riayət etməyə çalışmalı və heç bir səhlənkarlığa yol verməməlidir.

Qarşılıqlı vəzifələrlə tanışlıq kişi ilə qadının səmimi müştərək həyatının daha da sağlam əhval ruhiyyədə olmasına səbəb olur.

## *QADININ KİŞİYƏ QARŞI OLAN VƏZİFƏLƏRİ*

1. İmam Baqir (ə)-dan nəql olunmuş rəvayətdə deyilir: «Bir qadın Peyğəmbərin (s) yanına gəlib deyir: Ya Rəsuləllah! Qadının üzərində kişinin nə kimi hüququ vardır? Peyğəmbər (s) buyurur:

Qadın ərinə itaət edib onun sözündən çıxmamalıdır, ərinin icazəsi olmadan kimsəyə evindən bir şey verməməli və ərinin icazəsi olmadan müstəhəb oruc tutmamalıdır. Ərinin icazəsi olmadan evindən xaric olmamalı və əgər xaric olarsa, evə qayıdanədək yerin və göyün qəzəb və rəhmət mələkləri ona lə͗nət oxuyarlar. Sonra qadın soruşdu: Ya Rəsuləllah! Kişinin üzərində hamıdan çox kimin haqqı vardır? Buyurdu:

Ata və anasının.

Daha sonra kimin?-deyərək, qadın sualını davam etdirdi.

Buyurdu:

Həyat yodaşının...».[1]

2. Qadının üzərinə düşən digər vəzifələrdən biri də həyat yoldaşı ilə müəyyən oxşarlıqlara malik olmasıdır. Bu isə iki halda lazımdır:

**a). Əxlaqi xüsusiyyətlərdə;**

Çünki iki nəfər şəxs ailə qurmazdan əvvəl bir-birindən fərqli xüsusiyyətlərə malik olurlar. Təbii ki, bir-birlərinin bə͗zi xasiyyətlərinə mənfi baxırlar. Bunu da bilirik ki, həyat yoldaşını seçərkən onun bütün xüsusiyyətlərinə göz yumub güzəştə getməyi bacarmaq lazımdır. Peyğəmbər (s) bu haqda buyurur:

«Allah-taala, ərinin xoşagəlməz əxlaq və davranışına səbr edən qadına, Muzahim qızı Asiyaya (Fir͗onun qızı) bəxş etdiyi savabı əta edər».[2]

İmam Məhəmməd Baqir (ə) buyurur:

«Həqiqətən Allah-taala kişilərə bir cür cihad, qadınlara isə başqa bir cihad növünü vacib etmişdir. Kişilərin cihadı qan və canlarını Allah yolunda fəda etməkdən, qadınların cihadı isə ərlərinin qeyrət və əziyyətlərinin müqabilində səbr etmələrindən ibarətdir».

Başqa bir hədisdə buyurur:

«Qadınların cihadı ərlərinə yaxşı həyat yoldaşı olmalarından ibarətdir».

---

[1] Məkarimul-əxlaq, Təbərsi.

[2] Həmən mənbə.

*b). Ərinin maddi imkanının aşağı olması;*

Ehtiyac və maddi imkanın aşağı olması təbii hallardandır. Lakin bu heç də o demək deyildir ki, ailənin maddi tə'minatını öz üzərinə götürmüş bir şəxs əzab-əziyyətə qatlaşaraq özünü və ailəsini həyatın şirinliyindən məhrum etməlidir. Ailənin maddi imkanı aşağı səviyyədə olduqda, hər iki tərəf bir-birləri ilə həmdərd olmalı və keçirdikləri həyat tərzinə qane olmağa çalışmalıdırlar. Həyatın acılı-şirinli günlərində bir-birinə yardımçı və həmfikir olmalıdırlar.

Peyğəmbər (s) bu haqda buyurur:

«Əri ilə həmrə'y olmayan və onu qadir olmadığı şeylərə vadar edən qadınlardan heç bir savab qəbul olunmaz. Onlar [qiyamət günü] Allah-taala ilə qəzəbli olduğu zaman görüşərlər [sorğu-sual olunarlar]».[1]

Başqa bir hədisdə buyurur:

«Ağır sözlə ərinin xətrinə dəyən qadınların gecələri ibadətlə keçirib, gündüzləri oruc tutsa da, köləlikdə olanları azad edib, Allah yolunda cihad etsə də, onu razı salmayınca heç bir savab və xeyirxah işi qəbul olunmaz. Cəhənnəm oduna daxil olan ilk şəxs məhz onlar olacaqlar».

**v).** Qadın ərinə görə öz gözəlliyinə diqqət yetirməli, gözəl ətirlərdən istifadə etməlidir; Ərindən başqa ona məhrəm olmayan şəxslərə görə isə buna yol verməməlidir. Nur surəsinin 31-ci ayəsində Allah-taala, Peyğəmbərə (s) mö'min qadınlara özlərini məhrəm olmayan yad kişilərdən gizlətmələrinə əmr edir:

***«Mö'min qadınlara da de ki, gözlərini haram buyurulmuş şeylərdən çevirsinlər [naməhrəmə baxmasınlar], ayıb yerlərini [zinadan] qorusunlar [və ya örtülü saxlasınlar]; öz-özlüyündə görünən [əl, üz] istisna olmaqla, zinətlərini [zinət yerləri olan boyun, boğaz, qol, ayaq və s. naməhrəmə] göstərməsinlər; baş örtüklərini yaxalarının üstünə çəksinlər [boyunları və sinələri görünməsin]; zinət yerlərini ərlərindən yaxud, öz atalarından [qayınatalarından], yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud öz qardaşlarından, yaxud qardaşlarının oğullarından...)***

İmam Sadiq (ə) buyurur:

«Boynunda cənabət qüslü olan bir şəxs özünü pak etməyincə namazları qəbul olunmadığı kimi, ərindən qeyrisi üçün gözəl ətirlərdən istifadə edən qadınlar da, bu iyi özlərindən aparmayınca ibadətləri qəbul olunmaz.»[2]

*q). Qadın ərinin icazəsi olmadan evindən xaric olmamalıdır.*

İmam Məhəmməd Baqir (ə)-ın Peyğəmbərdən (s) nəql etdiyi hədisdə bu barədə danışılırdı. İmam Sadiq (ə)-ın Peyğəmbərdən (s) nəql etdiyi hədisdə deyilir:

«Ərinin icazəsi olmadan evdən xaric olan qadına evə qayıdanadək xərclik pulu verilməməlidir».

Başqa bir hədisdə buyurur:

«Ərinin icazəsi olmadan paltarını başqa evlərdə əynindən çıxaran qadınlar (yə'ni, ərinin icazəsi olmadan qohum-əqrəbanın və s. evlərində qalan qadınlar) evlərinə qayıdanadək Allahın lə'nətinə gələrlər».

---

[1] Həmən mənbə.

[2] Məkarimul-əxlaq.

Nəql olunmuş başqa bir rəvayətdə deyilir:

«Peyğəmbərin (s) səhabələrindən biri səfərə çıxmalı olur. Getdiyi zaman həyat yoldaşına qayıdanadək evdən eşiyə çıxmamağı əmr edir. Əri səfərə çıxandan bir neçə gün sonra qadına atasının xəstə olduğunu xəbər verirlər. Qadın yaxınlarından birini Peyğəmbərin (s) yanına göndərib onu əhvalatdan agah edir və icazə verməsini istəyir. Peyğəmbər (s) qadına xəbər göndərərək evində oturub ərinə itaət etməsini əmr edir. Bir neçə gün sonra qadına xəbər çatır ki, atası artıq dünyasını dəyişmişdir. Qadın bir daha Peyğəmbərin (s) yanına adam göndərib ondan atasının yas məclisində iştirak etmək üçün izn verməsini istəyir. Lakin Peyğəmbər (s) bu dəfə də ona həmin xəbəri göndərir. Dəfn mərasimi başa çatdıqdan sonra Peyğəmbər (s) qadının yanına adam göndərib ona xəbər verir ki, Allah-taala, ərinə itaət etdiyi üçün sənin və atanın günahlarından keçib əfv etmişdir».

## *KİŞİNİN ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏR*

Qadının üzərinə müəyyən vəzifələr düşdüyü kimi, ailə qurduqdan sonra kişinin üzərinə yerinə yetirməsi zəruri olan bə᾽zi maddi və mə᾽nəvi vəzifələr də düşür. Peyğəmbərdən (s) nəql olunmuş hədisdə qadının hüququ barədə deyilir:

«Cəbrail (ə) mənə qadının hüququ barədə o qədər tövsiyələr edərdi ki, qadını pozğunçuluğa yol verməkdən savayı heç bir şey üçün boşamaq mümkün olmadığını güman edərdim.»[1]

1. Kişinin üzərinə düşən ən başlıca vəzifələrdən biri qadının maddi tə᾽labatını ödəməkdir.

İmam Sadiq (ə)-ın səhabələrindən olan İshaq ibni Əmmar, ondan qadının hüququ barədə soruşduqda, belə cavab verir: «Hər şeydən əvvəl onu doyurmalı, bədənini örtməli (yə᾽ni yemək və geyimlə lazımınca tə᾽min etməli) nadanlıq etdikdə isə bağışlamağı bacarmalı».

2. İmam Zeynəlabidin (ə) buyurur:

«Allah-taala həyat yoldaşlarınızı [zövcələrinizi] sizin rahatlığınız üçün xəlq etmişdir. Onları Allah tərəfindən sizlərə bəxş olunmuş bir ne᾽mət hesab edin. Elə isə sənin haqqın onun haqqından vacib olsa da, xətrini əziz tutub gözəl davran...»[2]

3. Kişi öz həyat yoldaşına qarşı mehriban olmalı və onunla gözəl davranmalıdır.

Peyğəmbər (s) buyurur:

«Kişinin həyat yoldaşına «səni sevirəm» deməsi, heç vaxt onun qəlbindən çıxmır».[3]

Başqa bir hədisdə buyurur:

«Allah-taala, qadının pis əxlaqına səbr edən kişilərə, başına gəlmiş müsibətlərə səbr etmiş Əyyub (ə)-a bəxş etmiş savabı əta edər».[4]

İmam Cə᾽fər Sadiq (ə) buyurur:

---

[1] Məkarimul-əxlaq. Təbərsi.
[2] Biharul-ənvar, 74-cü cild.
[3] Vəsailüş-şiə, 11-ci cild.
[4] Məkarimul-əxlaq. Təbərsi.

«Hər bir ailə başçısı öz ailəsinin yanında, təbiətinə uyğun olmasa da, üç xislətə yiyələnməlidir: Gözəl davranış, öz həddi-hüdudunda əli açıqlıq və ailəsinin keşiyində durmaq üçün qeyrətli və qürurlu olmaq».

Başqa bir hədisdə buyurur:

«Kişi ailə qurduqdan sonra üç şeyə ehtiyac duyur: Qadını özünə cəlb edincə onunla həmfikir olmalı, gözəl davranaraq özünə fikir verib qəlbini ələ almalı və ona qarşı əliaçıq olmalıdır.»[1]

4. Kişi qadına qarşı zor tətbiq etməməli və onunla kobud davranmamalıdır. Peyğəmbər (s) bu haqda buyurur:

«Ümmətimin kişiləri o kəslərdir ki, zövcələri ilə mehribanlıqla davranıb onların haqlarını taptamasınlar». Sonra bu ayəni oxudu:

***«Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər. Bu, Allahın onlardan birini digərinə üstün etməsi və kişilərin öz mallarından [qadınları üçün] sərf etməsinə görədir».[2]***

Peyğəmbərdən (s) nəql olunmuş hədisin davamında deyilir: «Bütün bunlar eynilə kişilərə də aiddir. Yə՚ni, əgər kişi öz qadınına zülm edib haqqını taptalayarsa, razı salmayınca gördüyü xeyirli işlərin və ibadətlərinin heç biri ondan qəbul olunmaz və onlar gündüzləri oruc tutub, gecələrini ibadətlə keçirsələr belə və əsirlikdə olanları azad edib Allah yolunda cihad etsələr də, Cəhənnəmə daxil olan ilk kəslər olacaqlar.

Bunu da qeyd edək ki, nəql olunmuş hədis və rəvayətlərdə Peyğəmbər (s) və Mə՚sum imamlardan (ə) həyat yoldaşının seçilməsi, mehriyyənin tə՚yin olunması, evlənmə mərasimlərinin hansı şəraitdə keçirilməsi haqda dəyərli məsləhət və tövsiyələr edilmişdir. Bu haqda ətraflı mə՚lumat əldə etmək istəyənlər digər mənbələrə müraciət edə bilərlər.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Qadının üzərinə düşən vəzifələri bəyan edin.
2. Peyğəmbərdən (s) nəql olunmuş hədisdə Cəhənnəm əzabının nə zaman veriləcəyi haqda danışılır?
3. Nəql olunmuş hədis və rəvayətlərdə qadınların cihad etməsinin nədən ibarət olduğu göstərilir?
4. Kişinin üzərinə nə kimi vəzifələr düşür?
5. Peyğəmbər (s) ümmət içərisində kimləri ən yaxşı insanlar hesab edir?

---

[1] Tuhəful-üqul.

[2] Nisa-38.

## QIRX ÜÇÜNCÜ DƏRS

## *QAZANC VƏ İŞLƏMƏYİN FƏZİLƏTİ*

Müqəddəs islam dininin diqqət yetirdiyi məsələlərdən biri də maddi ehtiyacların tə᾽min olunması, qazanc əldə etmək, işlə tə᾽min olmaq və iş zamanı başqaları ilə gözəl rəftar və davranış tərzidir. Lakin bu haqda söhbət açmazdan əvvəl böyük əhəmiyyət kəsb edən bir suala cavab verməliyik. İslam dini qazanc və gəlir əldə etməyə necə münasibət bəsləyir? Bu məsələyə baxış müsbətdirmi? Əgər müsbətdirsə, nə dərəcədədir? Bu dərsimizdə həmin bu suala ətraflı cavab verəcək və növbəti dərslərimizdə qazanc və gəlir əldə etməyin qayda-qanunları haqda söhbət açacağıq.

Qazanc və gəlirə dəlalət edən nəql olunmuş hədis və ayələr iki əsas hissəyə bölünür. Əksəriyyət təşkil edən birinci dəstəyə aid olan hədis və ayələrdə qazanc və gəlir əldə etmək, tacirlik, fəhlələrin gecə-gündüz zəhmət və çalışmalarının fəzilətinə toxunulmuş və müxtəlif şəkillərdə tə᾽rif olunmuşdur. Lakin ikinci dəstəyə aid olan hədis və ayələrdə var-dövlət və qazanc əldə etmək məqsədilə ticarət və digər işlərlə məşğul olmaq tənqid atəşinə tutulmuşdur. Bu dərsimizdə hər iki dəstəyə aid olan hədis və ayələr barəsində danışacaq və daha sonra söhbətimizi bu məsələyə aid olan mülahizələrlə bitirəcəyik.

### *BİRİNCİ QİSM*

Allah-taala insanların diqqətini məişətlərinin böyük bir hissəsinin tə᾽min edən və böyük ne᾽mətlərdən biri olan günün işıqlığına cəlb edərək buyurur:

***«Gündüzü isə dolanışıq [ruzi qazanmaq] vaxtı etdik».***[1]

Başqa bir ayədə ruzinin ilahi ne᾽mətlərdən biri olduğuna və insanların onlara bəxş olunan ruzilərin müqabilində Allah-taalaya layiqincə şükr etmələrinə işarə olunur:

***«Sizi yer üzündə yerləşdirdik və orada sizin üçün dolanacaq vasitələri yaratdıq. Siz isə olduqca az şükr edənlərsiniz!»***[2]

Peyğəmbərdən (s) nəql olunmuş rəvayətdə deyilir:

«Günahlar arasında elə bir günah da vardır ki, ruzi əldə etmək üçün zəhmətə qatlaşmaqdan savayı onun qoyduğu tə᾽siri heç bir şey aradan aparmır».

Başqa bir hədisdə buyurulur:

«Daim halallıqla ticarət edən tacirlər, qiyamət günü məhşərə əməli-saleh şəxslər və şəhidlərlə daxil olarlar».[3]

---

[1] Nəbə'-11.

[2] Ə'raf-100.

[3] Sünəni Termezi, 5-ci cild.

«Başqalarına möhtac olub dilənməmək üçün halal ruzi qazanaraq ailəsinin maddi ehtiyaclarını ödəyən, qonşularına yaxşılıq edən şəxslər qiyamət günü Allah-taalanın görüşünə on dörd gecəlik ay kimi gələrlər».[1]

«Bazarlar Allahın ruzi süfrələridir. Oraya daxil olanlar ilahi ne՚mətlərdən bəhrələnərlər».[2]

Başqa bir rəvayətdə deyilir:

«Günlərin bir günü Peyğəmbər (s) öz səhabələrilə şəhərin ətrafında oturduğu zaman günün qızmar istisində cavan bir oğlanın tər-qan içində işələdiyini görürlər. Səhabələrdən biri deyir: Heyf! Kaş öz qüdrətini Allah yolunda sərf edəydi. Peyğəmbər (s) buyurdu:

Onun haqda belə danışmayın. Əgər o, başqalarına möhtac olub yolçuluq etmək əvəzinə zəhmətə qatlaşırsa, Allah yolunda çalışmış olur. Əgər ata-anasının və övladlarının məişətini tə՚min etmək üçün zəhmətə qatlaşırsa, yenə də Allah yolunda çalışmış olur. Yox, əgər var-dövlət əldə edib qürur və təkəbbürlük məqsədilə zəhmətə qatlaşarsa, Şeytan yolunda çalışmış olur».[3]

İmam Məhəmməd Baqir (ə) nəql edərək deyir: «Həccətul vida günü Peyğəmbər (s) buyurdu:

Agah olun ki, Cəbrail (ə) mənə ilham etmişdir ki, kimsə ruzisi tam verilməyincə dünyasını dəyişməyəcəkdir. Elə isə təqvanı hər şeydən üstün tutun və ruzi ardınca getdikdə ifrata varmayın. Lakin bu işdə süstlük göstərmək sizləri günaha vadar etməməlidir. Çünki, Allah-taala bəndələrinin ruzisini onların arasında haram olaraq deyil, halallıqla bölmüşdür. Demək, təqvalı olub səbr edən şəxslərə Allah-taala halal ruzi nəsib edər. Tələsik qeyri-halal yolla ruzi əldə edən şəxslərə isə həmin ruzinin miqdarında halal ruzisindən azaldar və qiyamət günü məhşərdə onu tənbeh edər».

Məhəmməd ibni Munkədər nəql edir ki, günlərin bir günü Mədinənin ətrafına getmişdim, elə orada Əbu Cə՚fər Məhəmməd ibni Əli (imam Baqir (ə)) ilə qarşılaşdım. O, öz əkin sahəsində günün qızmar çağında əkinçiliklə məşğul idi. Onu belə görçək təəccüblənərək öz-özümə dedim: Sübhanəllah! Qureyşin adlı-sanlı bir şəxsiyyəti günün bu qızmar çağında qan-tər içində dünya malı fikrinə düşübmü?! Ona nəsihət etməyim lazımdır. Yaxınlaşıb salam verdim. İmam Baqir (ə) üzündən tər axdığı halda salamımın cavabını aldı. Ona bir qədər də yaxınlaşıb dedim. «Allah-taala Özü sizi salamat etsin. Sizin kimi Qureyşin adlı-sanlı şəxsiyyətlərindən birinə günün bu qızmar çağında bu qədər əzab-əziyyət çəkmək yaraşarmı?! Bu halda əcəl sizi haqlasa nə edəcəksiniz? İmam Baqir (ə) Məhəmmədi təmkinlə dinlədikdən sonra buyurdu:

Əgər bu halda ölüm məni haqlasa, mən dünyamı Allaha itaət etmiş kimi dəyişmiş olacağam. Çünki, belə etməklə özümü və ailə üzvlərimi səndən ehtiyacsız etmiş olacağam. Mən ondan qorxuram ki, əcəl çatdığı zaman Allaha

---

[1] Üsuli-kafi, 5-ci cild.

[2] Ehyaul-ülum, (Qazanc və məişətin tə'minatı fəsli).

[3] Ehyaul-ülum, (Qazanc və məişətin tə'minatı fəsli).

itaətsizlik etmiş olum. Dedim: Düz deyirsən, Allah sənə rəhm etsin. Mən sənə nəsihət verməк istəyirdim, lakin sən mənə nəsihət verdin.[1]

İmam Sadiq (ə)-dan nəql olunmuş rəvayətdə deyilir: «Yoxsul olduğu bir halda haram qazancdan uzaq olub özünün və ailə üzvlərinin ehtiyaclarını tə`min edən şəxslər, sanki Allah yolunda cihad etmiş şəxslərə bənzərlər.»

Başqa bir hədisdə buyurur: «Ailə üzvlərinin ehtiyaclarını tə`min etmək üçün zəhmətə qatlaşan şəxslər Allah yolunda cihad etmiş şəxslərə bənzərlər».

İmam Sadiq (ə) Peyğəmbərdən (s) nəql edərək buyurur:

«Məl`un (lə`nətlənmiş) o kəsdir ki, özünün xərc və tə`minatını başqalarının üzərinə qoymuş olsun».

Göründüyü kimi bu qismə aid olan hədis və rəvayətlərdə məişət ehtiyaclarının tə`min olunması üçün çəkilən zəhmət və sə`ylər nəinki pislənməmiş, əksinə, olduqca tə`rifəlayiq və axirət dünyasının savab və mükafatına səbəb olan bir iş kimi göstərilir. Mə`sum imamların (ə) həyatına nəzər saldıqda bu kimi məsələlərlə tez-tez rastlaşmaq olar. Bir qədər əvvəl qeyd etdiyimiz rəvayəti də buna aid etmək olar. Fəzl ibni Əbi Qurrənin imam Sadiq (ə) haqda nəql etdiyi başqa bir rəvayətdə deyilir: «Səhabələrdən bir neçəsi ilə imam Sadiq (ə)-ın mənzilinə doğru yola düşdük. Evinə çatdıqda divar hördüyünü gördük. Ondan kömək etməyimizə və ya işçi gətirməyimizə icazə istədikdə buyurudu: Xeyr! Öz işinizlə məşğul olun. İstərdim Allah-taala məni halal ruzi üçün çalışmağımı görsün».

Əli ibni Əbi Həmzə nəql edərək deyir: «Bir gün imam Musa Kazim (ə)-ın öz əkin sahəsində işlədiyini gördüm. Ayaqlarının dizlərinə qədər torpağa batdığını gördükdə ürək ağrısı ilə dedim: Canım sənə fəda olsun, qulluqçuların haradadır? Buyurdu: Peyğəmbər (s) Əmirəl-mö`minin (ə) və ata-babalarım hamısı öz əlləri ilə əkib-biçər, özləri öz ruzilərini tə`min edərdilər. Bu peyğəmbərlərin və əməli-saleh şəxslərin xüsusiyyətlərindəndir».[2]

## *İKİNCİ QİSM*

Peyğəmbərdən (s) nəql olunmuş rəvayətdə deyilir:

«Mənə ticarətlə məşğul olmaq və var-dövlət əldə etmək vəhy olunmadı, mənə vəhy olundu ki, yəqinlik hasil etmək üçün Allaha həmd-səna edib səcdə edənlərdən olum».[3]

«Allahdan bağışlanmağınızı diləyin, çünki bu, ruzinin artmasına səbəb olur».[4]

Nəql olunmuş başqa bir rəvayətdə deyilir: Allah-taala Davud (ə)-a vəhy edərək buyurur:

«Başqalarına ehtiyac duymayıb, yalnız Mənə təvəkkül edənləri ehtiyacsız edərəm».

Peyğəmbərdən (s) nəql olunmuş başqa bir rəvayətdə deyilir: «Allah-taala dünya sərvətini Öz bəndələrini axirət dünyasının əməllərinin müqabilində bəxş

[1] Üsuli-kafi, 5-ci cild.
[2] Həmən mənbə.
[3] Üsuli-kafi, 5-ci cild.
[4] Biharul-ənvar, 103-cü cild, bab-2.

edir. Lakin axirət dünyasının xeyir və savabını dünyəvi işlərin müqabilində kimsəyə bəxş etmir».

Əli (ə) buyurur:

«Ruzi iki hissəyə bölünür: Onlardan biri tələb olunan (istənilən), digəri isə istənilmişdir. Dünya malını istəyənləri ruziləri tam verilmədən əcəl haqlayar, axirət dünyası üçün yaşayanları isə dünya ruziləri tam verilənədək dünya tələb edəcəkdir (yə`ni yaşamaqlarını istəyəcəkdir).»[1]

İkinci qismə aid olan hədis və rəvayətlərdən belə bir qənaətə gəlmək olur ki, mö`minlər öz vaxtlarını ticarət və ya digər sahələrdə fəaliyyət göstərərək ruzi qazanmaq əvəzinə Allah-taaladan bağışlanmalarını diləyərək ömür-günlərini dua etmək və ibadət etməkdə keçirməlidirlər. İnsan, Allahdan bağışlanmasını diləməklə ruzi əldə etdiyi bir halda, nə üçün işləmək və ticarət fikrində olmalıdır? Peyğəmbər (s) «Allah-taala dünya sərvətini insanlara ibadət və əməli-saleh işlər görməklə bəxş edir» buyurduğu bir halda nə üçün ibadət, mə`nəviyyat, dua və münacatlar əvəzinə dünya və maddiyyat haqda düşünməliyik və s. Bir sözlə, mö`min insan qazanc və məşğuliyyət əvəzinə Allah-taaladan bağışlanmasını diləyərək səcdəyə qapılmalı, dərd-qəmini Onunla bölüşməlidir. Hər iki hissəyə aid olan hədis və rəvayətlərdən belə bir nəticəyə gəlirik ki, birinci dəstəyə aid olan rəvayətlərdə, yə`ni şəxsin özünün və ailəsinin məişət ehtiyaclarını tə`min etmək və faydalı işlərlə məşğul olmaq islam nöqteyi-nəzərindən tə`rifə layiq və savaba daha yaxındır. Hərçənd beytul-mal qoryucusu, qazi və ictimai işlərdə çalışan bə`zi şəxslərə özlərinin və ailə üzvlərinin məişət təlabatını tə`min etmək üçün «beytul-maldan» istifadə etməyə icazə verilmişdir. Lakin onlar da imkan daxilində öz iste`dad və bacarıqlarından istifadə etməlidirlər.

İmam Sadiq (ə)-ın Əli (ə)-dan nəql etdiyi rəvayətdə deyilir:

«Allah-taala Davud (ə)-a vəhy edərək buyurur:

«Əgər beytul-maldan istifadə etməsəydin bəndələrimin ən yaxşısı olardın.

Davud (ə) ona nazil olmuş bu vəhyi eşitdikdən sonra qırx gün qəm-qüssəyə qərq olub, qırx gün göz yaşları tökdü. Allah-taala dəmirə Davud (ə) üçün yumşalmasını əmr etdi. O da hər gün bir zireh düzəldib min dirhəmə satdı. Bir il ərzində üç yüz altmış zireh satıb üç yüz altmış min dirhəm qazandı. Beləliklə, «beytul-mala» heç bir ehtiyac duymadı.»[2]

Bütün bunları nəzərə alaraq, Peyğəmbər (s) və Mə`sum imamlar (ə) öz əkin sahələrində çalışar və özlərinin məişət ehtiyaclarını tə`min edərdilər. Demək, ticarət və qazanc məqsədilə müxtəlif sahələrdə çalışmaq özü-özlüyündə heç də xoşagəlməz bir şey deyildir. Xoşagəlməz şey varsa, o da aşağıda qeyd edəcəyimiz bu iki şeydən ibarətdir.

Onlardan biri var-dövlət əldə etməkdə ifrata varmaq və əldə olana qane olmamaqdır. Nəql olunmuş bir çox rəvayətlərdə bu məsələyə xüsusi diqqət yetirilmiş və o, təqva sahiblərinə xas olmayan bir xüsusiyyət kimi göstərilmişdir.

---

[1] Biharul-ənvar, 103-cü cild, bab-2.

[2] Üsuli-kafi, 5-ci cild.

Peyğəmbərin (s) «Həccətul-vida»da müsəlmanlara var-dövlət əldə etməkdə nə ifrata varmamalarına, nə də bu işdə süstlük göstərməklərinə dair etdiyi tövsiyələri buna misal çəkmək olar.

Başqa bir hədisdə deyilir: «İnsanların ən yaxşısı o kəsdir ki, dünya malından ehtiyacını ödəyənədək istifadə etmiş olsun».

Digəri isə insanı var-dövlət əldə edərək axirət dünyasından uzaqlaşdırmış olsun. Beləlàri dünyalarının abad və firavan olması üçün axirət dünyasını özləri öz əlləri ilə viran edərlər. Nur surəsinin 37-ci ayəsində buyurulduğu kimi:

***«O kəslər ki nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz...»***

İmam Sadiq (ə) ayənin izahında buyurur:

«Onlar bir neçə tacir idilər. Namaz vaxtı çatan kimi alış-verişlərini buraxıb namaza tələsərdilər. Onlar iş və qazanc fikrində olmayanlardan daha çox savaba nail olarlar».

Başqa bir rəvayətdə deyilir: «Təlaq surəsinin ikinci və üçüncü ayələri Peyğəmbərə (s) nazil olarkən, ticarətdən və onlara gəlir gətirən digər işlərdən əl çəkib ibadətə qapıldılar. Xəbər Peyğəmbərə (s) çatdıqda onlardan soruşur: Nə üçün işlərinizdən əl çəkmisiniz? Bunun səbəbi nədir? Dedilər: Allah-taala ruzi verəcəyinə və᾽də vermiş, biz də buna görə bundan belə yalnız ibadətlə məşğul olacağıq. Buyurdu: Allah-taala belə edənlərin duasını qəbul etməyəcəkdir. Siz özünüz ruzi dalınca getməlisiniz ki, Allah da sizə ruzi versin. Mən üzünü Allaha tutub ruzi dalınca getməyənləri sevmirəm».[1]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Hədislərdən istifadə edərək iş və qazanc fəzilətini bəyan edin.
2. Peyğəmbərin (s) «Həccətul-vida»da oxuduğu xütbədən nə başa düşürük?
3. Var-dövlət əldə etməkdə ifrata varmamaq və bu işdə süstlük göstərməmək deyildikdə nə nəzərdə tutulur?
4. Qazanc əldə etməkdə «təqva» hansı rolu oynayır?

[1] Həmən mənbə.

## QIRX DÖRDÜNCÜ DƏRS

### *QAZANC VƏ İŞLƏMƏYİN QAYDA-QANUNLARI*

Artıq, məʾlum oldu ki, islam dini, başqalarına möhtac olmasın deyə, hər bir şəxsin özünün və ailə üzvlərinin məişət ehtiyaclarını təʾmin etməsini yüksək qiymətləndirmiş və ailəsinin keşiyində duran şəxsləri Allah yolunda cihad edən mücahidlərin savabına nail olacaqlarına müjdə vermişdir.

Bu dərsimizdə, hər şeydə olduğu kimi, iş və qazanc əldə etməkdə hansı qayda-qanunlara riayət etmək haqda söhbət açacağıq. Bu tanışlıq məşğul olduğumuz sahələrin və bu yolla əldə etdiyimiz qazancın halal və ya haram olduğunu müəyyən etməyimizə imkan verir. O ki qaldı ümumi kütləyə, onlar da qeyri-qanuni yollarla qazanc əldə edən şəxslərə qarşı mənfi münasibət bəsləyəcək və tez bir zamanda onlarla öz əlaqələrini kəsməli olacaqlar. Bu dərsimizdə bu qayda-qanunların bəʾziləri ilə ümumi tanışlıq əldə edəcəyik.

### *ŞƏRʾİ HÖKMLƏRLƏ TANIŞLIQ*

İstər ticarət, istərsə də qazanc məqsədilə fəaliyyət göstərilən digər sahələrdə hər şeydən əvvəl şərʾi qanun və hökmləri nəzərə almaq lazımdır. Bildiyimiz kimi, islam nöqteyi-nəzərindən bəʾzi malların alqı-satqısı, müamiləsi, həmçinin bəʾzi xidmətlərin göstərilməsi haram və yol verilməzdir. İstər alıcının, istərsə də satıcının üzərinə müəyyən hüquq və vəzifələr düşür. Bunun üçün də ticarət etməzdən əvvəl hər bir şəxs şərʾi qanunlarla ümumi tanışlıq əldə etməlidir. Əks təqdirdə, alqı-satqıda harama yol verilərək kimlərinsə hüququ taptalanacaqdır.

Əli (ə) bu haqda buyurur:

«Şərʾi qanunlarla tanış olmadan ticarət edən şəxslər sələm bataqlığında qərq olacaqlar».[1]

Başqa bir hədisdə buyurur:

«Şəriət qanunları ilə tanışlığı olmadan ticarət edən şəxslər sələm bataqlığında qərq olacaqlar. Elə isə [ticarət qanunlarından] məʾlumatı olmayan şəxslərlə bazarlarda ünsiyyətdə olmayın».[2]

Əsbəğ ibni Nəbatə deyir: Əli (ə) minbərdə xütbə oxuyarkən etdiyi tövsiyələrin birində bu məsələyə toxunaraq buyurdu:

«Ey tacirlər! Əvvəl fiqh, sonra ticarət, əvvəl fiqh sonra ticarət! And olsun Allaha! Sələmin sizlərin arasında nüfuz etməsi, qarışqanın qayanın üzərində yeriməsindən daha gizlidir. Öz var-dövlətinizi sədəqə verməklə qoruyun. Öz

---

[1] Biharul-ənvar, 103-cü cild, bab-119.
[2] Üsuli-kafi, 5-ci cild.

haqqını götürüb başqalarının haqqını verənlərdən savayı, digər tacirlər günahkar, günahkarlar isə Cəhənnəm odunda sakin olarlar».[1]

Bu səbəbdən də ticarət və digər müamilələrə aid olan şəriət qanunları bir çox fiqh kitablarında ətraflı izah olunmuşdur. Ticarət və müamilənin ən başlıca şərti isə qazancın halal və qanuni olmasıdır.

## *MÖHTƏKİRLİK*

Ticarət və iqtisadiyyat əlaqələrinin bərqərar olunmasında mənfi hallardan biri də möhtəkirlikdir. Möhtəkirlik, qiymətləri qaldırmaq məqsədilə camaatın tələbat mallarını satışa buraxmayıb anbarlarda saxlamağa deyirlər. Müəyyən müddətdən sonra gizli saxlanılan mallar yenidən satışa buraxılır və tacirlər böyük gəlir əldə etmək imkanı əldə edirlər.

Peyğəmbər (s) bu haqda buyurur:

«Yemək şeylərini (ərzaq mallarını) qırx gün gizli saxlayan şəxslər sanki Allahdan, Allah da onlardan bezar olar».[2]

Əli (ə)-dan nəql olunmuş rəvayətlərdə deyilir:

«Camaatın yemək azuqəsini qırx gün gizli saxlayanların qəlbləri daş parçasına çevrilər».[3]

Peyğəmbərdən (s) nəql olunmuş başqa bir rəvayətdə deyilir:

«Yemək mə᾿mulatlarını alıb, həmin gün satan şəxslər sanki sədəqə vermiş olurlar».[4]

Bütün bunları nəzərə alaraq ticarət və alış-verişlə məşğul olan təqva və iman sahibləri yemək və digər mə᾿mulatları gizli saxlayaraq möhtəkirliklə məşğul olmaqdan çəkinərlər. Öz təqva və imanı ilə şöhrət tapmış keçmiş tacirlərin biri haqda deyilir:

«Bəsrədəki nümayəndələrinin birinə satmaq üçün mal göndərir. Günlərin bir günü bir qədər buğda əldə edib gəmi ilə Bəsrəyə yola salır və göndərdiyi məktbuda yazır: Buğda Bəsrəyə çatan kimi tə᾿xirə salmadan həmin günün qiymətinə sat!»

Gəmi Bəsrəyə cümə axşamı çatır. Tacir yoldaşları ona deyirlər ki, əgər buğdanı sabah (cümə günü) satsan daha çox qazanc əldə edərsən. O, yoldaşlarının tövsiyələrinə qulaq asaraq səhəri günü gözləyir. Buğdanı satıb öz yoldaşına gördüyü işlər haqda mə᾿lumat verir. Mö᾿min tacir məktubun cavabında yazır: Ey dost! Dinimi qorumaq üçün az qazanca qane idim, sən isə mənim dediyimə əməl etmədin. Bunu mənə qarşı bir cinayət hesab etmək olar. İstəməzdim neçə bərabər və ya yüzbə-yüz qazanc əldə etməklə dinimə xələl gəlsin. Məktubumu oxuduqdan sonra əldə etdiyin qazancı Bəsrənin yoxsul və ehtiyacı olanlarına sədəqə ver! Bəlkə düçar olduğum möhtəkirlik günahından əfv olunum».[5]

---

[1] Həmən mənbə.
[2] Ehyaul-ülum, (Qazanc və məişətin tə'minatı fəsli).
[3] Həmən mənbə.
[4] Həmən mənbə.
[5] Həmən mənbə.

## *DUA VƏ ZİKR*

Peyğəmbər (s) və Mə᾽sum imamlar (ə) daim öz davamçılarına tövsiyə etmişlər ki, ticarət və qazanc məqsədilə evlərindən çıxdıqları zaman Allahın adını zikr edib bütün işlərini Onun adı ilə başlasınlar. Camaatla müamilə etdikləri müddət ərzində Allahın razılığını qazanmağa çalışmalı və bilməlidirlər ki, Allah onların gördükləri bütün işlərin, rəftar və davranışlarının şahididir.

Peyğəmbər (s) buyurur:

«İnsanlar qəflət içində olduqları zaman, ixlas və iman üzündən Allahı xatırlayıb onlarla Allahın kitabında olduğu kimi müamilə edərsə, [əməl dəftərlərinə] min savab yazılar və kimsənin təsəvvür edə bilməyəcəyi dərəcədə Allahın rəhmət dərgahından bəhrələnmiş olarlar».[1]

İmam Baqir (ə) alış-verişlə məşğul olan səhabələrinə bu duanı oxumaqlarını tövsiyə edərdi:

«İlahi! Səndən bazarın və bazar əhlinin xeyrini istəyirəm». Ticarət etdikləri yerlərə girdikləri zaman isə bu duanı oxumağı tövsiyə edərdi:

«Şəhadət verirəm ki, Allahdan başqa Allah yoxdur, O, yeganə və şəriki yoxdur. Şəhadət verirəm ki, Məhəmməd Onun qulu və elçisidir. İlahi! Mən Sənin fəzlindən pak və halal ruzi istəyirəm və kimsəyə zülm etməkdən və kimsənin mənə zülm etməsindən, ziyankar və yalan yerə and içən şəxslərdən Sənə pənah gətirirəm».[2]

Bunu da qeyd edək ki, tacirlər alış-verişlə məşğul olmaqla dini hökmlərin yerinə yetirilməsində süstlük göstərməməli və daim Allaha təvəkkül edərək Onu yad etməlidirlər. Əvvəlki dərsimizdə qeyd etdik ki, Qur᾽an daim Allahı yad edən tacirləri mədh edərək, bunu əməli-saleh insanların xüsusiyyəti kimi qeyd etmişdir.

## *MALIN TƏ᾽RİFLƏNMƏSİNDƏ AND İÇMƏKDƏN ÇƏKİNMƏLİ*

Alış-veriş zamanı alıcını qane etmək məqsədilə and içmək tacirlər üçün müsbət xüsusiyyət hesab olunmur. Ümumiyyətlə maddi və dəyəri az olan şeylər üçün and içməkdən çəkinməyə tövsiyə olunur. And içməyə isə yalnız böyük əhəmiyyət kəsb edən məsələlərdə icazə verilir. Bəqərə surəsinin 224-cü ayəsində bu haqda deyilir:

***«Allahı [Allahın adını] hədəf [dəstavüz] etməyin...!»***

Bunun üçün də maddi məsələlərdə, xüsusilə alqı-satqıda malın qiymətinin aşağı-yuxarı etməkdə, Allaha və ya müqəddəs şəxsiyyətlərə and içmək bəyənilməyən və xoşagəlməz xüsusiyyətlərdəndir.

Peyğəmbər (s) bu haqda buyurur:

«Alış-veriş etmək istəyən şəxslər sələm verməməli, and içməməli, malın eyb və nöqsanını gizlətməməli, satdığı zaman malı [həddindən artıq] tə᾽rifləməməli və

---

[1] Biharul-ənvar, 103-cü cild, bab-19.

[2] Üsuli-kafi, 5-ci cild.

mal aldığı zaman dəyərini aşağı salmamalıdır. Əks təqdirdə, alış-veriş etməməlidir».[1]

İmam Musa Kazim (ə) buyurur:

«Allah-taala qiyamət günü bu üç şəxsə nəzər salmaz. Onlardan biri Allaha and içmədən alver etməyən və gəlir əldə etmək məqsədilə Allahı dəstavuz tutan şəxslərdir».[2]

And içmək deyildikdə, bu kimi hallarda doğru andlar nəzərdə tutulur. Lakin buna baxmayaraq, and içmək olduqca xoşagəlməz xüsusiyyətlərdən hesab olunur. İnsan yalan yerə and içdikdə isə böyük günahlardan birinə düçar olmuş olur.

Müştərinin diqqətini cəlb etmək məqsədilə malın [həddindən artıq] tə᾽riflənməsi də islam nöqteyi-nəzərindən mənfi və bəyənilməyən hallardandır. Çünki, tə᾽rif edərkən deyilən xüsusiyyətlər malda olmazsa yalana yol verilmiş olur. Mal həmin xüsusiyyətlərə malik olduqda isə müştəri özü bunun şahidi olduğu üçün satıcının dedikləri puç və mə᾽nasız olacaqdır. Həmin xüsusiyyətlər bəlli olmadıqda isə onu aşkara çıxarmağın heç bir nöqsanı yoxdur. Necə olursa-olsun, malın xüsusiyyətləri haqda deyilənlər həqiqətdən artıq olmamalıdır. Peyğəmbərdən (s) nəql olunmuş hədisdə qeyd olundu ki, alış-verişlə məşğul olan şəxslər malın tə᾽riflənməməsinə diqqət yetirməlidirlər.

## *MALIN EYB VƏ NÖQSANI AŞKARA ÇIXARILMALI*

Satıcı malını həddindən artıq tə᾽rifləməməli olduğu kimi, onun eyb və nöqsanlarını da aşkara çıxarmalıdır.

Belə ki, islam nöqteyi-nəzərindən malın eyb və nöqsanlarını gizli saxlamaq alverdə aldatmaq hesab olunur. Nəql olunmuş rəvayətlərin birində deyilir: Peyğəmbər (s) bazarda olduğu zaman buğda satan bir şəxs ilə qarşılaşır. Buğdanın zahiri görünüşü Peyğəmbəri (s) özünə cəlb edir. Lakin əlini içinə saldıqda buğdanın nəm olduğunu hiss edir. Bunun nə üçün belə olduğunu soruşduqda satıcı cavab verir: Üzərinə yağış yağmışdır. Peyğəmbər (s) soruşur: Elə isə nə üçün onları üstə qoymamısan ki, camaat görsün. Ticarətdə hiylə işlədən şəxslər bizdən deyildir».[3]

## *İNSAF*

Alış-veriş zamanı insaflı olmaq hər şeydən daha çox əhəmiyyət kəsb edir. Qazanc əldə etməkdə və malın üzərinə qiymət qoyduqda ədalətli olmaq gərəkdir. Satıcı müştərinin mala olan ehtiyacını görüb daha çox qazanc əldə etmək məqsədilə baha satmamalı və eyni zamanda alıcı da satıcının çarəsizlik üzündən malını satdığını gördükdə onu daha ucuz qiymətə alaraq çıxılmaz vəziyyətə salmamalıdır. Hər iki hal islam nöqteyi-nəzərindən başqalarının hüququnun taptalanmasına səbəb olduğu üçün yasaq və haram hesab olunur.

---

[1] Biharul-ənvar, 103-cü cild, bab-19.
[2] Üsuli-kafi, 5-ci cild.
[3] Səhih Müslüm, 1-ci cild.

Nəql olunmuş rəvayətlərdən birində deyilir: İmam Sadiq (ə) min dinar pulu Məsadif adlı xidmətçilərindən birinə verib ticarət məqsədilə tacirlərlə birlikdə Misrə göndərir. Ticarət karvanı Misrə yaxınlaşdıqda oradan başqa bir karvanın xaric olduğunu görürlər. Onlardan alış-verişin nə yerdə olduğunu soruşduqda başa düşürlər ki, həmin mallar Misir bazarlarında çox az tapılır. Bunun üçün də onlar öz aralarında söz qoyaraq belə qərara gəlirlər ki, gətirdikləri malları iki bərabərindən ucuz satmasınlar. Tacirlər mallarını sözləşdikləri qiymətə satıb Mədinəyə qayıdırlar. Məsadif imam Sadiq (ə)-ın yanına gəlib iki kisədə min dinar pulu onun qarşısına qoyub deyir: Canım sənə fəda olsun! Bu kisələrdən biri əlimizdə olan maya, digəri isə ondan əldə etdiyimiz gəlirdir. İmam Sadiq (ə) təəccüblə soruşur: Əldə etdiyin qazanc çoxdur. Malları necə satmısınız? Məsadif hər şeyi ətraflı surətdə imam Sadiq (ə)-a izah edir. İmam Sadiq (ə) heyrətə gələrək deyir: Sübhanəllah! Söz qoyaraq müsəlmanlara qarşı olub malları iki bərabərinə satmısınızmı? Sonra imam Sadiq (ə) pul kisələrindən birini götürüb buyurur: Əldə etdiyin gəlirə heç bir ehtiyacım yoxdur. Gedərkən üzünü Məsadifə tutub buyurdu: Ey Məsadif, qılınc zərbələrinə dözmək halal qazancdan daha asandır. (Yə`ni halal ruzi çətinliklə əldə olunur.)

## *YOXSUL VƏ İMKANSIZLAR NƏZƏRƏ ALINMALI*

İslamın bu barədə tövsiyə etdiyi şeylərdən biri də yoxsul və imkansız təbəqənin nəzərə alınmasıdır. Satıcı bu kimi şəxslərin maddi vəziyyətinin ağırlığını görüb onlara qarşı təhqirlə yanaşmamlı və əliboş geri qaytarmamalıdır. Qiyməti aşağı salmaq, nisyə vermək, borcların qaytarılmasına fürsət vermək və bu kimi güzəştlərə getməklə onlara kömək etməyə çalışmalıdır.

Peyğəmbər (s) bu kimi şəxsləri alqışlayaraq buyurur:

«Allah rəhm etsin alış-verişdə güzəştə gedən şəxslərə».

Başqa bir yerdə buyurur:

«Borcu olan şəxslərə fürsət verən və ya borcunu istəməyən şəxsləri Allah-taala asanlıqla sorğu-sual edər.

## *MALIN SAXTALAŞMASI*

Satılan malın xarab olması, müamilə zamanı saxta pul verilməsi oğurluq hesab olunduğu üçün alış-verişdə yol verilməzdir. Belə ki, bir çox hallarda təqva sahibləri satdıqları malın xarab olduğunu gördükdə, ziyana düşmələrinə baxmayaraq, satılmasına razı olmamışlar.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. İmamlar nə üçün ticarətlə məşğul olmazdan əvvəl fiqhi qanunları öyrənməyi zəruri hesab etmişlər?
2. İslam dinində möhtəkirlik nə üçün haram hesab olunur?
3. Alış-veriş zamanı and içmək olarmı?
4. Satıcının üzərinə düşən vəzifələri ixtisarla bəyan edin.

## QIRX BEŞİNCİ DƏRS

# *SƏLİQƏ VƏ TƏMİZLİK*

Müqəddəs islam dininin diqqət yetirdiyi məsələlərdən biri də təmizliyə riayət olunmasıdır. Paltarın, bədənin təmizliyi, artıq tüklərin bədəndən təmizlənməsi, vaxtlı-vaxtında dişlərin yuyulması, ətraf mühitin təmizliyi, baş və üz tüklərinin qısaldılması və s... islamın diqqət mərkəzində olan məsələlərindəndir. Hər bir müsəman bə᾽zi dini vəzifələrini təmizliyə riayət etməklə, həm də başqalarının onun natəmizliyindən narahat olmalarına yol verməməlidir. İslam dinində təmizliyə verilən diqqət Peyğəmbərdən (s) nəql olunmuş hədisdə də öz əksini tapmışdır: «Həqiqətən Allah-taala pakdır və pakları sevir.»[1]

«Təmizlik imanın bir hissəsidir».[2]

«Qiyamət günü insandan soruşulacaq ilk şey onun təmizliyidir [təmizliyə riayət etməsidir]».[3]

«Bacardığınız qədər təmiz və səliqəli olun. Çünki, Allah-taala islam dinini paklıq və təmizlik üzərində qurmuşdur və pak insanlardan savayı Cənnətə kimsə daxil olmayacaqdır».[4]

«İslam pakdır. Elə isə siz də təmiz və səliqəli olun. Çünki, pak insanlardan başqa Cənnətə kimsə daxil olmayacaqdır».

«Həqiqətən Allah pak ibadət edənləri sevəndir».[5]

«Peyğəmbərlərin gözəl xüsusiyyətlərindən biri də onların pak və səliqəli olmalarıdır».[6]

Hər bir müsəlmanın üzərinə düşən bə᾽zi vəzifələr [fiqh kitablarında ətraflı izah olunmuşdur] onun dəstəmaz, qüsl, təyəmmüm kimi paklığından asılıdır. İbadətlərinin doğru və düzgün olması üçün hər bir müsəlmanın bunlara riayət etməsi lazım və zəruridir. Lakin üzərinə düşən vəzifələrin başqa bir qismi sünnə halını daşıyır və biz bu və növbəti dərslərimizdə bu haqda ətraflı söhbət açacağıq.

Hər bir məsələyə aid Peyğəmbər (s) və Mə᾽sum imamlardan (ə) hədis və rəvayətlər nəql olunmuş və bu ilahi hökmün həqiqi fəlsəfi mahiyyəti açıqlanmışdır.

**1. Bədənin təmizliyi:**

Peyğəmbər (s) buyurur:

«Allahın sizləri pak etməsi üçün bədənlərinizi təmiz saxlayın! Səhəri paklıqla açan elə bir kəs yoxdur ki, mələklərdən biri onu müşayiət etməsin. Hər an mələk ona dua edərək deyər: İlahi! Bu bəndənin günahlarını əfv et, çünki o, səhəri paklıqla açmışdır».[7]

---

[1] Sünəni Termezi, 10-cu cild.
[2] Kənzül-ümmal, 25997-ci xəbər.
[3] Həmən mənbə, 31010-cu xəbər.
[4] Həmən mənbə, 34002-ci xəbər.
[5] Həmən mənbə, 24007-ci xəbər.
[6] Həmən mənbə, 2400-cü xəbər.
[7] Kənzül-ümmal, 24003-cü xəbər.

Əli (ə) buyurur: «Başqalarının narahatçılığına səbəb olan xoşagəlməz iyləri yuyunaraq özünüzdən dəf edin. Çünki Allah-taala, təmizliyə riayət etmədiyi üçün başqalarının narahatçılığına səbəb olan şəxslərə nifrət edər».[1]

Peyğəmbər (s) buyurur:

«İnsanların ən pisi natəmiz olanıdır».[2]

«Çirkin və natəmiz şəxslər həlak olarlar.»[3]

**2. Hamamın göstərişləri:**

Əli (ə) buyurur:

«Cəhənnəm odunu insana xatırlatdığı və çirki bədəndən apardığı üçün hamam ən yaxşı məkandır».[4]

Bu haqda nəql olunmuş rəvayətlərin məzmunu ilə tanış olduqdan sonra belə bir qənaətə gəlmək olur ki, cismi sağlamlığın qeydinə qalan hər bir şəxs iki gündən bir və ya heç olmasa həftənin son günlərində bir dəfə də olsun hamama getməlidir.

İmam Sadiq (ə) buyurur:

«İlahi! Aludəçilik və natəmizliyi məndən uzaq, bədən və qəlbimi pak et».

İsti suyu bədəninizə tökdüyünüz zaman deyin: «Cəhənnəm odundan Allaha pənah aparır və Ondan əbədi Cənnət diləyirəm».

Qüsl alıb qurtardıqdan sonra paltarınızı geyindiyiniz zaman deyin: «İlahi! Təqva libasını mənə nəsib et və haqq yolundan uzaq düşüb həlak olmaqdan Özün qoru!».

Hamama tamamilə lüt daxil olmamalı, övrəti örtərək fitə və ya paltardan istifadə olunmalıdır.

Peyğəmbər (s) bu haqda buyurur:

«Fitə bağlamadan hamama daxil olmayın».

İmam Sadiq (ə) buyurur:

«Kişilər öz uşaqlarını hamama aparmamalıdırlar. Məbada onlar öz valideynlərinin övrətinə nəzər salsınlar».

«Hamama fitə ilə daxil olan şəxsləri Allah-taala öz örtüyü ilə tutar».

Fitədən istifadə tək hamama xas deyildir. Belə ki, hər bir şəxs başqalarının onu görə biləcəyini ehtimal verdikdə çay, göl, dəniz və s. yerlərdə çimdiyi zaman hökmən övrətini başqalarından qorumağa çalışmalıdır».

Peyğəmbər (s) buyurur:

«Allah-taala mənim ümmətimin çaylarda fitəsiz qüsl almasını sevmir».

Hamam, çimərlik kimi yerlərdə kimsə başqasının övrətinə nəzər salmamalıdır.

İmam Sadiq (ə) bu haqda buyurur:

«Hamamda qüsl alan müsəlman qardaşının övrətinə baxmayan şəsxləri qiyamət günü Cəhənnəm odunun şiddətli əzabından hifz edər».[5]

---

[1] Biharul-ənvar, 10-cu cild, bab-7.
[2] Üsuli-kafi, 6-cı cild.
[3] Kənzül-ümmal, 7422-ci xəbər.
[4] Məkarimul-əxlaq. Təbərsi.
[5] Biharul-ənvar, 76-cı cild, bab-3.

İnsan tamamilə lüt olduqda, hamamda Qur᾽an oxumamalıdır. Məhəmməd ibni Müslim bu haqda - imam Məhəmməd Baqir (ə)-dan həqiqətən Əli (ə) hamamda Qur᾽an oxumağı yasaq etməsi haqda soruşduqda buyurur:

«Xeyr! İnsan yalnız tamamilə lüt olduqda Qur᾽an oxumamalıdır. Geyinmiş olduğu halda isə bunun heç bir nöqsanı yoxdur».[1]

Həmçinin bədəndə olan artıq tüklərin təmizlənməsi və ya azaldılması, bədən təmizliyinin ən ümdə hissəsini təşkil edir.

Bu isə hər on beş gündən bir və ya heç olmasa üç həftədən bir yerinə yetirilməlidir.

**3. Paltarın səliqə və təmizliyi:**

İslam dini paltarın rəng və malına diqqət yetirməzdən əvvəl, onun təmiz və səliqə-səhmanına əhəmiyyət verir. Nəql olunmuş rəvayətlərdən birində deyilir: Peyğəmbər (s) natəmiz paltar geymiş şəxslə qarşılaşıb təəccüblə buyurur: «Məgər o, paltarını yumağa su tapmırmı?».[2]

«Geyinməyə paltar seçdiyiniz zaman onu təmiz saxlamağa çalışın».[3]

Başqa bir rəvayətdə Aişəyə xitab edərək buyurur: «Ey Aişə! Qalx və bu iki paltarı yu! Məgər bilmirsənmi ki, paltarlar da Allaha təsbih edir?! Çirkli olduqda isə onların təsbih etmələri kəsilir».[4]

Əli (ə) buyurur:

«Təmiz paltar qəm-qüssəni insandan uzaqlaşdırır».[5]

İmam Sadiq (ə) buyurur:

«Təmiz paltar düşməni xar və rüsvay edər».[6]

Əli (ə) Muzzəmmil surəsinin 4-cü ayəsinin izahında buyurur: ***«Yə᾽ni, paltarlarınızı yerlə sürünməsin deyə, bir qədər qısaldın».***

İmam Cə᾽fər Sadiq (ə) ayənin izahında buyurur: «Yə᾽ni, paltarınızı bir qədər yuxarı tutun ki, yerlə sürünməsin».

Bir sözlə, paltar yerlə sürünüb tez bir zamanda bulaşmasın deyə, bir qədər qısa olması gərəkdir.

Peyğəmbər (s) və Mə᾽sum imamlar (ə) daha çox ağ rəngli paltarlara üstünlük verərdilər. Onlar əksər hallarda ağ rəngli paltar geyinər və öz tərəfdarlarına da bunu tövsiyə edərdilər.

Çünki paltarın natəmizliyi tünd rəngli paltarlarda özünü gec büruzə verir və belə bir halda paltarları vaxtaşırı yumaq lazım gəlir. Ağ rəngli paltarlarda isə natəmizlik özünü dərhal büruzə verir və nəticədə paltarın bulaşıq qalmasına yol verilmir.

Peyğəmbər (s) bu haqda buyurur:

---

[1] Məkarimul-əxlaq. Təbərsi.
[2] Sünəni əbi-Davud, 4-cü cild.
[3] Fürui-kafi, 6-cı cild.
[4] Kənzül-ümmal, 2609-cu xəbər.
[5] Üsuli-kafi, 6-cı cild.
[6] Məkarimul-əxlaq. Təbərsi.

«Ağ paltar geyinin, çünki o daha gözəl və daha pakdır. Öz ölülərinizi də ağ rəngli parçalarla kəfənləyin.»[1]

«Ən gözəl və səliqəli olan ağ paltarlarınızı geyinin, ölülərinizi də ağ parçalarla kəfənləyin.»

«Məscid və qəbirlərinizdə Allahla görüşdüyünüz ən gözəl hallar, ağ paltar geyindiyiniz anlardır».[2]

«Allahın sevdiyi ən gözəl paltarlarınız ağ rəngli paltarlarınızdır. Elə isə ağ rəngli paltarlarla namaz qılıb, ölülərinizi də onunla dəfn edin».[3]

Bu məzmunda nəql olunmuş rəvayətlərdə kətan və panbıq parçalardan hazırlanmış paltarlar geyinmək tövsiyə olunmuşdur. Kişilərin ipək parçadan hazırlanmış paltarlar geyinməsinin isə haram olduğu göstərilir. Əli (ə) bu haqda buyurur: «Panbıq paltarlar geyinin, çünki bu Peyğəmbər (s) və biz Əhli-beytin geyimidir».[4]

İmam Sadiq (ə) buyurur:

«Peyğəmbərlər kətan paltarlar geyinmişlər, bu insanın daha sağlam olub yaxşılaşmasına səbəb olur».[5]

Peyğəmbər (s) buyurur:

«Ümmətimin kişilərinə ipək paltarlar geyinib qızıl, zinət əşyalarından istifadə etmək haram, qadınlara isə halal olundu».[6]

Həmçinin nəql olunmuş rəvayətlərdə fəxr və təkəbbürlük məqsədilə bahalı və diqqəti cəlb edən paltarlar geyinmək qətiyyətlə yasaq olunur.

Peyğəmbər (s) buyurur:

«Allah, yaraşıqlı paltarlar geyinib camaatın diqqətini özünə cəlb edən şəxslərə, onu əynindən çıxardanadək nəzər salmaz».[7]

«Allah şan-şöhrət məqsədilə paltar geyinən şəxslərdən qiyamət günü üz çevirər».[8]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Peyğəmbərdən (s) nəql olunmuş hədislərdən istifadə edərək islam dininin paklıq və təmizliyə olan baxışını izah edin.
2. Əli (ə)-dan nəql olunmuş rəvayətə əsasən Allah-taala kimlərə nifrət edir?
3. Hamama aid olan qayda-qanunları ixtisarla izah edin.
4. Peyğəmbər (s) nə üçün ağ paltar geyinməyi tövsiyə edir?
5. İslam hansı paltarların geyinməsini yasaq edir?

---

[1] Kənzül-ümmal, 41101-ci xəbər.
[2] Mizanul-hikmət, 3548-ci bab.
[3] Kənzül-ümmal, 41117-ci xəbər.
[4] Üsuli-kafi, 6-cı cild.
[5] Həmən mənbə.
[6] Kənzül-ümmal, 41210-cu xəbər.
[7] Həmən mənbə, 41203-cü xəbər.
[8] Həmən mənbə, 41202-ci xəbər.

## QIRX ALTINCI DƏRC

## SƏLİQƏ VƏ TƏMİZLİK

### *DİŞLƏRİN YUYULMASI*

Peyğəmbər (s) buyurur:

«Cəbrail (ə) dişlərin yuyulmasını mənə o qədər tə᾿kidlə tövsiyə edərdi ki, güman edərdim bu dinin vacib olan hökmlərindəndir».[1]

İmam Sadiq (ə) buyurur:

«Dişləri yumaq peyğəmbərlərin gözəl adət-ən᾿ənələrindəndir».[2]

Peyğəmbər (s) buyurur:

«Əgər mənim ümmətimə çətin olmasaydı, namaz üçün dəstəmaz aldıqları zaman dişlərini yumağı onlara vacib edərdim».[3]

Başqa bir hədisdə buyurur:

«Diş yuyulduqdan sonra qılınan namaz, dişlər yuyulmadıqdan sonra qılınan yetmiş beş namazdan daha fəzilətlidir».[4]

Peyğəmbər (s) Əli (ə)-a etdiyi tövsiylərinin birində buyurur: «Namazdan əvvəl hər dəfə dəstəmaz aldığın zaman dişlərini yu».[5]

Başqa bir yerdə buyurur:

«Dişləri yumaq dəstəmazın bir hissəsi, dəstəmaz isə imanın bir hissəsi deməkdir».[6]

«Ağızlarınızla Qur᾿an qiraət etdiyiniz üçün vaxtaşırı dişlərinizi yuyun».[7]

«Ağızlarınızı təmiz saxlayın, çünki onunla Qur᾿an qiraət edirsiniz».[8]

Səhabələrə xitab edərək buyurur:

«Qur᾿anın yolunu təmiz saxlayın». Səhabələrdən biri Qur᾿anın yolu hansıdır?- soruşduqda buyurur: «Ağızlarınız». Daha sonra nə ilə təmizlənməsini soruşduqda buyurur: «Diş fırçaları ilə».[9]

Başqa bir hədisdə buyurur:

«Ağızlarınız Allah yollarından biridir. Allahın ən sevdiyi, gözəl olan yollardır (ağızlardır). Elə isə bacardığınız qədər ağız və dişlərinizi təmiz saxlayın».[10]

---

[1] Biharul-ənvar, 76-cı cild, bab-17.
[2] Həmən mənbə, bab-18.
[3] Sünəni ibni Macə, 287-ci xəbər.
[4] Biharul-ənvar, 76-cı cild, bab-18.
[5] Biharul-ənvar, 76-cı cild, bab-18.
[6] Kənzül-ümmal, 2699-cu xəbər.
[7] Sünəni ibni Macə, 291-ci xəbər.
[8] Kənzül-ümmal, 2804-cü xəbər.
[9] Biharul-ənvar, 76-cı cild, bab-18.
[10] Biharul-ənvar, 79-cu cild, bab-18.

Peyğəmbər (s) səhabələrdən birinə müraciət edərək buyurur: «Nə üçün mənim yanıma gəldiyiniz zaman dişlərinizi qara görürəm?! Onları yumaqla təmizliyinizə diqqət yetirin».[1]

## *DİŞ FIRÇASININ MÜSBƏT XÜSUSİYYƏTLƏRİ*

Peyğəmbər (s) Əli (ə)-a xitab edərək buyurur: «Ey Əli! Dişləri yumağın insana on iki xeyri var: Həm sünnəmə riayət olunur, həm də ağız təmiz saxlanmaqla gözün görmə qabiliyyəti güclənir. Həmçinin Allahı razı salır, dişləri ağardır, ağızın natəmizliyini aradan aparır, damağı bərkidir, iştahanı gücləndirir, xeyirxahlığı çoxaldır və nəhayət mələklərin sevincinə səbəb olur».[2]

Əli (ə) buyurur:

«Dişləri yumaq Peyğəmbərin (s) sünnələrindən biridir. Bu gözəl sünnəyə əməl etməklə həm Allahın razılığına nail olmaq olur, həm də ağızın təmizliyinə».[3]

Başqa bir yerdə buyurur:

«Dişləri yumaq gözün görmə qabiliyyətini artırır».[4]

İmam Sadiq (ə) buyurur:

«Dişlərinizi yuyun, çünki bu sinədəki vəsvəsənin aradan getməsinə səbəb olur».[5]

İmam Riza (ə) buyurur:

«Dişləri yumaq görmə qabiliyyətinin güclənməsinə, saç və tüklərin çıxmasına və gözün sulanmasının qarşısını almağa səbəb olur».[6]

Diş yumağın başqa bir müsbət xüsusiyyəti haqda Peyğəmbər (s) buyurur: «Dişləri yumaq fəsahətliliyi daha da artırır».[7]

## *DİŞLƏRİ NECƏ YUMALI*

Peyğəmbər (s) bu haqda buyurur:

«Dişlərinizi uzununa deyil, eninə fırçalayın».[8]

Rəvayətlərdən birində deyilir: «Peyğəmbər (s) dişlərini hər gecə gündüz üç dəfə uzununa deyil, eninə fırçalayardı. O, dişlərini adətən yatmazdan əvvəl, sonra və namaz qılmazdan əvvəl təmizləyərdi».

Peyğəmbər (s) buyurur:

«Oruc tutan zaman dodaqları quruyan şəxslər səhər (azandan əvvəl) və axşam çağı dişlərini yusun.»[9]

«Səhər çağı və dəstəmaz almazdan əvvəl dişləri yumaq ən gözəl adət ən`ənələrdəndir».[1]

---

[1] Üsuli-kafi, 6-cı cild.
[2] Biharul-ənvar, 76-cı cild, bab-18.
[3] Həmən mənbə.
[4] Həmən mənbə.
[5] Həmən mənbə.
[6] Həmən mənbə.
[7] Biharul-ənvar, 76-cı cild, bab-18.
[8] Biharul-ənvar, 76-cı cild, bab-18.
[9] Həmən mənbə.

Başqa bir hədisdə buyurur:

«Fürsət olmadıqda belə, heç olmasa üç gündən bir dişlərinizi yumağa çalışın».[2]

## *TÜKLƏRİN QISALDILIB SƏLİQƏYƏ SALINMASI*

Saç və bığın qısaldılması, saqqalın dibindən qırxılmaması və başın daranması islamın tövsiyə etdiyi ədəb-ərkan qaydalarındandır.

Peyğəmbər (s) buyurur:

«Bığ və burun tüklərini qısaldıb vaxtaşırı saçlarınızı darayın. Belə etməklə öz gözəlliyinizi qoruyub saxlamış olarsınız».[3]

İmam Sadiq (ə) buyurur:

«Burun tüklərini qısaltmaq üzün görünüşünə xüsusi gözəllik və yaraşıq verir».[4]

«Bığ tüklərinizi uzatmayın, çünki Şeytan oranı özünə sığınacaq edir».

İmam Sadiq (ə) buyurur:

«Bığlarını qısaltmayan kəs bizdən deyildir».[5]

Peyğəmbər (s) buyurur:

«Bığlarınızı qısaldın, saqqalınızı uzadın və özünüzü yəhudilərə oxşatmayın».[6]

Əli ibni Cə᾽fər deyir: Qardaşımdan (həzrət imam Musa Kazim (ə)) saqqalın qısaldılması haqda soruşduqda buyurdu:

«Yanaqlardan saqqalın qısaldılmasının heç bir nöqsanı yoxdur. Lakin qarşıdan qısaldılmamalıdır».[7]

Qeyd etmək lazımdır ki, saqqalın qısaldılıb və ya uzadılmasının da müəyyən həddi vardır. İmam Sadiq (ə) bu haqda buyurur: «Saqqalınızı əlinizə alın, ovucunuzdan çıxanını qısaldın».[8]

Başqa bir hədisdə buyurur:

«Saqqalın əlin içindən çıxanı cəhənnəm odunda olar». (Yə᾽ni, saqqal əlin içindən çıxacaq qədər böyük olmamalıdır».[9]

Peyğəmbər (s) buyurur:

«Gözəl tük Allahın insanlara bəxş etdiyi gözəl örtükdür, elə isə onun qədrini bilin».[10]

İmam Cə᾽fər Sadiq (ə) buyurur:

«Baş və üzün tükünü daramaq yoxsulluğu aradan aparır və bir çox xəstəliklərin qarşısını alır».[11]

Peyğəmbərdən (s) nəql edərək buyurur:

«Baş və üzün tükünü daramaq vəba xəstəliyinin qarşısını alır».[1]

---

[1] Vəsailüş-şiə, 1-ci cild.
[2] Üsuli-kafi, 3-cü cild.
[3] Biharul-ənvar, 76-cı cild, bab-12.
[4] Həmən mənbə.
[5] Biharul-ənvar, 76-cı cild, bab-13.
[6] Məkarimul-əxlaq. Təbərsi.
[7] Biharul-ənvar, 76-cı cild, bab-13.
[8] Həmən mənbə.
[9] Həmən mənbə.
[10] Həmən mənbə, bab-14.
[11] Həmən mənbə.

İmam Riza (ə) Ə᾽raf surəsinin 31-ci ayəsi (Məscidlərə getdiyiniz zaman zinət əşyalarınızı da özünüzlə götürün) haqda buyurur:

«Zinət hesab olunan şeylərdən biri də namaz qılmazdan əvvəl daranmaqdır».[2]

İmam Sadiq (ə) buyurur: «Peyğəmbərin (s) saçı qulaqlarının ucundan çox uzanmazdı».[3]

## DIRNAQLARIN TUTULMASI

Peyğəmbər (s) buyurur:

«Hər kim cümə günləri dırnaqlarını tutarsa, Allah-taala bütün ağrı və xəstəlikləri onun barmaqlarından uzaq və onları daim sağlam edər».[4]

Səhabələrdən biri deyir: İmam Cə᾽fər Sadiq (ə)-dan ruzinin artması üçün mənə dua öyrətməsini xahiş etdim. İmam (ə) cümə günlərində bığ tüklərimi azaldıb, dırnaqlarımı tutmağı mənə tövsiyə etdi».[5]

İmam Cə᾽fər Sadiq (ə) buyurur:

«Cümə günü dırnaqları tutmaq, cüzam və qotur kimi qorxulu xəstəliklərin qarşısını alır».[6]

Başqa bir hədisdə buyurur: «Cümə günü bığ tüklərini qısaldıb dırnaqlarını tutan hər bir şəxs «Bismillah və əla sunnəti Muhəmməd və ali Muhəmməd» deyərsə, tutduğu hər bir dırnağın və kəsdiyi hər bir tükün müqabilində həzrət İsmayıl (ə) övladlarından bir qul azad etmiş savabı qazanmış olar».[7]

Əlbəttə, nəzərdən qaçırmamalıyıq ki, nəql olunmuş rəvayətlərdə cümə gününə tə᾽kid olunması həmin günün əhəmiyyətindən və təmizliyə verilən diqqətdən irəli gəlir. Yə᾽ni, tük və dırnaqlar uzandıqda onların qısaldılmasının cümə gününə tə᾽xirə salınması heç də zəruri deyildir. Bu mətləbə dəlalət edəcək rəvayətlərdən birində deyilir:

İmam Musa Kazim (ə)-ın səhabələrindən biri ona müraciət edərək deyir: Bə᾽ziləri bığ tüklərinin və dırnaqların cümə günlərində qısaldılmasına tə᾽kid edirlər. İmam Kazim (ə) təəccüblənərək buyurur:

«Allah pak və münəzzəhdir! Onları istər cümə, istərsə də qeyri günlərdə qısaldıb təmizliyinizə diqqət yetirin.»[8]

Lakin cümə günləri bığın və dırnaqların qısaldılması, ümumiyyətlə həmin gün təmizliyə riayət etməyin daha çox savabı vardır.

İmam Cə᾽fər Sadiq (ə)-ın səhabələrindən biri cümə günü bığ tüklərinin və dırnaqların qısaldılması haqda ondan soruşduqda buyurur: «Belə bir gözəl adətə vərdiş edən şəxslər gələn cüməyədək daim təmizlikdə olarlar».[9]

---

[1] Həmən mənbə.
[2] Məkarimul-əxlaq, Təbərsi.
[3] Həmən mənbə.
[4] Həmən mənbə.
[5] Biharul-ənvar, 76-cı cild, bab-13.
[6] Həmən mənbə.
[7] Həmən mənbə.
[8] Məkarimul-əxlaq, Təbərsi.
[9] Həmən mənbə.

Peyğəmbərdən (s) nəql olunmuş rəvayətdə də deyilir: «Cümə və cümə axşamı günlərində bığ tüklərini və dırnaqlarını qısaldan şəxslər diş və göz ağrılarından amanda qalarlar».[1]

İmam Sadiq (ə) dırnaqların necə tutulması haqda buyurur: «Cümə günü dırnaqlarınızı tutduqda sol əlinizin kiçik barmağından başlayıb sağ əlinizin kiçik barmağında qurtarın».[2]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Peyğəmbər (s) diş yuyulduqdan sonra qılınan namazın dəyər və əhəmiyyəti haqda nə buyurur?
2. Peyğəmbərin (s) diş yumaq haqda sadaladığı müsbət xüsusiyyətlərdən bir neçəsini əzbərdən deyin.
3. Dişlər nə zaman və necə yuyulmalıdır?
4. Məʾsum imamlar (ə) baş və üz tükləri haqda nə buyurmuşlar?
5. Məʾsum imamlar (ə) baş və üzün daranması haqda nə kimi tövsiyələr etmişlər?
6. İslam nöqteyi-nəzərindən dırnaqlar nə zaman və necə qısaldılmalıdır?

---

[1] Həmən mənbə.

[2] Həmən mənbə.

## QIRX YEDDİNCİ DƏRS

### *SƏLİQƏ VƏ TƏMİZLİK*

### *ƏTİRLƏRDƏN İSTİFADƏ*

Nəql olunmuş rəvayətlərdə mö᾽minlərə paltar və bədənlərinin səliqə və təmizliyinə diqqət yetirmələri ilə yanaşı, gözəl ətirlərdən istifadə etmələrinə də tə᾽kid olunmuşdur. Bu məzmunda nəql olunmuş bir çox rəvayətlərdə mö᾽minlərin, ətirlərdən istifadə etməsi məsləhət görülməklə yanaşı, böyük savaba nail olacaqları haqda da danışılmışdır.

Peyğəmbər (s) buyurur:

«Gözəl iy qəlbə güc verir».[1]

«Ətir vurmaq peyğəmbərlərin gözəl adət ən᾽ənələrindən olmuşdur».[2]

İmam Riza (ə) buyurur:

«Peyğəmbərlərin gözəl xüsusiyyətlərindən biri də gözəl ətirlərdən istifadə etmək olmuşdur».[3]

İmam Sadiq (ə) buyurur:

«Həqiqətən Allah gözəllik və zinətləndirməyi sevər, qəmginlik və qaraqabaqlığı xoşlamaz. Allah-taala Öz bəndəsinə ne᾽mət bəxş etdiyi zaman onun əlamətlərini Öz bəndəsində görmək istər. Onun qəmgin və qaraqabaq görməsini isə əsla istəməz. İmam Sadiq (ə)-dan bunun necə olduğunu soruşduqda buyurur: «Paltarını təmizləyib, gözəl ətirlər vurmuş olsun və evinin divarlarını ağardıb tozunu alaraq səliqə-səhmana diqqət yetirsin. Həqiqətən gün batmazdan əvvəl həyəti işıqlandırmaq həm yoxsulluğa son qoyur, həm də ruzinin artmasına səbəb olur».[4]

Peyğəmbər (s) buyurur:

«Dünyanızda məni sevindirən iki şey var: Ailə qurub gözəl ətirlərdən istifadə etməniz, gözlərimə nur verən isə namazdır».[5]

Peyğəmbər (s) buyurur:

«Dörd şey peyğəmbərlərin gözəl adət ən᾽ənələrindən olmuşdur: Gözəl ətirlərdən istifadə etmək, ailə qurmaq, dişləri yumaq və vaxtaşırı hənadan istifadə etmək».[6]

Başqa bir hədisdə buyurur:

«Mələklər gözəl ətirləri iylədikləri üçün mö᾽minlər bu gözəl sünnəni tərk etməməlidirlər. Elə isə cümə günlərində ətir vurmağı unutmayın».[7]

---

[1] Üsuli-kafi, 6-cı cild.
[2] Həmən mənbə.
[3] Həmən mənbə.
[4] Məkarimul-əxlaq, Təbərsi.
[5] Biharul-ənvar, 76-cı cild, bab-19.
[6] Həmən mənbə.
[7] Üsuli-kafi, 6-cı cild.

İmam Cə᾽fər Sadiq (ə) buyurur:

«Gözəl ətirlərə nə qədər pul xərcələsəniz israfa yol vermiş olmazsınız».[1]

İmam Musa Kazim (ə) buyurur:

«İnsan ətir vurmağı tərk etməməlidir. Əgər gündəlik ətirdən istifadə etməyə imkanı olmazsa, iki gündən bir, buna da qadir olmadıqda, heç olmasa həftədə bir dəfə ətirdən istifadə etməlidir».[2]

İmam Cə᾽fər Sadiq (ə) başqa bir hədisdə buyurur: «Peyğəmbər (s) ətirə çörəkdən daha çox pul xərclərdi».[3]

Əli (ə) buyurur:

«Bu bir həqiqətdir ki, Peyğəmbərə (s) ətir və ya şirniyyat şeyləri gətirdikdə heç vaxt onu geri qaytarmazdı».[4]

Ənəs ibni Malik deyir:

«Peyğəmbər (s) sovqat olaraq gətirilən ətirləri geri qaytarmazdı.»[5]

Səhabələrdən biri deyir: «İmam Sadiq (ə)-dan sovqat olaraq verilən ətrin geri qaytarılmaması haqda soruşduqda buyurur:

«Belə bir böyük hörməti geri qaytarmaq yaxşı iş deyildir».[6]

## *EV VƏ ƏTRAF MÜHİTİN TƏMİZLİYİ*

İslam dini paltar və bədənin təmizliyinə diqqət yetirdiyi kimi, ev, ətraf mühit və məişət əşyalarının da təmizliyinə böyük əhəmiyyət verir. İstər Peyğəmbər (s), istərsə də onun sadiq davamçıları olan Mə᾽sum imamlar (ə) bədən və məişət təmizliyinə xüsusi diqqət yetirmiş və müsəlmanlara bu məsələyə ciddi yanaşmalarına tə᾽kid etmişlər.

Belə ki, istər əxlaq və davranış, istərsə də ictimai və məişət nöqteyi-nəzərindən hər bir müsəlmanın həyat tərzi başqalarına örnək və nümunə olmalıdır.

Bütün bunlarla yanaşı, təmizliyə riayət olunması haqda nəql olunmuş hədis və rəvayətlərdə natəmizliyə yol verilməməsinə və bunun nəticəsində bir çox xəstəliklərin qarşısının alınmasına xüsusi diqqət yetirilmişdir. Bunun üçün də nəql olunmuş bir çox rəvayətlərdə hər hansı bir əməlin bir çox qorxulu xəstəliklərin qarşısının alınmasına işarə olunmuşdur. Bəlkə də rəvayətlərin bir çoxunda Şeytan deyildikdə, müxtəlif virus və mikroblar nəzərdə tutulur.

Peyğəmbərin (s) buyurduğu «Bığlarınızı çox uzatmayın ki, Şeytan orada özünə yer etməsin» - hədisini buna misal göstərmək olar.

Bunun üçün də əgər hər bir müsəlman öz məişət və ictimai həyatında Peyğəmbərin (s) və Mə᾽sum imamların (ə) tövsiyələrinə əməl etsə, ətraf mühitin və özlərinin sağlamlıqlarını tə᾽min edəcək və çox nadir hallarda xoşagəlməz hadisə və xəstəliklərlə qarşılaşmış olacaqlar.

---

[1] Həmən mənbə.
[2] Həmən mənbə.
[3] Məkarimul-əxlaq, Təbərsi.
[4] Üsuli-kafi, 6-cı cild.
[5] Sünəni ibni Macə, 8-ci cild.
[6] Vəsailüş-şiə, 1-ci cild.

Bu dərsimizdə ilk növbədə Mə᾽sum imamların (ə) ev və şəxsi əşyaların təmizliyinə riayət olunması haqda etdikləri tövsiyələrdən söhbət açacaq, daha sonra ətraf mühitin və ümumi yerlərin təmizliyinə riayət olunması barədə nəql olunmuş hədis və rəvayətlərin bir neçəsini gətirəcəyik.

Lakin hər şeydən əvvəl nəzərdən qaçırmamalıyıq ki, hər bir müsəlman fərdi təmizliyə riayət etməklə yanaşı, ətraf mühitin və başqalarının narahatçılığına səbəb olacaq natəmizliyə və hüquqlarının taptalanmasına da yol verməməlidir.

İmam Məhəmməd Baqir (ə) buyurur:

«Evi vaxtaşırı təmizləyib süpürgələmək yoxsulluğu aradan aparır».[1]

İmam Cə᾽fər Sadiq (ə) buyurur:

«Qabların və evin təmizlənməsi ruzinin çoxalmasına səbəb olur».[2]

Peyğəmbər (s) buyurur:

«Şeytan özünə sığınacaq tapmasın deyə, yeməkdən əvvəl əllərinizi sildiyiniz bulaşıq dəsmalları və evi süpürdükdən sonra toz və zibili qapının arxasında saxlamayın».[3]

Başqa bir hədisdə buyurur:

«Şeytan özünə yer etdiyi üçün, istər axşam, istərsə də gündüz atılası zibili evlərinizdə saxlamayın».[4]

Əli (ə) Peyğəmbərdən (s) nəql edərək buyurur:

«Yağlı əl dəstmallarınızı evlərinizdə saxlamayın, çünki Şeytan orada özünə sığınacaq tapır».[5]

Həmçinin Peyğəmbər (s) buyurur:

«Şeytanlar evlərinizdə hörümçək torlarında sakin olarlar».[6]

Əli (ə) buyurur:

«Evlərinizi hörümçək torlarından təmizləyin, onların qalması fəqr və yoxsulluğa səbəb olur».[7]

İmam Cə᾽fər Sadiq (ə) buyurur:

«Peyğəmbər (s) çıraq olmadan qaranlıq evlərə girməyi qadağan edərdi».[8]

Başqa bir rəvayətdə deyilir:

«Gün batmazdan əvvəl ev və həyəti işıqlandırmaq ruzini artırır və yoxsulluğa son qoyur».[9]

## *ƏTRAF MÜHİTİN TƏMİZLİYİ*

Nəql olunmuş rəvayətlərdə yol (küçə, dalan), su kanallarına, meyvəli və kölgəsindən istifadə olunan ağacların dibinə, mənzil, məscid kənarına,

---

[1] Vəsailüş-şiə, 3-cü cild.
[2] Həmən mənbə.
[3] Biharul-ənvar, 76-cı cild, bab-36.
[4] Vəsailüş-şiə, 3-cü cild.
[5] Biharul-ənvar, 76-cı cild, bab-36.
[6] Vəsailüş-şiə, 3-cü cild.
[7] Həmən mənbə.
[8] Həmən mənbə.
[9] Həmən mənbə.

ümumiyyətlə camaatın istifadə etdiyi və narahatçılıqlarına səbəb olacaq ümumi yerlərə sidik və nəcasət ifraz olunması qətiyyətlə yasaq olunmuşdur.

Deməmk, mö᾽minlər ətraf mühitin və yaşayışlarının dözülməz hala düşməsinə səbəb olacaq bu kimi xoşagəlməz işlərə yol verməməlidirlər.

İmam Cə᾽fər Sadiq (ə) atasından nəql edərək deyir: «Peyğəmbər (s) camaatı içmək üçün istifadə etdikləri quyu və çaylara, həmçinin meyvə ağaclarının dibinə nəcasət ifraz etməyə yasaq edərdi».[1]

Başqa bir hədisdə buyurur:

«Peyğəmbər (s) buyurardı: Kölgəliklərə nəcasət ifraz edənlər, ümumi su quyularından istifadə etməyi qadağan edənlər, ümumi yolları bağlayanlar Allahın lə᾽nətinə gələrlər».[2]

İmam Sadiq (ə) atasından nəql edərək buyurur: «Peyğəmbər (s) səhabələrə müraciət edərək buyurdu: Ey müsəlman ümməti! Allah-taala iyirmi dörd şeyi sizlərə yasaq edir. Onlardan biri də çaylara sidik və meyvə ağaclarının dibinə nəcasət ifraz etməməyinizdir.»[3]

Bir şəxs imam Zeynəlabidin (ə)-dan soruşur: «Qərib bir insan harada dəsətəmaz alıb nəcasətini ifraz etməlidir?» İmam Zeynəlabidin (ə) sualın cavabında buyurur: Çaya, axar sulara və meyvəli ağacların dibinə və ümumiyyətlə camaatın narazılığına səbəb olacaq yerlərə sidik və nəcasət ifraz etməməlidir».[4]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Peyğəmbər (s) gözəl ətirlər haqda nə buyurur?
2. Ətir almaq üçün nə qədər pul xərclənməlidir?
3. Peyğəmbər (s) və Mə᾽sum imamlar (ə) yaşayış yerlərinin təmizliyi haqda nə fikirdə olmuşlar?
4. Nəcasətin ifraz olunması haralarda yasaq olunur?

---

[1] Vəsailüş-şiə, 1-ci cild.
[2] Həmən mənbə.
[3] Həmən mənbə.
[4] Həmən mənbə.

## QIRX SƏKKİZİNCİ DƏRS

### *AYAQ YOLUNUN QAYDALARI*

Mə᾿sum övliyaların bə᾿zən paltar, mənzil və ətraf mühitin təmizliyi haqda etdikləri tövsiyələrlə tanış olduqdan sonra, ayaq yolunun qayda-qanunları və oranın təmizliyi barədə olunan dəyərli tövsiyələrə işarə etməyi məqsədə uyğun hesab edirik.

### *CAMAATDAN UZAQ OLMALI*

Yaşayış yerlərində tikilən ayaq yolu mümkün qədər gizli və nəzərə çarpmayan yerlərdə olmalıdır. Səhra və açıq havada isə ayaq yoluna getmək istərkən, dərə, təpələrin arxasında və ya aralıqlardan istifadə etmək lazımdır.

İmam Cə᾿fər Sadiq (ə) buyurur:

«Ayaq yoluna getmək istərkən hamının nəzərindən uzaq və gizli yerləri seçin».[1]

Başqa bir hədisdə buyurur:

Həzrət Loğmanın, oğluna etdiyi tövsiyələrin birində deyilir:

«Cəm halında bir yerə getdikdə onlarla çox məşvərət et, ayaq yoluna getmək istədikdə isə onlardan səni görməyəcəkləri məsafəyədək uzaq olmağa çalış».[2]

İmam Sadiq (ə) buyurur:

«Həzrət Loğmana verilən hikmət heç də onun var-dövləti, fiziki sağlamlığı və ya gözəlliyinə görə bəxş olunmamışdır. O, olduqca təqvalı, pəhrizkar, sakit və daim ilahi əmrlərə müt᾿i olan bir şəxs idi. Olduqca həyalı olduğu üçün kimsə onu nə qüsl alarkən, nə də ayaq yoluna gedərkən görə bilərdi. Məhz bu xüsusiyyətlərinə görə ona ilahi hikmət bəxş olundu».[3]

### *ÖVRƏT ÖRTÜLÜ OLMALI*

Hər bir müsəlman bütün hallarda, xüsusilə də ayaq yoluna gedərkən öz övrətini başqalarından gizli saxlamağa çalışmalıdır. Həmçinin birinin başqa birisinin övrətinə baxması da haram və böyük günah hesab olunur. Peyğəmbər (s) özünün «Mənahi» adlı hədisində buyurur:

«Çarəsizlikdən açıq havada qüsl aldıqda övrətinizi başqalarından gizli saxlayın. Hamamda qüsl aldıqda belə hökmən övrətinizi fitə ilə örtün. İstər kişilər, istərsə də qadınlar bir-birlərinin övrətlərinə baxmamalıdırlar. Agah olun ki, belə şəxslərə yetmiş min mələk nifrin edər və lə᾿nət oxuyar. Allah-taala bilərəkdən müsəlman qardaşının və yad qadının övrətinə nəzər salan şəxsləri, tövbə etmədikdə

---

[1] Vəsailüş-şiə, 1-ci cild.
[2] Həmən mənbə.
[3] Həmən mənbə.

münafiqlər arasına qoyaraq dünyalarını dəyişmədən böyük rüsvayçılıqla üzləşdirər».[1]

İmam Cə᾽fər Sadiq (ə) Nur surəsinin 30-cu ayəsinin izahında buyurur: «Qur᾽ani-kərimin bütün ayələrində övrətin qorunması barədə söhbət açıldıqda, bu ayə istisna olmaqla, zinadan qorumaq nəzərdə tutulur. Burada isə başqalarının övrətinə nəzər salmaq nəzərdə tutulur. Ayədə buyurulur:

**«[Ya Məhəmməd!] Mö᾽min kişilərə de ki, gözlərini haram edilmiş şeylərdən çevirsinlər, ayıb yerlərini qorusunlar [və ya örtülü saxlasınlar]. Bu onlar üçün [ədəb-ərkan, təmizlik baxımdan] daha yaxşıdır».**

## *NECƏ OTURMALI*

Ayaq yolunda oturarkən nə arxa, nə də qabaq tərəf qibləyə olmamalıdır. Fiqhi bəhslərdə bu mətləbə toxunularaq deyilir: Ayaq yolunda ikən üzü və arxası qibləyə tərəf olan şəxslər günaha yol vermiş olurlar. Peyğəmbər (s) «Mənahi» hədisində bu mətləbə işarə edərək buyurur: «Ayaq yolunda olduğunuz zaman üzü və arxası qibləyə olmayın».[2]

Başqa bir hədisdə buyurur:

«Ayaq yolunda olduğunuz zaman üzü və ya arxası qibləyə tərəf deyil, şərq və ya qərb tərəfə oturun».[3]

Açıq havada ayaq yoluna getdikdə küləyin əks istiqamətində oturmamağı nəzərə almaq lazımdır. İmam Riza (ə)-dan ayaq yolunda necə oturmaq haqda soruşduqda buyurdu:

«Üzü və ya arxası küləyin əks istiqamətinə oturulmamalıdır».[4]

## *DANIŞIB SÖHBƏT ETMƏMƏLİ*

Ayaq yolunda oturarkən heç kəslə danışılmamalı və Qur᾽an oxunulmamalıdır. Lakin azan vaxtı Allahı zikr edib zümzümə etməyin heç bir nöqsanı yoxdur.

İmam Riza (ə) buyurur: Peyğəmbər (s) ayaq yolunda ikən kimsəyə cavab verməyi və söhbət etməyi qadağan edərdi».[5]

Əli (ə) buyurur: «Yeddi halda Qur᾽an oxunmamalıdır: Rüku və səcdəyə gedərkən, hamam və ayaq yolunda olarkən, qadınlar heyz və nifas, kişi və qadınlar isə cünub halında olduqları zaman.»[6]

İmam Cə᾽fər Sadiq (ə) buyurur:

«Ayaq yolunda olduğunuz zaman azan səsini eşitdikdə müəzzinin dediklərini təkrar edib Allahı yad edin. Çünki yaxşı olar ki, Allah bütün hallarda yad edilsin».[7]

---

[1] Həmən mənbə.
[2] Vəsailüş-şiə, 1-ci cild.
[3] Həmən mənbə.
[4] Biharul-ənvar, 80-cı cild, bab-26.
[5] Vəsailüş-şiə, 1-ci cild.
[6] Biharul-ənvar, 80-cı cild, bab-26.
[7] Həmən mənbə.

## *DİGƏR QAYDALAR*

«Ayaq yoluna sol ayaqla daxil olub, oradan sağ ayaqla xaric olunmalıdır və ayaq üstə idrar olunmamalıdır».

İmam Sadiq (ə) buyurur: «Üzürsüz olaraq ayaq üstə idrar etmək və nəcasəti sağ əllə təmizləməklə insan özü-özünə zülm etmiş olur».[1]

Qayalıqlara, axarı olmayan sulara, habelə havaya səpərək idrar olunmamalıdır.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. İlahi hikmətin həzrət Loğmana verilməsinə nə səbəb olmuşdur?
2. Peyğəmbər (s) mö᾿min qardaşının övrətinə nəzər salan şəxslər barədə nə buyurur?
3. Ayaq yolunda hansı tərəfə oturmaq haram hesab olunur?
4. Ayaq yolunda kiminləsə danışıb və ya kiməsə cavab vermək qadağandırmı?
5. Ayaq yolunun qaydalarını ixtisarla bəyan edin.

[1] Həmən mənbə.

## QIRX DOQQUZUNCU DƏRS

### *YEMƏK VƏ İÇMƏYİN QAYDALARI*

Yemək və içmək insan həyatının ən başlıca hissəsini təşkil edir. Həyatın bütün sahələrində olduğu kimi, islam fiqh və əxlaqı bu məsələyə xüsusi diqqət yetirmiş və öz davamçılarına dəyərli tövsiyə və göstərişlər vermişdir. Bir qədər əvvəl qeyd etdik ki, bu göstərişlərə əməl və riayət etmək həm insanın öz cismi sağlamlığına, həm də yaşadığı cəmiyyətdə başqalarının hüququna hörmət sayıldığı üçün, onun mövqe və şəxsiyyətinin daha da ucalmasına səbəb olur. Bu və növbəti dərsimizdə islamın yemək və içməyə dair etdiyi tövsiyə və göstərişlər haqda söhbət açacaq və bə᾽zi mətləblərin izahını verməyə çalışacağıq.

### *YEMƏYİN PAK VƏ HALALLIĞI*

Hər bir müsəlman istifadə etdiyi qida məhsullarında hər şeydən əvvəl onun pak olmasına diqqət yetirməlidir. Belə ki, şəriət nöqteyi-nəzərindən nəcasətdən qida kimi istifadə etmək qətiyyətlə haram hesab olunur. Bunun üçün də hər bir müsəlman istifadə etdiyi qida məhsullarının halal və ya haram şeylərdən hazırlanmasına xüsusi diqqət yetirməlidir. Məsələn yediyi ət, əti halal olan heyvanların ətindən olmalı və şər᾽i qanunlara uyğun kəsilməlidir.

Yeməyin və ya qida məhsullarının hazırlanmasında da təmizlik ən başlıca şərtlərdən biri hesab olunur.

Mə᾽sum imamlar (ə) və islam alimləri bu fikirdə olmuşlar ki, yeməyin hazırlanmasında təmizliyə riayət etməmək və onun haram şeylərdən hazırlanması insanın mə᾽nəviyyatına, ruh və qəlbinin saflığına mənfi tə᾽sir göstərərək, onun ibadətdən uzaq düşməsinə səbəb olur. Bunu üçün də müxtəlif şəxslərdən və həmçinin təmizliyə riayət etməyən naşı şəxslərdən yemək məhsullarının alınmaması tövsiyə olunur. Lakin, bunu yalnız əxlaqi bir tövsiyə hesab etmək olar və biz aldığımız yemək məhsullarının natəmizliyinə yəqinlik hasil etməyənədək onu haram və natəmizlikdə ittiham edə bilmərik.

Bütün bunlarla yanaşı, yemək məhsullarının halal yolla əldə olunmasına xüsusi diqqət yetirmək lazımdır. Hər bir müsəlman özünün və ailəsinin yemək məhsullarını halal yolla tə᾽min etməklə yanaşı, illik gəlirinin xüms və zəkatını ödəməli və həmçinin başqalarının hazırladıqları yemək şeylərinin halal olub-olmamasına da diqqət yetirməlidir. Fiqh kitablarında bu məsələyə dair «Məkasibul muhərrimə-Halal qazanclar» adlı xüsusi fəsl ayrılmışdır. Bu haqda ətraflı mə᾽lumat əldə etmək istəyənlər bu kitablara müraciət edə bilərlər.

### *ƏLLƏRİN YUYULMASI*

Gün ərzində müxtəlif əşyalarla təmasda olduğumuz üçün əllər istər-istəməz çirklənməli olur. Bunun üçün də bir çox xəstəliklərin qarşısını almaq üçün yemək yeməzdən əvvəl əllərin təmizliyinə xüsusi diqqət yetirilməlidir.

Peyğəmbər (s) buyurur:

«Yemək yeməzdən əvvəl dəstəmaz almaq yoxsulluğu, yedikdən sonra dəstəmaz aldıqda isə dəlilik xəstəliyini aradan aparır. Həmçinin gözün görmə qabiliyyətini də gücləndirir».[1]

Başqa bir hədisdə buyurur:

«Xeyirxah işlərinizin artmasını istəyirsinizsə, yemək yeməzdən əvvəl dəstəmaz alın».[2]

İmam Sadiq (ə) buyurur:

«Yemək yeməzdən əvvəl və sonra əllərini yuyan şəxslər üçün yedikləri yemək daha bərəkətli olar və ömürlərinin sonunadək bol ruzi və əmin-amanlıq içində yaşayar».[3]

Səfvan Cəmmal, imam Sadiq (ə)-ın səhabələrindən nəql edərək deyir: Bir gün imam Sadiq (ə)-ın evində olduğum zaman yemək gətirdilər. Xidmətçi su və ləyən gətirdi və İmam (ə) yeməzdən əvvəl dəstəmaz aldı. Əllərini qurulamağa dəsmal verdikdə onu geri qaytarıb buyurdu:

«Əlimi elə həmin şeylərdən yudum.». Yə᾿ni, əllərimi təmasda olduğum şeylərin çirk və natəmizliyindən yuyub təmizlədim. Onlarla yenidən təmasda olacaqdımsa, yumaq nəyə lazım idi?

Səhabələrdən biri deyir: İmam Musa Kazim (ə) yemək yeməzdən əvvəl əllərini yudu, lakin qurulamadı. Yeməkdən sonra yuduqda isə əllərini qurulamaq üçün dəsmal istədi».[4]

## *SÜFRƏ ARXASINDA NECƏ OTURMALI*

İnsan süfrə arxasında oturarkən, özünü Allah qarşısında son dərəcə təvazökar və ona bəxş etdiyi ne᾿mətlərin müqabilində qədirbilən olduğunu göstərməlidir. Bunun üçün də yaxşı olar ki, yemək süfrəsi yerdə açılsın.

Peyğəmbər (s) buyurur:

«Söykənərkən yemək yemirəm. Allah bəndəsi olduğum üçün adi bəndə kimi oturur, adi bəndə kimi də yemək yeyirəm».[5]

Əli (ə) buyurur: «Yemək süfrəsinin arxasına oturduğunuz zaman Allah bəndələri kimi yerdə oturun, ayaqlarınızı bir-birinin üstünə qoymayın və ya (heyvan kimi) iki əl və ayaqlarınız üstə oturmayın, bilin ki, Allah belə oturanlara nifrət edər».[6]

İmam Sadiq (ə) buyurur:

«Həzrət Məhəmməd (s) peyğəmbərliyə tə᾿yin olunduğu ilk gündən ömrünün sonunadək, yemək yediyi zaman heç bir yerə söykənməzdi. O, adi bəndələr kimi oturar, onlar kimi də yemək yeyərdi. Səbəbini soruşduqda buyurardı: «Allah qarşısında təvazökar olduğum üçün belə edirəm».[7]

---

[1] Məkarimul-əxlaq, Təbərsi.
[2] Mən la yəhzirul fəqih.
[3] Məkarimul-əxlaq, Təbərsi.
[4] Həmən mənbə.
[5] Sünəni ibni Macə, 3262-ci xəbər.
[6] Üsuli-kafi, 6-cı cild.
[7] Həmən mənbə.

## *ALLAHIN ADI İLƏ BAŞLAMALI*

Peyğəmbər (s) Əli (ə)-a etdiyi tövsiyələrin birində buyurur: «Yemək yeməyə başlarkən «Bismillah», qurtardıqda isə Ona şükr edərək «Əlhəmdulillah» deyin. Belə etdikdə xeyirli işlərinizi yazan iki mələk istirahətin nə olduğunu bilməyəcəklər».[1]

Əli (ə) buyurur:

«O kəslərin sağlamlığına zəmanət verirəm ki, yemək yeməyə başlarkən Allahın adını çəkmiş olsunlar».[2]

İmam Cə᾽fər Sadiq (ə) buyurur: «Süfrədə olan bütün yeməkləri yeməzdən əvvəl «Bismillah» deməyi unudan şəxslərin, yeməyə başlamazdan əvvəl «Bismillah min əvvəlihi ila axirihi» deməsi məsləhətdir.»[3]

Əxlaq alimlərinin bir çoxu tövsiyə etmişlər ki, yemək yeməyə başlamazdan əvvəl «Bismillah» deməklə yanaşı, ağıza hər bir tikə qoyulduqda belə, Allahın adı çəkilsin. Belə etdikdə, yeməyin ləzzəti Allahı yad etməyə mane olmur.

## *NİYYƏT*

İnsan yemək yedikdə ən başlıca məqsədi yeməklərin dadından ləzzət aparmaq deyil, Allah qarşısında ibadətlərini layiqincə yerinə yetirmək və əmli-saleh işlərə daha çox can atması olmalıdır.

Belə olduqda, insan ilə heyvan arasındakı fərq özünü bir daha büruzə verir. İnsanın yemək yeməsi, mə᾽nəvi dəyər taparaq müstəhəb bir əməl kimi Allahın razılığına səbəb olur.

Əli (ə) öz oğlu imam Həsən (ə)-a tövsiyə edərək buyurur: «Oğlum! Hər hansı bir isti və ya soyuq tikə və ya bir qurtum su içməzdən qabaq de: - İlahi! Yemək və içməklə Səndən xəstəliklərdən şəfa və sağlamlıq, Səndən layiqincə itaət etmək və şükrünü yerinə yetirməyə qüdrət istəyirəm. Yemək və içməkdən aldığım qüdrətdən Sənə ibadət etməyimə qadir et. Və mənə günahdan uzaq olmaq üçün ilham bəxş et! -demədən nə bir tikə çörək ye, nə də bir qurtum su iç».[4]

## *YEMƏK YEMƏYƏ NECƏ BAŞLAMALI*

Süfrə arxasına oturduqdan sonra Allahın adını çəkib yeməyi sağ əllə yeməyə başlamaq lazımdır.

Səhabələrdən biri deyir: İmam Sadiq (ə)-dan sol əli ilə yeyən şəxslər barədə soruşduqda buyurdu: «Sol əllə bir şey yeməməli, içməməli və hər hansı bir iş görməməlidir.»[5]

Başqa bir rəvayətdə deyilir:

«Sağ əlinizlə yeyə bildiyiniz halda, sol əlinizlə yeməyin».[6]

Əli (ə) buyurur:

---

[1] Məkarimul-əxlaq, Təbərsi.
[2] Üsuli-kafi, 6-cı cild.
[3] Məkarimul-əxlaq, Təbərsi.
[4] Həmən mənbə.
[5] Vəsailüş-şiə, 16-cı cild.
[6] Həmən mənbə, 12-ci cild.

«Yeməyə başlamazdan əvvəl bir qədər duz yeyin. Əgər camaat duzun nə qədər xeyirli olduğunu bilsəydi, ona zəhər dərmanından daha üstünlük verərdilər».[1]

İmam Sadiq (ə) buyurur:

«Biz yemək yeməzdən əvvəl bir qədər duz yeyər və yeməkdən sonra bir qədər sirkə içərik».[2]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Yemək yeyərkən hər bir müsəlmanın üzərinə düşən ən başlıca vəzifə nədən ibarətdir?
2. İslam nöqteyi-nəzərindən süfrə arxasında necə oturulmalıdır?
3. Yemək yeməyə necə başlamaq lazımdır?
4. Hansı niyyətlə yeyilib içilməlidir?

---

[1] Məkarimul-əxlaq, Təbərsi.

[2] Həmən mənbə.

# ƏLLİNCİ DƏRS

## YEMƏK VƏ İÇMƏYİN QAYDALARI

### *YEMƏK YEMƏYİN QAYDALARI*

Süfrə arxasında oturduqda başqalarının qarşısından deyil, əl çatan ən yaxın yerlərə qoyulan yeməklərdən istifadə etmək lazımdır. Həzm və çeynəməyin asan olması, həmçinin üzün xoşagəlməz hala düşməməsi üçün ağıza qoyulan tikələr balaca olmalıdır. Tikələr yalnız yaxşıca çeynəldikdən sonra udulmalıdır. Yeməyə qabın ortasından deyil, qırağından başlamaq lazımdır və ağızdakı tikəni udmayınca, ağıza növbəti tikə qoyulmamalıdır. Yemək zamanı imkan daxilində başqalarının üzünə nəzər salınmamalı və yemək yedikdə tələsməmək lazımdır. Süfrə arxasında bir qədər çox oturmalı və süfrəyə qoyulan yeməklər dadlı olmadıqda onlara məzəmmətlə yanaşılmamalıdır.

İmam Həsən Müctəba (ə) buyurur:

«Hər bir müsəlman yemək yeməzdən əvvəl bu on iki şeyi bilməlidir. Onlardan dördü vacib, dördü sünnə, dördü isə əxlaq və ədəb-ərkan qaydalarından ibarətdir. Vacib olan dörd şey bunlardır: 1. Tanışlıq. 2. Razılıq (yəʾni, ruziyə qane olmaq). 3. [Yeməyə başlamazdan əvvəl] Allahın adını çəkmək. 4. [Yeyib qurtardıqdan sonra] Allahın şükrünü yerinə yetirmək.

Sünnəyə aid olan bunlardır: 1. Yeməyə başlamazdan əvvəl dəstəmaz almaq. 2. Sol tərəfi üstə oturmaq. 3. Üç barmaqla yemək. 4. Yedikdən sonra barmaqları yalamaq.

Əxlaq və ədəb-ərkan qaydalarına aid olanlar isə bunlardır: 1. Qarşıda olanlardan yemək. 2. Tikələri kiçik götürmək. 3. Həzmi asanlaşdırmaq üçün çoxlu çeynəmək. 4. Süfrə arxasında oturanlara nəzər salmamaq».[1]

İmam Cəʾfər Sadiq (ə) Peyğəmbərdən (s) nəql edərək buyurur: «Yemək yediyiniz zaman qarşınızda olanlardan yeyin».[2]

Başqa bir hədisdə buyurur:

«Hər bir şeyin müəyyən həddi-hüdudu vardır». Bu zaman ortaya süfrə salındı. Səhabələrdən biri süfrənin həddi-hüdudunun nədən ibarət olduğunu soruşduqda buyurdu: «Süfrənin həddi-hüdudu bundan ibarətdir ki, oraya əl uzatdıqda «Bismillah», qurtardıqda isə «Əlhəmdulillah» deyilsin və süfrə arxasında oturan hər bir şəxs başqaların qarşısından deyil, yalnız öz qarşısındakı yeməklərdən istifadə etmiş olsun».[3]

«Süfrə arxasında oturmaq insanın ömründən hesab olunmadığı üçün orada bacardığınız qədər çox oturun».

«Qarşınıza isti yemək qoyulduqda soyumasını gözləyin. Peyğəmbər (s) üçün isti yemək gətirdikdə buyurardı: «Gözləyin bir qədər soyusun. Allah-taala

---

[1] Məkarimul-əxlaq, Təbərsi.
[2] Vəsailüş-şiə, 16-cı cild.
[3] Həmən mənbə.

yeməklərimizin oddan olmasını sevməz. Bərəkət varsa, o da soyuq yeməklərdədir».[1]

Başqa bir hədisdə atasından nəql edərək buyurur: «Peyğəmbər (s) dadsız yeməkləri yeməyi yasaq edərdi».[2]

## ÇOX YEMƏMƏLİ

Yemək və içməkdə riayət olunması zəruri olan məsələlərdən biri də ifrata yol verilməməsidir. Çox yemək bədən sağlamlığına ziyan vurmaqla yanaşı, ibadət və mə᾽nəvi saflığa lazımı diqqətin yetirilməsinə mənfi tə᾽sir göstərir.

Nəql olunmuş rəvayətlərdə mö᾽minlərə çox yeməyin zərərli olduğu haqda xəbərdarlıq etməklə yanaşı, yemək vaxtlarının zamanı və lazımı miqdarı barədə dəyərli tövsiyələr edilmişdir.

Peyğəmbər (s) buyurur:

«Əkin sahələrinə çox su verməklə məhv olduğu kimi, çox yeyib-içməklə qəlblərinizi məhv etməyin».[3]

Başqa bir hədisdə buyurur:

«Qarnı dolu olanlar yerin və göyün hikmət və sirlərindən agah olmazlar».[4]

«Allah-taala yanında bəyənilməyən şeylərdən biri də dolu qarınd[5]ır».

«Çox yeyib-içməkdən çəkinin, belə etməklə qəlbləriniz süstləşəcək, bədən üzvləriniz Allaha itaət etməkdə süstlük edəcək və nəsihətamiz tövsiyələri eşitməkdən nakam qalacaqsınız».[6]

Əli (ə) buyurur:

«Çox yemək və çox yatmaq insanı süstləşdirir, zərəri zərər ardınca gətirir».[7]

Başqa bir hədisdə buyurur:

«Çox yeyənlərin səhhəti pozular və gündəlik xərcləri də çox olar».[8]

«Çox yeməməyi sizlərə tövsiyə edirəm. Bu, sizləri namaz qılmaqdan soyudacaq, qəlblərinizi süstləşdirəcək və səhhətinizin pozulmasına səbəb olacaqdır».[9]

«Zirəklik və çəldliyə çox yeməklə nail olmaq olmur».[10]

«Toxluq təqvanı məhv edir».[11]

«Toxluq günahlar üçün necə də gözəl sirdaşdır».[12]

Peyğəmbər (s) buyurur:

---

[1] Həmən mənbə.
[2] Vəsailüş-şiə, 41-ci cild.
[3] Mizanul-hikmə, bab-99.
[4] Həmən mənbə.
[5] Həmən mənbə.
[6] Həmən mənbə.
[7] Həmən mənbə.
[8] Həmən mənbə.
[9] Ğürərül-hikəm.
[10] Həmən mənbə.
[11] Həmən mənbə.
[12] Həmən mənbə.

«Yeməyi az olanların qəlbi saf, bədəni sağlam, yeməyi çox olanların bədənləri xəstə, qəlbləri isə daşdan daha möhkəm olar».[1]

«Yeməyi az olanların [qiyamət günü] sorğu-sualı da az olar».[2]

Əli (ə) buyurur:

«Yeməyin azlığı nəfsin kəraməti və səhhətin sağlamlığı deməkdir».[3]

«Allah öz bəndəsinin islah olunmasını istədikdə ona az yeməyi, az danışmağı və az yatmağı ilham edər».[4]

Başqa bir hədisdə buyurur:

«Yeməyin azlığı iffət, çoxluğu isə israf deməkdir».[5]

Peyğəmbər (s) buyurur:

«Yeməyə meyliniz olduğu zaman süfrə arxasına oturun və yeməyə meyliniz olduğu halda yeməkdən əl çəkin».[6]

Əli (ə) buyurur:

«Yeməyə meyliniz ola-ola yeməkdən əl çəkin. Belə etsəniz yediyiniz yemək sizlər üçün daha ləzzətli olar».[7]

## *CƏM HALDA YEYİLMƏLİ*

Yaxşı olar ki, yemək cəm halda yeyilsin. Lakin ailə birlikdə olduqda başqalarını yemək süfrəsinə də᾽vət etməyin heç bir lüzumu yoxdur.

Peyğəmbər (s) buyurur:

«Allah-taalanın, yediklərinizi daha da bərəkətli etməsi üçün süfrə arxasına cəm halda əyləşin».[8]

İmam Cə᾽fər Sadiq (ə) buyurur:

Yeyilən şeylər bu dörd xüsusiyyətə malik olarsa onu tamam-kamal hesab etmək olar:

1. Halal şeylərdən hazırlanmış olsun;
2. Cəm halda yeyilmiş olsun;
3. Yeməyə başladıqda Allahın adı çəkilmiş olsun;
4. Yedikdən sonra Allaha şükr edilmiş olsun.[9]

## *CƏM HALDA YEMƏK YEMƏYİN QAYDALARI*

Yaş və şəxsiyyət baxımından kiçik olanlar böyüklərdən əvvəl yeməyə başlamamalı, yaşca böyük olanlar da eyni zamanda onları gözləməyə vadar etməməlidirlər. Xüsusilə ağızda yemək olarkən yaxşı olar ki, az danışılsın. Süfrə arxasında oturanlar başqalarını da nəzərə almalı, ortalığa qoyulan yeməklərdən istədikləri kimi istifadə etməyə mane olmamalıdırlar.

---

[1] Mizanul-hikmə, bab-98.
[2] Həmən mənbə.
[3] Ğürərül-hikəm.
[4] Mizanul-hikmət, bab-98.
[5] Həmən mənbə.
[6] Mizanul-hikmət, bab-105.
[7] Həmən mənbə.
[8] Sünəni ibni Macə, 3286-cə xəbər.
[9] Üsuli-kafi, 6-cı cild.

Süfrəyə yemək qoyulduqdan sonra kiminsə təklif etməsini gözləməməli, ev sahibi də eyni zamanda öz təklifləri ilə qonaqları utandırmamalıdır. Yemək yeyərkən başqalarının üzünə baxmamalı və onları utandıraraq doymazdan əvvəl süfrədən əl çəkmələrini vadar etməməlidir.

Yaşca böyük olanlar, xüsusilə ev sahibi yemək yeyərkən tələsməməlidir. Çünki belə olduqda bə᾽ziləri doymadan yeməkdən əl çəkməli olarlar.

Süfrə arxasında oturarkən xoşagəlməz səslər çıxarmaqla başqalarının narahatçılığına səbəb olunmamalıdır. Məsələn, tikəni çeynəyərkən ağızı marçıldatmamalı, dişləri bir-birinə toxundurmamalı, süfrə arxasında gəyirməməli və s. bu kimi xoşagəlməz hərəkətlərə yol verilməməlidir.

Qonaqları yeməyə daha da sövq etmək üçün ev sahibi hamıdan tez başlamalı və hamıdan gec qurtarmalıdır. Qonaqlar ev sahibi ilə yaxın dost və tanış olsalar belə, onu yemək tədarükü görməyə vadar etməməlidirlər. Belə ki, ev sahibinin buna imkanı çatmadıqda çıxılmaz vəziyyətə düşərək onların qarşısında xəcalət çəkməsinə səbəb olur.

Yemək süfrəyə qoyulduqdan sonra başqa heç bir şey gözləməməli və süfrəyə qoyulanlarla kifayətlənmək lazımdır.

Peyğəmbər (s) bu haqda buyurur:

«Çörəyi əziz tutun. Səhabələrdən biri-Çörəyi necə əziz tutmalı?-deyə soruşduqda buyurur: «Çörək süfrəyə qoyulduqda artıq başqa şey gözləməyin».[1]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. İslamın yemək yeyərkən riayət olunması lazım olan tövsiyələrini izah edin.
2. İmam Həsən Müctəba (ə)-ın nöqteyi-nəzərindən süfrəyə xas olan on iki xüsusiyyəti izah edin.
3. Peyğəmbər (s) çox yemək haqda nə buyurur?
4. Süfrə nə zaman tərk olunmalıdır?
5. Süfrə arxasında cəm halda yemək yeməyin qaydalarını ixtisarla izah edin.

[1] Üsuli-kafi, 6-cı cild.

## ƏLLİ BİRİNCİ DƏRS

### *İBADƏT*

İnsan övladı yarandığı ilk gündən müqəddəs varlıqlara pərəstiş onun həyatında xüsusi yer tutmuşdur. Hətta eramızdan əvvəl yaşamış insan həyatına nəzər saldıqda belə, elə bir qövm və ya millət tapmaq mümkün deyildir ki, hansısa müqəddəs hesab etdiyi varlığa pərəstiş etməmiş olsun. Deməк, pərəstiş olunan şey insanın fitri xüsusiyyətlərindəndir və insan belə bir ehtiyacının tə᾽min olunması üçün ibadət etmiş və mə᾽nəvi çətinliklərinin aradan qaldırılmasında hər şeydən uca hesab etdiyi müqəddəs varlığa arxalanmışdır.

Əlbəttə, bir çox cəmiyyətlərdə bə᾽zilərinin nadanlığı və ya inadkarlığı üzündən müqəddəs ilahi din və ayinlər təhrif edilərək öz həqiqi axarından çıxmış, əsirlər boyu tağut və batil varlıqlara pərəstiş etmişlər.

Dini tə᾽limlərdən heç bir mə᾽lumatı olmayan və ucqar bir məntəqədə yaşayan hər hansı bir şəxsin həyatına nəzər salsaq, bu həqiqətin şahidi olacağıq ki, o, özünün mə᾽nəvi rahatlıq tapması üçün hər şeydən uca və hər şeyə qadir olan müqəddəs bir varlıq axtarır və özünü onun qarşısında son dərəcə kiçik və aciz hesab edir.

Ümumiyyətlə, Allaha pərəstiş və ibadət, haqq olaraq göndərilmiş bütün ilahi peyğəmbərlərin ən başlıca şüarı olmuşdur.

Bu dərsimizdə ibadətin insan həyatında oynadığı rol, ibadətdən məqsəd və onun əhəmiyyəti haqda söhbət açacağıq:

*1. Yaradılış və peyğəmbərlərin göndərilməsindən ən başlıca məqsəd, ibadətdir.*

Allah-taala Zariyat surəsinin 56-cı ayəsində buyurur:

***«Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım».***

Mə᾽lum olduğu kimi, Allahın biz insanların ibadətinə heç bir ehtiyacı yoxdur. Çünki O, hər şeydən ehtiyacsızdır. Zumər surəsinin 7-ci ayəsində bu haqda deyilir:

***«...Çünki Allah sizə [sizin ibadətinizə] əsla möhtac deyildir...»***

İmam Hüseyn (ə) özünün məşhur Ərəfə duasında buyurur:

«İlahi! Sənin zatın o qədər ehtiyacsızdır ki, Səndən özünə heç bir xeyir dəymir. Elə isə necə ola bilər ki, məndən ehtiyacsız olmayasan?»

Başqa bir ayədə Allah-taala peyğəmbərləri göndərməklə insanların hidayət olunmalarını göstərir:

***«Biz hər ümmətə: Allaha ibadət edin, tağutdan çəkinin!-deyə peyğəmbər göndərmişdik...»***[1]

Yuxarıda qeyd olunan iki ayədən belə nəticəyə gəlmək olur ki, ibadət və pərəstiş insanın özünə aiddir və onun kamala çatmasında ən başlıca rol oynayır. Çünki insanın kamala çatması Allaha yaxınlaşmasından asılıdır. Bu da yalnız

[1] Nəhl-36.

ibadət və pəhrizkarlıqla müəyyən olur. Bəqərə surəsinin 21-ci ayəsində bu mətləbə işarə olunaraq buyurulur:

***«Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə bununla müttəqi olasınız!...»***

İmam Sadiq (ə) ibadətin əsas rüknü olan namazın fəziləti haqda buyurur:

«Namaz hər bir pəhrizkar insanı Allaha yaxınlaşdıran ən gözəl vasitədir».[1]

Deməк, insan ibadətlə təqva və pəhrizkarlığa və bunun vasitəsilə Allaha yaxınlaşmağa və nəhayət, bu yolla kamala çatmış olur.

## *İBADƏTİN FƏZİLƏTİ*

Əli (ə) buyurur:

«Pərəstiş zəfər deməkdir».[2]

«İman sahiblərinin üstünlüyü onların ibadətlərindədir».[3]

«Allah-taala sevdiyi bəndələrinə gözəl ibadət ilham edər».[4]

«İbadətin ardıcıllığı səadətə yetişmək əlamətlərindəndir».

«İbadətlə Allaha yaxınlaşmaq kimi, kimsə Ona başqa bir yolla yaxınlaşmamışdır».[5]

## *İBADƏTİN HƏQİQİ MAHİYYƏTİ*

İmam Riza (ə) buyurur:

«Pərəstiş və ibadətin əvvəli Allahı tanımaq, Allahı tanımağın əsas kökləri isə Onun birliyini dərk etməkdir».[6]

İmam Sadiq (ə)-ın səhabələrindən biri deyir: İmam Sadiq (ə)-dan ibadətin həqiqi mahiyyəti haqda soruşdum. Buyurdu: «İbadət və bəndəliyin həqiqi mahiyyəti bu üç şeydən ibarətdir:

1. İnsan, Allahın Onun ixtiyarına qoyduğu şeyləri öz malı hesab etməməlidir, çünki insan heç nəyin həqiqi sahibi deyildir və hər şeyi Allahın malı hesab etməlidir. Demək, onları Allahın ona əmr etdiyi yerlərdə istifadə etməlidir.

2. Özü-özünə çarə və çıxış yolu tapıb müxtəlif tədbirlərə əl atmamalıdır (yəʾni, Allaha təvəkkül edərək Onun qoyduğu qanun çərçivəsində düşünüb-daşınmalıdır).

3. Yalnız Allahın ona əmr etdiyi şeylərlə məşğul və yasaq etdiyi şeylərdən uzaq olmalıdır... Bütün bunlar təqvanın ilk mərhələsidir».[7]

Əli (ə) buyurur:

«Bəndəlik beş şeydən ibarətdir:

1. Qarının boşluğu (az yemək);

2. Qurʾan oxumaq;

3. Gecələri ibadətlə keçirmək;

4. Sübh namazlarında Allahla razi-niyaz etmək;

---

[1] Mən la yəhzərul fəqih. Fəzlüs-səlat babı.
[2] Ğürərül-hikəm.
[3] Həmən mənbə.
[4] Həmən mənbə.
[5] Həmən mənbəb.
[6] Mizanul-hikmət, 2488-ci xəbər.
[7] Həmən mənbə, 2489-cu xəbər.

5. İbadət edərək Allahın qorxusundan ağlamaq».[1]

## *AGAHCASINA İBADƏT*

Peyğəmbər (s) buyurur:

«Allahı tanımaq ibadətin başlanğıcıdır».[2]

Əli (ə) buyurur: «Allahı tanıtdırmayan ibadətin heç bir xeyiri yoxdur».[3]

«Nəfsinizdə ibadət etdiyiniz şeyə yəqinlik hasil edin ki, sizə xeyir verən varlığa ibadət etmək üçün bədən üzvlərinizi hərəkətə gətirəsiniz».[4]

«Elmsiz və heç bir agahlığı olmayan abidlər, dəyirmanda yerində dövr edən, lakin bir addım da olsun irəli getməyən ulağa bənzər».[5]

## *İBADƏTDƏN MƏQSƏD*

Əli (ə) buyurur:

«Bə᾽ziləri savab və cənnət xatirinə ibadət edər, bu tacir və alverçilərin ibadətinə bənzər; bə᾽ziləri cəhənnəm qorxusundan ibadət edər, bu da qul və kölələrin ibadətinə bənzər; bə᾽ziləri isə Allaha şükrünü yerinə yetirmək üçün ibadət edər, bu isə azad insanların ibadətidir».[6]

İmam Cə᾽fər Sadiq (ə) buyurur:

«Camaat Allaha üç cür ibadət edər: Bə᾽ziləri tamahkar və həris insanlar kimi Allaha savab və Cənnətə xatir ibadət edər, bə᾽ziləri kölələr tək cəhənnəm odundan qorxaraq ibadət edər. Lakin mən, Allaha eşq və məhəbbətlə ibadət edirəm. Bu isə azad və şərəfli insanların ibadətidir. Allah-taala bu haqda buyurur:

***«...Beləlri o günün [qiyamət gününün] dəhşətli qorxusundan əmi-amanlıq içində olarlar».[7]***

Başqa bir ayədə buyurur:

***«[Ya Məhəmməd!] De ki: Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı başlasın...»[8]***

Allahı sevərsə Allah da onları sevər. Allah sevən şəxslər isə dünya və axirətdə daim əmin-amanlıq içində olarlar».[9]

## *İBADƏTİN NÖVLƏRİ*

Peyğəmbər (s) buyurur:

«İbadət yetmiş hissədən ibarətdir, onların ən yaxşısı halal qazanc əldə etməkdir».[1]

---

[1] Həmən mənbə.
[2] Mizanul-hikmət, bab-2491.
[3] Həmən mənbə.
[4] Həmən mənbə.
[5] Ğürərül-hikəm.
[6] Nəhcül-bəlağə, 229-cu hikmət.
[7] Nəml-89.
[8] Ali-imran-31.
[9] Biharul-ənvar, 70-ci cild, bab-53.

Əli (ə) buyurur:

«İlahi ne᾿mətlər barədə düşünüb-daşınmaq ən böyük ibadətdir».[2]

«Yerin və göyün sirləri barədə fikirləşmək xalis insanların işidir».

«İbadətin bir növü də çox salam verib mülayim danışmaqdır.»[3]

Peyğəmbər (s) buyurur:

«Alimlərə nəzər salmaq özü də bir növ ibadətdir. Ədalətli hakimə nəzər salmaq özü bir ibadətdir, ata-anaya sevgi və mehribanlıqla nəzər salmaq özü bir ibadətdir. Allaha xatir sevdiyin [mö᾿min] qardaşın üzünə baxmaq da özü bir ibadətdir».[4]

Peyğəmbər (s) buyurur:

«Elm məqsədilə evindən çıxan şəxs yiyələndiyi elmin vasitəsilə kimisə haqqa hidayət edərsə, qırx il ibadət edən abidin savabına nail olar».[5]

Dərsimizin sonunda bunu da qeyd edək ki, ibadətə dair müxtəlif bəhsləri təfsilatı ilə bir çox əxlaq kitablarında mütaliə etmək olar. Burada isə yalnız ibadətin əhəmiyyət və dəyəri haqda söhbət açmaqla kifayətlənirik.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Nə üçün Allah-taala Qur᾿ani-kərimdə ibadəti yaradılışdan ən başlıca məqsəd hesab edir?
2. Nəql olunmuş hədis və rəvayətlərə istinad edərək ibadətin insan həyatında oynadığı rolu bəyan edin.
3. Bəndəlik nə deməkdir?
4. Necə ibadət olunmalıdır?
5. İbadətin hansı məqsədlər daşıdığını bəyan edin.
6. İslamda hansı əməllər ibadət sayılır?

[1] Biharul-ənvar, 103-cü cild, bab-1.
[2] Ğürərül-hikəm.
[3] Həmən mənbə.
[4] Biharul-ənvar, 74-cı cild, bab-2.
[5] Biharul-ənvar, 1-ci cild, bab-1.

## ƏLLİ İKİNCİ DƏRS

### *NAMAZIN FƏZİLƏTİ*

Namaz digər ibadətlərdən fərqli olaraq daha çox əhəmiyyət kəsb edir.

Nəql olunmuş rəvayətlərdə namaz «dinin sütunu», «mö᾽minin me᾽racı» və bu kimi ifadələrlə tə᾽bir olunmuşdur. Qiyamət günü hər bir insandan soruşulacaq ilk şey namazdır. Namaz qəbul olunarsa, insanın digər əməlləri də qəbul olunar, əks təqdirdə isə onun bütün əməlləri rədd olunar. Namazın əhəmiyyətinə, xüsusiyyətlərinə qayda-qanunlarına, namaz qılan şəxsin üzərinə düşən vəzifələrə, namazın necə və hansı şəraitdə qılınmasına, namazın növlərinə və s. dəlalət edəcək kifayət qədər ayə və hədis mövcuddur. Onların hər biri haqda ayrı-ayrılıqda söhbət açmaq, onlarla kitabı mütaliə və araşdırmaq deməkdir. Bu dərsimizdə yalnız namazın əhəmiyyət və dəyəri haqda söhbət açacaq və bu məzmunda nəql olunmuş bir neçə ayə və hədis gətirəcəyik:

### *NAMAZ QUR᾽ANDA*

***«Halbuki onlara əmr edilmişdir ki, Allaha - dini yalnız Ona məxsus edərək, digər bütün batil dinlərdən islama dönərək - ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din budur!»[1]***

***«...Həqiqətən, namaz [insanı] çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək [Allahın, cəlalını və əzəmətini həmişə, hər yerdə yada salmağ], şübhəsiz ki, [savab e᾽tibarilə bütün başqa ibadətlərdən] daha böyükdür...»[2]***

***«O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək [onlara bir yer versək] namaz qılar, zəkat verərlər...]»[3]***

***«Sizi Cəhənnəmə salan nədir?***

***Onlar deyəcəklər: Biz namaz qılanlardan deyildik».[4]***

***«[Müsibət vaxtında] səbr etmək və namaz qılmaqla [Allahdan] kömək diləyin! Bu, ağır iş olsa da, Allaha itaət edənlər üçün ağır deyildir».[5]***

***«Ey Rəbbim! Məni də, nəslimdən olanları da [vaxtlı-vaxtında, lazımınca] namaz qılan et. Ey Rəbbim! Duamı qəbul buyur!»[6]***

***«...Çünki namaz mö᾽minlərə müəyyən vaxtlarda fərz (vacib) edilmişdir».[7]***

---

[1] Bəyyinə-5.
[2] Ənkəbut-45.
[3] Həcc-41.
[4] Müddəsir 42-43.
[5] Bəqərə-45.
[6] İbrahim-40.
[7] Nisa-103.

## NAMAZ - PEYĞƏMBƏRİN (S) KƏLAMLARINDA

«Yemək ac üçün, su da susuz üçün hər şeydən üstün olduğu kimi, Allah-taala da namazı gözlərimin nuru və onu mənim üçün hər şeydən əziz etmişdir. Ac adamlar yemək yediyi zaman doyur, susuz da su içdikdə susuzluğunu dəf edir, amma mən namazdan doymaq nə olduğunu bilmirəm».[1]

«Namaz dinin sütunudur. Bilərəkdən namazı tərk edən şəxslər dinini viran etmiş olarlar. Namazlarını vaxtlı-vaxtında qılmayanlar isə cəhənnəmin «vəyl» adlı təbəqəsində namaza səhlənkarlıqla yanaşanlarla birlikdə olarlar».

«Namazlarınızı hədər etməyin. Allah-taala namazı hədər edən şəxsləri qiyamət günü məhşərdə lə՚nət etdiyi Qarun, Fir՚on və Hamanla birlikdə xar və rüsvay edərək münafiqlərlə birlikdə cəhənnəm oduna salar. Vay olsun namaza əhəmiyyət verməyənlərin halına».

«Namaz xeymənin sütununa bənzəyir. Əgər xeymənin sütunu (dirəyi) möhkəm olarsa, onun mıx və ipləri də möhkəm olacaqdır. Dirək sındıqda isə mıx və iplərin heç bir köməyi olmayacaqdır.»

«Namazlarınıza fikir verin. Allah-taalanın qiyamət günü öz bəndələrindən soruşacağı ilk şey namaz olacaqdır. Namazlarını vaxtlı-vaxtında qılanlar nicat tapar, namazı tərk edənlər isə cəhənnəm oduna atılarlar».

«Namaza durub niyyət etdikdən sonra həmd-surəni oxuyub daha sonra rüku və səcdələri yerinə yetirib, təşəhhüd və salamları dedikdən sonra insanın bu və əvvəlki namazı arasındakı günahları bağışlanar.»

«Nə qədər namaz qılırsınızsa, O böyük padşahın (Allahın) qapısını döymüş olursunuz. Kim Onun qapısını çox döyərsə qapı onun üzünə açılar».

«Gündəlik namazların hər birinin vaxtı çatdıqda mələklərdən biri insanların arasına gəlib belə bir nida edər: Qalxın, aranızda qaladığınız odu namazlarınızla söndürün».

«Namaz dinin vacib hökmlərindən biridir. O, Allahın rizası və peyğəmbərlərin yoludur».

«Hər şeydən çox namazlarınıza əhəmiyyət verin. Dini (kəlmeyi şəhadəti) iqrar etdikdən sonra namaz islamın əsası hesab olunur».

## NAMAZ - MƏ՚SUM İMAMLARIN KƏLAMLARINDA

Əli (ə) buyurur: «Namaz Şeytanın yürüşlərinin qarşısında böyük bir dərədir [maneədir]».[2]

«Namazla Allahın rəhməti nazil olur».[3]

«Namaza görə Allahı, Allahı nəzərə alın, çünki namaz dinin sütunudur».[4]

«Allah imanı şirkdən, namazı isə qürur və təkəbbürlükdən uzaq olmaq üçün vacib etmişdir.»[1]

---

[1] Biharul-ənvar, 82-ci cild, bab-1.
[2] Ğürərül-hikəm.
[3] Həmən mənbə.
[4] Nəhcül-bəlağə, 47-ci məktub.

«Namaz qılan şəxs əgər Allahın izzət və cəlalının onu necə əhatə etdiyini bilsəydi, səcdədən qalxmaq istəməzdi».[2]

İmam Baqir (ə) buyurur: «Namaz ixlas evi və təkəbbürlükdən uzaq olmağın ən gözəl vasitəsidir.»[3]

«Namaz qılan şəxs üzünü qibləyə tərəf tutduğu zaman, O bir olan Allah ona üz tutar».[4]

«[Qiyamət günü] hər bir insandan soruşulacaq ilk şey namazdır. Əgər namaz qəbul olunarsa, insanın digər əməlləri də qəbul olunar».[5]

İmam Cə᾿fər Sadiq (ə) buyurur:

«Hər bir şeyin öz siması vardır, dinin də siması namazdır».[6]

«Allaha itaət və Ona xidmət etmək yerdə olunur. Ən yaxşı xidmət isə qılınan namazlardır.»

«Namaza həqiqi qiymət verib qılan şəxsləri Allah-taala rəhm edərək bağışlayar».[7]

«Namazı tərk edən şəxslər islamdan heç bir bəhrə əldə etməzlər».[8]

«Namaz Allahın yer üzərində çəkdiyi səddir. Bunun üçün də hər bir insan qıldığı namazlardan nə dərəcədə bəhrələndiyini bilmək istəsə, namazın onu günah və xoşagəlməz işlərdən nə qədər çəkindirdiyinə diqqət yetirsin».[9]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Namaz islam dinində nə kimi əhəmiyyət kəsb edir?
2. Peyğəmbər (s) namaza olan əlaqəsini necə bəyan edir?
3. Peyğəmbər (s) namazı nəyə bənzədir?
4. Mə᾿sum imamlar (ə) namazı necə vəsf edirlər?

---

[1] Nəhcül-bəlağə, 252-ci hikmət.
[2] Biharul-ənvar, 82-ci cild, bab-1.
[3] Həmən mənbə.
[4] Həmən mənbə.
[5] Biharul-ənvar, 83-cü cild, bab-6.
[6] Biharul-ənvar, 82-ci cild, bab-1.
[7] Həmən mənbə.
[8] Həmən mənbə.
[9] Həmən mənbə.

## ƏLLİ ÜÇÜNCÜ DƏRS

## NAMAZIN QAYDALARI

### *RİAYƏT OLUNMASI LAZIM OLAN ŞƏRTLƏR*

Hər bir namaz qılan şəxsin üzərinə düşən ən başlıca vəzifə, namazın qılınmasında zəruri olan qaydalara əməl etməsidir. Dəstəmaz, təharət, paltar, vaxt, yerin şərtləri, qiraətin düzgün oxunması və namazın qılınmasında ardıcıllığa riayət etmək haqda ətraflı mə᾽lumat əldə etmək üçün risalə və digər fiqh kitablarına müraciət olunmalı və qeyd olunan bütün şərtlərə lazımınca əməl edilməlidir. Əks təqdirdə, şər᾽i qanunlara əsasən namaz batil olar və Allah dərgahında vacib bir ibadət kimi qəbul olunmaz.

### *NAMAZA DURUŞ*

Hər bir namaz qılan şəxs üzünü qibləyə tərəf tutmalı, namaza başladığı zaman özünü Allah qarşısında hiss etməli və Onunla həmsöhbət olduğunu bilməlidir. Demək, başqalarına hörmətlə yanaşaraq qarşılarında ədəb-ərkan nümayiş etdirdiyimiz kimi, namaz qılarkən də bu məsələyə son dərəcə diqqət yetirməli, artıq hərəkət və ifadəyə yol verməməliyik.

Peyğəmbər (s) buyurur:

«Allaha elə ibadət edin ki, sanki Onu görürsünüz və bilin ki, siz Onu görməsəniz də O, sizi görür».[1]

Nəql olunmuş rəvayətlərdən birində deyilir: Bir gün Peyğəmbər (s) məscidə daxil olub Ənəs ibni Malikin namaz qıldığını, lakin eyni zamanda ətrafa da nəzər saldığını görür. Dərhal ona müraciət edərək buyurur: «Ey Ənəs! Namazı elə qıl ki, sanki bundan sonra namaz qılmayacaqsan və bu sənin vida namazın olacaq. Elə isə yalnız səcdə etdiyin yerə nəzər sal və ətrafında olanlara diqqət yetirmə. Bil ki, sən elə bir varlığın qarşısındasan ki, sən Onu görməsən də O, səni görür».[2]

Başqa bir rəvayətdə deyilir: Peyğəmbər (s) namaz qılarkən saqqalı ilə oynayan şəxsi görüb buyurur:

«Əgər onun qəlbi Allaha bağlı olsaydı, bədən üzvləri də Allaha müt᾽i və bağlı olardı».

«Allah-taala altı şeyi sizlər üçün bəyənmir. Onlardan biri də namaz qılarkən başqa şeylərlə məşğul olmağınızdır.»[3]

İmam Baqir (ə) atası imam Zeynəlabidin (ə) haqda buyurur:

«Atam namaz qılarkən ağac gövdəsi tək hərəkətsiz qalardı».[4]

---

[1] Kənzül-ümmal, 525-ci xəbər.
[2] Biharul-ənvar, 84-cü cild, bab-38.
[3] Biharul-ənvar, 84-cü cild, bab-38.
[4] Həmən mənbə.

## *EŞQ VƏ MƏHƏBBƏT*

İnsan, namazı böyük həvəslə qılmalı və bu işdə süstlük və tənbəlliyə yol verməməlidir.

Qur᾽ani-kərim münafiqlərin hiylə və məkrlərini aşkara çıxardığı zaman, onların namaza səhlənkar yanaşdıqlarını tənqid edərək buyurur:

***«Münafiqlər Allahı aldatmağa çalışırlar. Halbuki əslində Allah onları aldadır. Onlar namaza durduqları zaman [yerlərindən] tənbəlliklə [könülsüz] qalxar, özlərini [yalandan] xalqa göstərər və Allahı olduqca az yad edərlər».***[1]

Peyğəmbər (s) buyurur: «İnsanların ən yaxşısı o kəsdir ki, eşq və rəğbətlə ibadət edə, Allahı səmimi qəlbdən sevib bütün vücudu ilə ona bağlı ola və nəhayət ibadət üçün özünü bütün işlərdən azad edə. Belə şəxsləri yoxsulluq, asayiş və ya dünyəvi işlər əsla nigaran etməz».[2]

İmam Baqir (ə) buyurur:

«Namazlarınızı yuxusuz, halsız və ya tənbəlliklə qılmayın, çünki bu, aranızda nifaq toxumunun səpilməsinə səbəb olur. Allah-taala mö᾽minləri məst halda [yə᾽ni yuxusuzluqdan məst olduqları halda] namaz qılmağı qadağan etmişdir».[3]

## *TƏVAZÖKARLIQ*

### *(Allah qarşisinda kiçilmək)*

Allah-taala Qur᾽ani-kərimin «Mu'minun» surəsinin 1-2-ci ayələrində namazlarında təvazökar olanlara nicat tapacaqlarına və᾽də verir:

***«Həqiqətən, mö᾽minlər nicat tapmışlar! [Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!]***

***O kəslər ki, namazlarında [hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha] müt᾽i olub [Ona] boyun əyərlər! [Allahın qarşısında kiçilərlər]»***

Peyğəmbərdən (s) təvazökarlığın [kiçilməyin] mə᾽nasını sorşduqda buyurur: «Namaz qılarkən kiçilmək, insanın tamamilə Allaha bağlı olması deməkdir».[4]

Əxlaq alimlərinin fikrincə namaz qılarkən kiçilmək iki hissəyə bölünür:

1. Qəlbin kiçilməsi-yə᾽ni insan, onu özünə cəlb edən bütün zehni məşğuliyyətlərdən əl çəkib yalnız Allahı yad edir.

2. Namaz qılarkən bədən üzvləri yalnız namaza xas olan hərəkətlər yerinə yetirməli və gözlərini səcdəgahdan ayırmamalıdır.

Peyğəmbər (s) buyurur:

«Həqiqətən namaz, insanın möhtac, yoxsul, peşiman və ümidvar olduğunu bildirir. İnsan əllərini qaldırıb «İlahi! İlahi!» deyir. Belə etməyənlərin namazı sözsüz ki, naqisdir».[5]

---

[1] Nisa-142.
[2] Mizanul-hikmət, bab-2485.
[3] Biharul-ənvar, 84-cü cild, bab-38.
[4] Biharul-ənvar, 84-cü cild, bab-38.
[5] Ehyaül-ülum, Əsrarüs-səlat kitabı.

## *QƏLBİN HAZIRLIĞI*

Namaz, insanla Allah arasında birbaşa ünsiyyət olduğu üçün namaz qılan hər bir şəxs, xüsusilə niyyət etdiyi zaman özünü Allah hüzurunda hiss edərək bütün zehni məşğuliyyətlərdən uzaq olmağa çalışmalı və bütün diqqətini namaza yönəltməlidir.

Peyğəmbər (s) buyurur:

«Allah-taala qəlbi cismi ilə olmayan şəxslərin namazını qəbul etmir».[1]

Əli (ə) buyurur:

«Yorğun və yuxusuz olduğunuz zaman namaz qılmayın və namaz qılmazdan əvvəl fikir və xəyala dalmayın. Çünki, namaz qılarkən insan Allah hüzurunda olur və etdiyi ibadətin fəzilətinin ona yalnız o qədəri nəsib olur ki, namaza qəlbən bağlı olmuş olsun».[2]

Əbu Həmzə Somali deyir: İmam Zeynəlabidin (ə) namaz qılarkən əbasının bir tərəfi çiynindən sürüşdü. Lakin o, buna əhəmiyyət verməyib namazını davam etdirdi. Namazı qurtardıqdan sonra əbasını nə üçün düzəltmədiyini soruşdum. Buyurdu: «Vay halına! Bilirsənmi kimin hüzurunda dayanmışdım? İnsanın qıldığı namazdan yalnız o qədəri qəbul olunur ki, qəlbən Allaha bağlı olmuş olsun».[3]

Peyğəmbər (s) buyurur:

«İnsan namaz qılsa da, ona namazının altıda biri və ya onda birinin savabı yazılmır. Qıldığı namazın savabı ona yalnız onu dərk etdiyi qədər yazılır».[4]

## *NAMAZ UCA TUTULMALIDIR*

Hər bir müsəlman namaza böyük əhəmiyyət verib ona hörmətlə yanaşmalıdır.

Namazı gərəksiz və əhəmiyyətsiz hesab etmək isə böyük günahlardan hesab olunur. Peyğəmbər (s) və Mə᾽sum imamlar (ə) namaza əhəmiyyət verməyən şəxslərə olduqca mənfi münasibət bəsləyir və onları özlərindən uzaqlaşdırmağa çalışardılar.

Peyğəmbər (s) bu haqda buyurur:

«Namazı əskik sayanlar məndən deyillər. And olsun Allaha, onlar Kövsərin kənarında mənimlə görüşməyəcəklər.»[5]

İmam Baqir (ə) buyurur:

«Namaza süstlüklə yanaşmayın. Peyğəmbər (s) dünyasını dəyişərkən buyurmuşdur: «Namazını kiçik sayan məndən deyildir».[6]

İmam Sadiq (ə) buyurur:

«Namazı əskik sayanlara biz şəfa etməyəcəyik.»[7]

---

[1] Biharul-ənvar, 84-cü cild, bab-38.
[2] Həmən mənbə.
[3] Həmən mənbə.
[4] Biharul-ənvar, 84-cü cild, bab-1.
[5] Biharul-ənvar, 82-ci cild, bab-1.
[6] Mizanul-hikmə, bab-2305.
[7] Biharul-ənvar, 82-ci cild, bab-1

## NAMAZ VAXTLI-VAXTINDA QILINMALIDIR

Yaxşı olar ki, insan namazlarını vaxtlı-vaxtında qılsın və imkan daxilində tə᾽xirə düşməsinə və ya vaxtından sonra qılınmasına yol verməsin. Nəql olunmuş rəvayətlərdə namazın vaxtlı-vaxtında qılınmasına bir çox tövsiyələr olunmuşdur. Belə ki, insanın namazı vaxtında qılması onun bu ilahi əmrə olan ehtiram və qəlbi bağlılığından xəbər verir.

İmam Baqir (ə) buyurur:

«Namazın ilk vaxtda qılınması hər şeydən üstündür. Elə isə xeyirli işlər görməkdə tələsin və bilin ki, Allahın sevdiyi şey, az olsa da ardıcıl olaraq yerinə yetirilən əməllərdir.»[1]

İmam Cə᾽fər Sadiq (ə) buyurur:

«Axirət, dünyadan üstün olduğu kimi, namazın ilk vaxtda qılınması da son vaxtda qılınmasından üstündür».[2]

«Namazın ilk vaxtda qılınmasının fəziləti mö᾽minlər üçün var-dövlət və övladdan daha üstündür».[3]

## TƏMİZLİK VƏ SƏLİQƏ-SƏHMAN

Allah-taala Qur᾽ani-kərimin «Ə'raf» surəsinin 31-ci ayəsində Ona iman gətirmiş sadiq bəndələrinə xitab edərək buyurur:

***«Ey Adəm oğulları! Hər ibadət vaxtı [namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən] gözəl libaslarınızı geyinin!...»***

Yaxşı olar ki, namaz qılan hər bir şəxs, ibadət zamanı özünün ən gözəl və təmiz paltarını geyinib Allahın hüzurunda dursun. Əvvəlki dərslərimizdə bu haqda ətraflı söhbət açmışıq.

## CAMAAT NAMAZLARINDA İŞTİRAK ETMƏK

Namaz qılan şəxs yaxşı olar ki, gündəlik və ya digər fərz namazlarını məscidlərdə camaatla birlikdə qılsın. Camaat namazları o qədər böyük əhəmiyyət kəsb edir ki, onun həqiqi dəyər və mahiyyətini dərk etmək kimsəyə müyəssər olmur.

Nəql olunmuş rəvayətlərdən birində bu haqda deyilir: «Camaat namazında on nəfər iştirak edərsə, bütün mələklər bunun savabını yazmaq istəsələr belə, yenə də öhdəsindən gələ bilməyəcəklər».

## SUALLAR VƏ TAPŞIRIQLAR

1. Allahın hüzurunda necə hazır olmaq lazımdır?
2. Münafiqlərin namazı nəyə bənzədilir?
3. Peyğəmbər (s) kimləri insanların ən yaxşısı hesab edir?
4. Namazda təvazökar olmaq dedikdə nə nəzərdə tutulur?
5. Peyğəmbər (s) kimlərin onun şəfaətindən məhrum olacaqlarını bildirir?
6. Namazın ilk vaxtda qılınmasının nə qədər fəziləti vardır?

---

[1] Mizanul-hikmə, bab-2302.
[2] Biharul-ənvar, 82-ci cild, bab-5.
[3] Həmən mənbə.

# ƏLLİ DÖRDÜNCÜ DƏRS

## *ORUCUN FƏZİLƏTİ*

Namazdan sonra hər bir müsəlmanın üzərinə düşən ilahi vəzifələrdən biri də Ramazan ayının vacib orucudur. Orucun hansı şəraitdə və hansı şərtlərlə tutulması haqda fiqh kitablarında ətraflı izahlar verilmişdir. Oruc, insanın günah, şəhvət, nəfsani istəklərdən uzaq olması üçün ən gözəl vasitədir. Bu yolla Allahın istək və məhəbbətini və bunun nəticəsində Onun rizasını qazanmaq mümkün olur.

Bu dərsimizdə Peyğəmbər (s) və Məʾsum imamların (ə) ürək oxşayan kəlamlarından istifadə edərək orucun əhəmiyyət və səbəbləri haqda söhbət açacaq və bununla da oruc tutan hər bir şəxsin üzərinə düşən vəzifələri aydınlaşdıracağıq.

## *ORUC MƏNİM ÜÇÜNDÜR*

Peyğəmbər (s) buyurur:

«Allah-taala buyurur:

Hər bir xeyirxah işin ondan yeddi yüzə qədər savabı vardır. Onlardan fərqli olaraq orucun öz savabı vardır. O, Mənə məxsus olduğu üçün savabını da Mən Özümə verəcəyəm».[1]

Bu məzmunda imam Sadiq (ə)-dan nəql olunmuş hədisdə deyilir:

«Səbr etmək və namaz qılmaqla [Allahdan] kömək diləyin» ayəsindən məqsəd, Ramazan ayının orucudur».[2]

Buradan əgər **«Yalnız [dünyada Allah yolunda çətinliklərə] səbr edənlərə [axirətdə] saysız-hesabsız mükafat veriləcəkdir!»** ayəsi də diqqəti cəlb edərsə, hədisin məʾnası daha da açıqlanacaqdır. Çünki, bu hədisdə sair xeyirxah işlər üçün savablar müəyyən edilmiş, oruca gəldikdə isə, Allah-taala bu işin mükafatını şəxsən Öz üzərinə götürmüşdür.

Peyğəmbərdən (s) nəql olunmuş başqa bir hədisdə deyilir: «Allah-taala buyurur: Adəm övladlarının orucdan başqa gördükləri hər bir əməl onların özlərinə aiddir. Oruc isə Mənə aiddir və onun mükafatını da Mən Özüm verəcəyəm. Dünyada silahla özünüzü qoruduğunuz kimi, oruc da qiyamət günü möʾminlərin [axirətin əzabından] hifz edib qoruyar. Bu bir həqiqətdir ki, oruc tutan şəxsin ağızından gələn iy Allah üçün müşk iyindən daha gözəldir. Oruc tutan şəxslər iki dəfə sevinərlər: İftar etdikləri və məhşərdə Allahla görüşüb onları cənnətə daxil etdiyi zaman».[3]

«And olsun Allaha! Oruc tutan şəxsin ağzından gələn iy Allah üçün müşk iyindən daha gözəldir. Allah-taala buyurur:

«[Oruc tutan bəndəm] yemək-içməyin ləzzətini Mənə xatir tərk etmişdir. Oruc Mənə məxsusdur, onu da Mən özüm mükafatlandıracağam.»[4]

---

[1] Sünəni Nisai, 4-cü cild.
[2] Üsuli-kafi, 6-cı cild.
[3] Biharul-ənvar, 96-cı cild, bab-30.
[4] Səhih Buxari, 3-cü cild.

## *ORUC MÜSƏLMANIN QALXANIDIR*

Peyğəmbər (s) buyurur:

«Oruc cəhənnəm odunun qarşısında [iman əhli] üçün bir sipərdir».[1]

«Oruc tutmağı sizlərə tövsiyə edirəm, çünki oruc cəhənnəm odunun qarşısında sipərdir. Əcəl sizləri haqladığı zaman ac ola bilirsinizsə, belə edin».[2]

Peyğəmbərin (s) orucu cəhənnəm odunun müqabilində qalxan və sipərə bənzətməsinin əsas səbəbi şəhvət və qəzəb qüvvələrindən qaynaqlanan günahların qarşısını almaq və insanın haqq yoldan uzaq düşməməsidir. Nə qədər ki, oruc tutan şəxs onu viran etməyib «Oruc, müsəlman üçün bir sipərdir».

Deməк, düçar olduğu günahlarla orucunu batil edən şəxslər sanki öz sipərlərini əməlləri ilə yırtıb dağıtmış olarlar.

## *ORUCUN SƏBƏBLƏRİ*

Əli (ə) buyurur:

«Allah-taala orucu insanların imanlarının sınağı üçün vacib etmişdir».[3]

Həzrət Fatimeyi Zəhra (ə) buyurur:

«Allah-taala orucu insanların öz imanlarında möhkəm və sabit olmaları üçün vacib etmişdir».[4]

İmam Cəˈfər Sadiq (ə) buyurur:

«Oruc onun üçün vacib edilmişdir ki, varlı və yoxsul bərabər olsun. Çünki varlılar istədiklərini çətinlik çəkmədən əldə edir və aclığın nə olduğunu təsəvvür belə etmirlər. Varlıların, yoxsulların çətinliklərini dərk edib hallarına yanması və aralarında bərabərliyin bərqərar olunması üçün oruc vacib edilmişdir».[5]

Həzrət Əli ibni Musa Riza (ə) buyurur: «Orucun möˈminlərə nə üçün vacib olduğunu soruşsanız, cavabında sizlərə deyiləcək: Yoxsulların aclıq və susuzluqlarını dərk edib özlərinin qiyamət günü əli boş olduqlarından agah olmaları üçün. Bu ilahi hökmün vacib olmasının səbəblərindən biri də oruc tutan şəxsin özünü Allah qarşısında kiçik və Ona möhtac olduğunu görməsidir. Orucluğun aclıq və susuzluğuna səbr edən iman sahibləri Allah rizasını qazanıb axirət dünyasının mükafatına nail olarlar. Bütün bunlarla yanaşı, möˈminlər oruc tutduqları müddət ərzində yoxsulların keçirdikləri ağır həyat tərzini özlərində yaşadır, qəzəb və şəhvət kimi şeytani xislətləri özlərindən uzaqlaşdıraraq məˈnəvi saflığa nail olurlar. Eyni zamanda möˈminlərin çəkdikləri zəhmət və məşəqqət onları yoxsul təbəqəyə maddi yardım etməyə sövq edir».[6]

[1] Biharul-ənvar, 96-cı cild, bab-30.
[2] Həmən mənbə.
[3] Nəhcül-bəlağə, 252-ci hikmət.
[4] Biharul-ənvar, 96-cı cild, bab-46.
[5] Həmən mənbə.
[6] Həmən mənbə.

## *ORUCUN MƏ᾽NƏVİ NƏTİCƏLƏRİ*

Peyğəmbər (s) buyurur:

«Oruc tutan şəxsin yatmağı ibadət, aldığı nəfəs isə təsbihdir [Allahı zikr etmək]».[1]

«Həqiqətən Allah Öz mələklərinə oruc tutan şəxslərə dua etmələrini əmr etmişdir».[2]

«Əgər bir gün müstəhəb oruc tutan şəxsə durduğun yerin ağırlığı qədər qızıl verilsə, yenə də savabına layiq olmayacaqdır. Onların layiqli mükafatı yalnız axirət günü veriləcəkdir.»

Əli (ə) buyurur:

«Oruc tutan şəxsin yuxusu ibadət, sükutu isə Allaha zikrdir. Onların duası qəbul, gördüyü əməllərin savabı isə neçə bərabərində veriləcəkdir.»[3]

Peyğəmbər (s) buyurur:

«Oruc tutan şəxs müsəlman bir şəxsin qeybətini etməyincə, yatağında olsa belə, Allaha ibadət etmiş olur».[4]

## *ORUC NƏDİR?*

İmam Cə᾽fər Sadiq (ə) buyurur: «Oruc tutmaq tək yemək yeməməkdən və su içməməkdən ibarət deyildir, insan gözü, qulağı, övrəti, ümumiyyətlə gördüyü bütün işlərlə oruc tutmalı və özünün şəhvət və nəfsani istəklərinə qalib gəlməyi bacarmalıdır. Bacardıqca az danışmalı və öz xidmətçilərinə qarşı olduqca mülayim olmalıdır».[5]

İmam Riza (ə) buyurur:

«Oruc tutduğunuz zaman qulağınız, gözünüz, dəriniz və tükləriniz də oruc tutmalıdır».[6]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Nə üçün Allah-taala oruc tutan şəxsləri şəxsən Özü mükafatlandıracağına və᾽də verir?
2. Oruc tutan şəxsin iki sevinci nədən ibarətdir?
3. Orucu «Cəhənnəm odunun sipəri» adlandırmaq nə mə᾽na kəsb edir?
4. Orucun vacibliyinin səbəbləri nədən ibarətdir?
5. Orucun mə᾽nəvi nəticələrini bəyan edin.
6. Oruc dedikdə, yalnız yemək və içməkdən pəhriz nəzərdə tutulurmu?

---

[1] Biharul-ənvar, 96-cı cild, bab-30.
[2] Biharul-ənvar, 96-cı cild, bab-30.
[3] Biharul-ənvar, 96-cı cild, bab-30.
[4] Biharul-ənvar, 96-cı cild, bab-30.
[5] Vəsailüş-şiə, 7-ci cild, «Oruc tutanın ədəb qaydaları» babı.
[6] Biharul-ənvar, 96-cı cild, bab-36.

## ƏLLİ BEŞİNCİ DƏRS

### *QUR᾿ANIN FƏZİLƏTİ*

Peyğəmbər (s) buyurur:

«Allah bütün varlıqlardan üstün olduğu kimi, Qur᾿an da digər kəlamlardan üstün və fəzilətlidir.»[1]

«Qur᾿an elə bir sərvətdir ki, nə ondan artıq sərvət var, nə də ondan sonra yoxsulluq».[2]

«Ən doğru söz, ən mö᾿təbər kəlam, hikmətli nəsihətlər və ən gözəl əhvalatlar Allahın kitabındandır.»[3]

Əli (ə) buyurur: «Sizlərə Qur᾿an oxumağı və Qur᾿anla yaşamağı tövsiyə edirəm. Onu özünüzə rəhbər və hidayətçi bilin».[4]

«Agah olun ki, kimsə Qur᾿anı dərk etdikdən sonra yoxsulluğa düçar olmayacaq və Qur᾿anı dərk etməzdən əvvəl kimsə var-dövlət sahibi olmayacaqdır. Elə isə Qur᾿andan xəstələriniz üçün şəfa və çətinlikləriniz üçün kömək diləyin. Çünki Qur᾿an sizin üçün ən böyük dərman və şəfa mənbəyidir. Qarşılaşdığınız bəla və müsibətlər isə küfr, nifaq və haqq yoldan sapınmağınızdır.»[5]

### *QUR᾿AN OXUMAĞIN FƏZİLƏTİ*

Peyğəmbər (s) buyurur:

«Ümmətimin ən böyük ibadəti onların Qur᾿an tilavət etmələridir.»[6]

«Qur᾿an əhli, Allah-taalanın xas bəndələridirlər».[7]

«Dəmir pas atdığı kimi, qəlblər də daşlaşaraq məhv olur». Peyğəmbərdən (s) bundan necə yaxa qurtarmaq haqda soruşduqda buyurur: «Qur᾿an oxumaq və ölümü xatırlamaqla.»[8]

«Allahla danışmaq istəyirsinizsə Qur᾿an oxuyun».

«Sizlərə Qur᾿an oxumağı tövsiyə edirəm. Çünki, Qur᾿an günahların kəffarəsi və cəhənnəm odundan böyük bir sığınacaqdır.»[9]

---

[1] Biharul-ənvar, 92-ci cild, bab-1.
[2] Həmən mənbəb.
[3] Mizanul-hikmə, bab-3293. Mən la yəhzərul fəqi, 4-cü cild.
[4] Mizanul-hikmə, bab-3292. Kənzül-ümmal, 4019-cu xəbər.
[5] Nəhcül-bəlağə, 175-ci xütbə.
[6] Sünəni Darmi, 2-ci cild.
[7] Sünəni ibni Macə, 215-ci xəbər.
[8] Ehyaül-ülum, Qur'an oxumaq ədəbi kitabı.
[9] Biharul-ənvar, 92-ci cild, bab-1.

«Qurʾan oxumaqdan qafil olmayın, çünki Qurʾan insanı günah və bütün pisliklərdən uzaq edir».[1]

Əli (ə) buyurur:

«Qurʾan oxumağa alışan şəxslər, qardaşlarından (möʾmin dostlarından) uzaq düşəcəyinə əsla nigaran olmazlar».[2]

«Qurʾan oxumaq imanı gücləndirir.»[3]

İmam Cəʾfər Sadiq (ə) buyurur: «Hər bir cavan möʾmin Qurʾan oxumaqla onu ət və qanına çəkir və Allah-taala onu axirətdə Özünün böyük peyğəmbərləri ilə birlikdə sakin edər».[4]

## *QURʾAN ÖYRƏNMƏYİN FƏZİLƏTİ*

Peyğəmbər (s) buyurur:

«Həqiqətən Qurʾan ilahi süfrədir, elə isə bacardığınız qədər ondan bəhrələnin».[5]

Peyğəmbər (s) Muaz ibni Cəbələ tövsiyə edərək buyurur: «Ey Muaz! Əgər xoşbəxt insanlar kimi yaşamaq, şəhidlər kimi ölmək, məhşərdə azad olmaq qiyamət günü əmin-amanlıqda qalmaq, o günün qaranlıq və zülmətindən yaxa qurtarmaq, qızmar günlərdə kölgə və asayişdə olmaq, susuz olduğun günlərdə susuzluğunu dəf etmək, çətinliklərlə qarşılaşdığın zaman öz mövqeyini qoruyub saxlamaq, haqq yoldan uzaq düşdüyün zaman hidayət olmağını istəyirsənsə, Qurʾanı öyrən. O, mehriban Allahı yad etməkdə ən gözəl vasitə, Şeytanın müqabilində böyük bir zireh və əməllərin ölçülməsi üçün ən yaxşı meʾyardır».[6]

Peyğəmbər (s) buyurur:

«Sizlərdən biriniz digərinizə Qurʾan ayələrindən birini öyrədərsə, həmin şəxsin ağasına çevrilər. Elə isə onlara qarşı hörmətsizlik etməməli və hüquqlarını taptalamamalıdır. Belə bir kobudluğa yol verən şəxslər, sanki islamın dayaqlarından birini viran etmiş olarlar».[7]

«Allahın evlərindən birinə [məscidlərdən] yığışıb Qurʾanı öyrənən şəxslərə Allahın rəhmət və bərəkəti nazil olar və mələklər onları əhatə edərək xoş sözlərlə yad edərlər».[8]

«Allah-taala qiyamət günü övladına Qurʾan öyrədən şəxslərin boynuna elə bir boyunbağı salar ki, gözəlliyindən məhşərdə hamını heyran edər».[9]

---

[1] Kənzül-ümmal, 4032-ci xəbər.
[2] Ğürərül-hikəm.
[3] Həmən mənbə.
[4] Biharul-ənvar, 92-ci cild, bab-20.
[5] Kənzül-ümmal, 2356-cı xəbər.
[6] Kənzül-ümmal, 2439-cu xəbər.
[7] Kənzül-ümmal, 2384-cü xəbər.
[8] Kənzül-ümmal, 2320-ci xəbər.
[9] Həmən mənbə, 2386-cı xəbər.

Əli (ə) buyurur: «Övladın atanın üzərində olan haqqı ona gözəl ad qoymaq, tərbiyə etmək və Qur᾿an öyrətməkdən ibarətdir».

«Qur᾿an oxumağı öyrənin, çünki o, ən gözəl kəlamdır; onun mə᾿na və məfhumunu dərk edib yaxşıca düşünüb daşının, çünki o, qəlblərə bahar gətirir; ondan şəfa istəyin, çünki o, canların şəfasıdır; onu gözəl oxuyun, çünki orada ən gözəl əhvalatlar söylənilir».[1]

İmam Cə’fər Sadiq (ə) buyurur:

«Yaxşı olar ki, mö᾿minlər dünyalarını dəyişməyənədək Qur᾿an öyrənsinlər və ya dünyalarını dəyişdikləri zaman Qur᾿an öyrənməklə məşğul olsunlar».[2]

## *QUR᾿ANI ƏZBƏRLƏYİB DƏRK ETMƏYİN FƏZİLƏTİ*

Peyğəmbər (s) buyurur:

«Ümmətimin böyükləri Qur᾿an oxuyan və gecələrini ibadətlə keçirənlərdir.»[3]

«Qur᾿an oxuyanlar Cənnət əhlinin arifləri olacaqlar».[4]

«Allah-taala Qur᾿anı yaşadan qəlblərə əzab verməyəcəkdir.»

«Qur᾿an əhli Cənnətdə peyğəmbərlərdən sonra sakin olarlar. Elə isə Allahın yanında böyük məqam sahibləri olduqları üçün onların hüquqlarını taptalamayın.»[5]

«Qur᾿an bəxş olunan şəxslər, əgər Allahın kiməsə onlara veriləndən daha artığını bəxş etdiyini güman edərsə, ilahi ne᾿mətlərə təhqir gözü ilə baxmış olar».[6]

«Qur᾿anla yaşamayanlar xaraba evə bənzərlər».[7]

«Qur᾿ana əməl edən Qur᾿an hafizləri axirətdə Allahın peyğəmbərləri ilə birgə olarlar».[8]

«İnsanlardan bə᾿ziləri, başqaları filan şəxs «Qur᾿an qarisidir» desinlər deyə, bə᾿ziləri dünyəvi məqsədlər üçün, bə᾿ziləri də ömürləri ondan bəhrələnsin deyə, Qur᾿an oxuyarlar».[9]

## *QUR᾿ANIN DİNLƏNİLMƏSİ*

Peyğəmbər (s) buyurur:

«Kim Allah aşiqidirsə, Onun kəlamını dinləsin».[10]

---

[1] Nəhcül-bəlağə, hikmətlər bölümü.
[2] Biharul-ənvar, 92-ci cild, bab-20.
[3] Biharul-ənvar, 92-ci cild, bab-19.
[4] Həmən mənbə.
[5] Həmən mənbə.
[6] Kənzül-ümmal, 2317-ci xəbər.
[7] Həmən mənbə, 2478-ci xəbər.
[8] Biharul-ənvar, 92-ci cild, bab-19.
[9] Üsuli-kafi, 2-ci cild.
[10] Kənzül-ümmal, 2472-ci xəbər.

«Kim bir ayəyə qulaq asarsa, əməl dəftərinə iki bərabər savab yazılar. Onu dinləyənlər üçün isə məhşər olduqca nurlu olar».[1]

«Qur᾿an oxuyanlardan dünya, onu dinləyənlərdən isə axirətin dərd və bəlaları dəf olar».[2]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Nəql olunmuş rəvayətlərdə Qur᾿anın dəyər və əhəmiyyəti haqda nə deyilir?
2. Qur᾿anın tilavəti nə kimi mə᾿nəvi nəticələr verir?
3. Qur᾿anı öyrənib tə᾿lim etmək nə kimi nəticələr verir?
4. Nəql olunmuş rəvayətlərdə Qur᾿anı dinləyənlərə hansı mükafatlar nəzərdə tutulduğundan danışılır?

---

[1] Mizanul-hikmət, bab-3314. Kənzül-ümmal, 2316-cı xəbər.

[2] Mizanul-hikmət, bab-3314.

## ƏLLİ ALTINCI DƏRS

## *QUR`ANIN OXUNUŞ QAYDALARI*

Qur`an, Allah kəlamı olduğu üçün bir çox xüsusiyyətləri ilə digər kitablardan fərqlənir. Bu səbəbdən də Qur`an oxuyan hər bir şəxs bir sıra qanun və qaydalara riayət etməlidir. Bu qaydalardan bə`ziləri Qur`ana hörmət və ehtiram, bə`ziləri də qarilərin Qur`anın mə`na və məfhumunun dərk etməsi üçün nəzərdə tutulmuşdur. Bu dərsimizdə onlardan bə`ziləri haqda söhbət açacağıq.

## *QARİLƏRİN ƏDƏB QAYDALARI*

Yaxşı olar qarilər özlərindən yaşca böyük olan şəxslərə hörmət və ehtiramla yanaşdıqları kimi, Qur`an oxuduqları zaman da təharətə (təmizliyə) tam şəkildə riayət edib dəstəmaz aldıqdan sonra Qur`an oxumağa başlasınlar. İstər ayaq üstə, istərsə də oturduğu vəziyyətdə Qur`anın qarşısında son dərəcə təvazökar olmağa çalışsınlar. Uzanan halda və ya ayaqları uzadan halda, ümumiyyətlə ədəb-ərkandan uzaq olan vəziyyətlərdə Qur`an oxumaqdan çəkinib daim dişlərini yumağa cəhd etsinlər.

Peyğəmbər (s) buyurur:

«Həqiqətən sizin ağzınız Qur`anın yoludur; onu yumaqla pak saxlayın.»[1]

## *QİRAƏT OLUNAN YERLƏR*

Hamam, ayaq yolu, ümumiyyətlə hörmətsizliyə səbəb olan yerlərdə Qur`an oxunmamalıdır. Məscid, ziyarətgah və bu kimi müqəddəs yerlərdə isə Qur`an oxunmasına tə`kid olunmuşdur. Eyni zamanda evlərdə də Qur`anın qiraət olunmasına xüsusi diqqət yetirilməlidir. Bu məzmunda Peyğəmbərdən (s) nəql olunmuş rəvayətdə deyilir:

«Evlərinizi Qur`an nuru ilə münəvvər edin; yəhudi və məsihilər təkcə kilsə və mə`bədlərdə ibadət edib evlərinizi qəbristanlığa çevirməyin. Qur`an oxunan evlərdə xeyir bərəkət artar və ev sahibləri səadət və xoşbəxtçilik içində yaşayarlar. Ulduzlar yerə işıq saçdığı kimi, həmin evlər də səma sakinlərinə nur saçar.»

Əli (ə) buyurur:

«Qur`an oxunub, Allah zikr olunan evlərdə xeyir-bərəkət artar və mələklərin daimi məskəninə çevrilər. Şeytanlar isə həmin evlərdən uzaq olarlar. Ulduzlar yer sakinlərinə nur saçdığı kimi, Qur`an oxunan evlər də nur kimi işıq saçar. Qur`an oxunmayan evlərdən isə xeyir-bərəkət azalar, mələklər oranı tərk edər, Şeytanlar isə oranı özlərinə məskən seçərlər».[2]

---

[1] Biharul-ənvar, 92-ci cild, bab-26.

[2] Üsuli-kafi, 2-ci cild.

## *QİRAƏTİN MİQDARI*

Nəql olunmuş rəvayətlərdə gün ərzində ən azı əlli ayə oxunulması tövsiyə olunur. İmam Sadiq (ə) buyurur:

«Qur᾽an, Allahla insanlar arasında bağlanan əhd-peymandır. Bunun üçün də hər bir müsəlman bu əhd-peymana sadiq qalmalı və hər gün ondan əlli ayə oxumalıdır».[1]

Səhabələrdən biri imam Sadiq (ə)-dan soruşur: «Qur᾽anı bir gündə xətm etmək olarmı?» İmam Sadiq (ə) həmin şəxsin cavabında buyurur: «Bir aydan az vaxtda xətm etməyini məsləhət görməzdim».[2]

Təbii ki, Qur᾽anı bir gün ərzində xətm edən şəxslər onun mə᾽na və məfhumunu olduğu kimi dərk etməyəcəklər. Peyğəmbərdən (s) nəql olunmuş rəvayətdə deyilir:

«Qur᾽anı üç gündən tez xətm edənlər onu dərk etməyəcəklər.»[3]

## *ŞEYTANI LƏ᾽NƏTLƏMƏK VƏ ALLAHIN ADINI ÇƏKMƏK*

Qur᾽an oxunuşunda riayət olunması lazım olan şeylərdən biri də qarinin tilavət etməzdən əvvəl Şeytanı lə᾽nətləyib (Əuzu billahi minəşşəytanir-rəcim) Allahın adını çəkməsidir (Bismillahir rəhmanir rəhim). Nəhl surəsinin 98-ci ayəsində deyilir:

***«[Ya Məhəmməd!] Qur᾽an oxumaq istədiyin zaman məl᾽un Şeytandan Allaha sığın! [Əuzu billahi minəşşəytanir-rəcim sözlərini de!]»***

Şeytanı lə᾽nətlədikdən sonra isə Bismillahir-rəhmanir-rəhim deyərək Allahın adı çəkilməlidir. İmam Cə᾽fər Sadiq (ə) buyurur: «Günah qapılarını Şeytanı lə᾽nətləməklə bağlayın, Allaha itaət qapılarını isə Onun adını zikr etməklə açın.»[4]

## *TƏRTİL*

Allah-taala Muzzəmmil surəsinin 4-cü ayəsində buyurur:

***«...Həm də aramla, ağır-ağır Qur᾽an oxu!»***

İmam Sadiq (ə)-dan ayənin izahı haqda soruşduqda buyurur: «Əmirəl-mö᾽minin (ə) bu haqda buyurmuşdur: Yə᾽ni, Qur᾽an oxuyarkən şe᾽r kimi sür᾽ətlə və qısa ifadələr tək pərakəndə deyil, kəlmələri açıq aşkar bəyan edin. Daşlaşmış qəlblərinizi Qur᾽an sədası ilə qorxuya salın və tələm-tələsik surəni başa vurmağa çalışmayın».[5]

Yə᾽ni, Qur᾽an sür᾽ətlə oxunmamalı, lazımı yerlərdə dayanılıb mə᾽na və məfhumuna diqqət yetirilməlidir.

---

[1] Üsuli-kafi, 2-ci cild.
[2] Həmən mənbə.
[3] Sünəni ibni Macə, 1347-xəbər.
[4] Biharul-ənvar, 92-ci cild, bab-26.
[5] Həmən mənbə.

## *GÖZƏL AVAZ*

Yaxşı olar ki, qarilər Qur᾽anı gözəl və ürəyə yatımlı səslə oxusunlar.

Peyğəmbər (s) buyurur:

«Qur᾽ana gözəl avazla zinət verin».[1]

«Həqiqətən gözəl səs Qur᾽anın zinətidir».[2]

«Hər şeyin bir zinəti vardır, Qur᾽anın da zinəti gözəl avazdır».[3]

## *MƏLAHƏTLİ SƏS VƏ TƏVAZÖKARLIQ*

Yaxşı olar ki, qarilər Qur᾽an oxuyarkən onun əzəmətinin qarşısında kiçilib həzin səslə oxusunlar. Belə olduqda ayələrin mə᾽naları qəlbə daha tez yol tapır və insanın mə᾽nən saflaşaraq ilahi göstərişlərə tabe olmasına köməklik edir.

Hədid surəsinin 16-cı ayəsində deyilir:

***«İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan [Qur᾽an] üçün yumşalması vaxtı gəlib çatmadımı?...»***

Peyğəmbər (s) buyurur:

«Qur᾽anı həzin səslə oxuyun, çünki o həzin olaraq nazil olmuşdur».[4]

## *DÜŞÜNCƏ*

Qarinin üzərinə düşən ən başlıca vəzifələrdən biri də ayələrin mə᾽na və məfhumunu dərk etməsidir. Çünki, Qur᾽an oxumaqdan əsas məqsəd, əxlaq və hidayət xarakterli ayələrdən düzgün nəticə əldə etmək və onları əməli olaraq həyata keçirməkdir. Bunun üçün də qarilər Qur᾽an tilavət edərkən ayələrin mə᾽na və məfhumuna diqqət yetirməli, ayələrin mə᾽nasını dərk etmədikdə isə təfsir kitablarına və təfsirçilərin irəli sürdükləri fərziyyələrə müraciət etməlidirlər.

Allah-taala Sad surəsinin 29-cu ayəsində buyurur:

***«[Ya Peyğəmbər! Bu Qur᾽an] sənə nazil etdiyimiz mübarək [xeyir-bərəkətli] bir kitabdır ki, [insanlar] onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də [ondan] ibrət alsınlar».***

Başqa bir ayədə buyurulur:

***«Onlar Qur᾽an barəsində düşünməzlərmi? Yoxsa ürəklərinə kilid vurulmuşdur?...»***[5]

Əli (ə) buyurur:

«Bilin ki, qiraət edərkən ayələrin mə᾽na və məfhumunu dərk etmədikdə heç bir xeyir əldə etmək olmaz».[6]

---

[1] Sünəni Darmi, 2-ci cild.
[2] Biharul-ənvar, 92-ci cild, bab-21.
[3] Həmən mənbə.
[4] Kənzül-ümmal, 2777-ci xəbər.
[5] Məhəmməd-24.
[6] Biharul-ənvar, 92-ci cild, bab-26.

## *KİTABI [QURʾANI] ÜZÜNDƏN OXUMALI*

Qurʾan oxuyan hər bir şəxs tilavət etdiyi surə, ayə və yaxud bütün Qurʾanı əzbər bilsə belə yaxşı olar ki, onu əzbərdən deyil, Qurʾana nəzər salaraq oxusun. Belə ki, nəql olunmuş rəvayətlərdə Qurʾanın üzündən oxunuşunun özünün ibadət olduğu göstərilir. İmam Cəʾfər Sadiq (ə)-ın səhabələrindən biri deyir: İmam Cəʾfər Sadiq (ə)-a dedim: Qurʾanı əzbər bilirəm, onu əzbərdən oxusam yaxşı olar, ya baxaraq?

Buyurdu: «Qurʾanı baxaraq oxusan daha yaxşı olar. Məgər bilməyirsənmi ki, Qurʾana baxmaq özü bir ibadətdir?!»

## ***SUALLAR VƏ TAPŞIRIQLAR***

1. Qurʾan oxuyan şəxs qiraət zamanı hansı hisslər keçirməlidir?
2. Qurʾan hansı yerlərdə oxunmalıdır?
3. Gün ərzində ən azı neçə ayə oxunmalıdır?
4. Tərtil nə deməkdir?
5. Qurʾanın məʾna və məfhumunu dərk etməyin əhəmiyyətini bəyan edin.

## ƏLLİ YEDDİNCİ DƏRS

## *DUA VƏ ZİYARƏTİN ƏHƏMİYYƏTİ*

Bu dərsimizdə hər şeydən əvvəl aşağıdakı suala cavab tapmaq istəyirik:

İnsanın Allah dərgahına üz tutub, dua edib ehtiyaclarını diləməsi islam dinində nə kimi əhəmiyyət kəsb edir?

Belə bir tanışlıqdan sonra duanın dəyər və fəziləti haqda söhbət açacaq, daha sonra müqəddəs övliyaların sağ olduqları zaman və dünyalarını dəyişdikdən sonra qəbirlərinin ziyarət olunması haqda danışacağıq.

### *DUA*

Allah dərgahında edilən duaların nə kimi əhəmiyyət kəsb etdiyini bilmək üçün, hər şeydən əvvəl bu məzmunda nəql olunmuş bir neçə hədisə diqqət yetirək.

Peyğəmbər (s) buyurur:

«Dua ibadətin cövhəridir. Onunla kimsə çətinliyə düçar olmur».[1]

Başqa bir hədisdə buyurur:

«Duanı tərk etmək Allaha itaətsizlik deməkdir».[2]

Əli (ə) buyurur:

«Allah dərgahında gördükləri işlərin ən sevimlisi insanların dua etmələridir.»[3]

İmam Məhəmməd Baqir (ə) buyurur:

«Mənə ibadət etməyi öz qürurlarına sığışdırmayanlar Cəhənnəmə zəlil olduqları halda girəcəklər» ayəsindən məqsəd ibadətdir və dua ibadətlərin ən yaxşısıdır».[4]

İmam Məhəmməd Baqir (ə)-ın səhabələrindən biri ondan soruşur: «İbadətin daha fəzilətlisi hansıdır?» Buyurur: «Allah dərgahında duadan daha fəzilətli ibadət yoxdur, ən mənfuru isə Ona qarşı təkəbbürlü olub ehtiyacların Onun dərgahından dilənilməməsidir.»[5]

Mə'sum imamların (ə) kəlamlarından belə bir qənatə gəlmək olur ki, duanın islam dinində xüsusi yeri vardır. Çünki, insan xilqətində olan ilahi istək və iradə onun səadət və kamala çatmasından irəli gəlir. Bu isə yalnız Allaha saf niyyətli ibadətlə mümkündür. Allah-taala Qur'ani-kərimdə buyurur:

***«Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!»***

Bir qədər əvvəldə bunun şahidi olduq ki, Peyğəmbər (s) duanı ibadətin cövhəri və islam dininin ayrılmaz bir hissəsi hesab etmişdir.

Ümumiyyətlə, insan kiməsə ehtiyac duyduqda istək və ehtiyaclarını tə'min etmək üçün ona üz tutur, ehtiyac duymadıqda isə təbii ki, ehtiyaclarının tə'min

---

[1] Biharul-ənvar, 93-cü cild, bab-16.
[2] Mizanul-hikmət, bab-1189.
[3] Üsuli-kafi, 2-ci cild.
[4] Həmən mənbə.
[5] Həmən mənbə.

olunması heç bir məʾna kəsb etməyəcəkdir. Bunun üçün də insan bilməlidir ki, o bir varlıq kimi tamamilə Allaha möhtacdır. Onun ixtiyarında mövcud olan və ehtiyac duyduğu bütün şeylər Allahın əlindədir. Fatir surəsinin 15-ci ayəsində deyilir:

***«Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə [heç nəyə, o cümlədən sizin ibadətinizə] möhtac deyildir və hər cür şükrə, təʾrifə layiqdir!...»***

İnsan bu həqiqəti dərk etdiyi andan Allaha üz tutur və Ona möhtac olduğunu iqrar edir. Allaha möhtac olduğuna inanmadıqda isə, qürur hissi onu Allaha ibadət etməkdən çəkindirir. Bunun üçün də Allah-taala Ğafir surəsinin 60-cı ayəsində bu kimi şəxslərin Cəhənnəm əzabına düçar olacaqlarını belə bəyan edir:

***«Rəbbiniz buyurdu: Mənə dua edin. Mən də sizin dualarınızı qəbul edim! Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar Cəhənnəmə zəlil olaraq girəcəklər!»***

Yəʾni, əgər Allah dərgahına dua etmirsinizsə, bu sizin özünüzü Ondan ehtiyacsız hiss etmənizdən irəli gəlir. Buna da səbəb olan sizin qürur və təkəbbürünüzdür.

Allah-taala Qurʾani-kərimin bir çox ayələrində insanların Onun dərgahına üz tutub dua etmələrini əmr edir. Əʾraf surəsinin 56-cı ayəsində deyilir:

***«...Allaha həm qorxu, həm də istəklə [ümidlə] dua edin. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə çox yaxındır».***

Ğafir surəsinin 14 və 60-cı ayələrində də deyilir:

***«...Allaha, dini yalnız Ona aid edərək ibadət edin».***

***«Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! [Məni çağırın, harayınıza yetişərəm, yaxud yalnız Mənə ibadət edin, sizi mükafatlandıraram!] Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlr Cəhənnəmə zəlil olaraq girəcəklər».***

Peyğəmbər (s) duanın tərk olunmasını Allaha itaətsizlik hesab edir. Çünki, Allah-taala insanları dua etməyə əmr etdikdə onun ibadətlə bərabər olduğunu bildirmiş, əmrə itaətsizliyi isə «təkəbbürlük» adlandırmışdır. Deməк, duanın tərk olunması Allaha itaətsizlik, Onun dərgahına üz tutaraq təvazökarlıqla istək və hacətlərin dilənməsi isə həqiqi itaət nişanələrindəndir. Bu səbəbdən də Allah-taala Özünün yaxşı bəndələrini belə vəsf edir:

***«Onlar ibadət üçün yataqlarından qalxar [gecələr az yatar], qorxu və ümid içində [Allahın əzabından qorxaraq, mərhəmətinə ümid bəsləyərək] Rəbbinə dua edər...»***

Həmçinin Allah-taala həzrət Zəkəriyyə və onun ailəsini belə vəsf edir:

***«...Rəğbət və qorxu ilə [rəhmətimizə ümid bəsləyib əzabımızdan qorxaraq] Bizə ibadət edərdilər. Onlar Bizə mütʾi idilər».[1]***

[1] Ənbiya-90.

## *DUANIN İSLAM NÖQTEYİ-NƏZƏRİNDƏN DƏYƏR VƏ ƏHƏMİYYƏTİ*

Peyğəmbər (s) buyurur:

«Dua mö᾽minin silahı, dinin sütunu, yer və göylərin nurudur».[1]

«Allahın qəza-qədərini duadan savayı heç bir şey qaytarmır».[2]

«Xəstələrinizi sədəqə verməklə sağaldın, dərd-bəlaların qapılarını isə dua etməklə bağlayın».

«Allah dərgahında duadan əziz şey yoxdur».[3]

Əli (ə) buyurur: «Allahın agah bəndələri o kəslərdirlər ki, Allaha çox dua etsinlər».[4]

«Dua, Rəhmət qapılarının açarı, zülmət aləminin nurudur».[5]

İmam Sadiq (ə) buyurur:

«Dua bütün dərd və bəlaların şəfası olduğu üçün sizlərə bunu tövsiyə edirəm».[6]

Başqa bir hədisdə buyurur:

«Dua nizədən daha kəsərlidir».[7]

## *MÜQƏDDƏS ÖVLİYALARIN ZİYARƏTİ*

İnsanlar özlərinin ictimai həyatlarında vaxtaşırı bir-birləri ilə görüşür və səmimi ictimai əlaqələr bərqərar edirlər. Bütün bunlar onların qarşılıqlı dostluq və mehr-məhəbbətindən irəli gəlir. Bir-birlərinin görüşünə gedən insanlar, biri digərinə öz istək və qayğısını bildirir və beləliklə, onların arasında sinfi və ya siyasi, fikir və həmkarlıq münasibətləri bərqərar olunur. Eyni zamanda müxtəlif qrup və təşkilatlar halında bir-birləri ilə görüşlər keçirir və qarşılıqlı olaraq özlərinin maddi-mə᾽nəvi ehtiyaclarını tə᾽min edirlər. Ümumiyyətlə, insanların bir-birləri ilə görüş keçirmələri üç əsas məqsəd daşıyır:

1. Məhəbbət, ünsiyyət və dostluq münasibətlərin genişlənməsi;
2. Fikri, sinfi və sair əlaqələrin bərqərar olunması;
3. Maddi-mə᾽nəvi faydalar.

Bu kimi əlaqələr din alimləri arasında da mövcuddur, çünki onlar cəmiyyətin dini əsaslarına yiyələnən ən qabaqcıl təbəqədir və belə bir mə᾽nəvi əlaqə bərqərar olduğu üçün onlar Allaha yaxın olan kəslərdir. Camaat onlarla ünsiyyətdə olmaqla dinə olan rəğbət hisslərini və din alimləri ilə yaratdıqları həmrə᾽yliyi büruzə vermiş və bununla da öz mə᾽nəvi ehtiyaclarını aradan qaldırmış olurlar.

Bu kimi əlaqələrin bərqərar olunması islam mədəniyyətində «Ziyarət» adlanır. Bütün əsr və dövrlərdə din alimlərinin və müqəddəs övliyaların ziyarəti lazım və

[1] Üsuli-kafi, 2-ci cild.
[2] Biharul-ənvar, 93-cü cild, bab-16.
[3] Biharul-ənvar, 93-cü cild, bab-16.
[4] Ğürərül-hikəm.
[5] Biharul-ənvar, 93-cü cild, bab-16.
[6] Biharul-ənvar, 93-cü cild, bab-16.
[7] Həmən mənbə.

müstəhəb əməllərdən olsa da, Peyğəmbərin (s) və Mə᾽sum imamların (ə) ziyarəti daim daha böyük əhəmiyyət kəsb etmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, onların sağlığında yaşayan şəxslər, keçirdikləri görüşlərdən mə᾽nəvi yüksəlişə nail olmuşlar. Sonrakı dövrlərdə yaşayan müsəlmanlara isə bu, onların qəbrlərini ziyarət etməklə müyəssər olmuşdur. Nəql olunmuş bir çox rəvayət və hədislərdə bu məsələyə xüsusi diqqət yetirilmiş və müsəlmanlara bu müqəddəs ziyarətgahları ziyarət etmələrinə dəyərli tövsiyələr edilmişdir. Bu məzmunda hədislərin bir qismini nəzərdən keçiririk:

Peyğəmbər (s) buyurur:

«Sağlığımda və vəfat etdikdən sonra məni ziyarət edənləri qiyamət günü şəfaət edərəm».[1]

«Harada olmasına baxmayaraq, kim mənə salam verərsə, mən onun cavabını verərəm. Qəbrimin qarşısında mənə salam verənləri də eşidərəm».[2]

İmam Cə᾽fər Sadiq (ə) buyurur:

«Sizlərdən həccə gedən hər bir şəxs öz əməllərini bizi [Əhli-beyti] ziyarət etməklə başa vursun. Əgər belə edərsə, Həcc ziyarətini təkmil (tamamlamış) olur.»[3]

Bunun üçün də mö᾽minlər harada olurlarsa olsunlar, qəlbən Peyğəmbər (s) və onun Mə᾽sum Əhli-beytinə (ə) bel bağlamalı, onlara olan sevgi və məhəbbətlərini öz sədaqətləri ilə büruzə verməlidirlər. Beləliklə, onlar Allahın ən sevimli övliyalarının sevgi, razılıq və axirət dünyasında verəcəkləri şəfaətə nail olarlar. İlahi övliyalar Allaha hamıdan yaxın və Onun ən sevimli bəndələri olduqları üçün insanlar eyni zamanda onlara təvəssül edərək özlərinin maddi-mə᾽nəvi ehtiyaclarını da tə᾽min edə bilərlər.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Nəql olunmuş hədis və rəvayətlərdə dua nə üçün ibadətin cövhəri hesab olunur?
2. İstək və ehtiyacların büruzə verilməsinin ibadətlə nə kimi bağlılığı vardır?
3. Nəql olunmuş hədislərə diqqət yetirərək duanın verdiyi nəticələri bəyan edin.
4. İnsanın keçirdiyi görüşlər hansı məqsədlər daşıyır?
5. Müqəddəs övliyaların ziyarət olunması nə kimi səmərə verir?

---

[1] Biharul-ənvar, 100-cü cild, bab-4.
[2] Həmən mənbə.
[3] Həmən mənbə.

## ƏLLİ SƏKKİZİNCİ DƏRS

## *DUA VƏ ZİYARƏTİN QAYDALARI*

### *1. DUA*

### *ALLAHI TANIMA*

Dua edən hər bir şəxs Aləmlərin Rəbbi və hər şeyə qadir olan Allaha iman gətirməlidir.

Peyğəmbər (s) bu haqda buyurur:

«Allah-taala buyurur: Kim Məndən bir şey istəsə, xeyir və zərərin Mənim əlimdə olduğunu bilsə, duasını qəbul edərəm».[1]

İmam Kazim (ə) buyurur:

«Səhabələr imam Sadiq (ə)-dan soruşdu: Nə üçün etdiyimiz dualar qəbul olunmur?

İmam (ə) buyurdu: Çünki tanımadığınız şəxsi çağırırsınız!?»[2]

### *2. ALLAHA ÜMİD BƏSLƏMƏLİ*

Bir qədər əvvəl ***«Allaha həm qorxu, həm də istəklə [ümidlə] dua edin»*** ayəsinə işarə etdik.

Yə᾽ni, əgər Allaha ümid bəsləyirsinizsə bilin ki, O, istəklərinizi həyata keçirəcəkdir.

Peyğəmbər (s) buyurur:

«Dualarınızın qəbul olunacağını yəqin etdiyiniz bir halda Allahı çağırın».[3]

İmam Cə᾽fər Sadiq (ə) buyurur:

«Dua etdiyiniz zaman belə güman edin ki, hacətiniz evinizin kənarında hazırdır». (Yə᾽ni qəbul olunacağını yəqin bilin).[4]

### *3. DİGƏR VASİTƏLƏRƏ ÜMİD BƏSLƏMƏMƏLİ*

Dua edən şəxs öz hacətini Allahdan dilədiyi zaman yalnız və yalnız Ona ümidvar olmalı və digər vasitələrə ümid bəsləməməlidir. İmam Cə᾽fər Sadiq (ə) buyurur: «Dualarınızın Allah dərgahında qəbul olunmasını istəyirsinizsə, yalnız Ona ümidvar olun və camaata əsla ümid bəsləməyin».[5]

---

[1] Yənabiul-hikmət, 3377-ci hədis.
[2] Həmən mənbə, 3376-cı hədis.
[3] Yənabiul-hikmət, 3379-cu hədis.
[4] Üsuli-kafi, 2-ci cild.
[5] Həmən mənbə.

## *4. QƏLBİN HÜZURU*

Dua edən hər bir şəxs Allah dərgahına saf niyyətlə üz tutmalı və öz istəklərini səmimi qəlb ilə çatdırmalıdır. İmam Cə᾽fər Sadiq (ə) buyurur: «Allah, qəflət içində olan qəlblərdən duaları qəbul etməz. Elə isə Allah dərgahına dua etdiyiniz zaman qəbul olunacağını yəqin bilin».[1]

## *5. AH-NALƏ*

Dua edərkən insanın Allah qorxusundan ağlayıb ah-nalə etməsi, onun aləmlərin Rəbbinə möhtac olduğuna dəlalət edir. İnsan belə etməklə, tam ciddiliklə istək və arzularını büruzə verə bilər. Demək, dua edən hər bir şəxs öz ehtiyacını Allah dərgahında kiçilərək ürək yanğısı ilə büruzə verməlidir. İmam Cə᾽fər Sadiq (ə) buyurur: Qəlbiniz yumşaldığı zaman dua edin, çünki qəlb saflaşmadan yumşalmır».[2]

## *6. DUALARI ALLAHIN ADI İLƏ BAŞLAMALI*

Peyğəmbər (s) buyurur:

«Allahın adı ilə başlanan dualar rədd olunmur».[3]

Ümumiyyətlə, hər bir müsəlman özünün bütün işlərini Allahın adı ilə başlamalıdır.

## *7. MƏDH [TƏ᾽RİF] VƏ SƏNA*

İnsan dua etməzdən əvvəl Allahı Ona layiq olan adlarla mədh və tə᾽rif etməlidir. İmam Cə᾽fər Sadiq (ə) buyurur:

«Allahı mədh və tə᾽rif etmədən olunan dualar naqis və heç nəticə vermir».[4]

## *8. PEYĞƏMBƏR (S) VƏ ONUN ƏHLİ-BEYTİNƏ SALAVAT VƏ SALAM*

Allahı gözəl adlarla vəsf etdikdən sonra yaxşı olar ki, insan həzrət Məhəmməd (s) və onun Əhli-beytinə salavat və salam göndərsin.

Peyğəmbər (s) buyurur:

«Mənə salavat və salam göndərməniz dualarınızın qəbul və əməllərinizin saflaşmasına səbəb olacaqdır.»[5]

İmam Cə᾽fər Sadiq (ə) buyurur:

«Peyğəmbər (s) və onun Əhli-beytinə salam və salavat göndərməyincə dualarınız Allah dərgahına ucalmır».[1]

---

[1] Həmən mənbə.
[2] Üsuli-kafi, 2-ci cild.
[3] Biharul-ənvar, 93-cü cild, bab-17.
[4] Biharul-ənvar, 93-cü cild, bab-17.
[5] Biharul-ənvar, 94-cü cild, bab-29.

## 9. PEYĞƏMBƏR (S) VƏ ONUN ƏHLİ-BEYTİNƏ TƏVƏSSÜL

Peyğəmbər (s) və onun Mə՚sum Əhli-beyti (ə) Allahla insanlar arasında rəhmət və mərhəmət vasitəsi olduqları üçün, onlar Allah dərgahında şəfaət etməyə ən layiqli şəxslərdir. Mö՚minlər Allah dərgahından öz hacətlərini dilədikləri zaman onların böyüklüyünə and verir və onları özləri ilə Allah arasında şəfaətçi qərar verirlər.

## 10. GÜNAHA İQRAR

İnsan öz istək və hacətlərini diləməzdən əvvəl özünün Allah qarşısında aciz, peşiman və günahkar olduğunu iqrar etməlidir. İmam Cə՚fər Sadiq (ə) buyurur: «And olsun Allaha! Günahını iqrar etməyincə kimsənin günahı bağışlanmır.»[2]

## 11. YEMƏK VƏ MƏ՚NƏVİ PAKLIQ

Allah-taala hədisi-qüdsidə Peyğəmbərə (s) buyurur:

«Sənin vəzifən dua etmək, Mənim üzərimə düşən isə dualarını qəbul etməkdir. Qazancı haram yolla olanlardan başqa, kimsənin duası Məndən gizli qalmır».[3]

Peyğəmbər (s) buyurur:

«Dualarının qəbul olunmasını istəyənlər yemək və qazancını halal yolla əldə etməlidirlər.»[4]

## 12. İSRAR

İnsan dua edərkən öz istək və arzularından tez əl çəkməməli, Allahın rəhmət dərgahından bir an da olsun, ümidini qırmamalıdır. İnsanın bu işdə israr etməsi onun Allaha tam əmin və güvənməsindən xəbər verir. İstək və arzularının qəbul olunmasına ümid bəsləməyənlərin bu soyuq rəftarı, onların Allaha e՚timad etməmələrinə dəlalət edir. Nəql olunmuş bir çox hədis və rəvayətlərdə müsəlmanlara dualarının qəbul olunmasında mümkün qədər çox israr etmələrinə tövsiyə olunur. Peyğəmbər (s) buyurur:

«Həqiqətən dualarının qəbul olunmasında israr edənləri Allah-taala çox sevər».[5]

## 13. DUALAR DƏSTƏ HALINDA OLUNMALI

Yaxşı olar ki, dualar cəm və kütləvi halda olunsun. İmam Cə՚fər Sadiq (ə) buyurur: «Atam (imam Baqir (ə)) kədərli olduğu zaman qadın və uşaqlarını başına yığıb dua edər, onlar da amin deyərdilər».[6]

---

[1] Biharul-ənvar, 93-cü cild, bab-17.
[2] Üsuli-kafi, 2-ci cild.
[3] Yənabiul-hikmət, 3326-cı hədis.
[4] Həmən mənbə, 3397-ci hədis.
[5] Biharul-ənvar, 93-cü cild, bab-16.
[6] Üsuli-kafi, 2-ci cild.

## *14. DUA ƏMƏLLƏ BİRGƏ OLMALIDIR*

Dua etməklə yanaşı, insan daim zəhmətə qatlaşmalı və imkanlarından bacardığı qədər istifadə etməlidir. Əli (ə) bu haqda buyurur:

«Əməlsiz dua kamansız oxa bənzər».[1]

## *15. GƏLİB ÇATAN DUALAR*

Yaxşı olar ki, insan Allah dərgahına üz tutduqda Məʾsum imamlardan (ə) bizlərə gəlib çatmış dualardan istifadə etsin. Ən gözəl ifadələr və ən gözəl diləklər məhz onların etdikləri dua və kəlamlarında nəzərə çarpır. Kumeyl, Səbah, Əbu Həmzə Somali, Şəʾban ayının münacatları və bu kimi dualar hər bir müsəlmanın məʾnəvi saflığına müsbət təʾsir göstərir. Bütün bunlarla yanaşı, insan dua edərkən təharətli olmalı, dəstəmaz alıb üzü qibləyə dayanmalı, zaman və məkanının münasib olub-olmamasına diqqət yetirməlidir.

[1] Nəhcül-bəlağə, 330-cu hikmət.

# ZİYARƏTİN QAYDALARI

## *1. QÜSL VƏ TƏHARƏT*

Müqəddəs övliyaların qəbrini ziyarət etmək istəyən şəxslər yaxşı olar ki, bədən və paltarlarının təmizliyinə diqqət yetirib qüsl alsınlar.

## *2. QİBLƏYƏ TƏRƏF DURMALI*

Ziyarət zamanı yaxşı olar ki, ziyarətçi üzünü qibləyə tərəf tutsun.

## *3. ƏDƏB VƏ EHTİRAM*

Müqəddəs şəxslərin özlərini ziyarət edərkən qarşılarında hörmət və ehtiram göstərildiyi kimi, qəbirlərini ziyarət etdikdə də həmin ehtiramı qoruyub saxlamalı və yüksək əxlaq nümunəsi nümayiş etdirmək lazımdır.

## *4. ZİYARƏTGAHLAR*

Yalnız salam verməklə olsa belə, yaxşı olar ki, rəvayətlərdə qeyd olunan yerlər ziyarət olunsun.

## *5. ZİYARƏT NAMAZI*

Ziyarət etdikdən sonra yaxşı olar ki, ziyarət niyyəti ilə iki rük`ət ziyarət namazı qılınsın. Bunu da qeyd edək ki, ziyarət namazları yalnız Mə`sum imamlar (ə) üçün qılınmalıdır.

## *6. QUR`AN TİLAVƏTİ*

Ziyarət etdikdən sonra yaxşı olar ki, Qur`an oxunub övliyaların ruhuna hədiyyə edilsin.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Edilən dualarda Allahtanıma nə kimi rol oynayır?
2. Dua edərkən insan hansı hissləri keçirməlidir?
3. Dua etdikdə insan nə üçün başqalarından ümidini kəsməlidir?
4. Dua etməzdən əvvəl nə kimi işlər görmək lazımdır?
5. Dua edərkən nə üçün Peyğəmbər (s) və Mə`sum imamlara təvəssül edilməlidir?
6. Nəql olunmuş hədis və rəvayətləri nəzərə alaraq, deyin görək kimlərin duası qəbul olunmur?

## ƏLLİ DOQQUZUNCU DƏRS

### *SƏFƏRDƏN MƏQSƏD VƏ ONUN QOYDUĞU MÜSBƏT NƏTİCƏLƏR*

Səfər bir çox insanların həyatında müxtəlif məqsədlər üçün həyata keçirilir. Məqsədlər müxtəlif olduğu üçün onlardan bə`ziləri faydalı, bə`ziləri isə mənfi xarakter daşıyır. Eyni zamanda bunu bir növ ünsiyyət və əlaqə forması da hesab edə bilərik.

Bu səbəbdən də islam dini bu məsələyə iki yöndən nəzər salır:

1. Şər`i;
2. Əxlaqi.

İslam dini səfərlərin halal və haram olduqlarını və bütün bunları nəzərə alaraq, namaz və orucla bağlı olan məsələlərdə müsəlmanların üzərinə düşən vəzifələri əvvəlcədən müəyyən etmişdir. Lakin əxlaqi nöqteyi-nəzərdən insanın başqaları ilə, xüsusilə yol yoldaşı olduğu şəxslərlə bərqərar etdiyi ictimai əlaqələr, dostluq münasibətləri və səfər boyu riayət edilməsi lazım olan əxlaq normaları haqda dəyərli tövsiyələr edir.

Bu dərsimizdə Mə`sum imamların kəlamlarından istifadə edərək, ilk növbədə edilən səfərlərdən məqsəd, daha sonra verdiyi müsbət nəticələr, növbəti dərsimizdə isə səfər zamanı riayət olunması zəruri olan əxlaq qaydaları haqda söhbət açacağıq.

### *SƏFƏRDƏN MƏQSƏD*

## 1 ELM VƏ TƏHSİL

Müsbət xarakterli səfərlərdən biri də elm və təhsil, xüsusilə ibrət alaraq ilahi nişanələri seyr edib, dini maarif ilə tanışlıq xarakteri daşıyan səfərlərdir. Allah-taala Qur`ani-kərimdə buyurur:

***«[Ya Məhəmməd!] De ki: Yer üzünü gəzib Allahın məxluqatı yaratmağa ilk əvvəldən nə cür başladığına baxın. Sonra da Allah axirət həyatını yaradacaqdır. [Birinci yaradılışdan sonra ikinci yaradılış gələcəkdir]. Allah hər şeyə qadirdir!»***[1]

Başqa bir ayədə buyurulur:

***«Məgər onlar yer üzündə gəzib dolaşmırlarmı ki, düşünən qəlbləri [bəsirət gözləri], eşidən qulaqları olsun?...»***[2]

Göründüyü kimi, Allah-taala keçmiş ümmətlərin itaətsizlik üzündən şəhər, kənd və qəsrlərinin viran olduğunu bəyan etdikdən sonra, Özünün müt`i bəndələrini yer üzünü seyr edərək, özlərindən əvvəlkilərin aqibətindən ibrət

[1] Ənkəbut-20.
[2] Həcc-46.

almalarını əmr edir. Allah-taala Qur᾽ani-kərimin bir neçə ayəsində bu mətləbə işarə edərək buyurur:

***«[Ey müsəlmanlar!] Sizdən əvvəl bir çox vaqiələr [ibrətli əhvalatlar] olub keçmişdir. İndi yer üzünü dolaşıb haqqı təkzib edənlərin aqibətinin necə olduğunu görün.»***[1]

Nəhl surəsinin 36 və Ən᾽am surəsinin 11-ci ayəsi, eləcə də Ğafir-21, Yusif-109, Rum-9, Fatir-44 və Məhəmməd surəsinin 10-cu ayələri həmin mə᾽nanı daşıyır.

Peyğəmbər (s) buyurur:

«Elm və təhsil məqsədilə evindən xaric olan şəxslər qayıdanadək Allah yolunda olarlar».[2]

Başqa bir yerdə buyurur:

«Allah elmə yiyələnmək ümidi ilə səfərə çıxan şəxsləri cənnətə aparan yollara yönəldər».[3]

## 2. DİNİN QORUNMASI

Tarix boyu mö᾽minlərdən bir çoxu yaşadıqları yerlərdə zalım və sitəmkarların zülmündən yaxa qurtarıb din və əqidələrini qorusunlar deyə, öz vətənlərini tərk etmiş və müxtəlif məntəqələrdə sakin olmuşlar. İslam nöqteyi-nəzərindən bu, səfər etməkdən ən gözəl məqsəd və «hicrətin» ən başlıca nümunəsi hesab olunur.

Allah-taala Qur᾽ani-kərimdə sitəmkarların zülmləri nəticəsində din və əqidələrindən əl çəkmiş zəif iradəli insanları danlaq atəşinə tutaraq buyurur:

***«Mələklər öz nəfslərinə zülm edənlərin canlarını alarkən [onlara] deyəcəklər: Siz [hicrət zamanı] nə vəziyyətdə idiniz? Onlar söyləyəcəklər: Biz yer üzündə zəif [aciz] kəslər idik! [Mələklər də onlara]: Allahın torpağı geniş deyilmidi ki, siz də hicrət edəydiniz? –deyəcəklər...»***[4]

Bir çox ayələrdə isə Allah-taala Öz doğma yurd-yuvalarını tərk etmiş sadiq mö᾽minlərə böyük mükafatlar və᾽d edərək buyurur:

***«Allah yolunda hicrət edən şəxs yer üzündə çoxlu sığınacaq və genişlik [bolluq] tapar. Kim evindən çıxıb Allaha və Onun Peyğəmbərinə tərəf hicrət etsə, sonra isə [mənzil başına çatmadan] ölüm onu haqlasa, həmin şəxsin mükafatını Allah Özü verər..»***[5]

## 3. HƏCC VƏ ZİYARƏT

Səhhət və maddi vəziyyəti imkan verən şəxslər ömürlərində bir dəfə Kə᾽bə evinə gələrək Həcc ziyarətini yerinə yetirməlidir. Həmçinin maddi vəziyyəti imkan verdiyi təqdirdə, Peyğəmbəri (s) və Mə᾽sum imamları (ə) ziyarət etməlidir.

---

[1] Ali-imran-137.
[2] Sünəni Termezi, 10-cu cild.
[3] Sünəni Əbu Davud, 2-ci cild.
[4] Nisa -97.
[5] Nisa-100.

Həcc ziyarəti məqsədilə edilən səfərlər insan məʾnəviyyatına olduqca böyük təʾsir bağışlayır.

## *4. QAZANC*

İslam dininin tövsiyə etdiyi xoş məramlı səfərlərdən biri də ehtiyaclarını ödənilməsi üçün qazanc məqsədli edilən səfərlərdir.

İmam Sadiq (ə) buyurur:

«Həzrət Davuda nazil olmuş hikmətlə dolu olan nidalardan birində deyilirdi:

«İnsan öz yurd yuvasını yalnız üç halda tərk etməlidir: 1. Axirət dünyası üçün Allah rizası qazanmaq; 2. Maddi ehtiyacları təʾmin etmək; 3. Haram olmayan dünyəvi ləzzətlərdən bəhrələnmək.»[1]

## *SƏFƏRİN VERDİYİ MÜSBƏT NƏTİCƏLƏR*

Peyğəmbər (s) buyurur:

«Səfərə çıxın ki, daim özünüzü yüksək əhval-ruhiyyəli hiss edəsiniz, səfərə çıxın ki, gördüyünüz yerlərdən bəhrələnəsiziniz.»[2]

«Səfərə çıxın ki, var-dövlət əldə etməsəniz də, dünya görüşünüz artsın.»[3]

«Səfərə çıxın ki, bədəniniz sağlam, ruziniz də bol olsun».[4]

Əli (ə) səfərin beş müsbət nəticə verdiyini hesab edir:

1. Gəzinti, istirahət və məʾnəvi rahatlıq;
2. Maddi ehtiyacların təʾmin olunması;
3. Elmə yiyələnmək;
4. Əxlaq və müxtəlif adət-ənʾənələrlə tanışlıq;
5. Böyüklərlə ünsiyyət.

Demək, səfər insanların həm məʾnəvi, həm də maddi inkişafına səbəb olur. Belə ki, müxtəlif ölkə və şəhərləri seyr etməklə insan bir çox adət-ənʾənələrlə tanış olur, onlarla maddi mənafeyinə müsbət təʾsir göstərəcək ictimai, siyasi, mədəni, ticarət və s. əlaqələr qurur. Bunu da qeyd edək ki, tarix boyu müsəlmanlar öz yurd və yuvalarını məcburi olaraq tərk etməklə hicrət etdikləri məntəqələrin əhalisini islam din və mədəniyyəti ilə tanış etmiş və onların böyük bir hissəsini islama dəʾvət etməyə nail olmuşlar. Nəticədə böyük ölkə və şəhərlərin əhalisi islamı qəbul edərək islam ölkələrinin əsasını qoymuşlar.

---

[1] Məkarimul-əxlaq, Təbərsi.
[2] Biharul-ənvar, 76-cı cild, bab-45.
[3] Məkarimul-əxlaq, Təbərsi.
[4] Kənzül-ümmal, 17469-cu xəbər.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

1. Dini tə`limlərlə tanış olmaq məqsədilə edilən səfərlər hansı yönümlərdə həyata keçirilməlidir?

2. Qur`ani-kərim hansı səfərləri tövsiyə edir?

3. Allah-taala Qur`ani-kərimdə zalımların təzyiqinə mə`ruz qalmış və onların zülmünə dözərək öz vətənlərini tərk etməyənlərə qarşı necə münasibət bəsləyir?

4. İmam Sadiq (ə)-dan nəql olunmuş hədisə istinad etməklə,_hansı hallarda hicrət etməyin zəruri olmasını bəyan edin.

5. Səfərin verdiyi müsbət nəticələri bəyan edin.

## ALTMIŞINCI DƏRS

## *SƏFƏR ZAMANI RİAYƏT OLUNAN QAYDA-QANUNLAR*

Səfər tədarükü görən hər bir şəxs səfərə çıxmazdan əvvəl yol yoldaşı ilə əlaqəli olan bir neçə məsələyə diqqət yetirməlidir:

### *1. YOL YOLDAŞININ SEÇİLMƏSİ*

Səfərə çıxan hər bir şəxs səfərin həm maraqlı, həm də təhlükəsiz olması üçün özünə yol yoldaşı seçməlidir. Beləliklə o, özünə həm köməkçi, həm də yeni yoldaş qazanmış olur. İmam Cə᾽fər Sadiq (ə) buyurur: «Peyğəmbər (s) buyurardı: İnsanların ən pisinin kim olduğunu bilmək istəyirsinizmi?» Dedilər: Bəli, ey Allahın peyğəmbəri. Buyurdu: «O kəsdir ki, yola tək çıxmış, yoldaşlarından öz köməyini əsirgəmiş və öz xidmətçiləri ilə kobud davranmış olsun».[1]

Başqa bir hədisdə buyurur:

«Peyğəmbər (s) bu üç şəxsi lə᾽nətləyərdi: Yol azuqəsini tək yeyənləri, evdə tək yatanları və səhrada tək səfərə çıxanları».[2]

Peyğəmbər (s) buyurur:

«Əvvəl yol yoldaşını seçin, sonra səfərə çıxın».[3]

Eyni zamanda yol yoldaşının kimliyinə diqqət yetirilməli, səfərə münasib şəxslər seçilməlidir. Çünki qarşılıqlı tə᾽sir qoyma hallarından biri də səfər zamanı yol yoldaşları ilə bərqərar olunan yoldaşlıq münasibətlərindən irəli gəlir. Bunun üçün də səfər zamanı xoş tə᾽sir bağışlayan şəxslərlə yol yoldaşı olmaq lazımdır.

Həzrət Əli (ə) buyurur:

«Hörmətlə yanaşdığınız, lakin sizə qarşı həmin münasibəti bəsləməyənlərlə yol yoldaşı olmayın».[4]

### *2. HAQLARIN ÖDƏNİLMƏSİ*

Səfərə çıxmazdan əvvəl hər bir şəxs ailə üzvlərinin və ya himayəsində olan şəxslərin maddi tələbatını ödəməli, borclu olduğu şəxslərə öz borcunu qaytarmalı, buna imkanı olmadığı təqdirdə isə, bu işə öz yaxınlarını vəsiyyət etməlidir.

Eyni zamanda bu işə ilahi hökmlərin icrasında da böyük diqqət yetirmək lazımdır.

---

[1] Mən la yəhziruhul fəqih.
[2] Həmən mənbə.
[3] Biharul-ənvar, 76-cı cild, bab-49.
[4] Mən la yəhzəruhul fəqih.

## *3. YOL AZUQƏSİ*

Yola çıxmazdan əvvəl səfər boyu istifadə olunacaq yemək-içmək azuqəsi tədarük görmək lazımdır. Əks təqdirdə, səfər olduqca məşəqqətli və başqalarının narahatçılığına səbəb olacaqdır.

Peyğəmbər (s) buyurur:

«İnsanın şərəf və böyüklüyünə dəlalət edən şeylərdən biri də səfər zamanı yola azuqə götürməsidir».[1]

Başqa bir hədisdə buyurur:

«Sünnəmdən biri də cəm halda səfərə çıxarkən müsafirlərin hər biri öz xərcini əvvəlcədən ayırmasıdır. Çünki bu, hər bir insana ucalıq və şərəf nəsib edir».[2]

Yə᾽ni, müsafirlərin hər biri bərabər olaraq yol xərclərini öz aralarında bölməli və beləliklə həm yol xərci az olan şəxslərin təhqir olmasına, həm də başqalarının onun xərcini ödəməyə yol verməməlidir. Belə bir şəraitdə müsafirlər yüksək əxlaqa malik olacaqlar.

## *4. ZİKR VƏ DUA*

Yaxşı olar ki, müsafirlər yola çıxmazdan əvvəl Allahın adını zikr edib öz səfərlərini Qur᾽an, ayətəl-kürsi və ya Mə᾽sum imamlardan (ə) nəql olunmuş dualarla başlasınlar.

Nəql olunmuş rəvayətlərdən birində səfər zamanı imam Sadiq (ə)-ın bu duanı oxuduğu göstərilir:

«İlahi! Yolumuzu uğurlu və asan et və sağlamlığımızı daha da artır».[3]

Başqa bir rəvayətdə deyilir: İmam Sadiq (ə) hər hansı bir işə başlamazdan əvvəl bu ayəni oxuyardı:

***«...Bunları bizə ram edən Allah pak və müqəddəsdir! [Əgər Allahın köməyi olmasaydı] bizim onlara gücümüz çatmazdı».[4]***

Daha sonra yeddi dəfə «Subhanəllah», yeddi dəfə «Əlhəmdulillah», yeddi dəfə də «La İlahə İlləllah» deyərdi.

İmam Riza (ə) buyurur:

«İstər səfər üçün, istərsə də adi hallarda evinizdən çıxmaq istərkən deyin: Allahın adı ilə! Allaha iman gətirib Ona arxalandım. Allah necə istəsə, elə də olacaqdır. Ondan böyük və əzəmətli qüdrət sahibi yoxdur».[5]

## *5. SƏDƏQƏ*

İslam dininin tə᾽kidlə tövsiyə etdiyi məsələlərdən biri də səfərin uğurlu keçməsi üçün yola çıxmazdan əvvəl yoxsul və imkansızlara maddi yardımın olunmasıdır. Belə ki, nəql olunmuş bir çox rəvayətlərdə sədəqə verməklə səfər zamanı bir çox təhlükələrin qarşısının alındığı göstərilir.

Peyğəmbər (s) buyurur:

---

[1] Mən la yəhzəruhul fəqih.
[2] Həmən mənbə.
[3] Mən la yəhzəruhul fəqih.
[4] Zuxruf-13.
[5] Mən la yəhzəruhul fəqih.

«Sədəqə bəlaları dəf edir».[1]

«Sədəqə yetmiş növ şər və pisliklərin qapısını bağlayır».

«Sədəqə ən azı cüzam xəstəliyi kimi yetmiş növ dərd bəlanı insandan dəf edir».[2]

«Sədəqə ağır ölümün qarşısını alır».[3]

## *6. ANLAŞIQLIQ*

Səfər zamanı müsafirlər bir-birləri ilə gülərüz və mehribanlıqla davranmalıdırlar. Çünki kobud rəftar, anlaşılmazlıq və qaraqabaqlıq əxlaq normalarına zidd olmaqla yanaşı, səfərin olduqca ağır və dözülməz keçməsinə də səbəb olur.

Peyğəmbər (s) buyurur:

«İki nəfər şəxs bir-birləri ilə həmsöhbət olduğu zaman daha mülayim davranan şəxs daha çox savab qazanaraq Allahın nəzərində daha sevimli olar».[4]

Başqa bir hədisdə buyurur:

«Müsafirlərə xas olan əxlaqi xüsusiyyətlərdən biri də yol azuqəsinin başqalarına verilməsi və yol yoldaşları ilə gözəl davranaraq günaha yol vermədən zarafat etmələridir.»[5]

Əli (ə) buyurur:

«Ədəb və mə᾽rifət sahibi olan müsafirlərə xas olan xüsusiyyətlər bunlardan ibarətdir:

1. Yol azuqəsini başqalarına təklif etmək;
2. Yol yoldaşları ilə az müxalifət etmək;
3. Harada olursa olsun, Allahı yad etmək».

İmam Cə᾽fər Sadiq (ə) buyurur:

«Mürüvvət sahibi müsafirlər bu xüsusiyyətlərə malik olarlar:

1. Yol azuqəsini yol yoldaşlarına təklif etmək;
2. Allahın narazılığına səbəb olan zarafat etməmək;
3. Yol yoldaşları ilə müxalifət etməmək;
4. Ayrıldıqdan sonra yol yoldaşlarına xoşagəlməz sözlər deməmək».[6]

Başqa bir hədisdə buyurur: «Loğman oğluna tövsiyə edərək dedi: «Səfərə çıxdığınız zaman yoldaşlarınla bütün işlərdə məsləhətləş və onlara bolluca sevinc bəxş et. Yol azuqəndən onlara da təklif et, onlar da səni öz süfrələrinə də᾽vət etdikdə də᾽vətlərini qəbul et və səndən kömək istədikdə köməyini onlardan əsirgəmə».[7]

---

[1] Biharul-ənvar, 96-cı cild, bab-14.
[2] Kənzül-ümmal, 15982-ci xəbər.
[3] Biharul-ənvar, 96-cı cild, bab-14.
[4] Vəsailüş-şiə, 8-ci cild.
[5] Biharul-ənvar, 76-cı cild, bab-49.
[6] Vəsailüş-şiə, 8-ci cild.
[7] Həmən mənbə.

## *7. HƏDİYYƏ GƏTİRİLMƏLİ*

Nəql olunmuş rəvayətlərdə el-obasını tərk etmiş müsafirlərə cüzi də olsa, gözü yolda olan ailə üzvləri üçün hədiyyə və sovqatlar gətirmək tövsiyə edilmişdir.

Peyğəmbər (s) buyurur:

«Sizlərdən hər hansı biriniz səfərə çıxdığınız zaman el-obanıza qayıtdıqda qırıq daş parçası olsa belə, ailəniz üçün hədiyyələr gətirin».[1]

Dediklərimizlə yanaşı, müsafirlərin üzərinə müəyyən vəzifələr də düşür. Məsələn, yola düşməzdən əvvəl iki rük`ət namaz qılıb Allah-taaladan səfərinin uğurlu olmasını diləməlidir. Sonra qohum-əqrəba və dost-tanışları ilə vidalaşıb onlarla halallaşmalıdır. Peyğəmbər (ə) bu haqda buyurur:

«Üç nəfər səfərə çıxdıqda aralarından bir nəfər rəhbər və bələdçi tə`yin olunmalıdır.»[2]

Bunu da qeyd edək ki, karvana rəhbər tə`yin olunan şəxs üzərinə düşən vəzifənin öhdəsindən məs`uliyyətlə gəlməli və ona tabe olan şəxslərin qayğısına qalaraq çətinliklərinin aradan qaldırılmasında əlindən gələni əsirgəməməlidir.

Peyğəmbər (ə) buyurur:

«Hər bir qövm və dəstənin başçısı səfər zamanı onların xidmətçisi olmalıdır.»[3]

[1] Biharul-ənvar, 76-cı cild, bab-52.
[2] Kənzül-ümmal, 7549-cu xəbər.
[3] Mən la yəhzəruhul fəqih.

# MÜNDƏRİCAT

BİRİNCİ DƏRS ... 3
İKİNCİ DƏRS ... 8
ÜÇÜNCÜ DƏRS ... 13
DÖRDÜNCÜ DƏRS ... 18
BEŞİNCİ DƏRS ... 22
ALTINCI DƏRS ... 27
YEDDİNCİ DƏRS ... 32
SƏKKİZİNCİ DƏRS ... 37
DOQQUZUNCU DƏRS ... 41
ONUNCU DƏRS ... 46
ON BİRİNCİ DƏRS ... 51
ON İKİNCİ DƏRS ... 56
ON ÜÇÜNCÜ DƏRS ... 60
ON DÖRDÜNCÜ DƏRS ... 65
ON BEŞİNCİ DƏRS ... 69
ON ALTINCI DƏRS ... 74
ON YEDDİNCİ DƏRS ... 79
ON SƏKKİZİNCİ DƏRS ... 83
ON DOQQUZUNCU DƏRS ... 88
İYİRMİNCİ DƏRS ... 93
İYİRMİ BİRİNCİ DƏRS ... 99
İYİRMİ İKİNCİ DƏRS ... 104
İYİRMİ ÜÇÜNCÜ DƏRS ... 108
İYİRMİ DÖRDÜNCÜ DƏRS ... 113
İYİRMİ BEŞİNCİ DƏRS ... 118
İYİRMİ ALTINCI DƏRS ... 123
İYİRMİ YEDDİNCİ DƏRS ... 128
İYİRMİ SƏKKİZİNCİ DƏRS ... 133
İYİRMİ DOQQUZUNCU DƏRS ... 138
OTUZUNCU DƏRS ... 143
OTUZ BİRİNCİ DƏRS ... 146
OTUZ İKİNCİ DƏRS ... 150
İSLAMDA ELM VƏ ALİMİN DƏYƏRİ ... 150
OTUZ ÜÇÜNCÜ DƏRS ... 154
OTUZ DÖRDÜNCÜ DƏRS ... 158
OTUZ BEŞİNCİ DƏRS ... 162
MÜƏLLİMLƏ ŞAGİRD ARASINDA QARŞILIQLI VƏZİFƏ VƏ MÜNASİBƏTLƏR (2) ... 162
OTUZ ALTİNCİ DƏRS ... 167
OTUZ YEDDİNCİ DƏRS ... 171
MÜƏLLİMİN VƏZİFƏLƏRİ ... 171
OTUZ SƏKKİZİNCİ DƏRS ... 174
OTUZ DOQQUZUNCU DƏRS ... 178
ŞAGİRDLƏRİN ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏR ... 178
QIRXINCI DƏRS ... 182
ŞAGİRDLƏRİN ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏR ... 182
QIRX BİRİNCİ DƏRS ... 185
QIRX İKİNCİ DƏRS ... 189
QIRX ÜÇÜNCÜ DƏRS ... 193
QIRX DÖRDÜNCÜ DƏRS ... 198
QIRX BEŞİNCİ DƏRS ... 203
QIRX ALTINCI DƏRC ... 207
SƏLİQƏ VƏ TƏMİZLİK ... 207

QIRX YEDDİNCİ DƏRS....................................................212
QIRX SƏKKİZİNCİ DƏRS....................................................216
QIRX DOQQUZUNCU DƏRS....................................................219
ƏLLİNCİ DƏRS....................................................223
YEMƏK VƏ İÇMƏYİN QAYDALARI....................................................223
ƏLLİ BİRİNCİ DƏRS....................................................227
ƏLLİ İKİNCİ DƏRS....................................................231
ƏLLİ ÜÇÜNCÜ DƏRS....................................................234
NAMAZIN QAYDALARI....................................................234
ƏLLİ DÖRDÜNCÜ DƏRS....................................................238
ƏLLİ BEŞİNCİ DƏRS....................................................241
ƏLLİ ALTINCI DƏRS....................................................245
ƏLLİ YEDDİNCİ DƏRS....................................................249
ƏLLİ SƏKKİZİNCİ DƏRS....................................................253
ZİYARƏTİN QAYDALARI....................................................257
ƏLLİ DOQQUZUNCU DƏRS....................................................258
1 ELM VƏ TƏHSİL....................................................258
ALTMIŞINCI DƏRS....................................................262